**R.L.HÜSEYNZADƏ**

## QƏDİM VƏ ERKƏN ORTA ƏSRLƏRDƏ

# AZƏRBAYCANDA TƏRBİYƏ, TƏHSİL VƏ PEDAQOJİ FİKİR

NURL
AR
BAKI
-2007

**Elmi redaktor:**
Fərrux Rüstəmov
*Pedaqoji elmlər doktoru, professor*

**Rəyçilər:**
Vəli Əliyev
*Tarix elmləri doktoru, professor AMEA-nın müxbir üzvü*

Əsəd Yəqubi
*professor*

**Redaktor müavini: Nazim Əkbərov**

Kompüter dizayn: Əkrəm Hüseynzadə,
Əmin Hüseynzadə

**Bakı, «NURLAR» Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2007, 336 səh.**

**ISBN: 9952 - 426 - 80 - 1**

**© R.HÜSEYNZADƏ, 2007**
Rüfət Lətif oğlu Hüseynzadə

**QƏDİM VƏ ERKƏN ORTA ƏSRLƏRDƏ AZƏRBAYCANDA TƏRBİYƏ, TƏHSİL VƏ PEDAQOJİ FİKİR**

*Monoqrafiyada ən qədim dövrlərdən başlamış erkən orta əsrlər dövrünə qədər, habelə tədqiqatın tələbi ilə orta əsrlər dövrünə nəzər salmaqla Azərbaycanda tərbiyə, təhsil və pedaqoji fikrin inkişafı məsələləri təhlil edilmişdir. Əsərdə Qobustan qayalarında, Gəmiqayada, Azıx mağarasında və digər tarixi abidələrimiz üzərində həkk olunmuş yazıların, piktoqrafik işarələrin, rəsmlərin, daş kitabələrin pedaqoji fikir tariximizdəki yeri və əhəmiyyəti göstərilmiş, qədim Azərbaycan ərazisində mövcud olmuş ən qədim tayfa birliklərində, feodal dövlətlərində-Aratta, Lullubi, Kutium, daha sonra Manna, Midiya, Albaniya, Atropatena kimi dövlətlərdə, həmçinin Zərdüşt məktəblərində tərbiyə və təhsil, yazı, oxu mədəniyyəti məsələləri şərh edilmişdir.*

*İslamiyyətin ilk dövrlərində Azərbaycanda fəaliyyət göstərmiş kuttablarda, məscid və camilərdə, məktəblərdə, Xanegah, Təkyə və Zaviyələrdə, kitab evləri və kitabxanalarda, mədrəsələrdə təhsil, tərbiyə məsələləri tarixi dövrlər üzrə təhlil edilmiş, bu müəssisələrin pedaqoji fikir tariximizdəki yeri göstərilmişdir.*

*Şəxsiyyətin mənəvi, əxlaqi keyfiyyətlərinin formalaşdırılmasnda, kamil insan tipinin yetişdirilməsində erkən orta əsr mütəfəkkirlərinin pedaqoji ideyaları, xalqımızın qədim ədəbi abidələri olan "Oğuznamə" lərdə, Dədə Qorqud dastanlarında, xalq müdrikliyində öz əksini tapmış dəyərli pedaqoji fikirlərə nəzər yetirilmişdir.*

*XI əsr Azərbaycan pedaqoji fikrində özünəməxsus yer tutmuş Xətib Təbrizi, Qətran Təbrizi, Bəhmənyar kimi mütəfəkkirlərin didaktik fikirləri öyrənilmiş, Farabi, İbn Sina, Mahmud Kaşqarlı, Yusif Xas Hacib, Ədib Əhməd Yüknəki kimi ensiklopedik zəka sahiblərinin Şərqdə və Azərbaycanda pedaqoji fikrin inkişafındakı rolu göstərilmişdir.*

*Əsər ali və orta ixtisas pedaqoji məktəblərimizdə «Azərbaycan məktəb və pedaqoji fikir tarixi» kursunun öyrənilməsində dəyərli mənbədir. Məktəb və pedaqoji fikir tarixi tədqiqatları ilə məşğul olan tədqiqatçılar, elmi işçilər, müəllimlər, tərbiyəçilər, magistr, aspirant və dissertantlar əsərdən faydalana bilələr.*

# M Ü N D Ə R İ C A T


ÖNSÖZ ........................................................................................................9

I. AZƏRB AYCAND A TƏLİM, TƏRBİYƏ VƏ TƏHSİL MƏDƏNİYYƏTITARİXİNƏ BİRBAXIŞ

1. Qədim Azərbaycanda maarif, tərbiyə və təhsil mədəniyyətinə bir nəzər........................................................................................................14

2. Qədim yazılarınuz və onlann pedaqoji fikir tarixində yeri...........36

3. Zərdüşt məktəbləri və «Avesta»da tərbiyə məsələləri ....................44

II. ERKƏN ORTA ƏSRLƏR DÖVRÜNÜN TƏLİM-TƏRBİYƏ MƏDƏNİYYƏTİ VƏ PEDAQOJİ FİKRİ

1. Yeni ......... mənəviyyat və əxlaqa, maarif və mədəniyyətə yürüş 54

2. İslamda tərbiyə məsələlərinə bir baxış ...............................................63

3. Təhsil ocaqları: Suffə, Kuttab, məktəblər, Xanegahlar və Təkyələr, kitab evləri və kitabxanalar, mədrəsələr...............................................97

4. Şərq və Azərbaycan elminin və pedaqoji fikrinin inkişafma türk-islam alimlərinin töhfələri .........................................165

III. PEDAQOJİ FİKRİN İNKİŞAFINDA «OĞUZNAMƏ»LƏR VƏ DƏDƏ QORQUD PEDAQOGİKASI

1. «Oğuznamə»lər və onların pedaqoji əhəmiyyəti ...........................176

2. Dədə Qorqud dastanlannda pedaqoji fikirlər...............................184

**IV. ERKƏN ORTA ƏSRLƏR DÖVRÜNÜN AZƏRBAYCAN POEZİYASINDA, ALİM VƏ ZİYALILARININ ƏSƏRLƏRİNDƏ PEDAQOJİ FİKİRLƏR**

1. Məvali şairlərin əsərlərində pedaqoji ideyalar...............................202
2. Qətran Təbrizinin pedaqoji fikirləri ..............................................228
3. XətibTəbrizinin müəllimlik fəaliyyəti və pedaqoji fikirləri .......239
4. Əbülhəsən Bəhmənyarm yaradıcılığında pedaqoji ideyalar.........................................................................252

**V. ERKƏN ORTA ƏSRLƏRİN ÜMUMTÜRK PEDAQOJİ FİKRİ**

1. Farabinin pedaqoji düşüncələri ......................................................266
2. Yusif Xas Hacib və onun «Qutatqu Bilik» əsərində pedaqoji ideyalar.........................................................................278
3. Əbu Əli İbn Sinanın pedaqoji fikirləri ...........................................288
4. Mahmud Kaşqarlınm «Divanü-Luğat-it türk» əsərində pedaqoji fikirlər ..................................................................301
5. Balasaqunlu Ədib Əhməd Yüknəkinin pedaqoji fikirləri...........312

**SONSÖZ**.......................................................................................319

**İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT** .326

# QƏDİM VƏ ERKƏN ORTA ƏSRLƏRDƏ AZƏRBAYCANDA TƏRBİYƏ, TƏHSİL VƏ PEDAQOJİ FİKİR

## ÖN SÖZ

*Nəslimiz öz milli-mənəvi dəyərlərini öyrəndikcə öz keçmişindən qürur duyur və onlarda öz soyuna, kökünə, millətinə bağlılıq daha da möhkəmlənir.*

**HEYDƏR ƏLİYEV**

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev Azərbaycan Gənclərinin Birinci Ümumrespublika Forumundakı nitqində demişdir: «Xalqımızın tarixinin əsasını təşkil eləyən bütün mərhələlərdə, keçmiş əsrlərdə yüksək mənəviyyat olmuşdur. Keçmiş tariximizdən bizə qalan simaları bu gün dünyada məşhurlaşdıran və bizim üçün nümunə edən onların yüksək mənəviyyatıdır, yüksək amallarıdır... Gənclərimiz milli ruhda tərbiyə olunmalıdır, bizim milli- mənəvi dəyərlərimizin əsasında tərbiyələnməlidir. Gənclərimiz bizim tariximizi yaxşı bilməlidir, keçmişi yaxşı bilməlidir, dilimizi yaxşı bilməlidir, milli dəyərlərimizi yaxşı bilməlidir. Milli dəyərlərimizi, milli ənənələrimizi yaxşı bilməyən, tariximizi yaxşı bilməyən gənc vətənpərvər ola bilməz»(13). Ulu öndərimizin müdrik fikirlərindən irəli gələrək, yetişməkdə olan gənc nəslin milli-mənəvi ruhda tərbiyəsi, təlim və tərbiyə işlərinin milli zəmin üzərində qurulması, tariximizin, mədəniyyətimizin, pedaqoji fikrimizin,

zəngin mənəvi irsimizin öyrənilməsi bu gün daha böyük aktuallıq kəsb edir.

Məktəbimizin və pedaqoji fikrimizin keçmişini öyrənmək, onun hazırkı vəziyyətini də müqayisə edib öyrənməyə kömək edir. Keçmiş irsimizə nəzər saldıqda bu günün nailiyyətlərinin keçmişdən qidalandığını, ondan qüvvət aldığını da görürük. Bu gün müdrikcəsinə deyilmiş bir fikrin keçmiş mütəfəkkirlərimiz tərəfindən bu və ya digər formada deyildiyini də bəzən görmək olur. Keçmişlə müasirliyi düzgün uzlaşdırmadan, onu düzgün dəyərləndirmədən, müqayisə etmədən bu günkü məktəbimizin və pedaqoji fikrimizin səviyyəsini müəyyənləşdirmək çətindir.

Müdriklər yaxşı demişlər ki, keçmişi unutmaq olmaz, çünki o gələcəyin müəllimidir. Böyük demokrat yazıçı Cəlil Məmmədquluzadə deyirdi ki, biz tariximizi ona görə öyrənirik ki, gələcəkdə səhvlər etməyək. Elmimizin bir çox sahələrində gələcək üçün zəmin təşkil edən bu günün ağıllı, qabaqcıl fikirləri keçmişin mütərəqqi irsi ilə sıx bağlıdır. Məktəbin və pedaqoji fikrin keçmişini öyrənmək, onun gələcək perspektivlərini də öyrənməyə kömək edir.

Azərbaycan xalqı, onun mənsub olduğu türk dünyası bəşəriyyətə çox böyük dahilər vermişdir. Onlar dünya elm və mədəniyyətinin inkişafına zəngin mənəvi xəzinə bəxş etmişlər. Onların bir çoxu müxtəlif ölkələrdə-Azərbaycanda, Türküstanda, Ərəbistanda, İranda yaşamış, özlərinə müxtəlif təxəllüslər seçmiş, adlarının əvvəlinə «Əbu», «İbn», «Əl» kimi sözcüklər əlavə etmiş, dövrün tələbinə uyğun olaraq ərəbcə, farsca yazıb yaratmış və ümummüsəlman mədəniyyətinə dəyərli töhfələr vermişlər. Böyük pedaqoq M.T.Sidqi - şəxsi arxivimizdə bu günə qədər qoruyub saxladığımız bir əlyazmasında belə yazırdı: «Qafqazda (Azərbaycanda) və Türküstanda ərəb dili hakim dil olmuşdur. Hətta «Müəllimi-sani» ismi ilə məşhur olan Əbu Nəsr Farabi və birinci hükəmadan sayılan və şeyxi rəis ləqəbi ilə müləqqəb olan Əbu Əli İbn Sina kimi şəxslər türk oğlu türk ola-ola əsərlərini ərəb dilində yazmışlar»(136). Bu səbəbdən də bir çox fikir adamlarımızın ətraflı öyrənilməsində müəyyən çətinliklər yaranmış, bir çoxu başqa millətin nümayəndəsi kimi öyrənilmiş, bir çoxu da heç öyrənilməmişdir. Böyük

türkoloq-alim Bəkir Çobanzadə yazırdı ki, onların əksəriyyəti ərəbcə yazsalar da türk soyundandırlar. Onları yeni düşüncəli tədqiqatçılar, «Yeni qafalar, yorulmaz ürəklər tədqiq edib öyrənməlidirlər» (133,142, 143). Yalnız xalqımızın istiqlaliyyəti, ölkəmizin müstəqilliyi mədəni və mənəvi irsimizi dərindən öyrənməyə, ətraflı tədqiq etməyə imkan yaratmışdır. Şərq ədəbiyyat və mədəniyyətinə dair müəyyən əlyazmalar, qədim kitablar, nadir nüsxələr şəxsi kitabxanasına malik olmağımız o dövrün pedaqoji fikrini, təlim və tərbiyəsini, təhsilini öyrənməyə kömək etmişdir. Bu kitab və əlyazmaların əksəriyyəti bu gün 106 yaşında dünyasını dəyişmiş, "İstiqlal" ordenli əməkdar müəllim, şərqşünas alim, sovetləşmədən öncə ruhani məktəbdə oxumuş, mədrəsə təhsilini görmüş, prezident təqaüdçüsü olmuş atam Lətif Hüseynzadədən qalmışdır. Moskvalı alim görkəmli yazıçı, publisist Viktor Andriyanov "Dəyərli insanların həyatı" seriyasından "Heydər Əliyev" adlı kitabını yazarkən hörmətli şəxs qonağımız olduğu zaman, maraqlı söhbət və xatirələri kitabında əks etdirməklə bərabər, bu kitabxananı da kitabında belə təsvir etdi: Adi Bakı beşmərtəbələrindən biridir. Qapının arxasında səliqə-səhmanlı artırma, iş otağında isə tavana qədər dörd tərəf kitabdır. Burada azərbaycanca, rusca, türkcə, farsca, ərəbcə kitablar və kompyüter vardır...Müsahibim qocaman müəllim Lətif Hüseynzadədir. Onun çox yaxşı, sərrast yaddaşı varmış, hərçənd arabir yaxşı eşitmirdi və bu zaman onun oğlu professor Rüfət dadına çatırdı.

Öz müəlliminin yüz yaşı tamam olanda, yəni, 2003-cü ildə Heydər Əliyev ölkənin ən qocaman pedaqoqu, tanınmış ədəbiyyatşünas alim Lətif müəllimə səmimi təbrik məktubu göndərmiş və müəllimlərdən birinci olaraq onu "İstiqlal" ordeni ilə mükafatlandırmışdı... (105,18). Qədim ərəb və fars mətnlərinin oxunmasında, mollaxana və mədrəsə təhsil sistemini öz gözləri ilə görmüş, orada təhsil almış, onu yaşamış bir şəxsdən ardıcıl məsləhətlər almaq, soruşub öyrənmək, müsahibə və sorğular aparmaq işimizə xeyli kömək etmişdir.

Vəsaitdə ən qədim dövrlərdən başlayaraq orta əsrlər dövrünədək və mövzunun tələbi ilə bəzən bir qədər də sonrakı dövrlərə nəzər salaraq Azərbaycanda təlim-tərbiyə mədəniyyəti, təhsil, pedaqoji

fikir mərhələlərlə öyrənilmiş, araşdırılmış və sistemli şəkildə şərh olunmuşdur.

***

*Professor R.L. Hüseynzadənin müraciət etdiyi mövzu çox aktual və əhəmiyyətlidir. Qədim və orta əsrlər dövrünün tərbiyə və təhsili, pedaqoji fikri tariximizdə az öyrənilmiş bir sahədir. Bu dövrün məktəbi, təhsili və pedaqoji fikri ilə əlaqədar konkret yazılı sənəd, arxiv materialları demək olar ki, yox dərəcəsindədir. Buna baxmayaraq müəllif müəyyən materiallar əldə etmiş, o dövrlə bağlı mənbələrə müraciət etmiş və dəyərli bir əsər ortaya qoymuşdur. Müəllif əsərində ən qədim dövrlərdən başlayaraq Azərbaycanda təlim -tərbiyə mədəniyyətini, təhsil məsələlərini araşdırmış, maraqlı faktlar üzə çıxararaq onları pedaqoji yöndən təhlil etmişdir. Müəllif ilk öncə Qobustan qayalarında, Naxçıvanda Gəmiqaya, Kültəpə və Fərhad evində, Füzuli rayonu ərazisindəki Azıx mağarasında, Cənubi Azərbaycanın Tamtama mağarasında, Qaradağda və digər tarixi yerlərimizdə öz əksini tapmış, qazılımış yazıların, piktoqrafik işarələrin, rəsmlərin, daş kitabələrin pedaqoji fikir tariximizdəki yerini və əhəmiyyətini göstərmiş, qədim Azərbaycan ərazisində mövcud olmuş ən qədim tayfa birliklərində, quldar və feodal dövlətlərində tərbiyə və təhsil, yazı, oxu mədəniyyəti məsələlərini şərh etmişdir. Müəllif əsərində göstərir ki, islamiyyətin yayılmasına qədər Azərbaycanda Zərdüşt məktəbləri geniş fəaliyyət göstərmiş, atəşkədə və atəşgahlar Zərdüştlüyün həm ibadət yeri, həm də təlim, tədris mərkəzləri olmuşdur ki, bunlar da Azərbaycanda məktəb təhsilinin əsasını təşkil etmişdir. Əsərin maraqlı və əhəmiyyətli cəhətlərindən biri budur ki, müəllif islamiyyətin ilk dövrlərində fəaliyyət göstərmiş suffə, kuttab, məscid və camilərdə, məktəb və mədrəsələrdə təhsil, tərbiyə məsələlərini tarixi dövrlər üzrə və bu müəssisələrdə tərbiyə və təhsilin səciyyəvi cəhətlərini təhlil etmişdir. Əsərdə sufizmin təsiri ilə Azərbaycanın bir çox yerlərində mövcud olmuş Xanegah, Təkyə, Zaviyə və Dərgahlarda tərbiyə və təhsil məsələlərinin təhlili xüsusilə təqdirəlayiqdir ki, bu məsələ Azərbaycan pedaqoji fikir tarixində ilk dəfədir ki, tədqiq edilib, araşdırılmışdır. Əsərdə XII-XIII əsrlərdən etibarən Azərbaycanın bir çox şəhərlərində - Naxçıvanda, Gəncədə, Bərdədə, Beyləqanda,*

*Həmədanda, Marağada və s. yerlərdə yaranan mədrəsələr haqqında, onların quruluşu, təhsilin məzmunu haqqında maraqlı məlumatlar verilmişdir.*

*Müəllif əsərin yazılmasında ərəb, fars, türk, rus və Avropa mənbələrinə müraciət etmiş, məktəb və pedaqoji fikir tariximiz üçün böyük əhəmiyyət kəsb edən, bu sahədəki boşluğu dolduran dəyərli vəsait yazıb tələbələrin, magistrantların istifadəsinə vermişdir. Bu vəsait ali və orta ixtisas pedaqoji məktəblərimizdə «Azərbaycan məktəb və pedaqoji fikir tarixi» kursunun öyrənilməsində əsaslı bir mənbə, Azərbaycan pedaqoji fikir tarixini öyrənənlər və öyrədənlər üçün dəyərli bir vəsaitdir.*

*Əsəd Yəqubi, professor*

# I. AZƏRBAYCANDA TƏLİM, TƏRBİYƏ VƏ TƏHSİL MƏDƏNİYYƏTİ TARİXİNƏ BİR BAXIŞ

## 1. Qədim Azərbaycanda təlim-tərbiyə mədəniyyəti və təhsil məsələlərinə bir nəzər

Çox qədim tarixə və zəngin mədəniyyətə malik olan, coğrafi cəhətdən türk islam dünyasmm mərkəzində yerləşən Azərbaycan və bu yurdun qədim sakinləri olan azərbaycanlılar hələ qədim zamanlardan yazı və oxu mədəniyyətinə sahib olmuş, dövrün, ictimai həyatın xüsusiyyətlərinə uyğun təhsil ocaqları yaratmış, insanları inkişafa, tərəqqiyə, yüksək əxlaqa səsləyən müdrik fikirlər söyləmişlər. Zaman-zaman ölkəmizə edilən basqırüar üzündən ulu babalarımızm yaratdıqları zəngin elmi, ədəbi və pedaqoji irsin mühüm bir qismi tələf edilmiş, böyük bir mənəvi xəzinə vətənimizdən çıxarılmış, başqa ölkələrə aparılmış və bir qismi də zəmanəmizə gəlib çıxmamışdır.

Zəngin şifahi xalq ədəbiyyatımız-«Dədə Qorqud», «Bilqamıs», «Alp Ər Tunqa», «Oğuz», «Ərkənəqun», «Köç», «Manas» kimi dastanlarmız, Oğuznamələr, Ustadnamələr xalqımızın qədim tarixindən, onun ictimai-mədəni həyatmdan, zəkasından, istək və arzularmdan, tərbiyə və təhsil səvijryəsindən xəbər verir. Qobustan, Gəmiqaya, Oğlanqala, Kültəpə, Orxon kitabələri və daha bir çox qayaüstü yazılı abidələrimiz xalqımızın yazı yazmaq, oxumaq, hesablamaq, rəsm çəkmək, rəqs etmək və s. mədəni, təhsil vərdişlərinə sahib olmasından xəbər verir. Tariximizin çox qədimliyini göstərən arxeoloji qazıntılar, əldə edilmiş maddi, mədəni nümunələr, xaraba şəhər və qəsəbələr Azərbaycanın ayrılmaz bir parçası olan Naxçıvanda hələ daş dövründən istifadə edilən duz mədəni və buradan tapılmış daş baltalar, buradakı müalicəxana çox uzaq keşmişimizdən xəbər verir. Bütün bunlar Azərbaycan xalqnmm hələ miladdan əvvəl mədəniyyətə, yazıya, oxuya, təlim-tərbiyə mədəniyyətinə sahib olduqlarmı təsdiq edir.

Arxeoloqlar indiki Azərbaycanda ilk insan məskənlərini Daş dövrünə aid edirlər. Azərbaycanda hələ tunc və dəmir dövründə (e.ə.XIV-VIII əsrlər) əhali əkinçiliklə, taxılçılıqla, dəmirçiliklə

maldarlıqla məşğul olmuşlar. Qədim insanlarımız taxil əkmiş, taxıl ehtiyatını xüsusi quyularda saxlamış, torpağı şumlamış, taxılı döymüş, onu üyütmüşlər. Çaxmaq daşı icad etmiş, od əldə etmiş, daş və dəmir alətlər hazırlamış, texnoloji üsulla misi, dəmiri əritmiş qalay, qurğuşun əldə etmiş, sobalar yaratmışlar. Onlar müxtəlif məqsədli baltalar, yaba, oraq, bıçaq, qanadlı ox, nizə, xəncər, qılınc, silah, at əsləhləri hazırlamışlar. Insanlarm estetik şüur və mədəniyyəti, bədii təfəkkürü yüksəlmiş, saysız-hesabsız bəzək əşyaları - tuncdan qolbax, üzük, sırğa, əqiq, daş və mərmərdən muncuqlar, üzük qaşları hazırlamış, sümükdən, metaldan, dəmirdən, tuncdan istifadə edərək müxtəlif alətlər, toppuzlar hazırlamış, bir rəngli, çoxrəngli saxsı qablar, küplər düzəltmiş, ona gözəl naxışlar vurmuş, mənalı cizgilər və rəsmlər çəkmiş, daha sonralar da qızıldan, gümüşdən istifadə edərək üstündə piktoqrafik işarələr qoymuş, yazılar yazmışlar. Tədricən sənətkarlıq, «xəttatlıq», «rəssamlıq» inkişaf etmiş, böyüklər öyrəndiklərini, təcrübi yolla əldə etdiklərini yetişən nəslə öyrətmiş, onları, təlimləndirmiş, tərbiyə etmişlər. insanlarımız atı əhliləşdirmiş, sürət əldə etmiş, mühəndislik edərək iki təkərli, dörd təkərli at arabaları yaratmış, ondan yük daşımaq və nəqliyyat vasitəsi kimi istifadə etmişlər. Çadırlar qurmuş, qaya parçalarmdan evlər tikmiş, əkin sahələri, bağ və bostanlar yaratmış, meyvələr yetişdirmiş, xüsusi texnologiya ilə onu qurutmuş, heyvandarlıqla məşğul olaraq heyvan dərisindən, yunundan istifadə etmiş, dəri aşılama, dabbaqlıq, toxuculuqla məşğul olmuş, qida məhsulu kimi ət, süd, yoğurt əldə etmiş, həyat şəraitlərini günü-gündən yaxşılaşdırmışlar. Kiçiklər də böyüklərin yanında olmuş, onların işlərini müşahidə etmiş, onların sənət və peşələrini daha təkmil formada davam etdirmişlər. Bütürı bunlar insanların bir- birinə öyrətmə və öyrənmə prosesi ilə müşahidə edilmiş və demək olar ki, bunlar qədim dövrün bəsit şəkildə də olsa təlimini və tərbiyəsini səciyyələndirən cəhətlərdir.

Azərbaycan ərazisinin dünyanm ən qədim insan məskənlərindən biri olduğu artıq sübüt edilmişdir. Azıx, Tağlar, Damcılı, Daşsalahlı, Qazma mağaralarmda, habelə başqa abidələrdə aşkar olunan maddi-mədəni arxeoloji tapınülar, o cümlədən 1968-ci ildə Qarabağda,

Füzuli rayonunun 17 km-də tapılmış Azıx mağarası və buradan aşkar edilmişl8-20 yaşlı qadmm alt çənə sümüyü tədqiq edilmiş və sübut edilmişdir ki, 350-400 min il bıından əvvəl burada qədim insanlarımız - Azıx adamı (Azıxantrop) yaşamış və bu fakt Azərbaycanm ibtidai insanların formalaşdıqları əraziyə daxil olduğunu göstərir. Dünyada üç tapıntıdan biri olan bu nadir tapıntıya görə Azərbaycan ərazisi «Avropamn ən qədim sakinləri» xəritəsinə daxil edilmiş və dünyanm ən qədim sivilizasiya ocaqlarından biri hesab edilmişdir. Bu dövrün tarixi 700-150 min il arasındadır. Erkən orta və Aşel dövründə əmək alətləri, ictimai münasibətlər xeyli təkmilləşmiş, yeni növ alətlər meydana gəlmiş, yeni əmək münasibətəlri yaranmışdır. Azıx mağarasmdan 850-900 min illik tarixi olan Şel və Aşel dövrlərinin ən universal alətləri -ürək və badam quruluşlu əl kəsərləri, itiuclular, qaşovlar, dişli-kəzli iskənəyə bənzər alətlər və onlarca başqa növ alətlər aşkar edilmişdir. Müxtəlif daşlardan hazırlanmış həmin alətlər məişətdə istifadə edilmişdir.Ibtidai insanlar bu alətlər vasitəsilə özlərini vəhşi heyvanlardan qorumuş, ov ovlamış, balıq tutmuş, geyim tikmiş, toxuculuqla məşğul olmuşlar. Azıx mağarasında həmçinin vəhşi heyvan sümükləri, o cümlədən ayının baş skeleti tapılmışdır. Bu skeletdə ayımn başı üstündə iti alətlə çərtmələr aşkar edilmişdir. Bu da müəyyən hesablama və ya günləri öyrənmə anlayışı ilə bağlı olması güman edilir.

Xalqımızm ulu torpağı olan Cənubi Azərbaycanm bir sıra yerlərində də qədim insanlarımızın yaşayışma dair qiymətli tapmtılar olmuşdur. Urmiya gölünün ətrafında Rizayə şəhərindən 20 km. Şimalda yerləşən Tamtama mağarasından neandartala məxsus bəzi qalıqlar dünya elminə bu gün də məlumdur.

Bakının 50 km-də yerləşən Qobustan insanlığın ən qədim yaşayış məskəni olmuşdur. Qayalarm üstündə 1000-dən artıq şəkil və yazı işarələri vardır. Bu rəsmlərdə müxtəlif heyvanlar, qayıqlar, əmək, ov və rəqs səhnələri təsvir edilmiş, insanlar nəyi isə başqalarma öyrətmək və ya bildirmək istəmişlər. Qobustan rəsmləri sırasında Mezolit dövrünə (Miladdan əvvəl XII-X minilliklər) aid olan rəsmlər, işarələr, dini ayinlərə həsr edilmiş fiqurlar, rəqs kompozisiyaları,

hələ Mezolit və Enolit dövrlərində Azərbaycanda bədii zövqün, rəsm mədəniyyətinin, təsviri sənətin varlığını, nəqqaşlığın, rəssamlığın səviyyəsini, inkişafını göstərən əsaslı bir dəlildir. Qayalarda həkk olunmuş qayıq rəsmləri o dövrün mühəndis ağlından, hesablama işlərinin dəqiqliyiyndən xəbər verir. Qayıq bir tərəfdən insanlarm qida ehtiyacmı ödəmək məqsədi güdürdüsə, digər tərəfdən bu bir nəqliyyat növü idi ki, başqa yerlərə səfərlər, ticarət və mədəni əlaqələr demək idi. Bütün bunlar qədim qobustanlılarm təfəkkür tərzini, mədəni səviyyəsini, dövrə məxsus öyrətmə-öyrənmə prosesinin, təlim-tərbiyə mədəniyyətinin ilkin formalarda varlığını bildirir.

Qobustan qayaüstü rəsmlərinin təhlilindən məlum olur ki, buradakı tərbiyə məsələləri əsas etibari ilə ovçuluq, əməksevərlik, vətənpərvərlik, peşəyə, sənətə məhəbbət, fiziki tərbiyə, təsviri sənət, rəqs, musiqi, estetik tərbiyə kimi keyfiyyətlər gənc nəslə aşılanmışdır. Ovlanacaq heyvanı düzgün nişan almaq, atmaq, silah (ox, nizə, kaman) hazırlamaq və ondan bacarıqla istifadə etmək, eləcə də əmək alətləri hazırlamaq və istifadə etmək, qida əldə etmək kimi bacarıq və vərdişləri gənc nəslə öyrətmək olmuşdur. Qobustan mütəxəssisləri qeyd etmişlər ki, burada böyük öküz rəsmlərində nizə və ox izləri indi də görünür. Bu o deməkdir ki, qədim qobustanlılar vəhşi öküz ovlamağı öyrənmək üçün qayanın üstündə rəsm edilmiş öküz fiquruna nizə, yaxud ox atmaqla gənc nəslə təcrübi olaraq məşqlər keçmiş, onları buna öyrətmişlər. Gənclər məşq prosesində ox və ya nizə atmağın sirlərini təcrübəli böyüklərdən, ağsaqqal ata və dədələrdən öyrənmişlər. Demək bəsit şəkildə də olsa bu günkü pedaqoji dillə desək əyani vəsaitlə müşayiət edilən təcrübi məşğələlərin əhəmiyyəti qədim insanlarımıza bəlli olmuşdur. Yetişən gənc nəsil müxtəlif oyun, rəqs, mərasimlər, adət və ənənələr vasitəsilə xalqm müəyyən etdiyi əxlaq normalarına yiyələnirdilər. Rəqs və mərasimlər zamanı gənclərdə əməksevərlik, həyatsevərlik, kollektivçilik, insanpərvərlik, birlik, qarşılıqlı yardımlaşma, qoçaqlıq, çeviklik və bir sıra əxlaqi, iradi keyfiyyətlər tərbiyə edilib formalaşırdı. Qayalardakı rəsmlər, rəqs səhnələri, daş qaval, piktoqrafik işarələr maarif və mədəniyyət tariximizin qədimliyindən,

insanlarm estetik və bədii tərbiyəsindən xəbər verir. Uşaqlar və gənclər oyun və rəqsləri müşahidə etməklə və ya praktik olaraq bu prosesdə iştirak etməklə qəbilə və ya tayfanın adət və ənənələrini mənimsəyir, onları yadda saxlayıb digər gələn nəsillərə ötürürdülər. Qayalar üstündə təsviri- süjetli şəkli yazılar, dəmir məmulatlarından istifadə edərək döymə üsulu ilə rəsmlər, işarələr qədim qobustanlılarm bədii təfəkkür tərzini və bilik və dünyagörüşünü, insanların öyrətmə və öyrənmə aktlarmı, savad səviyyəsini göstərən dəlillərdir.

1979-1994-cu illərdə bu qayaüstü rəsmləri tədqiq etmək üçün Qobustana xüsusi səfərlər elan edən məşhur Norveç tədqiqatçısı 1981-ci ildə Tur Heyerdal ilk növbədə özü Qobustana səfər etmişdir. Onu müşaiyət edən Qobustanın tədqiqatçısı C.Rüstəmov söyləyir ki, o çox maraqlı adam idi.Yol boyu fikirli idi, dinib danışmırdı. Elə bil harasa tələsir, nəyisə görmək istəyirdi, hərdənbir Xəzərə baxxr və «Gözəldir» deyirdi. Arzusuna çatdı Qobustanı gəzdi, dolaşdı. Heyranlıqla təsvirləri nəzərdən keçirdi. Lakin qayıq rəsmlərinin qarşısında duranda elə bil öz dünyasına - gəmilər aləminə qayıtdı, qayıqlar aləminin seyrinə daldı. Gah piano çalan kimi barmaqlarmı qayıqlarm üstünə qoydu, oynatdı, gah ölçülərini götürdü,gah gendən durdu boylandı, sonra da sorğu-suala başladı. «Dünyada qaya təsvirlərində əksini tapan qayıqlarm yaşı 3500 ildən çox deyil, bəs nə üçün sizinkilərin sorağı səkkiz minilliklərdən gəlir»- dedi. Biz ona qayalann dibində apardığımız arxeoloji qazıntılardan aşkar etmiş təsvirləri göstərdik. Gözlərinə inanmadı. Sevincək əllərini qaldırdı və «bax, indi mən təslim. Bu qaya təsvirləri dünya mədəniyyətinin beşiklərindən sayılan beynəlnəhrdən daha qədimdir. Görünür Azərbaycan belə qədim sivilizaysiya ocaqlarından biri olub. Bu danılmaz faktlardan sonra heç bir şübhəyə yer yoxdur» - dedi.

Heyerdal öz ehtimallarmın əsaslı sübutunu təkcə Qobustandakı qayaüstü təsvirlərdə deyil, bu təsvirlərin eynilə əsrlərlə sonra vikinqlər tərəfindən Norveç mağaralarmm divarlarında həkk olxmması və həmçinin orta əsrlərdə yazılmış saqalarda əks olunması ilə müəyyənləşdirmişdir. Qobustan qayaüstü rəsmlərinə aid olan qayıq

və üzərindəki günəş təsvirləri qədim Azərbaycanın insan məskənləri ilə, xüsusilə yüksək mədəni irsə malik olan Mesopotamiyanın Şumer Akkad sivilizasiyaları ilə əlaqələrindən xəbər verirdi.

Qobustan qayalarmdakı təsvirlərə baxanda, yazılara nəzər salanda böyük şairimz Səməd Vurğunun müdrik kəlamları yada düşür: «Üzərində tarbd qeyd, nəqş və ya təsvir olan hər bir qədim daş, vaxtı ilə canlı yaşayıb-yaradan insarnn donmuş ürəyidir; o, insan tarixinin odu və alovu içərisindən keçərək gözəl torpağımızı və tariximizi qoruyub saxlamış, əsrlər boyu elmin, maarif və mədəniyyətin və incəsənətin inkişafı üçün nəhəng və münbit zəmin yaratmışdır; elə bir zəmin ki, onun üzərində biz hamımız doğulmuşuq, yaşayırıq və gələcək nəsillərin sifətində həmin mədəniyyətin ən qabaqcıl ənənələrini yeni tarixi şəraitdə inkişaf etdiririk».

Naxçıvanda tunc dövrünə aid Gəmiqaya abidəsi eramızdan əvvəl I-III minilliklərə aid edilir ki, üzərindəki rəsmlər, yazı, işarələr insanlarm bir-biri ilə ünsiyyət və əlaqə, öyrətmə-öyrənmə prosesini əks etdirir. Qayaüstü təsvirlərdə rəqs səhnələri o dövrün estetik zövqünü bildirir, ov səhnələri, örüş sahələri, keçi, maral, quş, habelə əmək alətləri dövrün peşələri olan ovçuluqdan, əkinçilikdən, maldarlıqdan xəbər verir, at, dəvə, ulaq, araba təsvirləri insanlarm istifadə etdikləri nəqliyyat növünü göstərir. Günəş, ağac, çay kimi rəsmlər qədim insanlarımızın inancından xəbər verir, daşlar üzərində düz xətlə çəkilmiş bir neçə xət və ya çox xət Gəmiqayalıların say anlayışından xəbərdar olmalarmı bildirir. Gəmiqayalıların bəbir, canavar, ilan, dəvə kimi rəsmlərin müxtəlif vəziyyətlərdə daşlara döymə üsulla böyük məharətlə işləmələri bir tərəfdən o dövrün rəssamlığını, nəqqaşlığını göstərirsə, digər tərəfdən də şübhəsiz insanlara ətraf mühiti, ərazini onun flora və faunasını öyrədir. Gəmiqaya rəsmlərində bir atlının baş və ayağında geyim olması o dövrün peşələrini (toxuculuq, çəkməçilik və s.) təxmin etməyə imkan yaradır. Şübhəsiz böyüklər də əldə etdiyi bilik və təcrübələri, qazandıqları peşələri kiçiklərə öyrətmişlər və yaxud da kiçiklər böyükləri müşahidə etməklə müəyyən bilik, bacarıq və təcrübə əldə etmişlər.

Gəmiqayanın ilk tədqiqatçısı akademik Vəli Əliyevin tədqiqatlarından məlum olur ki, Gəmiqayada 1500-ə yaxm yazı, rəsm daş və metal alətlərlə döymə, qazma, sürtmə yolu ilə həkk olunmuşdur. Onlar aşağıdakı kimi qruplaşdırılmışdır: 1) Insan rəsmləri; 2) Araba rəsmləri; 3) Heyvan rəsmləri; 4) Müxtəlif mövzulu səhnələr; 5) İşarələr; 6) Qeyri-müəyyən təsvirlər. Gəmiqayalılar nəqliyyat vasitəsi kimi at, dəvə, ulaq və arabadan istifadə etmiş, maldarlıq, ovçuluq, əkinçiliklə məşğul olmuşlar(15,15). Buradakı Araba rəsmləri diqqətimizi cəlb edir. Belə ki, qədim tarixi mənbələrdən, «Oğuznamə»lərdən məlum olur ki, arabanı kəşf edənlər Kanqlı tayfaları olmuşlar: «...Oğuz Kağanm çeriyində bacarıqlı, cüssəli, yaxşı bir kişi vardı. Bu kişi bir araba çapdı... Arabalar gedəndə «Kanğa, kanğa» deyə səs çıxarırdılar. Onun üçün arabaya «Kanğa» adı qoydular. Oğuz Kağan kanğaları gördü, güldü, ayıtdı.. Qoy yüklü arabaları əsirlər çəksin. Sənə verilən «Kanğaluğ» adı qoy kanğanı yada salsm»(60,28). Bu ad Dədə Qorqudda «Kanqlı Qoca» və ya başqa bir yazılışda «Qanlı Qoca» kimi işlənmişdir. Gəmiqayalılar müxtəlif təbiət hadisələrinə, çaya, ağaca, heyvana inanmış, onların təsvirlərini çəkmiş, Günəşə sitayiş etmişlər. Gəmiqayada günəşə sitayişi ifadə edən dairə ortasma nöqtə qoyulmuş rəsmlər vardır ki, bu da günəşi ifadə edir. Bəzi tədqiqatçılar «Naxçı- van» sözünün qədim ərəbcə «Nəşəvə» kəlməsindən törədiyini bildirir- lər ki, bu da «Günəş» deməkdir.

Naxçıvan ərazisində Kültəpə enolit dövrü yaşayış yerindən tapılan mxmcuq, burma sancaqlar, ox ucu, tiyə daha böyük əhəmiyyət kəsb edir. Döymə üsulu ilə hazırlanan muncuq, bilərzik və biz Muğanda Əlikömək təpəsindən aşkar edilmişdir. Kültəpədən tapılan gil buta misin əridilməsində istifadə ediələn ən qiymətli yadigarlardır. Deyə bilərik ki, bu abidələr təkcə Azərbaycan üçün deyil, dünya mədə- niyyətinin ilkin izlərinin öyrənilməsində dərin məna və məzmun kəsb edir. Qədim insanlarımız əldə etdikləri misi xüsusi qablar vasitəsilə müxtəlif quruluşlu qəliblərə tökərək bəzək şeyləri, alətlər,silahlar hazırlamışlar. Sonra onların üzərini naxışlamış, daş alətlər vasitəsilə şumallamış, görkəminə xüsusi yaraşıq vermişlər. Bütünbxmlar elmin, təhsilin, insanlarm yüksək

mədəniyyəti, bədii zövqü ilə mümkün ola bilərdi ki, bu da o dövrün təlimi və tərbiyəsinin nəticələridir.

Gəmiqaya, Oğlanqala, Kültəpədə, eləcə də Kəlbəcər, Zəngəzur, Göyəm dağlarının (indiki Ermənistan ərazisində), habelə Cənubi Azərbaycan abidələrinin, xüsusilə Qaradağ üzərindəki qayaüstü təsvirlərində insanlarm iqtisadi, mədəni, mənəvi həyatmı əks etdirən müxtəlif işarələr, simvollar, damğalar (dairə formalı, düz, sınıq xət, haçaşəkilli, qarmaqşəkilli, aypara şəkilli, «P», «T» şəkilli işarələr, «həyat ağacı» təsvirləri) aşkar edilmişdir ki, onlara pedaqoji yöndən yanaşdıqda deyə bilərik ki, onlar qədim insanların bilik, savad və mədəni səviyyəsini, yazı mədəniyyətini, rəssamlıq, heykəltaraşlıq bacarığını, inancmı göstərən dəlillərdir. Digər tərəfdən bu işarələrin müxtəlif yerlərdə oxşarlığı regionun qədim insanlarının bir-birilə iqtisadi-mədəni əlaqələrindən xəbər verir. Qədim insanlarımızın daşlar üzərində qoyduqları müxtəlif məzmunlu izlər, işarələr, rəsmlər maarifləndirici, inkişafetdiyirici, tərbiyəedici olmaqla qədim insan- ların «öyrətmə-öyrənmə mexanizmi»ni, tərbiyə və təhsil işlərini bəsit şəkildə də olsa bizə bildirir.

Qədim dövr-ibtidai icma quruluşunda yetişən nəslin tərbiyəsinə, icmanın əxlaq normalarına əməl edilməsinə şübhəsiz qəbilə və tayfanın ağsaqqalları, ataları, dədələri, təcrübəli, bilikli insanları rəhbərlik edir, icmaya və onun üzvlərinə məsləhət və istiqamətlər, öyüd və nəsihətlər verirdi. Bıma görə də atalar, dədələr, ağsaqqallar bir tərbiyəçi kimi hörmətli şəxs hesab edilir, onlara pərəstiş edilir, hətta sitayiş ayinləri də meydana gəlmişdi ki, bunu tunc dövrünün daş kitabələrində görmək mümkündür. İbtidai icma quruluşunda ağsaq- qal ata və babaların qəbri üzərində bir uzun daş şaquli olaraq yerə basdırılırdı. Bu cür abidələrə çoban daşı da deyirlər. Belə abidələrə dağ və dağ ətəyi yerlərdə rast gəlmək olar. Naxçıvanın Nehrəm kəndinin aşağı hissəsində «Ölən şəhər» deyilən yerdə qəbir üstü daşlar məhz dediyimiz çoban daşlarındandır. Həmin uca daşlara insanlar əbədi varlıq kimi baxmış, onlar müqəddəsləşdirilmiş, arzu və niyyətlər, şər qüvvələrdən xilas olmaq bu daşlardan istənmiş, bu daşlar ağsaqqal ata və babaların ruhunu bu dünyada yaşatmaq, ondan yenə də kömək və məsləhətlər almaq

düşüncəsini daşımışdır. Əsrlər boyu davam edən bu cür ideya və inamm təsiri altrnda bir çox tarixi yerlərimizdə müqəddəs daş abidələrinə, pirlərə rast gəlmək olur. Şamaxıdakı «Diri baba» və «Dədə günəş» pirləri buna misal ola bilər. «Pir», «Baba» sözləri də ta qədimdən müdriklik, bilicilik simvoludur. O tay, bu tay Azərbaycanımızda «Baba» sözlüklü xeyli tarixi yerlə- rimiz, müqəddəs məkanlarımız vardır ki, onlardan biri o taydan Mərənd, bu taydan Naxçıvan yaxınlığında yerləşən və qədim «Kər- gər» tayfasının adı ilə bağlı olan (bu Kəngərlilər tayfasıdır) «Baba Kərgər» yerini və çaymı göstərmək olar. İlk dəmir dövrünə (eramız- dan əvvəl X əsr) aid olan böyük daş abidələrinin bir qismi «axirət evi» kimi də adlanmış və buradan bir məbəd kimi də istifadə edilmişdir. Həmin məbədlərə sitayiş edilmiş, ibadət və pərəstiş edilmiş, ondan kömək və nicat istənmişdir.Bu məbədləri Azərbaycanın ən qədim sakinlərinin «ilk maarif ocaqları» adlandırmaq olar. Bu «Maarif ocaqları»nda dini mərasimlər keçirilir, qurbanlar kəsilir, müxtəlif animistik təsəvvürlər hərəkətlərlə ifadə edilirdi.

Ov, yürüş, qida əldə etmək, təbii fəlakətlərdən qorunmaq kimi həyati proseslərdə qədim insanlarm inancı, nəyəsə inamı formalaşır, get-gedə bu inanc mürəkkəbləşir, insanların düşüncələri inkişaf edir.Yetişməkdə olan nəsl, uşaqlar bütün bunları müşahidə edir, öyrənir, böyüklər onlara öyrədir. Belə qənaətə gəlmək olar ki, qədim insanlarda tərbiyənin aşağıdakı məqsədləri olmuşdur: l)Qəbilə, tayfa, ailə uşaqları praktik olaraq həyata hazırlamalı, onlara mürəkkəb həyat və təbiət hadisələrindən baş çıxarmağı, təbii fəlakətlərdən, vəhşi heyvanlardan qorunmağı, qida əldə etməyi, balıq tutmağı, daş alətlərdən istifadə etməyi və onu hazırlamağı, ov etməyi və ovlanmış heyvanm dərisindən istifadə etməyi, heyvan məhsullanndan müxtəlif qida məhsulları hazırlamağı, daha sonralar da heyvanlardan müxtəlif məqsədlər üçün -minik, yük daşımaq, nəqliyyat vasitəsi kimi istifadə etməyi öyrətməli, bunlara müvafiq onları lazım olan bilik, bacarıq və vərdişlərlə silahlandırmalı və uşaqlar da əldə etdikləri bilik, bacarıq və vərdişləri əməli işlərdə nümayiş etdirməlidirlər; 2) Uşaqlara ilahi qüvvəyə, ruha, surətə inanmağı, xeyirə sitayiş, pərəstiş və ibadət etməyi, onlara dua

etməyin yollarını, formalarını öyrətmək və uşaqlar da praktik işləri ilə onların icrasını qəbilə başçısma, ağsaqqala, dədələrə çatdırmalı idilər.Bütün bunlar tərbiyənin məqsədləri olsalar da onlarm yerinə yetirilməsi üçün ciddi öyrətmə- öyrənmə prosesi tələb edilir, əməli işləri həyata keçirmək üçün ağsaqqal məsləhəti, tövsiyəsi gərəkirdi. Bütün bunlar da onu göstərir ki, qədim dövrlərdə də, icma quruluşunda da ağsaqqallar, ata və babalar, dədələr icma üzvlərinin təlimi və tərbiyəsi qeydinə qalmış, dövrün tərbiyə və təlim məqsədindən irəli gələrək böyüklər əldə etdikləri təcrübəni yetiş-məkdə olan nəslə öyrətmişlər.İbtidai icma dövründə Azərbaycarun bir çox yerlərində dulusçuluq, misgərlik, dəmirçilik inkişaf etmişdir. Qarabağ, Qazax, Naxçıvan, Mildüzü, Aran rayonlarında dulusçuluq, misgərlik və dəmirçilik eramızdan əwəl hələ ikinci minillikdə inkişaf etmişdir. Mezolit və Enolit dövrlərində ritmik və simmetrik anlayış-ların ortaya çıxması, rəqs kompozisiyalarmm, naturadan çəkilən pəsmlərin mövcudluğu onu göstərir ki, ən qədim dövrlərdə belə rəsm və incəsənət mədəniyyəti olmuş, müxtəlif yazılar olmuş və buna müvafiq də təlim mədəniyyəti olmuşdur.

Azərbaycan xalqı, eyni zamanda dünyanın ən qədim dövlətçilik ənənələrinə malik olan xalqlardandır. Azərbaycan xalqı təqribən 5 min illik dövlətçilik tarixinə malikdir. Azərbaycan ərazisində ilk dövlət qu- rumları və ya etnik-siyasi birliklər hələ eramızdan əwəl IV minilliyin sonu - m minilliyin əwəllərindən başlayaraq Urmiya hövzəsində yaran- mışdı. Burada meydana gəlmiş ən qədim Azərbaycan dövlətləri bütün regionun hərbi-siyasi tarixində, gənclərin hərbi vətənpərvərlik tərbiyəsində mühüm rol oynayırdılar. Həmin dövrdə Azərbaycanda Dəclə və Fərat vadilərində yerləşən və dünya tarixində dərin iz qoymuş qədim Şumer, Akkad və Assur (Assuriya) dövlətləri, habelə Kiçik Asiyadakı Het dövləti arasmda sıx qarşıhqlı əlaqələr mövcud olmuşdur.

Eramızdan əvvəl I minillikdə - bizim eranın I minilliyinin əvvəl-lərində Azərbaycan torpaqlannda Manna, İskit (Skit, Skif) şahlığı, At- ropatena və Albaniya kimi qüwətli dövlətlər mövcud olmuşdur. Bu dövlətlər Azərbaycanda dövlət idarəçiliyi mədəniyyətinin daha da yüksəldilməsində, ölkənin iqtisadi-mədəni tarixində, eləcə də

vahid xalqm təşəkkülü prosesində mühüm rol oynamışlar. Əlbəttə bütün bunlar elmin, maarifin, təlim və tərbiyənin inkişafı ilə müşaiyət edilmişdir.

Azərbaycanda feodal münasibətləri tədriclə inkişaf edirdi. Azərbaycan dağlarından qxzıl gümüş, mis, civə, qurğuşuxı, oxra çxxarxlxr, ölkədə bol pambxq, üzüm, taxxl, zeytun yetişdirilir, neft və duz istehsal edilirdi. Bol çaylarx, münbit torpaqlan olan Azərbaycan əkinçilik təsər- rüfatx üçün geniş imkanlara malik idi. Olkənin bütün əyalətlərində heyvandarlxq inkişaf etmişdi. Ticarət yollarxnxn üstündə yerləşən Azərbaycan bir çox ölkələrin tacirlərini özünə cəlb etmişdi. Azər- baycandan xarici bazarlara pambxq, ipək, boyaq maddələri, yaş və quru meyvə, balıq məhsullarx aparxlxrdı. Ölkədə sənətkarlxq inkişaf edir, yeni şəhərlər meydana gəlir, elm, maarif inkişaf edirdi. Orta və On Asiya, Yaxxn Şərq ölkələri ilə mədəni və ticarət əlaqələri genişlənirdi. Azərbaycanm bir çox şəhərləri xarici ticarət əlaqələrinin inkişafxnda da böyük rol oynayxrdx. Dərbənd, Şabran, Təbriz, Bərdə, Beyləqan, Naxçxvan və başqa şəhərlər ticarət yollarxnxn üstündə olduqlarx üçün daha geniş imkanlara malik idilər. Azərbaycan 100 şəhəri olan ölkə adlamrdx. Şamaxx, Şəki, Şəmkir, Gəncə şəhərlərində də ticarət əlaqələri genişlənirdi. Azərbaycan şəhərləri içərisində Bərdə hərtərəfli yüksək inkişaf etməsi ilə seçilirdi. Xilafətin Cənubundan və Şərqindən Şimala sənaye və ticarət mallarx aparan karvanlar Bərdədən gəlib keçirdi. Bərdə demək olar ki, bir çox səyyahlarm da dediyi kimi o zaman Xilafət tabeliyində olan ikinci Bağdad hesab olunurdu. Ərəb alimi «Xəzər dənizinin xəritəsi», «Azərbaycan və Arran xəritəsi»ni tərtib etmiş Ibn Hövqəl (X əsr) «Kitab surətəl-ərd» adlx əsərində Bərdəni Arranxn anasx (paytaxtx) adlandxrmxşdx. O qeyd edirdi ki, Rey və İsfahandan sonra, İraqla Təbəristan arasxnda Bərdə tək böyük və məhsuldar şəhərdir və tutduğu mövqe və xəzinəyə verdiyi gəlirə görə ən yaxşx yerdir. Təsərrüfatxn, ticarətin, sənətkarlxğm əlaqəli inkişafx, vahid inzibati idarəçilik sistemi, Araz çayx demək olar ki, bir sərhəd kimi öz əhəmiyyətini itirmşdi, Şimalla Cənubun (Azərbaycanla Aranxn) e.ə. III əsrdən (Parfiya dövrünün başlanğxcxndan) olan bir- liyini daha da möhkəmləndirmişdi.

Bunu da qeyd edək ki, ilkin feodallxq dövründə Azərbaycanxn yxğcam bütov bir əraziyə şamil edilən coğrafi adx olmamxşdxr. Ölkəyə şamil edilən bu və ya digər ad müxtəlif amillər əsasında meydana gəlirdi. Bu barədə böyük yazıçımız Y.V.Çəmənzəminli yazırdı ki, dürüst bunu deyə bilərik ki, qədim zamanlardan bəri (məsələn, min illər bundan əvvəl) Azərbaycan gah müstəqil və gah yarım müstəqil bir halda yaşayıb. Dillərdə Azərbaycan indiki Iranın şimali-qərbindən ibarət idisə də, cənubi Qafqazm Şərq tərəfi onun hakimiyyəti altında olardı. Məsələn, on ikinci əsr miladidə məşhur şair Xaqani zamanı Şirvan şahlığmı Azərbaycan Atabəyliyinə tabe görürük. Indiki Gəncə vilayəti, yəni Kür ilə Arazm arası, qədim zamanlar «Aran» adlanırdı. Aran əyaləti də paytaxtı Gəncə ilə birlikdə çox zamanlar Azərbaycan Atabəyliyinin bir hissəsi olmuşdur. Min illik müddətində Azərbay- canın zahiri şəkli hədsiz dəfələr dəyişilib... Hal-hazırda biz tarixi pillələrdən keçib, min qovğa görəndən sonra uyuşub, sabit bir şəkil almışıq.

Böyük ərəb alimi, 1213 və 1220-ci illərdə iki dəfə Azərbaycana səyahət etmiş Yaqut Həməvi (1179-1229) «Mucəm əl-Buldan» («01-kələrin adlı siyahısı») adlı əsərində yazır ki,«Azərbaycanm sərhədləri Şərqdə Bərdədən Ərzincana qədər, şimaldan Deyləm, Gilan, Tara qədər uzanır ki, bu çox böyük bir ölkədir.... Azərbaycan nəhəng ölkə və qüdrətli dövlətdir. Mən heç yerdə bu qədər qalalar, hədsiz zənginlik və möhtəşəm meyvə bağları görmədim. Azərbaycan əhalisi qırmızıyanaq və ağ dərili, xoş sifət insanlardır. Onlar azəri dilində danışırlar, yaxşı müraciətləri, yumşaq xarakterləri ilə seçilirlər... Ərəblər Azərbaycana gələndə paytaxt Ərdəbil idi» (113).

Urmiya gölünün ətrafından başlayaraq, zaman-zaman Dəclə və Fərat vadiləri də daxil olmaqla, İran körfəzinə qədərki ərazilərdə e.ə.III-II minilliklərdə Aratta, Lullubi və Kuti qəbilə tayfaları yaşayırdı. Bu əyalətlərdəki təlim tərbiyə mədəniyyəti haqqında da müəyyən məlumatlara sahibik. Aratta inkişaf etmiş Şumer dövləti ilə həmişə sıx iqtisadi, siyasi, mədəni əlaqələrdə olmuşdur. Bu əlaqələr haqqmda bir neçə Şumer dastanında, o cümlədən «En-Merkar və Aratta hökmdarı» dastanında ətraflı məlumat verilmişdir. Bu

dastanlarda Aratta saf, təmiz ənənələr ölkəsi adlandırılır. Şumerin Uruk şəhər dövlətinin hökmdarı En -Merkar ilə Arattada hökmdarı arasında gah dostluq, gah da düşmənçilik münasibətəlri mövcud olmuşdur. Bu hər iki hökmdarın bir-biri ilə yazışmalarından bəlli olmuşdur. Arattada yazı işlərini aparan xüsusi mirzələr çalışırdı. Onlar Şumer hökmdarına məktublar yazır və Şumerdən gələn məktubları tərcümə edirdilər. Bu f akt onu göstərir ki, arüq Arattalılar Şumer mixi yazıları və Şumer dili ilə tanış idilər.

Arattada mahir ustalar, sənətkarlar, yüksək peşə sahibləri var idi. Bu peşələri onlara böyüklər lap kiçiklikdən öyrədirdilər. Şumer hökmdarı En Merkar qiymətli metalların, əşyaların, mərmər və lacivərdin, habelə ustaların göndərilməsini Aratta hökmdarından xahiş edirdi, əvəzində isə Arattaya taxıl göndərəcəyini vəd edirdi. Mənbələrdən məlum olur ki, Mazandaranda, Kirmanda, Təbriz yaxınlığında çxxarılan lacivərd Şumerlərə ixrac edilirmiş. Aratta və Şumer arasxnda sxx ticarət, mal mübadiləleri həyata keçirilirdi. Mənbələr Aratta və Şumer dövləti arasmda belə sxx əlaqələrdən xəbər verirsə onda heç şübhəsiz Şumerlərdə mövcud olan maarif və mədəniyyət, ədəbiyyat xüsusilə Şumer dastanlarx, o cümlədən «Bilqamxs» dastanx da Arattada tanxnmxş və öyrənilmişdir. Aratta əhalisi əsasən sənətkarlxğm müxtəlif sahələri ilə məşğul olurdu. Burada məbəd və saray tikən, divarlarxna qiymətli metal və daşlardan, xüsusilə lacivərddən bəzək və naxış vuran mahir ustalar var idi. Bu onu göstərir ki, Arattada peşə, sənət öyrədilməsi, usta-şagird, müəllim-şagird münasibətləri, öyrətmə-öyrənmə məsələlərinə xüsusi diqqət yetirilmişdir.

Qədim Azərbaycan tayfalarxndan olan Urmiya gölünün cənubunda Lullubum tayfa ittifaqx, sonra isə isə Lullubi dövləti yarandx ki, bu Azərbaycan ərazisində yaranmxş ikinci erkən dövlət quruluşu idi. Mənbələrdən aydxn olur ki, Lullubum və inkişaf etmiş Akkad dövləti arasxnda müharibə və savaşlar olmuşdur. Lullubumlər Anubaninin hökmdarlxğx dövründə daha da qüvvətlənmişdilər. Gənubi Azərbaycanda tapxlmxş «Daş sütünu» abidəsində bu barədə mixi yazxlarla qeyd edilmişdir: «Anubanini qüdrətli Lullubum hökm- darx, öz təsvirimi və Iştar ilahəsinin təsvirini Batir dağxnda

qoy- durdum». Böyük bir abidə yondurub qoydurmaq, üstündə yazxlar yazmaq bu dövlətin inkişafxndan, mədəniyyətindən, yazxsxnxnxn, «arxitektorlarxnxn», mühəndislərinin, ustalarxnxn olmasxndan bizi xəbərdar edir ki, bu da şübhəsiz sistemli təhsil və təlimlə mümkün ola bilərdi. Burada Akkad dilini bilən, onu yazıb-oxumağı bacaran və başqalarına öyrədən mirzələr də olmuşdur. Lullubumlularm hökm- darı (e.ə. 2170-2150) öz yazılarını mixi əlifbası ilə mirzələrə yazdırırdı. Mixi yazıları buranm əhalisinə yuxarıda göstərdiyimiz kimi hələ varisləri Aratta dövründən tanış idi. Lullubumlarm əgər mixi yazıları olumuşdursa, demək oxuları da olmuş, kiməsə nəyisə öyrətmişlər - demək burada da təlim mədəniyyəti, tərbiyə prosesi, öyrədənlər və öyrənənlər mövcud olmuşdur.

Kutilərdə isə qüwətli hərbi dəstələrin olması burada hərbi təlimin səviyyəsindən, vuruş texnikasmdan xəbər verir. Kuti hərbi dəstələ-rinin başçısma Nippur şəhərində mixi yazılarla yazılmış bir abidə də qoyulmuşdur ki, üstündə yazılmışdır: «Qüdrətli Kutium və dünyanm dörd səmtinin hökmdarı». Yenə də möhtəşəm bir abidənin qoyulması şübhəsiz xüsusi təlim, təhsil görmüş bir memarm, mühəndisin işidir. Belə bir abidənin yaradılması və oradakı məntiqi yazılar insanların xüsusi bir təhsil keçdiyini deməyə əsas verir.

Zaman keçdikcə Azərbaycanm dövlətçilik mədəniyyəti daha da yüksəlmiş, ölkə ərazilərində daha təkmil və daha geniş əraziləri əhatə edən yeni dövlətlər yaranmışdır. Eramızdan əwəl I minillikdə - bizim erarun I minilliyinin əvvəllərində Azərbaycan torpaqlarmda Manna, İskit (Skit, Skif) şahlığı, Atropatena və Albaniya kimi qüwətli dövlət- lər yaranmışdır. Bu dövlətlər Azərbaycanda dövlət idarəçiliyi mədə- niyyətinin, maarifinin daha da yüksəldilməsində, ölkənin iqtisadi- mədəni tarixində, mühüm rol oynamışlar. Prof. V.Z. Piriyev haqlı olaraq yazır ki, mannanılar, bu günkü azərbaycanlıların əcdadları olmuşlar (62,29).

Marına quldarlıq dövləti idi. Burada maldarlıq, atçılıq, incəsənət, memarlıq sürətlə inkişaf etmişdi. Sənətkarlar qiymətli metallardan müxtəlif əşyalar hazırlayır və onlarm hazırlanmasmı da gənc nəslə öyrədirdilər. Mannada uşaq və yeniyetmələrin tərbiyəsində bütpə-

rəstlik ayin və mərasimlərinin, meydan tamaşalannm, qəbilə və tayfa adətlərinin müşahidəsi, habelə böyüklərin maddi nemətlər əldə etmələri təcrübələrinin öyrənilməsi mühüm tərbiyəvi əhəmiyyət kəsb edirdi. Uşaqlar böyüklərdən öyrənir təlim və tərbiyə alırdılar.

«Manna ərazisində tapılmış eramızdan əvvəl VIII əsrə aid qablardan birinin üzərində saz və və ya tənburu xatırladan bir musiqi alətində çalan insan şəkli təsvir olunmuşdur. Musiqiçinin aləti tutma qaydası və onun çalğı manerası ifaçının Azərbaycan ərazisində yaşadığına şübhə yeri qoymur»(43,17).

Urmiyamn ətrafında miladdan əvvəl IX-VIII əsrlərə aid əldə edilmiş arxeoloji tapmülar-qızıl cam, qızıl döşlük, qızıl bilərzik, gümüş piyalə və onlarm üzərindəki naxışlar Mannada rəssamlığın, sənətkarlığm, incəsənətin olmasından xəbər verir. Mannalılarm əlifbası və yazısı olmuşdur. Manna-Mad dövlətinin bilavasitə qonşuluğunda Şumer, Akkad, Babil, İlam, Assur, Hurri, Urartu kimi böyük xalqlar, hökümətlər olmuşdur ki, onlann hərəsinin özünəməxsus rəsmi dövlət dili, əlifbası, yazısı, mədəniyyəti, təhsili olmuşdur. Belə bir dövr, mühit və şəraitdə Yaxm Şərq məntəqəsinin ən qüdrətli höküməti olmuş As- sur höküməti ilə yanaşı yaşamış, həmişə onlara qarşı uğurla mübarizə aparmış Manna dövləti kimi mütərəqqi xalq daxilindən doğan qüdrətli bir dövlətin rəsmi idari dövlət dili, yazısı və əlifbasının ol- maması mümkün ola bilməzdi. Manna hökmdarı Assur və Urartu arasmda gedən müharibələrdən istifadə edərək öz dövlətinin ərazisini Assur ərazilərində genişləndirmişdi və mərkəzləşmiş dövlət yarat- mışdx. Bundan əlavə miladdan qabaq üçüncü minillikdə 91 il Babildə hökümət qurmuş Kuti xalqxnxn nəsli, onun davamçxlarx və varisləri əlifbasxz və yazxsxz ola bilməzdi.

Cənubi Azərbaycan alimi Doktor Məhəmmədtağx Zöhtabi «Iran türklərinin əski tarixi» (Təbriz,1379 hicri) adlx kitabxnda yazxr ki, Mannalxlarm müəyyən yazx və əlifbaya malik olmalarmx bəzi Assur mənbələrindən görmək olur. Bu əlifbanxn və yazxnxn necə olduğu məlum olmasa da, hər halda Assur mənbəyi göstərir ki, Manna hakim dairələri və şahlarmın müəyyən yazxsx olmuşdur. Assur mənbəyi bundan ibarətdir ki, Assur hökmdarx ikinci Sarqonun

(722-705) miladdan qabaq 716-cx il məlumatxnda yazxlmxşdxr ki, Manna şahx Ulusun özünün daşda yazdxrdxğx yadigar daşmx Assur hökmdarxna vəqf etmişdir. Zöhtabi yazxr ki, bu əlifba mixi, yazxmn isə İlam dilində olmasx ehtimalx güclüdür. (135, 722). Bundan əlavə rüs alimi İ. Dyakonov yazxlarmm birində o dövrdən qalmxş bir məktubda Manna hökmdarından söz açıldığını bildirmişdir. Məktubun yazılması onu da göstərir ki, Manna dövründə yazı işlərini aparmaq üçün xüsusi mirzələr, katiblər, münşilər də olmuşdur. Dövlətlər arasmda məktub- laşmalar, bir-birlərinə xəbər çatdırmaq üçün elçilər olmuşdur ki, bütün bunlar da xüsusi təlim görmüş şəxslər, dilmanclar, katiblər tərəfindən yerinə yetirilmişdir. Belə mədəni - maarif işlərinin aparılması da heç şübhəsiz xüsusi təlimlə mümkün ola bilərdi.

Mannalılarm yazısı olması haqqında tapılmış maddi - mədəniyyət nümunələri də bunu təsdiq edir. Urmu gölünün qərbində Zeyvə məntəqəsindən tapümış xəzinə şeyləri içərisində olan bir gümüş boşqabdakı yazı diqqəti cəlb edir. İ.Dyakonovun ehtimalına görə bu heroqlif yazı Mannalılara aiddir. Ola bilsin ki, bu heroqlif deyil müəyyən əlifbadan ibarət yazıdır, bəlkə də heroqlifdən əlifbaya keçid dövrünə aid tarixi bir yazıdır. Zaman keçdikcə bu heroqlif xətlər təkmilləşmiş və bəzi alimlərin fikrincə Şumerlər vasitəsilə mixi əlifbanı meydana gətirmişlər. Bu mixi əlifbadan o dövrün əksər xalqları istifadə etmişlər.

Görkəmli Qazax alimi, şairi, türkoloq Oljas Süleymenov «Az-ya» əsərində türk xalqlarma məxsus maraqlı bir məlumatı yazır ki, onun bilavasitə xalıqımzm yazı mədəniyyəti ilə bağlılığı vardır: «Eramızdan əvvəl III əsr Çin salnaməçisi göstərir ki, Kanqyu («kanqlı») xalqı ənənəvi Çin yazısından fərqli olaraq eninə - horizontal xətiə yazırmış» (69,170). Kanqlı tayfası bu gün Azərbaycanda yaşayan Kəngərlilərin qədim adıdır. Onlar barədə hələ bizim eradan əvvəl I əsrdə və bizim eranm I əsrində Strabon və Plini yazmışdır. Eramızın ilk əsrlərində Çin, Bizans, Alban, ərəb tarixçiləri öz əsərlərində Kəngərlilər haqqmda maraqlı məlumatlar vermişlər. Akademik İ.Hacıyev yazır ki, Kəngər- lilər «Kitabi-Dədə-Qorqud»da «Kanqlı» adı altmda xatırlanır (23,79).

Akademik Teymur Bünyadov «Mərd qalalar, sərt qalalar» kitabında (1986) yazır ki, Mingəçevirdə tapılan musiqi alətlərinin və onlarm üzərindəki incə, zərif naxışlarm 3 min ilə yaxm tarixi vardır. Musiqisi, rəqsi, nəqqaşlığı, rəssamlığı, xəttatlığı olan bir xalqın təbii ki, bəsit şəkildə də olsa öyrətmə-öyrənmə akü, təlim mədəniyyəti də mövcud olmuşdur. Ola bilsin ki, bu təlim kütləvi olmamış, mütəşəkkil və sistemli xarakter daşımamışdır. Mannada hakim sinfə mənsub olan ailələrin uşaqlarına savad öyrədilməsini, xüsusi təlim verilməsini güman etmək olar. Bu dövrdə sehr, cadu, bütlərin iradəsi cəmiyyətin əsas hərəkətverici qüwəsi idi. Mannada kiçiklərin böyüklərin əmək və məişət fəaliyyətini, meydan tamaşalarmı, bütpərəstlik ayinlərini müşahidə etməsi, habelə böyüklərin təlqini, kiçiklərin təqlidi təlim və tərbiyə mexanizminin əsas ünsürləri idi.

Mannalılarm zəngin şifahi xalq ədəbiyyatı- ağız ədəbiyyaü da olmuşdur. Bu xalqm müxtəlif məzmunlu nağılları, dastanları, müxtəlif janr xalq şeirləri, bayatıları olmuşdur ki, bu ədəbiyyat nümunələri gənc nəslin mənəvi tərbiyəsində demək olar ki, dəyərli pedaqoji əsərlər sayıla bilər. Əlimizdə o dövrün ədəbiyyaüna dair nümunələr olmasa da qədim alimlərin yazxlarından onlar barədə müəyyən məlumat, təsəvvür əldə etmək mümkündür. Qədim yunan və rum tarixçiləri yazxrlar ki, Manna şahlarxnxn saraylarxnda şairlər olmuşdur ki, onlar mövzularxnx, öz şeirlərini milli, şifahi xalq dastanlarx və rəvayətlərindən almxşlar. Qədim türk xalqlarxmn özləri və başçxlarx, hökümət rəhbərləri milli bir ənənə olaraq heç zaman qopuzsuz, sazsxz, aşxqsxz, ozansxz, Dədə Qorqdusuz olmamxş, dilinin sözü, qolunun sazx olmuşdur. Belə güman etmək olar ki, Marma saraylarxnda şair və ozanlarxn vasitəsilə nəql olunmuş əfsanə və dastanlardan biri də «Alp ər Tunqa» dastanx olmuşdur ki, o zamanlar əski türk xalqlarxnxn diliııə düşmüş və yaranmağa başladxğx zamandan təqribən bir yarxm, iki yüz il hüdudunda olmuşdur. Alp ər Tunqanxn ölümü ilə əlaqədar xalq tərəfindən qoşulmuş ağxlarxn bəzisi zamanəmizə gəlib çxxmxş və şübhəsiz o zamanlar Alp ər Tunqa dastanx adx ilə də deyilmişdir. Alp ər Tunqanxn ölümünə qoşulmuş ağxlar, çox ehtimal ki, böyük bir dastanm bir parçasx olmuşdur. Bu ağı sonralar M.Kaşqarlmm

məşhur «Divan»mıda da öz əksini tapmış, və bu gün də «Ədəbiyyat» dərslik- lərimizə salınaraq ümumtəhsil və ali məktəblərimizdə öyrənilmək- dədir.

Eramızdan əvvəl VI əsrin əvvəllərində artxq Midiya dövlətinin qüdrəti artmxş və əraziləri xeyli genişlənmişdi. Jan Şarden «Səyahət-namə»sində yazxr ki, Midiya şahlarxxn möhüründə yunan yazxlarx və təsvirləri var idi. Möhürdəki yazxnxn Dağyanus olduğu xatxrlanxr (33,79). Midiya iki yerə - «Böyük Midiya» və «Kiçik Midiya»ya bölün- dü. «Kiçik Midiya» Atropatena adlandı ki, bu Azərbaycanm cənu- bunda yerləşirdi. Atropatenanm xeyli inkişaf etmiş kənd təsərrüfatı, sənayesi var idi. Atropatenanm qonşu ölkələrlə geniş ticarət əlaqələri mövcud idi. Bu ölkənin 30-dan arüq iri şəhərləri yaranmışdı, xalqm yüksək əxlaqı, mənəviyyatı və mədəniyyəti var idi. Atropatenanm özünəməxsus dili, yazısı, adət və ənənəsi var idi. Əhalisi əkinçiliklə, maldarlıqla, ticarətlə, toxuculuqla məşğul idi. Atropaten dövlətində sinfi cəmiyyət, təbəqələşmə sürətlə inkişaf etdiyindən yüksək səviyyəli mütəxəssislərə ehtiyac duyulurdu. Bu sahədə lazımi ixtisaslı kadr «Saray məktəbi»ndə hazırlanırdı. Burada hakim sinfin uşaqları 16 yaşdan başlayaraq müvafiq ixtisas təhsil alırdılar.

Akademik İsmayıl Hacıyev yazır ki, miladdan əwəl III-IV əsrlərdə Naxçıvanın ərazisi Atropatenanm tərkibinə daxil olmuşdu. Böyük karvan yolunun üzərində yerləşən Naxçıvan şəhəri miladın III yüzilliyində Sasanilər tərəfindən dağıdılmışdır. Miladın VI-VII yüzilliyinin birinci yarısınadək olan bir dövrdə Sasanilərə məxsus Zərbxanalarda yerli pullar kəsilmişdir. Bu gümüş pulların üzərində «Nax» sözü yazılmışdır(23,12).

Atropatena ilə bərabər Azərbaycanın şimalmda Albaniya dövləti də mövcud idi ki, buranın mərkəzi əvvəlcə Qəbələ sonra Bərdə şəhəri olmuşdur. Albaniya dövründə Azərbaycanm dövlət idarəçiliyi, maarif və mədəniyyəti xeyli yüksəldi. Alban hökmdarları ölkənin dünyəvi və dini başçısı hesab olunurdular. Onlar, eyni zamanda, qanunlar verir, ölkənin hərbi qüvvələrinə başçılıq edirdilər. Dövlətin ordusu 80 min nəfərdən artıq idi (60 min piyada, 22 min süvari) aşmışdı. Albanlar qızıl emal etməkdə və ondan

istifadə etməkdə mahir idilər. Onlar misi, qızılı, dəmiri əridir və onlardan müxtəlif əşyalar düzəldirdir, bəzək işlərində istifadə edirdilər. Albanlar şüşə qayırır və ondan müxtəlif yerlərdə, o cümlədən muncuq qayırmaqda istifadə edirdilər. Albanlar toxuculuqda, yun kətan və pambıq, parça toxu- maqda mahir idilər. Albaniyada memarlıq inkişaf etmişdi. O dövrün memarları hətta Yunan və Roma tikinti mədəniyyəti ilə tanış idilər. Onlar möhtəşəm ictimai binalar, müdafiə qurğuları, qalalar tikmişlər. Qəbələ şəhər yerində bünövrəsi daş və divarları çiy kərpicdən olan binalar aşkar edilmişdir. Böyük ictimai binalar iri salonlardan, eyvanlardan, kiçik otaqlardan ibarətdir və binanın üst hissəsi saxsı kirəmitlə örtülmüşdür. Albanlar balıq tutur, ondan həm qida kimi istifadə edir, həm də onun iç, qarın üzvlərindən yapışqan hazırla- yırdılar. Bu keyfiyyətli yapışqandan indi də bəzi yerlərdə hazırlanır və istifadə olunur. Bu yüksək mədəniyyət nümunələri heç şübhəsiz ağıllı başların, bilikli insanların sayəsində mümkün olurdu. Bütün bunları isə dövrün təlimi, tərbiyəsi belə şəxsləri yetişdirirdi. Yetişməkdə olan nəsil əməksevərlik, işgüzarlıq ruhunda tərbiyə alır, böyüklərin məşğul olduğu peşələri öyrənir, onların iş təcrübələrini müşahidə edərək müxtəlif sənətlərə yiyələnirdilər. Burada peşə, ixtisas təhsili əsas yer tuturdu.

O dövrdə Sasanilərin soyğunçu siyasətinə qarşx Zərdüşt dininə qarşx xristianhq geniş yayxlxrdx və IV əsrdə Albaniyda xristianlxq dövlət dininə çevrilmişdi. Burada kilsə məktəblərində Incil Alban dilinə tərcümə edilərək ana dili üzrə dərs vəsaiti kimi istifadə edilir və Alban əlifbasxnxn yaranma prosesi qüwətlənirdi.

Beləliklə V əsrdə 52 hərfdən ibarət alban əlifbasx meydana gəldi və VI-VII əsrlərdə artxq zəngin alban ədəbiyyatx yaranmışdx. VII əsrdə yaşamxş Davdağxn mərsiyələri, şeirləri buna misal ola bilər. Davdağm yüksək bədii üslubda yazxlmış məşhur bir mərsiyəsi Albaniyanxn istiqlaliyyətini qorumaq üçün canxnx fəda verən, ətraf düşmən mövqelərinin hücumlarxna baxmayaraq böyük siyasətlə öz ölkəsini İberi sərhədlərindən Dərbəndə və Araz çayxna qədər olan torpaqlarx hakimi-mütləq kimi idarə edən vətənpərvər Azərbaycan hökmdarx Cavanşirin qəhrəmanlxğxna həsr edilmişdir. Bu qəsidə

-mərsiyə müəllifinin daha bir çox əsərlər yazdxğxnx, o dövrün ədəbiyyatxnx, mədəniyyətini göstərən əsaslx dəlillərdəndir. Xəyanət nəticəsində öldürülmüş bu igid sərkərdənin tabutu önündə oxunan mərsiyədə o böyük vətənpərvər kimi anxlxr və xalqm kədəri ifadə edilir:

*Mənim Şərq ölkəmi bürüdü kədər*
*Yayılmış cahana bu qara xəbər.*
*Qoy ellər eşitsin səsimi mənim,*
*Səsimə səs verib ağı desinlər!*
*Sakit həyatımız matəmlə doldu, Bizə*
*soyğunçular müsəllət oldu. Misilsiz*
*bir dövlət çökdü kökündən, O parlaq*
*şüası saraldı soldu.*

Davdağın bu şeirndə qoçaq sərkərdə və ağıllı dövlət xadimi Cavanşirin mərd sifətləri, əxlaqi, mənəvi keyfiyyətləri, vətənpərvərliyi tərənnüm edilir və bu keyfiyyətlər gənclərə nümunə göstərilir və bu gün də onun qəhrəmanlığı məktəblilərimizin vətənpərvərlik tərbi- yəsində bir nümunədir. Xalqımızın vətənərvər oğlu, ulu öndərimiz Heydər Əliyev çıxışlarırun birisində bu barədə belə deyirdi: «Cavanşir və Babək kimi sərkərdələrin qəhrəmanlıqları böyük vətənpərvərlik məktəbinə çevrilmiş, vətənin bütövlüyü, xalqın birliyinin təcəssümü olmuşdur» (14,5).

Cavanşirə həsr olunmuş şeirdə onun igidliyi, cəsurluğu ilə yanaşı, onım ağlı, düşüncəsi, zəkası da tərənnüm edilir:

*Cəsurdur, sanki bir heybətli aslan Susardı*
*önündə düşmən hər zaman; Başçılar,*
*işxanlar tabedi ona Sonsuz məhəbbətdən,*
*həm də qorxudan.*

*Şöhrəti çatmışdı uzaq ellərə, Adı*
*yayılmışdı bütün hər yerə;*

*Dünya heyrət ilə əhsən deyərdi*
*Ondakı zəkaya, elmə, hünərə.*

Bu şeirdən anlamaq olur ki, o zamanın ictimaiyyəti elmə, biliyə, maarif və mədəniyyətə böyük önəm vermiş və diqqət göstərmişdir. Şeirdə Cavanşirin ölümü də böyük bir «zəka, hünər, elm» mücəssəməsinin məhvi kimi qeyd edilir. «Albanlarm tarixi» kitabmda öz əksini tapmış bu mərsiyə-şeirdən başqa, həmçinin Albanlarm tarixi haqqmda məlumat verilir və «Azərbaycan tarixi» kitabmda yazıldığı kimi göstərilir ki, «mənşəcə Yafəs soyundan olan albanlar bu soyun Getarilər nəslinə mənsubdurlar»(5, II, 120). Daha sonra qeyd edilir ki, 552-ci ildə Albaniyada yazılmış ikinci kitab, İran-Bizans, İran-Ərəb müharibələrinə həsr olunmuşdur ki,burada da Cavanşirin qəhrəman- lığından bəhs edilir, üçüncü kitab isə ərəblərin tarix səhnəsinə çıxmalarma həsr olunmuşdur (5, II, 121). Heç şübhəsiz bu dövrdə, bu dövrdən əvvəl də daha başqa əsərlər də yazılmışdır. Bütün bunlar göstərir ki, Albaniyada elm, maarif, yazı mədəniyyəti inkişaf etmişdir. Albaniyada məktəblər, təlim, tədris ocaqları olmuş, burada insanlara müxtəlif elmlər üzrə biliklər və təhsil verilmişdir. Alban məbədlərində şeir, bədii sənət nümunələri yazılmış, yayılmış, tərcümələr edilmiş, elm geniş təbliğ edilmiş, savad təlimi ardıcıl və sistemli xarakter almışdır.

Strabonun dediyinə görə Albaniyada 26 tayfa yaşayırdı. Bu tayfalarm özlərinə məxsus mədəniyyəti, adət və ənənələri var idi ki, onlar siyasi, iqtisadi və mədəni cəhətcə birləşərək ölkəni birlikdə inkişaf etdirir, ümumalban maarif və mədəniyyətini zənginləşdirirdilər.

Albaniyada müxtəlif tayfalar, müxtəlif dini inanca mənsub olanlar yaşadığı kimi müxtəlif məktəblər və təhsil ocaqları da fəaliyyət göstərmişdir. Professor Əsəd Yəqubi maraqlı bir məsələyə toxunaraq yazır ki, III-V əsrlərdə Azərbaycanm şimal vilayətlərində Sasanilərin soyğunçu siyasətlərinin nəticəsi olaraq zoroastrizmə qarşı İsəvi dinin yayılması üçün əlverişli şərait yaranmışdı. Buna görə də üçüncü əsrdən başlayaraq İranın və Zaqafqaziyanın müxtəlif vilayətlərinə Suriyadan İsəvi mübəlliğləri göndərilirdi. Bu məqsədlə də Suriyanm

Ədəs şəhərində aH məktəb təsis edilmişdir. Bunlardan biri «Dəbestane İraniyan» -İranlılar məktəbi idi. Bu məktəb İsəviyyəti qəbul etmiş iranlılar idilər. V-VI əsrlərdə bu məktəbdə təhsil almağa İran və Zaqafqayziya əhalisindən də təhsil almağa gəlirdilər. Buranın məzun- ları sonradan İranda, Atropatendə, Albaniyada İsəvi dinini yayır, bibliyanı,tərcümə edib təbliğ edir, kilsə məktəblərinin şəbəkəsini genişləndirirdilər. Məhz o dövrdə Albaniyada yeni İsəvi kilsələri tikil- miş, İsəvi, xristian məktəbləri fəaliyyət göstərmişdir. Qax rayonunda (qədim Kiş-Şəki məntəqəsi), Ləkit və Qum kəndlərində, eləcə də Mingəçevirdə tikilmiş İsəvi məbədlərini göstərmək olar. Alban hökm- darı da İsəvi dininin yayılmasına şərait yaradır bütpərəst və Zərdüşt vaHdeyıüərirrin uşaqlarını bir məktəbdə birləşdirərək onlann İsəviyyət ruhunda tərbiyə etdirirdi. Hökmdar həmin məktəbə tez-tez gələr, «əllərində yazı lövhəsi, yaxud kitab olan şagirdlərin ucadan oxu- maları» ilə maraqlanarmış. Bu məktəblərdə təqlid və əzbərçilik əsas təlim üsulu kimi qəbul edilmişdi.

Albaniyada Mehranilər dövründə (altıncı əsrin sonları, yeddinci əsrin əvvəllərində) Zərdüşt məktəbləri geniş yayılmış, xüsusilə Gird- man məbədinin ali təhsil mərkəzi olmasını da güman etmək olar (78,61-62).

Sonrakı dövrlərdə Albaniyanm adı Aran və ya Ağvan kimi də işlədilmişdir. Aranda da məktəblər var idi və burada da tədrisi xüsusi hazırlıqlı şəxslər yerinə yetirir, savad təlimi yazı və oxu ilə müşaiyət edilr, uşaqlar ana dilində təhsil alır və alban əlifbasında yazırdılar. Savad təlimi yazı və oxu ilə müşaiyət edilirdi. Akademik Z.M. Bünya- dov yazır ki, V əsrdə Aran məktəblərində rahiblər uşaqlara maaşla dərs verirdilər (8,57). Demək müəllimlik arüq bir peşə kimi formalaşır, xalqın pedaqoji fikirləri yaranırdı. Bu dövrdə Zərdüşt məktəbələrinin geniş yayılmasına baxmayaraq xristian məktəbləri də mövcud idi. Bu məktəblərdə təlimin məzmunu və təlim üsülları bir-birindən fərqli olmuşdur. Belə ki, Zərdüşt məktəblərində daha çox şifahi, söz metodlarma yer verilir, «Avesta» materialları şifahi yolla oxudulur, əzbərlədilir və yalnız bundan sonra yazı təliminə keçilir, savad təlimi və oxu vərdişləri öyrədilirdi.

Xristian məktəblərində isə yazı və oxu əvvəlcə öyrədilir, ondan sonra əzbərləmə, nəqletmə və s. öyrədilirdi. Beləliklə məktəblər getdikcə genişlənir və yeni tədris üsulları meyda- na çıxırdı.

## 2. Qədim yazılarımız və onlarm pedaqoji fikir tariximizdə yeri

Pedaqoji fikir tariximizdə yazı və əlifba həmişə pedaqoji işin mühüm tərkib hissəsi olmuşdur. Müdriklər demişlər: «Yazı elmin yarısıdır». Azərbaycan ərazisində tapılan yazıların çox qədim tarixə malik olduğunu qeyd edən akademik T.Bünyadov «Mərd qalalar, sərt qalalar» kitabında (1986) yazır: «Azərbaycanda tapılan qayalar üzərindəki insan, heyvan, bitki, gəmi və s. rəsmlər göstərir ki, bizim babalarımız nəinki təsviri incəsənət sahəsində, hətta yazmm ilk dəfə ixtira edilməsində böyük rol oynamışdır». Ilk yazılarımız qayalar, daşlar, saxsı qablar, dərilər, ağaclar üzərində yazılmışdır.

Azərbaycan ərazisində mixi yazılardan əwəl «Şəkli yazılar» olmuş, fikri başqasma bildirmək üçün müəyyən yazı işarələrindən istifadə olunmuşdur. Azərbaycan ərazisində də yazının ilk növü kimi şəkli yazılardan, piktoqrafik işarələrdən istifadə edilmişdir. Azərbaycanda ən qədim dövrlərdə müəyyən bilik qazanmış insanlar şəkli yazıdan istifadə etmək, onu oxumaq bacarığma yiyələnmişlər. Bxmu qədim insanlarm demək olar ki, ilk savadı, ilk təhsili, «tayfa savadı» adlandırmaq olar. Ictimai həyatin müxtəlif sahələrinə qədim tarixi yerlərimizdə geniş yayılmış piktoqrafiya mədəniyyəti ilkin öyrətmə-öyrənmə prosesinin varlığım bildirir. Şəkli yazıları, təsvirli-süjetli rəsmləri öyrənmək, onu anlamaq və anlatmaq, ondan baş çıxarmaq və mənasını dərk etmək xüsusi savad, bilik və təlim tələb edirdi. Bütün bunlann öyrənilməsi o zamamn savad təliminin məzmununu əhatə edirdi.

Şəkli yazılar əsasən ümumi anlaşma və ya yazılı nitq vasitəsi hesab olunurdu. Şəkli yazılarda müəjryən ifadəli hərəkətlər əks etdirilirdi ki, insanlar bunun mənasmı öyrənirdilər. Heç şübhəsiz dağlar, daşlar, habelə müəyyən gümüş qablar üzərində olan yazılarm, şəkillərin bir məqsədi insanların öz fikirlərini başqalarma çatdırmaq güdülürdüsə, digər bir məqsədi də bu şəkli yazıların gələcək nəsillərə çatdırılması, biliyi, məlumatı sonrakı nəsillərə ötürmək idi. Azərbaycan ərazisin- dəki şəkli yazılar öz rəsmlərinin

süjet zənginliyinə görə ümumdünya miqyasmda fərqlənən Qobustan qayaüstü rəsmlərində, Naxçıvanda Gəmiqayada, Oğlanqalada, Kültəpədə, Fərhad evində , Füzuli rayo- nunda Azıx mağarasında, Qazaxda Baba-Dərviş yaşayış məskənində rast gəlinmişdir. Qobustanın qayaüstü rəsmləri ilə Gəmiqaya təsvirləri arasmda çox yaxın oxşarlıq onu göstərir ki, Azərbaycan ərazisi ən qədim insan məskənlərindən biri olmaqla əsasən eyni bir mədəniyyətə, maarifə, əxlaqa malik olmuşdur. Hündürlüyü 3725 metr olan Ordubad rayonu ərazisində yerləşən E.ə. III—I minillilərə aid edilən Gəmiqaya min illər boyu Naxçıvan əhalisinin ictimai-iqtisadi, mədəni həyatmda mühüm rol oynamışdır. Ən yüksək zirvəsi Qapıcıq adlanır ki, hündürlüyii 3904 metrdir ki, bu da Kiçik Qafqazda ən yüksk zirvə hesab olunur. Gəmiqaya öz əfsanə və rəvayətləri ilə, xüsusilə, Nuhla bağlı əfsanələrilə müqəddəsləşmişdir. Qayaüstü rəsmlərdə təsvir edilən ov mərasimi, rəqs səhnələri, qoç, öküz, keçi, maral, it, at, qurd, ulaq, öküz, dəvə, quş, insan, araba rəsmləri qədim insanlarımızın həyat və məişətindən, zövqündən, təlim və tərbiyəsindən xəbər verir. Gəmiqaya təsvirləri və buradakı tarixi yerlər Naxçıvan ərazisində tunc dövründə yaşamış qədim əhalinin həyat tərzini, məişətini və mədəni inkişaf səviyyəsini öyrənməyə imkan verir.

Şahbuz rayonu ərazisində Biçənək kəndində, Batabat yaylağmda Fərhad evi deyilən tarixi abidə eramızm əvvəllərinə aid edilir. Bu daş ev dörd otaqdan ibarətdir. Divarlarında yazdar, piktoqrafik işarələr, şam qoymaq üçün taxçalar vrdır. Otaqlarm birində su quyusu və ocaq yeri vardır. Qayanm girəcək yerində daşın üzərində uzunsaçlı kişi və qadın təsviri həkk olunmuşdur.Bütün bunlar qədim insanlarımızm yazısınından, "rəssamlığından", peşələrindən, ümumiyyətlə mədəni səviyyəsindən xəbər verir.

İnsanlarm varlıq haqqnıda fikirlərinin genişlənməsi, onlarm tədricən təbiət hadisələri haqqmda biliklərinin genişlənməsi, şüur səviyyələrinin artması təsviri-süjetli yazıların (piktoqrafiyanın) məzmununun da zənginləşməsinə, savad səviyyələrinin artmasına səbəb olmuşdur. Belə ki, ümumi anlaşma, münasibət və ya ünsiyyət vasitəsi kimi şəkli yazılarda ictimai həyat hadisələri, müxtəlif dini

ayinlər, mərasimlər, təbiət haqqında düşüncələr müxtəlif rəmzi işarələrdə öz əksini tapmışdır. Qazax rayonun Baba-Dərviş adlı qədim yaşayış məskənindən tapılmış e.ə. IV minilliyin eneolit qabları üzərindəki simvolik işarələr, Kəlbəcərdən tapılmış tunc kəmərin, eləcə də Cənubi Azərbaycanın məşhur Ziviyə xəzinəsindən tapılmış VIII əsrə aid olan qızıl əşyalar üzərindəki rəmzlər, işarələr, yazılar dedik- lərimizə əsas verir.

Naxçıvan Yaxın Şərqdə inkişaf etmiş maarif və mədəniyyət mərkəzləri ilə daim sıx əlaqədə olmuş, xüsusilə Şumer dünyası ilə sıx iqtisadi, mədəni əlaqələrə malik olmuşdur. Gəmiqaya tədqiqatçıları, (V.Əliyev, N.Müseyibli) qeyd edirlər ki, Gəmiqayada 100-dən artıq yazıya rast gəlinmişdir. 2006-cı ildə orada aparılan tədqiqat işləri nəticəsində 60-a qədər yazmı anlamaq mümkün olmuşdur ki, onlar da ana dilimizə uyğundur.

Naxçıvanda Xaraba Gilanda b.e. II-III əsrlərinə aid olan məzar yerindən tapılmış saxsı qablarm üzərində dualar yazılmış arami yazılara rast gəlinmişdir. Arami yazısı Ərəbistan yarımadasında yaşamış və e.ə.II minilliyin sonlarmda ön Asiyada yayılaraq Suriyada və Şimali Mesopotamiyada kiçik dövlətlər yaratmış aramilərin əlifbası olub. Bu əlifba e.ə. I minilliyin əvvəllərində Finikiya yazısı əsasmda yaradılmışdır. Mingəçevirdə 1951-ci ildə təxminən 1500 il bundan əvvələ aid edilən bir qəbirdən çoxlu dəri parçalar tapılmışdır. Çox güman ki, bu nazik dərilərdən üzərinə bizim əcdadlarımız yazı yazmaq üçün istifadə etmişlər.

Bizim eradan əvvəl III-I minilliklərdə Şumer-Akkad, Assur, finikiya, mixi yazıları Azərbaycan ərazisində də mövcud olmuşdur. Mixi yazılara Naxçıvan ərazisində, Mingəçevirdə, Abşeronda, Azıx mağarasmda və digər yerlərdə rast gəlinmişdir. Şumer dövlətlərinin qədim Azərbaycan ilə sıx siyasi, iqtisadi və mədəni əlaqələri olmuşdur. Bu əlaqələri Azərbaycan ərazisində yayılmış Şumer dastanlarından da görmək olar.

Məşhur Amerika Şumerşünası S.N.Kramer kitabmı «Tarix Şumer-dən başlanır» adlandırmışdır. Bu kitabın bölmələri isə belə adlanır: «Ilk məktəblər», «Ilk iki palatalı parlament», «Ilk kitabxana kataloqu», «Ilk ədəbi mübahisələr» və s. Göründüyü kimi hər şeyin

ilki Şumerdən başlayır. 12 boydan ibarət olan «Dədə Qorqud» şeirləri ilə çox yaxın olan Şumerlərin «Bilqamıs» dastanı dünya ədəbiyyaürun ilk bədii əsəri, ulu kitabı, ilk mənəvi qaynağıdır.

Tanınmış tədqiqatçı alim Baloğlan Şəfizadə özünün «Azərbaycan ədəbiyyatı tarixi» kitabmda ilk əlifbanın azərbaycanlılara məxsus olduğunu və bunun «Avesta» əlifbası olduğunu göstərir: «...yer üzünün bəlkə də ilk əlifbası və yazı mədəniyyəti Azərbaycan türklərinə məxsus olmuşdur. «Avesta»nın ilk variantı 21 kitabdan ibarət, 21 hərfli bir əlifba ilə tarixən Azərbaycan ərazisinə düşən qədim Pərəsada, yaxud Pərəsatda yazıya alınmışdır. Bu yer «Dədə Qorqud» dastanları»nda Parasar adlanmışdır. Bu ilk əlifbanın adı «Vattan» adlanır ki, indi işlətdiyimiz «vətən» sözü də bu kökə bağlıdır. Mənası «oddan yaranan» deməkdir... Əlifbanm sonrakı daha mükəmməl variantları Maq əlifbası olmuşdur»(71,88).

Miladdan əvvəl IX-VII əsrlərdə mannalılarm və midiyalılarm da özlərinə məxsus yazıları olmuşdur. Daha sonralar V əsrdə albanların 52 hərfdən ibarət əlifbaları olmuş və zəngin alban ədəbiyyata mövcud olmuşdur. Belə güman etmək olar ki, Albaniyada bir deyil, bir neçə əlifba nümunələri də olmuşdur.

Türk dilli xalqlarm islamiyyətdən öncə Orxon əlifbası və ya Göytürk əlifba və yazısı da olmuşdur. Orxon -Yenisey çayları ətrafın- da tapılmış bu daş kitabələri ilk dəfə oxuyan 1893-cü ildə Danimarka alimi V.Tomsen olmuşdur. O bu yazıların türk xalqlarma mənsub olduğımu sübut etmişdir.

Akademik H.M.Əhmədov yazır ki, Azərbaycamn şimal əyalətlərində runi əlifbası, qədim türk əlifbası, Göytürk əlifbasmm da tətbiq edilməsi ehtimalı vardır(10,12). Bu fikrin qüvvəti olaraq doktor M.T.Zöhtabi yazır ki, Mannalılardan qalan əsərlərdə heroqlif və Orxon əlifbasına oxşar bir əlifba ilə yazılmış kiçik bir yazı əldədir, lakin hələ az olduğu üçün onun oxunmasına başlanmamışdır(135, 94,642). M.T.Zöhtabi daha sonra yazır ki, «bu günə qədər oxunmuş bu abidələrin sayı 10 mindən çoxdur, özləri də əsasən mildadın II əsrindən X əsrinə qədər, yəni türklərin islamı qəbul etməsinə qədərki əsrlərdə yazılmışdır.. .yazılarm təhlilindən anlamaq olur ki, bu əlifba, yazı daha qədimlərdə miladdan qabaq I və ya II əsrlərdə

yazılmışdır. Oxon əlifbasından əvvəl də türklərin «Runi» adlanan əlifbaları da olmuşdur»(135,645).

Görkəmli alim, professor Bəkir Çobanzadə qədim türk yazılarından bəhs edərkən yazır: «Bu gün bütün müstəşriklərin (şərqşünasların) türk ədəbiyyatmm ən birinci abidəsi Orxon kitabələridir adlandırılsa da, Miladi Isadan əvvəl türklərin yazıları, əsərləri olduğuna şübhə yoxdur. Çünki Orxon kitabələrində təsadüf etdiyimiz lisan və üslub artıq işlənmiş bir lisandır. Belə bir işlənmə bir əsr içərisində ancaq meydana gələ bilərdi»(133,84-85).

Professor E.M.Əlibəyzadə göstərir ki, «Qədim türk əlifbası türk xalqlarmm, təbii ki, həm də Azərbaycan-Türk xalqının əcdadlarırun yaratdığı ilk əsl sistemli milli əlifbasıdır...Türk xalqlarmın şumerlərdən başlanan ədəbiyyatı, dili, dini görüşləri, incəsənəti, maddi mədəniyyəti, ailə-məişət tərzi, adət və ənənələri və ümumən mənəvi aləmi, etik pedaqoji fikirləri ilə yanaşı yazı-əlifba mədəniyyəti də bir-birini qarşılıqlı şəkildə tamamlamış, inkişaf yolu keçmiş və buna görə də tarixdən silinməmişdir»(17,78).

Orxon əlifbasma «Hun» əlifbası da deyilmişdir. Hələ V əsr mənbə- lərində Azərbaycan əhalisinin hun adlandırılmasına və ərazisində «Hun» kəlməsi olan yer adlarına da rast gəlmək olur. Göytürk əlifbası Orxon-Yenisey, Gültəkin, Tonyukuk abidələri üzərində yazıldığmdan, buna Orxon-Yenisey, Gültəkin, Tonyukuk əlifbası da deyilmişdir. V.V. Bartold yazmışdır ki, Orxon-Yenisey abidələri Çindən Bizansa qədər böyük ərazini əhatə etmiş və türk imperiyasının yaradıcılarına aiddir(108,237). Çindən Bizansa dedikldə Azərbaycan da onun içində gedir. Demək Göytürk əlifbasından Azərbaycan ərazisində də istifadə olunması ehtimalı böyükdür. Orxon abidələrinin ən məşhuru To- yukuk-Gültəkin abidələridir ki, onları İstanbul universitetinin ustadı, Azərbaycan əsilli Məhərrəm Erkin oxumuş, müasir türkcəyə çevirmiş və çap etdirmişdir(68). Məhərrəm Erkinin əlimizdə olan «Orhun abidələri» kitabmda abidələr üzərində işlənən sözlərin, kəlmələrinbir çoxunun bu gün müasir Azərbaycan dilində işləndiyini görürük. Məsələn: «Aclıq», «Açmaq», «Ağn», «Altı», «Aş», «Ad», «Ay», «Azca», «Başla», «Bil», «Qan», «Oğul», «Yaz», «Yüyür», «Sekiz» və s.(97,

10,103,104.107,128). Bu əlifba türkdilli xalqların daşlar üzərində yazılmış ilk tarixi sənədidir. Bu əlifba türkdilli ədəbiyyatımızın, pedaqoji fikrimizin, insanlara öyüd və nəsihətlərimizin zəmanəmizə gəlib çatmış olduğu ilk poetik əsəri, qədim türk qəbilələrinin daşlaşmış tarixidir, mədəniyyətidir, xaqanların, sərkərdələrin gələcək nəsillərə tövsiyələri, onlann qazandığı bilik və təcrübənin gələn nəsillərə ötürülməsidir. Bu türk əxlaq və mənəviyyatı, türk törəsinin qanunları adət və ənənələridir, yüsək kamillik zirvəsinə yetişmiş türk təfəkkü- rünün müqəddəs səhifələridir. Göytürk əlifbası 38 hərflidir. Bunun dördü səsli, 34-ü isə səssiz hərflərdir. Göytürk yazısmda sağdan sola və istənildə yuxarıdan aşağıya da yazılır və hərflər bir-birinə birləşdirilmir. Saylar isə eyni ilə bu gün dilimizdə işlənən saylardır.

Orxon-Yenisey, Gültəkin abidəlri üzərində yazılar gənc nəslə, gələcək nəsillərə öyüd nəsihətlərdir. Orüarı daha ağıllı, bilikli, fərasətli, olmağa çağırışlarıdır. Məsələn, Gültəkin abidələri üzərində türk millətinə xitabən yazılır ki, qonşulann dadlı, şirin sözlərinə kor-koranə inanıb özlərini bəlaya salmasmlar. Gültəkin abidəsində yazılardan anlamaq olur ki, türk xalqmm çox sayda atları, ibaları, dəvə karvanları olmuş, qüdrətli, cəsur qoşunlan olmuşdur. İnsanlar müəyyən edilmiş əxlaq normalarına əməl etməlidirlər, cəmiyyətin üzvləri törənin adət və ənənələrinə, qayda-qanunlarını pozmamalıdırlar. Bu abidələr üzərində yenə deyilir: «Böyüyün sözünə, xaqanın sözünə qulaq as, onun məsləhətini dinlə...! Ey türk milləti toxluğun qiymətini bilməz- sən. Aclıq, toxluq düşünməzsən. Bir doysan aclığı düşünməzsən. Elə olduğun üçün kağamn sözünü almadan hər yerə getdin. Elə orada da məhv oldun...»(97,34).

Gültəkin abidəsi üzərində türk xalqmm böyüklüyü, qəhrəmanlığı belə anladılır: «Qoy xalq, türk bəyləri eşitsin ki, üstdən göy çökməsə, altdan yer dəlirtməsə türk Xaqanın elini, qanununu kim dağıdar? Ayıl! Türk xalqı bil ki, ona görə qul, kəniz oldxm ki, bəylərin ağılsız hərəkət elədilər. O Türk xalqımn adı, şöhrəti yox olmasm deyə ata və anamı yüksəltmiş, tanrı türk xalqmm adı və şöhrəti yox olmasm deyə Allah məni xaqan elədi.. .»(97. 35).

Abidə üstü yazılardan məlum olır ki, hələ o dövrdə hələ VI-VII əsrlərdə türklərdə rəssamlar, bənnalar, memarlar varmış: «Mən əbədi daş yondurt- dum...rəssam gətirtdim, rəsm etdim. Ona bambaşqa rəsm vurdurdum» (97,44). Kitabələrdə türk qəhrəmanlığmdan bəhs edilir, gələcək nəsillərə sanki örnək göstərilir: «...Babam Kağan qırx yeddi dəfə ordu sövq etmiş, iyirmi savaş yapmış. Tanrı lütf etdiyi üçün eli elsizləşdirmiş, kağanlığı kağansızlatmış, düşməni tabe qılmış, dizliyə diz çökdürmüş, başlıya baş əydirmiş. Babam Kağan eləcə eli, törəni qazanıb uçub getmişdir»(9, 55).

Orxon Yenisey abidələri içərisində Tonyukuk abidələrinin də tərbiyəvi baxımdan əhəmiyyəti böyükdür. Tonyukuk türk xalqınm varlığım saxladığına, ölkənin ərazisini genişləndirdiyinə görə onun şərəfinə abidə ucaldılmışdır. Bu abidə üzərində elmə, biliyə yüksək qiymət verilmişdir. Orada Tonyukukun vəziri İltərəs xaqan deyirdi Allah mənə elm verdiyi üçün xaqan oldum və düşmənləri qovaraq Orta Asiyada Qara Quma qədər gedib çıxdım. Abidə üzərində göstərilir ki, qələbə qazanmaq üçün elmli, bilikli, iradəli, yüksək əxlaq və mənəviyyata sahib olmaq lazımdır. Bu baxımdan abidə üzərində gərəkli bir yazı vardır.Türk ordusunu nizamlamaq üçün bütün məhrumiyyətlərə dözdüm, çöl heyvanları yiyərək aclığa, susuzluğa qalib gəldim. Elmim sayəsində strateji plan cıza bildim. Abidə üzərində xəyanətkar, saxta, dost cildinə girmiş düşmənlərdən ehtiyatlı olmaq məsləhət görülür. Abidədə göstərilir ki, əgər biz içərimizi və xarici siyasətimizi möhkəmlətməsək tək qalarıq.Tarixi faktlardan da məlumdur ki, Tonyukuk çox ağıllı və müdrik bir sərkərdə olmuş və türk elini düşmənlərdən qəhrəmancasına qoruyub saxlamışdır. Orxon- Yenisey, Gültəkin abidələri üzərindəki yazılar çox zəngin, elmli, sistemli, müəyyən qrammatik qayda və prinsiplərə uyğun yazılmışdır. Belə bir sistemli, qrammatik yazıya, məntiqli fikirlərə mənsub olan xalqın yəqin ki, bir təlimi, məktəbi, müəllimi də olmuşdur.

İslama qədər əlifbamız böyük tarixi dövr keçmiş, inkişaf etmiş və təkmilləşmişdir. VII əsrdən başlayaraq isə ərəblər fəth etdiyi ölkələrdə o cümlədən Azərbaycanda öz məktəblərini açmış, tədrisi

ərəb əlifbası ilə aparmış və ərəb əlifbasım da yaymışlar. Qeyd edək ki, Azərbaycan dilində bu dilin yazı nümunələrinə X əsrə qədər rast gəlinməmimşdir. Bəlkə gələcəkdə buna rast gəlinəcəkdir. Prof. Ə.Şükürlünün dediyi kimi «ərəb əlifbası ilə türk dilində yazılmış sənədlərə yalnız XI yüzillikdən rast gəlirik (73,6). XX əsrin əvvəllərinədək ümumtürk xalqlarının yazısı üçün ərəb qrafikalı əlifbadan istifadə edilmişdir. Türk xalqları üçün müştərək leksik vahidlər demək olar ki, eyni olduğundan əsasən eyni orfoqrafiya ilə də yazmışlar. Bu baxımdan ümumtürk dil qrupuna mənsub olan Azərbaycan yazdx dilinin bəzi nümunələrinə XI əsrdə ortaq türk xalqları nümayəndələri tərəfindən tərtib edilmiş dərs vəsaitlərində, lüğətlərdə, bədii əsərlərdə rast gəlinmişdir. Dilimizin ilk yazı təcrübələri və yazı nümunələrinə XI əsrdə ərəb əlifbası ilə türkcə yazılmış M.Kaşqarlımn ərəbcə və türkcə yazılmış «Divan»ım, Yusif Xas Hacibin «Qutadqu bilik», Balasaqunlu Ədib Əhməd Yüknəkinin «Atabətəül Həqayiq» əsərlərini göstərə bilərik. M Kaşqarlı öz qiymətli əsərində bunu da qeyd etmişdir ki, onun dövründə türk xalqlarınm ərəb əlifbasında ana dilində yazısı üçün bir ortaq yazı qaydaları mövcud olmuşdur. Bütün bunlar da Azərbaycan dilinin yazı qaydalannm gələcək inkişafı və təkmilləşməsi üçün bir təməl olmuşdur.

### 3. Zərdüşt məktəbləri və «Avesta»da tərbiyə məsələləri

Zərdüştlük qədim və erkən orta əsrlərdə Azərbaycan, İran Orta Asiya, Ön Asiya və bir sıra başqa ölkələrdə geniş yayılmış bir fəlsəfə, ədəbi abidə, pedaqoji fikir və din olmuşdur. Zərdüşt dininin müqəddəs dini kitabı «Avesta» («Qanun») adlamr. «Avesta»nm ilkin varianü bizə gəlib çatmamışdır. Bu kitabm yalnız müəyyən hissələri bəzi əlavələrlə, dəyişikliklərlə bizə gəlib çatmışdır.

Tədqiqatçı alim B.C.Şəfizadə Zərdüştün vətəninin Azərbaycan olduğunu onun Savalan dağının yanında, Duruca çayı sahilində doğulduğunu, həm Cənubi Azərbaycanda, həm də Şimali Azərbaycanda Savalan dağı, Savalan kəndi, Duruca çayı və Zərdüştlüklə bağlı saysız toponimika və məişət ayinlərinin indi də olduğunu qeyd edir (71,28). Professor Ə.R.Yəqubi Zərdüştlük haqqında belə yazır:

«...Zərdüşt öz əqidəsini ilk dəfə olaraq Azərbaycanda təbliğ etmişdir.Təbiidir ki, bu cəhətdən zoroastrizmin doğma vətəni Azərbaycan hesab edilməlidir» (78,48). Cənubi Azərbaycan alimi Məhəmməd Tağı Zöhtabi də öz əsərində Zərdüştün vətəninin Azərbaycan olduğunu, «Avesta»nın Azərbaycanda yazıldığmı söyləmişdir. O, «İran türklə- rinin əski tarixi» adlı əsərində yazır: «Zərdüşt dininin ilk ruhaniləri olmuş «Muğ»lar Midiya hökuməti torpaqlarmda yaşamışlar. Zərdüşt dinində «Od» müqəddəs sayıldığından Muğlar hətta Midiyadan da qabaq odu qoruyub saxlamışlar. Bütün Azərbaycan torpaqlarında zəngin neft və qaz mədənləri olmuş, ildırım nəticəsində bu mədənlər yana bilirdilər. Odu qorumaq Muğlarm ictimai və müqəddəs vəzifəsi idi. Onlara «Od-ər-pat» demişlər. Yəni «odu qoruyan ərlər» mənasım verir...Yunanlar, ərəblər, farslar bu adı müxtəlif cür işlətmiş və «Azərbaycan» sözü meydana gəlmişdir»(135,611). Əlbəttə, «Azərbay- can» sözünün Iskəndərin sələfi sərkərdə «Atropat»ın adı ilə bağlı olduğu və daha digər etimoloji düşüncələr də mövcuddur.

Akademik H.M.Əhmədov Azərbaycanda məktəb təhsili dövrünün Zərdüşt məktəbləri ilə başladığını bildirmişdir(10,10). Mənbələrdən də məlum olur ki, islamiyyətin yayılmasına qədər Azərbaycanda Zərdüşt məktəbləri daha geniş fəaliyyət göstərmiş atəşkədə və atəşgahlar Zərdüştlüyün həm ibadət yeri, həm də təlim, tədris mərkəzləri kimi fəaliyyət göstərmişdir. Bunlar da Azərbaycanda məktəb təhsilinin əsasım təşkil etmiş və təməl amillərdən olmuşdur. Sasanilər dövründə Zərdüştlük qüvvətlənərək ölkənin rəsmi dininə çevrilmişdi. Bu dövrdə ibtidai təhsil verən məktəblərlə bərabər, peşə təmayüllü məktəblər olmuş, hətta Sasanilər dövründə bəzi Pəhləvi ədəbiyyatmda ali təhsil almaq üçün görülən tədbirlərdən danışılması burada ali təhsil verən tədris mərkəzlərinin də olmasından xəbər verir. Mənbələrdən bu da aydın olur ki, bu dövrdə təhsil sinfi xarakter daşımış, əhali müəyyən zümrələrə, silklərə bölünmüş və məktəb tipləri də buna müvafiq olaraq dörd təbəqəyə- kahinlər, döyüşçülər, katiblər, sənətkarlar təbəqəsinə bölünmüşdür. Əhalinin dörd silkdən birinin katiblər olması və bu silkə məktubları, protokolları tərtib edən mirzələr,

hesabdarlar, hüquqşünaslar, həkimlər, yazıçı və şairlər, coğrafiyaşünaslar və mnəccimlərin daxil olması onu göstərir ki, burada savadlı, təhsil görmüş elm adamlarma xüsusi diqqət yetirilmişdir. Bu da ona əsas verir ki, Sasani dövlətinin tərkibinə daxil olan Azərbaycanda (Atropatendə) təhsilə, elmə, elm adamlarına, savadlı adamlara xüsusi hörmət göstərilmiş, böyük əhəmiyyət verilmişdir.

Bu dövrdə yüksək silkə malik olan şahzadələrin, rütbə sahiblərinin uşaqları Saray məktəblərində təhsil alırdılar. Saray məktəblərində gənclərin təlim-tərbiyəsi ilə şahzadələr və yüksək səviyyəli müəllimlər məşğul olurdular. Bu məktəblərdə dövlət üçün kadrlar hazırlanırdı.

Zərdüşt təlimi və tərbiyəsi Zərdüşt məbədlərində, atəşkədələrdə aparılırdı. Dövrün ən böyük aətəşkədəsi-Azərqoşnəsb Azərbaycan diyarında yerləşirdi. Dövrün böyük alimləri olan əl-Məsudinin, əl-Həməvinin əsərlərindən də məlum olur ki, qədim Azərbaycanm paytaxt şəhərlərindən olan Şiz (Gəncək) şəhərində yerləşən əzəmətli mədəniyyət, elm, təhsil mərkəzi, Zərdüşt məbədi Azərqoşnəsb olmuşdur. Azərqoşnəsb məbədinin Şiz şəhərində yerləşməsi onu göstərir ki, qədim Azərbaycanın paytaxü olan bu şəhər böyük elm, maarif və mədəniyyət mərkəzi olmuşdur. «Avesta»nın iki nüsxəsindən biri Şiz Atəşkədəsində saxlamlırdı. Sasanilər dövründə Zərdüştün müqəddəs kitabı«Avesta» məhz Şiz nüsxəsi əsasmda tərtib edilmişdir. İran, Azərbaycan, Türküstan, Hindistan Zərdüşt məbəd- lərində çalışmaq üçün ruhani kadrlar məhz Şiz şəhərində hazırlanıb yerlərə göndərilirdi. Azərqoşnəsb kompleksi o dövrdə Yaxın Şərq və Orta Asiya ölkələri üçün ən mühüm mədəniyyət, yüksək elm və ali təhsil mərkəzi hesab olunmuşdur. Yuxarıda adını çəkdiyimiz ərəb tarixçisi Məsudi bu şəhər haqqında yazmışdır ki, burada heyrət doğuran binaların qalıqları, eləcə də səma kürəsini, ulduzları, dünyanı, quru və dənizləri, yaşayış yerlrini, bitki və canlıları əks etdirən rəngarəng və çox gözəl rəssamlıq lövhələri vardır. X əsrdə yaşamış coğrafiyaşünas alim, səyyah Əbu Duləf Şiz şəhəri haqqmda yazır ki, bu şəhər qızıl, civə, qurğuşun, gümüş, sarı arsen və cəmast adlı daş mədənləri olan dağlar arasında yerləşir...Orada çox möhtəşəm bir atəşkədə (od evi) vardır. Şərq və Qərbdə yaşayan atəşpərəstlər buradan od apanrlar. Atəşkədə qübbəsinin başında, onun tilsimi olan gümüş aypara vardır» (78,78).

Hindistanda və Yunanıstanda Avestanın tibb, nücum, coğrafiya, fəlsəfə sahələrinə dair hissələrin toplanması haqqında Sasani şahı Şapurun (242-272) xüsusi fərman verməsi onu göstərir ki, o dövrdə bu fənlərin öyrənilməsinə xüsusi diqqət yetirilmişdir.

Atəşkədələrdə Zərdüşt təhsili alanlar bütün günü orada olur, orada yeyir, orada gecələyirdilər. Onların təhsil xərclərini Atəşkədələr ödəyirdilər. Atəşkdələr bir elm, tədris mərkəzi, alimlər, müdriklər ocağı idi. Dahi Nizami Gəncəvi «İskəndərnamə» əsərində bu barədə dəyərli məlumatlar vermişdir. O bu əsəri yazarkən,

İskəndərin Azər- baycandakı sərgüzəştlərini qələmə alarkən XII əsrə qədərki ən qədim və dəyərli məxəzlərdən istifadə etmiş, onları diqqətlə oxuyub öyrəndikdən sonra əsəri üçün istifadə etmiş və özü də bu barədə belə yazmışdır:

*Ərı qədim tarixi əsərlərdən mən, Yəhudi,*
*nəsrani, pəhləvilərdən Ən incə sözləri əlimə*
*saldım, Qabığı ataraq, məğzini äldım.*
*Müxtəlif dillərdən yazdığım sözlər,*
*Bunlardan döğuldu yazdığım əsər (57,8).*

Daha sonra Nizami Atəşkədələrin işi, fəaliyyəti haqqmda dəyərli məlumatlar verir:

*«İranda adətdir keçmişdən bəri Atəşkədə idi*
*alimlər yeri, Orda saxlanardı, sərvət,*
*xəzinə Düşməsin başqa bir şəxsin əlinə Hər*
*sonsuz varlı da, «Savabdır» - deyə Malını*
*qoyardı atəşkədəyə, Ölkələr düşmüşkən*
*dərmansız dərdə, Bir xəzinə idilər*
*Atəşkədələr» (57, 172)*

Buradan aydın olur ki, Atəşkədələr təkcə ibadət yeri, dini mərasim- ləri icra etmək yeri olmamış, həm də alimlər yeri, ədəb-ərkan yeri, bir mədəniyyət, təhsil mərkəzi olmuşdur. Müəllim və alimlər burada təlim və tərbiyə ilə, pedaqoji işlə məşğul olmuşlar. Atəşkədə və atəşgahlarda təlim-tərbiyə işləri ilə mağlar (muğlar), atərvanlar (Od qoruyanlar) məşğul olurdular. Həmin məktəbin təlim-tərbiyə proqramı üç mühüm hissəyə bölünürdü: 1) Dini-əxlaqi; 2) Fiziki; 3) Yazıb oxumaq. Dini-əxlaqi təlim cəmiyyətin hər bir üzvü üçün vacib idi.

Zərdüşt məktəblərində təlim «Avesta» duaları, ayinləri və nəğmələri ilə başlayırdı. Daha sonra əlifba və oxu təliminə keçilirdi. Məktəblərdə fiziki tərbiyəyə, uşaqların sağlam həyat tərzinə xüsüsi diqqət yetirilir, «Avesta»mn «Xəstələnmə», «Zəifləmə»-kimi çağırışları əzbərlədilir və ona əməl edilirdi. Xəstəlik, zəiflik, pislik

Əhrimanın əməlləri hesab olunurdu. Ox atmaq, nizə tullamaq, üzmək, ov etmək, qurşaq tutmaq fiziki tərbiyənin əsas məzmununu təşkil edirdi. Ona görə də şərə qalib gəlmək üçün sağlam, təmizkar və qüvvətli olmaqla bərabər, məktəbdə dərin bilik almaq tələb edilirdi. Yazıb-oxumaq, bilik qazanmağm mühüm şərti hesab edildiyindən Zərdüştlükdə buna ciddi fikir verilir, uşaqların əqli qabiliyyətləri inkişaf etdirilirdi.

Zərdüşt məktəblərində öyrədilirdi ki, insan həmişə mülayim, xoşxasiyyət, adil və xeyirxah, fitnə-fəsaddan, qəddarlıqdan, paxıllıq-dan, yalançılıqdan uzaq olmalıdır. O, cəmiyyətin fəal üzvü kimi əkin- çiliklə, maldarlıqla məşğul olmalı, bataqlıqları qurudub onu məhsuldar torpağa çevrilməsinə səy göstərməlidir.

Zərdüşt məktəblərində yetişən gənc nəslin mənəvi-əxlaqi tərbiyə-sinə xüsusi diqqət və əhəmiyyət verilirdi. Belə ki, Zərdüştlüyün əxlaqi idealı xeyirxahlıq, ədalət, yaxşılıq olduğundan Zərdüşt təlimində yaxşılıq və pislik anlayışı kəskin şəkildə qoyulur və bunlarm mahiyyəti açılır: «Anlayan adam gərək pisi deyil, yaxşmı seçə»-fikri irəli sürülür.

Zərdüşt məktəblərində ibtidai təhsil 7 yaşdan 15 yaşa qədər davam edirdi. İbtidai təlim ilə məşğul olan müəllimə «Hirbod», şagirdlərinə isə «Həvişt» deyilirdi. Ibtidai təhsil səhər tezdən xüsusi mərasimlə və dua ilə başlayırdı. «Avesta» duaları dini ayin və mərasimlərin, nəğ- mələrin öyrənilməsi, əzbərlədilməsi ibtidai təhsilin əsas məzmununu təşkil edirdi. Ona görə də ruhanilər «Avesta» dualarmda «Elm ilahə- si»ndən qüvvətli hafizə diləmişlər. Oğlan uşaqlarmm yeddi yaşı tamam olandan sonra onlara müqəddəs köynək geydirilir, onları münəccimlərlə bir sıraya üzü günəşə doğru düzüb dini «Avesta» ayinlərini əzbərlədirdilər: «Mən vəd edirəm ki, Zərdüştlüyə sadiq olacağam. Mən xeyirxah fikrə, xeyirxah sözə, xeyirxah əmələ inanı- ram». Bundan sonra uşaqlara hədiyyələr verilirdi. Bu məşğələ gündə beş dəfə təkrar edilirdi. Azərbaycan Zərdüşt məktəblərində tədris prosesi müəyyən mərasim ilə müşaiyət edilirdi. Bu da dərs material- larınm şagirdlər tərəfindən əzbərlənməsini asanlaşdırmaq məqsədi güdürdü. «Avesta» hələ kitab şəklinə düşmədiyinə qədər ruhanilər «Avesta» dualarını

əzbərdən söyləməli idilər. «Avesta» duaları tam əzbərləndikdən sonra yazı öyrədilirdi. Beləliklə ibtidai təhsil başa çataraq, yeni bir təhsil pilləsinə başlamaq olardı.

Prof.Ə.Yəqubinin verdiyi məlumatlarda deyilir ki, VI əsrdən qalmış «Ənuşirəvan və Qolam -bəççe-yi u» adlı bir sənəddə «Qolam bəççe» öz təhsili haqqmda şaha məlumat verərkən deyir ki, onu müvafiq yaşda məktəbə göndərmişlər və o, «Avesta»mn əsas hissəsini əzbərlədikdən sonra orta təhsil almağa başlamışdır. Həmin sənəddən, eləcə də «Avesta»dakı bir sıra dualardan bu qənaətə gəlmək olur ki, Sasanilər dövründə İranda, eləcə də Azərbaycanda «Avesta»dan ayrı- ayrı dualarm və dini nəğmələrin əzbərlənməsi ibtidai təhsilin məzmununu təşkil edirdi və ibtidai təhsil dövründə «Avesta» bir dərslik kimi yeganə tədris vəsaiti hesab olımurdu (78,149).

«Avesta»da insanların yüksək məqsədə, xoşbəxtliyə çatmasmda müəllimin roluna yüksək qiymət verilməklə bərabər, həm də bunun əksi olaraq göstərilir ki, pis müəllim isə uşağm şüurunu, əqlini pozar onu bədbəxt edər: «Pis müəllim şüuru korlar, sözün mənasını çatdırmaz, ağlın inkişafını dayandırar, təlim-tərbiyə işini fəsada çevirər. Nəticədə həyatın təbii axınına və gözəlliyinə zərər yetirər».

«Avesta»da ataların vasitəsilə övlada verilən tərbiyəyə dair xüsusi fəsil ayrılmışdır. Həmin fəslin xülasəsində deyilir ki, təlim-tərbiyə varlığın bünövrəsi kimi mühüm əhəmiyyətə malikdir. Hər bir şəxs müəllim və tərbiyəçilərin vasitəsilə yazıb oxumağı öyrənməli, həm də özünün sağlamlığına ciddi fikir verməlidir. Yalnız bu yolla insanlar yüksək nailiyyətlər əldə edə bilərlər.

Zərdüşt müəllimlərlə yanaşı, alimlərin də roluna yüksək qiymət verir: «Çalışın ki, alim ilə cahil arasmda fərq qoyasıruz. Alimlər həyatin yol göstəriciləridir».

«Avesta»da müəllim və şagird münasibətləri haqqmda məlumatla- rm verilməsi bu dövrdə Azərbaycanda digər məktəblərin, təhsil ocaq- larımn, tədris müəssisələrinin olmasmdan da xəbər verir.

Zərdüşt yüksək pedaqoji dəyərə malik müdrik fikirlər söyləmişdir ki, onlar «Avesta» kitabında öz əksini tapmışdır.

«Avesta» insanları halal zəhmətə, vətənə sədaqətə, düzlüyə, şər qüvvələrə qarşı müba- rizəyə səsləyir. «Avesta»da təsvir olunan mühit, günahlarmı yuyan, xeyirxah ruhlara sədaqət nümayiş etdirən, dualar oxuyan adamların mənəviyyatı, həyatı olduqca ibrətamizdir. Bu təlimi öyrənməklə adamlar çətin vəziyyətlərdə Allaha dua etmiş, şər qüvvələri lənətlə- miş, xeyirin və xeyirxahlığm himayəsinə sığınmışlar. «Avesta»da xeyir və şər anlayışları bir əxlaqi, mənəvi kateqoriya kimi nəzərdən keçirilir. «Avesta»da bütün kainatı, insanlığı, xeyirxahlığı Hürmüz (Ahurə-Məzda) idarə edir. Əhriman isə (Ahura-Manyu) şərin, bədxahlığın, hiylənin timsalıdır. Zərdüştlük nəticə etibarı ilə xeyirin şər üzərində, işığın zülmət üzərində qələbəsinə inam və etiqadıdır. Gec-tez xeyir qələbə çalacaqdır. Zərdüştün xeyirə inamı əsrlər boyu dünyanm ən qabaqcıl adamlarmda haqqa, ədalətə inam hissini arürmışdır. «Avesta»nm əsas ideyasmda xeyirin şər üzərində qələbəsi ilk növbədə insanların xeyirli biliyindən, yaxşı düşüncəsindən və faydalı əməlindən irəli gəlir. Buna görə də «Avesta»da elm və biliklərə yiyələnmək, əqli tərbiyə, xeyirxahlıq əsas dini vəzifə hesab olımur. Bütün bunlar isə öz başlanğıcını üç müqəddəs kəlamdan alır: 1) Xeyirxah fikir; 2) Xeyirxah söz; 3) Xeyirxah əməl. Pedaqoji elmlər doktoru, prof. Ə.Ə.Ağayev «Avesta»da şəxsiyyətin tərbiyəsi məsə- ləsinə toxımaraq yazır: «Avesta»run müəllifi Zərdüştün (b.e.ə.569-492) təliminə görə bu dünyada hər şey bir-birinə əks olan iki başlanğıca bölünüb: Xeyir və Şər başlanğıcına. Ümumiyyətlə, Azərbaycan pedaqoji fikrində şəxsiyyət tərbiyəsinin əsas mahiyyətini xeyir və şər konsepsiyası təşkil edir. Insan xeyir və şərin vəhdətini özündə birləşdirir... Qədim Azərbaycan pedaqoji fikri şəxsiyyətin mahiyyətini xeyirdə-yaxşı düşünməkdə, yaxşı danışmaqda (ünsiyyətdə) və yaxşı işlərdə (fəaliyyətdə) görür. Bu keyfiyyətləri özündə daşıyan şəxs əsil şəxsiyyət hesab edilir» (3,14-15).

«Avesta»mn «Yəştha» adlı bölməsində «Çista» elm və bilik ilahəsi kimi göstərilmişdir. Zərdüşt «Çista» ilahəsinə xitabən belə demişdir: «Sən əgər irəlidə olsan, məni gözlə, əgər geridə qalsan özünü mənə çatdır». Bununla Zərdüşt hər cür durğunluğun əleyhinə olaraq hammı fəaliyyətdə olub elm, bilik qazanmağa çağırmışdır. Buna

görə də «Avesta» da elmə yiyələnmək əsas dini vəzifələrdən biri hesab edil- mişdir. «Avesta»da təlim-tərbiyə məsələləri ilə bağlı göstərilir ki, təhsil almaq məqsədilə yanınıza kimsə gəlib sizə müraciət edərsə o şəxsin kim olmasmdan asılı olmayaraq onu qəbul et və istədiyini ona öyrət.

«Avesta dualarımn birində valideyn Hürmüzdən «yaxşı rəftarlı və şüurlu övlad» diləyir. Demək Hürmüzün oğlu hesab edilən Azərdən şüur və zəka istənmişdir. Bu ifadələrdən məlum olur ki, Zərdüştlükdə əxlaqi, əqli tərbiyə əsas diqqət mərkəzində olmuşdur. Əqli tərbiyə isə təlim vasitəsilə həyata keçirilir. Təlim isə müəllimin rəhbərliyi və müşaiyəti ilə keçirilən pedaqoji prosesdir.

«Avesta»da mənəvi dəyərlər-xeyirxah fikir, xeyirxah söz və xeyirxah əməl üçlüyndə öz ifadəsini tapır. Burada əxlaqi-mənəvi proses üç mərhələyə bölünür: Əvvəlcə xeyirxah fikir yaranmalı, sonra bu fikir sözdə ifadə edilməli və nəticədə xeyirxah əməldə özünü göstərməlidir. Bu üç mənəvi keyfiyyət ailə münasibətlərində, icmada və vilayətdə hər zaman öz əksini tapmalıdır. «Avesta»da deyilir ki, «Tərbiyə həyatın ən zəruri sütunu hesab edilməlidir. Hər kəsi elə tərbiyə etmək lazımdır ki, o oxumağı, yazmağı bacarmaqla yüksək pilləyə qalxa bilsin».

«Avesta»da tərbiyə məsələləri maddi və mənəvi təmizliyə əsaslanır. Yəni 1) fiziki təmizlik (bədən, geyim, ev-eşik təmizliyi); 2) mənəvi təmizlik (əqidə və əməllərin saflığı). Burada insanın həm bədəninin təmizliyi, ev-eşik, geyim təmizliyi həm də mənəvi təmizlik-yəni insanm daxili təmizliyi nəzərdə tutulur. «Avesta» da insana qiymət, insan şəxsiyyəti yüksək dəyərləndirilir, onun ağlma, yaxşı əməllərinə inam, xeyirxahlığa çağırış, günahsız, pak yaşamaq anlayışı təlqin edlir. «Yəsnə»nin 19-cu bəndində deyilir: «Uğurlu düşüncə nədir? Müqəddəs kəlam. Uğurlu əməl nədir? Müqəddəs yaranmışları üstün tutaraq onlara sitayiş etmək». 33 -cü bənddə bu fikir daha da inkişaf etdirilir: «Yalan din əleyhinə öz sözü, düşüncəsi və əməli ilə mübarizə edənlər, eləcə də öz adamlarına yaxşılıq öyrədənlər Ahura Məzdanm istədiyini yeriən yetirmiş olurlar». Burada «Xeyirxahlıq», «Yaxşılıq» bir əxaqi kateqoriya kimi xeyirxah

idrak və xeyirxah fikirdən irəli gəlmişdir.Ona görə də Zərdüşt insanları fikrində, sözündə, əməlində xeyirxahlığa, yaxşılığa çağırır.

«Avesta»da insanlar öz millət və irqlərinə görə deyil, onlarm dinə olan münasibətlərinə görə iki yerə (imanlılar və imansızlar) ayrılırlar.

Burada göstərilir ki, dünyanın sonunda hər kəs öz əməllərinə, əqidəsinə görə cavab verəcəkdir. Ona görə də insarun düşüncəsindən irəli gələn söz və əməl xeyirli və faydalı olmalıdır.

Zərdüşt «əkini və bol məhsullu tarlanm da gözəl ailənin» də əsasrnı düzlük və gözütoxluqda görürdü. Bunlarm hər ikisi insanı nəfsə qalib gəlməyə, intizamlı və mütəşəkkil olmağa sövq edir. «Avesta»da insanları zəhmətə, əməyə, müqəddəs yola dəvət, düzlüyə, doğruçulu- ğa qüvvətli təlqin vardır: «Kim taxıl səpir, məhsul becərirsə, o mömin- lik, düzlük, doğruçuluq, təmizlik əkib becərir, həyata, insanlara xoşbəxtlik və səadət gətirir». Zərdüşt kəlamlarmda pəhrizkarlıq düzlük və doğruçuluğxm əsası kimi təlqin edilir: «Düzlüklə pəhriz- karlıq birləşəndə əsl insanlıq cilvələnir. Gəlin hamımxz üz tutub bu səmtə yollanaq».

Beləliklə, deyə bilərik ki, Zərdüşt məktəbləri Azərbaycanda məktəb təhsilinin təşəkkülündə, inkişafmda mühüm mərhələni təşkil etmiş və Zərdüştün müqəddəs kitabı «Avesta» insanların mənəvi, əxlaqi key- fiyyətlərinin formalaşmasında, inkişafmda və təkmilləşməsində bö- yük əhəmiyyət kəsb etmişdir ki, bu da Azərbaycan məktəb və pedaqoji fikir tarixinin mühüm qolunu təşkil etməkdədir.

# II. ERKƏN ORTA ƏSRLƏR DÖVRÜNÜN TƏLİM-TƏRBİYƏ MƏDƏNİYYƏTİ VƏ PEDAQOJİ FİKRİ

## 1. Yeni mənəviyyat və əxlaqa, maarif və mədəniyyətə yürüş

Erkən orta əsrlər dövründə islamiyyətin meydana gəlməsi özü ilə yeni maarif, mədəniyyət və yeni əxlaq gətirdi. İslamı qəbul etmiş ölkələrdə olduğu kimi Azərbaycanda da təhsil, tərbiyə islam prinsipləri əsasmda qurulmağa başladı. İslamiyyətin yayıldığı bütün ölkələrdə təlim -tərbiyə, təhsil pedaqoji fikirlər, yazılan əsərlər islam qaydalarından nəşət etmiş, islami hökmlərə əsaslanmışdır.

İslamiyyətin meydana gəlməsi elmin, təhsilin, mədəniyyətin və mənəviyyatın inkişafma qüvvətli təsir göstərdi. İslamdan əvvəl

bilindiyi kimi ərəblərin yaşadığı yerlər çöl və səhralıq olmuşdu. Bu dövrdə onlar yalnız çöl həyatına alışmış elm və təhsildən uzaq olmuşdular. Məkkə şəhərində 11, Mədinədə 7 nəfər oxuma və yazma bilən adam var idi. Məhəmməd Peyğəmbərin (s) deyişi ilə öz dövrünün ərəbləri «Oxuma və yazma bilməyən» savadsız bir tayfa idilər. Onların bildikləri yalnız hafizəyə əsaslanan və nəsildən-nəslə keçən təcrübi biliklərdi. Qəbilələr arasmda savaşlar olduğundan at, silah, dəvə kimi savaş vasitələri haqqında müəyyən bilikləri vardı. Bununla bərabər əxlaqi və mənəvi keyfiyyətləri çox aşağı idi. Xüsusilə qızlar və qadınlar tam hüqüqsuz idilər. Qız uşaqları heç bir dəyərə sahib deyildilər. Bəzilərinin qız uşaqları olduqda utandıqlarından ortalıqda görünməz olur və yaxud da yenicə doğulan qız uşaqlarını diri-diri torpağa basdırardılar. Qadın müti vəziyyətdə yaşayırdı. Belə bir zamanda cəmiyyəti islah etmək, onu doğru yola yönəltmək vəzifəsi Məhəmməd Peyğəmbərin (s) (570-632) üzərinə düşürdü. lə bir ülvi vəzifəni həyata keçirmək üçün mükəmməl bir maarif sistemi yaratmaq gərəkirdi. Məhəmməd Peyğəmbərin (s) əsl vəzifəsi toplumu maarifləndirmək, tərəqqi etdirmək idi. Ozü deyirdi: «Rəbbim məni təhsilləndirdi (əddəbə) və mənim təhsilimi (tədib) ən mükəmməl qıldı, mən bir müəllim olaraq göndərildim. Mən gözəl əxlaqı tamamlamaq üçün gəldim» (92,1. c.89). Göründüyü kimi peyğəmbərimiz təhsillənmə sözünü işlədərkən «ədəb», «əxlaq» kəlməsini qəsd etmişdir. Ədəb zehnin və ruhun tərbiyəsidir. Quranda Peyğəmbərimizin vəzifəsinin öyrədici, tərbiyəedici olduğu göstərilməkdədir: «Ey Rəbbimiz! Onlara öz içlərindən özlərinə sənin ayələrini oxuyacaq, onlara kitab və hikməti öyrədəcək bir elçi göndər» (42,129).

İslam təlim və tərbiyəsinin əsas məqsədi kamil bir insan yetişdirməkdir. Elə bir insan ki, təkcə vətənində deyil, dünyanın harasmda olursa olsun, yüksək insani keyfiyyətlərə malik olsun. İslam insanı maddə və mənadan, bədən və ruhdan mütəşəkkil bir varlıq kimi, bütov şəkildə görür və insaru bütün təmayül və davranışları ilə birlik- də öyrənir. İslam təlim və tərbiyəsinin əsas vəzifəsi insanı mükəm- məlliyə, aliliyə, ən yaxşıya, ən gözələ çatdırmaqdır.

İslam elm və mədəniyyətinin yaydması hər yerdə, o cümlədən Azərbaycan xalqımnın tərəqqisinə və ihkişafma səbəb oldu. Pedaqoji elmlər doktoru, professor Z. Qaralov İslamın elm və mədəniyyətin inkişafma təsiri haqqında belə yazır: «İslam mədəniyyətinin, islam mənəviyyaü və elminin sürətlə yaydması, dünyamn bir çox xalqlarmm həyatında, dünyagörüşündə, məişətində dönüş yaratdığı kimi, Azərbaycan xalqının inkişafında da köklü dəyişiklərə səbəb oldu. Elmin, maarifin, mədəniyyətin, bütövlükdə həyat tərzinin yeni, daha mükəmməl əsaslar üzərində qurulması prosesi başladı. Ailə-nigah, valideyn-övlad, insan-cəmiyyət münasibətləri təzələndi.Tamamilə yeni elmi prinsiplə qurulan təhsil müəssisələri - ibtidai məktəblər, peşə məktəbləri, mədrəsələr əhalinin bütün təbəqələrinin maariflən- məsirıə imkan yaratdı. İslam elmi pedaqoji təfəkkürdə əsaslı dəyişiklik əmələ gətirdi...» (38,45).

İslamda təlim və tərbiyə sahəsində ilk əməli işi başladan elə Məhəmməd Peyğəmbərin (s) özü olmuşdur. O, yeni dinin təbliğatçısı kimi insanlara mənəviyyatı, əxlaqı yayan bir müəllim, elmin, biliyin müdafiəçisi kimi meydana çıxmışdır. Bilindiyi kimi Allah Taalanm 99 admdan biri «Rəbb»dir. «Rəbb ( Vj ) ərəbcə «İslah etmək», «Tərbiyə etmək», «Böyütmək», «Ərsəyə çatdırmaq» deməkdir. Peyğəmbəri- miz(s) Allahın bu tərbiyəedici rolunu yaxmdan bildiyindən «Pəbbim məni nə gözəl tərbiyə edib yetişdirdi». «(Ya Peyğəmbər! Qurani Kərimi bütün məxluqatı) yoxdan yaradan Rəbbinin adı ilə (bismillah deyərək) oxu!. O, insanı laxtalanmış qandan yaratdı.(Ya Peyğəmbər!) Oxu! Sənin Rəbbin ən böyük kərəm sahibidir! O Rəbbin ki, qələmlə(yazmağı) öyrətdi» (42, 637).

Məhəmməd Peyğəmbər (s) elm və biliyi, mənəviyyaü geniş şəkildə yayır, əhalinin savadlanmasına çalışırdı. O, Bədr savaşmda əsir alınan Qüreyşlərdən bir qismini həyaüarmı pul qarşılığında bağışlamış, pulu olmayanları, amma yazıb oxumağı bilənlərin hər birindən biliklərini digər müsəlmanlara öyrətməsini istəmişdir. Buna görə hər əsir həyaü qarşılığmda on müsəlmana yazıb oxumaq öyrədirdi.

Göründüyü kimi Allahın Rəsulu peyğəmbərliyinin hər anını insanlara öyrətməklə dəyərləndirmişdir; həm özü öyrətmiş, həm də

bilənlərin öyrətməsini əmr etmişdir. Buna görə də «Sizin ən xeyirliniz Quranı öyrənən və öyrədəndir» - sözüylə də elm öyrənməyə insanları təşviq etmiş, insarüarm gözünü açmışdır. Azərbaycan Qaraqoyunlu dövlətinin başçısı, maarifpərvər hökmdar, «Həqiqi» təxəllüsü ilə şeirlər yazıb, böyük «Divan» yaradan Mirzə Cahan Şah Həqiqi öz «Divan»ında Məhəmməd Peyğəmbərin (s) maarifpərvərliyini, tərəq- qipərvərliyini, biliksevərliyini belə misralarla tərif etmişdir: *Ey aləmlərirı şahı, ey xətəməl-ənbiya, Ey övliyalar sirrin bilən, ey Məhəmməd əl-Mustafa Sənin ləli-gövhər kəlamların həqiqəti qıldı bəyan, Camalının şəm"i yolumuzu işıqlatdı, oldun bizə rahnüma Eşq günəşi camalının işığından aldı ziya Ey gözlərə nur bəxş edən, ey Padişahi-ənbiya (26, 47)*

Həz. Peyğəmbər (s) bir tərəfdən bilikləri yayır, insanlara «Nur bəxş edib» onları cəhalətdən qurtarır, digər tərəfdən də bilənlərin bildik- lərini başqalarına öyrətməsini əmr edir, ehtiyac duyulan bölgələrə müəllim göndərmə vəzifəsini yerinə yetirirdi. Peyğəmbərin təşviqiylə elm adamları hər yerdə rəğbətlə qarşdanırdı. Peyğəmbərimiz (s) hər zaman zülmə, ana-ataya üsyan edənlərə, rüşvət, lovğalıq və təcəssüsə (başqalarmda ayıb axtarma, qeybət), təfriqəyə qarşı mübarizə aparmış, bunların əksinə olaraq millət içərisində düzlük və doğruçuluğu əliaçıqlığı, mərhəməti, qonşu haqlarına piayət etməyi, düzgün dost seçməyi, cihad etməyi, xoş rəftarlı olmağı, gözəl əxlaq sahibi olmağı təbliğ etmişdir. Peyğəmbərimiz (s) özü də əxlaqca insanlann ən gözəli idi. Müqəddəs kitabımızda peyğəmbərimizə xitabən deyilir: «Doğru- dan da, sən böyük əxlaq sahibisən! (Böyük bir din üzərindəsən!)» (42, 583). Peyğəmbərimiz (p) buyurmuşdur: «Sizin ən xeyirliniz əxlaqca ən gözəl olanıdır» (95, II c.,99).

Peyğəmbərimiz (s) ona vəhy edilənləri yaymış, katiblərinə yazdır- mış, təhsili, tərbiyəni, mənəvi, əxlaqi məsələləri xalq arasında təbliğ etmiş, Allahın kəlamlarını kütlələrə yaymış, onları yazdırmışdır. Bütün bunlarm nəticəsində Quran adlı müqəddəs bir kitabm meydana gəlməsinə səbəb olmuşdur. «Quran» ( jlja ) özü də «Qər'ə» ( Ac. ji ) sözünün kökündən əmələ gələrək «Oxumaq», «Tələffüz etmək» mə- nasım verir. Başqa sözlə Quran həm filoloji, həm

pedaqoji cəhətdən «Oxumaq» deməkdir. Çünki Quran özü bir təlim vasitəsidir.Quran «Ümmül-Kitab» (Kitabların anası), «Kəşfül-Həqayiq» (Həqiqətlərin kəşfi), «Məcmueyi-Xeyrül Kəlam» (Xeyirli sözlər, kəlamlar toplusu) kimi gözəl sözlərlə adlandırılmışdır.

Islamm başlanğıcında, oxuma yazma bilən müsəlmanların sayı az olduğu üçiin Məhəmməd Peyğəmbər (s) onlarm hamısmı və ya böyük bir qismini öz hüzurunda vəhy katibi olaraq çalışdırırdı. Bu səbəbdən də onlar oxuyub yazmağı tez bir zamanda öyrəndilər. Həzrəti Peyğəmbər (səs) öyrənən ilə öyrədənin savabımn bərabər olduğunu göstərərək belə demişdir: «Ya elmi öyrədən ol, ya elmi öyrənən ol, ya dinləyən ol, ya elmi sevən ol, başqası olma, yoxsa həlak olarsan!»(92, II c.229). Məhəmməd Peyğəmbər (s) elmə, maarifə böyük önəm ve- rərək belə buyurmuşdur. «Elm sahibi olmaq hər müsəlmana fərzdir».
«Diqqət edin, öyrənin və ya öyrədin elm sahibi olun, cahil olaraq ölməyin»(92, III c., 126). Səadətin, xoşbəxtliyin açarı İslamda məhz elmdə axtarılmışdır. Buna görə də hər kəsin elm təhsil qazanması əbədi xoşbəxtliyə çatmasmm təməl yoludur. Hər kəsin qiyməti onxm biliyi qədərdir. Təhsilin ən ucqar kəndlərə belə yayılmasmı istəyən xalqı aydmlatmağm, onları cəhalətdən qurtarmağm vacibliyini elmdə görən Peyğəmbərimiz (s) belə buyururdu: «Elmi öyrənin öyrəndik- lərinizi də xalqa öyrədin. Çünki mən öləcəyəm əks halda elm ortadan qalxar və fitnə baş qaldırar»(92, III c, 126).

Elmin dəyəri və önəmi haqqında Peyğəmbərimizin (s) çoxlu hədisləri vardır. O belə deyirdi: «Beşikdən qəbrədək öyrən», «Elmimi artıraraq Allaha yaxm olmadığım günün şəfəqi lənətlənsin». «Elmi aramayan ölür»,«Alimləri eşidin, çünki onlar dünyarun çırağı, axirətin nurudurlar», «Elm öyrənmək üçün yola çıxan kimsə evinə dönüncəyə qədər Allah yolundadır», «Elm arayanları mələklər qanadlarıyla qoruyur», «Elmi əldə edin, Allah yolunda onu əldə edən xeyir işləmiş olur, ondan bəhs edən, Rəbbini öymüş olur, sədəqə vermiş olur; onu haq edən, kimsələrə verən, yaxşılıq etmiş olur». «Elm Çində də olsa get dalmca öyrən» (92, III c.125,126. 127) deyən Peyğəmbərimiz (s) bu kəlamı iki mənada işlətmişdi. Birincisi,

o bilirdi ki, VII əsrdə elm Çində çox inkişaf etmişdi. İkincisi, elmin sərhəddi yoxdur. Elmin dalınca gedib onu öyrənmək, mənimsəyib xalqm xeyrinə isüfadə etmək çox vacibdir. «Bir saat elm öyrənmək altmış il nafilə ibadətdən yaxşıdır»- deməklə peyğəmbərimiz elmə, elm adamına yüksək qiymət vermişdir. O bununla bildirmək istəmişdir ki, islam qaydalanna kor-koranə əməl etmək deyil, ona şüurlu yanaşmaq, onu oxuyub öyrənmək lazımıdır.

Peyğəmbərimizə(s) görə, bilikli adamın nuru aləmə işıq saçan ulduza bənzəyir. Elm tükənməz xəzinə, soruşub öyrənmək isə onun açarıdır. Buna görə də alimləri qorumaq, onlara qayğı göstərmək hər bir şəxsin, hər bir dövlətin və dövlət başçısının borcudur. Alim əldə etdiyini başqalarına öyrədirsə, o şəxsin əql dünyasını zənginləşdirir, həyata gözüaçıq baxmasına zəmin yaradır. Qna görə də, Məhəmməd Peyğəmbər (s) deyirdi: «Alimlər peyğəmbərlərin varisləridir» (92, III c.128).

Peyğəmbər (s) biliklərə hələ kiçik yaşlarmdan yiyələnməyi zəruri sayırdı. Uşaqlıq və gənclik illərində əldə edilmiş biliklər həmin şəxsin əbədi malı, onun sonrakı biliklərinin bünövrəsi, məhək daşı olur. Uşaqlıqda öyrənilən bilik daş üzərində yazıya, ahdlıqda öyrənilən bilik su üzərində yazıya bənzəyir. Peyğəmbərimiz (səs) bir müəllim, tərbiyəçi kimi deyirdi ki, elmin bəlası onu unutmaqdır, elmi tələf etmək isə onu ləyaqətsizə tapşırmaqdır. O elmin əxlaqlı adamlarm əlində olmasını və elmin də əxlaqa, mənəviyyata xidmət etməsini istəyirdi. Peyğəmbər (s) deyirdi ki, elm çöldə dostumuz, tənhalıqda munisimiz, köməksizlikdə yoldaşımız, xoşbəxtliyə tərəf yol göstərəni- miz, dostlar arasmda zinətimiz, düşmənlər arasında silahımızıdır.

Məhəmməd Peyğəmbərin (s) şəxsi nümunəsi və hədislər, peyğəm- bərimizin səhabələri İslamda ən gözəl tərbiyə vasitəsidir. İslam dininin banisi Məhəmməd Peyğəmbər (s) bacarıqlı bir siyasətçi, qanunşünas, bəlağətli natiq, gözəl əxlaq müəllimi, safürəkli dindar, ləyaqətli başçı, mehriban rəhbər, böyük islahatçı, cəsur sərkərdə, mahir cəngavər olmuş və həmişə qalibiyyət onun tərəfində olmuşdur. Peyğəmbəri- mizin (s) əxlaqi keyfiyyətləri haqqmda danışsaq, deyə bilərik ki, o bir əxlaqilik, mənəviyyat timsalı kimi

bütün insanların tərbiyəsinə nümunə ola bilər. Qurani-Kərimdə Peyğəmbərimizə (s) xitabən- «Sən böyük əxlaq üzərindəsən» (42,583)-buyrulur. Peyğəmbərimiz müsəl- man ümməti üçün «Usuvəti-həsənə» («Gözəl nümunə») hesab edilir. İslam tərbiyəsinin ən gözəl nümunəsi şübhəsiz Məhəmməd Peyğəm- bərin (s) həyatı, fəaliyyəti, daha sonra bir sıra din böyüklərinin, elm- idrak sahiblərinin və görkəmli şəxsiyyətlərin yaşantısıdır. İslamm bu tükənməz əxlaq mənbəyindən, mənəviyyat xəzinəsindən bəhrələn- mək lazımdır. Sələfləri Peyğəmbərimiz haqqında deyirdi ki, o, insanların ən biliklisi və gözəli saydırdı. Orta boylu, enli kürəkli idi. Siyah saçları dəyirmi sifətinə çox yaraşırdı. Gözləri sürməli görünür- dü. Yeriyəndə ayağmı yerə bərk basardı. İnsanların ən gözəli idi. Ən alicənabı, ən igidi saydırdı. Səlis danışığı vardı. Dinləyənlər onu tez başa düşürdülər. Yalan danışanlardan xoşu gəlməzdi, onlara nifrət edərdi.

Peyğəmbər(s) öz müdrik kəlamlarında tərbiyə məsələsinə geniş yer vermişdir. O özü hər yerdə, hər işdə nəzakət qaydalarmı gözləmiş, bəd əməllərdən uzaq olmağı, əmanətə xəyanət etməməyi, hamının hörmətini qazanmağı tövsiyə etmişdir. Peyğəmbərimiz (s) ədəb, əxlaq haqqında deyirdi: «Kiçiklərimizin halına acımayan, böyüklərimizin şərəfini bilib(haqlarını təslim etməyən) bizdən (əhli sünnətdən) deyildir» (92,1 c.429). İki adamın barışması, onların aralarınm düzəlməsi, namaz qılmaqdan, oruc tutmaqdan xeyirlidir. İki cür adama Allah qiyamət günü rəhm etməz: yaxm adamlarımn əhvalım soruşmayana və pis qonşuya; Allah lənət eləsin ana ilə övladm, qardaş ilə qardaşm arasına girib, onları bir-birindən ayıranlara; atanm öz oğluna əvəzsiz olaraq verdiyi, bağışladığı şeylərin ən üstünü odur ki, onu yaxşı böyütsün, gözəl tərbiyə etsin; Allaha doğru sözdən daha qiymətli bir sədəqə yoxdur; Düzgün olun, çünki düzgünlük cənnətə açılan qapılardan biridir: yalan danışmaq cəhənnəm qapılarmdan biridir; Ağlına gələni damşmaq günaha yazılır; Çalış insanları şərdən xilas et. Bu sənin özünə verdiyin qiymətdir: İslamda insanlann mənəvi qiymətləri sahib olduqları əxlaqa görədir. Bir hədisdə deyilir: «Sizin imanca ən gözəliniz, əxlaqca ən gözəl olammzdır» .

Peyğəmbər (s) insanın bir şəxsiyyət kimi formalaşmasında elmi biliklərin mənimsənilməsinə xüsusi diqqət yetirirdi. O alimi, bilikli insanı qiyamət günü parlayacaq bir ulduza bənzədirdi, beşikdən qəbrədək öyrənməyi, bilik ardınca Çinə belə getməyi məsləhət görürdü. O bilik əldə etməyin ən yaxşı yolunu sual cavabda, soruşub. öyrənməkdə görürdü. Peyğəmbərimiz (s) deyirdi: Elm elə xəzinədir ki, açarları sualdır. Sual edin, sualda dörd adamm əcri var: sual edənin, alimin, qulaq asamn və onları sevən adamm. Yaramaz ki, cahil bilmədiyi halda, alim bildiyi halda sussun. Bir alimin məclisində olmaq min rükət namaz qılmaqdan, min xəstəyə baş çəkməkdən, min cənazə müşaiyət etməkdən yaxşıdır. Soruşmuşlar ki, «Ya Peyğəmbər, «Quran» oxumaqdanmı? O demişdir: «Biliksiz «Quran» fayda verər- mi?» Peyğəmbərimiz hər cür elmi öyrənməyi məsləhət görürüdü. Elm və biliklərə yiyələnmək Allahın yanmda oruc tutmaqdan da, namaz qılmaqdan da, həccə getməkdən də, Ulu Tanrı yolunda cihada qoşulmaqdan da üstündür. Peyğəmbərimiz (s) deyirdi: «Kimdən bilik öyrənirsinizsə, ona hörmət edin, ona qarşı mehriban olun. Kimə bilik öyrədirsinizsə, ona qarşı da mehriban olun».

Məhəmməd Peyğəmbər (s) tərbiyə işində insanın təkamül prosesini 21 yaşadək 7-7 üç əsas mərhələyə bölərək demişdir: övlad öz həyatınm birinci 7 ilində şah, ikinci 7 ilində (7-14 yaş) nökər, üçüncü 7 ilində məsləhətçi və məsul şəxs hesab olunur. Beləliklə insanm həyat yolu 21 yaşına qədər ardıcd olaraq üç mərhələyə (şahlıq, nökərlik və məsləhətçi, məsul) bölünür və bu da uşaqlıq, yeniyetməlik və ilk gənclik dövrləridir. Peyğəmbərimiz(s) bu üç dövr əsasmda uşaqların, yeniyetmə və cavanların tərbiyəsinin əsas qanxmlarım, tərbiyəçilərin bu sahədəki vəzifələrini müəyyənləşdirmişdir: «Qoy sənin övladın yeddi il oynasın, sonrakı yeddi il elm, ədəb öyrənsin və sonra onu özünün müşavirin və yoldaşın hesab et!» 21 yaşınadək 7-7 yaş bölgüsünü Aristotelin yaş bölgüsündə də görürük. Dahi Nizami Gəncəvi də 7-7 yaş bölgüsünü bəyənmiş və oğlu Məhəmmədə 7,14,21 yaşlarmda nəsihətamiz şeirlər yazmışdır.

Məhəmməd Peyğəmbər (s) buyururdu ki, «İnsanoğlu ölüncə əməli kəsilir. Ancaq üç adam müstəsnalıq təşkil edir: Sədəqə verən, elmindən faydalanan və öləndən sonra özünə dua edən mənəvi və fiziki cəhətdən sağlam övlad yetişdirən - bunların əməl dəftəri qapanmaz» (92, 54).

Peyğəmbər (s) uşaqlara yaxşı tərbiyə verib gözəl ədəb öyrətməyi valideynin boynuna düşən ən mühüm məsuliyyət hesab edirdi. O buyuyurdu ki, övladlarınıza yaxşılıq edib ədəb və əxlaqını gözəlləşdirin, övladlarmıza elm öyrənməyi əmr edin, ona yazmağı, üzməyi, ox atmağı öyrədin, onu halal yeməklə yedirdin. Uşaqları sevin, onlara mərhəmət göstərin, söz verdikdə yerinə yetirin (92,76,78).

Məhəmməd Peyğəmbərimizin (s) özü və səhabələri həmişə gözəl əxlaq və ədəb nümayiş etdirmişlər ki, tərbiyə işində heç şübhəsiz onların nümunələrindən istifadə etmək lazımdır. Görkəmli alim, prof.V.M.Məmmədəliyev bu barədə dəyərli fikirlər söyləyir. O yazır: «Islam əxlaqının ən gözəl nümunəsi şübhəsiz ki, Peyğəmbər əleyhissəlamm əxlaqı, daha sonra ənnmeyi-ətharın həyat tərzi, bir sıra din böyüklərinin, elm-irfan əhlinin və görkəmli şəxsiyyətlərin yaşantısıdır.Biz bu tükənməz əxlaq mənbəyindən həmişə bəhrələnməli, mütəmadi olaraq nümunə götürməli, uşaqlarımızı və yeniyetmələrimizi də daim bu ruhda tərbiyə etməliyik» (49,3).

Islamın ikinci böyük şəxsiyyəti Həzrəti Əlidir (598-661). O həm öz gözəl əxlaqı, həm dərin biliyi, həm də qəhrəmanlıq şücaəti ilə islam dünyasmda, islam tarixində böyük bir şəxsiyyət olaraq qalmaqdadır. Həzrəti Əli (ə) elm, bilik, əxlaq haqqmda və onlara yiyələnmək yaqqında dəyərli fikirlər söyləmişdir. «Bəqərə» surəsinin 189-cu ayəsində «Evlərə qapılardan daxil olun» əmri vardır. Məhəmməd Peyğəmbər (səs) - «Mən elmin şəhəriyəm, Əli isə qapısıdır; elmi istəyən qapıya gəlsin»; «Mən hikmət eviyəm, Əli qapısıdır, məndən sonra mənim təbliğ etdiyim şeyləri sizə açıq-aydm bildirəndir»;«Onu sevmək imandandır: ona qarşı çıxmaq isə nifaqdır» - deyə Həzrəti Əliyə yüksək qiymət vermişdir. Həzrəti Əlinin oğluna nəsihətləri, tərbiyədə yaş bölgüləri, tərbiyə haqqında fikirləri pedaqoji fikir tariximizdə böyük əhəmiyyət kəsb etməkdədir.O deyirdi: «Ata övladma yaxşı ad qoymalı, onun ədəb və əxlaqmı gözəlləşdirməli.

Quranı öyrətməlidir». Həzrəti Əli göstərirdi ki, övlada yaxşı tərbiyə vermək ana və atanın birinci dərəcəli vəzifəsidir:

*Vermdsə övlada ana tərbiyət,*
*Onda qalar daima heyvaniyyət.*
*Olmasa fərzəndə ata çün kəfil.*
*Daim ofərzənd olacaqdır zəlil.*

Həzrəti Əlinin bilik, elm, əxlaq haqqında fikirləri prof. F.A Rüstəmov tərəfindən toplanmış və pedaqoji cəhətdən təhlil edilmişdir (65, 151-162).

Fikirlərimizi yekunlaşdıraraq deyə bilərik ki, İslam nəsillərin mənəvi tərbiyəsində böyük önəm daşımış, tarix boyu insanlarm elm, bilik, qazanmalarına, mənəvi, əxlaqi cəhətdən kamilləşməsinə tərəqqi edib maariflənmələrinə, kamil bir şəxsiyyət kimi həyatda yaşama- larında xüsusi əhəmiyyət kəsb etmişdir.

## 2. İslamda tərbiyə məsələlərinə bir baxış

İslam drni yarandığı vaxtdan insanları, əxlaqa, mənəviyyata, kamilliyə çağırır. İslam öz-özlüyündə kamil əxlaq və mənəviyyata, müəyyən elm sisteminə malik olan sonuncu səmavi dindir. İslam uzun illər boyu nəsillərin təlim və tərbiyəsində mühüm yer tutmuş və bu gün də mühüm yer tutmaqdadır. Azərbaycan xalqımn ümummilli lideri, mərhum Prezidentimiz Heydər Əliyev deyirdi: «Bizdə dinə, mənəvi dəyərlərimizə hörmət var. Biz ümumbəşəri dəyərləri öz xalqımıza aşdamalıyıq, ancaq öz milli-mənəvi dəyərlərimizdən də ayrdmamalıyıq» (14,195). İslam dini əsrlər boyu bizim mənəviy- yatımızın əsasını təşkil etmiş, müsəlmanların dünyada layiqli yer tutmasım təmin etmişdir.

İslam tərbiyəsinin məqsədi insanı mükəmməlliyə, aliliyə çatdırmaqdır. Mükəmməl və ali insan Allaha yaxın olan insan hesab olunur. İslam insanı maddə və mənadan, bədən və ruhdan mütəşəkkil bir varlıq kimi bütöv görür və insanı bütün təmayül və davraruşları ilə birlikdə öyrənir. O ilk növbədə insanın davranışlarmı idarə edən mərkəzləri tərbiyə edir. Buna görə də qəlb tərbiyəsinə islam birinci dərəcəli əhəmiyyət verir. Çünki davranışlar qəlbə bağlıdır. Insamn pis və ya yaxşı, qəddar və ya mərhəmətli olması onun qəlbindən asılıdır. Bu cəhətdən qəlbin düzgün tərbiyəsi və təhsili insanm özünü tanıma yollarmı göstərir. İslamda tərbiyə və elm insanm özünü tanımasına kömək etməlidir. İslama görə özünü tanıyan dərk edən insan Allahmı tanıyır, başqalarmı tanıyır və harada necə hərəkət edəcəyini yaxşı bilir. İslam tərbiyəsi insanda islam əxlaqmı, islami şərtlərə uyğun davranış normalarım formalaşdırmağı nəzərdə tutur, İslam tərbiyəsi insanın həm dini, həm də dünyəvi elmləri dərindən bilməyi, yüksək mənəvi keyfiyyətlərə sahib olmağı, tələb edir. İslam tərbiyəsi insamn əqlinin, ruhunun, bədəninin bərabər səviyyədə inkişafmı nəzərdə tutur.

İslam tərbiyəsi görmüş şəxsin həm bədəni, həm də ruhu sağlamdır. Bədənin sağlamlığı ruha, ruhun da sağlamlığı bədənə bağlıdır. Bütün ilahi dinlər insanı ən yaxşıya, ən gözələ və üstün olmağa yönəldir. Demək Allahm insanlardan istəyi, yaxşıya, doğruya, gözələ, üstün əxlaqa malik olmaqdır.

İnsanlara doğru yol göstərmək İslamm hədəflərindən biridir. «Əmr olunduğun kimi, dost-doğru ol!» ayəti ilə Allah insanları doğru yolla getmələrini tövsiyə edir. Elə «Tərbiyə» ( ^jjjj ) ərəbcə «Rəba» ( Uj ) kökündən əmələ gəlmiş və üç məna ifadə edir: 1) «Rəba» ( bj ) art- maq, çoxalmaq; 2) «Rəbi» (csO ) uşağı yetişdirmək, böyütmək, ərsəyə çatdırmaq; 3) «Rəbb» ( Vj ) - doğru yol göstərmək, islah etmək deməkdir. Göstərilən hər üç məna «Tərbiyə» sözünün etimologiyasma aid edilə bilər. Həmçinin «Rəbb» Allahın 99 adından biridir. Quranda «Allah» adından sonra ən çox işlənən (935 dəfə) «Rəbb» kəlməsidir ki, bu da «Tərbiyə edən», «Nemət verən», «İnsanları mənəvi yüksəlişə aparan» deməkdir». Mürəbbi» ( ) sözü də «Rəbb» ( s->j ) kəlmə- sindən meydana gəlmişdir.

İslamda tərbiyə məsələsi sadəcə olaraq uşağa gözəl əxlaq və faydalı biliklər vermək deyildir. Tərbiyə məsələsi daha geniş anlamda başa düşülərək insanın yaşadığı cəmiyyətin inkişafına öz töhfələrini verməsi, xalqın adət və ənənələrini, dilini, dinini qoruması, ona hörmət etməsi, cəmiyyətin iqtisadiyyatiru, mədəniyyətini daim yük- səltməyə çalışmasıdır. Bu məsələ isə əlbəttə, bütünbəşəri mədəniyyəti, mənəviyyatı əxlaqı əxz etməklə, daim yeni biliklər qazanmaqla və özünü təkmilləşdirməklə mümkün ola bilir. «İslam dini insanın tərbiyəsi və nümunəvi cəmiyyət üçün lazım olan qaydaları və istiqamətləri, bəşər tarixinin min illər boyunca əldə etdiyi təcrübə və sınaq məktəblərinin nəticələrinə istinad edərək müəyyənləşdirir və insanlara təqdim edir». İslamda uşağın tərbiyəsi baxımmdan onun inkişafı iki dövrə ayrdır: 1) Tədbiri dövr; 2) Tətbiqi dövr.

**1. Tədbiri dövr** uşağın ana bətni dövrünü, doğuşuna qədər olan dövrü əhatə edir. İslamda gələcək nəslin tərbiyəsi doğumla deyil, hələ kişi və qadm evlənməyə qərar verməsi ilə başlayır. Belə ki, evlənəcək şəxslər dini əqidəni nəzərdə tutaraq mömin bir adamla evlənməli, evlilik həyatında isə haram şeyləri yeyib içməkdən, zinakarlıqdan uzaq olmalıdır ki, haram xromosomlar vasitəsilə uşağm genlərinə keçməsin. Uşaq ana bətnində olarkən ona olan münasibəti duyur və hiss edir. Bu dövrdə uşağa zərər verə biləcək şeylərdən- papiros çəkmək, içki içməkdən qaçmdmalıdır. Bu

cəhətdən tərbiyə işi uşağm ana bətnindən başlayıb həyatı boyunca davam edən və bir çox şərtlərin gözlənilməsini tələb edən uzun müddətli, mürəkkəb bir prosesdir.

**2. Tətbiqi** dövr doğuşdan ölənə qədər olan dövrdür. Tətbiqi dövrdə şəxsin yaşma, gücünə, fərdi, psixoloji xüsusiyyətlərinə, fiziki durumuna, qabiliyyətinə uyğun olaraq onun şüuruna, hisslərinə davranışma təsir göstərilir. Bu ciddi təlim-tərbiyə dövrüdür. Tərbiyəvi təsirlər onu dəyişdirir, formalaşdırır və yaxşıya, gözələ, doğruya, üstün əxlaqa aparır. Tətbiqi dövrdə də yerinə yetirilməsi bir çox vacib və zəruri şərtlər vardır. Belə ki, uşaq doğularkən ilk növbədə ona gözəl bir ad seçib vermək lazımdır ki, o böyüdükcə adma layiq işlər görsün və ata anasının ona verdiyi addan sonralar peşiman olmasm. Uşaq damşmağa başlayarkən ilk öncə ona müqəddəs kəlmələr-ana, ata kimi sözlər öyrədilməli, yanında gözəl və əxlaqi söhbətlər edilməlidir. Uşağın qidasma, geyiminə, ünsiyyət və münasibətinə yetərincə diqqət yetirilməlidir. Əks təqdirdə mənəvi sərvətlərin əldə edilməsi çox çətirdiklə başa gələ bilər. Uşağın sağlamlığı daim diqqət mərkəzində olmalıdır. Tərbiyənin əsası sağlamlıqdan başlayır. Bu çəhətdən onların səhhətinə fikir verilməlidir.

Doğuşdan sonrakı mərhələni beş əsas dövrə - uşaqlıq, yeniyetməlik, cavanlıq, yetkinlik və qocalıq dövrlərinə bölmək olar. Hər dövrün tərbiyəsi haqqnıda islamiyyətdə dəyərli fikirlər, hökmlər vardır. İslam insanı doğuşdan ölənə qədər oxuyub-öyrənmədə, təkmilləşmədə, inkişafda görür və deyir-«beşikdən qəbrədək öyrən». Məhəmməd Peyğəmbər(s) insanın kamilləşmə prosesini üç mərhələyə- 7-7 yaş dərəcələrinə ayırmış və demişdir: övlad öz həyatının birinci 7 ilində şah, ikinci 7 ilində (7-14 yaş) nökər, müti, üçüncü 7 ilində (14-21 yaş) məsləhətçi, məsul şəxs hesab olunur. Beləliklə 21 yaşa qədər insanın həyat yolu -şahlıq, nökərlik və məsləhətçi, məsul şəxs dövrlərinə bölünür. «Şahlıq» dövründə uşaq azad, sərbəst şəkildə, sevgi və məhəbbətlə böyüyərsə, böyüklər onun tərbiyəsinə, inkişafma diqqət və qayğı göstərərsə, istək və ehtiyaclarını yerinə yetirərsə, onun fiziki və mənəvi inkişafı üçün hər cür şərait, xüsusilə oyun şəraiti, fəal hərəkətlilik yaradarsa o çox sadə halda ikinci yaş

dövrünə - itaət mərhələsinə gəlib çatacaq, valideynlərinin, müəllim və tərbiyəçilərinin sözlərini eşidəcək, düzgün psixoloji muvazinətə malik olacaq, özünü normal idərə edə biləcəkdir. Həzrəti Məhəmməd(s) kəlamlarının birində buyurur: «Uşağın kiçik yaşlarında coşğun, çevik, qaynayıb-daşan olması yaxşıdır, çünki belə uşaq böyüyəndə sakit və özünü idarə etməyə qadir olur». Belə olan halda yeniyetmə ikinci yaş dövründə tərbiyəçilərin ona verdiyi ədəb, əxlaq, iradə tərbiyəsini layiqincə qəbul edəcək, öz üzərində çalışacaq, ağlı ilə hərəkət edib nəfsinə qalib gələcək, övladlıq borcunu yerinə yetirəcəkdir. Bu dövrdə o ətrafmdakılardan müəyyən şeyləri soruşur, öyrənir və başqalarına da öyrədə bilir. Onun fəaliyyətinə istiqamət vermək, vaxtina nəzarət etmək lazımdır ki, o daha səmərəli və faydalı olsun. Beləliklə yeniyetmə normal şəkildə üçüncü yaş dövrünə - kamillik dövrünə girəcəkdir. Peyğəmbərimiz (s) bu üç dövr haqqmda mürəbbilərin vəzifələrini bir hədisdə belə müəyyənləşdirmişdir: «Qoy sənin övladın yeddi il oynasın, sonrakı yeddi ili də ədəb öyrənsin, tərbiyə alsın və sonra onu özünün müşavirin və yoldaşın hesab et».

Dahi Nizami Gəncəvi də 7-7 yaş bölgüsüsünü bəyənmiş və oğlu Məhəmmədə 7, 14, 21 yaşlarında nəsihətamiz şeirlər yazmışdır ki, onlarm əsas məzmunu müqəddəs kitabımızdan və hədisi şərifdən qaynaqlanmışdır:

*Biliyə rağib ol, dünyanı qazan,*
*Sən əsmanı oxu məna alarsan*
*Vaxtı boş keçirmə, qələm al ələ*
*Alldhın əmri ilə bilik kəsb elə.*
*Sən ey 14 yaşlım hər elmə yetkin*
*Gözündə əksi var iki aləmin 7 yaşar*
*oldun o zaman ki, sən Açıldı gül kimi*
*güləndə çəmən İndi ki, çatmışdır yaşın*
*14-ə Başın sərv kimi durur göylərdə*
*Qəflətdə oynama qeyrət vaxtıdır İndi*
*hünər vaxtı, şöhrət vaxtıdır. Ucalmaq*
*istəsən bir kamala çat Kamala ehtiram*
*göstərir həyat Böyük şöhrət qazan*

*göylərə ucal Yaxşı ad qazanmış gözəl*
*dost ara Onda yetişərsən ağ günə, vara*
*Hünər arxasınca qoş, xalqa hünər saç*
*Qapılar bağlama ər ol, qapı aç.*

İslam tərbiyəsi hər şeydən öncə islam əxlaqımn tərbiyə edilməsini nəzərdə tutur. Bu isə yalnız insanda islam görüşlərinin, dini şüurun tərbiyə edilməsi və ya islam əxlaqının aşdanması ilə məhdudlaşmır. Buraya dini və dünyəvi elmlərin öyrədiliməsi, etik, estetik, əxlaqi tərbiyənin aşdanmasx, vətənpərvərlik hisslərirün formalaşdırxlması da daxildir.

Böyük İslam alimi İmam Qəzzaliyə görə insan iki şəkildə tərbiyə alıb gözəl əxlaq sahibi ola bilir: 1) İnsan gözəl əxlaqa ya doğuşdan sahib olur, yəni təlim və tərbiyə görmədən irsdən gələn keyfiyyətlə gözəl əxlaq sahibi olur; 2) Ya da sonradan tərbiyə almaq, çalışmaq və özünü tərbiyə etməklə mümkün olur.

İslam tərbiyəsi insanın əqlinin, ruhunun və cisminin bərabər səviyyədə inkişafmı nəzərdə tutur. İslama görə, bədən elə bir qəlibdir ki, ruh buraya tökülür. Bədənə və ruha ağxl rəhbərlik edir və islamrn müqəddəs kitabmda da deyildiyi kimi Allah ağıldan daha dəyərli bir şey yaratmamış və insanlara - mən sənə ağıl verdim, ağlını işlət - demişdir.

İslam tərbiyəsinin səciyyəvi xüsusiyyətlərindən irəli gələn islam tərbiyəsinin prinsiplərini aşağıdakı kimi qruplaşdıra bilərik:

1) İslamda tərbiyənin ilahi səciyyə daşıması. Yəni İslamda əxlaqi hökmlər Allah tərəfindən nazil olmuş və insan Allahın tələblərinə uyğun olaraq öz işini, həyat tərzini qurmalıdır.

2) İslamda tərbiyənin insan fitrəti ilə bağlıhğı. İnsanda olan insanlıq xisləti elə insan doğulanda onun fitrətində bu potensial imkan kimi mövcuddur və bu insanı ən yüksək əxlaqi keyfiyyətlərə, yüksək təkamül dərəcəsinə çatdırmağa qadirdir. İnsanda olan bu potensial imkan düzgün istiqamtəndirilsə, tərbiyə edildikdə həqiqi təkamülə yetişər. İnsan ilk yaradılışmdan kamil insan kimi formalaşana qədər müəyyən inkişaf yolu keçir, torpaq və ruh ünsürlərindən ibarət olur ki, bu ünsürlər insanm cismində birləşir,

onun meyl, arzu və istəklərini müəyyən edir. Ruhani ünsür insarun əzəli fitrətini təşkil edir. Ona görə də islam tərbiyəsində ruh tərbiyəsi, mənəvi tərbiy ə üstün yer tutmalıdır;

3) İslamda tərbiyənin ümumi səciyyə daşrması. İslam tərbiyəsi milli mənsubiyyətindən, sosial vəziyyətindən, irqindən, cinsindən asılı olmayaraq bütün müsəlmanlara aiddir;

4) İslamda tərbiyənin bütöv səciyyə daşıması. İslam insanm həyat tərzini, düşüncə və davranışını bir birindən təcrid edilmiş halda deyil, onları vəhdətdə, bütöv halda götürür və onlarla sıx bağlı şəkildə həyata keçirir.

5) İslamda tərbiyənin üsul və vasitələrinin, məzmun və formalarının vəhdətdə olması. İslam tərbiyəsi insanın zehni, fiziki, əxlaqi, estetik tərbiyəsini vəhdətdə götürür, insanları kamilliyə, çalışqanlığa, halal və haramı seçmək üçün gərgin axtarışa, böyüklərə hörmət etmə- yə, kiçiklərə qayğı göstərməyə, düşünərək danışmağa, pis əməllərdən çəkinməyə hazırlıq təlqin edir.

6) İslamda tərbiyəyə həm fərdi, həm də ictimai məsuliyyət kimi yanaşılması. Hər bir fərd öz nəfsini təmizləmək, özünü tərbiyə etmək üçün məsuliyyət daşıyır. Ona görə də müsəlman Allah Taalanın, Quramn buyurduğu yolla getməlidir. Tərbiyənin ictimai məsuliyyət kimi dəyərləndirilməsi o deməkdir ki, hər bir müsəlman öz müsəlman qardaşırun təlimi və tərbiyəsi üçün müəkəlləfdir və dindaşmın həmişə doğru yolda olmasını istəyir.

Elmi pedaqogikada mühüm yer tutan tərbiyə prinsiplərinin əksəriyyəti islam tərbiyəsinin də prinsiplərinə aid ola bilər. Tərbiyədə yaş, fərdi, cinsi xüsusiyyətlərin nəzərə alınması, sözlə əməlin vəhdətinin gözlənilməsi, ardıcdlığa əməl edilməsi, hörmət və tələbkarlığın tətbiq edilməsi, hər bir uşağın gələcəyinə nikbin yanaşılması ilə bağlı Quranda xeyli ayələr vardır. İslam tərbiyəsində tərbiyənin üsulları Qurani-Kərimdə, Məhəmməd Peyğəmbərin (s) hədislərində öz əksini tapmışdır. Bu üsullarm ən başlıcası inandırmaqdır, şüura, ağda və davramşa təsir göstərmək üsullarıdır.İslam tərbiyəsinin üsulları sıra- smda əxlaqi söhbət və mühazirələr, təbliğatlar, dini-əxlaqi rəvayətlərin nəql edilməsi, İslam tarixi və peyğəmbərlərin həyat və fəaliyyətindən söhbətlərin

aparılması, hədislər əsasmda tərbiyə, müqayisələr və bilik əsasında mübahisələr aparmaq, əxlaqi-dini misallar çəkmək, İslam müqəddəslərinin nümunəsində tərbiyə etmək, təlqin və təmrinlər, islami şərtlərə uyğun əməli işlərin görülməsi, habelə islam tələbləri əsasmda gündəlik rejimə əməl etmək üsullarıdır. İslam tərbiyəsində ən qüwətli və əsas üsullardan biri isə Məhəmməd Peyğəmbərin (s) nümunəsində tərbiyədir. Peyğəmbərimizin həyat və fəaliyyəti ən gözəl əxlaq və ən gözəl tərbiyə nümunəsidir. Quranın «Əl-Həşr» surəsində deyilir: «...Peyğəmbər sizə nə verirsə, onu götürün, nəyi qadağan edirsə, ondan əl çəkin» (42,564).

Düzgün əxlaq və davranışa, yaxşı mənəviyyata sahib olmaq ilk növbədə islam qaydalarma, Allahxn kəlamlarxna, Məhəmməd Peyğəmbərin (s) hədislərinə dərindən inam və etiqaddan, onlara əməl etməkdən irəli gəlir. Gözəl əxlaqa sahib olmaq müqəddəs kitabxmxzm dediyi kimi Allahxn əxlaqx ilə əxlaqlanmaqdır. «Həqiqətən Allahm rəsulu Allaha və qiyamət gününə ümid bəsləyənlər (Allahdan, qiyamət günündən qorxanlar) və Allahı çox zikr edənlər üçün gözəl nümunədir». İslam tərbiyəsi üsulları sırasında həvəsləndirmə, rəğbətləndirmə, tənbeh kimi stimullaşdırıcı üsullar da vardır. İslam tərbiyəsində həvəsləndirmə üsulu kimi yaxşı işlər görməyə, gələcəkdə hökmən fayda görəcəyinə inandırmaq, pis əməllərinə görə isə müəyyən cəza çəkəcəyinə inandırmaqdır. İslam hər hansı psixi, fiziki cəzaları rədd edir. İslamda məcbur etmə, zor işlətmək kimi üsullar yoxdur. İslam dinimiz tənbeh zamanı tərbiyəçinin qəzəbli vaxtda deyil, sakit vaxtda, düşüncəli şəkildə, ehtiyatla hərəkət etməsini məsləhət görür. İslam tərbiyəsində tərbiyəçilərin özləri tərbiyəli olmalı, yüksək mənəvi keyfiyyətlərə sahib olmalıdırlar. İslam tərbiyəsində yumşaqlıq, mehribanlıq, xoş rəftar əsas yer tutur. İslam biliciləri ədəb haqqmda belə demişlər: «Ədəb danışdığm zaman dilini, yalnız qaldığm zaman qəlbini saxlamaqdır». «Ədəb səndən böyük olana hörmət göstərmək, səndən kiçik olana şəfqət etmək, fağır olanlar ilə gözəl davranmaqdır»;

**Qurani- Kərimdə tərbiyə, öyrətmə və öyrənmə məsələləri:**

Qurani-Kərim bir milyarddan artıq insanın etiqad etdiyi islam dininin müqəddəs kitabıdır. İlahi gözəlliyə malik olan bu əsər Ulu

Tanrının öz möcüzəsi kimi milyonlarla insanm qəlbinə hakim kəsilmiş, onlarm qaruna hopmuş, beyninə nüfuz etmişdir. Məhəmməd Peyğəmbərə (s) 23 il ərzində nazil olan Quran 114 surədən, 6236 ayədən 77934 sözdən ibarətdir. Qurani-Kərim müsəlmanların fəlsəfi, hüquqi, əxlaqi qaynağı olmaqla yanaşı, həm də möhtəşəm tarixi ədəbi bir abidədir. Görkəmli islamşünas alim akademik V.M.Məmmədəliyev bu barədə yazır: «Qurani-Kərim Yerin, Günəşin, Aym, səyyarələrin hərəkət etməsini heyrətamiz bir şəkildə bəyan etmiş, sonradan baş verəcək bir çox hadisələr, elmi kəşflər barəsində doğru düzgün məlumat vermişdir... Quran» ayələrinin əsl məzmunu, mahiyyəti tədriclə anlaşılır. Eyni zamanda həyat, cəmiyyət inkişaf etdikcə, elmi kəşflər, müasir kosmik tədqiqatlar artdıqca həmin ayələr yeni məzmun, yeni mahiyyət kəsb edir və yenə də insan idrakı üçün bir müəmma olaraq qalır» (42,XI).

Qurarun bütün ayələri tərbiyəvi mahiyyətdədir. Bu ayələr iki qismə bölünür:

1) İnsanları yaxşı işlər görməyə ruhlandıran ayələr;

2) İnsanları pis işlərdən çəkindirən ayələr. Birinci qisim ayələr: Möminləri öz dinlərinə və din qardaşlarma məsuliyyətlə yanaşmağa, Allahm sözünə tabe olmağa çağırır; ən yaxşı təqlid nümunəsi ardınca getməyə səsləyir; düzgün yol tutmağa və ayrı-ayrı adamlarm istəklərinə uymamağa sövq edir; yaxşı əməllər sahibi olmağı tövsiyə edir, halal və təmiz nemətlərdən yeməyə çağırır; təvazökar və sadə olmağa, xeyir işlər görməyə, ədalətli olmağa, düz və doğru olmağa çağırır; özündə gözəl xasiyyəti, halallığı, qənaətcilliyi tərbiyə etməyi, uşaqlarm valideynlərinə qayğı və hörmətlə yanaşmağı vacib bilir;
əmanətə sədaqətli, əhdə vəfalı olmağı, xərclərdə nə simic, nə də bəd xərc olmağı öyrədir; pisliyin müqabilində yaxşdıq etməyi, birləşməyi tövsiyə edir; icazəsiz başqasmm evinə girməməyə, biri ilə qarşdaşarkən salam verməyə, verilən salamı hörmətlə almağa çağırır; kişilərə qadmla zərif bir məxluq kimi nəzakətlə rəftar etməyi, onun ehtiramını saxlamağı, mal-dövlət məsələlərində onlara güzəştə get- məyi tövsiyə edir. İkinci qisim ayələrdə isə insanı pis davramşlardan, ədəbsiz hərəkətlərdən çəkindirir. Onlara xəsislik

etməməyi, bir birinin eybini, sirrini açmamağı, qeybətini etməməyi, xainləri müdafiə etməməyi, sələmdən gəlir götürməməyi, yetimlərin malını və başqalarmın malını yeməməyi, zinakarlıq etməməyi, dünya malına uymamağı tövsiyə edir. İslam əxlaqı Qurani-Kərimə əsaslamr. Qurani- Kərimdə hər əmr inananlar üçün bir müqəddəs vəzifədir. Qurani- Kərimdə Peyğəmbərimizə (s) xitabən deyilir: «Doğrudan da, sən böyük bir əxlaq sahibisən!(Böyük bir din üzərindəsən!) (42,583).

İslam əxlaqımn digər bir yönü də davranışlardakı niyyət duyğusudur. Peyğəmbərimiz buyurur ki, (s) «Əməllər niyyətlərə görədəir» Müsəlman üçün bu niyyətin ən böyük yönləndiricisi «Allah rizası»nı gözləmə duyğusudur, könlündə sadəcə Allah rizasını və onun sevgisini qazanmaq arzusunu daşımaqdır. Necə ki, Qurani- Kərimdə deyilir: «Allah rizasım qazanmaq uğrunda yeməyi yoxsula, yetimə və əsirə yedirərlər. Biz sizi ancaq Allah rizasından ötrü yediririk. Biz sizdən (bu ehsan müqabilində ) nə bir mükafat, nə də bir təşəkkür istəyirik». Niyyət və Allah rizası duyğuları ilə bərabər insanın Allah qarşısmda öz əxlaqı və davranışlanna görə məsuliyyət daşıma duyğu- su islam əxlaqırun təməl prinsiplərindəndir. Qurana görə müsəlmanm məsuliyyət hissi Allahdan qorxmaq, onun əmrlərinə hörmət göstərmək və bu əmrləri gecikdirmədən yerinə yetirmək, qadağan etdiyi şeylərdən uzaq olmaq islam əxlaqınm vacib şərtlərindən sayılır. Digər bir mühüm şərt müsəlmanm digər məxluqata qarşı son dərəcə mərhəmətli, ədalətli və şəfqətli davranması, zəiflərə, möhtac olanlara yardım etməsi, ana və ataya diqqətli və qayğıkeşkeş olması, onların həmişə könüllərini alması istəyidir. Bütün bunlarla bərabər insamn öz hiss, iradə və duyğularına hakim olması, təvazökar, səbrli, ədəbli və insaflı olması kimi keyfiyyətlərdir. Bütün bu prinsip və şərtlərə baxdıqda İslam əxlaqının saf və sağlam olduğunu, fikirdə, sözdə və əməldə həmişə xeyirxah olduğunu, daim yaxşı bir niyyətə -Allah rizasına önəm verildiyini görə bilirik. Peyğəmbərimizin (s) «Əxlaqmızı gözəlləşdirin», «Allahm və Rəsulunun əxlaqı ilə əxlaqlanın»- deyə tövsiyələrdə bulunması müsəlman əhlinin daima əxlaq və tərbiyəsini gözəlləşdirməsi vacibliyini önə sürməsidir. Qurana görə, Allah

insam yaratmış, ona bilik və idrak vermiş, bütün kainatı ona tabe etmişdir ki, o yer üzünün ən şərəfli məxluqu olsun. Allahm yer üzündəki sirlərini aşkar etsin və Qnu tamtdırsın. Bunun üçün bilik lazımdır. Odur ki, Quran biliksizliyə qarşı çıxır və bunun ilkin yolunu oxuyub-yazmaqda görür. Quran bilənlərlə bilməyənlərin bərabər olmadığmı elan etməklə insanları bilik qazanmağa səsləyir: «De ki: «heç bilənlərlə bilməyənlər (alimlə cahil) eyni ola bilərmi?! (Allahm ayələrindən, dəlillərindən) yalnız ağıl sahibləri ibrət alar!». İnsanın gözəl bir əxlaqa sahib olması üçün Qurani-Kərimdə bir xeyli əmrlər mövcuddur ki, biz onlardan «Ə1-İsra» surəsinə nəzər yeürsək Allah Taalanın kəlamlarmda insan əxlaqının, ümumilikdə islam tərbiyəsinin əsas keyfiyyətlərini görə bilərik: «Rəbbin yalnız Ona ibadət etməyi və valideynlərə yaxşılıq etməyi (onlara yaxşı baxıb gözəl davranmağı) buyurmuşdur. Əgər onlarm biri və ya hər ikisi sənin yarunda (yaşayıb) qocalığm ən düşkün çağma yetərsə, onlara: «Uf!»-belə demə, üstlərinə qışqırıb acı söz söyləmə. Onlarla xoş danış!»(42,252),«Onların hər ikisinə acıyaraq mərhəmət qanadının altına alıb: «Pərvərdigara! Onlar məni körpə- liyimdən (nəvazişlə) tərbiyə edib bəslədikləri kimi, sən də onlara rəhm et-de!» (42,252) «Qohum əqrabaya da, miskinə də (pulu qurtarıb yolda qalan) müsafirlərə də haqqrnı ver.Eyni zamanda (mal-dövlətini əbəs yerə) sağa-sola da səpələmə!» (28,252), «Həqiqətən, (malırn əbəs yerə) sağa-sola səpələyənlər Şeytarun qardaşlandır. Şeytan isə Rəbbinə qarşı nankordur!», Əgər Rəbbindən dilədiyin bir mərhəməti (ruzini) gözləmək məqsədilə onlardan (kömək göstərilməsi lazım olan şəxslərdən) üz çevirməli olsan (onlara bir şeylə kömək etmək istəsən, lakin imkanm olmadığı üçün bacarmasan və buna görə də məc- buriyyət qarşısında qalıb gözlərinə görünmək istəməsən), heç olmasa, onlara (darıxmayın, Allah mənə ruzi bəxş edər, mən də sizə verərəm kimi) xoş bir söz de!» (42, 252), «Nə əldən çox bərk ol, nə də əlini tamamilə açıb israfçılıq et. Yoxsa həm qınanarsan, həm də peşiman olarsan» (42,253), «Zinaya da yaxın düşməyin. Çünki o çox çirkin bir əməl və pis yoldur!» (42,253), «Allahm haram buyurduğu cana haqsız yerə qəsd etməyin...», «...yetimin malma həddi buluğa çatana qədər yaxın düşməyin...», «Ölçəndə ölçüdə düz olun,

(çəkəndə) düzgün tərəzi ilə çəkin. Bu (sizin üçün) daha xeyirli və nəticə etibarilə daha yaxşıdır!», «(Ey insan!) Bilmədiyin bir şeyin ardınca getmə...» (42, 253), «Yer üzündə təkəbbürlə gəzib dolanma. Çünki sən nə yeri yara bilər, nə də (boyca) yüksəlib dağlara çata bilərsən», «Bütün bunlar rəbbinin dərgahmda bəyənilməyən (məkruh), pis şeylərdir» (42,254).

İslamiyyətdə elmə qiymət həmişə çox yüksək dəyərləndirilmişdir. Qurana görə Allah insanı yaratmış, ona idrak vermiş, bütün kainatı ona tabe etmişdir ki, Allahın yer üzündəki sirlərini aşkar etsin. Şərqşünas alim A.V.Saqadayev yazmışdır ki, «Quranda insan biliyi hər şeyə qadir Xaliqə imana və itaətə tabe edilmiş, yaxud bərabər tutulmuşdur». Quranda insan biliyi hər şeyə qadir olduğu göstərilmiş və o elm əhlini yüksək tutuaraq Allah və mələklərdən sonra üçüncü yerdə zikr etmişdir. Böyük islamşünas alim Hacı Sabir Həsənli «İslam mədəniyyətində elm» adlı dəyərli əsərində islamiyyətdə elmə böyük dəyər və qiymət verilməsi haqqmda geniş tədqiqat aparmış və gəldiyi nəticələr sırasmda demişdir:«Qurani-Kərimdə və hədislərdə «əl-elm» istilahaünda daha çox iman, təqva və salehlik nəzərdə tutulsa da, bu istilah dünyəvi mənaları da qoruyub saxlayır.İslamın bu mənbələri elə bir psixoloji, mənəvi və intellektual ab-hava təlqin edir ki, burada həm dini, həm də dünyəvi elmlərə təhrik vardır»(22,51). Elmin insanı kamilləşdirməsi üçün əsas şərtbiliklə əməlin uyğunluğudur. Əməlsiz elm və ya elmsiz əməl faydasızdır. Elmin məqsədi faydalı, səmərəli işlər görmək, insanların rifahını yüksəltməkdir. Həzrət Peyğəmbər (səs) buyururdu ki, elmi əldə edən, Allah yolunda onu arayan, Allaha ibadət emiş olur, onu öyrədən sədəqə vermiş olur, onu haqq edib kimsələrə çatdıran yaxşılıq etmiş olur. Qiyamət günündə üç sinif bağışlanırlar: 1) Peyğəmbərlər; 2) Alimlər; 3) Şəhidlər.

Quran bütün gücü ilə bilikisizliyə qarşı çıxır və bunun ilkin yolunu oxuyub-yazmaqda öyrənməkdə görür. İslamda elm iki yerə bölünür: l.Zahiri elm; 2.Batini elm. Zahiri elm ibadətlə bağlı olan elmdir.

Burada hədis (yəni həzrəti Məhəmmədin sözləri, davranışı ilə bağlı məlumatlar), Quranm təfsiri (yəni açıqlanması), fiqh (islam hüquq elmi) daxildir. Batini elm özü də iki yerə ayrılır: Elmi-müamilə və elmi mükaşefə. Elmi müamilədə insan riyadan, lovğalıqdan, paxıllıq və qeybətlərdən uzaqlaşıb özünü tərbiyə, özünütəkmilləşməyə istiqa- mətlənir. Bu elm insanlara gözəl əxlaqın, mənəvi sərvətlərin nədən ibarət olmasını göstərir və bu sərvətlərə yiyələnmənin yollarını da tanıdır. Bu elm sahəsində insanların maddi və mənəvi həyatı təh- lükələrdən qorıma bilir, hər cür günahlardan, xəta və xəstəliklərdən uzaqlaşması mümkün olur.

Elmi-mükaşefə isə qəlbə ilahidən gələn bir nurdur, xüsusi iste- daddxr, fitri qabiliyyətlərdir. Elmi-mükaşefə bu istedadlx insanlarx, fitrən qabil olan adamlarm fəaliyyətirri inkişaf etdirməklə məşğul olur.

Quran ayələrinin insanlarxmxza daha aydxn və ana dilində çatdxrxl- masx üçün Şərqdə Azərbaycan daha öncül mövqelərdə duraraq Qu- ranın tərcüməsi işinə başlamxşdxr.

Mənbələrin verdiyi məlumata görə Azərbaycanda Quram ilk dəfə Azərbaycan dilinə tərcümə etdirən XV əsrdə Ağqoyunlu Uzun Həsən olmuşdur. XX əsrdə isə Bakx milyonçusu, maarifpərvər şəxsiyyət Hacx Zeynalabdin Tağıyev olmuşdur. 0,1904 -cü ildə Quranın tərcümə və təfsirini Azərbaycan dilinə çap etdirmişdir. Quranı tərcümə edənlər Bakx Quberniya Qazisi Məhəmməd Kərim Cəfərzadə və məşhur din xadimi Axund Əbu Turab olmuşdur. Bu Quran üç cilddə - «Kəşfül- Həqayiq» («Həqiqətlərin Kəşfi») adx ilə «Kaspi» mətbəəsində çap edilmişdir. H.Z.Tağxyev üç cilddə nəşr etdirdiyi bu müqəddəs kitabx 1907-ci ildə üç qxzxl qutuda yerləşdirərək bir nüsxəsini Rusiya çarxna, bir nüsxəsini İran şahxna, bir nüsxəsini isə türk sultanx Sultan Əbdül Həmidə hədiyyə olaraq göndərmişdir. Sultana bu qiymətli hədiyyəni aparan «Xeyriyyə» cəmiyyətinin üzvü müəllim və pedaqoq, görkəmli şair Abdulla Şaiqin qardaşx Axund Yusif Talxbzadə olmuşdur.

Hacx Sultana göndərdiyi bu müqəddəs kitabla bərabər, həm də ona bir məktub da yazmxşdxr. Türkiyədə Osmanlx dövlət arxivində

saxlanxlan bu məktubun tarixi əhəmiyyətini nəzərə alaraq onun mətnini bütövlükdə veririk:

*"Vəli nemət-i cahan əfəndimiz həzrətləri:*

*Bu ana qədər Rusiya dövlətini təhti-hökümətində bulunan biz 30 milyon tük müsəlmanları beynində türk lisanında Qurani-Şərifin təfsiri bulunmadığından əksəriyyətlə onun məzamin-i aliyəsindən istifadə-yab olamıyoruq. Li-haza, bu axır vaxtlarda saye-i xilafət-veye-yi cənab Zillullahi azamilərində Bakı üləmasından vilayət qazisi qulları vasitəsilə Kəlamüllahı-Şərifi türk lisanında təfsir etdirib təbü nəşrinə müvəffəq oldum. Cənab-i padşahlarında hasil olan işbu müvəffəqiyyəti kəmtəranenin şükrənəsi yolunda hüzur-i cəlil- i şəhriyarilərinə məhzən ərz-i fərizeyi ubudiyyətə vəsilə olmaq üzrə məzkur təafsir-i şərifdən hüzur-i bahirünnür xilafət pənahilərindən qəbulunu istirham edirəm. 01 babda və əhvalda əmr vəfərman vəli nemət-i cahan xəlifeyi bilhəqq və padşah-i hərdəm müvəffəq əfəndimiz həzrətlərinindir".*

***Nəşri Maarifi Umuru Xeyriyyə Cəmiyyəti - İslamiyyə rəisi general Hact Zeynalabdin Tağtyev qulları, 25 cəmade-əl əvvəl 1325 (1907) (99,218-219)***

Osmanlı dövlət arxivində saxlandan bu sənədlə yanaşı Quranı aparan Axund Yusif Talıbzadəyə H.Z.Tağıyevin verdiyi vəkalətnamədə olan qeydləri də maarif və mədəniyyətimiz üçün əhəmiyyətli saydığımızdan onu da oxuculara çatdırırıq:

### «Vəkalətnamə»

*Bu axır vaxtlarda Rusiyada sakin 30 milyon müsəlman camaatı arasında tərəqqi və taali meyli görünməkdədir.Ancaq bizlərin müntəzəm məktəblərimiz və kütüb-i elmiyyə fənniyyədə tədris~<siyələrimiz lüzumi dərəcəsində olmadığından xilafəti uzmanın saye-yi maarifvayesində yaşayn müsəlmanlar ilə bir qat daha əlaqə və rabitə kəsb etmək məqsədilə cəmiyyəti İslamiyyə əzalarından, ülum-i ərəbiyyə müdərrisi və məktəb-i edadi müəllimi Axund YusifTalıbzadə əfəndifikir mübadiləsi və lazımi vasitələr əldə etmək məqsədilə mərkəzi xilafət-i uzma olan Dərsəadətə (İstanbula) irsal oludu. Dərsəadət mumurini aidəsi tərəfindən kəndisinə müavinəti lazimədə bulunmasını biz Rusiya müsəlmanları istirham edəriz".*

***Nəşri Maarifi Umuri Xeyriyyə Cəmiyyəti - İslamiyyə rəisi general Hact Zeynalabdin Tağtyev, 25 cəmade- əvvəl, şəhri Baku, 1325 (1907) (99,218-219)***

Tariximiz üçürı maraqlı bir fakü da qeyd istəyirəm ki, türk sultanı bu qiymətli hədiyyəni alarkən çox məmnun qalmış, Hacıya öz təşəkkürlərini bildirmiş və gülümsəyərək demişdir: «Hacı çox maraqlı adamdır. Zeynalabdin bəy əfəndi öncə məni dərgisndə tənqid edir, sonra hədiyyə yollayır».Axund Yusif Talıbzadə Bakıya dönərkən bu söhbəti Hacıya çatdırmışdır.Belə məlum olmuşdur ki, Hacımn vəsaiti ilə alınmış «Kaspi» mətbəəsində buraxılan «Fyüzat» dərgisində Sul- tamn ünvanma tənqidlər getmiş imiş. Bu hadisədən sonra «Fyüzat»m son nömrəsində dərginin üz qabığında Sultanın ayaqları altında cırılmış «Fyüzat» jurnalı təsvir olunmuş və altında yazılmışdır: «İştə «Fyüzat» belə qapandı».

Beləliklə müqəddəs kitabımız Quran insanları elmə, biUyə, maarifə, tərəqqiyə çağırmış, «Beşikdən qəbrədək» öyrənmyəi təbliğ və təlqin etmişdir.

## Təsəvvüfdə tərbiyə məsələləri

Erkən orta əsrlər dövründə Azərbaycanm ictimai-siyasi, mədəni-maarif həyatinda, şəxsiyyətin tərbiyə və təlimində, pedaqoji fikrində sufilik hərakatı geniş vüsət almışdır ki, bu hərəkatın mahiyyətini bilmədən o dövrün ədəbiyyatını, mədəniyyətini, mənəviyyatını, pedaqoji fikirlərini anlamaq çətin olar.

İslamda yaranmış mistik hərəkat sufilik adlanmışdır. «Mistika» in- giliscə «Tanrıya dönüş» anlamını verir. Sufilik özünə məxsus bir həyat olmaqla maddiyyəti özündən uzaqlaşdırmaq və hər cür maddi istək və arzuya qarşı daxili mübarizədir. Təsəvvüf İslam qaynaqlı olub, müsəlmanların mənəvi həyatının təbii nəticəsi olaraq meydana çıxmışdır. Təsəvvüfün əsas nüvəsi Quran və hədislərdir.

Təsəvvüfün özünə məxsus tərbiyə, əxlaq prinsipləri mövcud olmuşdur. Təsəvvüf bir ədəbdir, pis xasiyyətləri tərk edib, gözəl xasiyyətlər qazanmaqdır, kimsədən inciməmək, kimsəni incitməməkdir, nəfsə qarşı bir mübarizədir, hər kəsin yükünü çəkmək, kimsəyə yük olmamaqdır, bütün insanlara sevgi ilə baxmaq və onları özünə dost bilməkdir, Haqq ilə birlikdə və Onun hüzurunda olmaqdır, təmiz qəlb və pak könül sahibi olmaqdır, kamil, hərtərəfli yetişmiş insan olmaqdır.

Təsəvvüf sözünün kökü haqqmda müxtəlif fikirlər vardır. Burdarın ən tutarlısı dil qaydalanna və tarixi gerçəkliyə uyğun olan «Təsəwüf» ün kökü olan «Sufi» sözünün «Suf» sözündən (yəni «Yun») alındığım söyləyən görüşdür. Şihabəddin Sührəverdi bu mövzuda bir çox fikirləri təhlil etmiş və göstərmişdir ki, Sufilər yım paltar geydiklərindən onlara sufi deyilmişdir. Məşhur hurufi şair Nəsimi bu mənada demişdir: «Geymə atlas, gey gilən şali sən» (yəni geymə ipək, gey yım).

Qaraqoyunlu Cahanşah Həqiqi isə deyir: «Nun» ( ü ), «Mim» ( f ), «Dal» ( J )-a təhsin»(18,26). Bu hərflərin toplusu «Nəməd» ( ) sözünü əmələ gətirir ki, bu da farsca «Yun» deməkdir.Ərəbcə dil qaydalarına görə «Suf» kəlməsindən «Təsəvvüf» kəlməsini əldə etmək mümkündür. Ərəblər köynəyə «Kamis», köynək geyənə «Təkəmməs» dedikləri kimi «Suf» yun köyrıəkdir, onu geyənə «Təsəvvüf» demişlər. «Təsəvvüf» əhlinə daxil olan şəxslərə «Mütəsəvvüf» demişlər.

Azərbaycanın cənub hissəsi, Türküstan, Iranm Şimalı-Şərqi sufizmin əsas mərkəzi olmuşdur ki, əsası VIII əsrdə qoyulmuşdur. Ilkin sufi müqəddəsləri Nəsənül-Bəsri (ölümü 728), Kufəli Əbu Haşım (ölümü 767), Sufyan Sevri (778), sonra məşhurları Cabir bin Həyyan (ölümü 815), camilərdə təsəwüf dərsi verən Yəhya Razi (ölümü 871), Həllac Mənsur (857-922), Qəzzali (1058-1111), 32 yaşmda Həmədanda edam edilən Azərbaycan mütəfəkkiri Eynəlqüzat Miyanəçi (1099- 1131), Şihabəddin Sührəverdi (1087-1168), XI əsrdə yaşamış Əbu Səid İbn Əbül Xeyr və başqaları olmuşdur. Ədəbiyyatda təsəvvüf axmı geniş və sürətlə yaydmışdır. Baba Kuhi (933-1051), Hakim Sənai (1072- 1131), Əhməd Yəsəvi (1103 -1166), Firudin Əttar (1119-1193) kimi böyük mütəsəvviflərdən başlayıb Əbdürrəhman Cami (1414-1522) kimi böyük alim-şairlərə qədər gəlib çıxmış, sonra da davam etmişdir. XIII əsrlərdə təsəvvüf ədəbiyyatının tanınmış nümayəndələri «Kə- lamlar» adı ilə Azərbaycan dilində böyük «Divan» yaratmış Beyrək Quşçuoğlu, bu dövrün görkəmli alim -şairləri olan Cəlaləddin Rumi, Hacı Bektaş Vəli, Yunus Əmrə, daha sonrakı əsrlərdə Qazi Bürhanəd- din, Xətai, Nəimi, Nəsimi, Həqiqi və başqaları olmuşlar.

«Qızıl gül kədərlə qönçədə bağlı qaldığı kimi;/Mən də tənhalığı və tanrıya sitayişi seçmişəm-deyən Şeyx Nizami Gəncəvi, «Bir əlimizdə qədəh, birində Quran;/Gah ayıq oluruq, gah sərxoş»-deyən Məhsəti Gəncəvi, «Kimi huşyar görsən sən, ona ver cami-mey, saqi; Bihəmdillah, Füzuli məstdir vəhdət şərabmdan» -deyən Füzuli, «Mənim tanrım gözəllikdir, sevgidir»-deyən Hüseyn Cavid, «Mənim ustadım Hafizdir, məscidim isə meyxanədir»-deyən Mirzə Şəfi Vazeh şeirlərində təsəvvüf düşüncəsi aydm hiss olunmaqdadır.

Təsəvvüfün iki önəmli cəhəti vardır: Tərbiyə almaq və bilik qazanmaq. Təsəvvüf təlim və tərbiyəsində zikr etmək, təzkiyə (qəlbi təmizləmə, paklanma), təsviyə (ruhən saflaşma, zənginləşmə), rəbbanilik, mücahidə (nəfsə cihad etmək) etmək kimi əsaslar və gözəl nümxmə ideyası təsəvvüf həyaümn əsas şərtlərindən sayılır. Təsəvvüf fikihlə, hədislə, təfsirlə və digər islami elmlərlə sıx bağlıdır.

Təsəvvüfdə bilik qazanmaq özünü tammağa, özünü dərk etməyə xidmət edir. Təsəvvüf elmi insana öncə özünü tanıma, sonra Allahım tamma yollarmı göstərir.

Böyük mütəsəvvüf Şihabəddin Sührəverdinin «Təsəvvüf» anlayışının şərhindən anlamaq olur ki, bu pedaqoji dillə desək insanm özünütərbiyəsi, özünükamilləşdirməsi, özünütəsdiqi və mənən zənginləşməsidir. O belə deyir: «Sufilik edən kəs özünəhesabat (əl-mühasebə), özünənəzarət (əl-müraqəbə) və özünümüşahidə (əl-müşahidə) yolu ilə rəzilliklərdən çəkinib nəfsini paklandırmalı və kamilləşdirməlidir».

Təsəvvüf əhli göstərir ki, İman (İslami, Qurani, peyğəmbəri qəbul edənlər) və İslamdan (İslam qayda-qanunlarını yerinə yetirənlər) sonra İhsan (Allahı qəlblərində görüb, hiss edənlər) səviyyəsinə yüksələnlər ən böyük, ən gözəl sevgili olan Allahı öz daxillərində görmənin şövq və həyəcanı ilə yaşaya bilirlər. Bu həyəcan isə insanlara Allahm yaratdığı hər şeyi sevməkdir.Hər şeyi sevmək Allahı sevməyə qayıdır. Bu sevginin içərisində ən gözəli və ən şərəflisi olan insanı sevmək, onu yüksək qiymətləndirməkdir.

İnsanoğlunun ən uzun axtarışı «Ozünü axtarış» olmuşdur. Təsəvvüf də insanm kainatda özünü tanıma səylərinin nəticəsidir. İnsan özünü tanımağa yönələrkən «Yaradan və yaranmış» haqqmda dü-

şüncə ilə baş-başa qalır. Bu iki qavramın vəhdətdə, birlikdə qəbul edilməsi təsəvvüfün əsasını təşkil edir. «Vəhdəti-vücud» («Tək varlıq») anlayışı ilə var olan tək «0»dur. Var olan «0»dursa, insan da «0»dur, «haq» da «0»dur. Varlıq tək «0»dur. «0»na çatmağın yolu isə eşqdir.

Təsəvvüf mahiyyətli şeirlərdə, Allahm dərkinə göstərilən əhdlər eşq və məhəbbətlə eyniləşdirilir və Allahm özü «Dost», «Yar», «Haq», «Sevgili» adlandırılır. Həqiqinin farsca bir şeirində deyilir:

*«Mən talibi yarəm, be həqiqət ço Həqiqi*
*Səd qunə cövr dər in rah deləm xoş güzaran əst» (26,22)*

(Həqiqətdir ki, mən Yar tələbindəyəm/ Bu yolda yüz cür cəfa olsa da ürəyim xoşdur).

Təsəvvüf söz elmi deyil, əməl, iş elmidir.Yəni insan yaşayışmda, hərəkətlərində, insanlarla münasibətində bildiyini əməldə həyata keçirməlidir. Bildiyinə görə hərəkət etməlidir. Necə ki, böyük şair Ziya Paşa deyir:

Ayinəsi işdir kişinin lafa baxılmaz,
Şəxsin görünür, rütbeyi-əqli
əsərində.

Təsəvvüfdə mürşidin iki vəzifəsi vardır:

1) Insana Allahı tanıtmaq və sevdirmək;
2) Allaha insanı sevdirmək.

Birinci vəzifə məlum və aydmdır. İkinci vəzifə bundan ibarətdir ki, insana Məhəmməd peyğəmbərin sünnətini öyrətməkdir. Bu zaman Allah da onu sevəcəkdir. Çünki Qurani- Kərimdə Allah taala buyurur ki, ey mömünlər, ey insanlar ! Əgər Allahı sevmə iddiasıyla ortaya çıxsanız «Biz Allahı sevirik» desəniz- bu sözlə olmaz. Rəsullaha tabe olun, Allahm elçisinə tabe olun ki, Allah da sizi sevsin!»

Təsəvvüf alimlərindən biri demişdir. Təsəvvüfün təməli yeddi əsasa dayanır:Allahm kitabına sarılmaq,Rəsullahın(s) sünnətinə uymaq, halal çörək yemək, başqalarına əziyyət verməmək və yük olmamaq, günahlardan qaçmaq, tövbə etmək, hüquqa riayət etmək.

Təsəvvüf əhli yaşarkən həyatdan mənəvi zövq və həzz alır, dünyaya sevgi ilə baxır, bütün yaradılmışları Allah yaratdığı üçün və Allah sevdiyi üçün sevir və hər bir maddiyyətdə məna axtarır.

«Təsəwüf» nəfsə yenmək, dünya naz-nemətlərindən uzaq olmaq, dünya malmdan qaçmmaq, hər an əxlaqiləşmə, mənəviyyatı zənginləşdirmə, «bilik müsəlmanın itiyidir»-deyə həmişə, hər yerdə bilik axtarmalı, hər cür biliklərə yiyələnmək deməkdir.

Təsəvvüf təfəkkürü təkcə ədəbiyyatda, pedaqoji fikirdə deyil, bütün sənət əsərlərində, belə düşüncədə olan insanların bütün fəaliyyətində öz əksini tapmışdır. Erkən orta əsrlər dövründə milli üslubda ucaldılmış məscidlərdə, təkkələrdə, evlərdə, imarətlər və mehmanxanalarda təsəwüf təfəkkürü duyulmuşdur.

XII əsr Naxçıvan memarlığmda Əcəmi Əbu-Bəkr Naxçıvani yaradıcılığı Islam əxlaqı və təsəvvüf düşüncəsi ilə zəngidir. Onun Naxçıvanda ucaltdığı Mömünə xatun türbəsi özünəməxsus memarlıq üslubu, təsvir və qavrayışlı görünüşü ilə, on üzündə təkrarlanmayan mənalı naxışları, yazıları və kitabələri ilə bir mənəviyyat abidəsidir. Türbənin yuxarı hissəsində «Allah» sözü yazılmış və on üzlü türbənin bütün kənarları «Yasin» surəsinin mətni ilə haşiyələnmişdir. Memar Əcəmi Quramn 114 surəsi içərisində məhz, «Yasin» surəsini seçmişdir ki, bu surə «Quranm qəlbi» adlamr. Peyğəmbər s. buyurur: «Bir kimsə Allah rizası və axirət savabı umaraq bu surəni oxusa, günahları bağışlanar. Onu ölüləriniz üzərində oxuyun!». Mömünə xatun tür- bəsinin bir kitabəsində yazılmış müdrik fikir Əcəminin fəlsəfi dünyabaxışı, əbədiyyət düşüncələri öz əksimni tapmışdır:

*«Təlatüm içrə biz sükunətdə daim rüzgar, Köçərik dünyadan, amma bu qalar yadigar».*

Bu dövrün sənətkarları gördükləri hər hansı bir işi və ya yaratdıqları hər bir əsəri özlərində inandıqları ilahi bir güclə edirdilər. Onlar sənət əsərlərini Tanrı sənətinə uyğun olan bir ölçüdə, gözəl biçimdə olması üçün çalışırdılar. Bu əsərləri Allahm qulları bəyənsin deyə deyil, Allah bəyənsin deyə gözəl, sağlam və mükəmməl bir halda hazırlayırdılar.

Təsəvvüf erkən orfa əsrlərin kamil insanının, bütöv hərtərəfli irıkişaf etmiş şəxsiyyətin yetişməsinə öz qüwətli təsirini göstərmişdir ki, bu düşüncə nümayəndələrinin ideya və baxışlarma nəzər yetirək.

## Mövləvilikdə tərbiyə

Mövlana Cəlaləddin Rumi (1207-1273 ) Xorasanm Bəlx şəhərində dünyaya gəlmiş və böyük mütəfəkkir, şair, müəllim kimi tamnmışdır. «Ya olduğun kimi görün, ya göründüyün kimi ol!» məşhur kəlamı Ru- miyə məxsusdur. O, insanları təbiiliyə, səmimiliyə, çağırmış, hər cür sünilik və lovğalıqdan uzaq olmağı məsləhət görmüşdür. Onun əxlaqi-didaktik fikirləri 25618 beytdən ibarət olan «Məsnəvi»də (94) və 30000 beytdən ibarət olan «Divan-i Kəbir»(93) də öz əksini tap- mışdır.

Ruminin «Məsnəvi»si hələ sağlığmda ona böyük şöhrət qazandırmış və «Reyğəmbər deyil, amma kitabı vardır» - deyə el arasında, Islam aləmində Quran və hədislərdən sonra ən çox söhbət açılan, oxunan kitab - «Məsnəvi» olmuşdur. Bu kitab didaktik, tərbiyəvi mahiyyət daşıdığından o padşah saraylarında, mədrəsələrdə oxunmuş, ona darül-məsnəvilər qurulmuşdur. «Məsnəvi»nin əvvəlində yazılmışdır: *«Tanrıdan ədəb istəyək, ədəbi olmayan adam Tanrının inayətindən məhrumdur».*

«Məsnəvi»nin ilahi, fəlsəfi, pedaqoji fikirlərinin əsas qaynağı müqəddəs kitabımız Qurani-Kərimdir. Akademik V.Məmmədəliyev və Q. Məmmədəliyeva yazdıqları dəyərli məqaləsində Mövlananın «Məsnəvi»sini təsəvvüf ensiklopediyası adlandırır. Məqalədə oxuyuruq: «Məsnəvi» sözün həqiqi mənasmda «Quran»ın batini təfsiri, mənzum təsəwüf ensiklopediyasıdır. Məhz buna görədir ki, Mövlanə özünün bu ölməz əsərini «Kəşşafül-Quran», «Fiqhi-əkbər», yaxud

«Seyqətül-ərvah» adlandırmışdır... «Məsnəvi»də 950başlığın50-dən artığı ayələrə, 53-ü isə hadisələrə istinad edir» (50).

Mövlana Səm'a, (Mövləvi təriqətinə mənsub olanlarm fırlanaraq ekstaz vəziyyətinədək rəqs etmələridir. «SərrTa»-lüğəti mənası «eşitmək», «duymaq» deməkdir), musiqi (ruhım qidası) və şeir (hiss və duyğuların inkişaf vasitəsi) kimi üç tərbiyə vasitəsindən istifadə edərək insanları mənəvi zənginliyə, kamilliyə, bütövlüyə çağırmışdır.

Bu üç vasitənin vəhdətini «Səmavi» rəqslərində görmək olar. Bu rəqs- lərlə Allahı anma, Allaha qovuşma kimi simvolik mərasim nəzərdə tutulur. Rumi Səmamn zövqünü, musiqinin gözəlliyini, şeirin mə- nasmı duyaraq təsəvvüf ədəbiyyatırun mütəfəkkiri olmaqla «Vəhdəti vücud» («tək varlıq») nəzəriyyəsinin görkəmli nümayəndəsidir. Mövlana həyatmı sevgi içində keçirib, sonsuz xoşbəxtliyə qovuşmağı və hər cür pisliklərdən armmağı gənc nəslə öyüdləmiş və humanist düşüncələri ilə insanlara demişdir: *«Geri dön, bir daha gəl. Hər kimsən bundan öncə (dinsiz, imandan uzaq və ya atəşpərəst) və hər nə isən, yenə gəl. İstər yüz kərə tövbə etmiş ol, istər yüz kərə pozmuş ol bövbəni. Ümidsizlik qapısı deyil bizim qapımız, rıecəsənsə eləgəl»*! Bu qiymətli fəlsəfi, pedaqoji, humanist fikirlər insana böyük sevgi və məhəbbətdən irəli gəlmişdir. Rumi sevgi və məhəbbəti bütün carılıların hərəkətverici qüwəsi hesab etmiş və göstərmişdir ki, sevməyi bitkilər də, heyvanlar da bacarır. Amma, yalnız ruhu və ağlı üə sevənlər, könlü eşqlə dolu olanlar insan- lardır. O deyirdi: «Eşqsiz könülə sahib olan, padşah belə olsa atlas kəfənə bürünmüş, məzara gömülmüş ölüdən başqa bir şey de- yildir»(93,20). Mövlana göstərir ki, təbiətdə hər zərrədə bir eşq və bir cazibə vardır.Bu mənada o belə deyir:

*Qara dəmir könlünü aynada görür də,*
*Mən də aşiq ola bilirəm deyir. Bu göy üzü*
*aşiq olmasaydı, köksü, könlü Belə saf, belə*
*təmiz olmazdı. Günəş də aşiq olmasaydı*
*Üzündə bir işıq görünməzdi, Yer üzündə*

*dağ da aşiq olmasaydı, Könüllərdən bir ot*
*belə bitməzdi.*

Mövlanın yolu «Ən böyük həqiqət» dediyi bilik, təfəkkür, sənət və eşq yolu ilə Allaha qovuşmaq istəyənlərin yoludur. Ona görə insan yalnız bütöv olduqda, hərtərəfli inkişaf edib kamilliyə çatdıqda haqqa, həqiqətə qovuşa bilər. Həqiqətə çatmağın yolunu isə o idrakda, ruhu zənginləşdirməkdə, insanlara dərin sevgi, eşq və məhəbbətdə görürdü. O deyirdi: «Allaha qarşı məhəbbətim elmin nəticəsindədir».

Bildirirdi ki, eşq özü də elm və ədəblə mühafizə edilməlidir. Rumi göstərirdi ki, insan ömrünün sonuna qədər təlim və tərbiyə almalı, elmi, biliyi hiss və duyğularla qəbul etməlidir: «Ey qardaş! Sən yalmz duyğu və düşüncədən ibarətsən, qeyri qalan isə sadəcə ət və sümükdür». O bildirirdi ki, elmi ürəklə öyrənmək lazımdır ki, ürək-lərə təsir göstərə biləsən. Yalmz o zaman öyrənilən bilik sahibinə «yar» olar. Əks halda elm sahibinə əziyyət verən bir yük olar»:

*« Elm qəlbə əks edərsə, sahibinə yar olur,*
*Yalnız qəlibdə qalarsa, sahibinə bar olur »*

Mövlana bildirir ki, təlimlə hətta heyvanlar da dəyişir. Vəhşi at əhliləşir, ayı oynayır, keçi salam verir, it ovu tutur, çoban yanında gözətçi olur. Bu cəhətdən insan həmişə özünü tərbiyə etməli, özünü təhsilləndirməli, heyvani və şeytani istəklərdən uzaq olmalıdır (94,156).

Mövlana ədəb, əxlaq və mərifəti insanm xoşbəxtliyinin əsas şərti sayırdı. O - *«Ədəbsiz bir kimsənin pisliyi, yalnız özünə münhəsir qalmaz, bəlkə bütün afaqı - aləmi atəşə verir»* - demişdir. O bildirirdi ki, in-sanoğlunun əsas özəlliyi onun ədəbi və əxlaqıdır O, bu münasibətlə belə deyirdi:

*«Əgər ədəbdən məhrumsa insanoğlu, insan deyildir,*
*İnsanla heyvan arasındakıfərq ədəbdir. Gözünü aç və*

*gör, Allahın bütün kəlamı Quranın ayət-ayət mənası*
*ədəbi-dərs verir».*

Haqqı, ədaləti, əxlaqi saflığı, mənəvi bütövlüyü təbliğ edən Rumiyə görə - « Ədalət hər şeyi layiq olduğu yerə - ayaqqabım ayağa, papağı başa qoymaqdır». Başqasımn malmı yeyənləri, rüşvət alanları tənqid edən Rumi yazırdı; *«Ey rüşvət yeyən, sənfil balasını yeyirsən. Buna görə fil sənə düşməndir. Bir günfil gəlib səni yox edəcəkdir»* (93,70)

Mövlana Cəlaləddin Rumi gənc nəsli ədəbə, əxlaqa, mənəvi keyfiyyətləri əxz etməyə çağırmış və gənc nəslə aşağıdakı öyüd və nəsihətləri vermişdir:

*Mələklərlə bərabər, mələkut səmalarında uçmaq istəsən*
*Məxluqata şəfqət və mərhəmətdə Günəş kimi oll*
*İnsanların qüsurlarını örtməkdə gecə kimi oll*
*Təvazökarlıqda torpaq kimi ol!*
*Səxavət və comərdlikdə axan çaylar kimi ol!*
*Sirr saxlamaqda ayna kimi ol!*
*Hiddət və əsəbilikdə ölü kimi ol!*
*Ya olduğun kimi görün,*
*Ya göründüyün kimi ol!*

Mövlana insanların həmişə bir-birinə yardım etməsini istəmişdir. Ona görə əgər insan bir-birinə yardım etmirsə, demək xoşbəxtliyini istəmir. Belə insanların davranışı pis, xasiyyəti tünd olar. O pis xasiyyətli adamları bədəndəki çibana bənzətmişdir. Mövlana həyatı boyunca özünə heç bir şey istəməmiş, daim darda qalanlarm, haqqı yeyilənlərin yardımına tələsmiş, əlində olanı insanlara bağışlamış, özünə ehtiyac olduğu halda başqalanna vermiş, olmadığı zaman da - «Evimiz peyğəmbər evinə bənzədi» - deyərək şükr etmiş və demişdir: *«Allahım, məni çox yeməkdən, çox danışmaqdan və çox yatmaqdan qoru».* Az yemək bədənin, az danışmaq ağlm, az yatmaq isə ruhun sağlam- lığxdır. Mövlana insanlarxn ədəbli olub, nəfslərinə üstün gəlmələrini istəmiş və özü beş yaşxnda olanda nəfsirü cilovlamxş, ehtirasxna qalib gəlmiş və başqalarxnx da bu müqəddəs yola

səsləmişdir. Rumi - *«Özünə gəl, mənəmlikdən uzaq ol. İnsanlara qarış insanlarla bir ol! İnsanlarla bir olduğun zaman, bir mədənsən, bir dənizsən. Özünə qapılınca bir damlasan»* - demişdir.

Təsəwüf əhli insanxn xaricinə deyil, daxilinə, iç aləminə önəm verir. O içdən gələn səsi duymaq üçün susar və susunca da qəlbi ilə danışar. Bir əxlaqi keyfiyyət kimi susmaq, az damşmaq insana bir məna gətirir. Mövlana bu barədə belə deyir: *«Hər kəsfəsahət və bəlağət satmağı bilir, amma mən susmağı bilən insanın bəndəsiyəm».*

Mövlana Cəlaləddin Ruminin əsərlərində və öz şəxsi həyatxnda müəllim - şagird münasibətləri xüsusi yer tutmuşdur. Dövrünün böyük alimi, böyük təlqin və cəzb gücünə malik Şəms Təbrizi Mövlanxnxn həyatmda son dərəcə böyük rol oynamxş, onım ideya və baxışlarına qüvvətli təsir göstərmişdir. Rumi müəlliminə odlu və səmimi şəkildə bağlanmış və ondan aynlmamışdır. Müəllim- şagird münasibətlərininbelə sıx, mehriban, səmimi qurulması bir çoxlarmda qısqanclıq yaratmışdır. Hətta həm müəllimə, həm də Cəlaləddinə təh- didlər göstərilmiş və Şəmsin həyatma uğursuz qəsdlər də edilmişdir. Müəllimi Şəms Təbrizi şagirdinə zərər toxunmasm deyə bir gün qəflətən şəhərdən çıxaraq Dəməşqə getmişdir. Əhvalı pozulmuş Cəlaləddin oğlu Vələdi müəlliminin arxasmca göndərmiş və yalvarışla qayıtmasını xahiş etmişdir. Şəms və Vələd qayıtmış və yenidən dərslər, təlim məşğələləri, səmimi, işgüzar münasibətlər başlamışdır. Amma, yenidən fiziki hədələr başlaymca, bu dəfə Şəms Təbrizi bir dəfəlik qeyb olmuş və onu axtarışlar da nəticəsiz qalmışdır. Cəlaləd- dinin müəllimindən ayrdığı onu böyük iztirablara düçar etmişdi. Həmişə, hər yerdə müəllimini axtarmışdı. Belə rəvayət edirlər ki, bir gün birisi Cəlaləddinə müəllimini gördüyünü demişdir. Cəlaləddin də bu xəbəri eşitcək əynindəki əbasını çıxararaq ona hədiyyə ver- mişdir. Bir başqası da demiş ki, onun xəbəri yalandır. Cəlaləddin «Mən onun yalanma əbamı verdim, doğrusuna canımı verərdim» - demişdir.

Mövlana müəllim-şagird münasibətlərinə xüsusi diqqətlə yanaşmış və maraqlı fikirlər söyləmişdir: O, yazırdı ki, müəllim öz şagirdlərinə böyük hörmət və məhəbbətlə yanaşmalı, onlarda öz qüvvələrinə inam tərbiyə etməlidir. Rumi bu xüsusda belə yazır :

*«Müəllim şagirdlərə yazmağı öyrədərkən şagird hərfləri bitirib yeni sətrə keçərkən müəlliminə göstərir. Müəllim bu yaziların səhv olduğunu görür. Amma, müəllim deyir: «Hamısını gözəl yazmısan. Amma, bu belə yazilmalı idi. Bunu da bir qədər yaxşı yazmaq olardı. Bax belə...» Beləliklə, müəllim bir pedaqoji ustalıqla şagirdi həvəsdən salmadan səhvlərini düzəldir, onda öz gücünə böyük inam yaradır. Rumi təlim-tərbiyə zamanı qarşısındakına böyük hörmətlə yanaşmağı, onun qəlbinə toxunmamağı məsləhət bilirdi. O, deyirdi: «Söhbət var, qılınca bənzər, bostanı, əkini qış kimi kəsib biçər. Söhbət var, ilk bahara bənzər, hər tərəfdə saysız meyvələr bitirər».*

Mövlana göstərir ki, hər şey kökünə can atır, sonunda o mütləq kökünə dönəcəkdir. Kökünə dönməyən, əslini bilməyən hələ tam, bütöv deyildir. Rumi bu həqiqəti neyin dili ilə belə qələm almışdır:

*Dirılə neyi, duy nələr söylər sana Dərdi*
*vardır ayrılıqlardan yana, Kəsdilər*
*qamışlıq içindən der məni Dinlər, ağlar*
*həm qadın, həm ər məni. Köksü göz-göz,*
*ayrılıq bir dərd, Sən o gün eşit məndən,*
*həsrət nədir Hər kim əslindən uzaq*
*düşsə, arar, Əslinə dönməkçün uyğun*
*gün arar.*

Şeirdəki neyin hikmətli bir mənası vardır. Şair neyi sanki ağıllı, arif bir insana bənzədir. Neyin səsində məna və hikmət olduğu kimi, arifin də söz-söhbətində məna və hikmət vardır. Ney şikayət edir. Çünki, o, öz kökündən ayrılmışdır. Şair neyin şikayətini onun qəmli səsi ilə in- sanlara eşitdirir. Arifin də hikmətlərlə dolu sözlərini eşidənlər riqqətə gəlir, özlərini dünya malma bağlamaqdan əl çəkir və ədəbə, mərifətə, haqqa bağlanırlar. Neyin hikməti və hünəri onun xaricində deyil, içində olduğu üçün, arifin də hikməti, məna və dəyəri onun surətində deyil, daxili aləmindədir. Neyin sirri onun iniltisindədir. Neyin sirli mənası onun daxilin-dədədir. İnsarun da mənası onun xaricində deyil, daxilindədir.

Neyin «köksü göz-gözdür». Neyin səsinin varlığı neyi üfürən nəfəsin varlığma bağlıdır. Nəfəs kəsilərsə ney də susar. Göz neyi görür, qulaq səsini eşidir, amma onu hərəkətə gətirən gücü, səs-

ləndirən nəfəsi görmür. Insan və kainat da ney səsinə bənzər və varlıqlarmı nəfəs kimi gizli alan Tanrıya borcludurlar.

Neyin bir mənası da qamış deməkdir və yazı qamışla yazıldığma görə qələm mənasını anladır, necə ki, Quranın 96-cı «Əl-Ələq» («Laxtalanmış qan») surəsində deyilir: «(Ya Peyğəmbər) Oxu!.. Sənin Rəbbin ən böyük kərəm sahibdir! O Rəbbin ki, qələmlə (yazmağı) öyrətdi» (42,637). «Qələm insanm bir dilidir» demişlər. Quramn «Nun və ya qələm» surəsinin əvvəlində Peyğəmbərimizə qələmin ilk varlıq olaraq yaradıldığı söylənmişdir (42,583).

Ney dediyimiz qamışlıqdan kəsilib, öz «dostlarmdan», kökündən ayrılmışdır. Ona görə o qəmli mahnılar çalır və öz kökünə, əslinə dön- məkçün uyğun gün arayır. Yalrnz hər kəs öz kökünə döndükdə, əslini unutmadıqda bütövləşir. Mövlanın fikirləri bu gün müasir pedaqoji fikrimizdə tərbiyə məsələlərinin həyata keçirilməsində dəyərli mənbələrdəndir.

## Bektaşilikdə tərbiyə

Pedaqoji fikir tariximizdə şəxsiyyətin tərbiyə olunub formalaşmasında, kamil insanın yetişdirilməsində, insarnn özünü tanıyıb dərk etməsində XII-XIII əsrlərdə Yaxın Şərq, Anadolu və Azərbaycanda yaydmış Bektaşiliyin özünəməxsus yeri və əhəmiyyəti olmuşdur. Bektaşiliyin yaradıcısı Hacı Bektaş Vəli olmuşdur. Anası Şeyx Əhmədin qızı Hatəm xatun, atası Seyid Sultan İbrahim Sani türk sojrundandır (82,47).

Bektaşiliyin əsas mahiyyəti insanm özünü tanıması, özünü dərk et- məsi, gözəl ədəb-ərkana sahib olmasıdır. Bektaşi təkyələrinin giriş qapısında hər kəsin görə biləcəyi bir yerdə "Ədəb" sözü yazılıb asılırdı. Bu o demək idi ki, bura ədəb-ərkan mərkəzidir. Bura ədəblə girilir, ədəblə çıxdır. *"Ədəb" ( ^jj! ) kəlməsi ərəb əlifbası ilə "Ə", (* I *) "D"( *"B"(* s-1*) hərflərindən meydanagəlmişdir.* Bu üçhərf, üç kəlməyə dönmüşdür. Bunlar *"Əl", "Dil", "Bel"* kəlmələridir(82,191-192).

Bu üç kəlimə «***Əlinə sahib ol, dilinə sahib ol, belinə sahib ol***» fikri Bektaşilikdə əxlaq və mənəvi tərbiyənin təməl prinsipi saydmışdır. Bektaşiliyə daxil olanlara bu üç kəlmə israrla xatırladdır və bunlara əməl etməyənlərə üç dəfə "Girmə" deyilir. Daha sonra girməyi qəbul

edirsə, onda ona üç dəfə "Dönmə" sözü təkrar edilir. Bu üç kəlmənin böyük tərbiyəvi əhəmiyyət daşıdığını aşağıdakı kimi izah etmək olar:

1. Əlinə sahib olmaq. Əlinlə qoymadığın bir şeyi götürmə. Əlinlə kimsəyə pislik etmə. Kimsənin malını götürmə, kimsəyə haqsızlıq etmə Bir sözlə əlinə nəzarət et, əlirdə haqqı, ədaləti qoru.

2. Dilinə sahib olmaq. Gözünlə gördüyün hər şeyi də söyləmə. Ola bilər ki, dediyin fitnə-fəsad yaradar. Dedi-qodu yaratma, yalan söyləmə, qiybət etmə. Deyəcəyini əvvəlcədən fikirləş, ölc-biç, sonra danış. Digər yöndən dilə sahib olmaq öz ana dilinə hörmət göstərmək, onu gözəl bilmək və qorumaq deməkdir.

3. Belinə sahib olmaq. İnsanm nəfsinə sahib olması nigahı və halalı olmayana meyl etməməsi, öz nəslini, soyımu, kökünü qorumasıdır.

Bu üç qaydaya əməl eüxıək Bektaşi ədəb və əxlaqının əsasını təşkil etmişdir. Bektaşi müdriklərindən Qayğısız Abdalın ədəb haqqında dəyərli misraları da yuxanda dediklərmizə bir nümunədir:

*Ədəb gərəkdir qula,*
*Ta ismiriiz təmiz*
*ola. Ədəbsiz girmə*
*yola, Var ədəb, öyrən*
*ədəb.*

*Ədəbi gözlər talib,*
*Ədəbdir haqdan nəsib,*
*Ədəbsiz olma həbib,*
*Var ədəb, öyrən ədəb*

Bektaşinin həmişə özündən əmin olması, son nəticədə bütöv bir toplumun bir-birindən əmin olmasına gətirib çıxarır. «Müsəlman kimdir?» sualına Məhəmməd Peyğəmbər (s) belə cavab verir: - «Müsəlman, müsəlmamn əlindən, dilindən əmin olan kimsədir». Yəni əlinə, dilinə sahib olmaq müsəlman olmağm vacib şərti hesab edil- mişdir. Demək, Bektaşi tərbiyə sisteminin qaynağı Həzrəti Peyğəm- bərin (s) hədisindən irəli gəlmişdir.

Bektaşilikdə insanın kamilləşməsinə xüsusi önəm verilmiş və kamilliyə çatmağm da şərtləri müəyyənləşdirilmişdir. Həmin şərtiərə əməl edənlər - «Mürşidi-kamil» adlanır və ya «Ata» kimi müqəddəs ada layiq görülür. «Mürşid» və «Ata» haqqını ala bilmək üçün aşağıdakı şərtlərə əməl edilməlidir:

1) Bilik sahibi olmalı və bütün davramşlarda islam qayda-qanunlarına əməl etməli.

2) Batini elmi anlamalı. (İnsamn öz daxili aləmi ilə özünü təkmilləşdirmə ilə bağlı elm).

3) Üsyankar olmamalı.

4) Səxavətli və comərd olmalı.

5) Şücaət sahibi olmalı (könlünü haqq-taalaya bağlamaq).

6) Nəfsə uymamaq, şəhvət hisslərindən qorunmalı.

7) Dünyaya çox məhəbbət və ülfət etməməli, istəklərdən keçməli.

8) Kimsəyə acı və zərər verməməli, hər zaman yardımçı olmalı.

9) Yumşaq təbiətli, əffedici olmalı.

10) Gözəl əxlaq sahibi olmalı.

11) Özürıə rəva bilmədiyirti, başqasma da rəva görməməli.

12) Kərəm sahibi olmalı (ətrafındakı insanlarla xoşrəftar olmalı, on- lara hədiyyələr verməli).

13) Təvəkkül sahibi olmalı.

14) Təslim və riza sahibi olmah (haqqa təslim olmaq və daim ondan razı qalmaq).

15) Qəzaya riza göstərməli.

16) Təvazökar olmalı və əhdə vəfa göstərməli.

17) Səbrli, təmkinli və ağır təbiətli olmalı.

18) Əhd edib, söz verdiyini yerinə yetirməli.

Bektaşilikdə sirr saxlamaq, başqasmm eybini açmamaq, başqasma sirr söyləməmək də bir əxlaqi keyfiyyət kimi mühüm əhəmiyyət kəsb etmiş və Bektaşi demişdir: *«Sərimi verrəm, sirrimi verməm».*

Bektaşilik düşünən, ağlmı işlədən insanı tələb edir. Ona görə Hacı Bektaş Vəli deyir: *«Ağılla gedilməyən yolun sonu qaranlıqdır».* Bu cəhətdən Bektaşilikdə təlim zamanı fərdə bilik verməzdən əvvəl onun düşüncəsi, təfəkkürü, inkişaf etdirilir. Müstəqil fikirləşmək, düşünmək, hiss etmək, duymaq, iradəni möhkəmləndirmək, nəfsə qalib

gəlmək kimi keyfiyyətlər bilik vermədən öncə öyrədilir. Bektaşilər buna «Qabım genişləndirmə» deyirlər. Başqa sözlə öyrənmək istəyən şəxs bilik ala biləcək, idrak edə biləcək səviyyəyə, «hal»a gətirilir.

Bektaşilik orta əsr insanmm təlimi və tərbiyəsində, gələcək elmi-pedaqoji fikrin formalaşmasında özünəməxsus rolu və əhəmiyyəti olmuşdur. Daha sonralar Bektaşilik Hürufiliklə birləşmiş, birgə fəaliyyət göstərmişdir.

**Hürufilikdə tərbiyə.**

Hürufi dedikdə hərf elmi ilə məşğul olan, hərflərdə bir məna axtaran, hərflərə müqəddəs varlıq kimi baxan inanc sahibi başa düşülür.

«Hüruf» «Hərf» kəlməsinin cəmidir. Hürufiliyə görə varlıq səslərdən ibarətdir. Səs də hərf və sözlərdə öz əksini tapır. Sözlər hərflər üzərində qurulur və insanlar tərəfindən ifadə olunur. Kainat Tanrının «01» kəlməsindən meydana gəlmişdir ki, bu da səs vasitəsi ilə ifadə olunmuşudr. Səsin işarəsi hərflərdir. Ona gərə də hərflər müqəddəsdir. Hər bir hərfin mənası və bir anlamı vardır. İnsan hərflərin daxili rəmz və mənalarrnı dərindən öyrənərkən ilahi aləmin sirlərini də öyrənmiş olur. Hərflərin bir məna, ifadə kəsb etməsi hələ səhabələr dövründən məlum olmuşdur. Həzrəti Əli (s) deyirdi «Bismillah» « s-[1] » (Be) hərfindən meydana gəlmişdir. Mən «Be» hərfinin alündakı nöqtəyəm. «Be» hərfinin təsəvvüfdə müqəddəs bir hərf və bir açar olması haqqında XV əsrdə yaşamış Bərdəli Şeyx İbrahim İbn Məhəmməd İbn Hacı İbrahim İbn Şəhabəddin Bərdəinin (Gülşəni) dəyərli misralan vardır:

*«B» harfi «bismillahirrəhmarı» kəlməsindən,*
*Açar kimi vəhy olmuşdur Allah səsindən,*
*«Bismillah» kimi olmamışdır heç bir açar, O,*
*sözlər ölkəsinin qapısını açar» (53,186).*

Hürufilər sözləri varlığın əsası kimi qəbul edirlər.Sözlər «Quran»da və Quran vasitəsilə Allahdan gələn vəhylər dünyanı

yaratmışdır. Allahm Qurandakı sözlər vasitəsilə insanda təcəlla etməsi Hürufilik ideyasmm əsasım təşkil edir.

Hərflərin texniki tərəfləri ilə bağlı görüşləri inkişaf etdirməklə hürufiliyi bir fəlsəfi-dini fikir sistemi olaraq quran, yayan şəxs azərbaycanlı Fəzlulluah Nəimi Astarabadi (1340-1394) olmuşdur. Nəimi öz hürufi düşüncələrini «Cavidani-kəbir» (Böyük əbədi), «Cavidani-Səqir» (Kiçik əbədi), «Ərş-namə»(Səltənəthaqqındakitab), «Məhəbbət-namə», «Naum-namə»(Yuxu görmə haqqında kitab), «İskəndər-namə», «Vəsiyyət-namə» adlı əsərlərində izah etmişdir. Nəiminin əsərləri İstanbulda «Aya-Sofiya» kitabxanasında, Paris Milli kitabxanasında, Britaniya muzeyində, Kembric universitetində, Teh- ran Milli kitabxanasmda, İrəvan Mətndaranmda və digər kitabxa- nalarda saxlamlır. Nəiminin həyaünda Bakmm xüsusi rolu olub. Belə ki, o burada hürufi hərəkatının mərkəzini yaratmışd. Əli-ül Əlanın «Qiyamətnamə» əsərində göstərilir ki, Fəzlullah Nəimi Bakıdan getdikdən sonra da bu mərkəz hürufiliyi yaymış və təbliğ etmişdir:

*Bakı tərdfddn səs gəlsə Ayağa dur, əlini-əlinə vurub*
*sevin, Ora bizim sevimli yerimiz Özü getsə də yeri*
*orada qalır.*

«Insan yer üzünün əşrəfidir!» Quran ayəsindən irəli gələrək, hüru- filər insan şəxsiyyətinə yüksək qiymət verir və belə hesab edirdlilər ki, Quran ayələri elə insanın üzündə yazdmışdır. İnsanın burnu ərəb əlifbasında «Əlif»dir ( \ ) burunım yanları «Lam» ( J ), gözlər «he» ()dir. «Əlif», «Lam» «he» «Allah» - ( ) ) kəlməsini yaradır.

Nəiminin ideyaları, əqidə düşüncəsi onun davamçısı və müridi XV əsrin böyük Azərbaycan şairi Nəsimi (1369-1417) tərəfindən geniş yaydmış və davam etdirilmişdir. Bütövlükdə insan şəxsiyyəti, onun yüksək dəyərləndirilməsi Nəsimi yaradıahğımn əsas ana xəttini təşkil etmişdir. Bu gün pedaqoji elmin ən mühüm problemlərindən biri kimi təhsilin humanist, demokratik prinsiplər əsasmda qurulması, insan şəxsiyyətinə böyük hörmət və məhəbbətdən irəli gəlmişdir: Böyük şair deyir:

*«Ey daşa turabə gövhər deyən insan;*

*İnsan öz lütfü hüsnüylə gövhər deyilmi» (32,17).*

Professor Nurəddin Kazımov pedaqoji elm sahələrindən danışarkən Nəimi, Nəsimi təsəvvüf düşüncəsindən irəli gələn «Hürufizm pedaqogikası»nı pedaqoji elmin bir sahəsi kimi irəli sürür və onun mahiyyətinin insanlann elmə, maarifə, biliklərə yiyələnmək olduğunu açıqlayır. O qeyd edir ki, hürufizm hərfləri və rəqəmləri müqəddəs hesab edir, dünyanı dərk etməkdə, insanın hərtərəfli inkişaf et- məsində, mənəviyyatının zənginləşməsində onu mühüm şərt sayır: «Hürufizmin əsas müddəası hərfləri və rəqəmləri öyrənməyin zəru- riliyidir: hərfləri və rəqəmləri öyrənən şəxs nəinki dünyam dərk edir, həm də ilahiləşir, müqəddəsləşir, eyni zamanda o Allaha qovuşur» (34,64).

Nəsimi «Bulunmaz» rədifli qəzəlində insanlıqdan danışarkən göstərir igidlik iddiasmda olan kişi bunu əməli işində göstərməlidir. Sözü ilə əməli bir olmayan, hər çalma qoyan, amma xalqm işinə yarama- yanları, hünər, mənsəb sahiblərinin insanlara yardım etməməsini kişilik saymaq olmaz:

*Hər bihünər insafı yox, uş mənsəbi tutdu, Sahib*
*hünərə mənsəbü idrar bulunmaz, Xəlqin əməli*
*azdı, könül yıxıcı ögüş, Bir xəstə könül yapıcı*
*memar bulunmaz (32,81)*

Hürufilik təsəvvüf xətti ilə orta əsrlərin tərbiyə və təhsilində, pedaqoji fikrində, ədəbiyyatında öz təsirini buraxmışdır.

**Əxilikdə tərbiyə**

Əxilik qədim türk mədəniyyətinin bir qoludur. Türk toplumunun dini, əxlaqi, mənəvi dəyərləri, fəlsəfəsi, sosial -iqtisadi anlayışı əxilikdə öz əksini tapmışdır. Əxiliyin məqsədi insanların dünya və axirətdə rahatlıq içində olmalarmı təmin etmək və bununla bərabər İslam adət və ənənələri ilə səsləşən kamil insan tipirıi tərbiyə etməkdir. Əxiliyin bir məqsədi də bu olmuşdur ki, zənginlə kasıb,

istehsalçı ilə istehlakçı, əməklə sərmayə, xalq ilə dövlət arasında sıx və sağlam əlaqələr quraraq «Sosial ədalət»i gerçəkləşdirməkdir.

Əxilik dini-fəlsəfi təlim kimi XII əsrdə İranda, Anadoluda, Azərbaycanda yayılmış və insanlarm təlim-tərbiyəsində, dünyagörüşündə böyük rol oynamışdır. XII əsrdə Anadoluda əxiliyi təşkilandıran, onu inkişaf etdirən «Əxi Evrən» adı ilə məşhur olan azərbaycanlı Şeyx Nəsrəddin Mahmud olmuşdur. O 1171-ci ildə Azərbaycanın Xoy şəhərində anadan olmuşdur». «Əxi» sözünün izahmda iki mülahizə vardır. «Əxi» ərəbcə «Qardaş» və ya türkcə «Aki»-«Alicənab» (Aka, qədim türk sözü olub «Alicənab», «Comərd», «Əliaçıq») mənalarmı verir. İnsanpərvərlik,əliaçıqlıq, xeyirxahlıq Əxiliyin təməl görüşlə- rindən biridir. Bu görüşə bağlı olaraq, Əxilik bir sinfin, bir zümrənin və ya bir adamm hökmranlığma qarşı çıxmamış, insanlar arasında ayrılıq güdməmiş, əksinə onlarm bərabərliyini qoruyub saxlamışdır.

Əsasən şəhər sənətkarlmı, ticarətlə məşğul olanları birləşdirən Əxi təşkilatlarınm xüsusi nizamnamələri olmuşdur ki, buna "Fütuvvət- namə" (Ərəbcə «Fəda» sözünün cəmidir. Yəni - "mərdlik", "igidlik", "səxavətlilik") demişlər. Onların toplaşdığı yerə «Təkyə» və ya «Za- viyə» deyilmişdir. İslam qaydalarına müvafiq özlərinə məxsus düşüncə və davramş tərzləri, ədəb və əxlaq qaydalan olmuşdur. Fü- tuvvətnaməyə əsasən dörd dini əxlaq normasma- şəriətə, təriqətə, mərifətə, həqiqətə əməl etməli, yoxsullara, kimsəsizlərə, qəriblərə yardım göstərməli, istismarçdara qarşı mübarizə aparmalı, əxlaqı daim saflaşdırmalı idilər.

*Əxiliyə girənlər bellərinə bağladıqları qurşağa «Vəfa şəddi» deyirdilər. Bunun mənası belə idi: «Belimə bağlayıram ki, sözümdə durum. Şeytana uymayım və daim ona düşmən olum. Dünya malına göz dik- məyim. Tanrının qəzavü-qədərinə səbr edim. Haraya getsəm bu qurşaq məndə olsun. Tanrının bunda hikməti vardır».*

Əxilikdə yüksək mərtəbəyə çatanlara «Əxi Ata» statusu verilmişdir ki, bu öz xüsusiyyətlərinə görə qədim şamançdara çox yaxm olmuş və hamısı «Kəraməb> sahibi sayılmışdır. Əxi birliklərində sənətkarlıq yüksək qiymətiəndirilmiş və sənətə "hikmət" adı verilmiş və bu hikmətin kim- sələrdən qorunması

tövsiyə edilmişdir. Əxüər gündüz çalışar, axşamlar isə «Təkyəyə»yə gəlib, ibadətlərini edər, söhbətlər keçirər, yeməklərini birlikdə yeyərdildər. Bu təkyələrdə qonaq, yolçu heç vaxt əksik olmazdı. Əxilər zahm və haqsızlara qarşı mübarizə apardıqlan kimi, öz aralannda da hər hansı biri Əxi prinsiplərini pozarsa, müştərilərini aldadarsa, yalan soylərsə dərhal Əxi -Ata tərəfəindən mühakimə edilib cəzalandınlardı. Bu cəhətdən də Əxilik təşkilaü islami ticarət anlayışım qoruyan, bir iman, igidlik, cihad, əxlaq və mənəviyyat ocağı idi.

*Əxilərin özlərinə məxsus məktəbləri, təlim mərkəzləri olmuş və bu- rada təhsil alanlara aşağıdakdar öyrədilmişdir: Dinin əsaslarını oxuyub öyrənmək, yazmaq; insanlıq tərbiyəsi-təmizlik, paklıq və əxi ocağının qanun- larına əməl etmək; ilahilər- şeirlər, rəqslər və nağıllar öyrənmək; yeddi müx- təlifformada qurşaq bağlamağı və açmağı öyrənmək. Bunun mənası belədir: Nəfs və tamah qapısını bağlayib, mədrlik qapısını açmaq; zülm etmək qapısını bağlayıb, yaxşılıq etmək qapısını açmaq; qəzəb və kin qapısını bağlayıb, səbr və qənaət qapısını açmaq; həzz qapısını bağlayıb, nəfsi qorumaq qapısını açmaq; xalqdan bir şey ummaq qapısını bağlayıb, haqq qapısını açmaq; çox danışmaq qapısını bağlayıb, Tanrını anma qapısını açmaq; şeytana uymaq qapısını bağlayıb, Tanrıya xidmət qapısını açmaq.*

Əxi birliklərinin tərbiyəedici və maarifləndirici fəaliyyətləri islam dininin elm və tərbiyə haqqmdakı qaynaqlarından irəli gəlmişdir. Həmin fəalijryətin istiqaməti aşağıdakılardır:

1) Hər bir fərdə özünü tamma yollarıru göstərmək. Tərbiyə və elm insanın özünü tamma yollarmı, özünü dərketməyi öyrətməlidir. Əks təqdirdə elm və tərbiyənin heç bir əhəmiyyəti qalmaz.

2) Insan fitrətini qorumaq.

3) Kamil insan yetişdirmək. Belə insan yalnız vətənində deyil, hər yerdə, hər zaman doğru, düzgün insandır.

4) Fərddəki gizli bacarıqları üzə çıxarmaq və onlara istiqamət vermək.

Göründüyü kimi bütün bunlar müasir pedaqoji fikrin əsas ideyaları ilə səsləşir.

*Əxi birliklərinin təlim-tərbiyə sisteminin təməl qaydaları aşağıdakılardır: 1) İnsan bütöv olaraq, dünyaya gəlmiş və ona görə də, ona sənət, peşə*

*öyrətməklə yanaşı dini, əxlaqi və sosial bilgi verilməlidir; 2) görülən əməli işlər nəzəri məsələlərə uyğun olmalıdır, 3) təlim-tərbiyə müəyyən bir vaxta qədər deyil, bütün ömrü boyu davam etdirilməlidir: 4) dərslər bilikli, bacarıqlı müəllimlər tərəfindən öyrədilməlidir.*

Əxilər qız uşaqlarının tərbiyəsinə xüsusi diqqət yetirmiş və onlara belə öyüdlər də vermişlər. *«İşinə diqqətli ol», «Aşına diqqətli ol», «Eşinə diqqətli ol», («Eş» həyat yoldaşıdır).*

Əxi ocaqlarında müəllimlər təlim alan uşaq və yeniyetmələrə aşağıdakı hərəkət və davramşları etməməyi tövsiyə edirdilər: Tüpürmək, qiybət etmək, iftira etmək, lovğalanmaq, ayıb və qüsur araşdırmaq, əmanətə xəyanət etmək, kinli olmaq, yalan damşmaq.

*Fütüwət qaydalarma görə Əxinin üç açıq, üç bağlı keyfiyyəti ol- malı idi: Əli açıq olmalı (səxavətli, çomərd olmalıdır); qapısı açıq olmalı (qonaqsevər olmalıdır); süfrəsi açıq olmalı (ac gələni doydurmalıdır).*

*Gözü bağlı olmalı (kimsəyə kəm gözlə baxmamalı, kimsənin qüsurunu araşdırmamalıdır); dili bağlı olmalı (hər gördüyünü deməməli, çox danışmamalı); beli bağlı olmalı (etibarlı, əmin adam olmalı, haramdan uzaq olmalı ).Bu qaydalara əməl edən adam pis xasiyyətlərdən armır, yaxşı keyfiyyətlərə sahib olur, çox geniş işlənən bir deyimlə əlinə, belinə, dilinə, gözünə hakim olur.*

Fütüvvət üzvlərinin dörd təməl əxlaq prinsipi vardır: 1) Qüwətli və qalib vəziyyətdə ikən əfv etmək.; 2) hiddətli zamanda yumşaq davranmaq: 3) pisliyə qarşı yaxşılıq etmək; 4) özünə ehtiyac olduğu halda başqasma vermək.

Fütüvvət üzvləri üç qola ayrılmışlar: 1) Qılmclı qol. Bu qola daxil olanlar həm nəfslərinə, həm də kafirlərə qarşı savaşırlar. Bu Həzrəti Məhəmmədin Həztəti Əliyə qılınc bağışlamasınm simvolu kimi qəbul edilir; 2) sözlü qol. Bu qola bağlananlar qılınc daşımazlar. Onlar söz sahibidirlər; 3) fütüvvət qədəhindən içənlər qolu. - Bu qola daxil olan- lar təşkilata şərbət içərək qatilanlardır ki, onlar təşkilatin qayda-qa- mmlarına inkişaf etdirirlər.

Əxilik haqqmda yazılan bir sıra əsərlərdən, əlimizə keçən məlumat- lardan əxiliyin özəlliklərni ümumi şəkildə aşağıdakı kimi şərh edə bilərik:

1) Doğru olmalı.
2) Səxavətli olmalı.
3) Torpaq kimi aşağı könüllü,təvazökar olmalı.
4) Xeyirxah olmalı.
5) Öz həyaünı xalqın işinə həsr etməli.
6) Qonaqpərvər olmalı.
7) Əməksevər və bir sənət sahibi olmalx.
8) İnsanlara sevgi və məhəbbət göstərməli.
9) Dindar olmalı.
10) Utarıma duyğusuna sahib olmalı.
11) Yalan söyləməməli, qüsur aramamalı.
12) Mərhəmətli olmalı.
13) Kimsəyə qarşı düşmənçilik və kin bəsləməməli.
14) Yoxsullara yardım etməli, zənginlərlə minnətsiz dolanmalı.
15) Böyüklərə hörmət, kiçiklərə şəfqət göstərməli.
16) Fütüvvət əlamətlərini və geyimini daşımalı.
17) Nəfsinə hakim olmalı.
18) Ayna kimi sirr saxlayan olmalı.

Əxilərin sosial həyatdakı yaşamı xüsusi qaydalara müvafiq olmalıdır. Bu qaydalar yemək yeyərkən, su içərkən danışarkən, alış-

veriş edərkən, hamama gedərkən, yataqda yatarkən və s. haqqmdadır.

Məsələn, yemək yeməyə dair qaydalar belə şərh olunur:

1) Yeməkdən əvvəl və sonra əlləri yumalı.

2) Süfrədə böyüklərdən öncə yeməyə başlamamalı.

3) Yalnız öz qarşısmdan və kiçik tikələrlə yeməli.

4) Başqalarından tez yeyib, kənara çəkilməməli.

5) Yeyərkən ağzmı şappddatmamalı, içərkən qurtuldatmamalı.

6) Paymdan çox və doyunca yeməməli.

Əxiliyin 740-a qədər görk qaydaları vardır. Əxiliyin son mərtəbəsinə «Övliya» deyilir ki, o bu qaydaların hamısım bilir və əməl edir. Göründüyü kimi Əxilikdə əxlaq anlayışı böyük bir sistem şəklindədir.

Əxilik vaxtilə Azərbaycanda geniş yaydmış özünəməxsus bir əxlaqi təlim olmuşdur. Bəzi mənbələrə görə Nizami Gəncəvi də Əxi təşkilatının üzvü olmuşdur. Bu barədə «Təzkireyi-Devletşah»da yazdır: «Şeyx Nizami Əxi Fərəcin (Tanrı onun əziz sirrini təqdis etsin) müridlərindən idi» (84,213). Sonralar Əxilər Bektaşi təriqətinə qoşul- muş onlarla birlikdə fəaliyyət göstərmişdir.

## 3. Təhsil ocaqları: Suffə, Kuttab, məktəblər, Xanegah və Təkyələr, kitab evləri və kitabxanalar, mədrəsələr.

İslamda ilk təlim fəaliyyəti Həzrəti Peyğəmbərə (s) öyrətmə, təbliğ əmri ilə başlamışdır. Quranın «Əl-Müdəssir» surəsində deyilir: «Ey (libasına) örtünüb bürünmüş Peyğəmbər! Qalx (qövmünü Allahın əzabı ilə) qorxut! (İman gəürməyənlərə qiyamət günü şiddətli əzaba düçar ediləcəklərini xəbər ver!)»(42,600). Peyğəmbərimiz (s) bu təbliğ əmri ilə hərəkətə başlamışdır. Bilindiyi kimi başlanğıcda bu təbliğ daha çox gizli həyata keçirilirdi. İlk müsəlmanlar Həz. Xədicə, Həz. Əbu Bəkr, Zeyd, Həz. Əli, Osman, Ömər olduğu məlumdur. İsla- miyyəti qəbul edən ilk müsəlmanlar Peyğəmbərimizin rəhbərliyində bir yerə toplaşar, islamiyyəti və Qurani- Kərimi öyrənərdilər. Deyə bilərik ki, islamda ilk məktəb Məhəmməd Peyğəmbərin (s) adı ilə bağlıdır. Məhz onun təklifi ilə «Dar-əl-Əqrəm» («Əqrəmin evi») təsis edilmiş, burada o yarı açıq, yarı gizli şəkildə müsəlmanlara islamın əsaslarım öyrətmiş, onları islam ruhunda yetişdirmişdir. Bu ilk təlim ocağı islami meyar və dəyərlər zəminində müsəlmanlarm mütəşəkkil halda tərbiyə olunması, maariflənməsi məqsədilə yaradılmış məktəb hesab olunur. İslam təliminə görə, möminlərin vəzifəsi «Quran»ı oxumaq və dini vəzifələri icra etməklə yanaşı, həm də «Quran»ı savadsız əhaliyə öyrətmək hesab olunurdu. İlk əvvəllər bu vəzifəni məscidlər yerinə yetirirdi. Burada «Quran»m ayəsi ucadan oxunur, mənası izah olunurdu. Zaman keçdikcə təlim-tərbiyə müəssisələri dəyişikliyə uğradı, öz proqram, maliyyə sistemi, daxili qayda- qanunları ilə fərqlənən xüsusi yerlərlə əvəz olundu. İslamiyyətdə ilk təlim mərkəzləri meydana gəldi.

### Suffədə təhsil

Peyğəmbərliyin dördüncü ilində dəvət əmri alan Həz. Peyğəmbər(s) açıq-aşkar şəkildə təbliğə başladı və müşriklərdən üz döndərdi. «Əl-Hicr» surəsində deyilir: «(Ya Məhəmməd!) Sənə əmr olunan Quranı açıq-aşkar təbliğ et və müşriklərdən üz, döndər» (42,234). Məhəmməd Peyğəmbər (s) istər məkkəliləri, istərsə də

ətrafmdakıları, açıq-aşkar islama çağırmağa başladı. İslamda geniş şəkildə öyrənmə, təlim prosesi başlandı. Çünki İslam təkçə müəyyən bir qrup, zümrə üçün olmayıb, əhalinin bütün təbəqələri üçün olduğundan əhali kütləvi şəkildə oxuyub, öyrənirdi. Hər kəs elmi, ədəbi, əməli bir başqasına öyrədirdi. Çünki bilənin bilməyənə öyrətməsi islamda savab iş sayılırdı.

İslamiyyətdə təlim-öyrətmə və öyrənmə fəlsəfəsi iki təməl ideyaya dayanır:

1) Oxuyub - öyrənmək əsas dini vəzifədir. Necə ki, islami hökmlərdə deyilir: Bilik müsəlmanm itiyidir. Hər yanda onu axtarır.

2) Oyrədənlər Allah rizasım qazanmaq üçün öyrədirlər.

Demək islam təliminə görə, möminlərin əsas vəzifəsi dini vəzifələri
icra etməklə yanaşı, daim oxumaq, bilik qazanmaq, «Beşikdən qəbrədək öyrənmək» və Allah rizası üçün, bir savab işi kimi öyrəndiklərini başqa müsəlman qardaşlarına öyrətməkdir.

İslamm ilk dövrlərində elm, bilik, təlim almaq yeri əsasən bilikli adamlarm evləri idi. Əslində evlər təlim işi üçün o qədər də əlverişli olmamışdır. Çünki istər ev sahibləri, istərsə də şagirdlər evdə özlərini rahat hiss etməzlər. Quranda bu xüsusa işarət edilərək belə deyilir: «Ey iman gətirənlər! Peyğəmbərin evlərinə sizə yeməyə icazə veril- mədən (yeməyə dəvət olunmadan) girib onun bişməsini gözləməyin. Lakin dəvət olunduqda gedin və (yeməyinizi) yedikdən sonra (orada bir-birinizlə) söhbətə qapılmayıb dağdın. Və sizin çox oturmağınız Peyğəmbərə (səs) əziyyət verir, amma o sizdən (bunu sizə deməkdən) utanırdı. Lakin Allah doğru sözdən çəkinməz. Onlardan (Peyğəm- bərin zövcələrindən) bir şey soruşduqda, pərdə arxasından soruşxm (evlərinə daxil olmaym). Bu həm sizin, həm də onlarm ürəklərinə daha çox təmizlik bəxş edər»(42,419). Göstərilən bu ayətdən bəlli olur ki, təlim yeri kimi evlər o qədər də uyğun hesab edilməmişdir. Amma buna qəti qadağan da qoyulmamışdır. Bu səbəblə bir sıra evlər, məscidlərin geniş yayılmasına baxmayaraq tələbə və müəllimlərin görüş yeri, elm ocağı kimi vaxtmda fəaliyyət göstərmişdir.

Məhəmməd Peyğəmbərin (səs) Mədinəyə Hicrəti (622) məktəb təlimi sistemində yeni bir dövr açdı. Oxumaq istəyən müsəlmanların sayı çoxaldı. Bu müsəlmanlarm ibadəti və təhsil alması üçün geniş bir yerin olması zərurətini tələb edirdi. Həzrəti Peyğəmbər (s) Mədinəyə ayaq basar-basmaz müsəlmanların günlük namazlarının qılınması və Islami biliklərin tədris edilməsi üçün kərpicdən bir məscid inşa etdirdi. Rəsuli Əkrəm bu inşaatda həm memar, mühəndis, həm də fəhlə kimi çalışdı, nəticədə bir məscidi - Nəbi (Peyğəmbərə (s) məxsus məscid) tikilib başa gəldi. Burada namazların qılmması üçün böyük bir otaq və Peyğəmbərin ailəsi üçün bir neçə kiçik otaq ayrıldı və məscidin nəzdində təlim almaq, oxuyub-öyrənmək üçün bir guşə, bugünkü dillə desək məktəb yaradıldı. Beləliklə, Məscidi-Nəbidə camaat istədiyi kimi oturur, söhbət edir, Allaha dua edir, ibadət edir və maariflənirdilər.

Məhəmməd Peyğəmbərin (s) əmriylə, Məscidi-Nəbinin arxasmdakı qiblə divarmm üzərində kölgəlik yaradılmışdır. Bu kölgəlik yerə «Suffə» deyilirdi. Suffə əhli burada yazıb oxumaq, islam qayda- qanunlarmı öyrənirdilər. Suffə İslamın ilk oxuyub, yazma yeri hesab edilirdi. Peyğəmbərimiz (s) «Suffə»də bilavasitə dərs vermişdir. Bununla bərabər Quranı tədris etmək, oxuma və yazma sənətini öyrətmək məqsədiylə Suffəyə bir çox bilikli adamlar, tədrislə məşğul olanlar toplaşmışdılar. Məhəmməd Peyğəmbər (s) onları «Əshabi- Suffə» (yəni məscidin sofasma toplanan dostlar) adlandırırdı. Bunlar yetişkin, təcrübəli, bilikli müəllimlər idilər. Belə ki, Məhəmməd Peyğəmbərdən (s) dərs almış, sonralar məşhurlaşmış Səlman Farisi, Əbu Hüreyrə kimi islam böyükləri peyğəmbərimizdən öyrəndiklərini Suffə əhlinə öyrədirdilər. Suffədə 400-ə yaxm gəlib-gedən, 80 nəfərə qədər isə daimi yaşayan tələbə oxuyurdu. Artıq Suffənin qurulması ilə islam təlimi yeni bir forma alır, gərgin təhsil həyatı başlayırdı. Beləliklə, deyə bilərik ki, ilk «kollektiv təhsil»in təməli elə burada qoyulmuşdur. Suffə özündən bir neçə əsr sonra Avropada və başqa ölkələrdə kollektiv halda yaranan məktəblər üçün bir model oldu.Suffə davamlı şagird tərkibi olan bir məktəb idi. Suffədə təlim - tərbiyə işlərinə, nizam intizama, təmizliyə ciddi fikir verilirdi.

Suffədə oxuyanlar əsasən kasıb və yoxsul adamlar idilər. Onların ən yaxşı yeməkləri xurma idi. Peyğəmbərimiz (s) hər iki adama gündə bir ovuc xurma verirdi. Onlar yalnız zənginlərin dəvətəlrində fərqli yeməklər yeyirdilər. Suffədə oxuyan uşaqlar müəyyən işlərdə çalış- maqla özlərini maddi cəhətdən təmin edirdilər. Peşəsi olan şagirdlərin yaşayışı daha yaxşı idi. İşləyə bilməyənlər möhtac olduqları, ac ol- duqları halda heç vaxt dilənməzdilər. Könlü, gözü tox idilər. Məscidə sədəqə üçün verilənləri Həz. Peyğəmbər (s) onlara paylayır bir qismini özü götürür, bir qismini də yoxsulların evinə göndərirdi. Həz. Peyğəmbər (s) bugünkü pedaqoji mənada uşaqlara bir rəhbərlik edir, böyük hörmət, diqqət və qayğı göstərirdi. Buradan da- «Müəllim şagirdlərinə hörmətlə, diqqət və qayğı ilə yanaşmalı» nəticəsini çıxarmaq olar.

Bir çox hallarda Suffədə təlim görən müsəlmanların xüsusi məs-rəflərini də zəngin müsəlmanlar qarşılayırdılıar. Bu nümunə daha sonralar təlim-tərbiyə ilə bağlı vəqflərin yaranmasına səbəb oldu. Çox çətin şərtlərə baxmayaraq səhabələr də suffə əhlinə əllərindən gələn yardımı edir, onlara maddi və mənəvi kömək göstərirdilər.

Suffədə qadma da xüsusi yer ayrılırdı. Allahın elçisi «Elm qadm, kişi - hər müsəlmana fərzdir» deyərkən kişi ilə qadını bərabər tuturdu. Bu cəhətdən suffədə həftədə bir dəfə qadmlar üçün də dərs keçilirdi.

Artıq Quran açıq-aşkar hər yerdə təlim edilir, oxuyub öyrənmək istəyənlərin sayı çoxalırdı.

## Məscid və camilərdə təlim

Məscidlər də kuttablar kimi islamm ilk dövrlərində ortaya çıxan təlim-tərbiyə mərkəzləri idilər. Kuttablar oxuma, yazma öyrətmək, bəsit hesablama işləri, şeir və bir az da tarix öyrənməklə kifayət-lənirdisə, məscid və camilərdə təlim bir qədər təkmil formada apanlırdı. («cami» «cəm» olunan yer deməkdir. Bura məsciddən fərqli olaraq daha çox adam toplaşırdı).

Islamm f əth edildiyi yerlərdə, o cümlədən Azərbay canda məscidlər sürətlə arür və məscidlərin təyinat dairəsi daha da

genişlənirdi. Belə ki, məscid həm ibadət yeri, həm bilik alman yer, həm müsafirxanə, həm də bir qərargah idi.

Professor Əsəd Yəqubi yazır: «Səkkizinci əsrin əvvəllərində Azərbaycanda mscid şəbəkəsi yayılmağa başlamışdı. Məscidlərdə toplanan əhaliyə ərəb qariləri tərəfindən Quran qiraət edilirdi. Fəqihlər müsəlmanlarm dini, ailə, mülki və cinayət işlərini tənzim edən qaydaları şərh edirdilər. Bütün bunlardan baş çıxarmaq üçün dinləyicilərin ibtidai savada malik olmaları, xüsusilə ərəb əlifbasını və ərəb dilini bilmələri zəruri idi. Bu hal məscidlər nəzdində «məktəb» və ya «kottab» adı altında ibtidai təhsil mərkəzləri icad edilməsinə səbəb oldu. Məscidlər, əslində, müsəlmanlarm ilk maarif ocaqları idi. Məscid məktəblərində ərəb dilinin səs-hərf sistemi tədris edilirdi və Quran mətnləri əsasında ərəb dilinin öyrənilməsinə səy olunurdu. Ərəb xilafətinin tərkibində olan ölkə kimi Azərbaycanda da dövlət dili ərəb dili sayılırdı. Buna görə də məscid məktəblərində təlimin ərəb dilində aparılması və ərəb yazısmın tətbiqi məcburi idi»(78,62).

Şəhərin elmi-mədəni siması, təhsilin, pedaqoji fikrin səviyyəsi məscidvə camilərədə gedən elmi müzakirə və mübahisələrlə, buradakı tədrisin keyfiyyəti ilə ölçülürdü. Buna görə də şəhərlərin elm və mədəniyyət sahəsində tutduğu mövqeləri, səviyyələri oradakı məscid və camilərin miqdarı ilə hesaba alınırdı. Sonrakı dövrlərdə yeni yaradılan məscidlərdə xüsusi tədris yerləri də yaradılmağa başlandı. Məscid və camilərdə tələbələrin öyrənmələri üçün müəllimin ətrafma toplaşan yerə «Hələqə» deyilirdi. Tədris üsuluna da «Həlqeyi-tədris» deyilirdi. Həlqələr çox zaman müəllimin adı ilə adlanırdı. Artıq camilərdə təlim prosesi həlqələr şəklində həyata keçirilirdi. Bir müəllim məsciddə bir guşəyə çəkilir və ya bir sütunun dibində dərisini yerə sərər, bu yer də elə o müəllimin adıyla bilinərdi.

Məscid və ya camiyə girildiyində rəngarəng bir həyat görünürdü. Eyni məkanda namaz qdanlar, istirahət edənlər, söhbət edənlərlə bərabər dərs alanlar da var idi. Belə bir hal Azərbaycanm müxtəlif yerlərində mövcud olmuşdur.

Həlqədə 20 nəfərə qədər adam olurdu. Həlqədən çıxan hər bir müdavim Quranı əzbər öyrənə bilirdi, o Camilərdə bir neçə dərs həlqəsi təşəkkül etdiyini görmək olurdu. Cami və məscidlərdə Quran, Hədis, Fiqh kimi dini elmlər öyrədilməklə bərabər sosial həyatla bağlı elmlər də öyrədilirdi. Camilərdə tədris həlqələrində dərs verən alimin səsi və sual verən tələbələrin səsləri yüksəlir, müxtəlif həlqələrdən gələn səslər bir-birinə qarışırdı. Belə bir vəziyyət əslində ibadət məqsədiylə tikilən məscidlərdə sükunəti pozurdu. Məscid və camidə ibadət edənlərin də səsi təhsil alanlarm səsinə qarışdıqda böyük gurultu meydana çıxırdı. Beləliklə məscidlərin həm ibadət, həm də tədris işi üçün fəaliyyəti mümkün olmayan hala gəlmişdi. Ilk vaxtlar bıma ehtiyac duyulsa da, sonralar məsciddə məktəb yaratmaq əlverişli sayılmadı və məktəblər məsciddən ayrdaraq ayrı və ya ona bitişik yerlərdə yaraddmağa başladı.

## Kuttablarda təhsil

Cami və məscidlərdən kənarda müxtəlif yerlərdə, məhəllələrdə xüsusi tədris, təlim yerləri yaradırdı ki, bunlara «Kuttab» və ya «Məktəb» deyilirdi.

XI əsr mənbələrində, o cümlədən «Ketab əl-Ağani»də ibtidai təhsil ocaqları «məktəb» sözü ilə deyil, «kottab» sözü işlədilmişdir. Hicri 291 (904)-cü ildə vəfat etmiş Bəsrə şəhəri müəllimlərindən Mübrid isə «kuttab» sözünü ibtidai təhsil ocağım bildirən söz kimi işlədilməsinin əleyhinə çıxaraq yazmışdır ki, məktəb- təlim yerini, Məktəb - müəllimi və kuttab - şagirdləri bildirir.

«Kuttab» ( ) ərəbcə «yazdırmaq», «Yazı öyrətmək» anlamma
gələn «Ət-təktib» ( ■ ) kökündən törəmişdir ki, bu da «yazı öyrənilən yer» deməkdir. «Məktəb» (ı_üSLa) sözü də bu kökdən əmələ gəlmişdir. Daha sonra bu ad genişləndi «Kuttab» adı təkcə yazı yazılan yer mənasım daşımadı, həmçinin uşaqlarm təlim, tərbiyə aldığı yerə də deyildi.

Kuttablar məsciddən kənarda yaradılsa da yenə də məscid və camilərdə ibadətiə bərabər təlim işi də aparılırdı. Məscid və

camilərin daha təmiz və səliqəli saxlanılması məqsədilə kiçik uşaqlarm daha çox cami və məscidlərdən kənar kuttablarda və ya islam böyüklərinin təşkil etdiyi məktəblərdə təhsil almaları təşkil olunurdu.

Kuttablarda bugünkü müasir təlim sisteminin izləri çox aydm görünürdü. Kuttablarda dərs deyənlərə, öyrədənlərə «Müəllim» deyilirdi ki, bu da ərəb sözü olub «Oyrədən», «Tədris edən» mənalarını verir. Kuttablarda ilk dəfə olaraq yazı lövhəsindən və silgidən istifadə edilmişdir. Kuttablarda adətən bir müəllim işləyirdi. Bəzən yüksək səviyyəli tələbələr üçün ikinci müəllim də dəfət olunurdu. Burada müəllimlərə əmək haqqı da verilirdi. Beləliklə müəllimlik bir peşə kimi formalaşırdı. Kuttablarda hər bir dərs arası öyrənənlərə fasilələr verilirdi. Kuttablarda 18 yaşma qədər oxumaq olardı. Bu məktəblərdə oğlan və qızlar 7 yaşma qədər bir yerdə təhsil ala bilərdilər. 7 yaşmdan sonra qızlar məktəbdən çıxarılıb ev işləri ilə məşğul olurdular. Nadir hallarda varlı adamlar evə müəllim çağıraraq qızlarına yazı, oxu və Quran dərsləri öyrədirdilər. Azərbaycanm müxtəlif yerəlrində VIII-IX əsrlərdə Xorasanda, Həmədanda, Bərdədə, Naxçıvanda kuttablar, məktəblər fəaliyyət göstərmişdi. Kuttablar əsasən iki növdə ola bilirdi. Uşaqlara yalnxz oxuma və yazma öyrədən kuttablar, və Quram, dini hökmləri öyrədən kuttablar. Oxuma-yazma kuttablarx müstəqil olaraq çalxşxrdx. Böyük səyyah İbn Batuta görə yazx müuəllimi Quran müəllimindən fərqli idi. Yazx müəllimi Qurana hörmətindən irəli gələrək yazx materiallarxnx Quran ayələrindən deyil, müxtəlif şeirlərdən istifadə edirdi. Uşaqlar Quranx şifahi şəkildə öyrəndiyi kuttabdan ayrxlaraq, yazx müəllimtindən də yazı bacarxq və vərdişi öyrənirdüər. Yazı öyrədilən kuttablarda sonrakı dövrlərdə yazx vərdişlərindən başqa, ərəb dili, qrammatika, poeziya, stilistika, kolleqrafiya, ərəb və fars tarixi, riyaziyyat da öyrədilirdi. Belə kuttablarxn bəziləri pullu olduğundan hammx əhatə edə bilmirdi. Oxuma-yazma üçün istifadə edilən kuttablar çox vaxt müəllimlərin evlərində təşkil edilirdi.

Quraru və dini bilikləri öyrədən kuttablar yazx kuttablarx ilə paralel inkişaf etmişdir.

Kuttablarda müəllim kürsü əvəzinə həsirin, və ya kilimin üstündə bardaş quraraq otururdu. Uşaqlar da üzü müəllimə tərəf bu qayda ilə otururdular. Müəllim sirdfdə oturan hər bir şagirdə lövhə əvəzi kiçik taxta parçası və ağ rəng verərmiş. Uşaqlar əwəlcə bu lövhəni rənglə malalayır, sonra qamışdan qayınlmış qələmlə lövhənin üzərində əlifbamn hərflərini yazar və əzbərlərmiş. Bu üsul yorucu və çox vaxt aldığmdan uşaqlarm oxu və yazı vərdişləri uzun müddət çəkərdi.

Həz. Əbubəkrin ölümündən sonra Həz.Omərin xəlifəliyi dövründə İran, Suriya, Mesopotamiya, Misir fəth edildi, bu ölkələrdə məscidlər, camilər quruldu, İslam təlim-tərbiyə ocaqları, kuttablar, məktəblər yaradddı, Quran, din dərsləri geniş öyrədilməyə başlandı.İlk vaxtlarda təşkil edilmitş kuttablar üçün proqram Həz. Ömər tərəfindən tərtib edilmişdir. Proqramın mətnində belə deyilir: «Uşaqlarınıza üzməyi və ata minməyi öyrədin. Onlara geniş yayılmış zərbül-məsəlləri və gözəl şeirləri də öyrədin. Uşaqlara öyrədiləsi gərəkən şeylər: Oxu, yazı, hesab və üzməkdən ibarətdir»(83,98). Oxuma və yazma yolu ilə bilik əldə edərək kamilliyə çatmağı müsəlmanlara tövsiyə edən ilk kitab Quran idi. O dövrdə yazmın işlədilməsi bir yenilik idi. Məktəbin proqrammda uşaqlara ədəb, əxlaq öyrədilməsi də başlıca yer tuturdu. Bu səbəblə kuttablarda əxlaq dərsləri də keçilirdi (83,112). Yuxarıda göstərdiyimiz proqramı və təlimin məzmununu bu günkü pedaqoji anlayışın işığında dəyərləndirdikdə onları aşağıdakı şəkildə ümumiləşdirə bilərik:

1) Təlim fərdin təkcə əqli qabiliyyətlərini deyil həm də fiziki qabiliyyətlərini ihkişaf etdirir. Çünki fərd bir bütün olaraq inkişaf edir.

2) İnsan fitrətində fiziki cəhətdən boşalma bir ehtiyacdır. Bu boşalmanm qarşısını almaq üçün fiziki təmrinlərin həyata keçirilməsi sağlam həyat üçün vacibdir.

3) Təlim-tərbiyə cəmiyyətin ehtiyaclarına cavab verməlidir. Cəmiyyətin ehtiyacı və tələbatına görə təlim-tərbiyə işləri qurulmalıdır.

4) Qaydaları, qanunları yalnız sözlərlə, quru nəzəriyyə ilə anlatmaq öyrətmə prosesində az təsirə malikdir. Nəzəriyyəni, anladılan məsələləri təcrübə ilə, həyat hadisələri ilə, nümunələrlə, xalq misalları ilə əlaqələndirmək təlimin təsililiyini artırır.

5) Xalq misalları, xalq müdrikliyi vasitəsilə şagirdlərə davranış qaydaları haqqında müəyyən məlumatlar verilə bilər, uşaqlar öyrəndiklərini harada istifadə etmələrini də öyrənərlər.

6) Zərbül-məsəllər, xalq müdrikliyi, şeirlər şagirdlərə yeni biliklər qazandırmaqda bir vasitə olaraq isüfadə oluna bilər.

7) Şagirdlərə sadəcə olaraq oxuma-yazma bacarığı deyil, həm də onlara gözəl əxlaq, mənəvi tərbiyə verilməli, ata-anaya, müəllimə hörmət kimi əxlaqi keyfiyyətlər aşılanmalıdır. Fərd öyrənməyə toplumdan gəlir və topluma da hərtərəfli inkişaf edərək dönməlidir.

Kuttablarda rəğbətləndirmə və cəzalandırma üsullarından da istifadə edilirdi. Cəza növü kimi «falaqqa»dan istifadə edilmiş, bir çox hallarda öyüd, nəsihətlər verilmişdir.

Rəğbətləndirmə növü kimi isə müəllimin təbəssümü, «Afərin» söyləməsi, təriflməsi, Quram oxumağa icazə verməsi kimi üsullardan istifadə edilmişdir.

## Məktəblərdə təhsil

«Məktəb» (ı_ü5L«) ərəb sözü olub ( c-üS )«Ketb» kökündən əmələ gəlmişdir. Mənası «Yazı yazılan yer» deməkdir. Azərbaycanda, İranda hələ VII əsrdə bu sözün fars variantı kimi «Ketbxanə» («Yazı evi») işlənməsini də qeyd edə bilərik.

Məktəblər əsas etibarilə məscidlərin nəzdində açılırdı. Azərbaycanda savadlı, bilikli şəxslərə «Molla» və ya «Mirzə» deyilməsi məlum bir faktdır. «Hər oxuyan Molla Pənah olmaz» ifadəsi də elə buradan meydana gəlmişdir. Buna görə də məktəblərdə dərs deyənlərə «Molla» istilahından da istifadə edilmiş və məktəblərimizə də orta əsrlərdə «Mollaxana» deyilmişdir. Pedaqoji dərs kitablarımızda, tədris vəsaitlərimizdə də o dövrün məktəbləri «Mollaxana» adı ilə işlənmiş və həmişə də haqq- nahaq tənqid obyektinə çevrilmiş, bu məktəblər ətalət, gerilik, savadsızlıq

mərkəzləri kimi qələmə verilmiş və bir çox hallarda da həqiqəti olduğu kimi əks etdirməmişdir.

Qeyd edək ki, o dövrün məktəblərini bu günlərimizdə də «Mollaxana» ifadəsi ilə işlətmək heç bir pedaqoji, metodiki məna kəsb etmədiyindən bu ifadəni döğru saymaq olmaz. IX-X əsrlərdə «Kottab» kəlməsi daha geniş yayılmışdı ki, bu da əsasən ibtidai təhsili əks etdirirdi. Sonralar «Məktəb» uşaqlarm həm oxuma-yazma; həm də Quran və digər dini biliklər aldıqları yerə deyildi. Məktəblər geniş şəkildə islamın yayddığı yerlərdə ən ucqar kəndlərdə belə təşkil olunmağa başladı.

Professor Y.R.Talıbov, professor F.B.Sadıqov, professor S.M.Quliyev yazır ki, «Ərəblər ölkələri müharibələr hesabma işğal etsələr də, onlar özləri ilə elmi də yayırdılar. Bımun üçün ərəblər məscidlərin yanmda məktəblər, mədrəsələr açırdılar. Azərbaycanda hələ X əsrdən öncə də «Məktəb» və ya «Kuttab» adları ilə ibtidai təhsil verən təlim ocaqları mövcud olmuşdu. Ərəb hakimiyyətindən sonra, mənbələrdən məlum olur ki, VIII əsrin birinci yarısmda Azərbaycanda ibtidai məktəblər olmuşdur (75,166). Professor Əsəd Yəqubi də öz tədqiqatmda göstərir ki, «Azərbaycanda VIII ərdən başlayaraq ibtidai təhsil vrən müsəlman məktəbləri fəaliyyət göstərmişdir» (78,95). Bəzi mənbələrdən də o dövrün məktəbləri haqqmda, təhsilin məzmunu haqqmda müəyyən məlumatlar almaq olur. Məsələn, Azərbaycan şəhəri Xorasanda X əsrdə mövcud olan bir məktəb haqqmda XI əsrdə yazılmış Qabus Voşmgirin məşhur «Qabusnamə» əsərində məlumat verilmişdir (39,235). Qabus bu əsərində həmçinin oğluna təbabət elmlərini öyrənmək üçün yunan alimlərinin əsərlərinin tərcüməsindən ibarət böyük bir ədəbiyyat siyahısmı məsləhət görmüşdür. Xacə Nizam əl Mülkün «Siyasətnamə» əsərindən də XI əsrdə Səmərqənddə ibtidai məktəblərin mövcudluğunu anlamaq olur: «Mənim xidmətçilərimdən biri Səmərqəndə getmişdi, bir məktəbin yanından keçərkən bu fərmanın hələ ağüları bir şey kəsməyən şagirdlərin əlində görür, oxuyurmuşlar...» (58,131).

Yuxarıda qeyd etdiyimiz kimi VIII-IX əsrlərdə Azərbaycanm müxtəlif şəhərlərində məktəblər tədricən yayılır, Zərdüşt və Alban

məktəblərinin yerinə ərəbdilli, islam təmayüllü məktəblər açılır, mövcud Alban, Arami (Aramey) əlifbalarının yerinə ərəb əlifbası, Pəhləvi və Alban yazısının yerinə ərəb yazısı daxil olurdu.

Azərbaycanda dini təbHğ etmək məqsədüə Musel, Dəməşq və digər ərəb şəhərlərindən Azərbaycan şəhərlərinə din xadimləri, müəllim və fəqihlər göndərilmişdir. Onların arasında Azərbaycana Əbu - Müslümə adlı bir alim də gəlmişdir. O burada bir çox məscid və məktəblərin açılmasına kömək etmiş, Ərəbistanın özündə olduğu kimi burada məktəb təhsilini qurmuş, məktəblərdə Quran, dini ehkam və qaydalar şərhi və izahı ilə öyrədilmişdir. Akademik Ziya Bünyadov yazır ki, bu dövrlərdə Dərbəndə və digər Azərbaycan şəhərlərinə bir çox ərəb ailələri də köçürülmüşdür. Vaxtilə ərəb ailələri köçürülmüş Azərbaycarun bir çox yaşayış məntəqələrinin adlarmda bu gənə qədər «ərəb» kəlməsi qalmaqdadır (8,177).

Məktəblər əsasən ilkin ibtidai təhsil verirdi. Məktəblərdə oxu müəllimi ayrı, yazı müəllimi isə ayrı idi. Quranı oxu müəllimi şifahi yolla öyrədirdi.

Bir çox məktəblərdə fərqli proqramlarla da dərslər keçilirdi. Belə ki, bəzi saraylarda, xüsusilə xəlifələrirı saraylarmda ibtidai təhsil verən məktəblər açılırdı ki, bu məktəblərin proqramları daha geniş, məz- munlu və hərtərəfli idi. Burada dərs deyənlərə «Müəllim» deyil, «Müəddib» ( ) deyirdilər. «Müəddib» «ədəb» () kökündən əmələ gəlib «ədəb», «əxlaq» öyrədən mənasmı verirdi. Hökmdarlar öz uşaqlarını müəddibin tam ixtiyarına verir və müəddiblərə də uşaqların təlim-tərbiyəsi üçün hər cür imkan və şərait yaradırdılar.

Ərəb xilafətinin hökmran olduğu dövrdə Əməvilərin (661-750) və Abbasilərin (750-1258) dövründə Azərbaycanda ərəb dili həm din dili, həm dövlət, həm də elm və tədris dili idi. Bu dil yerli dili sıxışdırırdı. Artıq VIII-XI əsrlərdə ərəb dili geniş yayılaraq bütün elm sahələrini əhatə etdi. Bu dövrdə Azərbaycan ziyalıları, şairləri də ərəbcə yazmağa başladılar. Azərbaycanm Təbriz, Ərdəbil, Həmədan, Marağa, Şiz, Gəncə, Bərdə, Beyləqan, Dərbənd, Şəki, Şamaxı, Naxçıvan, Bakı kimi şəhərlərində islam qaydalarına uyğun məktəblər açılmağa başladı. Şihabəddin Sührəvedi (1155-1191) on yaşında 1165 -ci ildə Marağa şəhərində məktəbə getməsi haqında

fakt onu göstərir ki, artıq XII əsrdə Azərbaycanda məktəb şəbəkəsi xeyli genişlənmişdi.

Azərbaycarun kənd və şəhərlərində məktəblərin proqramlan müx- təlif idi. Amma ümumiləşmiş şəkildə proqramlar təxminən belə idi:

1) Qurandan müəyyən hissənin oxunub, əzbərlədilməsi («Çərəkə»);

2) ərəb əlifbasırun şifahi yolla öyrədilməsi (hərflərin adları, hərəkə işarələri, hərəkəli və hecalı əlifba);

3) əbcəd (ərəb hərflərinin rəqəmlərlə ifadə olunması) və ərəbcə sözlərdən ibarət ilk qiraət;

4) mətbu, ya da əl yazısı ilə yazdmış mənzum və mənsur kitablann, şeirlərin oxxmuşu;

5) ərəbcə dini kitab, hədislər, dini hekayələr, rəvayətlər, hədislər, zərbül məsəllər, əxlaqi söhbətlər.

Bu məktəblərdə ana dili ərəb dilinin tədrisi üsulu ilə, ərəbcəni öyrətmək xatirinə oxunur və dini məqsəd daşıyırdı. Uşaqlar az-çox ərəbcə kəlmələri yazmağa başladıqdan sonra, onlara ərəb üsulu ilə yazmaq öyrədilirdi. Daha sonra məktəbdə şagirdlərə məktub yazmağı, kəbin kəsməyi, müxtəlif məzmunlu dualar yazmağı da öyrədirdilər.

IX-X əsrlərdə Azərbaycanda dini elmlər sahəsində tanmmış alimlər meydana gəldi. Həmin əsrlərdə ərəb dili Azərbaycarun dini və mədəni həyatına möhkəm daxil olmuşdu. Artıq IX-X əsrlərdən başlayaraq Azərbaycan alimləri və din xadimləri, şair və yazıçılar ərəb dilini ana dili kimi mükəmməl öyrənib, ərəb dilində əsərlər yazırdılar. X əsrdə Əbülhəsən Yaqub İbn Musa əl-Ərdəbili, Səid İbn əl-Bərdəi və Əhməd Ibn Süleyman Təbrizi kimi məşhur alim və ideoloqlar meydana gəldi ki, onlar təlim və tərbiyə işlərində, elm sahələrində yenilik tərəfdarları idilər. Onlara «Mücəddedun» («Yeniləşdirənlər») deyirdilər. Onlann və onlar kimi bir çoxlarırun fəaliyyəti nəticəsində tədris metodlarmda, öyrətmə-öyrənmə prosesində yeniliklər meydana gəldi. Belə ki, məktəb və mədrəsələrdə darıxdırıcı imlalar yerinə, izah şərh etmə, münazirə (mübahisə, müzakirə) üsulu əvəz etdi.Təlim prosesində yaradılan

dəyişikliklər həm məktəb, həm də mədrəsə təhsilinin inkişafına, təkmilləşməsinə səbəb oldu.

Azərbaycandakı məktəblərdə Quran və şəriət dərsləri ərəb dilində tədris olunsa da, tədris edənlər hələ bu dili bilməyən şagirdlərə ayrı-ayrı mətləbləri anladarkən öz şərh və izahlarını istər-istəməz ana dilində söyləməli olurdular.

Məktəblərdə «Elme əsma» adı altında fars dili dərsi tədris olunurdu. Qətran Təbrizi fars dilini öyrənənlər üçün «Ət-təfasir» adlı fars dili lüğətini tərtib etmişdir. Bu fənnin tədrisi üçün luğət bir dərslik rolunu oynadığmdan Q.Təbrizinin tərtib etdiyi lüğət ilk Azərbaycan dərs kitablanndan biri hesab oluna bilər.

Məktəblərdə şagirdlərin qəbulunda yaş həddi qeyri məhdud idi. 7-10 və bəzən də daha çox yaşlı uşaqlar məktəbə qəbul edilirdilər. Məktəbə qəbulun da dəqiq vaxtı yox idi. İlin istənilən vaxtında uşaq məktəbə qəbul edilə bilərdi. Məktəbi bitirmə vaxtı da qeyri-məhdud idi. Əsasən 7-8 il oxunurdu. Molla uşağın biliyini fərdi qaydada «Kafi» hesab etdikdə uşaq məktəbi bitirə bilərdi. Hər molla 10-15 şagirdlə məşğul olurdu. Mollalar tədris üçün uşaqlarm valideynlərindən hər həftə müəyyən miqdarda məvacib alırdılar. Burada molladan başqa bir də onun köməkçisi vardı ki, ona «Xəlifə» deyilirdi. Mollanm köməkçisi hesab edilən xəlfə yaşlı şagirdlərdən də seçilirdi. Məktəbdə şagirdlər yerdə həsirin üstündə dizi üstə oturub dərs oxuyardılar. Bu məktəblərdə dərslər ərəbcə və ya farsca keçilirdi. Məktəbə daxil olan uşaqlara əwəlcə Quranm (kəlamullahın) müəyyən bir hissəsini təşkil edən «Çərəkə» öyrədilirdi. «Çərəkə» İrandan gətirilən və daş çapmda hazırlanmış bir dərs kitabı idi. Onu bəzən mollalar öz xətləri ilə də yazıb hazırlayırdılar. «Çərəkə» farsların «Çahar-yek» tərkibindən yaranmış dörddə bir deməkdir. Quranın müəyyən bir hissəsi öyrədildiyindən ona «Çərəkə» adı verilmişdir. Dərs hər bir şagirdin fərdi qabiliyyətinə, fərdi bilik səviyyəsinə uyğun olaraq fərdi üsulla keçilirdi. Tədris «Höccələmə» üsulu ilə aparılırdı.«Çərəkə»nin ilk səhifəsində uzun bir xətlə «Bismillahir-rəhmanir-rəhim» sözləri yazılırdı. Heç bir hərflə hələ tanış olmamış uşağa, birinci növbədə bu kəlmələr əzbərlədilirdi. Bundan sonra çərəkədə yazılmış Quran ayələrinin sözləri heca üsulu

ilə öyrədilirdi.Buna 6-7 ay, bəzən də Quranı bütövlükdə rxumağa bir il vaxt sərf edilirdi. Quranı bitirdikdə şagirdin ailəsində şadlıq olurdu. Həmin gün bütün şagirdlər dərsdən azad olur və molla başda olmaqla, hamı Quranı bitirən şagirdin evinə qonaq gedirdi. Qurandan sonra şagirdlər hədisləri, dini rəvayətləri, hekayələri öyrənirdilər. Quranı bitirən şagirdlərə ərəb əlifbasınm adları, müxtəlif xətləri öyrədilirdi. Quranı bitirmədən yazıya keçənləri molla cəzalandırırdı. Necə ki, vaxtilə byük şairimiz M. Ə. Sabirin ilk şeirindən də bunu anlamaq mümkündür. O yazırdı:

*Tutdum orucu iramazanda*
*Qaldı iki gözüm qazanda*
*Mollam da döyür yazı yazanda.*

Bu mərhələdən sonra uşaqlara ərəb əlifbasmm 28 hərfinə verilən adlar öyrədilirdi. Məslən, əlif ( I ), be (<-r>), pe (y ), te, ( cj ), se (ıii) və s. bir neçə gün ərzində 28 hərf bu qayda ilə əzbərlədilirdi.

Əlifbarun 28 hərfini özündə cəmləşdirən Əbcəd ( j^jI ), həvvəz ( jj* )/ hütti ( is^ ), kələmən ( Cy^ ), səfəz ( lk^[1] ) qərəşət (ı^Sjä), sə'xiz ( iäj ), zə'ziğ ( i^[1]) kimi 8 söz öncə hecalarla öyrədilir, sonra yenə əzbərlədilirdi. Bu üsula görə savad öyrənən şagirdə dilin səs sistemini, səslərin və hərflərin düzülüş ardıcdlığını müəyyən şərti kəlmələrin tərkibində öyrətmək bir qədər sadə idi. Bu üsula müvafiq olaraq ərəb dilinin səslərini ifadə edən hərflər və hərəkələr əlifba sırası əsasında ardıcıl olaraq səkkiz bölməyə ayrdmışdır. Hər bölmədəki hərflərin sırasına uyğun olaraq səs birləşmələri əmələ gəlmişdir. Bu səs birləşmələrindən düzəldilən və heç bir məna ifadə etməyən «sözlər» Əbcəd kəlmələrini yaratmışdır. Islam məktəblərində savad təliminin başlanğıcı həmin şərti kəlmələrin tədrisi ilə başlayırdı. Əbcəd kəlmələrinin oxunuşu səs-hərf tərkibi üzərində mərkəzləşirdi. Burada hərf-səs sisteminin öyrədilməsinə sərf olunan vaxt qısalddmış hesab olunur. Bu metodikada demək olar ki, səslərin və hərflərin öyrənilməsi müəyyən qədər asardaşır. Amma, hərf - səs sistemindən oxu təliminə keçiddə hərf və səslər artiq qarışdmlır, oxu prosesi çətinləşirdi.

Məktəbələrdə «Əbcəd» hesabı deyilən bir qaydanm uşaqlara öyrədilməsinə xüsusi yer verilirdi. Bu qay daya əsasən hər bir hərf həm də bir rəqəmi ifadə edir. Məsələn. əlif ( I )-l, be (4-1 )-2, cim (C )-3, dal ( ^ ) -4, ha ( • )-5, vav( j )-6, ze ( j )-7, he ( C )-8, ta-( )-9, ye( tf )-10, kaf( )-20, lam( J )-30, mim( p )-40, nun( ü )-50, sin ( o* )-60, eyn- *( t* )-70, fe ( )-80, sad ( u- )-90, qaf( *0* )-100, re (J ) -200, şin ( u* )- 300, te ( ^ )-400, se (i )-500, xe ( c )-600, zal ( i )-700, zad ( u* )-800, za( J& )-900, ğeyn( t )-1000.

Bir şairin doğum və ya ölüm tarixi göstərilərkən bəzən rəqəmlə deyil, ərəb əlifbası ilə müəyyən bir söz yazdır və «Əbcəd» hesabı ilə hesablanırdı. Sözdəki hərfləri rəqəmə çevirdikdə həmin şairin doğum və ya ölüm tarixi bəlli olurdu. Məsələn Qaraqoyunlu dövlətinin başçısı Qara Yusifin ölüm tarixi bir şeirdə belə öz əksini belə tapmışdır:

*Vəfatı Qara yusifşahi Təbriz, «Kitabət»*
*şod tarixi «Kitabət» (26,8).*

Yəni Təbriz şahı Qara Yusifin vəfatı tarixi «Kitabət» sözündə yazılmışdır. «Kitabət» sözü «Əbcəd» hesabı ilə 823 hicri və miladi tarix ilə 1420 tarixinə bərabər olur. Yaxud mənbələrdə göstərilir ki, Nizaminin xammı Afaq «Əbcəd» hesabı ilə «Xosrov və Şirin» sözünün yazılışmda ölmüşdür. Burada da «Əbcəd» hesabı ilə hərflər rəqəmə çevrilərək tarix tapılır.

Məktəbdə yazı işləri qamışdan hazırlanmış qələmlə yazılırdı. Molla uşaqlara hüsnxətt nümunəsi verər və bu əsasda da çalışmalar keçilərdi. Belə məşğələlərə «Məşq» deyərdilər. Adətən valideynlər öz uşaqlarmı yaxşı xətti olan mollanın yanında oxudurdular. Dərsini bilməyən uşaqlara cəza üsulu olan falaqqadan istifadə edilirdi. Böyük şair və pedaqoqumuz Abdulla Şaiq bu barədə «Xatirələr»ində yazırdı: «Fələqqə ilə tənbeh etmək mollaxanalarda ən çox yayılmış üsullardan biridir. Kiçik yaşlı uşaqlarda məktəbə, təhsilə nifrət oyadan, uşaqlarm məktəbdən qaçmasma səbəb olan fələqqə qol yoğunluğunda, bir metr yarım uzunluğunda bir ağacdan ibarət idi. Ortaya yaxm iki yandan qalm kəndir keçirilmiş bu ağacın hər tərəfindən bir uşaq tuturdu. «Müqəssir» uşağın ayaqlarım fələqqənin

ortasında olan kəndir içində buranda ayaqları göydə, bədəni yerdə qalırdı. Molla isə çubuğu işə salırdı»(l,15).

Məktəbi bitirən şagirdlər təhsillərini mədrəsədə davam etdirə bilərdilər. Sonrakı dövr Azərbaycanın məktəb həyatını təsvir edən «Həyat» qəzeti «Müsəlman məktəbləri» sərlövhəli məqalədə yazırdı: «...Uşaqbir il, əksər oqat, iki il sübhdən şama kimi hezar məşəqqət və zəhmətlən Quranı oxuyub tamam edir. Kəlamullahı (Quranı) tamam edəndən sonra binəva uşağa növbə yetişir mətni «Gülüstan» oxumağa ki, fars dilidir. Nə zəbəri, nə ziri, nə püşü. Lisan özü biganə, kəlam biganə və qulağına gəldiyi sövt biganə, belə halətdə müəllim başlar uşağa yazı öyrədib məşq verməyə... Binəva uşaq «Gülüstan»m üstündə zəhmət çəkib fars lisarunm mətninə cüz'i aşina ola-olmaya müəllim başlayır «Gülüstan» mənasın uşağa dərs verməyə. «Gülüstan»ın kitabı, farsm dili, Sədinin kəlamı və bunları oxuyan türkün uşağı.. .acı çubuqlar altmda, ürəyinin yağını yeyə-yeyə iki xətt o kitabdan öyrənib,axşam zamanı bilmərrə öz dərsinin mənasmdan bixəbər və lakin tutu kimi eşitdiyini müəllimin qabağında oxuyar...».

Zəngin ailələrin evlərində də məktəblər açdırdı. Müəllimlər yüksək təbəqənin balalarına dərs verdiklərindən onlar yüksək məvaciblə təmin edilirdilər. Məktəblərdə uşaqların tərbiyəsi müəllimə tapşırddığından onlar məşğələlərdən sonra da uşaqlarla məşğul olur, onlarm ev tapşırxqlarım yerinə yetirməsinə nəzarət və köməklik edir, asudə vaxtlarxnx səmərəli və mənalx təşkil edirdilər. Uşaqlar yaxşx əməllərinə görə rəğbətləndirilirdi. «Quran»xn müəyyən hissəsini öyrəndikdən sonra bir günlük tətil verilməsi, təriflәmək, «Afərin» demək, təbəssümlə qarşxlamaq, müəllimin əvəzinə «Quran» oxumağa icazə vermək, müəllimin köməkçisi təyin etmək-kimi rəğbətləndirmə üsullarx var idi. Uşaqlar səhərdən axşama kimi məktəbdə olmalı idilər. Yalnız nahar fasiləsində onlara müəyyən qədər tənəffüs verilirdi.

Beləliklə, deyə bilərik ki, məktəblər ilk vaxtlarda insardara yazıb oxumaq missiyasını, yerinə yetirirdisə və ya dini yaymaq, təbliğat vasitəsi kimi fəaliyyət göstərirdisə, daha sonralar cəmiyyətin inkişafı, insanların dünyagörüşünün genişlənməsi artıq məktəbin belə bir

vəzifə və fuhksiyasını qane etmirdi. Ona görə də daha yüksək təlim və tərbiyə müəssisələrinə ehtiyac duyulur, islam aləminin hər yerində müsəlmanlarm təhsillənməsi, elmə yiyələnib, tərəqqi etməsi islamın başlıca şərti hesab olunur və elmə, biliyə yiyələnmə müsəlmanın başlıca vəzifəsi hesab olunur.

## Xanegah, Təkyə, Zaviyə və Dərgahlarda təhsil

IX əsrin axxrlarx, X əsrin əwəllərində Yaxın və Orta Asiyada, daha sonralar Azərbaycanda sufizm hərəkaü başlandı. Xanegahlar, Təkyələr (təkkə), Zaviyələr, Dərgahlar sufizmin həm ibadət yerləri, həm də təlim, tədris yerləri, məktəbi hesab olunurdu ki, burada insanlar toplaşar, söhbət edər, Şeyxin ibrətamiz, nəsihətverici, təhsilləndirici söhbət və moizələrini dinlərdi. «Xanegah» (alliU.) kəlməsinin mənası «İbadət yeri», evi deməkdir. Burada insan həmişə hər hansı bir işə hazır olmalıdır. Hər hansı bir işi öyrənmək, ona hazır olmaq, bilik qazanmaq və ondan istifadə etməyi öyrənmək yeri Xanegahdır onun rəhbəri, mürşidi Şeyxdir. Xanegah ədəb və mərifət ocağıdır. Bura nizam intizamla, ədəb -əpkanla girilir, ayaqqabılar çıxarılır, içəridə fərahlandırıcı ab-hava vardır. Bura girən şəxsin geyimi təmiz, ağ və səliqəlidir, özü pak və təmizdir.

Bir çox nüfuz qazanmış, məşhurlaşmış din xadimləri, şeyxlər, təriqət başçıları fikir və ideyalarım öz tərəfdarlarına ibadət və təlim - tərbiyə ocağı olan Xanegahlarda, Təkyələrdə (təkkə), Zaviyələrdə təbliğ edir, insanlara bu sahədə lazımi biliklər verir, xüsusi təlim məşğələləri keçir, gərəkli vərdişləri, adətələri onlara öyrədirdilər. Təriqət tərəfdarları, Təkyə, Zaviyə, Dərgah əhli və ya ümumiyyətlə elm həvəskarları təriqət başçısı Şeyxin özünün və ailəsinin yaşadığı Xanegaha toplaşar, onun təhsilləndirici, tərbiyəedici, öyüdləyici, müdrik söhbətlərini dinləyər, müvafiq vaxtlarda təlim, tədris məşğələlərinə davam edər, müxtəlif elm sahələrinə dair sistemli biliklər alardılar. Bu məşğələlər ilahiyyat, fiqh, məntiq, fəlsəfə, hədis elmlərini də əhatə edirdi.

XI əsrin əvvəllərindən başlayaraq Əbu Nəsr Şirvaninin (vəf. təxm.1082) və Pirhüsyen Şirvaninin (vəf.1074) başçılığı ilə Şirvanda Xanegahlar yaradıldı. Təkcə Şirvanda 400-dən arüq Xanegah

fəaliyyət göstərirdi. Pirsaat çayı üzərindəki Xanegah o dövrün qiymətli abidələrindəndir.Burada fars dili dərsləri də keçilirdi ki, Qətran Təbrizinin «Ət-təfasir» adlı fars dili lüğətindən istifadə olxmurdu.

XII əsrin sonlarmda, xüsusilə XIII -XIV əsrlərdə Azərbaycanm bir çox qədim şəhərlərində Xanegahlar geniş yayılmışdı. Naxçıvan ərazisində Xanegahlar, Təkyə və Zaviyələr çox idi. Bu Xanegahlarda müəyyən din, əqidə və ya təriqət təbliğ olunurdusa da, həm də burada insanlar təhsil alır, müəyyən bilik və dünyagörüşə yiyələnirdilər. Naxçıvan MR-run Culfa rayonımda, Əlincə çayırun sahilindəki Xanağa kəndi orta əsrlərin Xanegahından qalmışdır. Bu Xanegah iki mərtəbədən ibarətdir. Alt mərtəbə sərdabə adlanır ki, Nəiminin qəbri buradadır. İkinci mərtəbədə kitabxana, təlim-məşğələ otağı, yığmcaq otağı və başqa otaqlar vardır.Abidə 8 guşədən ibarət olub qırmızı və ağ bişmiş kərpiclə tikilmiş və yaşıl kaşilərlə bəzədilmişdir.Abidənin üzərində çox əzəmətli bir künbəz vardır. Məqbərənin qarşısında müxtəlif fiqurlarla nəqş edilmiş 10 metr yüksəkliyində 4 sütun ucalır. Bu Xanegahın qapı yerinin üstündən düşmüş yazılı bir daş kitabə bu gün Xanegah məqbərəsində saxlanılmaqdadır. Vaxtilə buradakı
Xanegaha dövrün bilikli adamları, şair və ziyahlıarı toplaşar, burada şeir məclisləri, dini, elmi söhbət və müzakirələr keçirərmişlər. Hürufilik təriqətinin banisi Nəiminin məzarı da Xanegahdadır.

Naxçıvan şəhərindəki Zaviyə məhəlləsində Bektaşilərə məxsus Zaviyə ( ojjI j ) («Künc»,«Guşə» mənasım verir) məscidi erkən orta əsrlərin qiymətli memarlıq abidəsidir. Zaviyə Bektaşilərin həm ibadət yeri, həm də təlim-tədris mərkəzi olmuşdur. Bura toplaşanlar müxtəlif elm, bilik sahələrinə dair təriqət başçılarından, dövrün böyük alimlərindən dərs almışlar. Zaviyədə təlim, təhsil məsələlərinə geniş yer verildiyindən bura mədrəsə də deyilmişdir. Bu gün Naxçıvanda, Bakıda əsasən elm, maarif və mədəniyyət sahəsində çalışan Bektaşi soyadım daşıyanlar yaşayır, Bektaşi deyimi ilə «Haqdan xalqa enməli», «Qalxdmsa xidmət üçün qalx» müdrik kəlamlarına müvıafiq olaraq vətənə, xalqa layiqincə xidmət

göstərirlər. Bektaşilərə məxsus Zaviyə məscidi bu gün də Naxçıvanda öz mövcudiyyətini qorumaqdadır.

Naxçıvanda Bektaşilərə məxsus «Pirqəmiş» deyilən bir came-məs- cidi də vardır ki, bu gün o bir məscid kimi fəaliyyət göstərməkdədir. Bura əslində XIV əsrdə yaşamış böyük mütəssəvvüf alim, övliyalar başçısı, mürşid və Şeyx olmuş Pir Xəmuşun adı ilə bağlı təkyədir. Şeyxin iki misralıq şeiri bizə məlumdur:

*«Şirindilli canım azdı düşdü mürşüd havasına,*
*Gəlib Mərəndə tutuldu dinməz xəmuş sevdasına» (53,268).*

Təriqət üzvləri Pir Xəmuş təkyəsinə toplaşar, zikr mərasimləri, şeir, musiqi, səm'a rəqsləri keçirər, dini ayinləri icra edər, Şeyxin maraqlı, müdrik söhbət və moizələrini eşidərmişlər.Atamın bu yer haqqmda xatirəsindən eşitdik ki, burada vaxtilə xorla, bəstəli musiqi və fır- lanaraq rəqslə icra edilən, xüsusi ahənglə oxunan şeirlərin birisində deyilirdi:

*«Guşeyi xəlvət nə əcəb çai imiş, Sirri*
*nehan onda hüveyda imiş». (Yəni*
*xəlvət guşəsi nə yaxşı yer imiş Gizli*
*sirlər orada aşkar imiş)*

Bu şeirdən anlamaq olur ki, təkyənin «Xəlvət»i, «Çiləxana»sı da olmuş, çiləyə çəkilənlər burada tənhalığa, təkliyə, xəlvətə çəkilmiş, öz- özü ilə baş-başa qalıb təfəkkür, düşüncə mərhələsini keçmiş, hər cür pisliklərdən arınmış, paklanmış, iradəsini möhkəmlətmiş, nəfsinə qalib gəlmiş və zahidlik həyaüna qədəm qoymuşlar.

«Xəlvəülik» təriqətinin banisi, XV əsrdə Bakıda yaşayıb-yaratmış, xeyli məktəb və mədrəsələr açmış Şeyx Seyid Yəhya Bakuvi Təkyələr kompleksi olan Şirvanşahlar sarayı məkanında da böyük Xanegah yaratmışdır. Onun burada yaşadığı dövrdə 20 minə yaxm müridi olmuşdur. Özü, farsca, ərəbcə, türkcə əsərlər yaratmış, dini-didaktik şeirlər yazmışdır (53,31).

1000-ci ildə Nişabur şəhərinə gəlmiş məşhur azərbaycanlı ədib və şair, məşhur mühəddis Baba Kuhi (vəf.təxm.1019) burada sufizmin fəal iştirakçısı idi. Xorasanın ən görkəmli sufi şeyxlərindən olan

Sulaminin xanegahına rəhbərlik etmişdir. Xanegaha rəhbərlik edən şəxs dərin elmə, biliyə və ən əsası isə müdərrislik bacarığına malik olurdular. Təsəvvüf ədəbiyyatı adlanan ilk sufi ədəbiyyatmm nümunələrinə də Baba Kuhinin əsərlərində rast gəlmək olur.

Bu gün Azərbaycanm bir çox yerlərində o cümlədən Lerikdə, Cəlilabadda, Biləsuvarda və başqa yerlərdə Xanegah adı ilə kəndlər vardır ki, həmin kəndlərdə də mövcud olmuş Xanegahlarm izi bu gün də görünməkdədir.

Bir çox Xanegahların nəzdində və ya ayrılıqda Təkyələr fəaliyyət göstərirdi. T ə k y ə ( ) farsca «söykənmə», «istinad etmə», «sığına- caq» deməkdir.

Təkyələr Məscidi-Nəbinin nəzdində yaradılmış süffə örnəyindən götürülmüşdür. Necə ki, suffədə də suffə əhli həm təlim görür, həm də orada qala bilirdi.Təkyələrdə təkyə əhli burada həm təlim görür, həm də burada qala bilərdi.Təkyənin də , Xanegahm da, Dərgah, Zaviyə və Ribatın da mərkəzi came məscidi idi.Təkyələr müxtəlif bilik və dünyagörüş səviyyələrinə malik insanların təhsil tərbiyə, mənəvi kamilləşmə məkanı idi. Bura gələnlərə ilkin savad və biliklər verilir, yol göstərilir, bir növ mədrəsə təhsilinə hazırlıq görülürdü. Burada təhsilə yeni başlayanlara «fəqir», bir az irəliləyəndən sonra «zahid», «arif», şeyx» və ya «mürşid» adı verilirdi. Şeyxdən alınan biliklərdən, təsəwüf haqqında kifay ət qədər məlumat sahibi olduqdan sonra təlim həyatma başlamış şəxs «xəlvətxanaya» və ya «çiləxanaya» çəkilirdi. Bu «Təkyənin ətrafında qurulmuş qapalı, qaranlıq kiçik bir ev» idi(103,206). Burada bir hücrədə 40 gün tək qalaraq zaman və məkandan uzaqlaşaraq öz-özünə düşüncə, özünə dönüş, təfəkkür həyatı (təhəmmül) keçirərdi. Iradəsini möhkəmləndirmək üçün hər gün azalan qidasmı gündə bir xurmaya çatdırardı. Xəlvətə çəkilmək Məhəmməd Peyğəmbərdən (s ) qalmışdı, ki o da Ramazan ayında Hira dağına xəlvətə, təkliyə çəkilmiş Rəbbi ilə ünsiyyətə girmişdir.

Xəlvətə çəkilən şəxs rəbbi ilə məşğul olduğu vaxt, özünün varlığını belə unudur ki, ruh aləminə qovuşur. Buna təsəvvüfdə «bixudluq», «özümsüzlük» deyilir. Həmin təsəvvüf əhli özünü unutduğu zaman, ruh aləmində olduğu vaxt ilahinin varlığma tabe

olur, onunla birlikdə olub, ünsiyyətə girə bilir. Füzuli bir beytində xəlvət haqqmda belə deyir:

*Eyləməz xəlvətsərayi-sirri -vəhdət məhrəmi,*
*Aşiqi məşuqdan, məşuqi aşiqdən cüda (21,51)*

Təkyələrdəki nəzəri təlim alanlar praktik olaraq Təkyənin zikr ayinlərinə qoşulur, təsəvvüf adətlərini icra edirdi. Zikr ayinlərində bəstəli ilahilər oxunur, səm a rəqsləri ifa olunur, şeir və musiqi dinlənilirdi. Başqa sözlə təkyə həm də bir ədəbiyyat, incəsənət, mədəniyyət ocağı kimi fəaliyyət göstərirdi. Praktik fəaliyyəti uğursuz olan tələbələrin nəzəri biliklərinə etibar edilməz və onlar yenidən çiləyə çəkilirdilər. Təlimdə uğur qazanan tələbələr öncə zahidlik mərtəbəsinə yüksəlir, sonra təhsilini davam etdirərək Şeyx rütbəsinə qədər yüksələ bilər və mürşidliklə, yəni müəllimliklə məşğul ola bilərdilər. Şeyx yol göstərən, öyrədən, istiqamət verəndir. Mürid Şeyxə bağlı, ondan öyrənən tələbədir. Məktəbdə müəllim kimdirsə təriqət ocağmda da Şeyx odur. Məktəbdə müəllim insanm ağlma təsir gös- tərirsə, ocaqda Şeyx insanın ruhuna, mənəvi aləminə təsir göstərirdi. Bəzən mədrəsəni bitirmiş şəxslər də təkyələrə gəlir,

Təkyələrin bütün xərclərini vəqflər və Xanegahm təriqət üzvləri ödəyirdilər. Təkyələrə təsəwüf həyaünda məcazi mənada «Meyxana», «Xərabat» da deyilirdi. Bir çox klassik ədəbiyyat nümunələrimizdə də təsəvvüf ideyalarından irəli gələn bu ifadələr işlənmişdir. Dahi Füzulinin -«Meyxanələri fəth edək fatihələrlə» misrası, yaxud,«Gah məmur qılar badə məni, gah xarab;/Görünüz gah quran, gah yıxan memarı» bey ti, yaxud da Həqiqinin f arsca «Divan»mdan bir beyt buna misaldır:

*«Arifbe dəri meygədə sərməst cami-eşq, Zahid be guşeyi*
*mədrəsə əz xanə bixəbər əst» (Arifmeyxana qapısında eşqin*
*şərabından məst olmuş Zahid mədrəsə küncündə*
*xəbərsizdir evindən)(26,17).*

Nəimi, Nəsimi, Xətai şeirlərində də «mey», «meyxanə», «xərabat» ifadələri tez-tez işlənmişdir. Nəsimi yazır:

*Gəl ənəl-həq sirrini meyxanədə meydən eşit,*
*Ey düşən inkarə niçün münkiri-meyxanəsən? (32, 208).*

Huseyn Cavid misralarında da təsəvvüf ideyaları aydın hiss edilir:

*«Dedim Gülçini-zarə, payi mənbər yaxşıdır, yainki mey,*
*Dedi, biz əhli- mənayıq, bizə meyxanə lazım».*

Beləliklə deyə bilərik ki, pedaqoji, psixoloji, didaktik, mənəvi və tibbi məsələlərə varıncaya qədər geniş bir xidmət sahəsi olan təkyələr o dövrün özünəməxsus, səciyyəvi məktəbidir, xəstəxanasıdır, idman klubudur, istirahət yeridir, gözəl sənətlər akademiyasıdır, ədəbiyyat və fikir ocağıdır, mənəviyyat qaynağıdır. Təkyə insanm mənəvi, əxlaqi keyfiyyətlərinin inkişafı üçün, mənən saflaşması üçün dəyərli bir ocaqdır. Təkyə Quramn tövsiyə etdiyi bir metod ilə hikmət və gözəl öyüdlə insanları dinə, həqiqətə, mərifətə, elmə və biliyə çağırırdı. Təkyələrdə insanlar özlərinə sığınacaq tapmış, yolçular, yoxsullar, evsizlər təkyələrdə öz rahatlığını və əmniyyətini təmin edə bilmişlər. Təkyələr həm də insanların bir-birilə ünsiyyət, xəbərləşmə mərkəzi idi. Təkyələr bəzi zamanlar xəstələr üçün də bir şəfa mərkəzi olmuş- dur. Burada daha çox təlqin yolu ilə, Şeyxin məsləhət və tövsiyələri ilə insanlar şəfa tapmışlar.

İbadət və idrak ocaqlarmdan biri də müəyyən bir Şeyxin adı ilə adlandırılan Dərgahlardır. Dərgah (al^jjs) «Qapı önü» mənasmı verir ki, burada insanlar öz tərəfdarlarmı tapmış, ünsiyyət qurmuş, öyrənmiş, bilik qazanmışlar. Böyük şair Yəhya Kamal belə deyir:

*Bu şəkk, bağnmda hər gün gah-u bigah, Dolaştım «Hu» deyib*
*dərgah, dərgah.*

Fikrimizi ümumiləşdirərək deyə bilərik ki, erkən orta əsrlərin ibadət və təlim -tərbiyə mərkəzləri olan Xanegah, Təkyə, Zaviyə və Dərgahlar, daha sonralar yaranan kitab evləri, kitabxanalar, bilik və hikmət evləri mədrəsə təhsilinin əsas başlanğıcını qoymuş, mədrəsələrin yaranmasmm əsas nüvəsini təşkil etmişdir.

## Kitabxanalar bir elm, tədris mərkəzi kimi

Məscid, Xanegah və Təkyələrdən başqa o dövrdə kitab evləri, kitabxanalar da yaraddırdı ki, bu yerlərdə də bilikli insanlar elm həvəskarlarına müəyyən təhsil verirdilər. Belə müəssisələr sırasmda

Bağdadda Harun ər Rəşid (787-809) tərəfindən qurulan «Dar ol-hekmə» idi. Bura bir kitab evi, elm mərkəzi, tərcümə yeri idi. Burada qədim yunan fÜosoflarımn əsərləri ərəb dilinə tərcümə edilir, nüsxələri çoxalddır və yayılırdı. Yaxm və Orta Şərq ölkələrinin alimləri bu elm mərkəzindən istifadə edib faydalanmışlar. Mənbələrin verdiyi məlumata görə bu hikmət evi Hülakülarm hücumuna qədər (1258) qalmışdır. Həmin ildə Nəsirəddin Tusi Bağdadda olmuş, heç şübhəsiz o da bu elm mərkəzindən istifadə etmişdir.

Belə kitab evi elm mərkəzlərindən ən məşhuru IX əsrdə Bağdadda yaraddmış «Beyt ol-hekmə» (830) idi ki, («Hikmət xəzinəsi») bu öncə bir kitab evi, elm, tədqiqat mərkəzi kimi qurulsa da gələcək «Mədrəsə» təhsilinə bir başlanğıc idi. «Beyt ol-hekmə»də idman zalı, ədəbiyyat salonu, Əl-kimya emalatxanası, rəsədxana, xəstəxana fəaliyyət göstərirdi. Burada tərcüməçilər var ildi ki, yunan, latın, pəhləvi, fars dilində olan ədəbiyyaü ərəbcəyə tərcümə edilr, çoxaldıb yayırddar. Xüsusilə Harun ər Rəşid və Məmun zamanında tərcümə və çoxaltma işi özünün qızd dövrünü yaşamışdır.

Burada riyaziyyat, fəlsəfə, ritorika, psixologiya, əxlaq, coğrafiya, qrammatika və musiqi sahələrində Sokrat, Platon, Aristotel, Arximed eləcə də tibbə dair Hiroqliyus və Calinus kimi qədim yunan alimlərinin əsərləri geniş miqyasda tərcümə edilmişdir. Bu tərcümələr Yaxm Şərqdə, Qafqazda geniş yayılaraq tədris müəssislərində dərs vəsaiti kimi istifadə olunmuşdur. Hələ IX əsrdə Əbu Nəsr Farabi Aristotelin əsərlərini sadələşdirmiş, ona şərhlər yazmış, onları Şərqə, bizlərə çatdırmışdır. Təsadüfi deyil ki, hələ öz dövründə Farabiyə «Ikinci Aristotel» deyilmiş və tarixdə Aristoteldən sonra o «Ikinci müəllim» ünvanını qazanmışdır. Bir çox Azərbaycan alim və şairlərinin- Nizami Gəncəvinin, Xaqani Şirvaninin, Xətib Təbrizinin, Bəhmənyarm və başqalarırun əsərlərindən məlum olur ki, onlar qədim yxman fəlsəfəsini yaxşı bilmiş və ondan faydalanmışlar.

Pedaqoji fikrimizin və elmimizin inkişafında, maarif və mədəniyyətin yaylımasında erkən orta əsrlərdə yaranmış kitab evləri və kitabxanalarm böyük əhəmiyyəti olmuşdur. Alimlərin, elmi

sevənlərin baş vurduqları əsas yer kitab evləri və kitabxanalar olmuşdur.

Islam əhli kitabı həmişə sevmiş və onu yüksək dəyərləndirmişdir. Kitabm dəyərini yüksək qiymətləndirənlərdən biri böyük alim Əl-Cahiz olmuşdur. O demişdir ki, kitab susduğunuz zaman səssiz, danışdığmız zaman danışan, məşğuliyyətiniz varkən söhbətə başlamayan, çalışan zaman sizi yalnız buraxan, özünüzə qarşı heç vaxt min- nətçi olmayan, sizi yoldan çıxarmayan bir dost, bezdirib usandırmayan, sizi aldadıb yalan söyləməyən bir yoldaşdır(83,48).

Kitab evləri, kitabxanalar elm adamlarının həmişə sevimli yeri olmuş, onlar kitaba son dərəcə böyük qiymət vermiş və kitab oxumağa sərf etdiyi vaxtları ən dəyərli və qiymətli vaxt hesab etmişlər. Xəlifələrdən birisi gecə söhbəti keçirmək üçün alimlərdən birinin yanına gətirilməsini istəmişdi. Xidmətçi alimin yanına gəlincə onu kitablar arasmda mütaliə etdiyini görmüş və əmirin onu çağırdığını söyləmişdir. Alim: - «Xəlifəyə söyləyin ki, indi yammda bir qrup hik- mət adamları vardır, onlarla söhbət edirəm. Onlarla işimi bitirib gələrəm» - demişdir. Xidmətçi vəziyyəti xəlifəyə bildirərkən, o heyrətlə soruşmuşdur: -«Yanındakı o dəyərli alimlər kimlərdir, əcaba»? Xidmətçi bildirmiş: - «Vallahi ya əmir əl-Mömin yanmda heç kimsə yox idi» - deyincə, xəlifənin marağı daha da artmış və demiş: «Nə edirsən et, onu bu saata qədər mənim yamma gətir». Nəhayət, alim xəlifənin yanma gəlincə xəlifə maraq və təəccüblə soruşmuşdur:- «Sənin yamndakı alimlər kim idi?» Alim də demişdir:

- «Ey Mömünlərin əmiri! Onlar: - söhbətlərindən heç zaman bezmədiyimiz, üz-üzə olarkən əmniyyətli və təhlükəsiz olan, baş-başa qaldığımız zaman dadlı, xoş sözləri ilə dərdlərimizi dağıdan, bizə ümid və güc verən, öz elmləri ilə bizi əvvəlkilərin bilik, ağd, ədəb və doğru görüşlərindən yararlandıran, bizə doğru yol göstərən sədaqətli yoldaşlardır. Onlar -«ölüdür, desəm yalan olar, dirilərə bənzəyir desəm məni qınamazlar». Xəlifə alimin bu sözlərindən onun kitabları qəsd etdiyird anlamış və gecikməsini əsaslı hesab etmişdir(83,50).

İlk dövrlərdə maarifpərvər şəxslər özləri əlyazmaları, kitabları, yazılı mənbələri toplayaraq kitab evləri və kitabxanalar yaratmış və bunu xalqın istifadəsinə vermişdir. Bitləmus xanədanında İskəndəriyyə kitabxanası və Abbasilər dövründə Bağdadda «Beyt ol-hikmə» və digərləri belə qurulmuşdur.

Kitab toplanışı və kitab evlərinin yaradılması - Bağdaddakı «Beyt ol-hikmə» (təsisi:832), «Dar ol-elm» (Elmlər akademiyası. təsisi:993), Nəcəfdə «Heydəriyyə» (İmam Əlinin qəbrinin yaxınlığında Məşhədi Şərif tərəfindən qurulmuşdur.Tarixi dəqiq bəlli olmasa da çox qədimdir), Qahirədəki «Dar-ol-Hikmə» (təsisi:1005) böyiik İslam Uni- versitetlərinin yaranmasmm nüvəsi olmuşdur.Buna görə də bu müəssisələrin funksiyaları haqqında bir çox tarixçilər, tədqiqatçdar fikir ayrdığına da gəlmişlər: Bunlar mədrəsədirmi, yoxsa kitabxanadır? Digər tərəfdən də bu müəssisələr istər dövlət tərəfindən qurulsun, istərsə də fərdlər tərəfindən qurulsun bu növdən olan quruluşlara örnək olmuşdur. Beləcə kitab evləri, elm evləri, kitabxanalar islam aləminin hər yerində-o cümlədən Azərbaycanda - Marağada, Təbriz- də, Gəncədə, Naxçıvanda, Bərdədə, Ərdəbildə, Dərbənddə, Həmə- danda, Şirvanda, Şamaxıda yaradılmışdır ki, onlar da pedaqoji fikrin formalaşmasmda, inkişafında, elmin yayılmasmda, insanlann təhsilə, maarifə cəlb edilməsində, yeni tədris müəssisələrinin açdmasında böyük rol oynamışdır.

Akademik Hüseyn Əhmədov yazır ki, Azərbaycanda, o cümlədən Şamaxı və Gəncə şəhərlərində Bağdadda «Beytül-hikmə» tipli elmi kitabxanaların təşkili daha çox diqqəti cəlb edir. Böyük alim və ədib Əbül-üla Gəncəvinin Şamaxı kitabxanasmda pedaqoji fəaliyyəti və naxçıvanlı alim Həddad ibni Bekran Əbül-Fəzl ən Nəşəvinin Gəncə kitabxanasında müdir vəzifəsində işləməsi həmin kitabxanaların Bağdaddakı «Beytül-hikmə» kimi elmi müəssisələr funksiyası daşımalarım bildirir. Bu Azərbaycanda kitabxanalar əslində elmi-tədqiqat və tədris işlərini birləşdirən mərkəzlər kimi inkişaf etmişdir(10,24).

«Beyt ol-hekmə» və bunun kimi digər təhsil, mədəniyyət, elm mərkəzləri («Dar ol- elm», «Dar ol-hekmə», «Xəzanə-t ol-hekmə») hansı ki, onlara ümumilikdə «Fəlsəfə evi», «Elm evi», «Bilik evi»

deyilirdi, bir daha qeyd edək ki, mədrəsələrin meydana gəlməsinin əsas ilkin səbəbkarı olmuşlar. Orta əsr ölkələrinin alimləri bu elm, mədəniyyət mərkəzlərində çalışır, xüsusilə «Dar ol- hekmə»dən bir elm mərkəzi kimi istifadə etmişlər. Əhməd Əmin Misri «Dar ol-hekmə» haqqnıda «Zoha ol -eslam» əsərində yazırdı ki, bu kitabxana Hülakünün hücum etdiyi ilə qədər (1258) əvvəllərdə olduğu kimi qalmışdı». Həmin ildə Nəsirəddin Tusi Bağdadda olmuşdur, çox güman ki, Tusi də bu kitabxanadan istifadə etmişdir.

Cənubi Azərbaycanm Həmədan şəhərində yaradılmış zəngin kitabxanalardan birinin sahibi azərbaycanlı Əbül Vəfa olmuşdur. Bu kitabxanarun şöhrəü İran və Azərbaycan hüdudlarmdan da uzaqlara yayılmışdır. Azərbaycana sıx bağlı olan ərəb şairi Əbu Tammam (796- 843) həmin kitabxananın fəal oxucusu olmuşdur. O İraqa köçərkən onun tərüb etdiyi kitablar, xüsusilə burada yazdığı məşhur «Həmasə» («Qəhrəmanlıq») kitabı bu kitabxanada qalmışdır. «Həmasənin şərhi» əsərinin müqəddiməsində Xətib Təbrizi yazır ki, Əbu Təmmam Xorasandan İraqa qayıdarəkən Əbül Vəfa onu Həmədanda qonaq saxlayır. Şair Həmədandan çıxmaq istəyəndə çoxlu qar yağdığmdan yollar tutulur və o bir müddət Həmədanda Əbül Vəfanın yanında qalmalı olur. Əbül Vəfa öz kitabxanasını darıxmamaq üçün Əbu Təmmanun ixüyanna verir və o bu kitabxanarun kitablarmdan isüfadə etməklə «Ə1- Həmasə» adlı məşhur şeirlər məcmuəsini yazır. Heç şübhəsiz bu kitaba Azərbaycan şairlərinin şeirləri də daxil olmamış olmazdı. Bu kitabxanm bir çox kitablan o cümlədən «Həmasə» ehtiyac üzündən isfahanlı Əbül Əvazilə saülmış və o bunları İsfahandakı şəxsi kitabxanasına aparmışdır. Bu kitabxanırun şöhrəti X.Təbriziyə çatanda o İsfahana gəlmiş buradakı kitablardan, xüsusilə «Həmasə»ni Bağdada aparmışdır(80). Bu da məlumdur ki, X.Təbrizi sonralar bu kitaba böyük şərh yazmış(126) və onu dünyaya yaymışıdır. Görün- düyü kimi bu kitabm yazıldığı yer də Azərbaycan olmuş, ilk oxucuları da azərbaycanlılar olmuş, bu kitaba şərh yazan, bütün dünyaya tanıdan da Azərbaycan alimi olmuşdur.

Həmədan şəhərində tez-tez kitab saüş bazarları təşkil olunurdu. Belə kitab satış bazarlarından biri də X əsrdə Samanilər dövründə

Buxarada olmuşdur. Burada «Savan əl-hikmə» («Hikmət xəzinəsi») adlı zəngin saray kitabxanası olmuşdur ki, böyük Azərbaycan alimi Bəhmənyarm müəllimi və dostu Əbu Əli İbn Sina bu kitabxanadan öz əsərlərini yazmaq üçün zəngin materiallar toplamışdır. İbn Sinanın dünyagörüşünün inkişafmda Samanilərin Buxaradakı saray kitabxa- nasının çox böyük rolu olmuşdur. Ibn Sina əmir II Nuh Ibn Mənsuru müalicə etdikdən sonra bu kitabxananm müdiri təyin olunmuşdur. Ibn Sina öz tərcümeyi-halında bu kitabxanam belə təsvir edir: Məni çoxlu otaqları olan binaya buraxdılar otaqların hər birində qalaq-qalaq kitablarla dolu sandıqlar var idi. Bir otaqda ərəb dili və poeziyaya, o birində fiqhə dair kitablar var idi. Beləcə hər otaqda elmlərdən birinə dair kitablar yığılmışdı. Qədim alimlərin əsərlərinin siyahısı ilə tanış olduqdan sonra mən özümə lazım olanını istədim və çoxlarının adlarını belə eşitmədikləri, mənimsə nə qabaqlar, nə də sonralar görmədiyim kitabları gördüm(117,198). Böyük loğman Ibn Sina haqqında bunu da deyirlər ki, o Buxara əmirini müalicə etdikdən sonra Əmirin-«cavan oğlan məndən nə mükafat istəyirsən»-sualma, o, saray kitabxanasma daxil olmağı çoxdan arzulayıram. Mən həmin kitabxanada kitab oxumaq istərdim» - cavabmı vermişdir.

Tarixi mənbələrdən məlumdur ki, mühüm mədəniyyət mərkəz- lərindən biri qədim zamanlardan Bərdə şəhəri olmuşdur. IX-X əsrlərdə Bərdə Azərbaycanın ən qabaqcıl şəhərlərindən olmuşdur.Elə Bərdə yaxınlığında doğulmuş «Albaniya tarixi»nin müəllifi Musa Kalankatlmm VII əsrdə «Böyük paytaxt və qala şəhəri» kimi qeydə aldığı bu şəhəri X əsr ərəb səyyahı Müqəddəsi «Azərbaycanın baş şəhəri», «Bu diyarın Bağdadı» adlandırmışdı.Bərdənin şair və alim- lərinin bir çoxu Şərqin və Orta Asiyanın iri mədəniyyət mərkəzlərində - Bağdadda, Qahirədə, Dəməşqdə, Nişaburda və başqa şəhərlərdə yazıb yaradaraq kitab mədənijryətinə böyük töhfələr vermiş, Bərdədə və digər şəhərlərdə kitab evləri və kitabxanalar yaratmışlar. Bu şəhərdə 100 min cilddən artıq kitabı olan kitabxana olmuşdur. X əsrin ortalarında paytaxt Bərdədən Gəncəyə köçürüləndə kitabxana da Nizami yurduna köçürülmüşdür.Azərbaycan mənbələrində Gəncə saray

kitabxanasmm yanlış olaraq XI-XII əsrlərdə yaradıldığı göstərilir. Ensiklopediyalarımızda isə bu barədə məlumat verilmir.Bunu qeyd edək ki, hələ IX əsrdə Gəncə şəhəri beynəlxalq ticarətlə geniş məşğul olurdu. Bərdədən sonra Gəncə Arramn ikinci böyük şəhəri sayılırdı. Bu baxımdan X əsrdə paytaxt Bərdədən Gəncəyə köçürüləndə yeni paytaxt kitabsxz və kitabxanasız ola bilməzdi. İ.Ş.Zəkiyev haqlx olaraq yazxr ki, Gəncədə saray da, «Dar əl Kütüb» da («Saray kitabxanasx») əvvəlcə yaradxlmxş, sonra köç başlanmxşdxr. X əsrdə Gəncə maarif və mədəniyyəti inkişaf etmiş bir şəhər halxna gəlmişdi. Deməli bu şəhərin yazxçxlarx, alimləri, şairləri olmuş, xəttatlarx və kitab tərcüməçiləri, kitab evləri və kitabxanalarx olmuşdur.Məhz belə bir mühitdə dahi Nizami Gəncəvi yetişə bilərdi(80).

Ermərü, ms işğalçıları IX-X əsrlərdə Bərdəyə hücum etmiş, 944-cü ildə isə ruslar Bərdəni tutmuş və bu şəhərin maddi-mədəniyyət abidələrini, mənəvi sərvətlərini, kitabxanalarxnx dağxtmışlar. X əsrin sonuna qədər ermərü işğalçıları Azərbaycanm yazılı abidələrinə xeyli ziyan vurmuş onlarx yandırıb məhv etmişlər. Azərbaycanlılar heç vaxt ermənilərə məğlub olmamxşdır, yalnxz itkilər vermişdir. Kitab və kitabxana tarixinə dair itkilərimiz də bunlardan biri olmuşdur.Buna baxmayaraq Azərbaycan alimləri yazxb yaratmış, yaranmxş boşluqlarx doldurmuşlar.

XI əsrin böyük nəsihətamiz mənəvi abidəsi olan «Qabusnamə» əsərinə professor Rəhim Sultanovun yazdığx müqəddimədə göstərilir ki, bu kitabda 100-dən çox şair və alimin adx çəkilir ki, bunlarm da əksəriyyəti İran və Azərbaycan hüdudlarında yaşayan alimlərdir.

Yaqut əl-Həməvinin əsərlərində Azərbaycanın IX-XII əsrlərdə yaşamış alimləri, mütəfəkkir və şairləri haqqnxda dəyərli məlumatlar verilir. Bu əsərlərdə IX-X əsrlərdə Bərdədən, X-XII əsrlərdə Gəncə, Təbriz, Xoy, Naxçıvan, Miyanə şəhərlərindən daha çox görkəmli şəxsiyyətin çıxdığı, onların müsəlman aləminin Bağdad, Dəməşq, Qahirə, Nişabur, Mərv, Tus kimi şəhərlərində yaradıcı işlə məşğul olduqları, müəllimlik etdikləri, kitabxanalarda çalışdıqları göstərilir.

IX-X əsrlərdə Azərbaycanda və Şərq şəhərlərində sufi şairlər meydana gəlmişdir ki, onların da qələmindən xeyli nəsihətamiz əsərlər çıxmışdır. X əsr müəlliflərindən Yəzdiyar Urməvi, Əhməd Bərdəi, Əbülhəsən Zəncani, Əbu Zürə Ərdəbili, Baba Kuhi Bakuvi və başqaları kitab xəzinəsini xeyli zənginləşdirmişlər. Əbülhəsən Zəncani ensiklopedik biliklər toplusunu yazmış və əhalinin bilik və dün- yagörüşünün zənginləşməsinə çalışmışdır. X əsrdə yaşamış Fəzl İbn Hatim Narizi Təbrizi (?-922)böyük astronom olmuş, bir neçə dildə əsərlər yazmış, qədim yxman filosoflarımn əsərlərini tərcümə etmişdir. X əsrdə Bağdadda yaşamış Azərbaycan alimlərindən Əbülhəsən Ərdəbili, Səid Bərdəi, Əhməd Süleyman oğlu, şairlərdən Baba Kuhi Bakuvi, onun qardaşı Pir Hüseyn Şirvani öz dəyərli əsərləri ilə Azərbaycan kitab evini zənginləşdirmiş, insanlann mənəvi tərəqqisinə kömək etmişlər.Göründüyü kimi Azərbaycanın qələm sahibləri heç vaxt durğunluğun əsiri olmamış, onlar mövcud kəsirləri özlərinin yeni əsərləri ilə aradan qaldırmışlar. Görkəmli alim Y.E Bertels (1890-1957) yazırdı: «IX-XIII əsrlər Avropa mədəniyyəti tarixində ən dərin tənəzzül dövrü olmuşdur. Məhz Şərq (o cümlədən Azərbaycan) filosoflarımn əsərləri Avropa xalqlarını çətin vəziyyətdən çıxarmış və onlara gələcək inkişaf yollarmı göstərmişdir»(110).

Azərbaycanı qarış-qarış gəzmiş, buradan xeyli kitab almış və oxumuş ərəb səyyahı Yaqut əl-Həməvi (1179-1229) «Mucəm əl-buldan» əsərində yazmışdır ki, Gəncə kitabxanasmı açan da, onım baş mühafizi də («Xazin») Naxçıvan alimi Həddad İbn Asim İbn Bəkran Əbülfəzl ən -Nəşəvi olmuşdur(113,785).Bu fakti görkəmli Azərbaycan alimi Məhəmmədəli Tərbiyət də (1875-1940) yazmışdır.O Naxçıvanm da, Gəncənin də admı ərəblər işlətdiyi kimi belə yazmışdır: «Əbülfəzl Həddad Ibn Asim Ibn Bəkran ən-Nəşəvi Gəncə kitabxanasınm müdiridir»(53,104). Qeyd edək ki, «mühafiz» sözünü kitabxananm avadanlığma, sərvətinə , işçilərinin əmək fəaliyyətinə cavabdeh olan adam, bir sözlə rəis kimi qəbul etsək , belə qənaətə gəlmək olar ki, Əbülfəzl ən-Nəşəvi (ən-Naxçıvani) Gəncədə saray kitabxanasmm rəisi

XI əsrdə deyil, hələ X əsrin ortalarında təyin olunmuşdur.Belə bir vəzifəyə isə heç şübhəsiz dərin bilikli, ən azı 2-3 dildə yazıb -oxumağı bacaran (Xətib Təbrizi, Nəsirəddin Tusi kimi), dini və dünyəvi elmləri mükəmməl bilən, kitabxana işinə dərindən bələd olan bir şəxs olmalı idi. X əsrə qədər kitabxana rəislərinin adı bizə bəlli olmadığma görə deyə bilərik ki, hələlik Əbülfəzl Nəşəvi ilk azərbaycanlı kitabxana rəisi olmuşdur.

891-ci ildə xeyli azərbaycanlı yaşayan Bağdadda 100-dən artıq kitab mağazası və yüzlərlə şəxsi kitabxana var idi ki, bu kitabxanalarda azərbaycanlı alimlərin də əsərləri, bir çox azərbaycanlı kitabxana sahibləri var idi.

Hələ IX əsrin sonu, X əsrin əvvəllərində Cənubi Azərbaycanın Xunəç şəhərində ilk kağız fabriki işə salınmış və kitabçılıq sahəsində ilk uğurlar qazanılmış, həm kitab bolluğu yaradılmış, həm kitab ucuzluğu yaradılmış, həm də insanların elmə, maarifə geniş şəkildə cəlb olunmuası təmin olunmuşdur.Kitabçılıq işində kağıza böyük ehtiyac olduğundan Xıməç kağızı Şərq ölkələrinə, Azərbaycanm digər şəhərlərinə hətta, Suriyaya, İtaliyaya, Çinə belə ixrac edilmişdir(135, 604). Böyük Sovet Ensiklopediyasmda yazıldığı kimi «VII-XI əsrlərdə azərbaycanlılar arasından görkəmli alimlər və şairlər çıxmasmdan» xoflanan «qaba ermənilər» (Musa Kalankatlı) soydaşlanmızın ipək və kağız emal etmələrindən qısqanmış və öz xain əməllərini burada da göstərmişlər.

Hələ X əsrdə yaradılmış kitabxanalardan biri də Sabir b. Ərdəşirin (Ö.1025) Bağdadda yaratdığı kitab evi olmuşdur ki, bura Bağdad alimləri toplaşar, elmi söhbətlər edər, kitablardan faydalanardılar. Bura gələnlər arasında Xətib Təbrizinin müəllimi dövrünün böyük şair-filosofu Əbül-Əla-əl Məərri (Ö.1057) də var idi. Sabir hər ay kitabxanasınm zənginləşməsinə 1000 dinar sərf edirdi. X.Təbrizinin verdiyi məlumata görə ərəb xilafətindən əvvəl və sonrakı əsrlərdə sərvətini daş-qaşa sərf edib xəzinə yığmaqdansa, kitablara xərcləyib şəxsi kitabxana yaradan adamlar çox olmuşdur.

X-XI əsrlərdə kitab evləri və kitabxanalardan istifadə pulsuz idi.Sultan, əmir, vəzir və tacirlərin də ən böyük varı şəxsin evlərində kitablarının sayı ilə ölçülürdü. Kitab evləri oxumaq istəyənlərin

üzünə günün hər saatmda açıq idi. Gün ərzində elm evində, kitabxanalarda çalışanlara kitabxana sahibi tərəfindən pulsuz nahar da verilirdi.

Müsəlmanlar erkən orta əsrlərdə kitabları yan-yana deyil, üst üstə düzürdülər. Çünki yeni üsulu o dövrdə heç Avropa da bilmirdi. Digər tərəfdən də kitabların əksəriyyəti nazik papirus kağızmdan hazırla- mrdı. Belə kitabları yanaşı düzmək çətinlik törədirdi. Bir də kitablann adları və müəllifi indiki kimi kitabm üzərində deyil, arxasmda və ya ortasında olurdu. Kitab şkafları isə həmişə açıq və xalqm istifadəsində idi.Erkən orta əsrlərdə ümumi kitabxanalar, yarım umumi kitab- xanalar, xüsusi kitabxanalar və mədrəsə kitabxanaları var idi. Bunlarm hamısmda kitabxana personalı var idi. Kitabxana personalı kitab- xananın böyüklüyü və kiçikliyindən asılı olaraq dəyişilirdi. Bu dəyişiklik vəzifələrin növünə və sayına görə dəyişirdi. O dövrdə Azərbaycanın Gəncə, Naxçıvan,Şamaxı,Təbriz, Ərdəbil, Həmədan kimi şəhərlərinin əksər kitabxanalarında aşağıdakı vəzifələr var *idi-,l)Kitabxana xəzinadarı; 2)Mütərcimlər(tərcüməçilər); 3) Müstənsixlər (nüsxə çıxaranlar); 4)Mücəllidlər (cildçilər); 5)Müzahiblər (zər-bəzəkli cildlər hazırlayanlar); 6)Münavillər (Kitabxana xidmətçiləri).*

*Kitabxana xəzinadarı* kitabxananın müdiri vəzifəsində idi.Onun əsas vəzifəsi kitabxananm elmi-pedaqoji və idari işlərini aparmaq idi. O yeni çıxan kitabları kitabxanaya alır, kitabları təbliğ edir, insanlar arasında maarifləndirici işlər aparır, kataloqları diqqətlə tərtib edir, oxucuların mümkün qədər kitabxanadan asanlıqla istifadə etmələrini təmin edirdi. Kitabları çürüməkdən, rütubətdən, korlanmaqdan qoruyur, gərəkən kitabların cildlənməsinə qayğı göstərir, icazəsi olmayan adamlara kitab verilməsini əsirgəyir, möhtac olanlarm istəklərini bol-bol yerinə yetirirdi. Oxucuları məşğul olduğu, maraq- landığı sahə üzrə kitablarla təmin etmək kitabxana müdirinin işi idi. Buna görə də kitabxana müdiri və ya o dövrün dili ilə desək kitabxana xəzinadarı bilikli, geniş dünyagörüşlü, elmi-metodik səviyyəli bir şəxs olmalı idi.

Xətib Təbrizi yazır ki, müəllimi Əbul-Əla əl-Məərrinin və onun dostu Əbu Əhməd Əbdüsəlam b. əl-Hüseyn əl-Bəsrinin (0.1014) çox

zəngin kitabxanası var idi ki, onların da xəzinədarları var idi. Nizamiyyə mədrəsəsinin kitabxanasmm müdiri və xəzinədarı Xətib Təbrizi haqqında Yaqut belə yazır: «Əbu Zəkəriyyə Yəhya b. Əli Xətib Təbrizi lüğət və ədəbiyyat sahəsində çox böyük şöhrət tapmışdır öz sahəsində böyük hörmət və nüfuza malik olmuşdur. O, Əbul-Əla əl-Məərrinin yanma qədər gedib çıxmış, ondan elm təhsilini almış və Nizamiyyə mədrəsəsində ədəbiyyat müdərrisliyini və kitabxana müdirliyini apar- mışdrr. Dil və ədəbiyyat bölümünə rəislik etmiş və şöhrəti məmləkətlərə yayılmış, xalq axm-axın onun yanma getmişdir». Əl-Müstənsəriyyə mədrəsəsinin də böyük kitabxanası olmuşdur ki, onun da bir çox xəzinadarları olmuşdur. Onlardan biri də məşhur filosof, astronom, riyaziyyatçı Məhəmməd Nəsirəddin Tusi (ö. 1274) olmuşdur.

*Kitabxanarıın mütərcimləri* dəyərli kitabları öz ölkələrinin dilinə tərcümə edərək kitab istəyənlərin istifadəsinə verirdilər. Kitabxana mütərcimlərinin yardımı ilə yunan, Suriya, Hind elmləri ərəbcəyə tərcümə edilib bütün İrana və Azərbaycana yayılırdı. Bu dövrdə Pifaqorun, Sokratın, Platonun, Aristotelin əsərlərinə maraq güclü idi. Fəlsəfi əsərlərdən başqa Evklidin, Arximedin də əsərləri, Aristarxın astronomiyaya dair kitabları da tərcümə edilmişdi. Klavdiy Ptolomeyin «Ə1-Macest»i həmçinin onun «coğrafiya»sı, ulduzların hərəkət qanunları haqqmda kitablar tərcümə edilmişdi.Bu tərcümə kitabları da Azərbaycan şəhərlərində yayılmış və insanlarımız da onları oxuyub faydalamrdılar.

Tərcümə işi Harun ər-Rəşid (786-809), onun oğlu xəlifə Məmunun (813-833) hakimiyyəti zamanı Bağdadda tərcümə mərkəzi yaradılmışdı və Azərbaycan da daxil olmaqla bütün Şərq ölkələrinə kitab göndərmək sahəsində «Azərbaycan hamıdan çox iş görmüşdü». Harun ər-Rəşidin xanımı təbrizli Zübeydə Xatun türk, fars, ərəb dillərində şeirlər yazmış və Azərbaycanı kitablar diyanna çevirməkdə ərinə təsirsiz qala bilməzdi.Harun ər-Rəşidin dövründən başlayaraq varisləri Məmun və Mötəsim (833-842) zamanmda ərəb ordusunda 70 mindən çox türk-Azərbaycan əskərinin xidmət göstərməsində şübhəsiz Zübeydə xatunun təsiri ola bilərdi.

Xəlifə əl-Məmun çox bilikli və mədəni şəxs olmuşdur. O müxtəlif yollarla, nadir kitabları, məcmuələri ələ keçirməyə müvəffəq olmuşdur. X əsrdən sonra kitabxanalarda tərcümə işləri zəifləməyə başladı ki, bunun da əsas səbəbi artıq müxtəlif elm sahələrinə dair bir çox kitabların müəlliflər tərəfindən öz ana dillərində yazıb-yaratmaları oldu. O dövrdə zəngin şəxsi kitabxanalar da var idi. Burdarın arasında əl-Kindinin (vəf.860) kitabxanası, Mütəvəkkilin vəziri Fəth bin Xaqanın (861-ci ildə öldürülmüşdür) «Əl-Hikmə» kitabxanası, Cahizin (vəf.868) kitabxanası, məşhur ensiklopedist İbn əl-Nədimin kitabxanası, Sahib bin Əbbadm (vəf. 994) 114 minlik kitabxanası olmuşdur. Əl-Qəzvini Bağdada gələndə onun kitabları on dəvəyə yüklənmişdi.

*Müstənsixter* (nüsxə çıxaranlar) arüq onuncu əsrdə kitabxanalarda kitabları çoxaltmaqla, üzünü çıxarmaqla məşğul idilər. Kitabxananı zəngiləşdirmək üçün kitablarm bir surətini yazmaq və arürmaq üçün xüsusi müstənsixlər kitabların üzünü çıxarırdxlar. Təbrizdən bir qrup müstənsix islam aləmində ilk böyük kitabxana olan Harun ər-Rəşidin təsis etdiyi və oğlu xəlifə əl-Məmxmun dövründə zirvəyə yüksəlmiş Beytül-Hikməyə getmiş və orada Qurani Kərimin, hədislərin, habelə übbə, fiqhə, ədəbiyyata fəlsəfəyə dair kitablann üzünü çxxarmış Təbriz kitabxanasxnx zənginləşdirmişdir. 832-ci ildə rəsədxana ilə birlikdə qurulmuş bu böyük mədəniyyət və elm mərkəzi çox geniş inkişaf etmişdi. Alimlərin, tələbələrin, arxşdxrmaçxlarxn baş vurduğu ilk islam universiteti, ilk elm mərkəzi bura idi. Elm və ədəbiyyat aşiqi Xəlifə əl- Məmun Yunanxstandan, İrandan, Hindistandan, Kipr adasxndan, Konstantinapoldan (İstanbul) kitablar gətizdirmiş və burada onlar təsnif edilmiş, 130-dan çox müstənsixin çalışdığı yerdə həmin kitablarm üzü gecə -gündüz köçürülmüşdür. Müstənsixlər son dərəcə diqqətli və səliqəli davranmalı idilər. Onlar heç bir səhvə, tələskənliyə yol verməməli idilər.Bəzən onlar gecə -gündüz çalışırdılar. İstər xüsusi və isərsə də ümumi kitabxanalarda erkən orta əsrlərdə müstənsixlərin və xəttatların çalışması bir qayda olmuşdur.

Bağdadda «Beyt ol-hekmədə», Bağdad mədrəsə kitabxanasında, habelə Təbriz, Gəncə, Naxçıvan, Xorasan mədrəsə kitabxanalarmda

xüsusi xəttat və müstənsixlər hazırlanmış və geniş fəaliyyət göstərmişlər. Cənubi Azərbaycan- xüsusilə Təbriz xəttatlıq məktəbi hər zaman bu sahədə fərqlənmişdir. Azərbaycanda xəttatlıq sənəti Mübarək şah Zərrinqələm Təbrizinin işlərindən başlamışdır. O XIII əsrin məşhur ərəb xəttatı Cəmaləddin Müstəsiminin yetirdiyi altı şagirddən biri olmuşdur. Bunlar xəttatlıq tarixinə «Altı usta» adı ilə düşmüşlər. Daha sonra bu alülığa bir azərbaycanlı usta şeyx Əhməd Sührəverdi də daxil olmuşdur. Mübarək şah Zərrinqələm o dövrün klassik xətlərinin altı növünü də yaxşı bilirdi. XIV əsrdə isə Azərbaycanda məşhur xəttat Mir Əli Təbrizi yetişdi. O yeni nəstəliq xəttini icad etdi və tezliklə bütün Şərqə yayıldı. Rəvayətə görə Mir Əli Təbrizi bu xəttin kəşfini yuxusunda görmüşdür. Ona demişlər: «Ey Allahın qulu! Ordək suya girəndə ona diqqət yetir, onun hərəkətlərinə fikir ver və buna bənzər xətt yarat...Gör bir ördəyin gözləri necə yumrudur, dimdiyi necə dikdir, boynu necə də əyridir. Bunlara bax və bir xətt icad et»! Mir Əli Təbrizinin qələmindən çıxmış yazılar bu gün London, Tehran, Sankt-Peterburq kitabxana və muzeylərini bəzəyir. Mir Əli Təbrizinin davamçısı onun oğlu Mir Abdullah olmuşdur.Daha sonralar Cəfər Təbrizi, Əhməd Təbrizi xəttatlıq işini davam etdirmişdir.

*Mücəllidlər* (Kitab cildləmə) də o dövrdə geniş yayılmışdı. Bu iş Ərdəbil, Təbriz və Həmədanda geniş yayılmışdı. X-XI əsrlərdə təbrizli, həmədanlı sənətkarların məharətlə hazırladıqları cildlər ən gözəl və ən qədim cildlər hesab olunmuşldar.

Daha sonralar cildçilik sənəti inkişaf etdi və kitabları naxışlama, süsləmə geniş yayılmağa başladı ki, onlara *Müzahiblər* (zər-bəzəkli cildlər hazırlayanlar) deyilirdi. Müzahiblər də Azərbaycanm müxtəlif yerlərində çalışmış və bu sənəti daha da inkişaf etdirmişlər.

*Münavillər* (Kitabxana xidmətçiləri) isə kitablarla işləmə, kitab axtarıb tapma, müxtəlif mənbələrdən istifadə etmə qaydalarını oxuculara öyrədir və onları istədikləri kitablarla təmin edir, kitabları oxuculara aparıb-gətirirdilər. Münavillər həm də bir pedaqoji, maarifləndirici, öyrədici bir iş aparırdılar. Münavillər kitab xəzinadarı səviyyəsinə qalxmamış və kitabxana xidmətçisi səviyyəsinə də enməmişdilər.

Erkən orta əsrlər dövründə Bağdadda, Nəcəfdə, Təbrizdə, Bərdədə, Gəncədə ümumi, yarımümumi və xüsusi mədrəsə kitabxanaları mövcud olmuşdur. Bu dövrdə Azərbaycanda maarif, təlim, təhsil və pedaqoji fikrin inkişafmınm səciyyəvi xüsusiyyətlərindən biri də kitab evləri və kitabxanalar vasitəsilə pedaqoji biliklərin yayılması, insanların kitablar vasitəsilə maariflənməsi, kitablardan faydalanması olmuşdur.

Kitab evləri və kitabxanaların qurulması elmin, mədəniyyət və maarifin, pedaqoji elmin inkişafma və yüksək təhsil verən mədərəsələrin yaranıb sürətlə genişlənməsinə qüvətli təsir göstərdi..

## Mədrəsələrdə təhsil

Islam aləmində cəmiyyətin inkişaf etməsi, insanların biliyə ehtiyacının artması yeni tədris müəssisələrinin açdmasmı tələb edirdi. Bu ehtiyacı məscidlər, kuttablar, məktəblər görə bilmirdi. Buna görə də camilərin yanmda daha yüksək təhsil verən mədrəsələr yaradıl- mağa başlandı. Beləliklə ilk vaxtlar mədrəsəli cami və ya camili mədrəsələr ortaya çıxdı.

Mədrəsələrin istər Şərq aləmində və istərsə də Azərbaycanda dəqiq nə vaxt, harada açdması barədə tutarlı bir mənbə, sənəd əldə edilməmişdir. Alimlərimiz də bu barədə müxtəlif fikirlər söyləmiş, müxtəlif tarixlər göstərmişlər.

Mövcud mənbələrdə VII-X əsrin birinci yarısınadək İslam ölkələrində yüksək təhsil verən mədrəsələrin adlarına rast gəlməmişik. Belə nəticəyə gəlmək olar ki, ərəblərin yürüşündən sonra Yaxın və Şərq ölkələrində, o cümlədən Azərbaycanda göstərdiyimiz dövrə qədər yüksək, başqa sözlə ali təhsil verən mədrəsələr olmamışdır. Bu ölkələrdə, eləcə də Azərbaycanda xilafət dövründə uzun müddət fərdi təhsil sistemi əsas yer tutmuş, elm həvəskarları dövrün böyük alimlərinin yamnda oxuyub-öyrənmiş, elm və təhsil almışlar. Böyük ərəb alimi Corci Zeydan (1861-1914) bu barədə belə yazmışdır: «İslam ölkələrində mədrəsə olmadan elm və mədəniyyət inkişaf etmişdir. Qanunşünaslar, həkimlər, filosoflar və alimlər mədrəsəyə getmədən meydana gəlmişlər»(132,303). Mənbələrin verdiyi məlumatdan aydm olur ki, VII-X əsrin əvvəllərində islam ölkələrində

ali təhsil verən mədrəsələr olmasa da Bağdad, Şam, Hələb, Dəməşq, Həmədan, Rey, Xarəzm, Buxara və başqa şəhərlərdə dövrün böyük alimləri olan Əl- Xarəzmi (vəf.850), Əbu Bəkr Məhəmməd Ibn Zəkəriyyə Yəhya əl Razi (865-926), Əbu-Nəsr Farabi (təxm. 870-957), İbn Məskuə (vəf. 1030), Əbu Əli İbn Sina (980-1037), Bəhmənyar (vəf. 1065) kimi ensiklopedik zəka sahiblərinin ayrıca tədris dairələri olmuşdur. Böyük Azərbaycan alimi, filosofu, pedaqoqu, Bəhmənyar İbn Sinadan, Əbül Abbas Ləvkəri Bəhmənyardan fərdi təhsil almışdır. Yaxud da Xətib Təbrizi, Qətran Təbrizi dövrünün böyük alimlərindən fərdi təhsil alaraq şöhrətlənmişlər.

Artıq XI əsrdə Azərbaycanda yetişən Əbu Ömər Nəxçivani, Əkmələddin Naxçıvani, Qətran Təbrizi, Bəhmənyar kimi böyük alimlərin sayı artmağa başlamışdı ki, onlar bir alim olmaqla bərabər, həm də tədris işi ilə məşğul olur, yüksək tədris müəssisələrində başqalarına elmi, təhsili öyrədirdilər.

Professor Y.R.Talıbov, professor F.B.Sadıqov, professor S.M.Quliyev yazır ki, «Mədrəsələr IX-XIII əsrlərdə əhalisinin çoxu müsəlman olan ölkələrdə geniş yayılmışdı. Mədrəsələr, əsasən, böyük məscidlərin nəzdində fəaliyyət göstərmişdir. Azərbaycanda mədrəsələr XI əsrdə yaranmışdır. Mədrəsələrdə dini və dünyəvi elmlər (ərəb və fars dilləri, şəriət, ədəbiyyat, fəlsəfə, mənüq, psixologiya və s.) tədris edilirdi. Ali təhsil almaq məqsədilə gənclər Şimali Azərbaycandan İrarun Tehran, Nəcəf, Təbriz və digər şəhərlərindəki mədrəsələrə gedirdilər»(75,42). Qeyd edək ki, X əsrin ikinci yarısından etibarən bütün islam ölkələrindən, o cümlədən Azərbaycandan da bir çox ziyalılar, elm həvəskarları mədrəsə təhsili almaq üçün Bağdada və Əzhər mədrəsəsinə gedirdilər.Əl-Tiflisi (İsa əl-rəqi), Əbül-Həsən Ibn Harun əl-Zəncani kimi Azərbaycan alimləri vaxülə Bağdad mədrəsələrində təhsil almış və sonra da bu şəhərdə qalıb çalışmışdar.Bundan əlavə 962-ci ildə Qahirə şəhərinin «Əzhər» adlı came məscidində təşkil olunmuş Əzhər mədrəsəsi də o zaman ümumislam ölkələri üçün əsas tədris ocağı idi. Burada fiqh, hədis, nəhv, məntiq tədris olunurdu.

Azərbaycanda məktəb və maarifin sürətlə inkişafı XII əsrin sonları, XIII əsrin əvvəllərində daha açıq -aydın özünü göstərir.

Akademik H.M.Əhmədov yazır ki, XII əsrin axırlarmdan başlayaraq Azərbay- canda məktəb və mədrəsə təhsili nisbətən sürətlə inkişaf edirdi. İlk mənbələrdə XIII əsrin birinci 20 illiyində Təbriz, Marağa, Xoy, Səlmas, Urmiyə, Mərənd, Ərdəbil, Bərdə, Gəncə, Beyləqan, Naxçıvan, Bakı və Şəki şəhərlərində mədrəsələrin olması haqqında məlumat verilir (10,25).

Məhz o dövrdə məktəb və mədrəsə təhsilinin tarixinə dair ilk konkret sənədlərə rast gəlmək olur. XIII əsrin əvvəllərində yaşamış böyük səyyah, alim Yaqut Həməvi «Mucəm əl-buldan» əsərində göstərir ki, Ərdəbildə bütün elmlər üzrə xeyli alimlər var idi(134). Demək xeyli alimləri olan bir şəhərdə mədrəsə olmaya bilməzdi.Yaqut Həməvi Təbriz, Xoy, Səlmas, Urmiya, Mərənd, Ərdəbil, Bərdə, Şirvan, Gəncə, Beyləqan, Naxçıvan, Bakı, Şəki və Azərbyacanın digər şəhərlərindən danışarkən, Marağa şəhərindən daha geniş danışır, burada «Mədrəsələr, xanegahlar, ədiblər, şairlər, mühəddislər, fəqihlər» olduğunu göstərir (113,31). Yaqut Həməvinin tərcümeyi- halmdan məlum olur ki, o 1220-ci ildə İrana monqol qoşxmları hücum etdikdən sonra İranı tərk edərək Muselə getmişdir. Demək arüq 1220- ci ildə Yaqut Həməvi Marağa şəhərindəki mədrəsələri görmüş və bu barədə yazmışdır. Bu qənaətə gəlmək olar ki, monqolların İrana, Azərbaycana hücumu zamanı o dövrə qədər yaradılmış bir çox məktəb və mədrəsələr, elm mərkəzləri, kitabxanalar dağıdılmmış, ədəbiyyat, incəsənət nümunələri məhv edilmişdir. Lakin buna baxmayaraq xalqımız qısa müddətdə yenidən öz milli-mənəvi, mədəni abidələrird bərpa etmiş, tədris ocaqlarmı qurmuş, milli məktəb və maarif sahəsində, ədəbiyyat və incəsənət sahəsində tərəqqi edərək irəli getmişdir. Hələ XIII əsrdə Azərbaycan dilində Əli adı ilə tanınmış müəllif tərəfindən «Qisseyi-Yusif» əsəri, elə bu əsrdə İzzəddin Həsənoğlunun azərbaycanca ilk şeirləri, cənubi azərbaycanlı şair Beyrək Quşçuoğlunun «Kəlamlar» adı ilə «Divan»ı yazılır. Beyrək Quşçuoğlu şeirlərinin birində özünün doğulduğu, gəzdiyi, sevdiyi yerləri gözəl Azərbaycan dilində, vətən sevgisiylə, Təbriz ləhcəsində belə tərənnüm edir:

*Özümgil deh Dabani,*

*Yeddi qədəm Qız qapani,*
*Əlincə və Naxçıvanı*
*Ordubadı çox sevərəm*
*Gər-Gərdən bəri Zunuzi*
*Sofiyanı, Mərəndi, Duzi,*
*Aşağıda Şam Qazanı*
*Təbrizdə yarı görmək istərəm (27,84).*

Quşçuoğlurıurı Azərbaycan dilində «Divan»ını ilk dəfə 1990-cı ildə Tehranda doktor Əkbər Məhəmmədzadə Siddiq «Kəlamlar» adı ilə nəşr etdirmişdir(137).

Açılan məktəb və mədrəsələrin hələ o zaman belə ana dilində olması istəyində olan və bunun bir zərurət olduğunu dərk edən böyiik alim, məşhur Bağdad «Müstənsiriyyə» mədrəsəsinin məzunu və sonra müdərrisi olmuş Hinduşah Naxçıvani (təxm.1285-1374) azərbay- canlılarm fars dilini öyrənmələri üçün və ana dilli məktəblərdə fars dilinin tədrisi üçün «Sihah əl -əcəmiyyə» adh üç hissədən ibarət lüğət tərtib etmişdir ki, bu əsərin birinci hissəsi ərəbcə yazılmış müqəddimə, ikinci hissəsi farsca-azərbaycanca lüğət, üçüncü hissəsi fars dilinin qrammatikasma dair ərəbcə və azərbaycanca verilmiş məlumatdan ibarətdir. Bu lüğət X əsr leksikoloqu Cövhərinin «Tac əl-lüğa və sihah əl-ərəbiyyə» adlı lüğətinin quruluşu əsasında tərtib edilmişdir. Bu lüğətin sözlüyü çox zəngindir. Prof. V.Piriyev əsərində göstərir ki, Qətran Təbrizinin «Ət-təfasir»ində 300, Əsədi Tusinin «Loğəti- fors»unda 1700 söz olduğu halda Hinduşah Naxçıvaninin luğətində 5117 söz vardır ki, onlarm 10.000-ə yaxım Azərbaycan sözləridir. Bu əsər dünyarun bir çox kitabxanalannda mövcuddur ki, onlann sayı 30- a yaxındır. Əsər akademik Ziya Bünyadov tərəfindən tərcümə edilərək Azərbaycan oxucularma çatdmlmışdır. Tehranda isə Q.Beqdeli 1983- cü ildə əsəri Bratislava nüsxəsi əsasında çap etdirmişdir (53,36). Bu dəyərli əsər ilk pedaqoji-metodik əsərlər sırasma daxil edilə bilər.

Hinduşah Naxçıvaninin elmi, bədii, pedaqoji, filoloji yaradıcılığım oğulları Şəmsəddin Naxçıvani və Məhəmməd Naxçıvani tərəfindən davam etdirilmişdir. Məhəmməd Naxçıvani XIV əsrin 60 -cı illərində «Sihah əl-fors» - fars dili lüğətini

yazmışdır(«Sihah» -doğru, həqiqi, etibarlı mənalarmı verir). Bu lüğətin 4 əlyazma nüsxəsi- ikisi İranda, Hindistanda və Əfqanıstandadır. Bu lüğətdə təxminən 2300 sözün izahmda şeir parçalarmdan, xalq misallarnıdan geniş istifadə edilmişdir ki, bu da lüğətin həm didaktik, həm filoloji, həm də tərbiyəvi əhəmiyyətini artırmışdır. Burada Azərbaycanın görkəmli alimlərinin, şairləinin əsərlərindən- o cümlədən Nizami Gəncəvinin, Məhsəti Gəncəvinin, Xaqani Şirvaninin, Nəsirəddin Tusinin, Hindu- şah Naxçıvaninin şeirlərindən parçalar və beytlər verilmişdir. Bu əsərin diqqəti cəlb edən cəhətlərindən biri onun Azərbaycan dili və ümumiyyətlə Azərbaycanla bağlılığı məsələsidir. Lüğətdə müəllif «Zəban-e azərbaycani» («Azərbaycan dili») istilahını tez-tez işlət- mişdir. Hələ XI əsrdə Əbu Reyhan Birunin (973-1048) əsərində «Luğəti
- Azərbaycan» kəlməsinin işlənməsi, Xətib Təbrizinin Bağdadda təbrizli qonşusu ilə «Azərbaycan dili»ndə danışması faktları məlum həqiqətlərdir. Xətib Təbrizidən sonra bu kəlmənin işlənməsi bəzi mənbələrdə XIX əsrin sonlarmda «Kəşkül» jurnalında təsadüf olunduğu göstərilmişdir. Amma budur, Məhəmməd Naxçıvaninin tərtib etdiyi lüğətdə açıq -aydm «Azərbaycan dili» istilahı işlədilir. Müəllifin öz ana dili barədə verdiyi məlumatdan aydın olur ki, «Azərbaycan dili» ifadəsi daha əvvəllər də işlənmişdir ki, bu dil Azərbaycan əhalisinin əsas damşıq dilidir(53,39).Müəllif farsca bir sıra sözlərin izahını verərkən onların Azərbaycan dilində qarşılığını vermiş, sözün mənasını, hətta ölkənin müxtəlif yerlərində - Muğanda, Aranda, Naxçıvanda necə işlənməsini göstərməklə izah etmişdir ki, onların sayı 50-yə yaxındır. «Sihah əl- fors» bir dilli, fars dilində az işlənən sözlərin izahlı lüğətidirsə, «Sihah əl-əcəm» isə iki dilli- farsca
- azərbaycanca lüğətdir(53, 38). Məhəmməd Naxçıvani bu əsərində qeyd edir ki, fars dili lüğətinin ilk tərtibçisi həkim Qətran Urməvi olmuşdur. Lakin onun lüğətində cəmi 300 söz olmuşdur. Əsədi Tusi bu lüğət üzərində işləmiş, onu təkmilləşdirmiş, bablara bölmüş və Urməvinin lüğətindən müqayisə edilməz dərəcədə çox sözlərin izahmı vermişdir.

Deyə bilərik ki, təməli XI əsrdə qoyulmuş fars lüğətçiliyi tarixində Əsədi Tusinin-«Loğəti-fors» əsəri (bu əsər Naxçıvanda yazılmışdır, daha sonra Naxçıvan şahı Əbu Duləfin tapşırığı ilə Əsədi Tusi «Kərşafrıamə» əsərini də yazmışıdr ki,bu əsər Firdovsirdn «Şahnəmə» əsərindən sonra ikinci ən böyük əsərdir), Qətran Təbrizinin «Ət- təfasir», XII əsrdə Əbülfəzl Hübeyş İbn İbrahim İbn Məhəmməd Tiflisinin «Kamil ət-təbir» lüğətini, daha sonrakı dövrdə də Məhəmməd Naxçıvaninin «Sihah əl-fors» əsərləri fars dilçiliyinin inkişafında böyük rol oynamışdır(130).

Lüğətçilik ənənəsini XII əsrdə azərbaycanlı Əbülfəzl Hübeyş Ibn İbrahim İbn Məhəmməd Tiflisi uğurla davam etdirmişdir. Onım farsca yazdığı «Kamil ət-təbir» ensiklopedik lüğəti Şərqdə geniş yayılmış və Xızır İbn Əbdül Hadi əl Bəvazici tərəfindən türkcəyə tərcümə edilmişdir ki, bu tərcümənin avtoqrafı AMEA-nın Əlyazmalar İnstitutunda saxlanılır(130). Hübeyş Tiflisi bu kitabın müqəddi- məsində yazmışdır:«Onun admı «Kamil ət -təbir» qoydum, çünki fars dilində bundan kamil bir kitabı heç kimi yaratmamışdır». Dövrünün istedadlı ədibi, filoloqu, astronomu, təbibi, pedaqoqu olan Hübeyş Tiflisdə doğulmuş, Konya şəhərində səlcuqlu sarayında yaşamışdır. Hübeyş Tiflisi özündən sonra zəngin elmi, pedaqoji, metodiki irs qoyub getmişdir ki, onun tibbə, astronomiyaya, astrologiyaya, kimyaya, filologiyaya və pedaqogikaya dair qiymətli əsərləri ərəbcə və farsca yazılmışdır. Onun «Qanune-ədəb» («Ədəb qaydaları») əsəri admdan göründüyü kimi pedaqoji bir əsərdir.

XIII əsrin sonlarıda azərbaycanlı, təbrizli müəllim və şair Xacə Mirəli Təbrizi farscanm nəstəliq xəttini icad etdi. Məhəmmədəli Tərbiyət «Danişməndani- Azərbaycan» kitabında Mirəli Təbrizi haqqmda yazır: «Xəttatların başçısı Xacə Mirəli Təbrizi Əmir Teymur dövrünün məşhur şəxsiyyətlərindən olmuşdur. O, nəsxlə təliq xətlərini birləşdirib, səkkizinci bir xətt yaratmışdır ki, ona nəstəliq xətti deyilir. Onun şagirdlərindən ikisi yüksək dərəcəyə çatmış və şöhrət qazanmışdır. Bunlardan birincisi Mövlana Cəfər və ikincisi Mövlana Əzhərdir. Onların hər ikisi Təbrizdəndir. Mövlana Sultanəli onun haqqmda aşağıdakı şeiri demişdir:

*Nəsx və təliq xətlərinin, xəfi ya cəli, Əsil yaradıcısıdır Xacə Mirəli, Aləmin yaranışından hazır vaxtadək, Dünyada yazılmamışdır onun xətti tək. İti zehnilə Əli bu xətti yaratdı, Nəsx, təliq xətlərini bir-birinə qatdı. Sanki bal, həm şəkər damır, o qələmindən, Onun əsli olmuşdur pak Təbriz yerindən. Xətti də şeiri kimi çox məlahətlidir. Bir çox alimlər çıxmışdır zəmanəsində, Şirindil kəmal da onlar içərisində» (53,224).*

Mirəli Təbrizinin davamçıları da meydana gəlmiş və XIV əsrdə Azərbaycanda, xüsusilə Təbrizdə Cəfər Təbrizi, Əzhər Təbrizi, İbrahim Təbrizi, Amni Təbrizi, Mehrab Təbrizi, Əlirza Təbrizi, Əhməd İbn Məhəmməd Təbrizi, Alabəy Təbrizi, Nizaməddin Əli Ərdəbili kimi azərbaycanlı xəttatlar xəttatlığm yeni inkişaf mərhələsini başlamış, sonralar isə Təbriz miniatür məktəbi yaranıb fəaliyyət göstərmişdir. Demək xətt və yazınm inkişafı məsələləri də azərbay- canlı alimlərin diqqət mərkəzində olmuşdur.

XII əsrdə Azərbaycanda mədrəsə təhsili görmüş bir çox alim və ziyahların, şairlərin adlarına rast gəlmək olur. Belə ki, Əbülüla Gəncəvi, Fələki Şirvani, Xaqani Şirvani, Məhsəti Gəncəvi, Nizami Gəncəvi kimi böyük Azərbaycan mütəfəkkirləri mədrəsə təhsili görərək yüksəlmiş və şöhrətlənmişlər. Belə bir tarixi həqiqətin mövcudluğu onu deməyə əsas verir ki, heç şübhəsiz XII əsrdə Azərbaycamn iri inkişaf etmiş, ticarət mərkəzləri olan, ipək yolu keçən şəhərlərdə mədrəsələr olmuşdur.

Naxçıvandakı məktəb və mədrəsələr, xüsusilə XII əsrdə Atabəylər dövlətinin başçısı Atabəy Şəmsəddin Eldənizin dövründə (hakimiyyəti 1136-1125) inşa edilən mədrəsələr Yaxm Şərqdə tanınmış və böyük şöhrət tapmışdır. Şəmsəddin Eldəniz ölkəsində məktəb və mədrəsələrin şəbəkəsini genişləndirmək üçün bir sıra tədbirlər həyata keçirmiş, məscid və camilər, məqbərə və türbələr, inşa etdirmişdir. Memar Əbubəkr Əcəmi Naxçıvaninin bu dövrdə yaratdığı və Yaxın Şərqdə şöhrət tapdığı memarlıq abidələri buna misaldır. Pedaqoji fikir tariximizin görkəmli nümayəndəsi, pedaqoji

elmlər doktoru, mərhum professorumuz İbrahim Mollayev orta əsrlər Azərbaycan məktəb və pedaqoji fikir tarixinə dair dəyərli tədqiqatiar aparmış və göstərmişdir ki, «XII əsrin sonu və XIII əsrin əvvəllərindən başlayaraq Azərbay- canın bir sıra şəhərlərində məktəb və mədrəsələr fəaliyyət göstər- mişdir ki, bunlar dini məktəblər olsalar da belə, yeri gəldikcə dünyəvi elmlərin də tədrisinə yer verirdilər»(56,55).

XII əsrdə Azərbaycanda mədrəsələrin yaranmasına dair müəyyən sənədlərdən, tədqiqatçıların araşdırmalarmdan məlum olur ki, XII əsrin sonlarında bəzi inkişaf etmiş şəhərlərdə, xüsusilə əhalisi çox olan, ticarət mərkəzləri, dükan və bazarları, karvansarayı, kitabxanası, memarlıq abidələri, məqbərələri olan, ipək yolu, tranzit yolu keçən şəhərlərdə mədrəsələr yaranmışdır. Akademik İsa Həbibbəyli dəyərli fakt və sənədlərə istinadən XII əsrdə Naxçıvanda ali təhsil verən iki mədrəsələrin olmasım göstərir və belə yazır: «Naxçıvan ərazisindən keçən böyük karvan yolları bu diyarda ən qədim zamanlardan etibarən Şərq və Qərb maarif və mədəniyyətlərinin inkişafnıa müsbət təsir göstərmişdir. Hələ XII əsrdə Atabəylər dövlətinin paytaxü olan Naxçıvanda indiki mənada universitet statusuna malik olan iki mədrəsənin mövcud olmasmda və həmin mədrəsələrdə Şərq məktəb tipi prinsipləri ilə yanaşı, dünyəvi elmlərin - həndəsə, riyaziyyat, astronomiya kimi fənlərin öyrədilməsinə tranzit ənənələrinin mühüm rolu var idi. Hətta məhz həmin dövrdə Naxçıvanda Əcəmi Əbubəkr oğlu kimi xüsusi məktəb yaratımş dahi memarların yetişib ərsəyə gəlməsi, məşhur Mömünə Xatun məqbərəsinin ucaldılması da burada yeniləşmiş, dünyəvi elmlərlə sintez olunmuş münbit şərq mühitinin qanunauyğun nəücəsi kimi meydana çıxmışdır»(24,3).

Naxçıvanda XII əsrin məktəb və mədrəsələrinin tarixinə dair, onların inkişafına dair dəyərli sənədlərdən biri «Təqrir-i tədris-i mədrəseyi Naxçıvan əz inşa mərhum Şəmsəddin Sahib-Divan» (Mərhum Sahibi Divan Şəmsəddinin inşa etdirdiyi Naxçıvan mədrəsələrinin tədrisi təsdiqinə dair») adlı Fərmandır. Elxani hakimləri tərəfindən imzalanıb, təsdiqlənən bu Fərmanın müəllifi Elxanilər sarayında baş vəzir işləmiş Şəmsəddin Məhəmməd

Cüveynidir. Fərman Atabəyələr dövründə Sultan Şəmsəddin Eldənizin Naxçıvanda inşa etdirdiyi mədrəsələr və onların bərpası haqqındadır. Bərpasına rəvac verilmiş, əvvəllər tikilmiş, haqqında sohbət getmiş o ild mədrəsə hansılardır və nə vaxt tikilmişdir? Tarixi fakt və mənbələrdən məlumdur ki, Müsəlman şərqində yaradılan məktəb və mədrəsələr əsasən məscid və məqbərələr kompleksinə daxil olur və onların «vəqflər»i hesabma qurulurdu. Naxçıvanda yaradılan böyük memarhq abidələrinin, məqbərə və türbələrin,məscid və camilərin də heç şübhəsiz tədris müəssisələri, məktəb və mədrəsələri olmuşdur. Bu mədrəsələrin tarixi Əcəmi yadigarları olan Mömünə Xatun (1186-cı il) və 1162-ci ildə inşa edilmiş Yusif İbn Küseyr türbəsinin tarixinə çox müvafiq gəlir. Buradakı mədrəsələr də bu abidələr kompleksinə daxil olmuş və onların «vəqflər»i, gəliri hesabına malijryələşmiş və öz fəalijryətlərini qurmuşlar. Mənbələrdən məlumdur ki, Şərqdə məktəb və mədrəsələrin bir çoxu məscidlər və məqbərələr yanmda təşkil edildiyindən onların bütün xərcləri də məscid və ya məqbərənin vəqfləri hesabma ödənilirdi.Vəqf əmlakımn gəliri hesabma yoxsullarm ehtiyacları ödənilir, şəhərdə hamamlar, su anbarları tikilir, böyük yol ayrıclarında, karvan yollarında yolçular üçün ribatlar yaraddır, korpülər, karvansaraylar inşa edilirdi.

Naxçıvan şəhərindəki əsas mədrəsələr də Atabəylər memarlığma məxsus Küseyir türbəsi (Atababa Came məscidi) və Mömünə Xatun məqbərəsi yanında təşkil edilmiş vəqflər hesabına qurulmuş və fəaliyyət göstərmişdir. Adı gedən Fərmanda həmin mədrəsələrin təmirindən deyil, bərpasmdan söhbət gedir. Şübhə etmirik ki, həmin mədrəsələr Naxçıvanda gedən bir çox istilaçı müharibələrin qurbam olmuş, müəyyən hissələri dağıdılmış və bu mədrəsələrin tarixi əhəmiyyəti, memarlıq üslubiyyəti nəzərə almaraq bərpasma ehtiyac duyulmuşdur.

Bu sahədə dəyərli tədqiqat aparmış Ə.Hüseynzadə göstərir ki, Fərmanın ən dəyərli cəhətlərindən biri budur ki, artıq XIII əsrin əvvəllərində nəinki Naxçıvanda və Azərbaycamn müxtəlif yerlərində mədrəsələrin olmasxna dair konkret faktlara rast gəlirik. Burada Azərbaycanm Gəncə, Beyləqan, Bərdə, Şəki, Şirvan, Şamaxx

və digər mədəniyyət mərkəzlərində məktəb və mədrəsələrin olmasxna dair məlumatlar vardxr(29,46).

Bu Fərmanxn əhəmiyyəti təkcə mədrəsə tarixinə dair məlumat almaqla bitmir. Burada mədrəsə həyatına dair dəyərli məlumatlar vardxr. Belə ki, burada mədrəsənin quruluşu, təhsilin məzmunu, müdərris və tələbələrin vəzifələri göstərilməklə yanaşx ilk dəfə olaraq mədrəsədə «Ədəb qaydalarx» haqqında məlumatlar verilir. «Pedaqo- gika tarixi» kitablarında tədris müəssisəsində «Ədəb qaydaları»nm XVII əsrdə Y.A. Komenski və başqa Qərb pedaqoqları tərəfindən yaradıldığı göstərilir. Onlar yalnız o dövrdə təhsil alanların ədəb qaydalarını işləyib hazırlamışlar. Amma, adı gedən Fərmandan məlum olur ki, hələ XIII əsrdə, bəlkə də ondan əwəlki əsrdə ilk dəfə olaraq Azərbaycanda «Ədəb qaydaları» işlənib hazırlanmışdır.

Pedaqoji fikir tariximizə məlumdur ki, hələ XII əsrdə, Ziyaəddin Əbu Nəcib Sührəvedi «Ədəb əl-müridin»(«Tələbənin ədəb qaydaları»), elə bu dövrdə Hübeyş Tiflisi «Qanune-ədəb» əsərini yazmış, sonralar da M.T.Sidqi uşaqlar üçün «Ədəb qaydaları»m işləyib hazırlamışdır.Bu Fərmandakı «Ədəb qaydaları» əvvəlkilərdən ona görə əhəmiyyətli və fərqlidir ki, burada həm mədrəsədə təhsil alan tələbələr üçün, həm də mədrəsənin müdərrisləri üçün «Ədəb qaydaları» müəyyənləşdiril- mişdir. Fərmanda müdərrislər qarşısmda xüsusi tələblər qoyulur və tələb olunan qaydalara ciddi əməl olunması göstərilir. Fərmanda müdərrislərdən uşaqlara ata kimi yanaşmaq və onlara öz övladı kimi ehtiram bəsləmək tələbi irəli sürülür və belə yazılır: «Müdərris çalışqan tələbələrə ehtiramla yanaşmalı və onlan öz ruhani oğlu hesab etməlidir». Müəllimlər qarşısında qoyulan bu tələb 400 il sonra «Pedaqogikamn atası» sayılan çex pedaqoqu Y. A.Komenski tərəfindən təxminən eyni formada belə deyilmişdir: «Sən ata kimi hərəkət etmirsənsə, müəllim kimi fəaliyyət göstərə bilməzsən» (66,27).

Fərmanda habelə tədris prosesində müdərrisin uşaqları yorma- ması, onların qüvvəsinə və bacanğma görə iş verməsi göstərilir: Tədris və təlim zamanı tələbələrə qüwələrinə görə dərs vermək, onlara ağır dərslər verib əziyyət verməmək və yormamaq gərəkdir».

Fərmandan aydm olur ki, hələ o zaman uşaqların fərdi xüsusiyyətlərinin nəzərə almması, onların istedad və qabiliyyətlərini, bilik səviyyəsini nəzərə almaq müəllimlərin qarşısmda bir vəzifə olaraq qoyulurdu, Bu qayda bu gün müasir pedaqogikamızda təlim və tərbiyənin ən mühüm prinsiplərindəndir. Fərmanda yazılır: «Tələbələrin təbiəü, istedadı və bilik dərəcəsi müxtəlif olduğundan, müdərris hər bir tələbənin fərdi xüsusiyyətlərini nəzərə alaraq ona fənn təyin etməli və onun şəxsi xüsusiyyətlərinə görə müvafiq dərs verməlidir». Bunlarla yanaşı müdərrisin nitqinə verilən tələblər, dərsi tələbələrə izah etməsinə verilən tələblər və s bu kimi məsələlər Fərmanda göstərilmişdir. Göründüyü kimi o zaman müdərrisin qarşısında qo- yulan tələblər bu gün də müəllimin qarşısında qoyulan tələblərə uyğırn gəlir.

Fərmanda tələbələrin də qarşısında duran vəzifələr göstərilmişdir ki, onlann bir neçəsinə nəzər salaq:

1. Mütəəlimlər (təlim alanlar) Fərmanda göstərilən vəzifələri olduğu kimi həyata keçirən müdərrisləri digərlərindən üstün tutmalı və onlara validə məhəbbəti bəsləməlidirlər.

2. Elm təhsil etmək istəyən hər bir şagird tənbəllik və səhlənkarlıq- dan, laqeydlikdən uzaq olmalı və ona verilmiş dərsləri təkrar edərək öyrənməkdən usanmamalıdır.

3. Dərs zamanı fikrini yaymdırmamalı və müdərrisə, onun dediklərinə diqqətlə qulaq asmalıdır. Dinləyərkən ala bilmədiyi, başa düşmədiyi, anlamadığı məsələlərə dair müdərrisə sual verməkdən çəkinməməlidir.

4. Tələbələr keçən dərsi başa düşmədən, mənimsəmədən yeni dərsə başlamamalıdır.

5. Tələbələr yalnız elm təhsili ilə kifayətlənməyib, eyni zamanda, əxlaq təmizliyinə və doğruçuluğa da diqqət verməlidirlər (29,46).

Mədrəsə tələbələri üçün göstərilən qaydalar, bu gün də ali məktəb tələbələrimiz üçün faydalı və aktual hesab edilə bilər.

Orta əsr qaynaqlarına söykənərək akademik Ziya Bünyadov «Azərbaycan Atabəylər dövləti» kitabında yazır ki, Azərbaycan Atabəyləri Eldənizlər dövlətinə daxil olan şəhərlərdə mədrəsə,

məscid və sarayların ükintisinə xüsusi fikir verirdilər.Mədrəsə və başqa təhsil müəssisələrinin tikintisi Atabəylər dövlətmin elm və maarifinin inki- şafma olan qayğısımn təzahürü idi(9,230). Məlumdur ki, Azərbaycan Atabəyələr dövləti təxminən 40 il Naxçıvandan - «Darül-mülk»dən idarə (Hökümət evi) olunmuşdur.Hökümət evinə gələnlər demək olar ki, hər gün mədrəsələri görmüş və heç şübhəsiz kompleksə daxil olan abidələr, məqbərələr, türbələr, məscid və camelər kimi dövlətin əsas təhsü müəssisələrindən biri kimi mədrəsələrə də qayğı ilə yanaşmışlar. Bu mədrəsələrin yetirmələri içərisindən görkəmli alimlər yetişmiş, onlar Azərbaycanm və Şərqin bir sıra elm və və mədəniyyət mərkəzlərində fəaliyyət göstərmiş, dəyərli əsərlər yazmışlar.

Naxçıvanda XIII əsrdə mədrəsələrin olması barədə konkret yazılı məlumatlar möcuddur. Farsca yazdmış bu tarixi yazılı əsər XIII əsrə aid olub müəllifi bilinməyən bir şəxs tərəfindən yazılmış «Əcaib əd-dünya» kitabıdır. Bu kitabı Naxçıvan arxivində görənlər olmuşdur. İndi bu əsər Azərbaycan Milli Elmlər Akademiyasırun Füzuli adına Əlyazmalar İnstitutunda saxlanılır (şifr-A, 253). Bu kitabda yazılır: Naxçıvan Azərbaycanda böyük və abad bir şəhərdir. Orada çoxlu şəhərətrafı yay sarayları, təntənəli eyvanlar, şəhər yaxınlığmda daşdan tikilmiş qalanm, qala içərisində bişmiş kərpicdən və gəcdən məscidlər, mədrəsələr vardır. Naxçıvan qəbristamnda olan qədər imarət, məscid- lər və mədrəsələr heç bir kənd və şəhərdə yoxdur. (128, v.226, 227).

XIII əsrin ikinci yarısında Nəsirəddin Tusinin yaratdığı Marağa rəsədxanası buradakı mədrəsə Şərqin ən mühüm elm və tədris mərkəzi olmuşdur.Buranın zəngin kitabxanası olmuşdur ki, Bağdad, Şam, Musel və Xorasanda olan ən qiymətli kitablar Marağa kitabxanasına köçürülmüşdür. Burada Çindən, Hindistandan gəlmiş böyük alimlər çalışmışlar. Tusinin özü də Marağa mədrəsələrinin müəllimi kimi qiymətli elmi mühazirələr söyləmiş, onun yanına təhsil almaq üçün müxtəlif yerlərdən müdavimlər gəlmişdir ki, onların içərisində, görkəmli şair, söz ustası Hümam Təbrizi də (vəf.1314) olmuşdur. Səyyah Şardən Marağa elm ocağmın nümunəsində təşkil edilmiş bəzi mədrəsələri «Akademiya»

adlandırmış və yazmışdır: «Uzun illər tatar imperiyasının bütün akademiyalarımn rəhbərliyi Nəsirəddin Tusinin öhdəsinə qoyulmuşdu» (33,21). Buradanbelə deyə bilərik ki, Azərbaycanda elmlər akademiyanm təməli Tusinin adı ilə bağlıdır.

XIII əsrin axırlarmda Azərbaycanda Məhəmməd Qazan xan hakimiyyəti (1295-1304) olmuşdur. Qazan xan ölkəni dirçəltəmək və inkişaf etdirmək üçün ilk növbədə elmə, maarif və mədəniyyətə xüsusi diqqət və əhəmiyyət verdi. Ozünə baş vəzir dövrün böyük alimi azərbaycanlı Fəzlullah Rəşidəddini (1248-1318) təyin etdi. O Qazan xanm maarifpərvərliyi haqqmda yazırdı ki, o bir hökmdar olmaqla bərabər çox maarifpərvər, bilikli, mütərəqqi bir şəxs olmuş, elm və sənətə rəğbət göstərmiş, kimyam, təbabəti, əczaçılığı, ərəb, fars, hind dillərini bilmişdir (20,381). Qazan xanm dövründə xeyli məscid, mədrəsə, xanegah və digər xeyriyyə müəssisələri tikilmişdir. Təbriz yaxınlığmda Şam (Şənb) adlanan yerdə XIV əsrdə Qazan xanın təşəbbüsü ilə tikilmiş məktəb və mədrəsələri, uşaqbağçasmı, rəsədxana, kitabxana, xəstəxananı, təsərrüfat müəssisələrini özündə cəmləşdirən «Əbvab-əl-Bərr» («Xoşbəxtlik qapısı») adı üə böyük elm -tədris mərkəzi, təhsil şəhərciyi yaradılmışdı, ki, buna «Rəşidəddin şəhristanı» da(«Rəb'e Rəşidi») deyilmişdi. Professor Əsəd Yəqubi buradakı məktəb və mədrəsələr haqqmda geniş tədqiqat işləri aparmış və dəyərli məlumatlar vemişdir. O qeyd edir ki, «Rəb[N]e Rəşidi»də «Şafe)ryə» və «Hənəfiyyə» mədrəsələri var idi ki, burada 450-dən çox müəllim 7000 tələbənin təhsili ilə məşğul olurdu. Bu mədrəsələrdə təlim məşğələləri və tərbiyə işləri Şafeyyə və Hənəfiyyə dini cərəyanlarma uyğun olaraq özlərinə məxsus metod və prinsiplərlə aparlırdı. Hər bir mədrəsənin ayrı-ayrı müdərrisləri, müəyyidləri (müdərrisin müavini), tələbələri, xidmətçiləri var idi. Burada elm və tədris işləri üzrə vəzifə tutanlar dövrün ən tanınmış alimləri idilər ki, onlara yüksək maaş verilir, onlar orada yaşayır və ciddi zərurət olmadan mədrəsəni tərk edə bilməzdilər. Ciddi nizam-intizam var idi. Heç bir səbəb dərs buraxılmasma əsas ola bilməzdi.Bu mədrəsəyə Çindən, Hindistandan, Türküstandan, ərəb ölkələrindən də müəllim və alimlər də gəlirdilər. Məhz bü dövrdə Rəşidəddinin məşhur «Came ət-təvarix» əsəri də yazümışdır.

Buradakı mədrəsə binaları, məqbərə çox möhtəşəm və əzəməüi idi. Buradakı məqbərəni və mədrəsələri görənlər deyirlər ki, burada 15 batman ağırhğmda 80 qızd və gümüş qəndil (çÜçıraq) asümış, onun divarlanmn və tavanırun naxışlanmasına 300 batman laciverd işlənmişdir. Qış və yay fəsüləri üçün mədrəsənin ayn-ayn binalan var idi. Bu mədrəsələrin təbiətşünaslıq, fəlsəfə, məntiq, nücum, üahiyyat, tarix, tibb şöbələri var idi. Tələbələr mədrəsəyə qəbul olunarkən onlarm bilikləri ciddi yoxlandır və onlarm bilik səviyyələrinə uyğun, maraq və meylləri nəzərə ahnaraq mədrəsənin şöbələrinə qəbul ediHrdilər. Qəbul olunmuş tələbələr və həmçinin buranın müəllimləri mənzillə təmin olunur, tələbələrə illik paltar və «sabun pulu» verihrdi. Bura təhsil almağa başqa ölkələrdən tələbələr də gəlirdilər ki, onlann təhsüi üçiin hərtərəfli şərait və imkan yaradıhrdı.

Mədrəsədə məktəbəqədər və məktəb təhsili üzrə də işlər aparılmışdır. Belə ki, mədrəsənin nəzdində ibtidai təhsil verən məktəblər də var idi ki, buranın 100 nəfər şagirdi var idi. Bu 100 nəfər şagirdlə 5 müəllim, 5 tərbiyəçi, 5 qadın xidmətçi məşğul olurdu. Demək hər 20 nəfər şagirdlə bir müəllim, bir tərbiyəçi və bir xidmətçi məşğul olurdu (78,91,).

Ə. Yəqubi kitabında məlumat verərək yazır ki, «Rəb"e Rəşidi» şəhərciyində 24 böyük karvansara, 1500 dükan, 30.000- yaşayış evi, habelə xeyli ictimai, dini və ticarət birıaları olmuşdur.Burada küçələr, məhəllələr peşələrə görə ayrılmışlar. Məsələn «Alimlər küçəsi»ndə 400 nəfər alim, «Tələbələr» məhəlləsində 1000 tələbə yaşamışdır. Həkimlər, tibb işləri ilə məşğul olanlar məhəlləsinə «Moaliceyi moalican», ruhanilər yaşayan məhəlləyə isə «Məhəlleyi saleheyyə» deyilmişdir (78,89). Sonralar bu şəhərcik Qazan xanın oğlu Qiyasəddin tərəfindən daha da genişləndirilmişdir. Təbrizdə Şamqazanda tikilmiş bu məktəb və mədrəsələri görmüş, buradakı, qübbə və tikiləliəri böyük heyranlıqla seyr etmiş tarixçi alim, şair Əhməd İbn Məhəmməd Təbrizinin (XlVəsr) şeirindən buranm əzəmətini biz də görə bilirik:

*İndi göstərişilə böyük Xacə Rəşidin, Bir dastan açacağam mən maraqlı, eşidin. Təbrizin Şam şəhrində o, bir qübbə tikdirdi, Nə Kəsra, nə Pərvizin qübbəsi belə idi. Minlərlə qızıl, gümüş qul ona sərf etmişdir, Bu gözəl bina göyə boy atıb yüksəlmişdir. Bu bina tək dünyada bir bina tikilmədi Fələyin künbəzindən belə fərqlənmədi Səma öz ulduzları gözüylə indiyədək, Hələ görməmiş yerdə möhkəm bina bunun tək. Orada işlənmişdir, minlərlə daş, taxtalar, Bir-birə bağlamışlar məharətli ustalar. Yenilməz bina tikib, onu əbədi etmiş, Cürbəcür sənətkarlıq, incəlik işlətmiş. Üç yüz min qol-budaqlı ağac əkildi onda, Sıra ilə ucalmış yolların kənarında (53,141).*

Artiq XIII əsrin sonları və XIV əsrin əvvəllərində Azərbaycanm bir çox yerlərində mədrəsələrin şəbəkəsi xeyli genişlənmişdi. Məsələn, Bakıda 1301-ci üdə Cümə məscidinin nəzdində və bu məscidin «vəqfi» ilə böyük bir mədrəsə tikilib fəaliyyət göstərmişdir.

Bütürı bunlar bir daha onu göstərir ki, arüq bu dövrdə Azərbaycan elm, maarif, mədəniyyət mərkəzi kimi xeyli inkişaf etmişdi.

Ümumivyətlə mədrəsə təhsilindən danışarkən onun Şərqdə ilk varanma tarixinə də nəzər vetirək. Qeyd edək ki, mədrəsələrin təşəkkül tapması, dövlət tərəfindən qurulması və dəstək görməsi X əsrdə Qaraxanldar dövründə olmuşdur. Arslan Qazi Tafqaç xan (1035) Mərvdə (Türküstan) bir mədrəsə tikdirmişdir. Bundan əlavə X əsrdə Türküstarun Nişabur şəhərlərində «Beyhəqiyyə» (935), «Sədiyyə»(998) mədrəsələri də açdmışdı. Qaznəli Mahmudım (m.ö. 999-1030) qardaşı Nasir bin Sebüktəkin də Qaznədə 1033-cü mədrəsə yaratmışdı.

« M ə d r ə s ə » ( ) ərəbcə «Dərasə» ( 4-Jjj ) sözündən əmələ gəlib «Dərs öyrənilən yer» mənasını verir. Mədrəsədə dərs deyənlərə «müdərris» deyirdilər. Müdərris bizim indiki ali məktəblərimizdə

dərs deyən dosent, professor vəzifəsini əvəz edirdi. Mədrəsədə ikinci şəxs «muid» adlamr. O mədrəsə tələbələrinin biliklərini təkrar etdirir, ev tapşırıqlarının yerinə yetirilməsinə kömək edir, əlavə məşğələlər aparırdı. Mədrəsədə üçüncü şəxs «vaiz» adlamr. O bu günkü anlayışla tərbiyəçi vəzifəsi deməkdir.Tələbələrin tərbiyə işlərinin əsas təşkilat- çısı hesab olunurdu. Mədrəsələrin hər sinfində qrup nümayəndəsi olurdu ki, ona «xəlfə» deyilirdi.

Mədrəsələr iki dərəcədə olurdu: orta təhsil verən mədrəsələr və ali təhsil verən mədrəsələr. Ali təhsil verən mədrəsəni bitirənlər bir dini kitab yazaraq yüksək dini rütbə qazanır və bilikli, elmli adamlar kimi məzun olurdular.

Mədrəsələrdə konkret təhsil müddəti yox idi. Tələbələrin dərsi mənimsəmə səviyyəsindən asdı olaraq təhsil müddəti müxtəlif idi. Azərbaycan təhsilinin qurucularından biri, məktəb tariximizin görkəmli tədqiqatçısı, akademik M.Mehdizadə yazırdı: «Məktəb və mədrəsələrdə uşağa yad olan ərəb dilində dini kitablar əzbərlədilirdi. Mollaxanalarda təhsil müddəti 5-7, mədrəsələrdə isə 10-15 il sürürdü»(54,65). Mədrəsələrdə tələbələrin fərdi qabiliyyəti, bilik və dünyagörüş səviyyəsi əsas götürülür və buna müvafiq də təlim metodu seçilirdi. Mədrəsələrdə tələbələrin sinifdən-sinfə keçməsi yerinə, fəndən-fənnə keçmə sistemi tətbiq olımurdu. Çalışqan, bilikli, fəal tələbələr mədrəsəni başqa həmyaşıdlarma nisbətən daha tez başa vura bilərdi. Tələbələrin tətili qış və yayda deyil, tələbənin çalışqanlığı, materialları yerinə yetirməsi ilə bağlı həyata keçirilirdi. Mədrəsə siniflərində tələbələrin sayı 20-dən artiq ola bilməzdi. Bu da dərslərin daha yaxşı mənimsənilməsinə kömək edirdi. Mədrəsələrdə hər gün beş saat, həftədə 4 gün dərs keçilirdi. Dərslər sübh namazından sonra başlanar, günortaya qədər davam edirdi. Hansı dərsin nə vaxt öyrədilməsini də müəllim özü seçirdi. Günortadan sonra tələbələr sərbəst idi, sevimli işləri ilə məşğul ola bilirdilər. Həftənin çərşənbə axşamı, cümə axşamı, cümə günləri tələbələrə istirahət verilirdi.

Orta təhsil verən mədrəsələrə əsasən 11-12, ali təhsil verən mədrəsələrə isə 16-17 yaşlarmdan qəbul edilirdilər. Təhsilin ilk mərhələsində ərəb dilinin qrammatikası öyrədilirdi. Buna

yiyələnmək üçün azı 2-3 il vaxt ayrılırdı. Qədim Şərq ənənələrini özünəməxsus şəkildə davam etdirən mədrəsələrdə humanitar və dəqiq elmlər öyrədüirdi. Burada tarix, məntiq, dilçilik, ədəbiyyatşünaslıq, ədəbiyyat tarixi, ritorika, riyaziyyat, astronomiya kimi dünyəvi elmlər «Quran», «Təfsir» (Quranm açıqlanması), «Hədis», (Peyğəmbərin (səs) sözləri və onunla bağlı hekayə və rəvayətlər), «Təcvid» (Quranın düzgün oxunması), «Təftil» (Quran mənasınm başa düşülməsi), fiqh, ilahiyyat elmləri öyrədilirdi. Mədrəsələrdə dərs kitabı kimi «Quran» və hədis kitablarıdan başqa ən çox istifadə edilən kitablar Biruninin, İbn Sinamn, Ibn Rüşdün, Farabinin, Sədi Şirazinin, Şihabəddin Sührəver- dinin daha sonralar, Ruminin «Məsnəvi»si, Füzulinin «Divan»ı kimi əsərləri, «Kəlilə və Dimnə», «Qabusnamə» kimi əxlaqi-mənəvi dəyərli əsərlər olmuşdur. Mədrəsələrdə yalnız din və dünyəvi elmlər deyil, həm də bədən tərbiyəsi dərsləri keçilirdi. Mədrəsədə üzmə, güləş, qaçış, ox atma, at çapma kimi idman növlərinə fikir verilir və öyrədilirdi. Bunlardan başqa, hüsnxət, xitabət (Gözəl danışıq), bədii estetik fəaliyyətlə bağlı dərslər öyrədilirdi.Tələbələrə imla yazdırmaq, onların mətni oxuyub şərhini və izahmı vermək, elmi mübahisə və müzakirələr aparmaq tədrisdə geniş yayılmış öyrətmə metodları idi. Tələbələrin biliklərini yoxlamaq üçün imtahanlar da keçirilirmiş.

Islamıiyyətin geniş yayılması Yunanıstan, Roma, Hindistan, eləcə də Yaxm Şərq xalqlarmın mədəniyyətini bir-birinə yaxmlaşdırdı. Bu vəziyyət daha çox mütərəqqi islam alimlərinin gərgin fəaliyyəti ilə meydana gəldi. Bu zaman başqa millətlərə, xalqlara qarşı ərəb hegemonluğu zəiflədildi. Bu dövrdə islam alimləri də bir-birinə qarşı duran iki cəbhəyə ayrdddar: l.Əshabe hədis - bunlar öz tədris və tədqiqatlarmda hədis və rəvayətlərə üstünlük verir, onlara əsəaslanırddar; 2.Əshabe rəy - bunlar isə əql və məntiqi əsas götürürdülər. Elə bu ayrdıq baxımından da tslam təlimində, maarif işlərində elmlər də iki əsas qrupa bölündü: l.Ulume - mənqul- (dini elmlər); 2.Ulume məqul -(dünyəvi və qismən də dini elmlər). Bu hadisələr təhsilin məzmununa da, tədris üsullarına da öz qüvvətli təsirini göstərirdi. IX-X əsrlərdən başlayaraq təhsil dini çərçivədən müəyyən qədər kənara çıxaraq bir sıra dünyəvi elmləri də özündə

cəmləşdirdi. Bu vəziyyət Azərbaycanda və Orta Asiyada daha geniş və qabarıq şəkildə özünü göstərirdi. Belə ki, təhsilin məzmununa kimya, riyaziyyat, həndəsə, təbabət, coğrafiya, nücum (astronomiya), fəlsəfə salınmışdı. Bu fənlərin alimləri də öz dərsliklərini yazıb, öyrənənlərə çatdırırddar.

Bu prosesin genişlənməsi nəticəsi olaraq mədrəsələrdə tədrisin məzmununu nizamlamaq üçün tədris plan və proqramlarmı, tədris vəsaitlərini hazırlamaq və təkmilləşdirmək üçün və xüsusilə təbiət elmlərini, fəlsəfəni mədrəsə proqramlarına daxil etmək üçün Bəsrə şəhərində X əsrdə «Exvan os-səfa» («Səfa əhli», «Təmizlik qardaşlan») adlanan alimlər cəmiyyəti yaraddmışdı. «Səfa əhli» cəmiyyətinə azərbaycanlı alim Əbdülhəsən Ibn Harun əz-Zəncani başçılıq edir, cəmiyyətin üzvləri isə əl-Müqəddəsi, Əbu Əhməd və başqaları kimi dövrün böyük alimləri idilər. Bu cəmiyyət əsas etibarilə dəqiq elmləri geniş yaymaqla məşğul idilər. Bu cəmiyyətin fikrincə məktəb və mədrəsələrdə təhsil Quran təlimi ilə deyil, hesab təlimi ilə başlamalıdır. Cəmiyyətin üzvləri deiyrdilər ki, hesab bütün elmlərin anasıdır. Şagird hesab elmini bilməzsə, heç bir elmi başa düşməz. Cəmiyyət üzvləri həmçinin qədim yunan fəlsəfəsinin geniş yayd- masmı istəyir və bu fəlsəfənin şəriətlə birləşdirilməsinə çalışırdılar. Yunan fəlsəfəsinin və dəqiq elmlərin yaylımasına qarşı bir çox yerlərdə etirazlara baxmayaraq Şərq ölkələrində, Azərbaycan şəhərlərində mütərəqqi ziyahların və «Səfa əhli» cəmiyyətinin fəaliyyəti ilə qədim yunan filosoflarımn əsərləri tərcümə edilir, geniş yaydır, öyrənilir və dəqiq elmlərin də tədrisi məktəblərdə genişlənirdi. İslam maarifində yaranmış olan bu kimi təşəbbüslər, yeniliklər, inkişaf, tərəqqi sonrakı dövrlərdə- XI-XII əsrlərdə öz təsirini daha parlaq və bariz şəkildə göstərmişdir. Belə ki, Azərbaycanm bir çox yerlərində mövcud olan xanegahlarda, təkyələrdə, zaviyələrdə, yaxud tədris evlərində, elm özəklərində də yunan fəlsəfəsi də öyrənilir, dəqiq elmlər tədris edilirdi. Azərbaycanın böyük mütəfəkkiri Əbu Həfs Şihabəddin Sührəverdi (1145-1234) Əbdülqadir əl-Cilinin (1078-1167) Azərbaycan şəhəri Marağada təşkil etdiyi tədris evində fəlsəfə, fiqh və dəqiq ebıılər üzrə mükəmməl təhsil almışdır. Azərbaycanda fəlsəfə və dəqiq elmlərin

geniş yayılması üçün bəzən dindən bir üsul, təbliğat kimi istifadə edənlər də olmuşdur ki, Xaqani Şirvani belələrini tənqid edib deyirdi ki, onlar elmi «mübahisələrdə gizlətdikləri fəlsəfəni (yunan fəlsəfəsini) fiqh adlandırırlar».

O dövrdə «Səfa əhli» cəmiyyəti tədris vəsaiti kimi ensiklopediya yaratmışdılar və mədrəsələrdə tədris üçün 51 hissədən ibarət risalə tərtib etmişdilər ki, bu kitablar və risalələr Şərqdə və o cümlədən Azərbaycanda geniş yayılmışdı. Mədrəsə təhsil sistemini təkmilləşdirmək üçün tərtib edilmiş risalə 4 pilləli idi. Birinci pillə «Giriş kursu və məntiq» adlanırdı. Bu pillədə 1-13-cü risalələr təlim olunurdu. Burada elementar riyaziyyat vasitəsilə tələbələr məntiqi təfəkkürə hazırlanır, natural ədədlər, kəsirlər, ədədlər üzərində 4 hesab əməli öyrənirdilər. Məntiqi təfəkkürə alışan şagirdlər sonra Evklid həndəsəsini, astronomiya və coğrafiya fənlərinin təliminə keçirdilər. Sonra musiqi nəzəriyyəsi və riyazi nisbətlər öyrənilirdi. Daha sonra fəlsəfə və məntiq, «İlk analitik həndəsə» və «Germenevtika» öyrədilirdi. («Germenevtika» fikri ifadəli dillə başqalarına çatdırmaq haqqmda elmdir).

İkinci pillədə 14-30-cu risalələr tədris edilirdi. Müəllimlər tələbələrə idrakm zəruri vasitələrini, təbiət elmləri və fizikanı öyrədirdilər. Səma və yer; zaman və hərəkət; Metereologiya(fəzada baş verən hadisələr) və minereologiya (dörd ünsür) fənləri tədris edilirdi.Bu fənlərdən sonra «canlı aləm» (botanika və zoologiya), «İnsanlarla heyvanm müqayisəsi» və «Nöqsanları olan insan» fənni tədris edilirdi. 22-30-cu risalələrdə - insanın bədəninin quruluşu (anatomiya), qavrayış orqanları və onların obyektləri (psixologiya), Astrologiya ilə əlaqədar embriologiya (atomlar aləmi) və insan haqqmda elmi biliklər təlim edilirdi. Tələbələr fəlsəfəni başa vurduqdan sonra onlar neoplatonizm ilə tamş olub emanasiyamn (şüalanmanm) varlıq-idrak-ruh-materiya- fiziki aləm təzahürlərini öyrənirdilər. X-XI əsr mədrəsələrində həyat və ölüm, zövq almaq, nəfsi idarə və tərbiyə etmək, əzab-əziyyətə dözüm, dillərin oxşarlığı və fərqləri kimi fənlər də tədris edilirdi. Mədrəsələrdə tədris və təhsilin əsas səciyyəsi yaxşdıq, ədalət, ayrdığa və dərdə dözüm,

dəqiq hiss etmə, inkişaf etmiş təfəkkür, görülmüş yaxşı işdən zövq almaq kimi insani keyfiyyətləri gənclərə aşdamaq idi.

Risalənin üçüncü pilləsi 31-40-cı risalələrdir ki,burada insan şəxsiyyətinin formalaşmasına təsir göstərən «Gözəl qəlb haqqında təlim»ə başlandır.Sonra «Ruhdan və candan ibarət olan» aləmin emonasiyası, makrokosmos, ruha qayıdış, məhəbbətin mahiyyəti və nəfs haqqında biliklər genişləndirilirdi.Insan şəxsiyyətinin bu yüksək xasiyyətləri təhlil olunandan sonra «Ədədlər nəzəriyyəsi», «Planet və ulduzlarm dairəvi hərəkətiəri», «Ətrafda düzgün səmtləşmə» fənləri öyrədilirdi. Artıq üçüncü pillədə tələbələr elmli, savadlı, dünyagörüşlü, əxlaqlı bir şəxs kimi formalaşırddar.

Risalənin dördüncü pilləsi ilahiyyat elmlərinə ( 41-51-ci risalələr) həsr edilmişdi. Burada şəriət, fiqh, Allaha doğru düzgün yol, insamn normal və sağlam həyat tərzi, təmizliyə və sevgiyə ilahi çağırış, islam və peyğəmbərlik, insan mənəviyyatı və ona təsir edən müsbət, mənfi amillər, habelə mühüm bir fənn kimi «Dövləti idarəetmənin müxtəlif yolları və növləri» kimi fənlər əsas yer tuturdu. Qadınlann da mədrəsə təhsilinə diqqət verilirdi.

Erkən orta əsrlər dövründə fəlsəfə və dəqiq elmlərin öyrənilməsi və bu sahədə alimlərin elmi -nəzəri, pedaqoji fəaliyyəti üçün bir çox mədrəsələrin nəzdində «Dar oş şəfa və həkimlik», «Rəsədxana və münəccimlik» kimi bölmələr də yaraddırdı. O dövrün mədrəsələri, elm, tədris ocaqları insanlara hərtərəfli, geniş və dərin biliklər verirdi. Haqlı olaraq bir çox səyyahlar belə tədris müəssisələrini öz səya- hətnamələrində bir akademiya, kollec, universitet adlandırmışlar. Azərbaycam gəzmiş böyük səyyah Jan Şarden Azərbaycan mədrəsə- lərində tibb və nücum elmlərinin təhsilinə böyük rəğbət göstərildiyini qeyd etmişdir: «Burada təhsil sərf-nəhvlə başlayır, ilahiyyat-fəlsəfə istiqamətində davam edir, sonra riyazijryat sahələri öyrənilir, nəhayət tibb, yaxud nücum elminə yiyələnməklə başa çaür»(33, 86).

Bu dövrdə Xeyriyyə mədrəsələri də var idi ki, belə mədrəsələr dövlət başçılarının bilavasitə himayəsi alünda idi. Bu mədərəsələrin nəzdində də «Dar oş şəfa»(«Şəfa mərkəzləri»), rəsədxanalar, kitab- xanalar fəaliyyət göstərirdi. Dövrün böyük alimləri belə xeyriyyə

mərkəzlərində fəlsəfə və dəqiq elmlərin mütaliəsinə tədqiqinə və tədrisinə də imkan yaradırdılar.

Məlum olduğu kimi Nəsirəddin Tusirdn sonralar yaratdığı və uztın illər rəhbərlik etdiyi Marağa rəsədxanası riyaziyyat, astronomiya, fəlsəfə və bir çox digər bilik sahələri üzrə dövrünün tanınmış alimlərinin elmi və pedaqoji fəaliyyətlərini birləşdirən nümunəvi tədris və elm ocaqlarından biri olmuşdur. Dünyanm bir çox ölkə- lərindən bu rəsədxanada çalışmağa, təcrübələr aparmağa gəlmişlər. Marağa rəsədxanasını Azərbaycanın ilk akademiyası adlandırmaq olar.

Erkən orta əsrlər dövründə Şərqdə və o cümlədən Azərbaycanın müxtəlif yerlərində ixtisas təmayüllü mədrəsələr də açılmağa başladı.

*Darül hədis mədrəsələri:* Bu, hədisləri öyrənən, toplayan, tədqiq edən bir mədrəsə idi. Belə bir mədrəsə Mosulda, daha sonralar Təbrizdə açılmışdır. Buranı bitirənlərə «mühəddis» deyilirdi.

*Darül kurra mədrəsəsi.* Bu mədrəsədə «Qurani-Kərim»lə bağlı elmlər öyrədilirdi. Bunlara «Darül hüffaz» da deyilirdi. Buranı bitirənlər «Hafiz», «Xətib» «Müəzzin» kimi adlar verilir və məzunlar məscid və camilərdə müxtəlif vəzifələrdə çalışa bilirdilər.

*Darül tibb mədrəsələri.* Bu, tibb mədrəsələri idi. Bunlara Darül-şəfa, Darül-sihha, Darül-mərza, Darül-afiyə, Maristan, Bimaristan mədrəsə- ləri də deyilmişdir. Bunlar Azərbaycanm böyük şəhərlərində yaranıb fəaliyyət göstərmişdir. Fəzlullah Rəşidəddinin (1247-1318) oğlu Sədəddinə yazdığı məktubda göstərir ki, Təbriz Rəb'e Rəşidi məd- rəsəsi «Daroşşəfa» adı ilə fəaliyyət göstərirdi. C.Zeydan yazır ki, «Dar ol Şəfa»larda tibb və fəlsəfə tədris edilirdi» (132,308). «Rəb i Rəşidi» təhsil mərkəzində təhsil müddəti 5 il olan xəstəxana fəaliyyət göstərmişdir. Burada göz həkimləri, sınıqçılar, cərrahlar- 50-yə yaxm həkim çalışmış, 500-dən artıq tələbə təhsil almış və praktik məşğələ keçmişlər.

Böyük Azərbaycan şairi Xaqaninin əmisi Kafiəddin Omər Ibn Osmanın rəhbərliyi ilə XII əsrdə Şamaxı yaxınlığmda Məlhəm adlı bir yerdə «Mədreseyi -tibb» adlı ali təhsil verən mədrəsə də fəaliyyət göstərmişdir

Dövrün yaranmış olan mədrəsələrində dərs demiş azərbaycanlı alimlərin adlarına rast gəlmək olur: İməd əd-Din Əbu Məhəmməd Yunis Ibn Məhəmməd əl-Marağî, (XIII əsr), Fəxrəddin Əbül Qasım Əli Ibn Təmmim Ibn Xələf ən-Nəsibi ən-Naxçıvani (XIII əsr), Qütb əd-Din Əbül Fəzl Əbd-ər Rəhmən İbn Kamal əl-Atiqi ət-Təbrizi (XIII əsr) və başqaları.Xilafətin məşhur mədərəsələri olan «Nizamiyyə» və «Müs- tənsiriyyə» mədrəsələrində dərs verən azərbaycanlı alimlərin adlarmı isə aşağıdakı kimi sıralaya bilərik: Xətib Təbrizi (vəf.ll09),Fəxrəddin Əbülfəzl İsmail Ibn əl-Müsənnə (vəf.1185), Tacəddin Əbülfəzl Məhəmməd əl-Hüseyn Ibn Abdulla Urməvi (vəf. 1225), Əbülmənaqib Mahmud İbn Əhməd Zəncani (vəf. 1248) və başqalarmı da göstərmək olar.

Şərqdə o cümlədən Azərbaycanda təhsilin, maarif və mədəniyyətin inkişafmda XI əsrdə açılmış «Nizamiyyə» mədrəsələrinin isə xüsüsi əhəmiyyəti olmuşdur ki, bu barədə ayrıca damşmağı lazım bilirik.

**«Nizamiyyə» mədrəsələri**

Şərqdə, o cümlədən Azərbaycanda təhsilin, pedaqoji fikrin inkişafmda Nizamiyyə mədrəsələrinin böyük rolu olmuşdur. Bu mədrəsələrin əsası türk sultanı Alp Arslanın və Məlikşahm vəziri Nizam əl-Mülk tərəfindən qoyulmuşdur. Nizamiyyə mədrəsəsinin təməli 1064-cü ildə Dəclə çayı sahilndə qoyulmuş və iki ilə tamamlanmışdır. Böyük alim, mütəfəkkir Hinduşah Naxçıvaninin (1245-1328) ilk dəfə verdiyi məlumata görə Bağdadda Nizamiyyə mədrəsəsi hicri tarixinin 457-ci ilində (miladi 1066-1067) açılmiş və bu məd- rəsənin bir çox yerlərdə filialları olmuşdur.

Nizam əl-Mülk (1018-1092) tərəfindən inşa edilən onun şərəfinə adlandırılan Nizamiyyə mədrəsələri islam ölkələrində təlim birliyi, mənəvi və mədəni bütünlüyü, ölkəni idarə etmək üçün ağıllı, bilikli, tədbirli dövlət adamlarınm, din başçılarının, təfəkkür adamlarınm yetişdirilməsini təmin etmək məqsədi güdürdü. Bu səbəbdən Nizamiyyə mədrəsələrinə dövlətin ilk rəsmi müəssisəsi kimi baxmaq lazımdır. Mədrəsənin dövlət müəssisəsi sayılması üçün onun dövlət tərəfindən təsdiq edilmiş müəyyən bir proqramı olmalı idi və

mədrəsəni bitirənlərə isə dövlət tərəfindən vəzifə verilməsi lazım idi. Bu şərtləri daşımayan mədrəsələr rəsmi dövlət mədrəsəsi sayıla bilməzdi və sərbəst təlimlə məşğul olan mədrəsə sayılırdı. Nizamiyyə mədrəsələri isə məhz yuxarıda deyilən şərtlərə cavab verir və dövlət səviyyəsində olan ali təhsil müəssisəsi və ya universitet sayılırdı.

Qeyd edək ki, dövrünün çox böyük maarifpərvər vəziri Nizam əl-Mülk maarifə, təhsilə, insanların tərəqqisinə, dövlətin abadlıq və quruculuq işlərinə böyük fikir verən mütərəqqi bir şəxs olmuşdu. O 30 il (1063-1092) Səlcuq dövlətinin bacarıqlı, tədbirli bir vəziri olmuş, dövləti və ölkəni silah gücü ilə deyil, bilik, ağıl və mütərəqqi dövlət xadimləri və din başçıları vasitəsilə idarə etməyə üstünlük vermişdi. O bu işləri təşkil edib, hazırlamaq üçün elm ocaqlarının açılmasma xeyli vəsait ayırırdı. «Bütün tarixçılər istər qədim, istər yeni, Məlikşah dövründən danışarkən söhbət ən çox sultandan deyil, onun vəzirindən gedirdi. Hər şey onun adı ilə bağlanırdx, şəninə şeirlər yazılxr, təriflər yağdxrxlxr, misilsiz vəzir adlandxrxlxrdx. Hətta Bağdadda oturan Islam dünyasxmn xəlifəsi Müqtədi Nizam əl-Mülkə «Əmir əl- mömin» adxm vermişdi. Islamm zühurundan sonra vəzirlərdən heç kəsə «Əmir əl-mömin» adx verilməmişdi»(58,15,17,).

Dahi şairimiz Nizami Gəncəvi «Yeddi gözəl» əsərində Nizam əl-Mülkü tərif edərək belə demişdir:«Adz *Məlik-şah olan padşahın isə/ Nizamülmülk kimi dinpərvər xacəsi vardı».* «Təzkireyi-Devletşah» əsərində maraqlx bir fakt da diqqətimizi cəlb edir. Bu təzkirədə yazılır: «Şeyx Nizami gəncliyində Xəmsədən öncə Veys və Ramin dastanmı, sultan Mahmud bin Məhəmməd Məlikşah adına nəzm etmişdir. Bəziləri bu mənzumənin Nizami Anızinin olduğunu söyləyirlər. Şeyx Nizaminin olması daha doğrudur...Çünki bu Şeyx Nizaminin dövıünə daha yaxındır» (84,214) Görkəmli maarifpərvər, mütəfəkkir A. A. Bakıxanov Nizam əl-Mülkün fəaliyyətinə yüksək qiymət verərək yazırdı ki, «bu dövrdə ölkənin abadlığı və millətin asayişi tam mənasmda bərqərar olmuş və Nizam əl-Mülk kimi misilsiz vəzir, ixtiyar sahibi var idi» (7,167).

Nizam əl-Mülk Həsən bin Əli-böyük hökmdar Alp Arslanm (hökmdarlıq dövrü 1063-1072) və onun oğlu Məlik şahın (hökmdarlıq dövrü 1072-1092) vəziri olmuşdur. Alp Arslan dövründə Səlcuq dövlətinin sərhədləri xeyli genişlənmiş və Azərbaycanı da öz əhatəsinə almışdı. Əgər Alp Arslanın əmisi Toğrul bəy dövründə Səlcuq dövləti Amu-Dəryadan Fərat çayma qədər uzanırdısa, Alp Arslan dövründə o daha da genişlənmiş,Azərbaycan, Suriya, Fələstinə qədər gəlib çıxmışdı. İstər Alp Arslan, istərsə də Məlikşah dövründə dövlətin qüdrətlənməsində, genişlənməsində, ordunun, qüvvətlən- məsinin də, elm və mədəniyyətin yüksəlməsində Nizam əl-Mülkün müstəsna dərəcədə rolu olmuşdur. Bu dövrlərdə mübaliğə etmədən demək olar ki, dövləti sultanlar deyil, Nizam əl-Mülk idarə edirdi. Nizam əl-Mülkün dövləti idarə etmək haqqında Bakıda nəşr olunmuş «Siyasətnamə» əsəri (58) Səlcuqlann dövründənbəhs edən ən mötəbər əsər sayılır. Bu əsər Balasaqunlu Yusif Xas Hacibin «Qutatqu Bilik» (Xoşbəxtliyə aparan elm») və Ədib Əhməd Yüknəkinin «Atabətül- Həqayiq» («Həqiqətiərin astanasmda», «Qədim türk abidələrinə aid materiallar» (Tərtibçi prof. Nizami Xudiyev) (41) əsərləri ilə müqayisə edilə bilər. «Siyasətnamə» əsəri 1989-cu ildə Azərbaycan dilinə tərcümə edilmiş və orada Nizam əl-Mülk haqqında geniş məlumat verilmişdir. Nizam əl-Mülk Səlcuq dövlətinin vəziri olduğu vaxt Azərbaycan da həmin dövlətin tərkibinə daxil olmuşdur. Bıma görə də «Siyasətnamə» XI əsr Azərbaycan tarixini, mədəniyyətini öyrənmək baxımından əhəmiyyətlidir. Nizam əl-Mülk hicri ilinin 408-ci ilində (miladi 1018) Zülqədə ayının 21-də, cümə günü Tus şəhərində doğulmuşdur. O son dərəcə istedad və bacarığa malik olmuş, gənc yaşlarmdan divan işlərinə həvəs göstərmiş, şəriət qanunlarrnı hədis və rəvayətləri əzbərləmiş, katiblik, dəbirlik sənətlərinə məharətlə yiyələnmişdir.

Nizam əl-Mülk gənclik çağlarında Bəlxin əmiri Əli bin Şazanm xidmətində katiblik etmişdir. Əli bin Şazan hər il ona vəzirlik təklif etsə də o bundan qaçmışdır. O sultan Alp Arslamn atası Davud bin Mikayıl əs Səlcuqun yanına getmişdir. Davud ona nəsihət və bəxşişlər vermiş və oğlu Alp Arslana təslim edərək demişdir:

«Bunun bir ata kimi həmişə sözlərini eşidəcək və heç bir şeyə müxalif etmə- yəçəksən»(85, 79).

Alp Arslan səltənət taxtma çıxarkən atasımn məsləhəti ilə Nizam əl-Mülkü özünə vəzir təyin etmişdir. O vəzirlik vəzifəsini ən yaxşı şəkildə yerinə yetirərək, üstün qüvvətini və əvəzsiz qabiliyyətini nümayiş etdirmişdir. O siyasətdəki uğurları ilə bərabər, müharibə meydamnda da ustalıq və şücaət göstərmişdir. Bunu istər Alp Arslan zamanında istərsə də onun oğlu gənc Məlik şah zamanmda da isbat etdi və böyük zəfərlər qazandı.

Sultan Alp Arslan 465/1072-ci ildə bir sui qəsd nəticəsində öldürüldükdən sonra 18 yaşlı oğlu Məlik şahm taxta oturulmasmda Nizam əl-Mülkün böyük rolu olmuş və özü də Məlik şaha vəzirlik etmişdir. Məlik şah da ona həmişə-«Atam yerindəsən»-demiş, sonsuz etimad bəsləmiş, hətta Nizam əl-Mülkün vətəni Tusun vergilərini ona bağışlamış və ona Atabəy ünvanmı vermişdi. Ozü mütərəqqi bir insan olmuş, elmə, sənətə, rəğbət bəsləmiş, xalqm böyük hörmətini qazanmışdır. Bir mənbədə maraqlı bir fakt göstərilir ki, Novruz bayramının dövlət səviyyəsində keçirilməsi də ilk dəfə Məlik şah tərəfindən rəsmiləşdirilmişdir (35,5).

Nizam əl-Mülk xalq arasmda böyük hörmət və nüfuza malik olmuş, dövrün alim və mütəfəkkirləri ona mədhiyyələr yazmış, şeirlər qoşmuşlar. Xətibi Hüseyn İbn Həsən Urməvi (V-XI) (462/ 1069) Azərbaycan ziyalılarından olmuş, o 462 (1069)-ci ildə Vəzir Nizam əl- Mülk Əşnəviyyədə düşərgə etdiyi zaman ona bir qəsidə yazmışdır:

*Nizam əl-Mülk olmasa, olmaz şərəfulduzu,*
*Zülmət getdi, ağardı indi şəriət üzü (53,78).*

Nizam əl-Mülk çox yönlu qabiliyyəti nəticəsində bir çox dövlət islahatları keçirdi, dövlətin elmlə, biliklə idarə olunmasına dair məşhur «Siyasətnamə» əsərini yazdı, xalqı çapıb-talayan vergiləri azaltdı, milləti maarifləndirmək üçün məktəb və mədrəsələr məscidlər açdı, təriqətçi dinçilər arasında məzhəblər arasındakı

ixtilaflara son qoydu və saray ixtilafları, münaqişələri üzündən 485/1092-ci ildə bir sui-qəsd nəticəsində öldürüldü.

Mədrəsə tarixində Nizam əl-Mülkün qurduğu Nizamiyyə mədrəsəsi pedaqoji fikir tariximizdə mühüm yer tutmaqdadır. Şərqdə, o cümlədən Azərbaycanda təhsilin inkişafında bu mədrəsələrin rolu böyük olmuşdur.

Nizamiyyə mədrəsəsi 459-cu il zulqədə ayımn 10-da (22 sentyabr 1067-ci il) tamamlanmış və təntənəli şəkildə açdmışdır.

Nizamiyyə mədrəsəsinin tədris proqramlarmda həm dini elmlər, həm də dünyəvi elmlər özünə yer tutmuşdu. Təlim burada ərəbcə idi. Nizamiyyə mədrəsəsinin tədris planında öyrədilən elmlər üç yerə bölünürdü:

1) Ali elmlər (hədis, fikh (islam hüququ), kəlam, təfsir;

2) Təbiət elmləri (riyaziyyat, həndəsə, hesab, coğrafiya, kimya, tibb, cərrahiyyə, nücum (astronomiya), nəbatat;

3) Düşüncəyə dayanan elmlər (fəlsəfə, məntiq, təsəwüf, tarix, dil bilgisi, ərəb ədəbiyyatı, fars ədəbiyyati, xitabət, şeir, ədəb).

Tibb dərsləri daha çox xəstəxanalarda və ya tibb təmayüllü mədrəsələrdə keçilirdi. Fəlsəfə fənninin tədrisi ilə bağlı mübahisəli fikirlər də mövcud idi.

Göstərilən fənlər üzrə dərslikləri müdərrislərin özləri yazxr, tələbələr isə onlarxn üzünü gözəl xətlə köçürür, öyrənir və yayırdılar. Bu işlər bir tərəfdən xəttatlığı da inkişaf etdirir, digər tərəfdən də əsərlərin nəsildən nəslə verilərək qorunub saxlanmasma kömək edirdi. Təlim metodu əsasən dialoqlar, sual-cavab, şərh, izah, mühazirə, elmi müzakirə və mübahisələr, əzbərləmə idi. Müəyyən bir kitabm oxunub bitirilməsi vacib idi. Bu da müəllim və tələbənin bilik və qabiliyyətlərinə əsasən dəyişilirdi. Müdərrislər dövrün ən bilikli və əxlaqlı adamlarından xüsusi imtahanla qəbul edilir və ölüncəyə qədər bu vəzifədə işləyə bilərdilər. Müdərrislər təlim metodu seçməkdə, dərsini qurmaqda sərbəst idiliər. Bir çox müəllimlər, o cümlədən X.Təbrizi tələbələrinə keçdiyi mövzuya dair əlavə kitablar və öz əlyazmasmı verirdi. Bu əlyazmalarm üzü tələbələr tərəfindən gözəl xətlə köçürülürdü. X.Təbrizinin

tələbələrindən Əl-Qunbai, Səd əl-Xeyr və başqaları X.Təbrizinin əlyazmalarının üzünü köçürmüşdür.
Həmin nüsxələr bu günə qədər Kembric Uiniversitetinin kitabxanasında saxlanılır. Müdərrislərin mədrəsədəki akademik fəaliyyətiəri çox ciddi idi. Nə səbəb olursa olsun dərsin boş keçilməsinə izn verilməz, hətta fasilə zamanları belə cənazə mərasimlərinə qatılmaq uyğun görülməzdi. Müdərrislərin elmi və əxlaqi keyfiyyətləri haqqmda bəzi mənbələrdə onlarm-bilikli, dindar, əxlaqlı, ağır təbiətli, evli, fəzilətli və müdrik olması əsas hesab olunmuşdur. Müdərrislərin «Muid» deyilən bir köməkçiləri də var idi. Onlar tələbələrə dərslərini öyrənməkdə tapşırıqları yerinə yetirməkdə tələbələrə köməklik göstərirdilər. Müid vəzifəsinə çatmaq üçün məzımun «Təməssük» adlı sənədi olmalı idi («Təməssük»-«Qiymət cədvəli») ki, bu sənəddə onun müəyyən olunmuş fənləri keçdiyi və müvəffəq qiymət alması gös- tərilirdi.

Nizamiyyəyə əsasən yaşı iyirmiyə qədər olan gəncləri imtahan-müsahibə yolu ilə qəbul edirdilər. Təhsil müddəti əsasən dörd, beş il idi. Lakin tələbələr istədikdə bu müddət qurtarandan sonra da dinləyici kimi mühazirələrdə iştirak edə bilərdi. Mədrəsəyə tutduğu ictimai mövqedən asılı olmayaraq hər kəs qəbul edilə bilərdi. Lakin bu müəyyən edilmiş normanı keçməməli idi.

Nizamiyyə dünyamn ilk universiteti kimi təkcə Avropa təhsil sisteminin inkişafxna deyil, həm də Asiya təhsil sisteminə qüvvətli təsir göstərmişdir. Tarixdə ilk dəfə idi ki, yüksək elm, təhsil, maarif məccani olaraq kütləvi şəkildə yayxlxr, təhsil qazanmaq üçün imarətlər, vəqflər yaradxlxr, dini yaymaq üçün camilər, məscidlər, zaviyələr, karvansaraylar inşa edilirdi.

Nizamiyyə mədrəsəsində təhsil alan tələbələr məccani oxuyur, onlara təhsil məqamlarxna görə xüsusi adlar verilirdi. Məsələn, «Danişmənd», «Fakih», «Mülazim», «Süxtə», «Tələbə». Tələbələr mədrəsədə kursdan-kursa keçməklə deyil, fəndən-fənnə keçməklə, biliyini artirmaqla, müəyyən edilmiş kitabları oxuyub öyrənməklə irəliləyə bilirdilər. Mədrəsəni tələbələr o zaman bitirirdilər ki, onlar keçilən fənlərin hamısını yaxşı mənimsəyir və müəllimlər onlarxn biliklərini «Kafi» hesab edirdilər. Tələbələr mədrəsədən müəyyən

edilmiş imtahanları müvəffəqiyyətlə verdikdən və bir dini kitab yazdıqdan sonra «Alim» rütbəsi qazanaraq məzun olur və məzunlara «İcazətnamə» adlı sənəd verirddər. Bu sənəddə tələbənin keçdiyi fənlər, qiymətləri və müəllimlərinin adları yazdırdı. Nizamiyyə mədrəsəsində tələbələrə təhsil müddətində təqaüd, yemək, xüsusi geyim verilir və mədrəsənin pansionunda qala bilmək hüquqü verilirdi. Mədrəsənin hamamı və təbibi də var idi.

Nizamiyyədə dərslər sadədən mürəkkəbə, asandan çətinə, ümumidən xüsusiyə prinsipi əsasmda qurulurdu. Bağdad mədrəsəsini digərlərindən ayıran əsas xüsusiyyət, tələbələrin elm, təhsil işində daha çox müstəqil çalışmalarıdır. Burada tələbələr müşahidə aparır, təcrübələr keçirir, məlumatlar toplayır, nəticələrin səbəblərini araşdınrddar. Müəllimlərə dərs üslubu seçməkdə, mühazirə oxumaqda tam sərbəstlik verilirdi. Bununla bərabər onlar ümumi pedaqoji qaydalardan və mədrəsənin ümumi qanunlarmdan kənara çıxa bilməzdilər. Müəllimlər yaimz öz ixtisasları üzrə mühazirələr oxuya bilərdilər ki, hər bir mühazirənin də müddəti iki saatdan ibarət olurdu. Onlar əksər hallarda tələbələrə öz kitablarmdan dərs verirdilər. Mədrəsənin tələbələri keçüən ixtisas üzrə müzakirələr apanr, bu sahədə müəllimlərə istənilən sualları vermək, yaxud keçilən hər hansı mövzımu yenidən aydınlaşdırmağı müəllimdən tələb etmək hüququna malik idilər. Nizamiyyənin müəllimləri də xüsusi paltar geyməli və bummla da başqalarmdan fərqlənməli idilər. Mənbələrin qeydinə görə Nizamiyyə mədrəsəsi üçün Nizam əl-Mülk ildə 600.000 dinar pul ayırırdı. Nizamiyyəyə yardım vəqfləri isə Udə 15.000 dinar vəsait ayırırdı.

Nizamiyyə mədrəsəsinin zəngin kitabxanasmda 80.000 kitabm olduğu qeyd edilməkdədir. Bu kitabxananm müdiri yuxarıda dediyimiz kimi Azərbaycan alimi Xətib Təbrizi idi. Məşhur «Tarixi Bağdad» kitabı, «Kitab-ül-Yasa» («Qanunlar kitabı») bu kitabxanada olmuşdur..

Dövrün ən böyük alimləri Nizamiyyədə dərs demək üçün bura dəvət edilmişdir. Hinduşah Naxçıvani göstərir ki, Nizamiyyə mədrəsəsi tamam olan kimi Nizam əl-Mülk Azərbaycan alimi Xətib

Təbrizini mədrəsəyə dəvət etmiş və o 40 il bu mədrəsədə dərs demiş, buramn zəngin kitabxanasımn müdiri olmuşdur.

Prof. F.Ə.Seyidov yazır: «XI əsrdə Əbu Zəkəriyyə (Xətib Təbrizi nəzərdə tutulur.R.H) adlı azərbaycanlı alim 38 yaşmda Bağdadm «Nizamiyyə» mədrəsəsində 40 il müdərris olmuş və Nizamülmülk mədrəsəsinin elmi işlərinə rəhbərlik etmişdir. Onun yazmış olduğu «Nitqin islahatı», «Qrammatikaya giriş» əsərləri «Qurana yazdığı izahat» onu dünyada şöhrətləndirmiş və ərəblər bu Azərbaycan alimini «Ərəb alimlərinin rəhbəri» adlandırmışlar»(68,102). Xətib Təbrizi 1109-cu ildə yanvarın 3-də Bağdadda vəfat edərkən Nizamiyyə mədrəsəsinin ilk müdiri Əbu Ishaq Şirazinin türbəsi yaxınlığmda dəfn edilmişdir.

Nizamiyyə mədrəsəsində dərs deyən Azərbaycan alimlərindən biri də böyük şair, mütəfəkkir Şihabəddin Əbu Həfs Ömər Məhəmməd oğlu Sührəverdi olmuşdur (1145-1235). O, 1145-ci ildə Zəncan yaxmlığmda yerləşən Azərbaycan şəhəri Sührəvərddə doğulmuş və «Sührəverdiyyə» təriqətinin əsasını qoymuşdur. Şihabəddin Sührəverdinin yeüşməsində dövrünün böyük alimi, əmisi Ziyaəddin Əbu Nəcib əs-Sührəverdinin (1078-1167) böyük rolu olmuşdur. O Əhməd Qəzzalinin və Xətib Təbrizinin müridi olmuş, bir müddət Bağdad Nizamiyyə mədrəsəsində dərs demiş, Əbu Məhəmməd Ruzbihan Şirazi (ÖĪ.1200), İsmayıl əl-Kəsri (ÖĪ.1193), Əmmar əl Bidlisi (öl. Təqr. 1200) kimi məşhur alimlər yetişdirmişdir. Onunu «Qərib əl- məsabih» («Çıraqlarm qəribəsi») və «Ədəb əl-müridin»(«Tələbənin ədəb qaydaları») adlı əsərləri məlumdur. «Ədəb əl-müridin» kitabı dövrünün o səpgidə yazılmış kitablarınm ən üstünü hesab edilmişdir. Ziyaəddin Əbu Nəcib əs-Sührəverdi- bu böyük azərbaycanh alim 1150- 1152-ci illərdə «Nizamiyyə» mədrəsəsinə uğurla rəhbərlik etimşdir. Orta əsr müəlliflərinin verdiyi məlumata görə Əbu Nəcib Sührəverdi sonralar elə böyük nüfuz qazanmışdı ki, onun hüququ hətta hakim dairələr tərəfindən toxunulmaz olmuşdur.Dövrün müəlliflərindən biri yazmışdır ki, o sultandan, xəlifədən və başqalarından qorxub ona pənah gətirənləri müdafiə etmiş, onlar təhlükədən sovuşmuşlar.

Əbu Həfs Şihabəddin Sührəverdi də öz əmisinin yolunu davam etdirərək mürşidlər üçün «Əvarif əl-məarif» («Maarif xəzinəsinin töhfələri») adlı dərslik yazmışdır. Bir mürşid, alim, siyasi xadim kimi dövrünün xəlifəsi Əbu Həfs Şihabəddin Sührəverdi üçün xüsusi Ribat (Ribat Nızam-əl Mülkün zamanmda və ondan sonrakı dövrlərlərdə bir şeyxin ətrafma toplanan yer. Müridlərin məccani olaraq yeməklə, geyimlə, gecələməklə təmin olunduğu yer, təkyə, karvansara, vəqf mənasmı verir) tikdirmiş ki, burada da zəngin kitabxana, istirahət üçün yer, bağ, hamam və s. var idi. Əbu Həfs Şihabəddirdn dərslərinə, söylədəyi mühazirələrə ölkənin hər yerindən gəlirdilər.

Əbu Həfs Şihabəddin Sührəverdi «Biliklərin töhfələri», «Ariflərin məqamları^, «Təsəvvüfə dair traktat», «Ruha dair traktat» kimi əsərlərin müəllifidir. O həmçinin «Əxi» təşkilatmm «Fütuwət-namə» adlanan nizamnaməsini yazmış, Bağdadda Baş Şeyx vəzifəsini tutmuş, xilafəün mühüm işlərində çalışmış, diplomatik damşıqlar aparmışıdır.

Sührəverdi əsərlərində əxlaq normalarırun, mənəvi kefiyyətlərin, davranış qaydalarının şərhini vermiş, insanın özünütərbiyə və özünütəkmilləşdirmə yollarını göstərmişdir. Alimin fikrincə insan özünü tərbiyə ilə, öz nəfsini paklandırmaqla, kin, həsəd və riyadan arınmaqla, ehtiraslı aləmdən, şəhvətdən uzaqlaşmaqla əbədiyyətə qovuşa bilər. Əbu Həfs Sührəverdinin fikrincə yoxsul olmaq insanı iki müxtəlif vəziyyətə sala bilər: 1) yoxsulluğun savabına çatmaq; 2) yoxsulluğun əzabma düçar olmaq. Əgər insan yoxsul olmasına baxmayaraq gözəl əxlaqını saxlayır, Allaha şükr edir, Rəbbinə itaət edir, halından şikayət etmirsə yoxsullğun savabmı qazanır. Əgər yoxsul olduğuna görə əxlaqı pisləşən, rəbbinə üsyan edən, şikayət edən, hirslənən kəs yoxsulluq əzabxna düçar olur. Əbu Həfs Sührəverdi əxlaq qaydalarxm belə qruplaşdxrxb şərh edirdi:

1) Təvazökarlxq. Bu insanxn ən gözəl və daha çox dəyərləndirilən xüsusiyyətidir. O obrazlx şəkildə deyirdi ki, insan heç vaxt təvazökar- lxqdan daha gözəl paltar geyinə bilməz.Təvazökarlxq və hikmət xəzinəsinə sahib olan kimsə onlarx necə görür və necə anlayxrsa, nəfsini də ona uyğxm hala

gətirir.Təvazökar insan həm özü rahat olur, həm də başqalarına rahatlaq gətirir;

2) İnsanlara yaxşı davranmaq və xalqın qayğısmı çəkmək ən gözəl əxlaqlardan biridir.Ailə üzvləri, qohum, qonşu,dost və başqaları ilə yaxşı davranmaq insanın əxlaq qaydalarmdandır.O deyirdi «bir şəxsin ağlının, elminin və dözümünün çoxluğunu insanlara yaxşı davranmaq qədər göstərən ikinci başqa şey yoxdur»;

3) İsar(Başqalarmı özündən üstün tutmaq)əxlaq qaydalarxndan biridir. İnsanlan bu əmələ təbiətiərindəki xalqa qarşı son dərəcə həssas və qayğıkeşlik duyğusu,şəfqət və din yaxınlığı sövq edir. Sührə- verdiyə görə insan öz malını əvəz gözləmədən, təmənnasız baş- qalarma verməyə hər zaman hazır olmalıdırlar;

4) Əfv və mərhəmət insarun əxlaq qaydalanndarıdır. Nəfsin təsirinə tab gətirməyərək buraxılan nöqsanları bağışlamaq, pisliyə yaxşılıqla cavab vermək yaxşı əxlaqdan sayılır;

5) Gülərüz olmaq əxlaqi keyfiyyətlərdən sayılır.Insanm üzündəki təbəssüm qəlbindəki nurun əsəridir. Qəlbin təmizliyi insanm üzündəki təbəssümdə ifadə edilir;

6) Asan gərgin olmayan davranış, yumşaq münasibət və hər kəslə omm xasiyyətinə görə davranmaq əxlaqi keyfiyyətlərdəndir. İnsan heç kimin xatirinə dəyməməli, pislik etməməli, incitməməlidir. Əbu Həfs təcrübəli müridlərlə yeni başlayan müridlərin, mürşidlə müridlərin zarafatlaşmasını məsləhət görmürdü. Çünki onların mərifətləri və bilikləri eyni olmadığma görə müvazinət hər an pozula bilər;

7) Təkəllüfü (qondarma zorakılıq və utancaqlıq).Doğru yol, ədalət naminə başqalarına zalım olmaq, zorakılıq göstərmək əxlaqilikdən uzaqdır. Eyni zamanda yersiz utancaqlıq əsas yolda insana mane ola bilər;

8) Mal toplamağı tərk etmək əxlaq normalarmdan sayılır. Dünya malma meyl göstərmək, sərvət toplamaq, əşya hərisliyi əxlaqa ziddir;

9) Qənaət etmək, israfçılığa yol verməmək əxlaqi keyfiyyətlərdən sayılır;

10) Münaqişə və çəkişmədən uzaq olmaq insamn əxlaqi həyat tərzi olmalıdır. Hər gür münaqişə və mübahisəni yatırmağa çalışılmalıdır;

11) İnsanları sevmək və onlarla qaynayıb qarışmaq əxlaqilikdir. İnsan mənəmlikdən uzaq olmalı, xalqın içində olmalıdır;

12) Yaxşılıq edənə təşəkkür və dua etmək gözəl əxlaqi sifətlərdəndir;

13) Məqam və mövqe insanlara xidmət üçün istifadə edilməlidir. İnsan məqamdan istifadə etməməli, şəxsi mənafeyini düşünməməlidir.

Əbu Həfs Sührəverdinin əxlaq qaydaları hələ dövründə ikən yüksək qiymətləndirilmiş, ən yaxşı qaydalar hesab edilmiş və bu əxlaq qaydaları bu gün də öz əhəmiyyətini itirməmişdir.

Əbu Həfs Şihabəddin Sührəverdinin ardıcdlarından Əbülfütuh Yəhya Həbəş oğlu Sührəverdi «Əl-Məqtul»(154-1191) dövrünün böyük alim-filosofu olmuş və əsərləri bir çox dillərə tərcümə olunaraq Bakıda, İstanbul və Tehranda nəşr olunmuşdur. Əbülfütuh Sührəverdinin insanları doğru yola dəvət etməsi və bu yola insanları çatdıranları müqəddəs varlıq sayması özünün dərin bilik və davranış sahibi olması ilə bərabər, əxlaqi keyfiyyətlərə böyük önəm verdiyinin şahidi oluruq. Əbülfütuh Sührəverdi insanın ruhani fəzilətlərini dörd yerə bölmüşdür: Birinci ağıl qüvvətinin ədaləti (Hikmət, fəlsəfə); ikincisi qəzəb qüvvətinin ədaləti (Şücaət,yaxşı xarakter); üçüncüsü şəhvət qüvvətinin ədaləti (İffət); dördüncüsü bu qüvvətlərdəki ədaləti toplayan ümumi ədalət. Çox maraqldır ki, Tusi də insan fəzilətinin keyfiyyətlərini Sührəverdi fikrinin davamı kimi təxminən belə bölmüşdür(30). Əbülfütuh Sührəverdinin şeirlərində insanın əxlaqi, mənəvi keyfiyyətləri əsas yer tutur. O bədxahlığa, haqsızlığa, ədalətsizliyə qarşı çıxmış, belələrini əjdaha və ilanlara bənzətmişdir. Onun əsərlərindən bəziləri bir çox dillərə tərcümə olunmuşdur.

Nizamiyyə mədrəsəsinin məzunları olmuş azərbaycanlı alimlərdən «Bədi» ləqəbi ilə məşhur olan Əbül Müzəffər Əbdüssəməd İbn Zəncani (... 1158), Əbubəkr İbn Şirvani, Əlaəddin Məhəmməd İbn

Əhməd Səlmasi (...1240) kimi, eləcə də Dəməşq, Yəmən şəhərlərinin mədrəsələrində dərs demiş azərbaycanlı alimlər olmuşdur (138,219)

Əlavə edək ki, XII əsrdə yaşamış, farsca şeirlər yazıb yaradan, Gəncədə doğulub, böyüyən Əbu Həfs Ömər Gənzi(Gəncəli) Nizamijry ə mədrəsəsinin məzunu olmuş, sonra bir müddət burada da dərs demişdir. Yaqut əl-Həməvinin məlumatına görə o ədəbiyyatı məşhur alim Əbül Müzəffər əl-Əbiverdidən öyrənmiş və fazil ədib kimi yetişmişdir. Bağdadda, Həmədanda, Xorasanda xeyli hədis toplamış və onları nəql etmişdir. O Bağdad Nizamiyyə mədrəsəsini bitirdikdən sonra vətəni Gəncəyə qayıtmış, sonra isə Nişaburda vəzir Fəxrül-kün ovladlarına dərs vermişdir. Mərv şəhərində təxminən 70 yaşında ikən vəfat etmişdir(134). Şeirlərindən vətən həsrəti vətənpərvərlik duyğuları hiss olunur. O yazırdı:

*«Sürüb dəvələrini mənim yurduma çatsan*
*Dostlarıma, unutma, məndən yetir bir salam.*
*Bu dərdə dozməyimdən, ayrılıq əzabından*
*Danış bir-bir onlara mən necə xəstəhalam.*

*Söylə ki, onları mən hər yadıma saldıqca- Gəlib keçir*
*gözümdən bir də o günlər tamam, Ətirli meh əsdikcə*
*səhər dost diyarından, Qəlbim yarpaq tək əsir, tapmır*
*bir ləhzə aram» (6,7).*

Böyük şairimiz Xaqani Şirvani də «Nizamiyyə» mədrəsəsində olmuş, buranın böyük alimləri ilə görüşmüş, xəlifənin vəziri Cəmaləddin Isfahani ilə tanış olmuş, mədrəsə alimləri ilə elmi müzakirə və söhbətlər keçirmişdir. Bu mədrəsənin alimləri ona «Dəbiri - ərəb» ləqəbi də vermişlər. Xaqani öz şeirlərinin birində Iraqda-Bağdadda olmasmı belə misralarla ifadə etmişdir:

*Dövrün əmirinin fərmanilə mən Nəhayət,*
*qurtardım Şərvan bəndindən... Səfərə*
*çıxaraq dağda, səhrada, Sürüdüm özümü*
*özüm piyada Şərvan dənizindən uzağa*
*getdim; Arzuma çatmaqçün İraqa getdim.*

Bağdad xəlifəsi Xaqanini öz yanına, sarayma ən yüksək vəzifəyə-vəziri olmağa dəvət etmiş, amma şair vətəninə qayıtmağı üstün hesab etmişdir:

*Xəlifə deyir ki, dəbirim olsan*
*Qarşımda baş əyər möhtəşəm dağlar.*

*Dəbirəm, doğrudur yazım misilsiz*
*Lakin baş əymərəm bu işə zinhar.*

*Bir dəbir olmaqla nəfəxr edim ki,*
*Vəzirlik mənimçün deyil iftixar.*

Böyük ərəb alimi, tarixçisi Əl- Fuvati 1280-cı ildə Hinduşah Naxçıvanini Bağdadda «Nizamiyyə» mədrəsəsində gördüyünü xəbər vermişdir. Görünür o da bu mədrəsədən öz paymı almışdır.

Nizamiyyə mədrəsəsində adları Şərq mədənijryət tarixində iftixarla çəkilən böyük alimlər təhsil almışlar. Bunlarm içərisində Sədi Şirazi (1184-1291), Əbu-Məhəmməd əl-Qasim əl-Həriri (1054-1122), Kəmal əd-Din əl-Ənbari (1119-1181), Xətib Təbrizinin tələbəsi Əbu Mənsur Mövhüb əl-Cavalaqi (1073-1144) kimi alimləri göstərmək olar.

Nizamiyyə mədrəsəsinin azərbaycanlı məzunları sırasmda habelə Əbdül Həsən Bərdəyi, Cavid Marağai, Süleyman Təbrizi və başqaları da olmuşdur. Professor F.Ə.Seyidov göstərir ki, Bağdadm və İsfaharun yüksək tipli mədrəsələrində dərs demiş Əbu Turan Ə1 Marağai, Əbu Bəkir Əli Şirvani kimi alimlər təhsil aldıqları Əl-Mənsur məscidində də dərs demiş «Xülasə», «Suallar sistemi», «Sintaksis haqqında qısa xülasə» kimi bir sıra əsərlər yazmışlar (68,106).

XI əsr və ondan sonrakı əsrlərin bir çox görkəmli alimləri Nizamiyyədə dərs demişlər. Bunların arasında öz əsərləri ilə islam aləmində və bütün dünyada şöhrət tapan, elmin bir sıra sahələrində böyük yeniliklər yaradan nadir şəxsiyyətlər də vardır ki, onların bir neçəsini qeyd etməmək mümkün deyildir.

On yeddi il Nizamiyyədə dərs deyən məşhur Əbu İshaq Şirazi ilahiyyata dair xeyli əsərlər yazmışdır. O fiqhə dair «Ət-Tənbih»

(oyatma), «Ən-Nukət fi məsa'il əl-xilaf» (münaqişə məsələlərinə dair hazırcavab ifadələr), «Tabaqat əl-Fuqəha» (fiqhlər təbəqəsi) kimi əsərlərin müəllifidir.

XI əsrin ikinci yarısmda fəlsəfə və teologiya sahəsində ən böyük alim, Əbu Hamid əl-Qəzzali (1059-1111) olmuşdur ki, o Nizamiyyə mədrəsəsində dərs demişdir . Fəlsəfə və ilahiyyata dərindən bələd olan əl-Qəzzali islam dinini fəlsəfi cəhətdən əsaslandırmış, sufizmi dinlə əlaqələndirmiş və bununla islamı möhkəmləndirməyə çalışmışdır. Səlcuqlar onun vasitəsilə özlərinin əsas düşmənləri olan fatiməliləri ideologiya cəbhəsində məhv etməyə səy göstərmişlər. 1095-ci ildə Nizamiyyəni tərk edən Qəzzali ömrünün qalan hissəsini səyahət və zahidliklə başa vurmuşdur. Onun «Təhafut əl-fəlsəfə» («Filosofların təkzibi») və «İhya ümum əd-din» («Dini elmlərin dirildilməsi») əsərləri vardır. Əbu Hamid əl-Qəzzalinin qardaşı Əhməd əl-Qəzzali kimi böyük şəxsiyyət də Bağdad Nizamiyyəsində dərs demişdir.

Bəzi mənbələrdə Nizamiyyə mədrəsəsində dərs demiş bir çox azərbaycanlı alimlərin adma rast gəlmək olur ki, onlar haqqmda əldə etdiyimiz məlumatlardan yalnız aşağıdakıları deyə bilərik:

1. İsmayıl İbn əl-Müsənna ət-Təbrizi hicri 580 (1185)-ci ildə Təbrizdə vəfat etmişdir. Nizamiyyə mədrəsəsində mühazirələr oxumuşdur. Görkəmli şəxsiyətlərin kartotekasını tərtib edən İbn əl Fuvati yazır:

«Mən Təbrizdə tam mənasında görkəmli şəxsiyyətlər barəsində soruşanda mənə ilk növbədə İbn əl-Müsənnanm adınx çəkdilər və dedilər: «0 təkdir və ikincisi yoxdur».0 «Azərbaycan tarixi» əsərinin müəllifi olmuşdur.

2. Əbülfəzl Mahmud Ibn Əhməd Ibn Məhəmməd əl-Ərdəbili. Bağdadda «Ən-Nizamiyyə» və «Əl-Kamaliyyə» mədrəsələrində dərs deyib. Hicri 625 (1228)-ci ildə vəfat edib.

3. Əbdülxalxq İbn Əbül-Mə'ali İbn Məhəmməd əl Arrani. Mosul və Nizamiyyə mədrəsəsində qanunşünaslxqdan (hüquq fənni) dərs demişdir. Hökmdarlar yanmda böyük hörməti var idi. Dəməşqdə 15 şəvval 633-cü hicri (20-VI, 1236) ilində vəfat edib.

4. Əmin əd-din Müzəffər Ibn Əbu Məhəmməd Ibn İsmayxl Ibn Əli ət-Təbrizi. Hüquqşünas alimdir. 588-ci hicri (1163) ilində doğulmuşdur. Bağdadda Nizamiyyə mədrəsəsində dərs deyib, oradan Qahirəyə köçərək «Ən-Nasiriyyə əs-Salixiyyə» mədrəsəsində müəllimlik edib. Üç cildlik «Səkt əl-Fəvaid» və «Əl-Müxtəsər» əsərinin müəllifidir. Şiraza köçmüşdür, 621-ci hicri ilinin zülhiccə ayxnda (yanvar, 1225) vəfat etmişdir.

5. Tacəddin Əbülfəzl Məhəmməd İbn əl-Hüseyn İbn Abdulla əl- Urməvi. Fəxrəddin ər-Razinin tələbəsi olmuşdur.Bağdada köçərək Nizamiyyə mədrəsə-sində dərs demişdir. Hicri 653 (1225)-cü ildə vəfat edib. Yazdxğx «Əl-Hasil» əsərinin əlyazmasx Paris Milli Kitabxanasmda saxlanılır (Ns 61, kat. 385/1).

6. Əbu Həfs Omər Gənzi (Gəncə)-ədəbiyyatçı alimdir. «Əl-Cənzi» ləqəbi onun Gəncəli olduğunu göstərir. Bağdadda Nizamiyyə mədrəsəsində mühazirələr oxumuşdur. Gəncə, Həmədan, Təbriz, Nişabur və Mərvdə müəllimlik etmişdir. Hicri 555 (1160)-ci ildə Mərvdə vəfat etmişdir.

7.Qəvaməddin Əbu Nəsr Yunis İbn Mənsur İbn İbrahim əş-Şirvani. Şirvandan Bağdada köçərək Nizamiyyə mədrəsəsində dərs demişdir. Məşhur alim, tarixçi Əbdürrəhman Ibn əl-Cövzinin dostu olub. Monqollar Azərbaycanı işğal etdikləri zaman 1258-ci ildə Şirvanda dünyasını dəyişmişdir.

Bütün bunlarla bərabər Əbül-Mənakib əz-Zəncani (1258), Məhəmməd əl-Akili (XIV əsrin sonları), Abdullah bin Bektaş (XIV əsrin sonları), Əl-Firuzabadi (1414) (Bağdadda İbn Bektaşm muidi (assistenti) olmuşdur), Əbdüssəməd İbn Hüseyn Zəncani (vəf.1158), Əbubəkr Ibn Şirvani, Əlaəddin Məhəmməd Ibn Əhməd Səlmasi (vəf.1240) və başqa azərbaycanlı alimlər Bağdadda «Nizamyyə»də müəllimlik etmiş, yeni nəsillərin təlim və tərbiyəsində xidmətlər göstərmiş, dəyərli əsərlər yazmışlar (138, 220).

Şərqin böyük alimlərinin dərs dediyi bu elm ocağını sadəcə mədrəsə adlandırmaq çətindir. Bu Şərqdə təşkil edilən ilk mükəmməl universitetlərdən birincisidir ki, burada dərs deyən müəllimləri haqlı olaraq professor adlandırmışlar. Orta əsrlərin bu

məşhur universite- tinin şöhrəti bütün dünyaya yayılmxş və o yüzlərlə böyük elm xa- dimlərini yetişdirmişdir.

Nizamiyyə mədrəsələri Bağdaddan başqa Nişaburda, Dəməşqdə, Mərvdə, İsfahanda, Mosulda, Xuzistanda, Xorasanda, Herat və Bəsrədə də yaranmxş və fəaliyyət göstərmişdir. Nizamiyyə mədrə-sələri bütün Şərq-müsəlman dünyasım əhatə etmiş və onlann sayı 238- ə çatmxşdx.

Nizamiyyə mədrəsəsi başqa mədrəsələrə nisbətən daha uzun ömürlü olmuş və XV əsrə qədər davam etdiyi və daha sonra tarix səhnəsindən silindiyi bilinməkdədir. XV əsrin başlanğxcmda-1410-cu ildə Bağdada girən türkmən ordularx bu tarixlərdə habelə Suriyada misirliləri, İranda iranlxlarx, Anadoluda türkləri qatxb-qarxşdxrmışdxlar. Bu hərblər bütün məmləkəti yanğxn və xaraba halxna gətirmişdi. Bağdad Nizamiyyə mədrəsəsi də bu hərbin qurbanx olaraq dağxl- mışdxr.

## 4. Şərq və Azərbaycan elminin və pedaqoji fikrinin inkişafına türk-islam alimlərinin töhfələri

Deyə bilərik ki, nəinki Şərq və Azərbaycan, həmçinin dünya elm və mədəniyyətinin, pedaqoji fikrinin inkişafma türk-islam alimlərinin böyük töhfələri olmuşdur. Yaxm Şərqin və Azərbaycanm erkən orta əsrlər dövrünü intibah və tərəqqi dövrü adlandınrlar. Bir çox müəlliflər qeyd edirlər ki, Azərbaycanda intibah dövrü daha əwəllər başlamışdır. Yaxm Şərq və Azərbaycanda XI-XII əsrlərdə böyük alimlər, humanist sənətkarlar yetişmiş, onlar təhsilin, elmin, təlim və tərbiyənin gücünə inanmış və insan şəxsiyyətinin formalaşmasmda, inkişafmda onu yüksək qiymətləndirmişlər. Əlbəttə, bütün bunlar isə öz növbəsində pedaqoji elmin, pedaqoji fikrin inkişafi ilə sıx bağlı olmuşdur.

Islam insanları elm qazanmağa təşviq etdiyindən müsəlmanlar hər cür elmə son dərəcə böyük maraq göstərmiş və minlərcə qiymətli əsərlər yaratmış, dünya mədəniyyətinə misli görünməmiş töhfələr vermişlər.

Müsəlmanlar ilk dəfə olaraq riyaziyyata bu gün işlənməkdə olan rəqəmləri gətirmiş, hesablama işlərini islah edərək sıfırı icad etmiş, onluq sistem yaradaraq hesab əməliyyatlarmı xeyli asanlaşdırmışlar. Islam alimləri həndəsəni yaxşı öyrənərək ona icad etdikləri «Əl-cəbr» elmini də qatmışlar. Türk-islam aləminin yetşdirdiyi ən böyük alimlərdən biri Əbu Abdullah Məhəmməd bin Musa Əl-Xarəzmi (Xarəzm 780-Bağdad 850)riyaziyyat elminin inkişafına son dərəcə böyük təsir göstərmiş cəbri dünyada ilk dəfə müstəqil elm kimi əsaslandırmışdır. Avropa cəbr elminə XII əsrin ortalarmda Lineer Abaçinin «Riyazi metodlar» əsəri ilə yetişərkən bu əsər əl-Xarəzmin 830-cu ildə yazdığı «Ə1-Kitabül müxtəsər hesabül cəbri və-1 müqabilə» adlı əsərinin latıncaya tərcüməsi idi. Bağdad xəlifəsi Məmun Bağdadda «Beyt-ol-Hikmə»ni qurduğu zaman onun idarəsini dünyamn ən böyük dahisi hesab etdiyi 35 yaşlı Əl-Xarəzmə vermişdir. Bu gün riyaziyyatda istifadə edilən alqoritm istilahı, loqarifm məhz bu alimin adı ilə bağlıdır. Hind onluq say sistemini Avropaya tanıdan Xarəzmi olmuşdur.Əsərlərində Avropanm

bilmədiyi «sıfır»ı işlətmiş cəbr misallarımn həllini təkmilləşdirmişdir.

Alman alimi Iohan Müller 1533-cü ildə Nürnberqdə triqonometriyaya dair öz araşdırmalarını nəşr etdirəndə artıq X əsrdə yaşamış Xorasanda doğulmuş azərbaycanlı Əbul-əl-Vəfanm (940-998-ci illər) triqonometrik kəşfləri geniş yayılmışdı. Islam alimləri triqonometriyanı inkişaf etdirərək ona yeni forma vermiş və yunanlarm böyük çətinliklə gördüyü işləri asanlaşdırmışlar.

VII-XI əsrlərdə müsəlman dünyasında astronomiya, riyaziyyat, kimya, tibb, mədənşünaslıq, optika, həndəsə elmlərinə dair risalələr yazılırdı. Müsəlman alimləri hətta aerodinamika tarixinə də öz adlarını yazmışlar. IX əsr əlyazmalarında uçuşun fiziki əsaslarını müəyyən emək məqsədilə quşun qanadlarınm səthi ilə onun çəkisi arasındakı hesablamamn təsviri verilir. 1010-cu ildə Farabinin dostu Ismayıl Cövhəri düzəltdiyi qanadlarla havaya qalxmış, ancaq düşərkən yaralanmış və bu yaradan ölmüşdür. Cövhəri ərəb dilinin, qrammatikası ilə də məşğul olmuş «Sihah» (Həqiəqət) adlı əsərini və dayısı İbrahim bin İshaq isə «Divan-ül-Ədəb» («Ədəb qaydaları divam») adlı məşhur kitabmı yazmışdır.

İslam alimləri elm-nücuma (astronomiya) böyük maraq göstərmişlər. Bu onunla bağlı olmuşdur ki, astronomiya dinlə bağlı bir sıra məsələlərin həlli üçün faktik material verirdi. Namazın vaxtlarımn və qiblənin səmtinin müəyyən edilməsində astronomiya böyük əhəmiy- yət kəsb edirdi. Buradan isə ulduzlann hərəkətini izləmək və hesab- lamaq imkam yaranırdı.

Elm aləminə IX əsrdə «Sidrətül Müntəha» adlı əsər bəllidir. Bu əsər astronomiyadan bəhs edir ki, müəllifi Təkyiddin Ər-Rasidir. Qey d edək ki, hələ VIII-IX yüzilliklərdə Bağdad, Şam, Qahirə, Marağa, Nişabur və Səmərqənddə rəsədxanalar inşa edilirdi. Astronomiya sahəsində İslam alimlərinin qəbul etdikləri bir çox terminlərin Avropa dülərinə keçməsi və bu günlərədək yaşaması bu yöndəki uğurları təsdiq edir.

Türk İslam aləmi Əbu-Reyhan əl-Biruni (973-1048) kimi böyük alimi yetişdirmişdir ki, o yerin cazibə qüvvəsini, yerin həm günəş, həm də öz oxu ətrafmda fırlanması haqqmda dəyərli fikirləri Kopernikdən 500 il öncə söyləmişdir. Biruni yerin sahəsinin ölçülməsi ilə əlaqədar qiymətli fikirlər, qaydalar irəli sürmüşdür ki, bu gün Avropada həmin qaydalar «Biruni Qaydası» adı ilə adlanmaqdadır. O XI əsrdə yeddi metr yarımlıq sferblat hazırlamışdır. Biruninin ən məşhur əsərlərindən biri «Əl-Asar əl-Baqiyə Əni-1 Qurun Əl-Xaliyə» («Keçmiş nəsillərdən qalan izlər») adlanır. Əsərdə Şərq xalqlarının müqayisəli xronologiyası verilir və təqvim sistemləri açıqlanır.Əl- Biruni 1017-ci ildə Türk imperatoru Qəznəli Mahmudun dəvəti ilə Qəznəyə gəlmiş və həyatmm böyük bir qismini Qəznə mədrəsəsində çalışmaqla keçirmiş, çox geniş elmi araşdırmalar aparmış «Qədim xalqlann xronologiyası», «Hindistan tarixi», C>tən əsrlərin yadigarlan» əsərlərini yazmış və bu əsərlərdə Azərbaycanın Naxçıvan, Ərdəbil, Təbriz, Beyləqan şəhərləri haqqında maraqlı məlumatlar vemişdir.

Əl-Biruni «Əl Kanun-ul-Məs'udiyyə Fil-Heyəü ve'n-Nücüm» adlı astronomiya ensiklopediyasmı Qəznəli Mahmudun ölümündən sonra yerinə keçən oğlu Sultan Məsud Sebuk Təkinin adına yazmışdır. Bu kitabdan təsirlənən Sultan Məsud əl-Birımiyə bir fil yükü saf gümüş vermişdir. Biruni isə elm adamlarmın diqqətini çəkəcək belə cavab vermişdir: «Bu ərməğan məni başdan çıxardar, elmdən uzaqlaşdırar. Elm sahibi olan kimsə gümüşün xərclənib bitdiyini, elmin isə həmişə qalacağını bilir. Elmin daimi zənginliyini gümüşün qısa ömürlü parıltısma heç bir zaman dəyişmərəm»-demişdir.

Biruni təhsilin məzmunu, şəxsiyyətin tərbiyəsi və təlimi haqqmda qiymətli fikirlər söyləmişdir.Onun təlimin prinsipləri haqqında söylədiyi fikirlər bu gün müasir pedaqoji elmin təlim prinsipləri ilə əsasən üst-üstə düşür: Təlimin şüurluluğu; təlimin elmiliyi; təlimdə əyanilik; təlimdə sistemlilik və ardıcdlıq; təlimdə inandırcdıq; təlimdə nəzəriyyə ilə təcrübənin vəhdəti.

Biruni insan ağlının və şüurunun inkişafı və tərəqqisi üçün aşağıdakı tələbləri irəli sürürdü: Köhnəlmiş, fanatik və tamahkar məqsədlərdən və meyllərdən uzaq olmalı; təbiət hadisələrinin izahrn- da fakt və hadisələrin qanunauyğunluğundan çıxış etməli; cisimlərin öyrəinilməsinə onu təşkil edən elementlərin öyrənilməsindən başla- malı; deduksiyaya əsaslanmalı, faktları fikirləıi müşahidə və müqayisə etməyi və yalnız həqiqi olanı seçməli; tədqiqatlarda məlumdan məchula, sadədən mürəkkəbə, yaxmdan uzağa getməli.

Biruninin əxlaqla bağlı fikirləri tarixi və sinfi xarakter daşımış və sonrakı dövr alimlər, pedaqoqlar müxtəlif dövrlərdə öz fikir və mülahizələrini söyləmişlər. Biruni əxlaqm əsasmı maddi tələbat təşkil edir- deyir. Ozünün «Minerologiya» əsərində yazır ki, tələbatlar o dərəcədə qeyri - yekcinsdir ki, insan özü onları təmin etmək iqtidarın- da deyil və bunun üçün bir köməkçi kifayət etmir.

Biruni mənəvi tərbiyədə elmin roluna yüksək qiymət verir və deyir ki, cəmiyyətdə elmi biliklərin yayılması və gərgin əmək sayəsində xalqı cəhalətdən və yoxsulluqdan xilas etmək olar. Onun fikrincə elmi biliklər insanı nəcibləşdirir, onu xeyirxah və düşüncəli edir. Elmin nuru kor gözlərə şəfa gətirir, paslı qəlblərin pasinx silir. Zülmət qaranlxqları aydxnlxğa çxxarxr, insanx saflaşdxrxr və paklaşdxrxr, ona sonsuz qüwə və əbədi səadət bəxş edir. Biruni həmçinin insanın elmə yiyələnməsi üçün aşağıdakı şərtləri lə irəli sürür:

1) Elmlə məşğul olanlar sərbəst olmalı, onlara kənardan təzyiq edilməməlidir;

2) elmi çalışmalar insamn bu çalışmalara doğan həvəsindən əmələ gəlməli və saf təməllər üzərində qurulmalıdır;

3) həqiqi elmi yalançı elmlərdən ayırmağı bacarmalı, dini xürafatdan kənar olmaq lazımdır;

4) həqiqi elm adamlarma yardım göstərilməli, onları həvəslən- dirmək lazımdır;

5) hər hansı elm sahəsini öyrənməzdən əvvəl lazimi maddi və texniki şəraiti yaratmaq lazımdır;

6) elm adamlarına hörmət və etibar edilməlidir;

7) insanların elmlə məşğul olmaları üçün onların diqqətini buna yönəltməli və belələrinə cəmiyyətin ən hörmətli şəxsi kimi baxmalı;

8) dövlət məmurları elmin inkişaf etdirilməsini həmişə diqqət mərkəzində saxlamalıdır.

Biruni müəllim şəxsiyyətini yüksək qiymətləndirir və göstərir ki, hökmdarların özü belə müəllim olmalıdır. O ölkəsinin adamlarını tərbiyə etməli, onlara vicdanla, fədakarlıqla xidmət göstərməlidir.

Biruni alim əməyinə yüksək qiymət verir,göstərir ki, alim hər işdə diqqətli olmalı, daim oxuyub öyrənməli, öz işinin nəticələrini daim yoxlamalı və öz işinin nəticələrindən mümkün qədər az fərəh- lənməlidir. O alim əməyini xalqa təmərtnasız xidmətdə görürdü, necə ki, özü bunun parlaq nümünəsini əməlində göstərmişdir.

Müsəlman alimləri kimya sahəsində də böyük kəşflər etmişlər. Bu sahədə Qərbdə Qeber adıyla tamnan Cabir-Bin Həyyan dövrünün ən böyük həkimi, filosofu, kimyagəri və astronomu olmuşdur. Fransız alimi Qusta Le Bon islam almində ilk və ən məşhur kimya aliminin Cabir olduğunu yazmışdır. Distillə, kristallaşma, ərimə, analiz və reaksiya kimyəvi üsullardan ilk dəfə xəbər verən Cabirdir. O distillə yolu ilə sulfat turşusu alan ilk alim olmuşdur. Kimyəvi maddələri saxlamaq üçün müsəlman alimləri elm tarixində ilk dəfə olaraq şüşə qablardan istifadə etmişlər. Onlar həmçinin müxtəlif yapışdırıcı maddələrdən və tozlardan istifadə etmişlər.

İslam dünyasmda vaxülə çərrahlıq zəif inkişaf etmişdi. Qurani-Kərim meyidi yarmağı, bədən üzvlərinin fəaliyyətini öyrənmək üçün canlı orqanizm üzərində çərrahi əməliyyat aparmağı qadağan etmiş, buradan da müsəlmanlann anatomiyaya dair bilikləri bir qədər az olmuşdur. Müsəlman təbibləri daxili, yoluxucu xəstəlikləri əsasən otlarla, təbii vasitələrlə müalicə edirdilər. Müsəlman çərrahlan sıruqların müalicə- sində hazırda «Paris gibsi»

adlanan srnıq taxtasım Avropadan çox-çox əwəl tətbiq etmişlər. Həm Avropada, həm də müsəlman dünyasmda mötəbər çərrah kimi tanınan Əbu-1 Qasim əz-Zəhravi (vəf. 1010-cu U) çərrahiyyə alətlərinin ixtiraçısı kimi şöhrət tapmışdır.

Anatomiya sahəsində Qalenin «Anatomiya Kitabı» islam alimləri tərəfindən tərcümə edilmişdir. Əbu Ibn Miskəveyh (936-1030) bir təbib, dilçi, tarixçi, tərbiyəçi olaraq insan vücudu haqqmda Qalenin yazdıqları ilə kifayətlənməyərək daha təfərrüatlı məlumatlar vermişdir. Bu xüsusda dövrün xəlifəsi Mutasim Billah ona çox maddi yardımlar göstərmiş, təcrübələr aparmaq üçün meymunlar tədarük etmişdir. Miskəveyh 200-dən artıq tibbə, astronomiyaya, musiqiyə, pedaqogika və psixologiyaya, polemikaya, fəlsəfəyə dair dəyərli əsərlər yazmışdır. Kufəli əl-Kindinin (ö. 866 və ya 875) yazdığına görə İbn Miskəveyhdə elm eşqi o qədər yüksək imiş ki, insan vücudunu tədqiq etməkdə oğlunu belə fəda etməyi göz önünə almışdı. Azər- baycan filosofu Əhməd əl-Sərəhsi (ö. 899) əl-Kindi ilə birlikdə bir əsər yazmış və burada atomun sonsuza qədər bölünəcəyini göstəirmişdir. İbn Miskəveyhin isə ən başlıca əsərlərindən biri «Təhzib ül-Əxlaq»dır (Əxlaqm saflaşdırılması). O bu əsərinin əvvəlində gənclik illərində maddi həzzlərə düşkün olduğundan və bu səbəbdən də tez-tez xətalar etdiyini söyləyir, bu xətaları düzəltmək məqsədiylə bu əsəri yazdığım söyləyir. Özünə böyük şöhrət qazandıran bu əsərdə insan nəfsi, əxlaq və xasiyyət, xoşbəxtlik, igidlik, comərdlik kimi məsələlər, habelə sev- ginin növləri, nəfsin xəstəlikləri və müalicəsi haqqmda dəyərli məlumatlar vermişdir. Bu əsərdə ruhun bədən üzərində təsirini göstərir və insanda üç növ nəfs (ruh) olduğunu bildirir:

**1) Düşünən nəfs (ən-nəfsül-müfəkkirə)** hadisələrin gerçəyi haq- qmda ağıl yürütmə gücü;

**2) Heyvani nəfs (ən-nəfsül-heyvaniyyə)** bədəni arzularm, cinsi istəklərin gerçəkləşməsini, bəslənməyi, yiyəcək, içəcək və hər cür zövq verici şeyləri istəmə gücü;

**3) Qəzəb nəfsi (Ən-nəfsül qəzəbiyyə)** çılğınlıq, hirs gücü. Bu üç nəfs bir-birindən ayrıdır.Bunlardan birisi güclənirsə o birinə zərər verir. Alim bu nəfsləri ovçu ilə onun sahib olduğu at və ov köpəyinə bənzədir. Ağıl (yəni ovçu), həm aüna (yəni heyvani nəfsinə) həm də

köpəyinə (yəni qəzəb gücünə) hakim vəziyyətindədir. Onları istədiyi kimi idarə edə bilir. Amma ovçu (ağıl) öz atina və köpəyinə hakim olmazsa, onlar öz istəklərinə uyğun hərəkət edər və sahiblərinə tabe olmazlar. Ibn Miskəveyh göstərir ki, insan ağıl, ruh və istedaddır, onun əsil məqsədi əbədi xoşbəxtliyə çatmaqdır ki, bu da ağıl və tərbiyə yolu ilə mümkün ola bilir. Nəfsi tərbiyə etmək üçün isə Miskəveyh gənclərə əvvəlcə düşüncə, fikir sahəsində təlim və tərbiyə verilməsini, sonra isə hesab, həndəsə, astronomiya və musiqi kimi dörd elmi fasiləsiz öyrənməyi məsləhət görür. Mənbələrin verdiyi məlumatdan öyrənirik ki, hökmdar Nasir Möhtəşəm İbn Miskəveyhin tərbiyəyə dair yazmış olduğu əsəri ərəbcədən farscaya tərcümə etməyi N.Tusiyə tapşırsa da Tusi özü tərbiyəyə dair «Əxlaqi Nasiri» əsərini yazmışdır (30). Ümumiyyətlə Tusinin ən böyük xidmətlərindən biri bu olmuşdur ki, o özündən əvvəlki alimlərin-xüsusilə Fəridəddin Damadın, Sərəhsinin, əl-Kindinin, habelə Qəzzalinin, Nizam əl-Mülkün, Ibn Miskəveyhin əsərlərindən yaradıcılıqla istifadə edərək özü sonrakı nəsillərə dəyərli mənəvi irs qoyub getmişdir.

Tibb sahəsində İbn Sina (XI əsr) daha şöhrətli olmuşdur. Onun yazdığı «Qanun ət-Tibb» əsəri XVII əsrə qədər Avropa tədris müəssisələrində bir dərslik kimi istifadə olunmuşdur. İbn Sina psixo-somatikamn meydana çıxmasmdan çox-çox qabaq orqanizmin fəaliy-yətində xəstənin keçirdiyi psixi halətlər arasmdakı qarşılıqlı əlaqəni müfəssəl şəkildə öyrənmişdir(89,146).

Xorasanlı təbib, filosof, təlimçi Əbubəkir Zəkəriyyə Ər-Razi (vəf. 925) mədə funksiyasmda aa bir suyun olduğunu söyləmişdir ki, aclığa səbəb də elə bu sudur. Onun tibbə dair əsərləri Şərq və Qərb dünyasında İbn Sinarun əsərləri ilə birlikdə dərs kitabı kimi uzun illər boyu «Rhazes» adıyla istifadə edilmişdir. Onun tibbə dair iki əsəri «Kitab əl-Mənsuri» hansı ki, Samani hökmdarı Nuh İbn Mənsur adına yazılmışdır, ikinci əsəri isə «Kitab əl-Havi» (Xəstəliklər və müalicələr) adlanır ki, hər iki əsər latmcaya tərcümə edilmiş və şöhrət tapmışdır. Ər-Razi əxlaq, tərbiyə, fəlsəfə sahəsində də dəyərli fikirlər söyləmişdir. O, «Tərbiyə» ( ) məfhumunu, «böyütmək», «yetişdirmək»,

«tamamlamaq» mənasmda işlətmiş və demişdir ki, tərbiyənin məqsədi insanı əsil mənada yetişdirmək, formalaşdırmaq və insam maddi həzzlərdən (yemək, içmək, sahib olmaq və s.) mənəvi həzzlərə (bilik qazanmaq, öyrənmək, bacarıq və s.) istiqamətləndirmək lazımdır (89,34). Ər-Razi dövründə çox danışılan «Ölüm qorxusu» haqqmda məsələyə bədən yox olunca, ruh da yox olur düşüncəsinə yaxmlaşır və deyir: Olümdən sonra insana bir şey olmaz; çünki o heç bir şey hiss etmir. Ona görə də ağılh bir insan ölümdən qorxmamalıdır. Ancaq kimsə ölümdən sonrakı həyata inanırsa, ölümlə birlikdə daha yaxşı bir dünyaya gedəcəyi üçün özünü xoşbəxt hiss etməli və yenə də ölümdən qorxmamalıdır. Əgər ölümdən sonra heç bir şey olmadığma inanırsa yenə də qorxmasma heç bir səbəb yoxdur (89,39).

Müsəlman dünyasında coğrafiya elmi özünün ən yüksək zirvəsinə X əsrdə çatmışdır. Hələ X əsrə qədər ərəb-müsəlman müəlliflərinin Bakı şəhəri haqqmda konkret məlumatlanna rast gəlmək olmur.Yalnız X əsr tarixçisi Müqəddəsi «Əhsən ət-təqasim» əsərində Bakının (Bakuh) admı çəkmiş onu «Mədinə»( yəni şəhər) adlandırmış və burada neft və duz çıxanldığını bildirmişdir.Islamm vətəni olan Məkkə və Mədinədə fiqh, hədis və tarix elmləri təşəkkül edib, inkişaf edirdi. İslamda tarix elmi hədisşünaslığın təməli üzərində formalaşmışdır. Müsəlman alimləri Peyğəmbərin (səs) həyat yolunu öyrənməyə başlamış və bununla islamda tarix elminin də əsasını qoymuşlar. Peyğəmbərin (s) həyat yolu, müsəlmanların hərbi yürüşləri ətraflı öyrənildiyindən müsəlman tarixçiləri həm hədis elmi sahəsində, həm də tarix elmində məşhurlaşmışlar. Urvəbin əz-Zübeyr (vəf.712) Peyğəmbərlərin həyat və fəaliyyətini öyrənən ilk şəxs olmuşdur. Bu dövrdə azərbaycanlı alimlər Əbubəkr Əhməd Bərdici (...914), Əbusəid Əhməd Bərdəi (..929), Məhəmməd Bərdəi (...961), Məhəmməd Bakuvi (.. .1037) və başqaları dövründə mükəmməl təhsil almış, görkəmli hədis və fiqh alimləri olmuşlar. Orta əsrlərin bu böyük mütəfəkkirləri haqqmda görkəmli alim, filosof Zakir Məmmədov «Orta əsr Azərbaycan filosofları və mütəfəkkirləri» kitabında ətraflı və geniş məlumat vermişdir (48).

IX əsrdə yaşamış məşhur hədis toplayanlardan biri də türk islam dünyasının böyük alimi Buxari Əbu-Əbdullah Məhəmməd Ibn İsmayd İbn İbrahim Səmərqəndi (810-870) olmuşdur. O «Səhih əl Buxari» və «Ət-Tarix» əsərlərinin müəllifidir. Bu dövrdə ədəbiyyat, dil elmləri də sürətlə inkişaf edirdi. Hərflərin, nöqtələrin müəyyən edilməsi və Quranın rəsmən qəbul edilmiş vahid mətninin tərtib edilməsi qiraət elminin yaranmasma təkan verdi.

Ədəbiyyat sahəsində XI əsrdə ilk dəfə olaraq türkçə yazan alimlər meydana çıxdı. Mahmud Kaşqarlı, Yusif Xas Hacib, Ədib Əhməd Yüknəki kimi dövrün mütəfəkkirləri dəyərli didaktik əsərlər yaratddar. Bu dövrdə Xətib Təbrizi, Qətran Təbrizi kimi Azərbaycan alimləri yetişdilər ki, onlar intibah dövrünün böyük alimləri idilər.Bu dövr və burıdan sonrakı dövr haqqında Yaqut əl-Həməvi Marağa və Ərdəbil alimlərinə yüksək qiymət vermiş Marağa alimlərini ixtisasa görə qruplaşdırmış- onları ədiblərə, şairlərə, mühəddislərə, fəqihlərə, müdərrislərə bölmüşdür. Ərdəbil alimləri haqqıda isə demiş ki, «Ərdəbilə bütün elmlər üzrə çoxlu alimlər mənsubdur»(134).

Islam fəlsəfəsi sürətlə inkişaf edir və orta əsrlər islam fikrinə, habelə Qərbin fəlsəfi fikrinə təsir göstərirdi.

Islam fəlsəfəsi ənənəvi Şərq fəlsəfəsinə mənsubdur. Fəlsəfəyə maraq Azərbaycanda da özünü göstərmişdir. XI əsrdə yaşayıb yaratmış və fəlsəfəni bilavasitə İbn Sinadan öyrənmiş filosof və pedaqoq Əbülhəsən Bəhmənyar İbn Mərzban əl-Azərbaycani (vəf.1065) fəlsəfi, pedaqoji fikir tarixində xüsusi yer tutur. Sonrakı əsrlər dövründə alimlər nəslinin yetişməsində Bəhmənyarın xidmətləri böyük olmuşdur. Məşhur filosof Əbül Abbas Ləvkəri Bəhmənyarm şagirdi olmuşdur.

İslamda elm və mədəniyyət insan fəaliyyətinin bütün sahələrində irəli getdi və Qərb dünyasına qüwətli təsir göstərdi. ABŞ şərqşünası Q.E.Qrünebaum yazır ki, elm, memarlıq, tikinti, gəmiçilik və s. sahələrdə Avropa həmişə Şərqə borcludur .

Beləliklə deyə bilərik ki, islamm yaranması insan fəaliyyətinin bütün sahələrində inkişafa, tərəqqiyyə səbəb oldu. Geri qalmış islam ölkələrində maarif və mədəniyyət inkişaf etməyə başladı. Elmin

bütün sahələrində islam ölkələri çox irəli getdi və dünya elm və mədəniy- yətinə layiqli töhfələr verdilər.Bütün bu tərəqqi , inkişaf isə heç şübhəsiz dövrün təlimi və tərbiyəsi nəticəsində meydana gəlmiş, orta əsr təhsilinin bariz göstəriciləridir.

# III. PEDAQOJİ FİKRİN İNKİŞAFINDA «OĞUZNAMƏ»LƏR VƏ DƏDƏ QORQUD PEDAQOGİKASI

## 1. «Oğuznamə»lər və onların pedaqoji əhəmiyyəti

İnsanların təlim və tərbiyəsində xalq öz fikirlərini özünəməxsus tərzdə ifadə etmişdir. Bu özünəməxsus tərz xalq müdrikliyi adlanmış və pedaqoji elmimizdə buna xalq pedaqogikası deyilmişdir. Uzun illərin təcrübə və müşahidələri, smamalan nəücəsində yaranan müdrik fikirlər xalqın təfəkkür süzgəcindən süzülərək, özünü doğruldaraq bu günlərimizədək gəlib çıxmışdır. Xalqın tərbiyə sahəsində tarix bojoı irəli sürdüyü fikir və ideyaların bir qismi onun adət və ənənələrində, etnoqrafik və tarixi sənədlərində, folklor materiallannda ifadə olunmuş- dur. Xalq müdrikliyi bizim ulu babalarımızın təcrübəsi ilə yaranaraq dərin mənaya malik olub, insan əqlinin, şüurunun, təfəkkürünün zövqünün və mənəviyyaümn formalaşmasmda, təbiət və cəmiyyət hadisələrini düzgün dərk etməsində, adamları doğru yola çəkməkdə, onları pis əməllərdən uzaqlaşdırmaqda mühüm rol oynamışdır. Xalq pedaqoji fikrində milyonlarla əql və kamal sahiblərinin smaqdan çıxmış müdrik fikirləri, hikmətli söz və ifadələri ən gözəl və ən nəcib mənəvi keyfiyyətləri toplanmışdır. Xalq müdrikliyi hər bir insan üçün ağd mücrüsü, yaxşı məsləhətçi, dərrakəli nəsihətçi və etibarlı mənbə hesab oluna bilər. Bu mənada deyə bilərik ki, xalq ən yaxşı tərbiyəçidir. Pedaqoji fikir tariximizin görkəmli nümayəndəsi, professor Əhməd Seyidov bu barədə belə yazırdı: «Bizim mədəniyyət tariximizin ümumi mənzərəsində gənc nəslin təlim və tərbiyə məsələləri görkəmli yer tutmuş və tutmaqda davam edir.Atalar sözü, zərbi-məsəllər, nağıllar, xalqımızın bütün folklor materialı buna parlaq misaldır. Xalq yaradıcılığı Azərbaycarıda pedaqoji fikrin ilk carçısı olmuşdur»(66,5). Azərbaycan xalq pedaqoji

fikrinin görkəmli tədqiqatçısı, professor Ə.Ş.Həşimov göstərir ki, elmi pedaqogikanın əsasmda xalqm əldə etdiyi təcrübə fikir durmuşdur: «Pedaqogika, bir elm kimi, hər şeydən əwəl, bəşəriyyətin ictimai-tərbiyəvi fikir sahəsindəki təcrübəsindən doğmuş və həmişə təlim-tərbiyə işləri ilə bu əməli təcrübənin ümumiləşdirilməsi əsasmda inkişaf etmişdir» (25,11).

Xalqın insanların təlimi-tərbiyəsi, təhsili ilə bağlı söylədiyi müdrik fikirlər daha çox atalar sözləri və zərbül məsəllərdə, nağıllarda, das- tanlarda toplanmışdır ki, bu barədə xeyli əsərlər yazılmış, disser- tasiyalar müdafiə edilmişdir. Amma, xalqımızın müdrik fikirlərinin bir çoxu «Oğuznamə»lərdə toplanmışdır ki, bu qiymətli əsərin ilk dəfə pedaqoji yöndən tədqiqi və əsərin mənəvi -əxlaqi cəhətlərinin təhlili onu göstərir ki, «Oğuznamə»lər xalqım müdriklik xəzinəsi, insanlara ibrətamiz öyüd və nəsihətləridir. Görkəmli alim Əmin Abid yazırdı ki, azərbaycanlıların ən qədim ədəbiyyatı xalq ədəbiyyatıdır ki, bu da oğuznamələrdir. "Oğuznamə"lər miladi tarixinin ilk əsrlərindən başlayaraq XVIII əsrə qədər gəlmişdir(18,29-30).

Tarixdə Oğuzlar - böyük türk alimi Orxan Şaiqin dediyi kimi «VI yüz ildə Çindən Qara dənizə qədər uzanan sahədə, bütün türk qəbilələrini bir imperatorluq halmda birləşdirmişdir. Oğuzlar Xəzər dənizi üzərində Gürcüstandan Sır Dərya (Seyhun) irmağmm orta yatağın- dakı Qaraçuq (Farab) və Sayram (Isficab) şəhərlərinə qədər olan yerlərdə yaşayırdılar»(98, XXXIII).

Azərbaycanm Oğuz elinə daxil olması tarixi faktlardan məlumdur. Bir çox alimlər oğuzlarm Azərbaycanda, Anadoluda eradan çox-çox əwəllər yaşadıqlarmı qeyd etmişlər. Faruq Sümərin «Oğuzlar» əsərin- də deyilir: «Oğuzlar azərbaycanlılarm əcdadlarıdır... Oğuzlar Türkiyə türkləri, Azərbaycan türkləri, Iran və Türkmənistan türklərinin atalarıdır»(19,2).

Görkəmli yazıçı Anar dəyərli bir əsərində yazır ki, «Oğuznamə» sübut edir ki, IX-XII əsrlərdə - Azərbaycanda ərəb və fars dillərinin zorakı yazılı dil hüququnu ələ keçirdiyi bir vaxtda, hətta çox-çox əvvəllər oğuz dili ədəbi-bədii fəaliyyətdə olmuş, zəngin bəşəri məndəricəsi, ictimai-tarixi kəsəri, yüksək ədəbi-estetik səviyyəsi ilə

seçilən ədəbiyyat yaratmışdır. XI əsr İran şairi Mənuçöhr Damğaninin azərbaycancaya tərcümə edilmiş beyti də bu fakü təsdiq edir: Mənə o türkmənsayağı çox yaxşı dediyin türk və oğuz şeirindən oxu (4,124).

Bizə məlum olan bir neçə «Oğuznamə» mövcuddur. Daha qədim, daha geniş yaydmış və dərin məzmunlu «Oğuznamə» Paris Milli Kitabxanasmda saxlamlır. Həmin «Oğuznamə»ni ilk dəfə olaraq XIX əsrin əvvəllərində alman alimi F.Dits bəzi hissələrini almancaya tərcümə edib 1815-ci ildə Berlində nəşr etdirmişdir. 1959-cu ildə isə rus alimi A. M. Şerbak bu əsəri bütünlüklə Moskvada nəşr etdirmişdir(120). Şerbak bu Oğuznaməni XI-XIII əsrlərə, V.V.Bartold və Rza Nuri bunu daha əvvələ - IX-X əsrlərə aid etsə də hər iki alim «Oğuznamə»lərin daha qədim tarixə malik olmasım istisna etmir, Hun dövründə və bəlkə skif-saka dövründə Oğuznamələrin məlum olduğunu bildirirlər. Professor Kamil Vəli Nəriman oğlu və Fəxri Uğurlu A.M.Şerbakın 1959-cu ildə nəşr etdirdiyi «Oguznamə»ni transkripsiyası ilə birlikdə Bakıda 1993-cü ildə «Oğuznamələr» adı ilə çap etdirmişdir(53).

Fəzlullah Rəşidəddinin «Oğuznamə»si isə daha çox dinlə, dini rəvayətlərlə bağlıdır. Bu «Oğuznamə»də Oğuzun şəcərəsi verilmişdir ki, bunun Nuh peyğəmbərdən gəldiyi göstərilir. Yeri gəlmişkən qeyd edək ki, Nuh peyğəmbərin gəmisinin Naxçıvanda Gəmiqayada - onım Qafqazda ən yüksək zirvəsi olan Qapıcıqda oturması və qəbrinin də Naxçıvanda «Köhnə Qala»da («Nuhtaban») olması bir çox mənbələrdə göstərilir. Bu əsərin maraqlı cəhətiərindən biri Oğuzım Azərbaycana- Arana, Şirvana, Muğana, onun yaylaqlarına səfərinin verilməsidir. Göstərilir ki, Oğuz qışı Kür və Araz çayları arasmdakı yerdə özünə yurd etmişdir. F.Rəşidəddinin «Oğuznamə»sini farscadan tərcümə edən R.M.Şükürova qeyd edir ki, bu «Oğuznamə» ya Anadoluda yazdmış, ya da Azərbaycanda yazdmışdır. «Oğuznamə»də oxuyuruq ki, «Azərbaycan» türk sözüdür. «Azər» türkcə «Yüksək», «Bayqan» isə yer, məkan deməkdir( 106,41).

«Oğuznamə»nin İslam variantiarından biri 15 vərəqlik, 104 beytiik məsnəvi formasında nəzmə çəkilmiş, ərəb əlifbasında «Mənzum
Oğuznamə»dir ki, bu Türkiyədə Seyid Əli adlı bir şəxsin kitab-xanasından tapılıb. Bu barədə ilk dəfə H.N.Orkun Türkiyədə məlumat vermiş və daha sonra 1935-ci ildə onu «Bir Oğuz əfsanəsi» adı ilə nəşr etdirmişdir. Azərbaycanda Professor Kamil Vəli Nəriman oğlu bu «Oğuznamə»ni «Oğuznamələr» kitabmda vermiş və ehtimal etmişdir ki, bu Rəşidəddinin «Oğuznamə»sinin bir hissəsi ola bilər(60,23). Lakin, «Mənzum Oğuznamə»ni qədim türkcədən çevirən və ona ön söz yazan I.M.Osmanlmın Bakıda nəşr etdirdiyi kitabından məlum olur ki, 15 vərəqdən ibarət olan «Mənzum Oğuznamə»nin 11 vərəqi Ədib Əhməd Yüknəkinin «Atəbətül-Həqayiq» əsərindən, yalmz 4 vərəqi «Mənzum Oğuznamə»dən ibarətdir. Daha bir «Oğuznamə» ərəb əlifbası ilə yazılmış «Əmsali-türki»dir.(«Türk misallarx») O Sankt- Peterburq Dövlət Universitetinin Şərq fakültəsinin kitabxanasında saxlanılır. Professor Samət Əlizadə onu əldə etmiş, bu əsəri IX-XI əsrlərə aid etmiş və 1987-ci ildə Bakıda özünün geniş şərh və izahı ilə çap etdirmişdir(59).

Türkiyədə nəşr olunan «Tarih» dərgisində «Uyqurca Oğuz destanı» adlı yazıda məzmımca S. Əlizadənin əldə etdiyi «Oğuznamə»yə yaxm bir Oğuz dastanı verilmişdir. Müəllifi olmayan bu yazıda deyilir: «Uyqurca Oğuz dastanımn İlhanilər dövründə Qazan Xan zamamnda yazıldığı şübhə edilməməlidir»(102,17).

Oğuz xanın tarixi-əfsanəvi şəxsiyyət olması haqqmda, onun yüksək qəhrəmanlığı, şücaəti, əxlaqi-mənəvi keyfiyyətlərə sahib olması haqqında Yazıçıoğlu Əlinin «Səlcuqnamə»sində də, «Oğuznamə» parçalarmda da görmək olar.

Daha bir «Oğuznamə» haqqmda XIV əsrin tarixçisi Əbubəkr İbn Abdulla İbn Aybək əd-Dəvadari məlumat vermişdir.Dəvadari X əsrə qədər Azərbaycan tarixində baş vermiş hadisələr haqqında yazdığı kitabmda «Oğuznamə»nin admı çəkir.Təəssüf ki, admı çəkdiyi kitab hələlik tapılmamışdır. Amma, başqa mənbələrdən məlum olur ki,

bizə gəlib çatmayan həmin «Oğuznamə»də Təpəgöz haqqmda danışılır ki, bu Dədə Qorquddakı Təpəgöz sərgüzəştindən bir qədər fərqlidir.Belə ki, Təpəgöz əcaib, nəhəng bir məxluq imiş, təpəsində bir gözü varmış. Anası böyük dənizin cinlərindən, atası nəhəng bir adam olmuşdur.O məmləkəti dağıdır, insanları öldürür, yeyirdi. Nəhayət Oğuzlarm içindən yetişən Ərs (Aruz) oğlu Büsat adında bir qəhrəman Təpəgözü öldürmüşdür.Bu hadisə belə olmuşdur: Bir qız varmış onu yenən adama gedəcəyini bildirmişdi. Büsat bu qızı yendi və qızla bərabər atasınm yanma gəldi, qızı yendiyini bildirdi.Atası da cavab olaraq dedi:-Mən elə sandım ki, Təpəgözü öldürmüşsən. Büsat bu sözün üzərinə həmən getdi və Təpəgözü əqlin qəbul etmədiyi bir yolla öldürdü. Əmin Abid bu məlumatdan çıxış edərək yazır ki, «Oğuznamə»lər V-VII əsrlərə aiddir(18,19).

«Oğuznamə»lərdən məlum olur ki, Oğuzun altı oğlu olmuşdur. Bunlarm hər biri mifik adlar daşımaqdadır: Gün, Ay, Ulduz, Göy, Dağ, Dəniz.Oğuzun bu altı oğlunun hər birinin dörd oğlu olmuşdur. Bunlardan meydana gələn oğuz boyları Oğuzun bu iyirmi dörd nəvəsinin adlarını almışdır. Haqqında danışdığımız «Oğuznamə» Dədə Qorqud oğuzlarmm həyat tərzini, məişətini, adət və ənənəsini, mənəvi, əxlaqi keyfiyyətlərini əks etdirir. Oğuznamədə bir əxlaqi keyfiyyət kimi dostluğa, ağıla, biliyə, namusa, əxlaqa yüksək qiymət verilir və dəyərləndirilir. «Oğuznamə»də deyilir: «Mən sənə başımı, canımı verərəm, vergi verib dostluqdan çıxmaram. Oğuz Kağan cavamn sözünü bəyəndi, sevindi, güldü»(59,22). Və yaxud: «Onun adı Uluğ Ordu bəy idi. Ağdlı, bilikli, bir ər idi»(59,23). «Oğuznamə»lərdə toplanmış atalar sözü və məsəllərin böyük tərbiyəvi əhəmiyyəü vardır ki, onların əksəriyyəü «Kitabi Dədə Qorqud» dastanlarmda öz əksini tapmışdır. Məsələn deyilir: «Allah-Allah deməyincə işlər düzəlməz», «Qonşu haqqı-Tann haqqı», «Qaravaşa don geydirsən, xamm olmaz», «Qadir Tanrı verməyincə ər varlanmaz», «Qız anadan görməyincə öyüd almaz, oğul atadan görməyincə süfrə açmaz», «Təkəbbürlük eyləyəni Tanrı sevməz», «Oğlu-qızı olan ev yıxılmaz». Verilən atalar sözləri Dədə Qorqud kitabmın giriş bölümündə verilmişdir. Orxan Şaiq Gökyay yazır: «Bunlar Oğuzların günlük həyatlarma dair olub insanların

əxlaqmı düzəltmək yolunda öyüdləridir, pis insanlarm isə xarakterik xüsusiyyətləridir. Bu barədə olan fikirlər tənqid və ya zarafat şəklində verilmişdir. Bunlarm çoxu «Oğuznamə»də verilmişdir ki, bu da oğuzların keçmiş adət və ənənələrini göstərir( 98, CLXXI).

«Oğuznamə»lər yetişən gənc nəslimizdə milli mənlik, milli özünüdərk, milli müstəqillik təfəkkürü və şüuru formalaşdırır, insanlarımzda milli dövlətçilik, vətən, millət sevgisi, böyüklərimizə, ulularımıza hörmət tərbiyə edir.

«Oğuznamə»lərdə ulu babalarımızm həyat tərzi, adət-ənənələri, Oğuz xaqanm və Oğuz bəylərinin qəhrəmanlıq səhifələri əks etdirilmişdir. Bu mənəvi abidə qədim və erkən orta əsrlər dövrünə aid olub nəsillərin təlim və tərbiyəsində, yaşayış tərzində, ədəb-ərkarunda mühüm rol oynamış və ümumtürk pedaqoji fikrinin formalaşmasına, inkişafına qüwətli təsir göstərmişdir.

«Oğuznamə»lərdəki atalar sözləri və zərbül məsəllərin bir qismi Dədə Qorqud kitabının əvvəlindəki ata sözlərinin eynisidir. Dədə Qorqud hekayələri Oğuz dastanmm bir hissəsi və ya davamı kimi də adlandırıla bilər. Elə Kitabın içində də bu hekayələrin Oğuznamə adlandırıldığını görürük. «Qazılıq qoca oğlu Yeynək boyu»nda deyilir: «...Min yerdə ipək xalça döşənmişdi. Iç Oğuz və Daş Oğuz bəyləri məclisə toplaşmışdı...Dədəm Qorqud gəlib boy boyladı soy soyladı. Bu Oğuznamə Yeynəyin olsun!- dedi»(36,195). Görkəmli ədəbiyyatşünas alim Fuad Köprülüzadə Dədə Qorqud kitabmdakı on iki boyun hər birini ayrıca «Oğuznamə» adlandırmışdır(37,13). Zatən «Kitabi-Dədə Qorqud»un hər bir boyunun sonunda Dədə Qorqud gəlib bir Oğuznamə qoşur.

Həm Oğuzun, həm də Dədə Qorqudun ümumi cəhətlərindən biri müəyyən əşyalara ad verməsidir. Məsələn, Oğuz Xaqan müəyyən hadisələrlə bağlı «Xalaç, Kanqlı, Karluk, Qıpçak» və s. adlar vermişdir. «Oğuznamə»də belə deyilir: «Ər ləqəbi ilə tanmar»(59,15). Demək Oğuzlar arasmda «ər»-igid sayılmaq üçün onun qəhrəmanlığına uyğun bir ləqəb qazanması zəruri imiş. Ləqəb şəxsiyyətin kimliyini müəyyənləşdirən vacib titul sayılırmış. «Dədə Qorqud» qəhrəman- larınm da bir çoxunun ləqəbi, qəhrəmanlıq adı

konkret iş, əməllə, qəhrəmanlıq hadisələri ilə bağlı olur. Məsələn, Buğac, Bamsı Beyrək, Basat, və s.

«Oğuznamə»lərdə elə atalar sözləri də var ki, onlar çox qədim tarixə malik olmuş və sonralar isə ciddi məna və məzmun fərqi olmadan, müxtəlif deyimlərlə xalqımızın dilində işlənmiş, yaxud «Dədə Qorqud» dastanında, ya da mütəfəkkirlərin əsərlərində öz əksini tapmışdır. Məsələn, «Oğuznamə»lərdə deyilir: «Ac kiminlə gərəksə savaşar». Mahmud Kaşqarlının «Divanü luğat- it türk» əsərində isə bir qədər fərqli deyimlə belə deyilir: *«Tox nə deməz, ac nə yeməz»; «Toxu tərpətmə, acı dindirmə».*

«Oğuznamə»lərdəki atalar sözü və məsəllərin bir çoxu Azərbaycan klassiklərinin (Qətran Təbrizi, Xaqani, Nizami) əsərlərində də işlən- mişdir. Məsələn, Qətran Təbrizinin -«Ömrü boyu kimsəni bir dəfə ilan sancsa, daima ala çatı onım gözlərinə ilan görünər», «Günəşi palçıqla suvamaq olmaz», Xaqaninin «Dağ dağa qovuşmaz, qovuşar adamlar», Nizaminin «Əsl dost odur ki, yaman gündə əlindən tutsun» kimi müdrik kəlamları «Oğuznamə»lərdə eyni məzmunlu atalar sözləri ilə səsləşməsi onların haradan qaynaqlandığmı göstərir. "Oğuznamə"- lərdə verilmiş atalar sözləri və müdrik fikirlər insanlarm mənəvi cəhətdən zənginləşməsinə, dünyagörüşlərinin genişlənməsinə, həyaü öyrənmələrinə kömək edir. Məsələn, «Oğuznamə»də deyilir: *«Az söylə, öz söylə», «Azı bilməyən, çoxu heç bilməz», «İki qarpız bir qoltuğa sığmaz», «Alimin sərmayəsi kitabdır», «Dəniz olub daşma, əindən gəlməyən işə dolaşma», «Doğruya Allah yardımçıdır», «İgidin bəxtindən, qocanın fikri yeydir», «Yüksək olma təpə-təpə yerə endirərlər, alçaq olma, basa-basa yerə köçürərlər», «Təpəyənin köpünü süsəyən yatırar», «Bal deməklə ağız dadlı olmaz»,«Ac ol, dinc ol»* (59,16,17.19).

«Dədə Qorqud»da oğuzun yuxusu», «kiçicik ölüm» adlandırılır. Oğuzlar yuxu ilə ölüm arasmda bir bağlılıq görmüşlər. Oğuzlarda belə ifadə vardır «Yatdm, öldün!». Ona görə də oğuzlar mümkün qədər yatmaqdan çəkinər və yatanda da bir başqası yatana zərər toxunmasm deyə onun keşiyini çəkərmişlər. Istər «Oğuznamə»lərdə, istərsə də Dədə Qorqudda verilən atalar sözləri və məsəllər xalqın mənəvi inkişafmda mühüm əhəmiyyət kəsb etmiş və yetişən nəsil öz

ilkin təlim və tərbiyəsini belə ibrətamiz müdrik kəlamlardan almışdır.

«Oğuznamə»lər türk xalqlarmm həyaüm, mübarizəsini, mənəviyyaüm əks etdirən ədəbi, tarixi, pedaqoji qaynaqlardır. «Oğuznamə» oğuz mədəniyyətinin nəsildən nəslə, gecə-gündüz yaşadan həyat kitabı, mənəviyyat əxlaq, öyüd, nəsihət kitabıdır. Mənzum «Oğuznamə»nin sonunda deyilir ki, «Gərçi söz çoxdur, ancaq biz sözü uzatmadan dedik, çoxunu qoyub, azını söylədik. Oğuz bildiyi elin hamısını tərbiyə etdi; onlardan çox nəsillər törəyibdir...»

Biz də sözümüzü bitirərkən deyirik ki, «Oğuznamə»lər bütün dövrlərdə xalqın qiymətli tərbiyə vasitəsi olmuş, yaradıcı insanlarm müraciət mənbəyi olmuş və xalq pedaqoji fikrinin formalaşmasında, etnopedaqogikamn inkişafında mühüm əhəmiyyət kəsb etmişdir.

## 2. Dədə Qorqud dastanlarında pedaqoji fikirlər

Hər xalqırı pedaqoji fikrini, mədəniyyət tarixini, onun qədimliyinin və ululuq dərəcəsini təyin edən amillərdən biri onun əcdadlarının yaradıb yadigar qoyduğu ədəbi-bədii tarixi abidələrdir. Mənəvi abidələrimiz sırasında, pedaqoji fikrin inkişafmda xalqımızm ən qədim mənəvi abidəsi olan «Kitabi- Dədə Qorqud»un son dərəcə əvəzsiz yeri vardır.

Müstəqillik qazanmış Azərbaycanımızda milli-mənəvi şüurün yüksəlişində, soykökümüzə qayıdışm dərinləşməsində «Kitabi-Dədə Qorqud» dastanlarımn oyada biləcəyi təsiri əvəz edən ikinci bir yazılı və ya şifahi ədəbi abidə tapmaq çətindir.

Azərbaycan respublikasırun dahi şəxsiyyəti, türk dünyasının böyük oğlu, ümummilli Hderimiz H.Əliyevin «Kitabı-Dədə Qorqud» un 1300 illiyini qeyd etmək barədə 20 aprel 1997-ci il tarixli Fərmanı tariximizə, mədəni irsimizə göstərilən böyük qayğı və diqqətin parlaq nümunəsidir. Fərmanda deyilir: «Oğuz türklərinin tarixini əks etdirən «Kitabi-Dədə Qorqud» yüksək bəşəri ideallar tərənnümçüsü kimi dünya xalqlarımn mənəvi sərvətlər xəzinəsinə daxil olmuşdur»(12) . Dədə Qorqud məhz Azərbaycan xalqınm ən qədim, ən möhtəşəm abidəsidir ki, alimlər artiq bunu qəti təsdiq etmişlər. Xalqımız 2000-ci ildə Dədə Qorqudun 1300 illik yubileyini təntənə ilə qeyd etdi. Bu məsələnin aktuallığını nəzərə alan Yunesko 1998-ci ili Dədə Qorqud ili elan etmişdir. 2000-ci il aprel aymda Bakı şəhərində keçirilmiş beynəlxalq miqyaslı Dədə Qorqudurt 1300 illik yubileyirıdə xalqımızm sevimlisi, əbədi lideri H.Əliyev demişdir: «Kitabi-Dədə Qorqud yubileyinin ən böyük mənası, əhəmiyyəti ondan ibarətdir ki, bu bizim milli azadlığımızı, dövlət müstəqilliyimizi sərbəstliyimizi bir daha nümayiş etdirir. Kitabi-Dədə Qorqud vəsiyyətləri bizə deyir ki, daim müstəqillik yolu ilə getmək, Azərbaycanm milli azadlığım və dövlət müstəqilliyini əbədi etmək bizim hər birimizin qarşısmda duran ali məqsəddir... Kitabi-Dədə Qorqud bütün çətinliklərə, məhdudiy- yətlərə baxmayaraq 1300 il ərzində bizim xalqımıza mənəvi qida olmuş,

onlarm yaşamasına, mübarizə aparmasma öz milli mənliyini dərk edib, hifz etməsinə daim yardım göstərmişdir»(ll).

Pedaqoji fikir tariximizin görkəmli nümayəndəsi, professor Əjdər Ağayev Dədə Qorqud irsinə yüksək qiymət verərək yazmışdır: «Kitabi Dədə Qorqud» Azərbaycan pedaqoji fikir tarixinin ən dəyərli qaynaqlarındandır. Bu əsərdə böyük insanpərvərlik ideyaları, mənəvi ucalıq, qəhrəmanlıq və mərdliyə çağırış həkk olunmuşdur. Dədə Qorqud pedaqogikasında şəxsiyyətin keyfiyyətləri konkret olaraq göstərilir: Vətəni, torpağı, eli-obanı canın qədər sevmək və onu qorumaq üçün hazır olmaq; şəxsi mənafeyin güdülməməsi, hər şeyin xalq üçün edilməsi; Aca çörək, yalma ayaqqabı, pulsuza pul vermək humanist, xeyirxah olmaq; qan tökməmək, qonşularla dinc yaşamaq, mənəviyyatca təmiz, saf ürəkli olmaq; qadına hörmət və ehtiram bəsləmək; ana, ata haqqırn tanrı haqqı bilmək onlara sonsuz hörmət və ehtiram, sədaqət göstərmək; cəsarətli, çevik, qorxmaz, güclü olmaq; gözəllikdən zövq almağı bacarmaq; dosta rəgbət, düşmənə nifrət bəsləməyi bacarmaq; mərd olmaq, dostluqda ədalətlilik; şərtə sözsüz əməl etmək, söz və əməl birliyini qorumaq; ağıllı, tədbirli olmaq, düşmənin hiyləsinə uymamaq; qadımn ailə, ər namusunu ölümdən üstün tutması və s.. .»(3,45).

Dastanda əxlaq tərbiyəsinin mühüm tərkib hissəsi olan vətənpərvərlik, yurd sevgisi əsərin əsas ideyasım təşkü edir. Bu ideya isə qə- dim oğuz türklərinin qəhrəmanlıq şücaətlərindən süzülüb gəlməkdədir. Dastanda yetişən nəsüdə vətənə məhəbbət tərbiyəsi üçün ilk növbədə onalara vətəni tanıtmağa və sevdirməyə yön verilir. Vətənin dağları, çölləri, bulaqları, al-əlvan çəmənləri, əzəmətli qalaları, abidələri haq- qmda söhbətlər gedir. Dastanm boylannda Qədim Azərbaycarun yaşayış yerləri olan Dərbənd, Gəncə, Bərdə, Şərur, Dərələyəz, Göyçə mahalı, Borçalı, Əlincə qalası, Qaraçuq və s. yerlərin adı çəkilir ki, bu da Azərbaycamn nə qədər geniş ərazilərə malik olmasmdan xəbər verdiyl kimi, bu yerlərdə oğuz ərənlərinin at çapıb, saz çalıb, söz deməsini, qəhrəmanlıq göstərib yurdunu qorumasmı görürük. Dastanda oğuz- türk analan vətəni müdafiə edən oğullanna tərbiyə verərək deyirdilər: «Oğul dağdan uçmasm, oğul suda axmasm. Oğul azğm düşmənə əsir

düşməsin»(36,76). Dastanda döyüşü tərk edib, geri dönmək, yoldaşı müdafiə etməyib qaçmaq çox ağır cəzalandınlır, hətta beləsi öldürülməkdən vaz keçilmir. Məsələn Qazan Xan oğlunun döyüş meydarundan qaçdığını zənn edib deyir: «Onu alü bölük edib, alü yolım ayrıcma tullayacam ki, kimsə döyüşdə yoldaşım qoyub qaçmasm»(36,74).

Oğuzlar düşməni yurdıın sərhədlərindən qovub çıxardıqdan sonra aman diləyəni bağışlayır, qaçanı qovmurdular. Dastanda döyüş meydanmda kişi kimi döyüşmək tələb olunur. Qaçanı öldürmək, yatanı vurmaq, xəbərsiz hücum etmək pislənir. Türk qəhrəmanlarırun hansı birinin mübarizə yoluna baxsaq, onların tarixdə kişilik, mərdlik ənənəsi qoyub getdiyini görürük. Oğuzlar mərdi-mərdanə döyüş- müşlər. Bu mənada dastanda deyilir ki, Qazan xan qaçam qovmadı, aman deyəni öldürmədi.

Qəhrəmanlıq səhnələri ilə zəngin olan dastanda xalq təfəkkürünün elimizin qəhrəmanlığına, ailəyə, qadına, bəyə, ozana, düşmənə münasibətləri əsərdə özünü göstərir. At belində ərənlərdən geri qalmayan, köç yollarında oğul doğurub böyüdən oğuz qadmları kişilərdən geri qalmır. Sərt mübarizə yolları oğuz qadınlarını mətinləşdirmiş, ərənlər də özləri kimi qəhrəman, dəyanətli həyat yoldaşı seçirlər.

Dastanda ad vermə mərasimi qəhrəmanlıq, igidliklə bağlı olub böyük tərbiyəvi əhəmiyyət daşıyır. Burada oğuz adətinə görə oğlan uşaqlarma doğularkən deyil, haq etdikləri işinə görə, qəhrəmanlığma görə ad verilir. Bu cəhətdən oğuz elində yaxşı ad qazanmaq üçün yaxşı işlər ğörmək lazımdır. Dirsə xan oğlu Buğac xan hekayəsində Dədə Qorqudun Buğac xana ad verilməsi də bu qəbildəndir: «...Bu oğlan

Bayandır xanm meydanında vuruşmuşdur. Sənin oğlun bir buğa öldürmüş, adı Buğac olsun. Adrnı mən verdim, yaşmı Allah versin»- deyə Qorqud Dədə deyir. Yaxud da Bamsı Beyrək hekayəsində bir bəzirgam vuran Avnik qalasmm kafirlərinin əlindən onların malmı qurtaran, on beş yaşına basdığı halda «baş kəsib qan tökmədiyi üçün «hələ bir adı olmayan igidin adını da Dədə Qorqud qoyur: «...Sən oğlunu Bamsım deyə oxşardm, bunun adı Boz ayqırlı Bamsı Beyrək olsun, adını mən verdim, yaşmı Allah versin»(36,134). Bir başqa yerdə də Aruz Qocamn əmizdirib böyütdüyü oğlxma adı Dədə Qorqud verir: «Böyük qardaşınm adı Qıyan Səlcuqdur, sənin admı Basat olsun! Admı mən verdim, yaşını Allah versin»(36,196).

İlk döyüş tərbiyəsi olaraq hərb təlimləri, at minmək, qxlınc oynatmaq, oxla rüşan almaq, küştü tutub güləşmək, vəhşi heyvarxlarx ovlamaq və s. Gənclərə aşxlanan məşğələlərdəndir. Oğuz elində gənclər boş vaxtlarxnda ox atar, ox atma yarxşlarx keçirərdilər. İgidlər ox atar, oxun düşdüyü yerdə də çadır qurardılar.

Dastanda gənclərə döyüşmək qaydaları, döyüş, zəfər taktikası öyrədilir. Dastanda göstərilir ki, Bayandır xanın bir buğasx, bir də buğrası vardı. Bir yazda, bir də payızda onlarx meydana buraxxrdxlar. Bayandır xan qalxn oğuz bəyləri ilə tamaşaya baxxrdı. Lakin bu əslində sadəcə «Tamaşa», «Əyləncə» deyildi, əvvəlcədən düşünülmüş təşkil edilmiş bir məşğələ idi. Oğuz ərənlərini, xüsusilə gəncliyi yeüşdirmək, güclü, qüdrətli etmək üçün təlim, tərbiyə növlərindən biri idi.

Dastanda qadınlar da kişilər qədər mübarizdir. Dastanda Beyrəyin evlənmək vaxtx çatanda deyir ki, «Ata mənə elə qız al ki, mən yerimdən durmamış o dursun, mən ata minməmiş o minmiş olsun. Mən düşmənin üstünə gedənə qədər, o mənə baş gətirsin»(36, 103). Qadm həm də evin dirəyi, nəsil artiran, incə məlahətli, gözəl nəvazişli yüksək mənəviyyatlx xanım kimi təsvir edilir.

Dastanda oğuzlar həyatm bütün sahələrində əxlaqi davranış və rəftarlarında igidlik, qorxmazlıq, cəsurluq və düzlük nümayiş etdirir- lər. Belə ki, böyük miqdarda silahlı düşmən Qaraca Çobanxn üzərinə gəldikdə o qorxmur, özünü itirmir. O, düşməni görərkən

dərhal qərar çıxarır; vəziyyətin çox qorxulu olmasına baxmayaraq, düşmənlə çarpışmağı qərara alır.

Başqa bir boyda isə qorxmazlıq, ölümə qalib gəlmək nümunəsini görə bilərik. Qanturalı bütün təhlükələrə baxmayaraq səfərə çıxır, yolundan dönmür. Basat oğuz elinin qorxunc düşməni Təpəgözlə vuruşmağa gedir. Həm Qanturalı, həm də Basat onları gözləyən təhlü- kələrin nə qədər qorxulu olduğunu, hətta ölüm ilə üz-üzə gələcəyini əwəlcədən bilirdilər. Ancaq onlar tam qətiyyətlə məqsədlərinə doğru gedərək böyük mübarizədən sonra qalib çıxırlar.

Kitabi Dədə Qorqudun hər bir boyu elə-obaya, ata-anaya, qardaş-bacıya ülvi məhəbbətin canlı salnaməsidir. Burada ailə şərəfini, namusunu qorumaq, ocağa dərin bağhlıq, ana və qadın ləyaqətinə dərin hörmət, ata ehtiramını saxlamaq, ailə tərbiyəsi ilə bağlı çox qiymətli, ibrətamiz nümunələr və ifadələr vardır. Dastanda «Ana haqqı»-«Tanrı haqqı» kimi qəbul edilir. Bu da Məhəmməd Peyğəmbərin (səs) «cənnət anaların ayaqları alündadır» kəlamı ilə səsləşir. Oğuzlarda anaya məhəbbət tərbiyəsi ən müqəddəs iş hesab edilmişdir. Dastanm boylarında ana haqqı tanrı haqqı ilə bərabər tutulur. Qadınlar qəhrəmanlıq göstərərək ələrinin, qızlar isə nişanlılarınm yolunda fədakarlıqlar göstərərirlər. Qeyd edək ki, İsveçrə pedaqoqu İ.H.Pestalotsinin pedaqoji müddəalarmın əsasını uşağın anaya məhəbbəti təşkil edir. Dədə Qorqud isə min il ondan öncə bu ideyam daha dolğun şəkildə ortaya qoymuşdur. «Salur Qazanın evinin yağmalanması boyu»nda bütün varidaü Şöklü Məlik tərəfindən talan olunub aparılan Salur Qazan düşmənlə qarşılaşarkən hər şeyindən «Qızıl tağlı uca evlərindən», «qiymətli xəzinəsindən», «bol gümüşün- dən», hətta «qırx igidlə birlikdə oğlu Uruzdan» və «qırx incə belli qızla Burla xatım»dan da keçir, amma anasından keçmir. Burada da övladın anaya olan məhəbbəti insan mənəviyyahnın, əxlaqın ən yüksək zirvəsini görürük. Bu boyda Qazan xanm evi yağmalanır, var dövləti talan edilir, anası, arvadı Burla xatun, oğlu Uruz əsir aparılır. Qazan xan döyiişmədən əvvəl Şöklü Məliyə müraciət edərək belə deyir:

*Qırx incə belli qızla Burla xatunu gətirmisən sənə əsir olsunl Qırx igidlə oğlum Uruzu gətirib gəlmisən sənin qulun olsunl Qoca anamı gətirmisən, ay kafir, anamı ver mənəl Savaşmadan, vuruşmadan qayıdım, geri dönüb gedim! (36,147).*

Salur Qazan var-dövlətini, sərvətini düşmənlərə verdiyi halda, anasmı, arvadmı, oğlunu, bütövlükdə bütün adamları almağı özünə müqəddəs borc hesab edir və belə edilərsə, günahsız qanlarm tökülməsinə də razı olmur. Salur Qazan sülh, əminamanlıq istəyir. Burada oğulun anasına olan ülvi, sonsuz məhəbbətin, ana müqəddəsliyinin nümunəsini görürük.

«Qazan bəyin oğlu Uruz bəyin dustaq olduğu boy» da oğuzlarda Ata-oğul münasibətinin gözəl və təsirli nümunəsi verilmişdir. Kef məcüsində oturan Qazan Xan sağ yarunda oturan qardaşı Qaragiinəyə, sol yanmda oturan dayısı Aruza baxır, qah-qah gülüb sevinir. Qarşısmda duran oğlu Uruza baxıb ağlayır. Bunun səbəbini atasından soruşduqda o cavab verir ki, 16 yaşma çatmısan, bu vaxtadək baş kəsməyibsən, qan tökməyibsən, bir mükafat almayıbsan. Fikirləşdim ki, mən öləndən sonra taxt tacrmı sənə verməzlər, ona görə də ağladım. Burada birinci növbədə, cəmiyyət üçün çox böyük əhəmiyyəti olan bir xüsusiyyətə diqqət yetirmək lazımdır ki, oğuzlarda övlad bəyzadə olsa da igid deyilsə ona məmləkət həvalə edilə bilməz. Uruz həmişəki kimi atasına müraciət edərək-«qara başım qurban olsun, atam (ağam), sənə»- deyir və atasının nöqsarunı çəkinmədən, sanki bir dostuna söyləyərək belə deyir:«Sən məni haçan götürüb kafir sərhəddinə çıxardın, qılmc çalıb baş kəsdim? Mən səndən nə gördüm ki, nə öyrənim?-dedi» (36,167). Qazan bəy oğlıınun bu sözlərindən heç də qəzəblənmir, onu səmimi qəbul edir və gülür. Oğlunu götürüb bəylərlə dağlara ova çıxır. Kafirlərlə qarşüaşırlar, Qazan xan oğlu Uruza döyüşməyə girməyə icazə verməsə də Uruz döyüşə girir düşmənləri qırıb tökür. Uruz əsir alırur. Qazan Xan oğlunu axtarır tapmır. Bəylər deyir: «Oğlan quş ürəkli olur. Qaçıb anasnun yaruna getmişdir. Gedək, onu anasının yamndan alaq, qılıncla paralayaq, altı bölük edək, alti yolun ayrıcma ataq. Bir daha kimsə çöllük yerdə yoldaşı qoyub qaçmasm»(36.170). Göründüyü kimi qorxaqlıq, döyüşdən fərarilik,

dosta sədaqətsizlik bağışlanmır və Qazan xan hətta yeganə oğlu üçün də belə amansız qərar çıxarır.Bütün bu hadisələr vətənpərvərlik tərbiyəsinin bariz nümunəsidir.

Dastanda ailə münasibətləri, qohumluq əlaqələri yüksək əxlaqi keyfiyyətlər əsasında qurulur. Oğuz gəlinləri bir övlad kimi qayın-ataya, qayınanaya çox böyük hörmət və ehtiramla yanaşır, onları öz valideynlərindən də yüksək tuturlar. Qardaşını axtarmaq üçün səfərə çıxan Səyrəyi bu yoldan çəkindirmək üçün Qazan xanm məsləhəü ilə evləndirirlər-«ayağma ət tuşağı (buxov) vururlar. «Oğlan fikrindən dönmür, qardaşmı tapmaymca gərdəyə girmir. Gəlin onu yolxmdan saxlaya bilməyəcəyini başa düşür və öz-özünə deyir: «Mənə qədəmi uğursuz gəlin deyincə, utanmaz, arsız gəlin desinlər. Qayınatama, qaymanama xəbər verim gərək»- söyləmiş, qız demişdir:

*«Atamdan yaxşı qaynata!*
*Anamdan yaxşı qaynana!*
*.. .Ala gözlü oğlun qardaşını anıb gedir,*

*Ağca üzlü gəlinin döndərə bilmir, sizə məlum olsun»* (36, 210-211)! Burada həm də qardaş məhəbbəti, qardaş borcu, qardaş yolunda xoşbəxtliyini, canım qurban verməyə hazır olmaq fədakarlığı tərən-nüm edilir. Ağır smaqlardan keçib, min bir cəfaya dözə-dözə vüsala çatmaq zamanı Vətəninin, ata-anasmı xaürlayan Qanturalı qətiyyətlə bildirir ki, «Yer kimi çatlayım. Torpaq kimi sovrulum, qdıncımla doğranım... Əgər bəy atamm, xanım anamın üzünü görməmiş bu otağa girib yatsam»(36,188).

Oğuz elində qadma həmişə yüksək məhəbbət bəslənmiş, onu evin dirəyi, nəsil arüran adlandırmışlar. Dirsə xan qadmmı «başımm baxtı, evimin taxtı», «sərv boylum», «qara saçlım çatma qaşlım, al yanaq- lım», «qadınım, dayağım», adlandırır, ona sonsuz məhəbbətini bildirir. Qadm ailəni quran, yüksəldən, onu dağılmaqdan qoruyan, bu yolda qəhrəmanhqlar göstərən, əxlaqi dəyərləri, ərinə sədaqəti və məhəbbəti ilə böyük tanrmı belə güzəştə getməyə razı salan həyat yoldaşıdır, anadır...Dastanda ər-arvad

məhəbbəti valideyn-övlad münasibə- tindən də üstün verilmişdir. Domrulun atası, anası öz həyatlarını oğullarma qıymadıqlan halda, onırn həyat yoldaşı öz canmı verməyə hazırdır və tanrıya yalvarır ki:

*«Alırsansa, ikimizin canın birgə al,*
*Sağ qoyursan, ikimizə də rəhm et!*
*Kərəmi çox qadir tanrı» (36,181).*

Bu Oğuzda ər-arvad, ailə-məhəbbət münasibəüərindən soraq verən gözəl nümunədir. Məhz bu sədaqətə, bu sevgiyə görə də hər ikisi ulu tanrının «mükafatma» layiq görülür: onlara-hər birinə 140 il ömür bəxş edilir ki, birgə yaşasm, həyatdan kam alsmlar, çünki onlar buna layiqdir, onlar tanrmm əsl və pak övladlarıdır. Budur, oğuzlarda ailə- məhəbbət, əxlaq təliminin nəticəsi.

Dastanda cəmiyyətin inkişafına təkan verən üç mühüm tərbiyə amili öz bədii ifadəsini tapmışdır: 1) Qurulan ailənin məhsulu-oğlu, qızı olmalıdır; 2) Oğul-qız sağlam, güclü, qüdrətli yetişməlidir; 3) Ailə kin-kudurətdən uzaq olmalı, övladm təlim-tərbiyəsi ilk növbədə ana telinə bağlıdır.

Dastandan görünür ki, ailənin tamlığı üçün mütləq uşaq sahibi olmaq gərəkdir. Uşağı olmayan ailələrə yaxşı baxılmaz. Dastanda deyilir ki, Dirsə xanm uşağı yoxdır. Bir gün o Bayandır xanm verdiyi ziyafətə gedir. Ancaq o uşağı olmadığı üçün məclisdə yaxşı qarşılanmır. Çünki xanlar xam Bayandır xandan təlimat almışdır: «Yenə şadlıq məclisi qurub, atdan ayğır, dəvədən buğra, qoyundan qoç qırdır- mışdır. Bir yerdə ağ otaq, bir yerdə qırmızı otaq, bir yerdə qara otaq qurdurmuşdur. Kimin oğlu, qızı yoxdursa, qara otaqda oturdun, altına qara keçə döşəyin, önünə qara qoyun ətinin qovurmasmdan gətirin. Yeyir, yesin, yemirsə-dursun getsin»-demişdir. «Oğlu olanı ağ otaqda, qızı olam qırmızı otaqda yerləşdirin. Oğlu-qızı olmayam Allah qarğayıb, biz də qarğayırıq-qoy bilsin» (36,132) - demişdir.

Burada əsas məsələ ailədə uşağın olması məsələsidir. Bayandır xan məhz uşağı olmayam hədəf almışdır. Uşaq sahibi olmamaq bir kişinin qüruruna ləkədir. Hirslə evinə dönən Dirsə xan uşaqlannm olmama- sırun səbəbini xanımından soruşur: «Səndənmidir,

məndənmidir, Təri- taala bizə bir yetman oğıl verməz, nədəndir? -deyir. Qadm ağlı və məsləhəti ilə nəzir-niyaz edilir; qadm ərini səbrli olmağa, ac qarmları doyurmağı, çılpaqları geyindirməyə, əliaçıq, səxavətli olmağa çağrır:

*«Ac görsərı, doydur; çılpaq görsən, geyindir!*
*Borclunu borcundan qurtar!*
*Təpə kimi ət ytğ, göl kimi qımız sağdır!*
*Böyük şadlıq məclisi qur, Allahdan arzunu dilə!*
*Bəlkə bir ağzı duahnın alqışı ilə*
*Tanrı bizə bir yetkin övlad verə» (36,133).*

Burada qadıran bu məsləhəti və ərinə dediyi sözlərdə cəmiyyətin tərbyiəsi ilə bağlı bir hikmət görünür. Bu yolla, nəzir niyazla da Buğac dünyaya gəlir, böyüyür, igidliyi, ləyaqəti hələ 15-16 yaşında ikən özünü göstərir, cəmiyyət onu ehtiramla qəbul edir.

Oğuz elində, əxlaq, tərbiyə, ədəb-ərkan, böyük-kiçik münasibətləri ali insani keyfiyyət, mənəvi mədəniyyətdir. Bütün dastan boyu əxlaqi, keyfiyyətlərin təntənəsini müşahidə edirik. Yaşlı nəsil-ulular da, atalar da, gənclər də, yeniyetmələr də yüksək əxlaqi üstünlüyə malikdir, bunun üçün cəmiyyətdə bütün imkanlar var: ənənəvi davam edib gələn qayda-qanunlar, azad sevgi, sevib sevilmək, axtarıb bəyənmək, seçmək smaqdan keçirmək hər şey yüksək insani səviyyədədir.

Lakin bütün bunlarla bərabər oğuz eli nadürüstlərdən də xali deyildir. Belələrinə qarşı, şər qüvvələrə qarşı mübarizə dastanda daha kəskin şəkildə qoyulmuşdur. Əxlaqm aliliyi pozularsa bu oğuz elinə çox ağır oturar, fəlakət törəyər, başına müsibətlər gələr. Bu mənada «Basatm Təpəgözü öldürməsi boyu»nda nəsillərə çox ibrətli bir dərs verilir. Dastanda təsvir olxmur ki, Aruzun Qonur qoca Sarı adlı çobara hamıdan tez yaylağa köçür. Arxacda qoyun ürkür. Çoban «Uzun bulaq» deyilən yərdə görür ki, pəri qızlar qanad-qanada veriblər. Yapıncısım aüb onlarm birini tutur və ona tamah salır. Pəri qızı da zina edir və çobana deyir: «Çoban, il tamam olacaq məndə əmanətin var, gəl al- dedi. Amma Oğuzun başına bəla gətirdin» (36,196). Növbəti il yaylağa köçdükdə pəri qızı gəlir və

deyir ki, «Çoban, əmanətini gəl al. Amma Oğuzun başma zaval gətirdin». Beləliklə, zinadan törəyən həmin əcayib məxluq-Təpəgöz dünyaya gəlir, böyüyür və həqiqətən Oğuzun başma bəla olur. Basat bütün oğuz elinin başma bəla kəsilən Təpəgözü böyük qəhrəmanlıqla öldürür, ölkəsini böyük bir təhlükədən azad edir. Dastanda mifik məzmun olsa da Oğuza ibrət dərsi vermək, Oğuz xalqı əxlaqmm müqəddəs, ləkəsiz və toxunulmaz olduğımu ona təlqin etmək, ailə-məhəbbət məsələsində həmişə ilahi mövqedə dayanmaq üçün Oğuz çox sayda imtahana çəkilir, olmayan əziyyət və əzablara məruz qalır, müsibətlərə düçar olur. Bu məsələlər yüksək əxlaqilik, yüksək mənəvi keyfiyyəüər səviyyəsində öz bədii-pedaqoji həllini tapır.

«Salur Qazanın evinin yağmalanması boyu»nda ailə tərbiyəsi, ailənin namusu, qeyrəti və şərəfinin ali və müqəddəs olması diqqət mərkəzindədir. Dastanda oğuz-türk əxlaqı, türk mənliyi, paklığı açılır, bu mənəvi durum Uruzun timsalmda öz ibrətli ifadəsini tapır.

Duşmən Qazan xanın evini yağmalamış, anasmı, arvadı Burla xatunu, oğlu Uruzu və qırx incə belli qızını-gəlinini əsir edib aparmışdır. Düşmən Qazan xarun namusunu hədələyir, ondan hayıf almaq, onu təhqir etmək üçün hər vasitəyə əl atir; arvadı Burla xatimu çəkib məclisə gətirmək istəyir. Amma bu heç də asan deyilmiş. Qırx qızm içində onu tapmaq və tanımaq çətindir. Düşmən qorxulu bir plan hazırlayır; Uruzu çəkib gətirmək, ətindən qovurma edib qadmlara vermək. Kim yedi o deyil, yeməyən oğlanın anasıdır, çəkin gətirin məclisə... Vəziyyət Burla anaya əyan olur və ana üə oğul arasmda belə bir söhbət gedir: «Kafirlər tərs danışmışlar.«Qazan oğlı Uruzu həbsdən çıxarın, boğazmdan örkənlə asın. İki kürəyindən çəngələ sancm, qıyma-qıyma ətindən çəkin. Qara qovurma edib qırx bəy qızma aparm. Hər kim yedi, o deyil. Hər kim yemədi o Qazanm xatunudur. Çəkin, gətirin döşəyimizə salaq, şərab paylatdıraq! Sənin ətindən ay oğul yeyimmi? Yoxsa, iyrənc dinli kafirin döşəyinə girimmi? Ağan Qazanın namusunu tapdayımmı? Neyləyim, ay oğul?!- dedi.

Yəqin ki, ana Burla bu suallarla həm də oğlunun ağlını, tərbiyəsini, yoxlayır. Uruz anasımn bu sözlərindən bərk qəzəblənir,

ona ağır cavab verir: «Ağzın qurusun, ana!» Dilin çürüsün ana! «Ana haqqı-Tanrı haqqı» deyilməsəydi qalxıb yerimdən durardım, yaxandan, boğazın- dan tutardım. Qaba dizimin altına salardım. Ağ üzünü qara yerə çırpardım. Ağzmdan-üzündən qan şoruldayardı. can şirinliyini sənə göstərərdim. Bu nə sözdür? Saqm, xanım ana! Mənim üzərimə gəlməyəsən! Mənim üçün ağlamayasan! Qoy məni, xamm ana, çən- gələ sancsınlar! Qoy ətimdən çəksinlər, qara qovurma edib, qırx bəy qızmm önünə aparsmlar. Onlar bir yeyəndə, sən iki dəfə ye! Kafirlər duymasınlar, səni tanımasınlar. Təki murdar dinli kafirin döşəyinə düşməyəsən. Onlara şərab paylayıb, atam Qazanın namusunu sın- dırmayasan. Saqın»!(36, 145) Oğuz övladı tikə-tikə doğranmasına razıdır, amma ata qeyrətindən, ana namusundan keçmir. Ana övladma verdiyi tərbiyə ilə fəxr etməlidir.

Dədə Qorqud dastanmda kökə dönüş, əslini unutmamaq yüksək əxlaqi keyfiyyət kimi dəyərləndirilir. Bu cəhətdən Salur Qazamn əsir aparılma səhnəsi səciyyəvidir. Gedərkən araba cırıltısmdan Qazan oyandı, gərnəşdi, qollarındakı örkəni tamam qırdı. Arabamn üstünə oturdu, əlini-əlinə salıb, qah-qah güldü. Kafirlər dedilər: «Nə gülürsün?» Qazan dedi: «A kafirlər, bu arabam beşiyim sandım. Sizi gələ-götür dayəm sandım». Qazan xan əsirlikdə olarkən kafirlər ona təklif edirlər ki, «And iç ki, bizim elimizə düşmənçiliyə gəlməyəcəksən. Həm də bizi təriflə, Oğuz elini xəcil elə, ucuz tut, səni buraxaq, çıx get!». Qazan qopuzu əlinə alıb öz kökünü, soyunu tərifləyir, göstərdiyi igidlikləri sayır və heç zaman öyünmədiyini söyləyir:

*«Çox öyünən kişilərdə bir kişilik görmədim! Əlinə düşmüş ikən, ey kafir, öldür məni, Böyük qılıncını sal boynuma, kəs başımı, Qılıncdan qorxan deyiləm! Öz əslimə, öz kökümə xain çıxan deyiləm»! (36, 215)*

Dastanların pedaqoji təhlilindən aydın olur ki, oğuzlar, mərdlik, igidlik, cəsurluq, kişilik kimi keyfiyyətlərə çox böyük önəm vermişlər, hər bir oğuzun ən yüksək səviyyəsini bu keyfiyyətlər ilə

müəyyənləş- dirirlər, həyata gözlərini açandan bu hisslər, duyğular və təsəvvürlər ilə yaşayır və tərbiyə edilirlər.

Namərdliyə, yalana və xəyanətə nifrət dastanda özünə yer tutduğu kimi, bunxmla belə mərtfi hərəkəti bağışlaya bilmək oğuzların davra- mşlarmda daim təzahür edən tərbiyə nümunəsidir. Bu keyfi}ryətlərin təzahüründə isə müvafiq şəxslər, obrazlar iştirak edir, hadisələr cərəyan edir. Beyrəyin nişanlısı Banuçiçəyi almaq üçün yalançı oğlu Yalmcıq yalandan onun ölüm xəbərini gətirir. Nəhayət, o ifşa olunur və oğuzların ümumi nifrətini qazanır. Layiq olduğu cəzadan qurtarmaq üçün yalançı oğlu Beyrəyin ayağına yıxılır, rəhm diləyir və onun qılmcmm altindan keçir. Bundan sonra Beyrək onu bağışlayır.

Uşun qoca oğlu Seyrək qalada həbsdə yatan qardaşı Əyrəyi qurtarmaq üçün düşmənlər ilə bir neçə dəfə vuruşur, onlara üstün gəlir. Nəhayət, düşmənlər hiylə işlədib qardaşları vuruşdurmaq istəyirlər. Onlar Əyrəyi həbsdən çıxarıb kasıb-kusubun var-yoxunu əlindən alan qalanm yaxmlığmda yatan bir nəfəri öldürərsə onu azad edəcəklərini deyirlər. Əyrək çəmənlikdə yatan şəxsə yaxınlaşdıqda onun belindəki qopuzu görür, doğma hisslər keçirir, yurdunu, ata- anasmı xatırlayır, yatan adama isə münasibəti dəyişir. Səsə yuxudan oyanan Seyrək Qopuzu Əyrəyin əlindən alıb deyir: «Ay kafir, Dədəm Qorqudun qopuzuna hörmət edib vurmadım. Əgər əlində qopuz olmasaydı qardaşımın başına and olsun, səni iki para edərdim». İki qardaşxn vuruşmamasxna, bir-birini tanxmasxna qopuz səbəb olur. Çünki qopuz oğuz elinin, vətənin əsas simvolu, müəyyən mənada mənəvi bir parçasxdxr. Qopuz oğuz düşüncə tərzi, mənəviyyatx ilə sxx bağlx olub, bu mənəviyyaün əsrlərdən-əsrlərə daşıyıcılarından biridir. Qopuzun varlığını isə qoruyub saxlayan, onu zamandan-zamana aparan oğuzdur, bizim soy-kökümüzdür.

Dastanda ailə tərbiyəsinə və ailədə valideyn nümunəsinə xüsusi diqqət verilir və deyilir: «Qız anadan görməyincə öyüd almaz, oğul atadan görməyincə süfrə açmaz. Oğul atanm yetirməsi, iki gözünün biridir(36,129-130)».

Oğuz turk analarx uşaqların tərbiyə edərkən lovğa olmamağı, zəfərdə, döyüşdə qazandıqları adla, xeyirxah əməlləri ilə yüksəlməyi məsləhət bilirdlər. Dədə Qorqudda Selcan Xatun deyir: «Oyünərsə ər öyünsün, aslandır. Oyünməlik övrətlərə böhtandxr. Oyünməklə övrət olmaz»(36,104).

Dastanda özünü aparmaq, çox bilmək, mənəvi zənginlik yüksək qiymətləndirildiyi halda, mənəmlik iddiası axmaqlıq, ikiüzlülük, xəbərçilik, lovğalıq mənəvi şikəstlik kimi qələmə verilir. Bu münasibətlə «Dədə Qorqud»da deyilir: «Təkəbbürlük eyləyərü tanrı sevməz; Könlünü uca tutan adamda ağıl olmaz»(36,129).

Dastanda səxavətlilik, əliaçıqlıq, kasıba əl tutmaq bir əxlaqi keyfiyyət kimi yüksək qiymətləndirilməklə bərabər, bu keyfiyyət təmənnasız, hiss etdirilmədən yerinə yetirilir və böyüklər öz övladlarxna bu sahədə nümxmə göstərirlər. Dədə Qorqudda səxavəü göstərən bir gözəl məqam var. Belə ki, Qazan xan üç ildə bir evini bilərəkdən, qəsdən talan (yağma) etdirərdi ki, xalq ondan istifadə etsin, faydalansm. Təkcə arvadırun (halalırun) əlindən tutub evdən çıxar, nəyi varsa, malını, xəzinəsini talan etmək üçün xalqın ixüyarma verirdi.

Dastanda bir əxlaqi keyfiyyət kimi yoldaşlıq və dostluq məsələsinə xüsusi diqqət yetirilir. Dostluq bir kişilik keyfiyyəti kimi qəbul edilir. Dastanda uşaqlarm bir-birilə dost olmalarma, qonşularla dostluq münasibəti yarada bilməsinə diqqət yetirilir. Dastanda uşaqlarm dostluğunun hörmətə, ideya birliyinə, qarşılıqlı yardıma əsaslanması tərbiyə edilir. Beyrək -«Mən Qazana dönük çıxmaram»-deyir:

*Mən Qazanın nemətini çox yemişəm,*
*Bilməzsəm gözümü tutsun!*
*Qaracıqda Qazlıq atına çox minmişəm,*
*Bilməzsəm tabutum olsun!*
*Yaxşı qaftanlarını çox geymişəm*
*Bilməzsəm kəfənim olsun!*
*Böyük, geniş otağına çox girmişəm,*
*Bilməzsəm, zindanım olsun!*

*Mən Qazana dönük çıxmaram, qəti bilin (36,222).*

Qaraca Çoban Qazan Xanm çörəiyini itirmir, düşmənlə mübarizəyə gedən Qazan xana yardım məqsədilə deyir ki, atını, oxunu, yayını, qdıncım mənə ver...

*«Gedim kafirin qolundakı şahinini öldürüm.*
*Paltarımın qolu ilə alnımın qanını silim.*
*Ölərsəm, qoy sənin uğrunda mən ölüm!*
*Allah qoyarsa, evini mən xilas eləyim»! (36,145)*

Dastanda ağıl böyük nemət hesab olunur. Ağıl dövlət mənasmda işlədilir. Oğuz elində ağıl tərbiyəsi, gənclərin həmişə ağlım işlətməsi məsələsinə xüsusi diqqət yetirilir. Hamı o cümlədən fiziki cəhətdən güclü olanlar da ağıla-kamala yiyələnməlidirlər. Dastanda ağılm yüksək nemət olması aşagıdakı fikirlərdə aydm ifadə olunmuşdur:

«Biliyi unutmayan əqil yaxşıdır; Baba malından nə fayda, başda dövlət olmasa; Ağıllı oğul olsa, ocağm gözüdür; Ağılsız oğul olsa, ocağın külüdür; Ağılsız adamm şərindən Allah saxlasm»(36,12).

Dədə Qorqudun qənaətinə görə, «Adamm dəvəcə boyu olunca, düyməcə ağlı olsa yaxşıdır». Dastanda oğlanın buğa ilə döyüş səhnəsində daha çox ağılın nümayiş etdirilməsinin şahidi oluruq». «Oğlanla buğa xeyli çəkişdilər. Buğa iki kürəyi üstündə köpük dururdu. Nə oğlan, nə də buğa ustun gəlirdi. Oğlan fikirləşib öz-özünə dedi. «Bir dama dirək vururlar, o dama dayaq olur. Mən niyə bunun almna dayaq olub dururam?» Yumruğunu buğamn alnmdan çəkib, yolundan afildı. Buğa ayaq üsündə dura bilmədi, yıxıldı; təpəsi üstə düşdü. Oğlan bıçağına əl atdı. Buğanın başını kəsdi»(36,134). Burada oğlan əqil və zəkasmı işlədir və fiziki qüvvəsi tükənməkdə olan oğlan, əqli qabiliyyəti, mühakiməsi hesabına buğaya qalib gəlir.

Qanturalı ilə Buğamn vuruşunda da eyni səhnənin şahidi oluruq. Orada da Qanturalı buğanm alnma yumruğun dayayıb sürüb meydandan çıxarır və fikirləşir ki, «Bu düynyanı igidlər ağılla tapmışlar, Bunun önündən sıçrayım, nə hünərim varsa, bundan sonra gös-

tərim»(36,186). O elə də edir. Yumruğunu buğamn alnmdan götürən kimi, buğa yıxılır və Qanturalı onun başını kəsir. Deməli, yenə də qələbə ağıl hesabına başa gəlir. Burada bir pedaqoji ideya irəli sürülür: «Qüvvə ağıla istinad edir və ağıl gücə qalib gəlir».

Dastanda estetik tərbiyə, bədii zövqə malik olmaq kamil insan olmağm mühüm şərtlərindən sayılır. Dastandakı ideyaya görə, fiziki və əqli cəhətdən inkişaf etmiş şəxs - yəni qüwə və kamal sahibi, eyni zamanda, camal sahibi olmalı, estetik gözəlliyi ilə xoş təsir bağışlamalıdır. Dədə Qorqud dastanlarının əksər qəhrəmanları təkcə qüvvəsi və kamalı ilə deyil, həm də camalı ilə fərqlənirlər. Məsələn, «Qanlı qoca ilə Qanturalı» boyunda deyilir: «Qanturalı camal və kamal əlamətləri olduğunu və onlardanbirincisinin estetik, ikincisinin zehni, üçüncüsünün fiziki tərbiyə sahəsinə aid olduğunu xaürlasaq, həmin cümlədə tərbiyənin bu üç qolunun vəhdət şəklində birləşdiyini aydın görərik.

Dədə Qorqud qəhrəmanlarımn boy-buxunu yaraşıqlıdır, cəlbedicidir. Qanturalı, Bamsı Beyrək, Səkrək, Uruz, Bugac, Dəli Dondar, Yeynək, Qazan Xan, Bayandır xan, Burla Xatun, Selcan, Banıçiçək və başqaları məhz belə cazibədar «Ağ üzlü», «Ağ biləkli», «İncə belli», «Sərv qamətli», «Qırmızı yanaqlı»,«Badam dodaqlı», «Çatma qaşlı» adamlardır. Çoxları da saz çalıb, oxumağı, rəqş etməyi bilirlər. Onlar gözəlliklərdən zövq almağı bacarır, «Əsən dan yellərindən», «Köksü gözəl dağlardan», «Durnalı, kəklikli, turaclı soyuq bulaqlı, göy çəmənlikli» yerlərdə dincəlir, özlərinə məskən salırlar.

İgidlər çox vaxt döyüşə qopuz və musiqinin sədaları altında başlayır, döyüşün qızğın çagında «Gümbür, gümbür nağaralar döyülür, burma altın borular çalınır...». «Qanturalı Sarı donlu qız eşqinə bir «hu» deyib ayağa durdu... Sonra dedi: «Aya, qolca qopuzumu çalm, tərifləyin məni» (36,187).

Qanturalı üç canavarla (buğa, aslan və dəvə ) vuruşmaq üçün musiqi və mahnı ilə qızışmaq istəyir. O hər dəfə meydanda musiqi sədaları altmda cəng edir. Demək dastanda insan və təbiət, incəsənət gözəlliyi, ümumən insanın estetik, zövqü, tərbiyəsi mühüm yer tutur. Dastanda saza, musiqiyə ecazkar bir qüvvə kimi baxılır.

Qəhrəmanlar saza and içirlər, ən qatı düşmənin əlində qopuz gördükdə ona əl qaldırılmır.

Dədə Qorqudda əlbəttə, mənəvi, əxlaqi gözəllik həmişə ilkin yerdə durmuşdur. Belə əxlaqi keyfiyyətlər sırasında insanpərvərlik, əməksevərlik, böyüklərə hörmət, təvazökarlıq, doğruluq, qonaqpərvərlik və s. bu kimi keyfiyyətlər üstün yer tutur. Dədə Qorqudun söylədiyi atalar sözləri bir müdriklik xəzinəsi, insanlara bir ibrət, nəsihət və dəyərli məsləhətlərdir. Dastanda 60 -dan çox ata sözləri vardır ki, türk alimi Aydm Oy onları tədqiq və təhlil etmişdir. Dədə Qorqud deyimlərinin bugünkü deyiliş formasını xatirlayaq:«Yalan söz dünyada olunca, olmasa yaxşıdır»;«Könlünü uca tutan adamda ağıl olmaz»;«Kişi malma qıymayınca, adı çıxmaz»;«Qonağı gəlməyən qara evlər yıxılsa yaxşıdır»;«Ata admı doğrultmayan nankor oğulun bu dünyaya gəlməsindən gəlməməsi yaxşıdır»;«Ana qədrini bilməyən namərd oğul, doğulmasa yaxşıdır»;«Çıxan can geri gəlməz»; «Ölən adam dirilməz»;«Əski pambıq bez olmaz»;«Qara eşşək başına yüyən vursan, qaür olmaz»;«Qarı düşmən dost olmaz» . «Çox söyləyən qadından dibi göçmüş gövəc yaxşıdır»,«Yaxşılıqbilməyən kişidən....
köpək yaxşıdır»;«Bəylərlə vuruşan başı ilə malını itirər»; «Allah-Allah deməyincə işlər olmaz»; «Qadir tanrı verməyincə ər bayılmaz»; «Gülməşəkər içində söğan olmaz»; «Kürəkən oğul olmaz, gəlin qız olmaz»; «İynə biz olmaz»; «Göy yarpaqlı çəmən payıza qalmaz»; «Kərəm əhli olan kişilər çoxa, aza qalmaz»(98,CXXXII). Dədə Qorqud gah ibrətamiz sözləri ilə, gah da öyüd -nəsihətləri ilə yüksək mənəvi keyfiyyətləri təbliğ edir.

Dədə Qorqud «mənəm-mənəmlik» iddiasında olan adamları sevmədi. O insanlara ibrətamiz sözləri ilə bunları dedi:

*«Harıı dediyim bəy ərənlər?*
*Dünya mənimdir deyənlər?*
*Əcəl aldı, yer gizlətdi.*
*Fani dünya kimə qaldı,*
*Gəlimli-gedimli dünya,*
*Son ucu ölümlü dünya» (36, 224).*

Buradan belə məntiqi nəticə çıxır ki, insanlar bir-birinə düşmən olmamalı, cəmiyyətə, bir-birinə fayda verməlidirlər. Bu dünyada insanlar yalnız yaxşı əməlləri ilə xatırlanacaqlar.

Kitabi-Dədə Qorqud dastanı mənəvi kamillik, qəhrəmanlıq kitabıdır. O, ləyaqət və birliyimizin təməl qaynağıdır. Kitab Azərbaycan xalqımn-qədim oğuzlarm bütün türk dünyasmm yaradıcı dühasımn məhsuludur. Dastan təlim-tərbiyə məsələlərini, xalqımızm əxlaq və mənəviyyatım, davranış mədəniyyətini, estetik zövqünü, humanizmini, vətənpərvərliyini, qəhrəmanlığını, ata-anaya ehtiram duyğularını bədii-pedaqoji lövhələrlə əks etdirən zəngin mənəviyyat xəzinəsidir.

# IV. ERKƏN ORTA ƏSRLƏR DOVRUNUN AZƏRBAYCAN POEZİYASINDA, ALİM VƏ ZİYALILARININ ƏSƏRLƏRİNDƏ PEDAQOJİ FİKİRLƏR

## 1. Məvali şairlərin əsərlərində pedaqoji ideyalar.

Yaxrn və Orta Şərqdə islamiyyətin yayılması ilə əlaqədar olaraq Azərbaycanda da təlim, tərbiyə, təhsil islam mədəniyyəti, islam prinsipləri əsasmda qurulmağa başladı. Bunu da qeyd edək ki, İslam mədəniyyəti dedikdə - bu yalnız ərəblərin yaratdığı mədəniyyət deyildir. İslam mədəniyyəti bütün müsəlman xalqlarmm, o cümlədən Azərbaycan mədəniyyəti ilə çulğalaşıb inkişaf etmişdir. Bu xalqların böyük mütəfəkkirləri İslam mədəniyyətini zənginləşdirmiş, bu mədənijryətə böyük elmi, mədəni töhfələr bəxş etmişdir ki, burada da Azərbaycan alim, şair və ziyalılarınm böyük xidmətləri olmuşdur. V.V.Bartold haqlı olaraq yazırdı ki, ərəb mədəniyyəti dedikdə bu orta əsr Şərq mədəniyyətidir. Çünki bu mədəniyyəti bütünlükdə ərəblərin adma çıxmaq olmaz. Bu mədəniyyət ön Asiyamn, Şərqin mədəniyyəti əsasında formalaşmışdır»(108,2). V.V.Bartold «Şərq» məfhumu adı altinda Qafqazdan, Orta Asiyadan tutmuş Hind okeanına və Afrika ölkələrinə qədər, İran və Hindistanı nəzərdə tuturdu. Hələ VII-VIII əsrlərdə yaşamış azərbaycanlı şairlər dəyərli əsərlər yazır, xalqı

birliyə, dostluğa, mübariz olmağa səsləyir, həmçinin xalqın daha tərəqqi edib irəli getməsinə, mənəvi, əxlaqi keyfiyyətlərə sahib olmasına çalışırdılar. Bu dövrdə yaşamış Musa Şəhavət, İsmayıl İbn Yasər, Əbül Abbas kimi azərbaycanlı şair və ziyalılarımız məhz bu amallarda olmuşdur. Qeyd edək ki, bu dövrdə və eləcə də sonrakı dövrlərdə pedaqoji fikrimiz əsas etibarilə bədii söz, xüsusilə şeir vasitəsilə özünü ifadə etmişdir. Prof. Ə.R.Yəqubi bu barədə yazır: «Azərbaycan poeziyasımn görkəmli nümayəndələri kimi İsmayıl İbn Yəssar, Musa Şəhavət və Əbül-Abbas Əma... kimi şairlərin poetik yaradıcılıqlarmda əxlaqi keyfiyyətlərin təbliğinə yer verilməsi diqqəti çəkən maraqlı haldır.Belə məlum olur ki, onlar əxlaqi keyfiyyətlərin yeni məzmunda təbliği üçün poeziya mədəniyyətini əlverişli vasitə hesab etmişlər.Bu üsul sonralar fars və ana dillərində yazan Azərbaycan şairlərinin əsərlərində ənənəvi hal alaraq inkişaf etdirilmişdir(78,12).

Görkəmli tədqiqatçı Pənahi Makulu «Ədəbi məlumat cədvəli» kitabmda adı çəkilən şairlərin Azərbaycanda doğulduğunu, sonradan Mədinə şəhərinə əsir götürüldüyünü və ərəbcə yazıb yaratdıqlarını qeyd etmişdir(öl).

Tarixi mənbələrdən aydın olur ki, VII-IX əsrlərdə ərəb ölkələrində yaşayan azərbaycanlı şairlər «Məvali» adlanmışlar. «Məvali» ( ) ərəbcə «Vəli» ( Jj ) felindən düzəldilmiş «Məvla» ( Jlj*) sözünün cəmidir ki, «yaxın olmaq», «dost olmaq» mənalarmı verir. Bu ad islamdan əwəl və islamın ilk dövrlərində əsir tutularaq müsəlmanlığı qəbul etmiş, yaxud da ərəblərin içərisində yaşayan və könüllü surətdə yeni dinin bayrağı altina keçən qeyri ərəblərə verilirdi. Tədqiqatçı alim Malik Mahmudovun kitabmda oxuyuruq: «İranlı alim Ibn Qüteybə Dinəvəri (828-889) «Kitab əş-şe"r və şüəra» kitabında Əbül Yəqzan Cüveriyyəyə əsaslanaraq yazır ki, «Mədinədə məvalilərdən elə bir şair yoxdur ki, əslən Azərbaycandan olmasm. O, bu sırada İsmail Ibn Yəsarın, Musa Şəhavatin və Əbül Abbasm adlarmı çəkmişdir»(46,36- 37). Məvalilər ərəblər içərisində yaşasalar da öz hüquqlarım, mənlik- lərini və mədəniyyətlərini müdafiə etmişlər. İlk dövrlərdə ərəblər özlərini başqa millətlərdən üstün tutur, öz poeziya və mədəniyyətləri ilə qürurlamrdılar. Bu da öz

növbəsində ərəblərə qarşı ideoloji müba- rizə aparan «Şübiyyə» cərəyanmm yaranmasma səbəb oldu. (Şübiyyə milliyyətçilik, tayfa deməkdir). Şübilər öz şeirlərində ərəb millətçili- yinə qarşı çıxır, onlarm keçmişinin barbar, nadan olduqlarını göstərməkdən çəkinmirdilər.

Məvali şairlər haqqında orta əsr ərəb, fars mənbələrində, habelə Azərbaycan ədəbiyyatı tarixində müəyyən məlumatlar veilmişdir.
«Get-gedə ərəb dilini mənimsəyən və ərəb dilində yayılmış elmi bədii əsərlərlə tanış olan Azərbaycan ziyalıları, hələ VIII əsrdən başlayaraq bu dildə bədii və elmi əsərlər yaratmağa müvəffəq olurlar: Biz VIII əsrdə «Əla Azərbaycani» adı ilə məşhur olan İsmaıl Yassar, Musa və Əbül Abbas kimi şairləri görürük ki, onlarm əsərləri təkcə Azərbaycan şəhərlərində deyil, ərəb dili anlaşılan ölkələrin mühüm hissəsində də məşhur olmuşdur.

Musa Şəhavaün bir qisim əldə olunan şeirlərindən onun yaradıcdıq istiqamətlərini, tərbiyə haqqmda fikirlərini, pedaqoji düşüncələrini, habelə dövrünün əxlaqi mənzərəsini öyrənmək mümkündür.

Musa Şəhavatm şeirləri o qədər ibrətamiz olmuşdur ki, onun sözləri bir hikmətli söz, zərbül-məsəl kimi ağızdan-ağıza gəzirdi. Musa Şəhavat bir şeirində belə yazır:

*Nöqsanın var desələr, səndə nöqsan tapılmaz, Bu*
*dünya vəfasız, dövran sənə də qalmaz. Ən gözəl*
*mətaısan dünyantn əgər qalsan, Lakin yox əbədilik,*
*əbədi insan heç olmazl (70,435).*

Şair demək istəyir ki, ey dünyam tutub mal-dövlət toplayanlar, bu dünya vəfasızdır, topladıqlarm sənin əlində qalmayacaqdır. «İnsan əbədi deyildir, o gec-tez ölüb gedəcəkdir» - deməklə xeyirxahlıq, sadəlik, gözütoxluq kimi nəcib əxlaqi keyfiyyətləri təbliğ etmişdir.

Şair başqa bir şeirində göstərir ki, zalım və cahil valilər xalqın mənəviyyatı ilə nə qədər oynasalar da, hər cür zülm və işgəncəyə əl atsalar da, onlar axırda məğlub olacaqlar. Maarif və mədəniyyət adamlarma mənfi münasibət bəsləyən Mədinə valisi Səd İbn

İbrahimi şair belə tənqid edir: Sən zalım və cahil ol; Atan səndən də zalım və cahil idi(46,49). Göründüyü kimi şair ədalətsizliyi, zalımlığı insanm cahilliyi və nadanlığında görürdü. Şübhəsiz cahillik və nadanlıq isə insanm biliksizliyindən və yetərincə tərbiyə almamasından irəli gəlir. Şair din adma, Allah naminə fırıldaqçılıqla məşğul olan insanları aldatmaqla məşğul olan hakim və qaziləri tənqid etmişdir. Musa Şəhavat mübariz bir şair olaraq haqqm gücünə həmişə inanmışdır.

Musa Şəhavət dövrünün xeyirxah, qayğıkeş, səxavətli, şərəfli insanlarına mədhiyyələr yazmışdır. Belə mədhiyyələrdən birini Həmzə İbn Abdullaha yazmışdır ki, bu şeirdə insanm əxlaqi keyfiyyətəri təbliğ edilir:

*Mal alır Hdmzə xeyirxahlıq üçün,*
*Satmayır ancaq o şərmü həyadan.*
*Bəxşişi versə, nəzakətlə verir, İncimir*
*ondan özü bəxşiş alan, İl quraqlıq*
*keçib, el qaldısa ac, camaat gördüsə çox*
*itki, ziyan, Onu da etdisə yoxsul biz*
*tək, Şərəfi, şanı ona oldu həyan. Odur*
*insanlığa yağmurlu bahar, Eləyir*
*himmətini daim əyan (70,24).*

Göründüyü kimi, şairimiz insani keyfiyyətləri təbliğ etməklə, insanları yüksək mənəviyyata, əxlaqa, şərəfə, xeyirxahlığa, dostluq və yoldaşlığa çağırmışdır.

Mədinədə yaşayan Azərbaycanlı ziyalı şairlərdən biri dəİsmayıl İbn Yəsardır ki, onun yaradıcılığı haqqında məlumat çox azdxr. Akademik H.M.Əhmədov yazxr ki, İsmayxl Yəsar VIII əsrdə yaşamxş Azərbaycan ziyalxsx və şairidir. O, ərəb dilində bədii və elmi əsərlər yazmışdır (10,13). Əbul Fərəc əl-İsfahaninin «Əl-Əğani» əsərində İsmayıl Ibn Yəsar haqqmda müəyyən məlumatlar verilmşdir. Oradan İsmayıl Ibn Yəsar mənşəyi və milli mənsubiyyəü barəsində müəyyən məlumatlar əldə etmək olur ki, o əslən azərbaycanlxdxr.

Məmmədəli Tərbiyət öz kitabınada «İsmaıl İbn Yəsar Nisai-Azərbaycani» başlxğı ilə şairin azərbaycanlx olduğunu göstərir və onun haqqmda belə yazır: «İsmayıl İbn Yəsar xoş söhbət, xoş xislət hikmətli sözlər danışan və ürəyə yatan şeirlər qoşan bir şəxs idi. İsmayılın qardaşı Məhəmməd və Ibrahim də şair olmuş, onlarm üçü də yad ölkədən gətirilmiş döyüşçü olmuşlar. O, əcəmlərin təəssübünü saxlayan Şübilədən idi. İsmayıl bir şeirində öz soydaşlarının yüksək əxlaqi keyfiyyətlərə malik olmasından, qızlarına elm, bilik, tərbiyə verdiklərindən, insanlarının səxavətli, mərd, nəcib xüsusiyyətlərə malik olduqlarmdan yazır:

*Bir çox taclı dayım, əmim vardır mənim,*
*Səxavətli, şanlı nəslim vardır mənim Onlar*
*nəcib yanar, ocaq olmuşlar At belində gəzər*
*qoçaq olmuşlar. Çox lovğalanma bizə ey imam,*
*dayan Cəfani at, doğru danış, sən bir an Siz və*
*biz haqqında soruş mən deyim. Ötənlərdən*
*nağıl edib, söyləyim, Böyütdük qızları biz*
*elmlə, biliklə Torpağa gömdüz qızları siz cəhl*
*ilə (53,172).*

Şeirin son misraları daha ibrətamiz və daha tərbiyəvi əhəmiyyətlidir. Şair elmin, biliyin əhəmiyyətini göstərməklə hələ o dövrdə Azərbyacan qızlarmı elmlə böyütdüklərini, bilik və kamala çatdırdıq- ların bildirir. Cahillik, nadanlıq olan yerdə isə yeni doğulan qızların qara torpağa gömüldüyünü göstərir.

Əbül Fərəc əl-İsfahaninin qeydlərinə görə İsmayd arüq 685-ci ildə bir şair, ziyalı kimi məşhurlaşmış, iki oğlu İbrahim və Məhəmməd də şair olmuşdur. Ibrahimin bir ərəbə müraciətlə yazdığı şeirindən bir parçaya da diqqət yetirək:

*Sənin cahilliyin ağılla əvəz olundu;*
*İtmiş zəkan özünə qayıtdı.*
*Bu zaman sən dövranın yaramazlıqlarını görüb heyrətə*
*düşdün» (129)*

Məhəmmədin isə bədəvi ərəblərə qarşı aşağıdakı misraları vardır:

*«Zavallı, (ərəb) alaçığın yerini soruşur; Mən isə*
*şəhərdə meyxanəni axtarıram Əsəd qəbiləsinin*
*keçmiş izlərinə baxıb ağlayırsan; Ay anası... Bir de*
*görüm axı Bəni Əsəd,*
*Təmirı Ülkər, Yəmən kimdir?*
*Allahın yanında, bədəvilər heç adam belə hesab*
*olunmurlar» (46,55).*

Bu misralardan aydm olur ki, şair cahilliyi, nadanlığı pisləyir və göstərir ki, hətta cahil və nadanlar Allahm yanmda belə adam hesab olunmurlar.O bu şeiri ilə insanları tərəqqiyə çağırır. Ismayıl Ibn Yəsar ədəbiyyat tarixinə əxlaqi mahiyyətli şeirlər, zərif mədhlər, yanıqlı mərsiyələr, səmimi vəsflər və aşiqanə şeirlər yazan müəllif kimi daxil olmuşdur. İsmayıl İbn Yəsar həmişə xalqlar, millətlər arasında birliyi, bərabərliyi təbliğ etmişdir. Bu ideya onun şeirlərində həmişə əsas yerlərdən birini tutmuşdur. İsmayıl İbn Yəsar milli mənlik, milli şüur, ləyaqət hisslərindən çıxış edərək öz şeirlərini yüksək vətənpərvərlik motivləri əsasında yazmış, yetişən azərbaycanlı balalarmda da vətənpərvərlik, qəhrəmanlıq keyfiyyətləri tərbiyə emişdir.O bir şeirində Azərbaycan, Türküstan igidlərinin qəhrəmanlığını iftixarla belə tərənnüm etmişdir:

*Aslanlar dəstəsi döyüş zamanı Hünərlə irəli*
*addımlayanda, Rumun, Türküstanın hökmdarları*
*Xar olub önündə qaçarlar onda. Midiya zirehli*
*əyinlərində Sallanır yerəcən geyən zamanda.*
*Aslan yerişiylə yeriyir onlar Yorğa köhlənlərin*
*üstdə olanda (70,26).*

Burada vətənpərvər, millətsevər şair öz kökü ilə, soyu ilə fəxr edir. Şair ərəb millətçiliyinə, ədalətsizliyə, haqsızlığa, qarşı gənc nəsli mübarizəyə çağırır.. .Budur İsmayıl İbn Yəsar saraya daxil olub Xəlifə Hişam Ibn Əbdül Məlikin (724-743) oturduğu taxta doğru

addımlayır. Xəlifə şairin mədhini dinləməyə hazırlaşır. Lakin şair-«Əslim şərəflidir, şöhrətim uca/ Qılmc ağzı kimi zəhər dilim var»(70,25) -deyir. Daha sonra şair əcəmlərin (azərbaycanlılar nəzərdə tutulur) tarixindən onların, şan şöhrətindən, ədəbiyyat və mədəniyyətindən söhbət açır.

Təkəbbürlü xəlifənin qəzəbi aşıb-daşır. O, sərsəmcəsinə bağırır: «Mənimmi qarşımda fəxr edib, özünü və millətini tərifləyirsən. Boğun onu suda»(46,56). Onu hovuza saldılar, az qaldı ki, nəfəsi kəsilsin. Sonra Xəlifə onun sudan çıxanlmasım Hicaza sürgünə göndərilməsini əmr etdi». Lakin bu işgəncələr və sürgünlər Yəsarm mərd səsini boğa bilməmişdi. Ismayıl Ibn Yəsar qondarma Allahları ilə lovğalanan, özlərini ən ali irq hesab edən ərəb aristokratiyasına gülür, onları ağda, təfəkkürə, ədalətə, bərabərliyə çağırırdı. O əməvilərin millətçiliyinə qarşı çıxır, onları başqa millətlərə hörmətlə yanaşmağa səsləyir və deyirdi ki, ey camaat, qüruru bizim üçün tərk edin. Ədalətsizliyi bir tərəfə atib, insafla damşm. Biz öz qızlarımızı tərbiyə etdiyimiz halda, siz qorxudan onları torpaq altında basdırırsınız. Şair göstərir ki, Azərbaycan xalqı ta qədimdən öz övladlannm tərbiyəsinə diqqət və qayğı göstərmişdir. Azərbaycan xalqı öz övladlarmm, yetişən nəslin təlim tərbiyəsi ilə həmişə məşğul olmuşdur.Heç vaxt başqa xalqlara, millətlərə həqarətlə baxmamışdır. Ismaydın yaradıcdığma xas olan əxlaqilik, mənəvi keyfiyyət, təbiilik və reallıq həmişə yüksək qiymətləndirilmişdir.VIII əsrin böyük ziyalısı, alimi, şairi Əbül Abbas əl-Əma haqqmda Akademik Hüseyn Əhmədov belə yazır: «Əbül- Abbas VIII əsrdə yaşamış, dəyərli pedaqoji fikirlər söyləmiş görkəmli Azərbaycan alimidir»(10,13). Əbül-Abbas ömrünü Məkkə və Mədinə- də keçirmişdir. Əbül-Abbas dövrünün məşhur şairlərindən olmuş, hicri qəməri 100 (718)-cü ilə yaxm vəfat etmişdir. Onun mədhləri və həcvləri vardır». Əbül Abbas azadlıq carçısı kimi şeirlərində insanları mübarizəyə vətənə, torpağa məhəbbət ruhunda tərbiyələndirməyə çalışır. İslam rəhbərləri Əbül Abbasa böyuk hörmət göstərir, Mədinədə yaşamasına baxmayaraq Dəməşqdən şairə tez-tez pul və hədiyyələr göndərirdilər. Şair Əməvi rəhbərlərinə mədhiyyələr yazmış, riyakar, fırıldaqçı din xadimlərini isə ifşa etmişdir:

*Dildə İslama ən gözəl təriflər yağdırmasına baxmayaraq*
*Ürəyində onu inkar edərək özündən uzaqlaşdırır*
*Nə qədər ki, minbərdədir, haqqı deyib boğazdan yuxarı danışır.*
*Oradan düşən kimi isə kafirliyini davam etdirir (46,73).*

Ərəb şairi Ömər İbn Əbi Rəbiə Azərbaycan şairini nüfuzdan salmaq üçün Əbül Abbasa sataşaraq iki beytlik həcv yazıb demişdir ki, əgər səninı şairlik məharətinı varsa, kor və köhnə kənəgərçək budağı kimi sifəti kül rənginə çalan oğlanı mənim üçün təsvir et. Əbül Abbas bu sözləri oxuduqdan sonra ona bədahətən belə cavab vermişdir ki, həcvdən qorxmaq, əxlaqlıqsızlıqla gün keçirmək, məvalini təhqir etmək və arvadbazlıq kimi dörd xasiyyətin olmasaydı, sən elə o (dediyin) igidin özü və ya qardaşı olardın(46,74). Həqiqətən də Ömər İbn Əbi Rəbiə ömrünün çox hissəsini əyyaşlıqla keçirmiş və həyata qadın düşkünü kimi daxil olmuşdur ki, şairimiz belə mənfi keyfiyyətləri çəkinmədən o şəxsin üzünə demişdir. O kişinin igid, cəsur, döyüşkən olmasını istəmiş, bir ərəbin mövlalara, qul şəklində yaşayan başqa xalqlarm nümayəndələrinə, o cümlədən azərbaycan- lılıara yuxarıdan baxmasmı, onları söyməsini, nəcib, tərbiyəli insana yaraşmadığmı belə dilə gətirmişdir:

*Sən igidsən, igid oğlu Həm igidin*
*qardaştsan. Sən ağasan bizim*
*üçün, Olmasaydı dörd cəhətin.*
*Döyüşlərdən gen gəzirsən*
*Söyüşlərdən həzz alırsan, Çox*
*söyürsən mövlaları, Əsirisən*
*məhəbbətin (70,26-27).*

Əbül Abbas özü dostluqda sədaqətlı olduğu kimi, bir əxlaqi keyfiyyət kimi dostluğu yüksək qiymətləndirir və bunu təqdir etmişdir. Belə ki, Əbül Abbas Zubeyrilərə yaxşı münasibətdə olmasa da şair Zübeyrin qardaşı Musəblə dostluq etmiş, onun vəfatma təsirli bir mərsiyə də yazmışdır. Şairə bununla əlaqədar irad tutduqda o cəsarətiə demişdir ki, ona görə mərsiyə yazmışam ki, Musəb mənim həqiqi dostum olmuşdur. Əbül Abbas uzun bir yaradıcılıq yolu

kecməsinə baxmayaraq, onun şeirlərinin yalnız cüzi bir hissəsi əlimizə gəlib çıxmışdır.

Əbül Abbasın sırf pedaqoji mahiyyətli şeirləri də var ki, onlar ata və oğul arasında olan münasibətlərə həsr olunmuşdur. Belə şeirlər atarun oğluna verdiyi öyüd və nəsihətlərdir. Şeirdə ata məhəbbəti, onun oğluna səmimi sözlərlə nəsihətləri, ibrətamiz sözləri çox dəyərli və tərbiyəvi əhəmiyyətlidir. Ata duz-çörəyini yeyib boya-başa çatan övladma deyir: «Anadan olan gündən sənə çörək verib, su qabmı dodaqlarına yaxınlaşdırıb qurtum-qurtum içirdərək səni boya-başa çatdırdım. Gecələr sənə bədbəxtlik üz verdikdə gözlərimi səhərə qədər yummayıb sənin dərdin üçün narahatlıq keçirir, sanki sənə üz verən bəla mənə də sirayət edirdi...Lakin oğul atanın bu sözlərinə, öyüd- lərinə o qədər də fikir vermir. Şair şeirində göstərmək istəyir ki, əgər oğul ağılla, düşünsə və şüurla elmlərə yiyələnərsə, o atasmı yaxşı başa düşər. Ata oğulu məzəmmət edir və aşağıdakı ibrətamiz sözlərlə ona oyüdlərini davam etdirir: «Mənim mükafaüm səndən düşmənçilik və küdurət oldu. Sanki tərbiyə verən (mən yox) sən olmusan? Atalıq borcunu ödəməsən də, ona hörmət etməsən də, heç olmasa adi bir qonşu kimi hərəkət elə...»(46,75). Atanın övladma bu sözləri öz səmimi xarakterinə görə pedaqoji cəhətdən əhəmiyyətli sayda bilər.

Beləliklə VII-VIII əsrlərdə yaşayıb-yaratmış Məvali adı ilə azərbaycanlı şairlər-Musa Şəhavat, İsmayd İbn Yəsar və Əbül Abbas kimi alim və şairlərimiz, ziyahlarımız öz müdrik fıikirləri, kəlamları ilə insanların tərbiyəsi, əxlaqı, mənəvi inkişafı haqqmda dəyərli fikirlər söyləmiş, onları elmə, maarif və mədəniyyətə səsləmişlər.

***IX-X əsrlərdə Azərbaycanda yaşaytb yaratmış elm adamlart, şair və ziyaltltartntn pedaqoji fikirlərinə bir nəzər.***

Erkən orta əsrlər dövründə Azərbaycanın coğrafi mövqeyi dünya ticarət yolları üzərində yerləşməsi, onım iqtisadi, mədəni inkişafmda mühüm rol oynamış, Təbriz, Marağa, Beyləqan, Bərdə, Gəncə, Naxçıvan, Həmədan, Ərdəbil kimi qədim şəhərlərin böyüyüb inkişaf etməsinə, elm, mədəniyyət şəhərləri kimi şöhrət qazanmasına səbəb olmuşdur. Azərbaycan xalqı nəinki dörd min ildən arüq mənəvi

mədəniyyət tarixini qoruyub saxlaya bilmiş, hətta onu daha da inkişaf etdirmiş və qoca tarixin bütün dövrlərində elmin bütün sahələrində görkəmli alimlər, sənətkarlar yetişdlirmiş, bəşəriyyətə dəyərli elmi töhfələr vermişdir. A.Bakıxanov öz xalqırun istedad və mədəniyyətinə yüksək qiymət verərkən yazırdı: «Çoxlu qoşunkeşlik və mütamadi müharibələrin yaratdığı xarabalıqlara baxmayaraq, onlardan (Azər- baycanlılardan) bir çoxu özünün elm və hünəri ilə bütün dünyada şöhrət qazanmışdır. Onlar hər bir əsrdə, hər bir ölkədə hörmətli və inamlmış kimsələr olmuşlar...» (7,204).

Tanmmış coğrafiyaşünas alim Nurəddin Kərəmov haqlı olaraq öz əsərində yazır ki, «VII-X əsrlərdə Azərbaycan alimləri orta əsr mədəniyyətinin, xüsusilə müsəlman Şərqi mədəniyyətinin inkişafinda böyük işlər görmüşlər»(35,5). Böyük alim Bəkir Çobanzadə yazır ki, «saylan 100-ləri keçən filoloqlar arasmda bir çox türk filoloqları vardır. Xüsusilə «Ə1 müfəzzil» namı ilə yazdığı «Sərf və nəhf» (qrammaüka) ilə məşhur Xivəli Zi Məxşəri (1074...1143), «Müftahül-ülum» (Elmlərin açarı) ilə zəmanəmizə qadar adı qayb olmamış Şəkkaki (1160-1229) və Siyubə adı ilə sözləri təfsir və izah edən cürcani (... 1078) və s. bu kimi türk lisançıları varsa da təəssəüf ki, onların əsərləri şimdiyə qədər tədqiq olunmamaışdır. Bütün ərəb və fars ədəbiyyatmm mühüm bir qismi türk-tatar üləma və şüarasımn səyi nəticəsində yaranmışdır... Hər nə qədər lisan etibarilə bu əsərlər türk ədəbiyyatrnın inkişafına xidmət edə bilməmişlərsə də mündəricatı etibarilə müəlliflərinin mənsub olduqları xalqların duyğularını, əxlaqi və ictimai həyat- larından bir çox şeyləri ehtiva etmişlər. Bu surətlə xüsusi bir damğa daşxyırlar. Bütün bu geniş ədəbiyyati tədqiq edərək türk ədəbiyyatina bağlamaq işi yeni qafalar, gənc və yorulmaz ürəklər bəkliyor»(133,142- 143).

Azərbaycanda anadan olan, əslən azərbaycanlx olan və Azər- baycanda təhsil alan, həyaünx Azərbaycanla bağlayan azərbaycanlx alimlərin nümayəndələrinə əsasən IX-X əsrlərdə daha çox təsadüf etmək olur.Bu alimlər isə əsasən ilahiyyat sahəsində çalxşan alimlərdir ki, bunu da o dövr üçün təbii saymaq olar. IX-X əsrlərdə azərbaycanlx alimlərin dini elmlərlə məşğul olmasx, bu sahədə müəyyən işlər aparmasx təsadüfi deyildir. İslam dininin qələbə

çaldığı bir dövrdə xalqm zəkalı oğulları yaxşı dərk edirdilər ki, islam ehkam və qanunlarmı yaxşx bilmək həyati bir təlabat olmaqla bərabər, həm də onun təbliği böyük əhəmiyət kəsb edir. Bu istiqamətdə islamm tədqiqi və təbliği ilə məşğul olanlar ilk növbədə onun elm, əxlaq ədəb, mədəniyyət və mənəviyyat tərəfinə xüsusi diqqət yetirmişlər.

Xalq öz içərisindən çıxmış ziyalılarma, xüsusilə din alimlərinə, böyük ehtiyac duyurdu. Bu ehtiyacı, bu təlabatı toplamaq üçün ilk növbədə hədisləri toplamaq, onlarm vasitəsilə islam dinini yaymaq, onun əxlaqi, mənəvi cəhətlərini xalqa aydmlatmaq, həmçinin islamı milli zəmin üzərində bağlamaq lazım gəlirdi. Hədis toplayanlara mühəddis deyirdilər ki, bunlar hədis toplayırdılar.Onlar bilikli şəxslər, alim və ziyalılar idilər. Y.E.Bertels göstərir ki, «Ilk mühəddislər kütlələr içərisində böyük nüfuza malik idilər. Onlar həm də fiqh adamları (hüququ bilənlər) idilər. Onlar adətən Quranın bütün təfsirlərini və qiraətini bilir və beləliklə, dövrün dini və hüquqi biliklərini özlərində cəmləşdirirdilər»(110,15).

Artıq IX-X əsrlərdə Azərbaycanda xeyli alim, xüsusilə ilahiyyat üzrə elm adamları, mühəddislər, fiqh adamları yeüşmişdi. Onlar öz əsərlərində dini əxlaqi, mənəvi məsələləri xalqa aydınladır, onları tərəqqiyə, mənəvi inkişafa çağırırddar.

Yaqut əl-Həməvinin «Hədis elminin sütunlarından biri» adlandırdığı və haqqında Xətib Təbrizinin yaxm dostu böyük ərəb tarixçisi Xəüb Bağdadinin (1002-1071) ifüxarla danışdığı Əbu Bəkir Əhməd İbn Harun İbn Ruh əl-Bərdici Kür çayının sahilində yerləşən Bərdic kəndində doğulmuş böyük alim və mühəddis olmuşdur. 301(917)-ci ildə Bağdadda vəfat etmişdir(134,194). Əhməd Bərdici heç şübhəsiz bizim Bərdə şəhərində doğulmuş və X əsrdə yaşamış ilkin Azərbaycan alimi və ziyaldarından biri olmuşdur. Dövrünün böyük alimi Əbu Səd Əs-Səmani yazır ki, Bərdici həm istedadlı bir müəllim, həm də mahir bir mühəddis olmuşdur. Onun topladığı və əzbərdən söylədiyi hədis- lər, əxlaqi söhbətlər çox doğru idi(134,23). Əhməd Bərdicinin «Nadir adlar» («Əl-Əsma əl-müfrədə») kitabı dövründə böyük şöhrət tapmış- dır. Bu kitab səhabələr haqqmda, hədis alimləri, onların müdrik kə- lamları və yaşadıqları şəhərlər

haqqındadır. Kitabın əlyazma nüsxələrindən biri Qüdsün Xalidiyyə, digəri Dəməşqin Zahiriyyə ki- tabxanalarında saxlandır. Bu kitabdan VII-X əsrlərin tarixi hadisələrini və ictimai və pedaqoci fikirlərini öyrənmək baxımdan faydalıdır.

IX əsrdə yaşamış digər azərbaycanlı alim, təbib və fiqh adamı Əbu Məad Əbdan Əl-Xuvəyyi olmuşdur(«Xuvey» Cənubi Azərbaycanda Səlmas yaxınlığında Xoy şəhərinin adıdır). Xuvəyyinin doğum və ölüm tarixi bəlli deyil. Lakin, Yaqut göstərir ki, o Əbu Məad Əbdan Əl-cahizə (775-868) əsaslanıb hədislər və ibrətamiz zərbül məsəllər söyləyərmiş (113,23).

Artıq X əsrdə azərbaycanlı alimlərirv sayı tədricən artmışdır. X əsrdə ən böyük din alimi Məkki Ibn Əhməd Ibn Sədəveyh Bərdəi olmuşdur. O ömrünü səyahətdə keçirmiş, Dəməşqdə, Trablisdə, Bağdadda, Misirdə olmuşdur. 330 (940-42)-cu ildə Nişabura gəlmiş, iyirmi il burada qalmış və sonra Orta Asiyaya getmişdir. Yaqut göstərir ki, Bərdəi Xorasanda olarkən «insanı heyrətləndirən dərəcədə çoxlu sayda əsər yazmış və əsərlərində insan şəxsiyyətinə, onun mənəvi aləminə yüksək qiymət vermişdir». 0,354 (965)-cü ildə vəfat etmişdir.

Əbu Abdullah Şeyx Əli Baba Kuhi Bakuvi (933-1051) Şərq poeziyasının və fəlsəfi fikrinin görkəmli nümayəndəsi, şəxsiyyətin mənəvi inkişafı haqqmda dəyərli fikirlər söyləyən bir mütəfəkkir olmuşdur. O gənc yaşlarından Iranı, Əfqanıstanı, Pakistanı, Iraqı gəzmiş müasirləri ilə görüşmüş, fikir mübadilələrində, elmi mübahisələrdə olmuşdur. Bakuvi Şirazda xeyli müddət yaşamış və dövrünün ən böyük alimi olmuş Əbül Həsən əl-Aşarinin tələbəsi Əbu Abdullah İbn Həfifdən dərs almışdır. İbn Həfif Bakuviyə bir çox elmlərin incəliklərini öyrətməklə bərabər, onu sufizmlə də tanış etmişdir. Tərcümeyi halı haqqmda ətraflı, geniş məlumatlar yoxdur.

Baba Kuhinin tədqiqatçılarından biri S.Rzaquluzadə göstərir ki, onım haqqmda Sədinin «Bustan» əsərindən də məlumat almaq olur. Rus şərqşünası V.A. Jukovski (1858-1918) Peterburqda müsəlman əlyazmalarımn tərtib edilmiş inventar siyahısma baxarkən Baba Kuhi haqqında məlumata rast gəlmişdir. Azərbaycan alim və tədqiqatçılarından Baba Kuhi haqqında ilk dəfə Hacı Zeynalabdin Şirvani

(1780-1838) yazmışdır. O Baba Kuhi haqqmda xeyli material toplamış və özünün «Bustanüs-səyahət» kitabını ona həsr etmişdir. Daha sonra Abbasqulu Ağa Bakıxanov «Gülüstani-İrəm» əsərində «Mövlana Şeyx Əbu Abdullah Əli Ibn Məhəmməd Bakuyi» başlığı altmda yazır: «Bir çox tarixçilərin yazdığma görə, Şeyx Əbu Abdulla Əli bin Məhəmməd Bakılı həm dünyəvi, həm də ruhani elmlər sahəsində seçilirdi. O, uşaqlıq illərindən dövrünün ən görkəmli alimlərindən Şeyx Abdulla Həfifdən, şeyx Əbu Səid Əbül Xeyrlə elmi mübahisəyə girmiş və onun biliyini yüksək qiymətləndirən Şeyx Əbül Abbas Nəhavəndi ilə uzun müddət əlaqə saxlamışdır. Ömrünün son illərində o, xəlvətə çəkilərək, Şiraz yaxınlığında bir mağarada yaşamış, Şərqin ən savadlı alimləri burada onunziyarətinə gəlmişlər...»(7,205).

Baba Kuhi 933/34-cü ildə Bakıda ruhani ailəsində doğulub və ilk təhsilini də atasından almışdır. Belə hesab olunur ki, o, məşhur mütəfəkkir, ilahiyyatçı Şirvanşah Mənüçöhrün vəziri Pir Hüseyn Şirvaninin qardaşı olmuşdur. Pir Hüseynin Pirsaat çayı üzərindəki Navahı kəndindəki məqbərəsi indiyədək ziyarətgah kimi qorunub saxlanmışdır. Baba Kuhi yüz ildən artıq yaşamış və Şiraz yaxınlığmdakı dağlarda, Karst mağaralarırun birində məskən salmış və ömrünün sonuna qədər orada yaşamışdır. 1074-cü ildə burada da vəfat etmişdir. coğrafiyaşünas alim N.Kərəmovun yazdığma görə, şair-alimin dəfn olunduğu yer onun şərəfinə Baba Kuhi adlanır. Hacı Zeynalabdin Şirvani Baba Kuhinin məqbərəsini ziyarət etmiş, ziyarətə gələnlərin istirahəti üçün oraya arx çəkdirmiş, hovuz və eyvan tikdirmişdir(35,19-20). Şərqin Nizami Gəncəvi, Sədi, Hafiz, Cami, Nəsimi, Seyid Əzim Şirvani kimi dahi sənətkarları Baba Kuhiyə şeirlər həsr etmiş, əsərlərində onu xaürlamışlar.Baba Kuhinin ərəb dilində yazdığı əsərlər sırasmda «Əxbar əl-Arifin», «Əxbar əl-qafilin», «Bədayət hal əl-həllac» kimi əsərlərinin adlarxnx çəkmək olar. Bundan əlavə onun farsca şeirlər «Divan»x olmuşdur ki, akademik Krxmski bu «Divan» haqqxnda yazmxşdxr ki,bu, sufi divanlarx arasxnda ən qədimlərindən biridir. Burada çox zaman sufinin Allaha oxuduğu yanxqlx məhəbbət nəğmələri öz ifadəsini tapmxşdxr. Divanxn ən qədim əlyazmalarxndan birinin tarixçəsi isə

belə olmuşdur. İran alimi Həbibullah İmad öz evində təmir işləri apararkən divardan bir sandxq tapxr. Sandxğxn içindən çxxan bir neçə əlyazmanın arasxnda Bakuvinin «Divan»mın qədim nüsxəsini aşkar etmişdir. Baba Kuhinin poetik yaradxcxlxğx özündən sonra yetişən Sədi Şirazinin, Hafiz Şirazinin, Xacə Hafizin yaradıcılığına qüvvətli təsir göstərmişdir. V.A.Jukovski Baba Kuhinin Londonda Britaniya muzeyində olan şeirlər «Divan»ının surətini əldə etmiş və onu rus dilinə tərcümə etmişdir. Lakin vəfat etdiyindən «Divan»ı çap etdirə bilməmişdir. Bundan sonra şərqşünas Y.E.Bertels (1890-1957) divanın çapı ilə məşğul olmuş və o da divanı çar etdirə bilməmişdir.Baba Kuhi şeir və qəzəllərində insanın mənəvi aləminə, elm və biliklərə yiyələnməsinə xüsusi əhə- miyyət vermişdir. Baba Kuhi şeirlərinin birində kainatın Heliosentrik sistemi haqmda fikirlərini Əbu Reyhan Birunidən 30-40 il, Koper- nikdən isə 500 il əvvəl söyləmişdir.

Əbülhəsən Urməvi hicri qəməri III- IV (IX-X) əsrlərdə yaşamış bir Şeyx olaraq Azərbaycan alimi, yaradıcı bir şəxs olmuşdur. Urmiya şəhərində doğulmuş, orada boya -başa çatmış və X əsrdə də bu şəhərdə vəfat etmişdir. Fikir və düşüncələrindən duyulur ki, insanın mənəvi, əxlaqi tərbiyəsinə, ağıl və kamalına böyük əhəmiyyət vermiş və şəxsiyyətin tərbiyəsində kökə, irsə önəm vermişdir.O demişdir:Na əhl adamla həmsöhbət olma, onunla əlaqə saxlama, həm dünya və həm axirət itkisi ondadır! Ondan soruşmuşlar: Ey Şeyx, adamlardan ayrılıb, tək yaşamaq yaxşıdır? O demişdir: Adamlarla ünsiyyətdə olmaq, görüşmək olmazsa kamal əldə etmək olmaz. Guşənişinliyə gəldikdə isə onun üçün yüksək mənəviyyat və kamillik olmalıdır (53,117). Alim bir pedaqoq kimi haqlı olaraq göstərir ki, insanlarla ünsiyyət və münasibətdə olmadan biliklərə dərindən yiyələnə bilməz və kamilliyə çata bilməz.

Dövründə məşhur olan böyük mühəddis, mütəsəvvüf alim Xacə Məhəmməd Xoşnam Naxçıvan şəhərində doğulmuş və Təbrizin 28 km-də Xoşnam kəndində vəfat etmişdir(53,371). Doğum və ölüm tarixi bəlli olmasa da Xacə Məhəmməd Zəncanlı Əxi Fərəcin müridlərindən olmuşdur ki, o da 1064-cü ildə vəfat etmişdir. Mənbələrin məlumaündan məlum olur ki, Azərbaycanda əsasən təsəvvüf onun

vasitəsilə yayılmışdır. O göstərmişdir ki, yalnız yüksək əxlaqi keyfiyyətlərə, mənəvi zənginliklərə yiyələnməklə insan kamillik zirvəsinə çatar və Tanrıya yaxınlaşa bilər.

Bir çox Azərbaycan alimləri də olmuşdur ki, onlar pedaqoji elmin metodikasma dair xüsusi əsərlər də yazmışlar. Belələrinə aşağıdakıları misal göstərmək olar:Əbu Bəkr Məhəmməd Ibn Əli əl-Marağİ böyük dilçi alim olmuşdur. Dilin metodikasına dair kitablar yazmışdır: «Kitab müxtəsər fi-n nəhv» («Nəhvə dair müxtəsər kitab»); «Kitab-e Şərh Şəvəhid Sibəveyh və təfsiruhə» («Sibəveyhin gətirdiyi dilçiliyə dair sübutların şərhi və təfsiri»). X əsrdə yaşamış daha iki azərbaycanlı aliminin adma da rast gəlirik ki, onlar Əbu Bəkr Məhəmməd İbn Yəhya İbn Hilal Əl-Bərdəi (961) və Əbu-1 Həsən Əli İbn Həkəveyh İbn İbrahim Marağai (51.1025) olmuşdur(53,31). Təəssüf ki, bu böyük Azərbaycan alimlərinin nə əsərləri dövrümüzə qədər gəlib çatmış, nə də özləri haqqmda məlumat əldə edə bilmişik.

Azərbaycandan çrxan şairlərin şeirlərində insanlann əxlaqi, mənəvi keyfiyyətləri öz əksini tapmışdır. Bu dövrdə pedaqoji fikir daha çox bədii söz vasitəsi ilə, öyüd və nəsihətlər, dini hökmlər vasitəsi ilə həyata keçirilirdi. X əsr Azərbaycan şairləri və ziyahlıarı haqqında yığcam məlumat versək onu deyə bilərik ki, şeirlərin əsas tematik mənbəyi islam dini hökmləri, Qurani Kərim və hədislər olmuşdur. Bu dövrün şairlərini də aşağıdakı kimi sıralaya bilərik: Əbu Abdullah Əl- Muğləsi əl-Marağayi. Marağayinin şeirlərində incə lirizm məntiqi təfəkkür, yüksək sənətkarlıq öz əksini tapmaqla mənəvi keyfiyyətlər tərənnüm edilmişdir.

X əsrdə yaşamış digər azərbaycanlı şair Bərəkəveyh Zəncanidır. O, «Sülul» adı ilə tarunmış və ibrətamiz şeirlər yazmışdır. Omm haqqmda da məlumat azdır. Dövrünün böyük şairi Bədi Əz-Zaman Həmədani (969/1007) onun şeirlərini büsbütün əzbər bilirmiş.Onun şeirlərində tərbiyəvi, əxlaqi moüvlər daha qüvvətli olmuşdur. Görünür Zəncani tərbiyənin gücünə inanmışdır. Şeirlərinin mənasmdan anlamaq olur ki, hər şey qəlb tərbiyəsindən başlayır. İnsanın qəlbində, sevgi və məhəbbət varsa kamilliyin əsası buradan başlayır. Həmçinin insanların yaratdıqları, qoyub getdikləri maddi

və mənəvi abidələrə qarşı qayğıkeş münasibətin tərbiyə edilməsi, onlara həssaslıqla yanaşdması təbliğ olunur. Şairin fikrincə insanlar çətin şəraitdə olsalar belə, onlar həyata nikbin baxmalı, həyatm gözəlliklərindən zövq almağı bacarmalı, insan kimi həyat sürməlidirlər:

*Keçir gül, mərsin içində həyatı, hər zaman xürrəm,*
*Fərəhlə gün keçir daim gözəllə, cam ilə həmdəm. Biri*
*zənn et təbibindir, biri zənn et həbibindir, Qovuş*
*insanlara, insan olar dost insana hər dəm. Nələr*
*qurmuş, yaratmışdır bu yollarda gör insanlar, Quru*
*bir rəsmə çevrilmə, yaşa insan kimi sən həm.*

Bərəkəvey Zəncaninin insanları dostluğa, yoldaşlığa, humanizmə, sevincə və faydalı işlərə çağırışı onun nikbin, humanist bir sənətkar olduğnu göstərir. Şeirdə deyildiyi kimi insanlara qarışmaq, məhəbbət və sevgi ilə yaşamaq mənəviyyatm üstün çəhətlərindən biridir. Şairin dediyi insanların qurub yaratdıqları, qoyub getdikləri «mənəvi abidələr»dir. Şair demək istəyir ki, xalqm dilini, adət ənənələrini qoru, onları unutma, onlara hörmət et.

Bu dövrdə bir çox Azərbaycan alimləri də yaşamışdır ki, onların özləri və əsərləri haqqında ətraflı məlumatlar əldə edilməmişdir. Bəziləri haqqmda bir neçə kəlmə, bəziləri haqqında isə yalnız adlarım çəkməklə kifayətlənmək olmuşdur. IX-X əsrlərdə yaşamış aşağıda adlarmı çəkdiyimiz alimlər heç şübhəsiz xalqın maariflənməsinə təlim və tərbiyəsinə qayğı göstərmiş və xalqm inkişafına, tərəqqisinə öz töhfələrini vermişlər. Məsələn, Əbülhüseyn Ərdəbili Azərbaycan şəhəri Ərdəbildə doğulmuş Bağdadda dərs demiş, müdrik fikirlər söyləmiş xalqm maariflənməsində xidmətlər göstərmiş və 1000-ci ildə Bağdadda vəfat etmişdir (53,117). Xətib Bağdadi Məhəmməd İbn Əbdüləziz İbn Cəfər İbn Məhəmməd İbn Əl-Həsən Əl-Bərdəi (969- 1032); Əhməd İbn Əl-Hüseyn Əbu Sə^id Əl-Bərdəi (X əsr); Əbu Əli Əl- Bərdəi (951-52), Əbu Abdulla Əl-Maraği (X əsrin I yarısı), Səid İbn Əl-Qasım Əl-Bərdəi (Öİ.973); Əbu-1 Həsən Yəqub İbn Musa Əl- Ərdəbili (01.1101-1102); Əbu Zərə Əbdülvahab İbn Məhəmməd İbn Əyyub Ərdəbili (Öİ.1024); Musa

İbn İmran İbn Musa Səlmasi (Öİ.990); Əbu Abdullah Mərəndi; Cəfər Ibn Məhəmməd əl-Hurras Əbu Məhəmməd Maraği (öl. 967) . Əhməd İbn Süleyman Təbrizi (930) (o «Kitabül-İstixarə və- İsüşarə» adlı məşhur bir əsərin müəllifidir.

Bu deyilənlərdən nəticə çıxarmaq olar ki, artıq X əsrdə Azərbaycanın dəyərli şairləri, mütəfəkkirləri meydana çıxmışdır. Onlar heç şübhəsiz dövrün təlimi-tərbiyəsi nəticəsində belə şöhrət tapıb, məşhurlaşmışlar, həmçinin onlar özləri də öz əsərlərində insanları maarifə, elmə, əxlaq və mərifətə çağırmışdır.

***XI əsr Azərbaycan elmi, maarifvə mədəniyyəti, pedaqoji fikri.***

XI əsr Azərbaycan elmi, mədəniyyəti, mənəviyyaü həyaün bütün sahələrində parlaq şəkildə özünü göstərməklə səciyyələnir. Təbii ki, bu dövrdə ərəb dili hakim mövqe tutduğundan yazılan elmi, ədəbi əsərlər, hansı ki, pedaqoji fikirlər əsas etibarilə bu mənbələrdə idi, əsasən ərəb dilində olmuşdur. Amma fars dilində yazan qüdrətli sənətkarlarımız o cümlədən Q.Təbrizi ortaya çıxmışdır ki, bu da Azərbaycan mütəfəkkirlərinin ərəbcə deyil, fars dilində də qələmlərini işlətdiklərini göstərməkdədir.

XI əsr onunla əlamətdardır ki, bu dövrdə yetişmiş alim və mütəfəkirlərin əksər hissəsi Azərbaycan ərazisində fəaliyyət göstərmiş və əsasən Azərbaycana xidmət etmişlər. Azərbaycan isə çox böyük bir ərazini əhatə edirdi. Qeyd edək ki, IX əsrdən başlayaraq ərəb xilafəti getdikcə zəifləyirdi. Xilafətə tabe olan ölkələrdə azadlıq hərəkatı başlayırdı. Azərbaycanda bu prosesin əsası IX əsrin ortalarında qoyuldu. Ölkə ərazisində Şirvanşahlar (861) və daha sonra Sacilər (879) dövləti təşəkkül tapdı. X əsrdə və sonralar Salarilər (942), Şəddadilər (971), Rəvvadilər (979) dövlətləri fəaliyyətə başladı. Daha sonralar isə 1054-cü ildə Azərbaycan Səlcuq dövlətinin tərkibinə qatildı. Bu barədə «Türk tarixi ensiklopediya»sında belə yazılır: «Səlcuq hökmdarı nəvələri olan Çağrı və Toğrul bəylər daha əlverişli torpaqdar tutmaq üçün səfərə çıxdılar. Toğrul bəy 1055-ci ildə Bağdada girib xəlifəni mühakimədən qurtardı. Xəlifə də ona Tac geydirdi, qılınc verdi, «Şərqin və Qərbin hökmdarı», «Dünya sultam» ünvam verdi Daha sonra Toğrul bəyə «Rüknüddün» (dinin təməli)

və «Qasım Əmir Əl möminin» (Xəlifənin ortağı) ünvanlarım verdi. Adına pul basdırdı. Bu islam aləminin rəsmən türk hökmdarına verilməsi demək idi. Bütün islam dünyası Xəlifə ilə birlikdə türklərin hakimiyyəti altinda keçmişdir.

Çağrı bəy isə 3000 nəfərlik güclü silahlanmış süvari ordu ilə Anadoluya, Qərbə doğru hərəkət etdi. Daha sonra Çağrı bəy Xorasan və Azərbaycandan keçərək «rüzgar kimi uçan atlar üstündə uzun saçlı yaylı və mizraklı» türkmənləri ilə Van gölü ətrafmda erməni vaspuraqan krallığı torpaqlarmda göründü və qarşısına çıxan qüvvələrin hamısını dağıdaraq ölkənin Qərb qismini hakimiyyəti altına aldı. Sonra Azərbaycana doğru yönəldi. Naxçıvan ətrafında qüvvətli savaşa cəsarət etməyərək geri çəkildilər. Sonra da Ani krallığmı məğlub etdi. Çağrı bəy bir müddət buralarda qaldıqdan sonra qardaşı Toğrul bəyin yanına döndü. İki qardaşın nüfuz və hörməti xeyli artdı və beləcə hər iki qardaş qüdrətli bir duruma yüksəldilər».

Tarixçi-alim professor V.Z.Piriyev yazır: «XI əsrin ortalarmda Orta və Yaxın Şərqdə mühüm tarixi hadisə baş verdi: Orta Asiya, İran, Suriya, kiçik Asiya və digər əraziləri özündə birləşdirən Səlcuq imperiyası meydana gəldi (1038-1157). Azərbaycan ərazisi onun ərazisinə qatıldı»(62,78). Beləliklə, Azərbaycanm Səlcuq imperiyası tərkibinə daxıl olması ölkənin tarixi, siyası və tarixi-etnik coğrafiyasına əsaslı təsir göstərdi. Beləliklə türk dili ərəb və fars dili ilə yanaşı Azərbaycanda elm, mədəniyyət dilinə çevrildi. Məhz XI əsrdə türk- cənin ərəbcədən üstünlüyünü və bu dildə gözəl əsərlər yaratmağın mümkünlüyünü göstərmək üçün Mahmud Kaşqarlı «Divanü Lügat- it türk» əsərini yazdı. Bu əsər Məhəmməd Peyğəmbərin (səs) «Türkcəni öyrənin, onların hökmranlığı və səltənəti uzun sürəcəkdir»- hədisindən irəli gələrək yazıldı və ərəblərə türkcəni öyrətmək məqsə- dilə yazıldı. Daha sonra bir-birinin ardınca Yusif Xas Hasib «Qutadqu-bilik («Xoşbəxtlik biliyi») və Ədib Əhməd Yüknəki «Ata- bətül Həqayiq» («Həqiqətlərin astanasmda») əsərlərini Bağdadda bir ərəb xilafətinin mərkəzində türkcə yazdılar.

Heç şübhəsiz bu əsərlər Azərbaycan xalqmm təfəkkür düşüncəsinə və ya ədəbi xəzinəsinə yad deyildi.Türk dünyasının böyük alimi Köprülüzadə Məhəmməd Fuad XIV-XV əsrlərə qədər Azərbaycan- Oğuz ədəbiyyatı ilə Səlcuq-Anadolu ədəbiyyatı, pedaqoji fikir və düşüncəsi arasında heç bir fərq görmədiyini və bunların birlikdə inkişaf etdiyini göstərmişdir: «Oğuzcarun hənuz Şərqi və Qərbi olaraq iki ləhcəyə ayrılmadığı ilk zamanlarda azəri sahəsində nə kimi türkcə əsərlər vücuda gəldiyini layiqiylə bilmirik. Lakin, gərək bu zamanlarda, gərək moğol istilasmdan sonrakı ilk dövrlərdə meydana çıxan əsərlərin ümumiyyətlə Səlcuqi-Anadolu əsərlərindən haman- haman fərqsiz olduğımu söyləyə biliriz. Hələ səlcuqilərin əlindəki Şər- qi Anadolu şəhərlərində yazılan əsərlər İraq, İran və Azərbaycandakı ümumi azəri ləhcəsindən xaric sayılmaz. İştə bundan dolayı, bilxassə hicri VIII (XIV əsr) əsrə qədər «Azəri» və «Səlcuqi-Osmanlı» ədəbiy- yatlarmm inkişafı adətən müştərək bir surətdə vaqe olmuşlar...» (37,15). XI əsrdə türkcə yazılmış əsərlər Azərbaycanda bədii fikrin, fil- oloji elmin inkişafma təsir göstərdiyi kimi Azərbaycan pedaqoji fikri- nin də inkişafma kömək göstərmişdi. Zatən bu dövrün mənəviyyatı, əxlaqı müqəddəs kitabımız Quran-i Kərimdən qaynaqlanır və Məhəmməd Peyğəmbərin (s) hədislərindən irəli gəlirdi.

XI əsr pedaqoji fikri bir çox cəhətdən onunla əlamətdardır ki, bu dövrdə yeüşmiş alim və mütəfəkkirlər, söz ustadları, müdrik şəxslərin əksəriyyəti Azərbaycanda fəaliyyət göstərmiş, Azərbaycanda yazıb yaratmışlar, elm aləminə bu diyarda atilmışlar. Ancaq bunlarm bir çoxu başqa ölkələrə səfər etmiş, həyatlarını orada qurmuşlar. Bu dövrdə hakim islam ideologiyası öz mövqeyini qoruyub saxlayırdı. Pedaqoji fikir də məhz islami hökmlər əsasmda qurulurdu. Bu dövrdə insanm fəalijryəti və davranışı ilə bağlı yazdan əsərlər Quran, hədis, dini hekayə və rəvayətlər üzərində qurulur, bu mənbələrdən qidala- nırdı. Bu dövrdə yazdan ədəbi əsərlərdə, dinin təfsiri ilə bağlı əsərlərdə insan amili mərkəzdə durur. Çühki islam insan şəxsiyyətinə, insan şərəfinə ən böyük qiymət verirdi.

Bu dövrdə Azərbaycanda elmin müxtəlif sahələri, xüsusən ilahiyyat haqqmda böyük alimlərimiz meydana gəlmişdir. Hüseyn əl- Muşili(Yaquta görə Muşil Azərbaycanda kənddir) və əl-Urməvi əl- Azərbaycani fiqh alimi olmuşdur. Urmiyada anadan olan Əbül Qənaim Bağdadda Nizamiyyə mədrəsəsində üahiyyat alimi Əbu Ishaq Şirazidən (1002-1083) dini elmlərə dair dərs almış, Nişaburda, Urmiyada yaşamış, müəllimlik etmiş və (1131) doxsan yaşmda vəfat etmişdir.

Görkəmli fəqih xoş rəftarlı Əbu Bəkir Məhəmməd Ibn Əl-Hüseyn İbn Ömər Əl-Urməvi Azərbaycani də (öl. »1142) Nizamiyyə mədrəsəsində Əbu İshaq Şirazidən ilahiyyat dərsi almış, sonra da «Nizamiyyə» mədrəsəsində fiqhdən dərs demişdir.

«Bağdad fəqihi» adı ilə məşhur olan Əbu Ömər İbn əl-Müsəddəd İbn Əhməd əl-Dərbəndi də (öl»1107) Əbu İshaq Şirazinin tələbəsi olmuş, ondan ilahiyyata dair dərs almışdır. O, hədis toplamaqda əxlaqi fikirlər söyləməklə tanmmış bir şəxs olmuşdur.

Əbu-Ruh əl-Fərəc İbn Ubeydullah İbn Xələf Xuvəyyi (Xoylu) Əbu İshaq Şirazinin bir müddət tələbəsi olduqdan sonra öz ölkəsinə qayıtmış doğma şəhəri Xoyda mədrəsə açaraq müəllimlik etmiş, dərs deməklə məşğul olmuşdur. Əsnəvi göstərir ki, «0, Azərbaycarun ürəyi kimi tanınırdı». Uzun illər müəllimlik fəaliyyəti sayəsində xeyli alim yetişdirmişdir. 521-ci ildə (1127) doğma şəhəri Xoyda vəfat etmişdir.

Urmiyarun qazisi kimi yüksək bir mənsəbə yüksələn Əbu Tayyib Nueym Ibn Musafir Ibn cəfər əl-Urməvi Bağdad Nizamiyyə mədrəsəsində təhsil almış, görkəmli alim nüfuzlu bir fiqh alimi kimi tanınmışdır. XI əsrin əvvəllərində doğma şəhəri Urmiyada vəfat etmişdir.

Hüseyn İbn cəfər İbn Məhəmməd Əbu Abbdullah Səlması var dövlətini yoxsullara paylamış xeyirah, nəcib, yüksək mənəvi keyfiyyətlərə malik bir müəllim kimi tanınmışdır. 446-cı ildə (1054) Bağdadda vəfat etmişdir. Əbu Abdulla Səlmasinin qardaşı Əbu Tahir Ibn Səlmasi həm hədis rəvayət etmək, həm də fiqh sahəsində dövrünün nüfuzlu alimlərindən biri kimi tamnmışdır. Xətib Bağdadi

ondan bir sıra hədis eşidib yazmışdır. 436-(1045) cı ildə Bağdadda vəfat etmişdir.

Azərbaycan alimi Reyhan İbn Əbd əl-Vahid İbn Məhəmməd Əbu-1 Vəfa-Urməvi vaiz və mühəddis kimi şöhrət qazanmışdır. 430-cu ildə (1039) Urmiyada vəfat etmişdir. Onun qardaşı Əbu Ən-Nəcib əl- Urməvi də dövrün tanınmış ilahijryat alimlərindən olmuşdur. Əvvəl İsfahana səfər etmiş 426 (1034-35)-cı ildə Bağdada gələrək Xətib Bağdadiyə bir sıra hədislər rəvayət etmişdir. 433-cu ildə (1042) vəfat etmişdir. Boyük alim Xətib Bağdadi özünün etiraf etdiyinə görə ondan xeyli məlumatlar iqtibas etmişdir.

Əbdülməlik Ibn Əhməd Beyləqani dövründə möhkəm hafizəyə malik mühəddislərdən olmuşdur. Bağdadda bir müddət yaşamış. Nişaburda olmuş sonra isə Beyləqana gələrək 496 (1103)-cı ildən bir qədər sonra doğma vətənində vəfat etmitşdir. Yaqutun məlumatına görə isə Beyləqani Xorasan və İranda yaşayaraq çoxlu hədis toplamışdır. M. Tərbiyət yazır ki, Əbu Züzə Əbdül Vahab İbn Məhəmməd İbn Əyyub Azərbaycan alimi olub Ərdəbildə doğulmuşdur. O, uzun ömür sürmüş, səyahətlər etmiş, məşhur alimlərlə görüşmüşdür. Şeyx Kəbir adı ilə məşhur olan Şeyx Əbu Əbdulla İbn Xəlifə Mədinəyə getmişdir. O Şirazda yaşayaraq dini, əxlaqi mövzularda moizələr etmiş, insanlara öyüd və nəsihətlər vermişdir. O, 415 (1024)-cü ildə vəfat etmişdir. Qəbri üstündə məqbərə tikilmişdir. Aşağıdakı sözlər onun nəsihətlərindəndir: «Ömrünüzün uzunluğu insanları incitmək üçün deyil, onlarm rifahmı təmin etmək üçündür. Bizim təriqətimizdə yaşayış bundan başqa bir şey deyildir. Heç kimə əzab vermək istəmirik, bacardıqca insanların rahatlığına, xeyrinə çalışırıq»(53,103).

XI əsrdə yaşamış digər Azərbaycan alimi Əbu Ishaq Ibrahim Ibn Əzhər Hafiz Mərəndidir. O Azərbaycanın Mərənd şəhərindəndir. Məşhur hədis alimi olmuşdur. Azərbaycan alimi İbn Makulu (1030-1093) onun haqqmda belə yazır: «Əbu İshaq Mərəndi bir Şeyx idi. Mən onu Nizam-ül-Mülkün evində gördüm. O, atası Əbu Səid haqqmda damşırdı» (53,104).

Beləliklə XI əsr Azərbaycan elminə tarixi pedaqoji ekskurs bu dövrün ümumi pedaqoji fikir səviyyəsini təsəvvür etməyə imkan

verir. Bu dövrdə onların pedaqoji fikirləri əsas etibarilə hədis və dini rəvayət Quran əsasında təhlil edilib, nəticələr çıxarılırdı. Şübhəsiz bu dövrdə hərtərəfli inkişaf etmiş şəxs islamm tələblərini yerinə yetirən, dindar ruhani şəxs hesab edilirdi.

Şəxsiyyətin təhsili, tərbiyəsi, əxlaqı, mənəvi keyfiyyətləri ilə bağlı məsələlər XI əsr Azərbaycan şeirində, ədəbi fikrində də öz əksini tapmışdır. Zatən o dövrdə ayrıca pedaqoji əsərlər yazılmadığından insanm əxlaqi keyfiyyətləri əsas etibarilə ədəbi əsərlərdə, poyeziyada və ilahiyyatla bağlı əsərlərdə öz əksini tapırdı.

XI əsr Azərbaycan poyeziyası və ədəbi fikrinin görkəmli nümayəndələri Qətran Təbrizi və Xətib Təbrizidir ki, onlar haqqmda irəlidə ayrıca damşılacaqdır. Amma, çox çətin və mürəkkəb olsa da ümumi şəkildə XI əsr Azərbaycan poeziyasmm bir neçə nümayəndəsinə nəzər salmaq müəjryən qədər dövrün pedaqoji fikirləri haqqmda təsəwür yaratmağa kömək edər.

Bu işin çətinliyi və mürəkkəbliyi ondan irəli gəlir ki, bu dövrdə yaşamış şairlərin yaradıcılığından bəzi nümunələr əsas etibarilə bir mənbədə-Əbu-l-Həsən əl-Baxərzinin «Dumyat əl-qəsr və usrat əhl əl- əsr» («Ən yüksək arzularm parlaq təsviri») (127) toplusunda öz əksini tapmışdır. Bu bir tərəfdən XI əsr poeziyasında pedaqoji fikrin tədqiqini çətinləşdirirsə, digər tərəfdən də «Dumyat əl-qəsr» müntəxabatının əhəmiyyətini artırır. Bu əsərdə səkkiz Azərbaycan şairinə yer verilməsi və onların şeirlərindən nümunələrin verilməsi bir həqiqəti təsdiq edir ki, o dövrdə insanları maarif və mədəniyyətə, əxlaqi, mənəvi keyfijryətlərə çağıran poeziyamız çox zəngin olmuşdur. Əbu-1 Həsən əl Baxərzi 1074-cü ildə vəfat etmişdir. DeməH «Dumyat əl-qəsr və usrat əhl əl-əsr»kitabında toplanmış şeirlər, əsasən XI əsrin I yarısını əhatə etmişdir. Şübhəsiz adları çəkilən təzkirəyə düşmüş şairlər daha sonralar da öz yaradıcılıqdarını davam etdirmiş Şərq dünyasını da heyrətə salmışlar. Yaradıcılığı təzkirədə öz əksini tapan Xətib Təbrizi, Xətib Urməvi, Əbu-1 Məhasin Hüseyn Təbrizi, İskafi Zəncani kimi şəxsiyyətlər də bu qəbildəndirlər.

«Dumyat əl-qəsr» toplusunda Azərbaycan şairlərinin siyahısı Əbu Nəsr Mənsur Ibn Mümkan Təbrizinin şeirləri ilə başlayır. Baxərzi

onım haqqmda yazır: «Təbriz əhli içərisində o böyük istedadı ilə məşhurlaşmış, sözlərin mənalannı saf qızd tək dlalamışdır. Qnım şeirləri insanlar üçün ibrətamizdir...»(127) Onun bu topluya düşən şeirləri həqiqətən çox dəyərli, mənalı və insarun mənəvi, əxlaqi tərbiyəsi baxımmdan əhəmiyyətiidir. Qnun qələmin təsvirinə həsr etdiyi şeir bu cəhətdən olduqca mənalıdır. Mənsur Təbrizinin fikrincə, qələm geniş mənada insarun mənəvi, əxlaqi yüksəlişi üçün mühüm bir vasitə, düşmənlərə qarşı mübarizədə isə kəsərli bir silahdır. Qələm bu süahla, bu dəyərli vasitə ilə həm özünü, həm dostlarını qoruyur, həm də insanların mənəvi, əxlaqi tərəqqisinə çahşır. Şair qələmin gücünə inamr və hələ XI əsrdə göstərmək istəyir ki, qələmin əsas vəzifəsi bir əxlaqi prinsip kimi gücsüzü müdafiə etməkdir. Bir şeirində bunu acıqca söyləyir:Zəifə elə bir qəüyyət verir ki/ Taqətdən düşmüş hər bir kəs belə kəsərH qılınc hesab olunur(127,225). Mənsur demək istəyir ki, şeir sadəcə olaraq kiminsə zövqünü oxşamaq üçün deyildir O mənəvi, əxlaqi məsələyə xidmət etmək üçündür. Bu mənada sözün qüdrəürd, gücə malik olduğımu şair aşağıdakı misralarla qeyd edir:Qələm öz ucu üə nə qədər qəddar düşmənləri məhv etmişdir. Həm də düşmənin qanrnı tökməklə yox,öz qanını axıtmaqla fikrini obrazh şəldldə ifadə edən şair qələmin ucundan vərəqlərə süzülən mürəkkəbi qana bənzətmiş, sətirlərə hopan bu qarun nəyə qadir olduğunu bildirmişdir.Şam əriyərək insanlara işıq bəxş etdiyi kimi, qələm də öz qanıyla maarif, tərəqqi düşmənlərini məhv edir. Mənsur Təbrizi demək istəyir ki, zəiflərin tərəfində duraraq onlarm hüquqlarını müdafiə edən sənətkarların bir sıra hallarda aqibəti fəlakətli olmuşdur. Lakin onlar fiziki cəhətdən məğlub olmuşlar, amma mənəviyyatca yüksəlmiş, əbədiləşmişdir.

Şair bunu da qeyd edir ki, qələm elə adamların əlində olmalıdır ki, o bunu insanlarm xeyrinə, rifahına, tərəqqisinə istifadə etsin. Bu qələm sülh, barış yaratmağa xidmət etməlidir. Əlbəttə, bu fikirlərin qaynağı Qurani Kərimdir. Şairin fikrincə kamal, mərdlik, vətənpərvərlik, xeyirxahlıq, təvazökarlıq kimi sifətlər hər cür mal, dövlətdən, qızıldan, gümüşdən üstündür. O dövrünün görkəmli xadimlərindən olan Nizam əl-Mülkə həsr etdiyi şeirində şair məşhur

vəzirin əxlaqi, mənəvi keyfiyyətlərini, xüsusilə təvazökarlığmı belə qiymətləndirir:

O (Nizam əl-Mülk) qızılı ilə deyil, nəcibliyi ilə nəciblikdən deyil, qızıldan yoxsuldur. Şair, Ağlı, kamalı, səxavəti özündə birləşdirdiyinə görə Nizam əl-Mülkü «Möhtərəm təbiətli şəxs» adlandırır və yazır:

*Səxavət zamanı ona valeh ol; (gör) necə parlayır:*
*Kamal anında onunlafəxr et; (gör) necə də təvazökardır (127,223).*

Şair bir pedaqoji tezis irəli sürərək bildirir ki, sarayda yüksək mövqedə duran vəzirin səxavət və kamalx təvazökarlıqla birləşəndə şəxsin ləyaqəti və əxlaqı özünü göstərir. Şəxs birinə yaxşılıq etdikdə, səxavət göstərdikdə onu səmimiyyətlə etməli və təmənnasız etməHdir. Bir islami məsəldə deyildiyi kimi «Birinə yaxşılıq etdinsə unut, biri sənə yaxşılıq etdisə unutma!»

Şair səxavəti yüksək mənəvi keyfiyyət hesab edir və bunu Nizam əl-Mülkün timsalmda təqdir edir:

*«Səxavət bol yağışlı buludlardan yüksəkdə durur Çünki buludlar, öz yağışını tökdükdə ağladıqları halda Nizam əl -mülk səxavət vaxtı gülür (127,223).*

«Dumyat əl-qəsr»də təqdim olunan digər Azərbaycan şairi Hüseyn Ibn Həsən Xətibi Urməvidir ki, onun Nizam əl-Mülkə həsr etdiyi bir şeiri də verilmişdir:

*«Əgər onun ilxısı susarsa, onun susuzluğunu yatırmaq üçün*
*Düşmənlərini (öz atları üçün hazırladıqları) su ilə suvarar.*
*Ölkələr onunlafəxr edərək bir-biriylə yarışırlar;*
*Sulu torpaq orada qızıl və gümüş kimi nəzərə çarpır.*
*O, səxavət dənizidir, sakit vaxtında onun görüşünə get.*
*Çaylar kimi qəzəblənib coşanda isə onunla qarşılaşma.*
*Əgər Nizam əl-Mülk olmasaydı, şərəfdə məhv olardı;*
*Şəriətin ziyası tutqun kül rənginə düşərdi.*
*Quran gecə bəlağətlə oxunmazdı;*
*Allahın dini yeni bir təravətlə yayılmazdı» (127,228-229).*

Bu şeirdə də o vəzir Nizam əl-Mülkün timsalında səxavətlilik, əliaçıqlıq, mərdlik qəhqəmanlıq, dinin qoruyucusu, təbliğatçısı kimi əxlaqi keyfiyyətlər təqdir olunur, nəcib sifətlər kimi irəli sürülür.

«Dumyat əl-qəsr» məcmuəsində müəllim, şair Əbu-1 Qasim Əzizan Ibn Məhəmməd Xəttat Nizami Təbrizinin adı da yer almışdır. O uzun illər Nizam əl-Mülkün «Nizamiyyə» mədrəsəsinin Nişabir filialmda dərs demiş, təlim-tərbiyə işi ilə məşğul olmuş və şeirlər də yazmışdır. Gözəl xətti olduğundan özünə «Xəttat» admı da götürmüşdür. Onun şeirləri vətənpərvərlik, yurd sevgisi, torpaq məhəbbəti ruhundadır. Təbrizdə doğulmuş Nişaburda çalxşan müəllim-şair üçün vətənpər- vərlik mövzusu şübhəsiz təbiidir. Bunu da qeyd edək ki, Nişaburda böyük hörmət və nüfuza malik olan Nizam əl-Mülkün qayğısı və himayəsi altrnda yaşayan müəllim doğma Azərbaycana-Təbrizə can atması diqqətəlayiq əxlaqi cəhətiərdən biridir ki, bu başqa insanlara da örnək ola bilər:

> *«Torpağıma can atıram; təəccüblü deyildir ki, Neçə-neçə qəribin qəlbi vətənlərinə can atmışdır. Səhərin şəfəqləri mənə tutqun görünür, sanki o, Mənim qürbətimdən bir pay götürmüşdür» (127.246).*

Nizami Təbrizinin ikinci rübaisi əxlaqi mənəvi məzmun daşıyır. Şeir Nizam əl-Mülkün mədhinə həsr olunsa da bütün insanlara aid olan əxlaqi, mənəvi keyfiyyətlər təqdir olunur, mühüm didaktik məsələlər irəli sürülür. Nizami Təbrizi göstərir ki, insanlarm varı-dövləti, malı, pulu müvəqqəti və keçicidir. Yalnız əbədi qalan yaxşı söz, yaxşı əməl və xeyirxah işləridir.İnsam ucaldan, əbədiləşdirən ən mühüm amil onun yaxşı, xeyirxah işlər görməsi, insanlara xidmət etməsidir. Kim öləndən sonra hörmətlə yad olunmaq istəyirsə xeyirxah, gülərüzlü, səxavətli, əliaçıq, mərd və mübariz olmalıdır:

> *Kim qəti yəqin etmiş ki, dünyanın gərdişi Xoş xatirəni, xeyirxahlığı qoruyub saxlamaqdır. O, yüksək şərafətli böyük sahib kimi (Nizam əl-Mülk) Əliaçıq, üzügülər, səxavətli olmalıdır (127,248).*

Bütün bunlarla bərabər «Dumyat əl-qəsr» kitabmda Azərbaycan şairlərindən Iskafı Zəncam, Əli Təbrizi, Hüseyn Təbrizi kimi şairlərin şeirlərindən seçmələr verilmişdir ki, onlarm da şeirlərində mənəvi-əxlaqi məsələlər öz əksini tapmışdır.

XI əsrin ikinci yarısında Beyləqanda anadan olmuş məşhur şairlərdən biri də Məsud İbn Namdar dır ki, şeirlərinin bir çoxu əxlaqi, tərbiyəvi mahiyyətdədir. O gənc yaşlarından ömrünün sonuna qədər Beyləqan, Gəncə və Şirvan şəhər idarələrində çalışmış, bu yerlərdə baş verən tarixi hadisələri, maraqlx həyat hadisələrini qələmə almışdır. Özünün verdiyi məlumatdan aydın olur ki, o 2000 beytdən artıq şeirlərini ərəb, fars və ana dili-azərbaycanca yazmışdır. Demək ki, hələ XI əsrdə Azərbaycan dilində yazan şairlərimiz olmuşdur. Bir çox şeirləri də avtobioqrafik mahiyyətdə olub, dövrünün hiyləgər, satqm, mənəviyyatdan uzaq insanlar nifrələ qləmə almmışdır. Şeirlərindən bir neçə parçaya nəzər salsaq Məsud İbn Namdarın yaradıcdıq xüsusyiyətlərini aydm görmək olar:

*Çalışın, ay insanlar, sevin sülhü, səfanı.*
*İtirdiniz nə üçün etibarı, imanı?*

*Alçaqlar gəlib olmuş ucaların əmiri,*
*İstedadlar, zəkalar nakəslərin əsiri*
*Düşmənlər çinar bilib qabığımı soyurlar,*
*İblislər hücum edib yaman günə qoyurlar.*

*Satdım dəyər dəyməzə varımı -dövlətimi,*
*Saxladım vicdanımı, saxladım ismətimi.*

*Haray,haray yurdumu axır ki, atıb getdim*
*Əziz övladlarımı özümə həsrət etdim.*

*Ləyaqətsiz düşmənlə barışmaram heç zaman,*
*Ləyaqətli olmuşam Aranda göz açandan.*

*Bəlkə də Allah mənə bu halətlə yar oldu,*
*O alçaq kiməslərdən yerim uzaqlar oldu...*

*Üzüm o Beyləqanın ən şirin nemətidir,*

*Ağıllılar danlamz bu sözçün əlbət məni.*

*Mən sizə xurma payı göndərirəm uzaqdan.*
*Bizim torpaq olmayıb çünki xurma vətəni (6,28, 30).*

Beləliliklə deyə bilərik ki, bu dövrürı də özüənəməxsus ədəbi,bədii, pedaqoji fikirləri olmuş, yaradıa insanlarımız həmişə haqqm, ədalətin, tərəqqinin,yüksək mənəvi, əxlaqi keyfiyyətlərin, maarif və mədəniy- yətin tərəfində olmuüş, cəhaləti, geriliyi, avamlığı, əyriliyi şiddətlə qunamışlar.

## 2. Qətran Təbrizinin pedaqoji fikirləri.

XI əsr Azərbaycan xalqının ictimai-bədii, pedaqoji təfəkkür tarixinin görkəmli nümayəndələrindən biri Qətran Ibn Mənsur Təbrizidir. O, təkcə Azərbaycanda deyil, bütün Yaxm Şərqdə mədhiyyələr yazan, dəyərli fikirlər söyləyən, hikmətli sözlər deyən böyük mütəfəkkir kimi tanınmışdır.

O Təbrizdə, Gəncədə, Naxçıvanda yaşayib yaratmış qüdrətli Azərbaycan sənətkarı olmuşdur. Qətran Təbrizinin «Divan»ım ilk dəfə toplayıb nəşr etdirən Məhəmməd Əli Naxçıvani olmuşdur . Daha sonra Azərbaycanda Qulamhüseyn Beqdeli bu əsəri farscadan azərbaycancaya sətri tərcumə etmişdir(76). Qətran Təbrizinin bu gün əlimizə gəlib çatdığı həmin Divan həm bədii, həm pedaqoji, həm də tarixı baxımdan çox dəyərlidir. Onun şeirlər Divani şairin həyat və yaradıcdığım öyrənməyə imkan verdiyi kimi o dövrün tarixi hadisələrini də öyrənməyə imkan verir.

Q. Təbrizi 1012-ci ildə Təbrizin yaxınlığında Şadiabad kəndində əkinçi ailəsində anadan olmuş və 1088-ci ildə Gəncədə vəfat etmişdir (70,62).

Istər öz dövründə, istərsə də sonrakı dövrlərdə bir sıra məşhur səyyahlar, şairlər, mütəfəkkirlər öz əsərlərində Q.Təbrizinin adını çəkmiş, «Gözəl şair» (Nasir Xosrov Ələvi (1004-1088), «Şairlərin fəsihi» (Ənvəri Əbivərdi (111-1135), «Həkim Qətran» (Rəşidəddin Vətvat (1088-1182), «Şairlərin imamı» (Dövlətşah Səmərqəndi (1586-ci ildə sağ imiş) kimi adlandırmışlar.

Qətrarı öz şeirlərirıdə Azərbaycan hökmdarlarmm qəhrəmanlığmı, şücaətini, ədalətini, vətənpərvərliyini, əxlaqi, mənəvi keyfiyyətlərini mədh etmişdir. Qətranın mədh etdiyi hökmdarlar XI əsrdə Arran dövlətinin və Azərbaycanda hakimiyyət başmda duran üç sülalənin üzvlərindən, habelə onlarm saraylarınm və ordularının xadim və sərkərdələrindən ibarətdir. Bu üç sülalə əsasən Şəddadilər, Vəhsu- danlar və Rəwadilərdən ibarətdir.

Görkəmli rus alimi, şərqşünası K.N.Smirnov öz dəyərli əsərində göstərir ki, Q.Təbrizi bir müddət Naxçıvanda yaşamış və Naxçıvan

hökmdarlanna, o cümlədən, Kəngərli tayfasmdan olan Məlik Cəstarun qəhrəmanlığına mədhiyyə yazmışdır.

*«Kim ona zidd edib, onunla müharibəyə girişsa;/Onun tükünü bədənində ilana çevirər» (76,96).*

Qətranın yaradıcılığında həm yüksək bədiilik, həm tarixi hadisələrin təsviri, həm tarixilik, həm də tərbiyəvi əxlaqi keyfiyyətlərin şərhi yüksək dərəcədədir. Qətran Təbrizinin «Divan»ını oxuduqca gözümüz qarşısında yalmz yüksək ilhama malik bir şair deyil, həm də bir pedaqoq, müəllim, tərbiyəçi, qədim Yunan və Şərq elm və mədəniyyətinə dərindən bələd olan görkəmli bir alimin siması canlanır.

Q.Təbrizi bir müəllim-metodist kimi fars dilinin ilk izahlı lüğətinin müəllifidir. «Ət-təfasir» adlanan fars dilinin bu izahlı lüğəti ilk didaktik əsərlərdən sayıla bilər. Qeyd edək ki, bu sadəcə olaraq bir sözlük deyil, həm də burada xüsusi metodika ilə hər sözün izahmda əxlaqi fikirlər, atalar sözləri və məsəllər verilir ki, bu da sözün mənasmm yaxşı mənimsənilməsinə, uzun müddət yadda qalmasına, dərk edilməsinə səbəb olur.

XI əsrdə yaşamış məşhur şair və səyyah Nasir Xosrov 1046-ci (438 hicri) ildə Təbrizə gəldikdə Qətranla görüşmüş, onun bu kitabı ilə tamş olmuş və özünün «Səfərnamə» əsərində yazmışdır ki, bu fars dilinin ilk izahlı lüğətidir. Bu lüğətdə Qətran sözlərin izahmı misallarla elə vermişdir ki, onu oxuduqda uzun müddət yadda qalır. Fars dili lüğətinə aid olan Əsədi Tusinin «Müstəşhədat», Əbu Həfs Sədin «Risalə» və Əlaəddinin «Zübdət-ul-luğə» («Ən yaxşı lüğət») əsərlərinin üçü də həkim Qətranm «Təfasir» əsərindən sonra yazılmışdır... (53,67). Qeyd edə bilərik ki, Qətrarun yazdığı bu lüğət kitabı uzun illər boyu fars dilini öyrənənlər üçün mühüm metodik kitab olmuş, bir növ dərs vəsaiti rolunu oynamışdır .

Orta əsr Azərbaycan tədqiqatçdarı qeyd edirlər ki, Q.Təbrizi fars leksioqrafiyası tarixində ilk izahlı lüğətin yaradıcısı olmuşdur. Bu barədə «Sihah əl-əcəm» adlı fars dili lüğətinin müəllifi Hinduşah Naxçıvani məlumat vermişdir.Yeri gəlmişkən qeyd edək Naxçıvaninin yaratdığı bu lüğət azərbaycanhlarm fars dilini öyrənməsi məqsədilə yazılmış və Azərbaycan dilində tərtib edilmiş

ilk tədris vəsaitidir. Azərbaycan məktəb tarixində bu kitabın müstəsna əhəmiyyəti və böyük mənası ondan ibarət idi ki, məktəblərimizdə tədrisin ana dilində aparılması zərurətinin dərk edilməsi ilə əlaqədar ilkin təşəbbüslərdən biridir. Bu yazdardan məlum olur ki, XI-XII əsrlərdə fars dilçiliyi sahəsində aparıcı rol məhz azərbaycanlılara məxsus olmuşdur. Bu əsərin başa çatmasında Qətran hər vasitədən, o cümlədən təsadüfən rastlaşdığı səyyahdan, yəni Nasir Xosrovdan da istifadə etməyə çalışmışdır.

Qətranm şeirləri əxlaqi, mənəvi, ibrətamiz fikirlərlə zəngindir. O həyat haqqında fikirlərini mənsub olduğu sadə xalq kütləsinə müraciətlə belə deyir:

> *«Ey ciyəri yanan, bu bağdan meyvə axtarma Bu bağ ancaq ikiqapılı bir söyüdlükdür. Bihudə danışma ki, bağban arxada durub Torpaq kimi aram ol, yel kimi ötüb keç» (76,424).*

Şair demək istəyir ki, yaşadığımız həyat olum və ölüm adlı iki qapısı olan söyüdlükdən ibarətdir. Olum qapısmdan bu söyüdlüyə daxil olan insan dadlı meyvələr axtarır, nəsə bir şeylər toplamaq istəyir. Lakin nəzərə almır ki, bu bağ söyüdlükdür. Bu söyüdlükdən dərilmiş «Meyvə» heç nəyə yaramayacaq. Buradan heç nə apara bilməyəcəkdir. Əcəl adlı bağban pusquda durmuş, insanı ölüm qapısmdan içəri atmaq üçün fürsət gözləyir. Şair bildirir ki, bu həyatda insan «torpaq kimi təvazökar» olmalı, aza qane olmalı, maddiyyətə, dünyagirliyə, mala, pula hərisliyə, meyl etməməlidir. Çünki:

> *«Kim ki, mal toplamaqdan ötrü dərd, qəm və əzab çəkir, Mal-dövləti gedəcək ona ancaq əzabı qalacaqdır» (76,421) - deyir .*

Qətranın şeirlərindən duyulur ki, dövlətçilikdə, hökmdarlarm dövləti idarə etməsində ilk növbədə onlarrn ağılı, biliyi, maarifçiliyi, ədaləti böyük rol oynayır. Qətran hökmdarları tərif etməklə sanki onları dövləti ağılla, mənəviyyatla, elm və biliklə idarə etməyə

çağırır. Qətran Azərbaycan hökmdarlarını dostiuğa və birliyə çağırıb, ölkədə vahid qüdrətii bir dövlət yaratmağı zəruri hesab edirdi. Bxma görə də Qətran Əbülhəsən Ləşkəri (Gəncənin Şəddadilər sülaləsinin altıncı hökmdarı (1033-1050) ilə Əmir Əbüfəzl Cəfərin (Gəncənin Şəddadilər sülaləsindəndir) barışıb dostluq etməsini yüksək qiymətləndirir və belə yazır:

*«İndi ki, şirlə aslan bir yerə yığıldt, İndi ki, ayla günəş bir yerə qovuşdu, Düşmənlərin bədəni əriyib məhv olacaqdır, Düşmənlərin bədəni qəm və həsrət çəkəcəkdir» (76,71).*

Q.Təbrizi Şərq klassik poeziyasında görkəmli yer tutan «Yusif və Züleyxa», «Vamiq və Əzra», «Leyli və Məcnun», «Səd və Əsma», «Səlma» kimi dastanlardakı qəhrəmanlarm adlanndan istifadə etməsi, məmduhlarmı (mədh etdiyi adamları) o qəhrəmanlara bənzətməsi şairin dərin bilikliliyini göstərməklə bərabər, həm də XI əsr Azərbaycan mədəniyyətinin, maarifinin bədii təfəkkürünün inkişaf etdiyini göstərir.

Qətran dəyərli bir əxlaqi keyfiyyət kimi ***dostluğa, səxavət və vəfaya yüksək qiymət*** verərək düşmənə qarşı birgə müqavimət göstərməyi məqsədə uyğun hesab edir. O Şah Əbülxəlil Cəfərin dostluğunu belə mədh etmişdir:

*«Səxavəti, vəfası, hövsələsi və böyüklüyünə görə*
*Hamının könlu onun dostluğuna minnətdardır.*
*O, zamanın ayı və yer üzünün günəşidir! Zaman və*
*zəmin kimi də həmişəlik olsun!» (76.71).*

Başqa bir yerdə yenə Əbülxəlilin dostluğunu işığa bənzədir:

*«Düşmənlərinə od olsan da, dostların üçün işıqsan»(76,73).*

Qətran Əbu Mənsur Vəhsudamn dostluğunu belə mədh edir:

*«Məhəbbəti dostunu yaşadır, qəzəbi düşməni məhv edir. Dostuna yüklə mal verər, düşməninə qandan yağış yağdırar»(76,177).* Bu misralardan görünür ki, Qətran dostluqda yaxşılıq etməyi tükənməz sərvət bilir, dostuna əsirgəmədən hətta yüklə mal verməyi uyğun bilir. Düşmənə də

güzəştə getmir ona ən ağır zərbə vurulmasını-«qandan yağış yağdırılmasmı» uyğun bilir.

Q.Təbrizinin şeirləri demək olar ki, tərbiyənin bütün sahələrini əhatə edir. Q.Təbrizi öz məmduhlarının daha çox mənəvi keyfiyyətlərinə üstünlük vermişdir. Bu mənəvi keyfiyyətlər sırasında ***vətənpərvərlik, qəhrəmanltq, şücaət, cəsarət, düşmənə qarşt amanstzltq, dostluqda sədaqət, comərdlik, insanpərvərlik, sülhsevərlik, səxavət, əliaçtqlıq, fədakarltq, xeyirxahltq, ədalət*** və s. kimi sifətlər mühüm yer tutur.

Q.Təbrizinin şeirlərində təqdir və təbliğ olunan mənəvi keyfiyyətləri aşağıdakı qaydada qruplaşdıra bilərik:

İnsanpərvərlik və sədaqətlilik

Şair Gəncənin Şəddadilər sülaləsindən olan Əbülxəlil Cəfərin mənəvi keyfiyyətlərindən danışarkən onun insanpərvərliyini və sədaqəüni aşağıdaki kimi qiymətləndirir:

*«İnsanpərvər olduğu üçün başqasının malına göz dikməz, Sədaqətli olduğuna görə düşmənə də əzabı rəva görməz». (76,234)*

Sülhsevərlik, barış.

Sülhsevərlik və barış Təbrizi yaradıcılığmda mühüm yer tutur. Bu baxımdan Qətranın misralarında sülh və barış öz yüksək ifadəsini tapmışdır. O, «Zülmdən zindan, hərbdən viranəlik törəyər» - deyir. Qətran açıq şəkildə döyüşdən fəlakət, sülhdən əmniyyət törədiyini belə bildir: *«Döyüşdən fəlakət və əzab, barışıqdan sərvət və əmniyyət törəyər» (76,34).*

**Əməksevərlik və çalışqanlıq.**

Şair Əbülmüzəffər Fəzlunu (Fəzlun Əbus-Sərvanm oğludur. Gəncənin Şəddadilər sülaləsindəndir. 1066-1089-cu illərdə hökmdarlıq etmişdir) mədh edərkən onun şahlıq zirvəsinə böyük zəhmət, əziyyət hesabına çatdığını yüksək qiymətləndirərək belə deyir:

*«Şah yüksəlmək üçün əzab çəkdikcə, eybi yoxdur.*
*Tikansız xurma olmadığı kimi, zəhmətsiz də rahatlıq olmaz».*

Əbu Nəsr Məmlanm ***əməksevərliyi*** haqqmda isə belə deyir:

*«Yorulmadan çalışqanlıq, bəxşişi riyasızdır,*
*Qılıncının şöləsi almazı əridər».*

**Bədən gözəlliyi, sağlamlıq, fiziki tərbiyə.**
Şair Əbülmüzəffər Fəzlunun vücud gözəlliyinə İslamda gözəllik və yumşaq təbiətlilik timsalı kimi təsvir edilən Yusiflə müqayisə edir:

*«...Şahənşah Əbülmüzəffər Yusifuzlü, Yusif xasiyyətlidir,*
*Gözəl görkəmli, gözəl sözlüdür, zahiri də batini də gözəldir».*

Şair bir yerdə isə Əbu Nəsr Məmlanm vücud gözəlliyini hər eybdən uzaq olan Məhəmməd Peyğəmbərin vücudü ilə müqayisə edir:
*«...Vücudu Mustafa vücudu kimi hər eybdən uzaqdır* (Mustafa-Məhəmməd peyğəmbər nəzərdə tutulur) (76,57).

**Səxavətlilik, comərdlik, əliaçıqlıq, vəfalılıq.**
Q.Təbrizi Əbül-Xəlil Cəfərin səxavətliliyini Nil və Zürmən çayları ilə müqayisə edərək belə deyir:
«Nil və Zürmən çayları əlindən ehsan vermək öyrənir,
Dəniz onun bəxşişli əlindən mükafat alar» *«...Səxavətli əli təmiz ürəkli olmasına dəlildir, Açıq üzlülüyünə xoş xasiyyətliliyi sübutdur»* (76,49).

Şair Əbu Mənsurun atası Vəhsudanın da səxavətini təqdir edir:

«Səxavət zamam verən əli və həyalı üzü vardır»
«Vəfalı olduğu üçün ölüm onun xeyirxahlarına yaxm düşməz» (76,34).

**Düzlük, doğruçuluq.**
Şair bu barədə Əbülməali Qəvaməddird belə mədh edir:

*«Comərdliklə fələk misilini yaratmamışdır,*
*İgidlikdə fələk ona bir nəfər tay yetirməmişdir.*
*Sudan od çıxmadığı kimi, dilindən yalan söz çıxmaz» (76,36).*

Səbrlilik, təmkinlilik mənəvi keyfiyyət kimi həmişə yüksək qiymətləndirilmişdir. Şair Əbu Nəsr Məmlanın bu keyfiyyətini isə belə dilə gətirir: «Lakin səbr insanda əvəzsiz bir sifətdir.İnsan dünyada ürəyi istədiyini səbrlə əldə edə bilər» .

**Ədalətlilik, insaflılıq** kimi əxlaqi keyfiyyətlər Qətran Təbrizinin şeirlərində özünə geniş yer tutmuşdur. Əbu Nəsr Məmlanm mədhində onun bir çox əxlaqi keyfiyyətləri, o cümlədən, ədalətiiliyi və insaflılığı təqdir edilir:

*«Allah ona bütünfəzilət və hünərləri vermişdir, Həm igidlik, həm səxavət, həm elm, həm din sahibidir. Həm bəxşiş, həm çalışqanlıq, həm dövlət, həm ədalət sahibidir. Qocalar tək ürəyi hər şeydən xəbərdar, gənclər tək insaflıdır» (76, 75).*

**Qəhrəmanlıq, cəsurluq, dostluq və yoldaşlıq** mənəvi keyfiyyət kimi Təbrizinin şeirlərində böyük yer tutur. O, Naxçıvan padşahı Əbuduləfin qəhrəmanlığını, igidliyini belə təqdir edir:

*«...Ey türk heykəlli mələk, ey mələkxasiyyətli türk!*
*Həm behiştirı zinətisən, həm də xəzərin bəzəyi...*
*Bu bəndəpərvər padşah Məlik Əbuduləfdir*
*Dəmir divar qılıncı qarşısında dayanmaz.*
*Müharibə meydanında düşmənlərinin oxlarının*
*Ucu lələyə, lələkləri isə oxa çevrilər.*
*Elə ki, o pəhləvan bədəninə zireh geyindin,*
*Elə ki, o sərkərdə başına dəbilqə qoydun.*
*Sənin nərənin qorxusundan düşmən qoşunları,*
*Bərbər pələngin səsindən qorxan qulanlara döndülər» (76, 107).*

*Q.Təbrizinin şeirlərində* ***qadına hörmət, anaya məhəbbət*** *motivləri xüsusi yer tutur. Şair Əbu Nəsr Məmlana hörmətini mədh edərkən deyir: «Sən qadınlar üzərinə qılınc çəkmədiyin üçün/Sənin meydanmda bütün kişilər qadın olmağı arzulayır»(76.118) .*

Oz həyatı və fəaliyyəti ilə mənəviyyat nümunəsi olan, insanlara həmişə öz əxlaqı ilə örnək olan Məhəmməd Peyğəmbərin nümunəsindən geniş istifadə edən Q.Təbrizi öz məmduhlarınm müsbət keyfiyyətlərini peyğəmbərimizin (səs) nümunəsində şərh edir. Q. Təbrizi Vəhsudarun oğluna Əbu Mənsura verdiyi tərbiyəni təqdir edir. Onu peyğəmbərimizin (səs) adlarından biri olan Mustafa timsallı olduğunu göstərir: «Huşəng fərasətli, Mustafa elmli, Mustafa fərlidir»- deyir.

Q. Təbrizi öz qəhrəmanlarının bu və ya digər əxlaqi, mənəvi keyfiyyətlərinin tarixi şəxsiyyətlərin nümunəsində izah edir. Bu da şairin geniş məlumatlılığını göstərməklə bərabər, həm də onlarm gözəl, əxlaqi sifətlərini oxuculara açıqlayır, onlardan nümunə götürməyə təşviq edir. Məsələn, şair, Əbülmüzəffər Fəzlu haqqında belə deyir: «Bu şah Firudin hörmətli, Ənuşirəvan ədalətiidir. Bilikdə Buqrat və Əflatunun adlarmı xatirələrdən çıxarmışdır» (76,121,122,128).

Yaxud Əbülxəlil cəfəri mədh edərkən çox qiymətli nümunələrdən istifadə edir, müqayisələr gətirir: «...Sən Cəmşid kimibilikli, Firudin kimi güclüsən/Ağılda Bəhram kimi, igidlikdə Zal-Zər kimisən» (76,39).

Əmir Şəmsəddinin və Əbül Məalın mədhində də bənzətmələr var:

*«Şahları ovlamaqda İskəndərə bənzər*
*Ruzigarı tanımaqda Firidun kimidir.*
*İşlər günü taxt üstündə Yusifə bənzər*
*Döyüş günü at üstündə Rüstəmə bənzər» (76,40).*

Qətran Təbrizi əxlaqa, mənəviyyata zidd sifətləri qəbul etmir. O, tamahkarlıq, ədalətsizlik, qorxaqlıq, bədxahlıq, avamlıq, hiyləgərlik, yalançılıq, xəsislik, dikbaşlıq kimi mənfi keyfiyyətləri bədii pedaqoji

təfəkkürlə pisləyir, insarüarı saf mənəvi keyfiyyətlərə çağırır. Məsələn, bir yerdə belə yazır:

*«Həmişə nadanlar mənfəət tamahı ilə ziyan çəkərlər» (76, 27).*

Qətran Təbrizi şeirlərində estetik və ekoloji tərbiyə motivləri də öz ifadəsini tapmışdır. O, təbiət gözəlliklərini vəsf etməklə oxucuda estetik hisslər oyadır. Onun şeirlərində yüzlərlə bitki və heyvan növünün adı çəkilir, onların obrazlı təsviri verilir və insanlara sevdirilir. Biz Təbrizinin şeirlərini oxuduqca təbiəti daha çox sevir, onun gözəlliklərini daha artıq qiymətləndirməyə başlayırıq. Onun şeirlərində bahar mənzərələri, bu fəsildə təbiətdə baş verən dəyişmələr böyük məharətlə təsvir olunaraq **estetik** tərbiyənin mühüm bir tərəfi kimi öz ifadəsini tapır:

*«Yenə bülbül gəldi, qara qarğa qərib düşdü,*
*Od gülü uzaq, bənövşə gülü yaxın oldu.*
*Səba yeli bağa çox nadir, bəzəkli,*
*Əlvan naxışlı minlərlə zərxana döşədi» (76,146) .*

Şair həmçinin payız, qış, yay fəsillərinin də xüsusiyyətlərini bədii lövhələrlə təsvir edərək insanda bədii, estetik hisslər yaradır.

Q.Təbrizi insanın formalaşmasında, müəyyən məqama, rütbəyə çatmasında ***irsi amillərə*** üstünlük verir. O bu amillərin ya bitki və güllərin timsalında ya da bir başa açıq şəkildə əsil nəcabəti, kökü tərif edir və «Ot kökü üstə bitər» misalına tərəfdar çıxır. Şairə görə hər cismin öz təbiəti var və o ancaq öz təbiətinin xüsusiyyətlərini təzahür etdirə bilər:

*«Hər qırmızı mərcan olmaz, hər yaşıl mina olmaz,*
*Dağda olan hər bir daş yaquti - rummani ola bilməz.*
*Sədəfə düşən hər damla nadir mirvari ola bilməz» (76,156).*

Q.Təbrizi sanki bir təbiətşünas alim kimi müxtəlif misallarla hər fəslin özünə xas təbiətə, irsiyyətə malik olmasını da göstərir: *«Yaxşı*

*fidan ancaq yaxşı ağacdan əmələ gələ bilər/Yaxşı ağac da ancaq yaxştfidan yetirər»(76, 176).*

Bu beyt irsi xassələrin nəsildən-nəsilə keçməsi fikrini daha aydm ifadə edir. Q.Təbrizi şeirlərində açıq-aydm göstərir ki, əsil nəcabətlilər yüksək rütbələrə çaür və yüksək mənəvi keyfiyyətlərə sahib olurlar. Bunu Fəzl İbn Qəvərdin mədhi şeirində aydın görmək olar:

> *«Nəcibin oğlu nəcib olar» misalı əgər çox qəribə olsa da, Başqa şahlara baxanda o qədər də qəribə olmaz... Sənfəzilət və ədəbinlə hamıdan artıqfəxr etməlisən, Hələ sənin kimifazil və ədib bir şah gəlməmişdir»(76,57).*

Qətran Təbrizi bənzətmələrində ədaləti Ənuşirəvan şaha, şan şöhrəti, şövkəti Sultan Süleymana, biliyi Sultan Süleymanm vəziri Asəfə, Buqrata, gözəlliyi Yusifə, pəhləvanlığı İsfəndiyara, Rüstəm Zala, səxavəti, bəxşiş verməyi Hatəmə, ağılda İskəndərə, mal verməkdə Bəhram gur şaha, əxlaqi kamilliyi Məhəmməd peyğəmbərə(s), fəzilət- də Murtuzaya (birinci İmam Əlinin adlarından biri), şüurluluğu Əflaüma, ölkələri fəth etməkdə Sultan Mahmud Qəznəviyə bənzədir. Qətran mədh etdiyi qəhrəmanları habelə camalda Leyli, məhəbbətdə Məcnun, rəssamlıqda Mani, uzun ömürlülüyü Nuh peyğəmbərin ömrü ilə müqayisə edir. Daha sonra qəhrəmanlar siyasətdə Sama, Calalda Cəmşidə, ibadət və itaətdə Cəfəri-Təyyara (Məhəmməd pey- ğəmbərin əshabələrindən biri), kişilikdə Heydər Kərrara (Məhəmməd
Peyğəmlərin kürəkəni), ehsan verməkdə Nil və Hirmən çaylarma, fərasətdə Huşənğə, iğidlikdə Rüstəm Zala bənzədir.

Beləliklə deyə bilərik ki, Qətran Təbrizi böyük şair olmaqla bərabər, bir pedaqoq, metodist, tərbiyəçi olaraq XI əsr pedaqoji fikir tariximizdə mühüm yer tutmaqdadır.

## 3. Xətib Təbrizinin müəllimlik fəaliyyəti və pedaqoji fikiriəri.

Maarif, mədəniyyət və pedaqoji fikir tariximizin görkəmli nümayəndələrindən biri XI əsrdə yaşayıb yaratmış, ədəbiyyatşünas, düçi, şərhçi, müəllim və pedaqoq Xəüb Təbrizidir.

Dövrünün alimləri Xətib Təbrizini «ədəbiyyat, qrammatika və leksioqrafiya elmlərinin başçısı», «enisklopedik zəka», «fazil», «şeyx», «ərəb elmlərinin rəhbəri və ədəbiyyatşünaslığm bayraqdarı», «əxlaq və mənəviyyat şərhçisi» kimi adlandırmışlar. Bu dahi Azərbaycan alimi Şərqin müsəlman xalqlarının elm, maarif və mədəniyyətinin inkişafında böyük xidmətləri olmuşdur. O, qırx ildən artıq «Nizamiy- yə» mədrəsəsində ədəbiyyat elmləri bölməsinin rəhbəri, professoru və mədrəsənin zəngin kitabxanasının müdiri olmuşdur. Təbrizdə doğulan və böyüyən, 10 il Suriya və Misiri dolaşan, böyük alimlərlə görüşən və ömrünün çox hissəsini Bağdadda keçirən Xəüb Təbrizi öz dəyərli əsərləri ilə, öz şərhləri ilə mühüm əxlaqi, etik, pedaqoji problemlərə toxunmuş, şəxsiyyətin inkişafı və tərbiyəsi haqqında əhəmiyyətli fikirlər irəli sürmüş və uzun illər onun şərhləri məktəb və mədrəsələrdə Şərq ədəbiyyatının klassik nümunələri kimi tədris olunmuşdur.

Xətib Təbrizinin həyat və yaradıcılığı haqqmda Azərbaycanda ilk məlumatı XV əsrdə yaşamış Hinduşah Naxçıvani vermiş, sonra Məhəmmədəli Tərbiyət özünün «Danişməndani-Azərbaycan» əsərin- də klassik ədəbiyyatdakı tərbiyəvi öyüdləri və yurdsevərlik ideyalarını yaymağa ayrıca yer verərkən Xətib Təbriziyə xüsusi yer vermişdir(53,15). Daha sonralar, M.S.Ordubadi, H.Araslı X.Təbrizi haqqında məqalələr yazmış, X.Təbrizinin həyatı və yaradıcılığı haqqmda M.Mahmudov dəyərli kitab yazmışdır(45).

Xətib Təbrizinin tam adı Əbu Zəkəriyyə Yəhya Ibn Əli Ibn Məhəmməd İbn Həsən İbn Məhəmməd İbn Musa İbn Bistam əl-Şeybanidir. Xətib Təbrizi Əbu-1 Əla əl-Məərrin (979-1058) «Siqt əz-Zəndin şərhi» əsərində göstərir ki, ərəblər uzun ad işlətməyi çox sevirlər. Onlar öz nəsillərini sadalayaraq babalarına qədər gedib çıxırlar ki, bu da çox uzun ad alınır. Xətibin fikrincə qısa ad daha

ləyaqətli və daha yaxşıdır və özünü sadəcə Xətib Təbrizi kimi təqdim etmişdir.

Xətib Təbrizi bütün mənbələrin verdiyi məlumatlara görə 421 (1030)-ci ildə Azərbaycanın Təbriz şəhərində doğulmuş və 502-ci cəmadi əl-ula ayının 28-də (1109-cu ildə yanvarın 3-də) bazar günü Bağdadda vəfat etmişdir və orada da dəfn edilmişdir(45,36,37).

İlk təhsilini Təbrizdə almış, burada ərəb, fars dillərini öyrənmiş daha sonra Bəsrədə ərəb filologiyası sahəsində mükəmməl bilik əldə etmək üçün Fədl İbn Məhəmməd İbn Əli Əbu-1 Qasim əl Qəsabanidən (Öİ.1052) dərs almış və Təbrizə qayıtmışdır. O, Təbrizdə məşhur dilçi alim Əbu Mənsur Məhəmməd əl-Əzhəri əl-Məərrinin «Ət-Təhzib fi-1- lüğət», («Dilin saflaşdırılması haqqında») adlı əsərini oxuduqdan sonra, daha geniş məlumat almaq üçün Təbriz alimlərinə müraciət etmiş və onlar da ona Əbu-l-Əla əl-Məərrinin yanına getməyi məsləhət görmüşlər.

Yaqut Həməvi - böyük səyyah və alim (1179-1229) Xətib Təbrizinin bu səfərini belə təsvir edir: Nağıl edirlər ki, onun (Xətib Təbrizinin) Əbu-l-Əla əl-Məərrinin yamna səfər etməsinin əsas səbəbi odur ki, o, Əbu Mənsur əl-Əzhərinin «Kitab ət-Təhzib fi-1 Lüğət» adlı əsərini oxuduqdan sonra kitabın müəllifindən bəzi şeyləri soruşmaq olmuşdur.Bunun üçün o kitabı heybəsinə qoyub çiyninə ataraq 17 kitabla birlikdə Təbrizdən əl-Məərrinin yanına gedir. Onun minik tutmaq üçün pulu olmadığından piyada getməli olur. Mənzil başma çatdıqda Xətibin kürəklərindən axan tər kitabı isladır. Kitab sanki suya düşmüşdür. Bu nüsxə Bağdad kitabxanalarının birində bu gün də saxlanılır. Hadisədən xəbəri olmayanlar ona baxdıqda kitabın suya düşdüyünü zənn edirlər. Halbuki o, yaLnız Xəübin təridir.

Bu fakt Xətib Təbrizinin Təbrizdən Suriya yaxmlığına qədər piyada qan-tər içərisində getməsi onun elmə nə qədər böyük həvəsi oldu- ğunu, nə qədər cəsarətli, iradəli və qorxmaz olduğunu göstərir. Bu hadisə haqmda Xətib belə yazmışdır: «Bir gün səyahətə qarşı bezmiş olan kimsə, bilsin ki, mən də oturmağa qarşı bezmişəm» (45,33). Bu səfər Azərbaycan aliminin həyatinda yeni dövrün başlanğıcıdır. Ontın ərəb ölkələrinə səfəri bir tərəfdən, alimin

elmi-fəlsəfi dünyagörüşünün formalaşmasımn, digər tərəfdən onun hərtərəfli yetkinləşməsinin ən mühüm amillərindən biri hesab edilməlidir. Xətib Təbrizinin müraciət etdiyi müəllim-Əbu-l-Əla əl-Məərr dövrünün məşhur, nadir zəka- larından biri olmuşudur. Şərqin bu dahi filosof şairi və aliminin Xətib Təbrizinin müəllimi olması gənc alimin dünyagörüşünün formalaş- masmda, hərtərəfli inkişafmda mühüm rol oynamışdır.

M.Tərbiyət özünün «Danişməndane-Azərbaycan» əsərində Yaqut Həməvinin «Mucəm-ul-üdaba» («Ədiblər haqqmda təzkirə») əsərindən gətirdiyi bir faktda X.Təbrizinin aşağıdakı sözləri verilir: «Bir gün Nöman mədrəsəsindəki məsciddə Əbu-l-Əlanın məclisində onunla üz-üzə oturmuşdum. Iki ildən bəri idi ki, öz vilayətimdəki dostlarım- dan xəbərim yox idi. Bu anda təbrizli qonşularımdan biri məscidə daxil oldu.Mən həddindən artiq sevindim. Əbu-l-Əla soruşdu: «Sənə nə oldu»? Mən Təbrizdən qonşularımın birinin məscidə gəlməsini dedim. Əbu-l-Əla dedi:«Dur get, öz adamlarından xəbər tut»! Yerlilərimi görməkdən daha çox sizin hüzurunuzdan həzz alıram - deyə mən cavab verdim. O, dedi: Dur get, sən gələnədək mən gözləyərəm, mən durub getdim, hal-əhval tutub Əbu-1 Əlarun yaruna qayıtdım. Əbu-l-Əla soruşdu: təzə gələnlərlə danışdığm dil hansı dildi? Dedim: «Azərbaycan dilidir» O, dedi: «Mən sizin dilinizi başa düşmədim, amma bütün daruşdıqlarıruzı əzbərləmişəm» Əbu-l-Əla bizim danışdıqlarımızm hamısmı eynilə təkrar etdi. Mən onun belə iti düşüncəsinə və güclü hafizəsinə həddən artıq təəccübləndim» (53,368).

X.Təbrizi Suriyanm müxtəlif şəhərlərini dolaşmış, elimini arürmış, Dəməşqə gəlmiş, burada «Bağdad tarixi»nin müəllifi məşhur tarixçi Xətib Bağdadi ilə tanış olmuşdur. On ildən artıq səyahət edərək görkəmli alimlərlə görüşən X.Təbrizi Misirdən Bağdada qayıtmış və Hinduşah Naxçivaninin verdiyi məlumata görə Bağdad Nizamiyyə mədrəsəsi açılan kimi-yəni 1067-ci ildə Nizam-əl-Mülk Xəüb Təbrizini Nizamiyyə mədrəsəsinə dəvət etmişdir. Böyük şərqşünas alim İ.Y.Kraçkovskinin də qeydinə görə Xətib həmçinin ədəbiyyat elmləri bölümünün dekanı və professoru kimi də fəaliyyətə başlamışdır (115,255). 38 yaşlı Xətib Təbrizinin Şərqin bu böyük

mədrəsəsində ədəbiyyat bölümünün rəhbəri seçilməsi, zəngin kitabxananm midiri təyin edilməsi onun nə qədər bilikli, zəki, parlaq bir şəxsiyyət olmasmdm xəbər verir.

Xətib Təbrizi ömrünün sonuna qədər 40 il bu vəzifədə çalışmışdır ki, bu da Şərqin yahuz çox nadir simalarma nəsib ola bilərdi. Alimin ölümündən sonra onun yerinə təyin olunan Əbu-l-Həsən Əli Ibn Məhəmməd İbn Əli əl-Fəsihi (öl. 1122) yalnız az müddət ərzində bu vəzifədə qala bilmiş və tezliklə mədrəsəni tərk edərək öz yerini Xətib Təbrizinin tələbəsi Mavhub İbn Əhməd əl-Cəvaliqiyə (1073-1145) verməyə məcbur olmuşdur.

Şərqin bir çox alimləri X. Təbrizinin tələbələri olmuşdur ki, onlardan Mavhab əl-Cəvaliqi, Əbu 1-Həsən Səd əl-Xeyr İbn Məhəmməd İbn Səhl əl-Ənsari (1146 öl), Əbu-l-Fədl İbn Nasir (1074-1155), Əbu Bəkr Məhəmməd İbn əl-Ərəbi (1076-1148), Əbu Tahir Məhəmməd Ibn Abdulla əs-Sinci (1070-1153) və başqaları olmuşdur ki, onlar da dövrünün məşhur alimləri kimi tanınmışlar ki, bu da X.Təbrizinin yüksək pedaqoji ustalığından xəbər verir. Xətib Təbrizinin elmi-pedaqoji irsi olduqca zəngin və rəngarəngdir. O, ömrünün sonuna qədər elmi-pedaqoji fəaliyyətird dayandırmamış və dəyərli əsərlər və şərhlər yazmışdır ki, bu əsərlərdə ədəbiyyat və dilçiliyin tədqiqi ilə bərabər Şərq xalqlarmın adət və ənənələri, etnoqrafiyası, əxlaqi- mənəvi təfəkkürü öz əksini tapmışdır.

Xətib pedaqoji fəaliyyəti ilə bərabər bu dövrdə Bağdadda dəyərli elmi əsərlər yazmışdır. «Siqt əz-Zəndin şərhi» (126) (Çaxmaq daşmm ilk qığılcımı) (1082-83), «Həmasənin şərhi» (126) (Qəhrəmanlıq şeirləri) (1082-1088), «İslah əl-Məntiqi»(124) (Məntiqin düzəlişi) (1098), əsərlərini yazmışdır. Bundan əlavə Xətib cahilliyə dövründə yaşamış 10 şairin ən məşhur qəsidəsinə-«Şərh əl qəsaid əl-aşr»(120), daha sonra İbn Dureydin «Məqsurə» əsərinə («Şərh əl-Məqsurə İbn Dureyd») (123) («Məqsurə»-«Qəsrə salınmış qadm» deməkdir. Bu əsər ərəb poeziyasının incilərindən sayılır) geniş şərh yazmışdır .

Xətib Təbrizi islam qaydaları, şəriət qanunları ilə ciddi maraqlanmış və hətta bu barədə iki böyük əsər yazmışdır. Onlardan birincisi «Təfsir əl-Quran» dır («Quranın açıqlaması») ki, bu əsərin adına Yaqutun əsərlərində rast gəlmək olur. İkincisi isə Quranın elmi

qrammatik cəhətdən təhlilinə-həsr edilmiş «İrab əl-Quran»dır («Quranda hallanma»). İbn Xəlliqan yazır ki, «Mən bu əsəri dörd cilddə görmüşəm». Həmçinin əl-Ənbari göstərir ki, Xətib Təbrizi X əsr böyük ərəb dilçisi ibn-əl cinninin (932-1002) «Lümə fi-n-nəhv» («Sintaksisə dair xülasə»)(125) adlı metodik əsərinə geniş şərh yazmışdır ki, bunu da Ibn-Xəlliqan nadir əsər adlandırmışdır .

Xətib Təbrizi alim, tədqiqatçı, şərhçi olmaqla bərabər həm də böyük şair olmuşdur. X.Təbrizinin müasiri Əli əl-Baxərzi Xətibin böyük bir qəsidəsini öz kitabına daxil etmişdir. İbn əl-Əsir, daha sonra isə İbn Xəlliqan, Corci Zeydan Xətib Təbrizinin şeirləri haqqmda, hətta onun divanı olması barəsində məlumat vermişlər (132). Şairin təbiət təsvirinə mənəvi, əxlaqi keyfiyyətlərə dair, Nizam əl- Mülkün xeyirli, faydalı, şücaətli işlərinə dair, habelə zülm, ədalətsizlik və haqsızlığa qarşı şeirlər yazmışdır. Onun əldə olan şeirlərindən məlum olur ki, o daha çox ictimai-əxlaqi mövzulara meyl etmiş, dövrünün haqsızlıq- larım, ədalətsizliklərini dilə gətirmişdir.

X. Təbrizi Sultan Alparslanın vəziri Nizam əl-Mülkə böyük bir qəsidə həsr etmişdir. Xətib öz qəsidəsini Nizam əl-Mülkün müdrik fəaliyyətinə həsr edərək onun sayəsində xalqın vəziyyətinin yaxşılaşdığım, elmə, maarifə yüksək qiymət verdiyini, onun «zəkası ilə dünyanm işıqlandığmı, arzuların həqiqətə çevrildiyini» söyləyir.

Xətib yazdığı şərhlərində məzmuna əsas fikir vermiş, formanı ikinci planda görmüşdür. O, bu dünyagörüşündən çıxış edərək deyir ki, insanm da dəyəri onun formasında deyil, məzmunundadır. Buna baxmayaraq, forma ilə məzmunun vəhdətdə olmasım da irəli sürür və haqlı olaraq göstərir ki, formanın özündə də bir məzmun vardır. Bu fikirlərdə pedaqogika elmində tərbiyənin forma və məzmununu daha da dəqiq şərh və təhlilində bir istiqamət rolunu oynaya bilir. Xətib Təbrizi insarüarda gözəl estetik duyğuların tərbiyə olunmasım istəyir və şeirin tərbiyəvi rolunu yüksək qiymətləndirir. Bu cəhətdən o, öz şeirlərində şairlərin yüksək sənətkarılığa, incə zövqə, estetik duyğulara malik olmasmı tələb edir və şeirlərində də belə hisslərin təbliğ olunmasmı təqdir edir.

Xətib Təbrizi şeirlərin təhlilinə bir çox yönlərdən-pedaqoji, psixoloji, dilçilik, etnoqrafik, ədəbiyyatşünaslıq, tarix, folklor cəhətlərindən yanaşmışdır. Bu onun dərin və hərtərəfli biliyə bələd olmasından, pedaqoji işdə çalışmasmdan, müəllimlik fəaliyyətindən irəli gəlmişdir.

Xətib Təbrizinin əsərlərində meydana çıxan mühüm cəhətlərdən biri onun özünün həyata, cəmiyyətə olan baxışlarını ifadə etməsi və əxlaqi-etik fikirlər irəli sürməsidir. Alimin pedaqoji ustalığı ondadır ki, o özünün fikirlərini təhlil etdiyi şeirlərin məzmunu ilə əlaqələndirməyi bacarmışdır.

Xətib Təbrizinin yaradıcdığında müəllimi Əbul Əla Məərrin «Siqt əz-zənd»in şərhi və Əbu Təmmamın «Həmasənin şərhi» xüsusi yer tutduğundan və bu əsərlərdə əxlaqi-etik, pedaqoji fikirlərin zənginliyini nəzərə alaraq bunlar haqqmda bir qədər ətrafh məlumat verməyi lazım bilirik.

«Siqt əz-zənd»in şərhi çox mühüm əhəmiyyətə malikdir. Bu təkcə alimin öz yaradıalığı deyil, həm də dövrünün böyük şəxsiyyəti olan Əbul Əla Məərrinin yaradıcılığmı öyrənmək üçün olduqca zəngin materiallar verən qiymətli sənət abidəsidir. Əbul Əla Məərri qüdrətli şair-filosof olmuşdur. Onun ən istedadlı tələbəsi olan Xətib Təbrizi müəlliminin bədii, əxlaqi, etik düşüncələrini şərh edərək şərh sənətində yeni bir dövr açmışdır. Əsərin dəyərini başa düşmək və Əbul-Əla Məərr şəxsiyyəti ilə tamş olmaq üçün onun həyat və yaradıcılığma da nəzər salmaq lazım gəlir.

Əbul-Əla 973-cü ildə Bağdad məmləkətlərindən olan Məərrə ən-Nümanda doğulmuşdur. O, ilk təhsilini atasından almış, sonralar isə Hələbə gedərək müxtəlif alimlərin yamnda təhsilini davam etdirmiş, ədəbiyyat və dilçiliyə dair mükəmməl bilik əldə etmişdir. Əbul-Əla 394 (994)-cü ildə təxminən 20 yaşında olarkən doğma şəhəri ən-Nümana qayıtmış, dini elmləri, ədəbiyyat və fəlsəfi bilikləri dərindən öyrənmiş, səyahət edərək dövrün alimləri ilə görüşüb, tanış olmuş,dünyagörüşünü genişləndirmiş və Bağdadda yerləşib oturmuş- dur. O, bu elm mərkəzində şeir məclislərində iştirak edir, özünün mütərəqqi fikirlərini irəli sürürdü. Bağdad mühiti Əbul-Əlada tərkidünyalıq hissləri yaratmış və 1010-cü ildə Bağdadı

tərk edərək Məərrə ən-Nümana qayıdan şair, cəmiyyətdən uzaqlaşaraq evinə qapüıb qahr və ömrünün sonuna qədər ət və hey vanlardan alınan qida məhsullarını yeməmişdir. Lakin, Əbul Əla elmi-pedaqoji fəaliyyətini dayandırmamış, şagirdlərinə dərs keçmiş, özünün dəyərli əsərlərini bu dövrdə yazıb başa çatdırmışdır. Onun şöhrəti dünyanm hər yerinə yayılmış, müxtəlif ölkələrdən alimlər onun yaruna oxumağa gəlmiş və bu gələnlərdən biri də Xətib Təbrizi olmuşdur. Dörd yaşında ikən keçirdiyi çiçək xəstəliyindən hər iki gözü tutulmuş, kor olmuş və ona Əbul Əla Əd-Dərir demişlər (Yəni kor Əbul-Əla). Buna baxmayaraq o mükəmməl təhsil almışdır. Hələbdə araşdırmalar aparmış, sonra Bağdada gəlmiş burada böyük kitabxanarun müdiri Əbd üs-Səlamla tamş olmuş, kitabxanada biliyini artırmış və hər cümə günü toplanan sərbəst düşünənlərin arasına qatılmışdır. Çox sayda əsərlər, şeirlər yazmış və onun «Siqt əz-Zənd» əsəri məşhur olmuşdur. O, bir çox şeirlərini də «Lüzum mə lə- yəlzəm» («Lazım olmayanm lüzumu») adı altmda toplamışdır. Dövründə haqqmda çoxlu rəvayətlər deyilmişdir. Belə bir rəvayət «Təzkire-i Devlətşah»da verilmişdir(84). Belə ki, Əbul Əla xəlifə üçün bir mədhiyyə yazmış, şagirdi Əbu Səid Rüstəm onun qoluna girərək Xəlifənin hüzuruna aparırdı. Darül Xülafənin (Yəni Bagdadın) qala qapıları çox hündürdü. Hətta atıılar oradan keçərkən bayraqları endirmədən keçərdilər. Zira bayraq endirmək uğursuzluq sayılarmış. Qapıya yaxmlaşarkən Əbu Səid Əbul Əlaya deyərmiş: Ustadım başım əy, qapıya dəyməsin. Əbül-Əla da əyilərək qapıdan keçirdi. Xəlifə də-«Maşallah nə qədər xeyirli şagirdin vardır»-Əbul Əlaya deyirdi (84,49) . Əbul Əla da deyirdi: «.. .Istisnasız olaraq bu dünyada hər şey mənasız bir oyuncaqdır. Taleh kordur və fələk nə həyaün zövqünü çıxaran kralın, nə gecələrini dua və ibadətlə keçirən zahidin canmı bağışlar, nə də ağlımızın gücü ilə şeylərə inanmaq bizə varlığın sirlərini açıqlar. Fırlanan fələklərin arxasmda olanlar bizim üçün daim məchul qalacaqdır...» (84,77).

Məərri böyük humanist olmaqla bərabər, düşüncələrində azad olması və düşündüklərini açıq söyləməsi ilə fərqlənmişdir. Əbul-Əla Məərr olduqca incə duyğulu və məğrur bir şəxsiyyət olmuş,

ömrünün 84-cü ilində 1057-ci ildə həyata vida etmiş məzarı başmda yetmişdən artıq şairin mərsiyə dediyi rəvayət edilir.

Xətib Təbrizi «Siqt əz-zənd»in şərhi»nin müqəddiməsində göstərir ki, Əbul-Əla məni bu əsəri şərh etməkdən çəkindirirdi. Səbəbini öyrəndikdə məlum oldu ki, Əbul-Əla bu əsərdə özünü tərifləmiş və buna görə də o bu əsər haqqmda eşitmək belə istəmirdi.

Əbul-Əlanm müxtəlif dövrlərdə, müxtəlif mövzularda və müxtəlif həcmlərdə yazdığı şeirləri özündə cəmləşdirən və şairin «Siqt əz- zənd» adlandırdığı divanı onun yaradıcılığının bu və ya digər bir dövrünə aid olmayıb, gəncliyindən başlamış qocalana qədər uzım bir dövrü əhatə edir. Xətib Təbrizi insan ağlına yüksək qiymət vermiş, müəllimi Əbul-Əla kimi bunu beynin məhsulu olduğunu göstər- mişdir. O, qeyd edir ki, «Beyin ağlın vətənidir» (121,141). Daha sonra deyir ki, «İnsanm beyni ağıl üçün ixtisaslaşmışdır» (116,146). İbn Dureydin «Məqsurə»sinin şərhi» əsərində alim bu fikrini daha açıq ifadə edərək «insan ağılla düşünür», «ağlın məskəni beyindir» ideyasmı müdafiə etmişdir (121,23).

Xətib Təbrizi insanın formalaşmasmda, tərbiyə olunub ərsəyə çatmasmda ictimai mühitin roluna yüksək qiymət verir. O, «Siqt əz-Zənd»in şərhi»ndə insanm formalaşmasında zaman və məkanın böyük rol oynadığını deyərək Əbul-Əlanm aşağıdakı beytlərinin izahını vermişdir:«Kim ki, gecələrlə yoldaşlıq edibdir, ona (gecələr) dostu aldatmağı və cəfəngiyatı öyrədibdir. Dünyanın işləri onu o qədər dəyişdirmişdir ki, hətta elə zənn edir ki, dağları qarışqalar daşıyırlar» (121,39). Bu beytləri zamanm alimləri başqa cür şərh etmişlər. Lakin ən doğru dürüst və məntiqli təhlil X.Təbrizinindir. O, «gecələrlə yoldaşlıq» etməyi xoşagəlməz hesab edir. Səhərin, işığın əksi olaraq gecəni, qaranlığı insana pis təsir edən dosta bənzətmişdir.

Xətib Təbrizinin fikirlərindən aydın olur ki, cəmiyyətin əyrilikləri insanlarm tərbiyəsinə qüvvətli təsir göstərir. O, bu fikri ilə mühitin insan tərbiyəsində roluna yüksək qiymət verir. Pozulmalara mü-qavimət göstərməyi alim elmi biliklərə yiyələnməkdə görürdü. Yalnız elm, bilik vasitəsi ilə insanlar zamamn hadisələrini dərk edə bilərlər, mühitin onlarm qarşısma çıxardığı çətinliklərə sinə gərərək

aciz və zəif qalmazlar. X.Təbrizinin mühitə, şəraitə nə qədər böyük əhəmiyyət verdiyini, insan və şərait problemini düzgün dərk etməyin Əbu Təmmamm divamnm şərhində də görmək olar. Mühit insanı bəzən özünün arzu etmədiyi, istəmədiyi bir işə məcbur edir. Alim bu barədə belə yazır: «İnsan bəzən məcburi bir işi görür və həm də bilir ki, başqa iş bundan daha əfzəldir» (121,154). Azərbaycan alimi bu fikrini subut etmək üçün tarixə müraciət edir və göstərir ki, Xəlifə Ömər İbn əl- Xəttab (634-644) qızıl və gümüşün azlığıru nəzərə alıb dəvə dərisirıdən pul kimi istifadə etmək qərarma gəlmişdir. Deməli Xətib Təbrizi hələ XI əsrdə mühitin insanlarin fəaliyyətində çox mühüm rol oynadığım dərindən hiss etmişdi.

Xətib Təbrizi aza qane olmağın, dünya malına uymamağm tərəfində olmuşdur. O, «Sitq əz-Zənd»in şərhi»ndə Əbul-Əlanm bir beytini şərh etmişdir: «Torpaq sənə minnətdarlıq edir: çünki sən onun hədiyyəsini götürmürsən, (əksinə)ona bəxşişlər verirsən» (121,225). Xətib Təbrizi bu beyti əxlaqilik, könül toxluğu baxımmdan şərh edərək qeyd edir ki, «Bütün dünya malxnı verən torpaqdır». Xətib Təbrizi insan-ıin torpağa əyilməsini, əməklə, əməli işlə məşğul olmasını torpağm bütün nemətlərin anası olduğunu söyləyir.

X.Təbrizi öz şərhlərində əxlaqi-etik məsələlərə daha çox üstünlük verir və bunu Əbul-Əlanm bir şeirinin şərhində bunu görmək olur: «Gəncliyin yaşayışı uşaqlıq və qocalıq çağlarrnkına bənzəmir. Həyat sanki oddur ki, onun əwəli tüstü, axırı da küldür» (121,323). Şair bu beytlərlə demək istəyir ki, insanm gəncliyi uşaqlıq və qocalıq çağlarından tamamilə fərqlənir. O, gəncliyi oda, qocalıq və uşaqlığı isə tüstüyə bənzədir. X.Təbrizi bu beytlərlə gənclik illərini daha çox tərifləmişdir. Şair insanm gəncliyini alova bənzətmiş, uşaqlıq illərini tüstüyə oxşatmış, qocalığı isə külə oxşatmışdır. Buna görə də gənclik insan ömrünün ən faydalı çağı hesab olunur.

X. Təbrizinin ən böyük əsərlərindən biri «Həmasənin şərhi»dir (Qəhrəmanlıq şeirləri) (124). «Həmasəni» Azərbaycan şəhəri Həmədanda tərtib edən Əbu Təmmam bu əsərində 500-dən çox şairin şeirlərini toplamışdır. Əbu Təmmam istər islamdan əvvəl cahilliyə dövrünün, istərsə də ərəb şairlərinin yazdıqları ən yaxşı şeir parçalarmı bu divana daxil etmişdir. «Həməsə» ərəb ədəbiyyaümn

300 illik dövrünü əhatə edən və Əbu Təmmama qədər yazılmış ən yaxşı şeir nümunələrini özündə cəmləşdirən bir qiymətli əsər kimi tədqiqatçılarm diqqəüni cəlb etmiş və bu şeirlərin tərbiyəvi, ibrətamiz mənalarını geniş oxucu kütləsinə çatdırmaq məqsədi ilə müxtəlif dövrlərdə bir çox alimlər tərəfindən tədqiqat işləri apanlmış, ona şərhlər yazdmışdır. Təxminən üç əsrdə yaşamış şairlərin şeirləri toplanmış bu əsərin mürəkkəbliyinə baxmayaraq X.Təbrizi buradakı şeirlərin hər birinə şərhlər yazmış, onlarm əxlaqi, mənəvi dəyərlərirü təhlil etmişdir. Azərbaycanda yazdmış, ilk oxucuları da azərbaycanhlar olmuş və Azərbaycan alimi X.Təbrizinin bu əsərə yazdığı şərhlər 50- ildə dörd dəfə Avropada, Hindistanda, Misirdə çap edilərək bütün dünyaya yaydmışdır. Cahilliyə dövründə ərəblər öz qızlannı çox vaxt diri-diri torpağa basdırırddar. «Həmasə»nin şərhində X.Təbrizi bu adəti vəhşilik adlandırmış, mənəvi, əxlaqi keyfiyyətlərdən uzaq saymışdır. Xəüb Təbrizinin bu əsər haqqmda şərhlərindən məlum olur ki, o böyük əxlaqşünas alim kimi, insanpərvərlik, vətənpərvərlik, mənəviyyat haqqmda dəyərli fikirlər irəli sürmüşdür. Böyük alim cəmiyyətin, yaramaz adət və qanunlarım tənqid edərkən sadəcə əxlaqi öyüdlər verən müdrik bir şəxs deyil, həm də dərin mühakiməli, faktları elmi surətdə sübuta yetirən kamil mütəfəkkirdir. Əsərlərində toplanan əxlaqi-etik fikirlər böyük alimin uzun həyat təcrübəsində dəfələrlə sınaqdan keçirdiyi, həyatda, təcrübədə yoxladığı elmi- tədqiqahn yekunudur. Alim şeirləri şərh edərkən daim çalışmışdır ki, əxlaqi ideyaları daha bariz şəkildə aşkara çıxarsın. «Vətənin ayrılığma dözmək ölüm kimidir»(124,245)- deyən mütəfəkkir insanın ləyaqət və mənliyini ən əvvəl onun öz vətəninə olan münasibətində görürdü. O, meyl, rəğbət, sevgi sözlərini izah edərkən onu ömrü uzunu düşündürən vətənpərvərlik haqqındakı fikirlərini təbliğ edir. Burada hər şey elmi şəkildə tədqiq edilir, alimin vətənpərvərlik hissləri bütün əzəməti ilə tərənnüm olunur. O, yazırdı ki, vətənpərvərlik insamn ən tərifəlayiq xüsusiyyətidir, çünki bu onun alicənablığmın və yüksək ağlının təzahürüdür: «İnsanm öz vətəninə olan məhəbbəti onun ağlırun kamiliyinin əlamətidir» (124,298).

Xətib insardarı öz vətənird kortəbii surətdə deyil, ağılla sevməyə çağırırdı. Məhz buna görə də, alim vətənpərvərliyi insarı ağlınm kamilliyində, insamn mərdliyində görürdü. Oz vətəninə, xalqma biganə olanları böyük mütəfəkkir şiddətlə tənqid edərək yazırdı: «Öz qəbüənin, xalqının olduğu bir ölkədən şikayətlənmə, yaxm adamlarırun yaşadığı torpağa qarşı biganə olma». Xətib Təbrizi vətənpərvərliyi insarun ən ali keyfiyyəti hesab edir və əsil insan dedikdə ilk öncə onun vətənə məhəbbətini nəzərdə tuturdu: «Vətənə məhəbbət insarun ən şərəfli və ən qüdrətli xüsusiyyətidir» (124,235). Alimin fikrincə əgər insanlar bir- biri üə sıx ünsiyyətdə olsalar, bu onlar üçün fayda gətirər: «TəfriqəçiÜk isə yalnız pisÜk gətirə bilər» (124,278). Bununla da aÜm xalqı, millətləri, ölkələri parçalayan, xanlıqlar təşkil edib qardı vuruşmalar aparan orta əsrlərin hakimlərini tənqid edirdi. Dini ayrüıq salan, milləÜəri bir-birinə düşmən edən, saysız-hesabsız təriqətlər düzəldib xalqa mənəvi ziddiy- yətlər verən ruhanilərə, din xadimlərinə qarşı X. Təbrizi öz etirazını büdirmiş, insanlan mənəvi kamilüyə, qardaşhğa, insanpərvərüyə çağır- mış və demişdir: «Adəm oğullarırun hamısı qardaşdır» (124,288). İnsan- ların birliyi, qardaşlığı ideyasını irəli sürən alim tarixə müraciət edir, məşhur şəxsiyyətlərə əsaslanaraq öz fikirlərini daha təsirÜ söyləyirdi: «Ağıllı adam yoldaşlanna sədaqətii olmalı, vətənini sevməli və öz müasMəri üə xoş davranmahdır» (121,345).

İnsanpərvərlik Xətibin fikrincə, vərənpərvərlik kimi müqəddəsdir. O, insanların bir-biri ilə mehriban, xoş ünsiyyətdə olmasını təbliğ edirdi: «İnsanlarla xoş ünsiyyətdə olanlar onların ən şərəflisidir» (124,397).

Xətib Təbrizi öz əsərlərində insanları əməksevərliyə, əməli fəaliy- yət göstərməyə səsləyirdi. O insardarı əzmlə, iradə ilə fəaliyyət göstər- məyə çağıraraq deyirdi ki, «İnsan öz fikrində, əqidəsində möhkəm olmalıdır» (124,323). Alim insanların səbrlə və təmkinli olmalarına böyük əhəmiyyət verir və qeyd edirdi ki, insan bir iş görmək istədikdə təmkinli və səbrÜ olmalı, heç vaxt tələsməməlidir. O deyirdi: «İnsan öz işində ola bilsin ki, tələsməsə, öz ehtiyacım tələsik etməsə, daha tez müvəffəqiyyət qazana bilər. Amma, işində tələsərsə

(bu) tələskənlik onun istədiyini gecikdirər» (124,337). Bir işə başlayarkən onun aqibətini düşünməmək, düşüncəsiz hərəkət etmək daima fəlakətlə və uğursuzluqla nəticələnər. İnsanları əzmlə, tələsmədən, ağılla iş görməyə çağıran alimin fikrincə, mətanət və şəraiti qiymətləndirmək ən böyük qoçaqlıqdır. Düşüncəsiz hərəkət edərək özünü təhlükəyə atanları X.Təbrizi tənqid edərək yazırdı: «İnsanın özünü ölümə sürükləməsi qoçaqlıq deyil, axmaqlıqdır. Qoçaqlıq odur ki, insan gəncliyini qət etdikdən sonra yeni bir işə başlasın. Amma insan qocalıqda yersiz addım atarsa, bunu dəlilikdən başqa bir şey hesab etmək olmaz. Çünki hər hansı bir adam özünü həlak etməyi asanlıqla bacara bilər» (124,234).

X.Təbrizi qənaətcilliyi bir əxlaqi keyfiyyət hesab edir və bunu varlanmağın yeganə yolu hesab edirdi. «Qənaət ən böyük dövlətdir» deyən X.Təbrizi «Siqt əz-Zənd»in şərhi»ndə bu məsələni daha konkret qoymuşdur: «Qənaət etdim və düşündüm ki, ulduzlar mənim altımdadır: qənaətə alışmaqla cihad bərabərdir» (121,79). Bu gün pedaqogika elmimizdə qənaətcillik tərbiyəsi yeni pedaqoji təfəkkürdən irəli gəlmiş və insanın ən nəcib əxlaqi keyfiyyətlərindən biri sayılmaqdadır. X.Təbrizi əsərlərində qənaət və qənaətcillik tərbiyəsi haqqmda dəyərli əxlaqi fikirlər söyləyir: «İnsan başqalarma əl uzatmaqdansa, özgənin malına göz dikməkdənsə az yeməyə və yararsız cod geyimə səbr etsə, heç kimin malma ehtiyacı olmaz. Bu isə rnsanın öz nəfsinə qarşı cihad etməsi kimidir» (121,323).Göründüyü kimi X.Təbrizi qənatəcilliyin yolunu da gösətərərək bildirir ki, başqasına möhtac olmaqdansa aza qane olmaq daha yaxşıdır. Dövründə yüksək rütbəli məmurların, sərkərdə və hökmdarların öz saraylarında müxtəlif ölkələrdən gətirilmiş minlərcə günahsız qızı cariyə kimi saxlayaraq onlardan şəhvət və ehtiraslannı söndürmək üçün istifadə etmələrird X.Təbrizi əxlaqilikdən, tərbiyədən uzaq sayırdı. Yaşı ötmüş qocanm cavan qızla evlənməsi o dövrdə adət şəklini almışdı. Alim bu məkfur adətə qarşı islamın öz başçılarından birinin dili ilə belə deyir:«Omərdən (Allah ondan razı olsun) rəvayət edilən bir hədisdə deyilir: «Hər kişi öz yaşıdı ilə evlənməlidir» .

X.Təbrizinin pedaqoji fikirlərinə yekun vurarkən böyük alimin «Həmasə»nin şərhi»ndə əxlaqa verdiyi klassik tərifini göstərməmək

mümkün deyildir. O deyirdi: ***«Ədəb elə bir şeydir ki, insanı ona əməl etdikdə xalq içərisində şöhrətlənir, zinətlənir və şərəfi artır»(124).***

Göründüyü kimi Azərbaycan pedaqoji fikir tarixinirı inkişafında Xətib Təbrizi öz pedaqoji fikirləri,pedaqoji fəaliyyəti və pedaqoji yaradıcılığı ilə pedaqoji fikir tariximizdə görkəmli yer tutmaqdadır.

## 4. Əbülhəsən Bəhmənyar yaradıcılığında pedaqoji ideyalar

XI əsrdən başlayaraq Azərbaycanda fəlsəfəyə maraq böyük olmuşdur. XI əsrdə yaşayıb yaratmış və fəlsəfəni bilavasitə İbn Sinadan öyrənmiş filosof və pedaqoq Əbülhəsən Bəhmənyar İbn Mərzban əl-Azərbaycani (vəf. Təxm. 1065) fəlsəfə tarixində görkəmli yer tutduğu kimi pedaqoji fikir tariximizdə də xüsusi yer tutur.Sonrakı əsrlərə gəlib çıxan alimlər nəslinin yetişməsində Əbül Həsən Bəhmənyarın xidməti böyükdür. Aşağıdakı hikmətli fikirlər ona məxsusdur: «Qürbətdə insanın munisi ağddır».«Hikmət elmlərini öyrənməyən və bu elmlərdəki xüsusiyyətlərə yiyələnməyən elm gerçəkliklərindən xəbərsizdir». «Oz ehtiyacmdan artıq şey tələb edən filosof hikmət əldə edə bilməz və onu əldə etməyə malik deyildir» (51,41-42).

Bəhmənyar böyük alimlər olan Əl-Kindi, Əl-Farabi, İbn Sina ənənələrird layiqincə davam və inkişaf etdirmişdir. Dövrünün alimləri Bəhmənyarı «Alimlərin başçısı» (Mövlan-i Rəis) adlandırmışlar. Dövrünün böyük alimi İşhabəddin əl-Mərcani Bəhmənyarm İslam fəlsəfə və pedaqoji fikir tarixindəki rolunu xüsusi qeyd etmiş və onun adını Farabi, İbn Sina, İbn Rüşd ilə bir sırada çəkmiş və özü isə Bəhmənyarm «Ət-Təhsil» əsərindən iqtibaslar gəürmişdir.

XI əsrin tədqiqatçısı Əli Ibn Zeyd Əl-Bəyhaqi özünün biblioqrafik əsəri olan «Taümat Sivan Əl-Hikma» əsərində Bəhmənyar haqqmda belə yazır: «Filosof Bəhmənyar-Əbu Əli İbn Sinanın müdrik tələbəsi olmuşdur. Ərəbcəni yaxşı bilmirdi. Azərbaycarıdan çıxmışdı. Əbu Əli İbn Sina tərəfindən aparılan tədqiqatlarm əsas obyekti Bəhmənyar tərəfindən araşdınlan qaranlıq məsələlərin həllindən irəli gəlirdi» (109,168). O daha sonra Bəhmənyarın yazdığı əsərlərin əhəmiyyət və mənasmı göstərmişdi.

Bəhmənyarın ən mühüm əsərləri bunlardır. «Ət-Təhsil» (İdrak), «Əz-zinət» (Bəzək), «Əl-baxça və Səadət» (Şadlıq və səadət ) «Fi-musika» (Musiqi haqqmda), «Fi mratib əl-mövcudat» (Mövcudiyyatm mərtəbələri), «Fi mabdi ilm mabadat tabiya» (Metafizikarun predmeti haqqında). Bəhmənyarın əsərləri,

əlyazmaları Tehranda, Beyrutda, Londonda saxlanılır. Bəhmənyarın İbn Sinaya yazdığı məktublardan bir neçəsi Daşkənd və Sankt-Peterburq kitabxanalarında saxlanılır. Onun bəzi əxlaqi, etik fikirləri müxtəlif təzkirələrdə bizə gəlib çıxmışdır. Bəhmənyarın şah əsəri sayılan «Ət-Təhsil» Tehranda (131) və Qahirədə nəşr olunmuşdur. 1983-1986-a illərdə tanmmış şərqşünas A.V. Saqadayev tərəfindən həmin əsər rus dilinə tərcümə edilmiş və Azərbaycan Respublikası Elmlər Akademiyasımn redaksiya nəşriyyat şurasımn qərarı ilə çap olunmuşdur. Bəhmənyarm bu əsəri və habelə digər əsərləri və ümumiyyətlə Bəhmənyann fəlsəfi görüşləri haqqmda tanınmış alim, filosof Z.C. Məmmədov xeyli iş görmüş, onun haqqmda dəyərli əsər yazmışdır (51). Bəhmənyarm fəlsəfi görüşləri haqqında müəyyən işlər görülsə də onun pedaqoji görüşləri, yaxud da onun fəlsəfi fikirlərinin pedaqoji elmimizin inkişafındakı əhəmiyyəti yetərincə öyrənilməmişdir.

Məhəmmədəli Tərbiyət Bəhmənyar haqqında belə yazmışdır: «Mövlana Bəhmənyar fəlsəfənin çətin və mürəkkəb məsələləri haqqında bəhs etməyə, tədqiqat aparmağa, fikir söyləməyə böyük maraq göstərmiş, ömrünün çox hissəsini fəlsəfi məsələlərin həllinə və hikmət sirlərinin araşdırılmasma həsr etmişdir. Bu iki məşhur alim, yəni Əbu Əli Ibn Sina və Bəhmənyar arasında bir çox fəlsəfi suallar haqqmda yazılı mübahisələr olmuş və Əbu Əli İbn Sina bu suallara cavab vermişdir» (53,52).

Bəhmənyarın istər fəlsəfi, istərsə də pedaqoji düşüncələri islam dinindən qaynaqlanır. Onun təhsil, tərbiyə haqqında əsərləri də islam mənbələri ilə bağlıdır. Şeyxül İslam A.Paşazadə yazır: «Diqqəti cəlb edən və maraq doğuran cəhət odur ki ... Əbülhəsən Bəhmənyarın zəngin irsi bəzən islam müddəalanndan təcrid edilmiş halda öyrənilir, onun «materialist, yaxud «idealist» filosof olması barədə gərgin mübahisələr gedir. Zənnimcə, nəinki Bəhmənyann, hətta baxışlarınm çoxcəhəüiliyi ilə fərqlənən Mirzə Fətəli Axundov da daxil olmaqla XX əsrə kimi bütün Azərbaycan mütəfəkkirlərinin görüşlərini islam dininin təsirini nəzərə almadan tədqiq etmək cəhdi müqəddəm yanlış cəhddir. Bəhmənyar isə «Ət-təhsil» kitabmın müqəddimə hissəsinin başlanğıcmda öz dünyagörüşünün əsasmı

belə müəyyən edir: «Kainaü yaradan Allaha şükür olsun. O, təkdir və ən yeganə yaradıcıdır». Elə oradaca Bəhmənyar bildirir ki, bilik axtaran adam öz məqsədinə Allahm istəyi ilə, köməkliyi sayəsində çatır.Bu fikirləri inkar edən filosof kim olursa-olsun, hansı fəlsəfi mövqedə durursa dursun, İslamdan bəhrələnməyə bilməz. Əbülhəsən Bəhmənyar fəlsəfədə əl- Kindi, əl-Farabi, Ibn-Sina kimi müsəlman mütəfəkkirlərinin ənənələrini davam etdirərək öz əsərlərində qədim yunan filosoflarmı düşündürən dünyagörüş məsələlərini yeni təməl üzərində-İslam müddəaları əsasmda nəzərdən keçirmiş və izah etmişdir» (74,118).

Bəhmənyar əməli fəlsəfəni əxlaq, xeyirxahlıq mənasmda şərh edirdi. «Ət-Təhsil» kitabmda deyilir ki, fələsəfə insan nəfsinin elm və əməl cəhətdən öz mümkün kamilliyinə gəlib çıxmasıdır. O elm ilə mövcud şeyləri olduğu kimi təsəvvür edir, anlayır, hökmlər verir, nəticələr çıxarır, əməl ilə özündə ədalət və fəzilətli vərdiş adlanan xasiyyət hasil edə bilir. Bu fikirlər o deməkdir ki, insamn elmi ilə əməli, sözü ilə işi bir vəhdət təşkil etməlidir. Azərbaycan pedaqogikasmda sözlə əməli işin vəhdəti bir pedaqoji qanunauyğunluq kimi qəbul edilmişdir.

Bəhmənyar insanm kamilləşməsində onun biliyinə və mənəvi aləminə, əxlaq tərbiyəsinə böyük önəm vermiş və onu həmişə yüksək qiymətləndirmişdir. O demişdir. «Mənəvi ləzzət elə dərmandır ki, onunla heç bir xəstəlik baş verməz və elə sağlamlıq vasitəsidir ki, heç bir xəstəliyə məruz qalmaz.Həqiqi həzz əqli həzzdir.Zira əqli həzzlər dərdin təqib etmədiyi şəfadır, xəstəliyin yaxın düşmədiyi sağlamlıqdır» (51,138). Bəhmənyar insanın mənəvi cəhətdən kamilləşməsində ilk növbədə biliyin, təhsilin, əqlin roluna yüksək qiymət vermişdir. Bəhmənyar öz risalələrində məişət və idrak məsələlərinin əxlaqi-etik problemlərini araşdırmış və göstərmişdir ki, ağıl və bilik insanın ən başlıca var-dövlətidir. İnsan öz ömrünü bilik mənimsəməyə, nəinki var-dövlət toplamağa həsr etməlidir. Var dövləti itirmək olar, amma ağıl, bilik insanın ən etibarlı müdafiəçisi, ən yaxın dostudur. Sərvət qorunur, əql isə insanı qoruyur», «Sənə narahatlıq üz verdikdə kədəri əzmlə boğ, çıxış yolu tapmaq və xilas olmaq üçün əqli səfərbər et», «Baş vermiş işə görə qüssələnmə, onu

aradan qaldırmağa, dəf etməyə çalış, ağlmı işlət» (51,139). Bəhmənyar insanın mənəvi zənginliklərinə böyük əhəmiyyət verərək göstərir ki, bu keyfiyyətlər həm irsidir, həm də sonradan əldə ediləndir. O bununla insanın formalaşmasmda həm irsi amillərə, həm də tərbiyəyə üstünlük vermişdir. Mənəvi keyfiy- yətlərdən danışarkən o intizamlılağa, xeyirxahlığa, məqsədyönlüyə, əliaçıqlığa, qorxmazlığa, əməksevərliyə, bilik qazanmağa böyük önəm vermişdir.

Bəhmənyar insan zəkasına yüksək qiymət verərək deyir ki, böyük Yaradan hər bir insana zəka bəxş etmişdir və bunun sayəsində insan digər canlılardan fərqlənir. Ancaq zəkanm nəticəsində insan predmet və hadisələri dərk edə bilər. Bəhmənyar göstərirdi ki, elmin və fəlsəfənin öyrənilməsində əsas məqsəd insan əxlaqının yaxşılaşdırılmasıdır. Fəlsəfənin məhsulu, elmin əsası-insan əxlaqını yaxşılaşdırmaqdır. Biliyə yol-xeyirxahlığa və xoşbəxtiiyə yol deməkdir (131,109). Bəhmənyar biliyi əxlaq və mənəviyyatla bağlamışdır. O demək istə- mişdir ki, biliyi olub da əxlaqı olmayan insan bir şeyə dəyməz. Ona görə də o, yazırdı: «İnsanlara göstərilən hörmət onların xeyirxahlığı müqabilində olan mükafatdır. İnsanın bilik səviyyəsi, onım artması insanın əxlaqına, təbii halma təsir edib onu dəyişdirə bilər» (131,111). Bəhmənyar açıq aydm demək istəyir ki, bilik qazanmağın, təlim və tərbiyənin əsas məqsədi insanlara xeyirxahlıq göstərməkdən ibarət olmalıdır. Sonrakı dövrlərdə Bəhmənyarın fikir və ideya davamçısı Nəsirəddin Tusi də deyirdi ki, tərbiyənin məqsədi xeyirxahlıq və insanı xoşbəxt etməkdir.

Beləliklə Bəhmənyar billiyin gücünə böyük önəm verir və onun insan əxlaqma, mənəviyyatina qüvvətli təsir göstərdiyini bildirir.

İdrak nəzəriyyəsi Bəhmənyarın məntiq fəlsəfəsində mühüm yer tutur. Onun fikrincə materiyasız forma olmadığı kimi, formasız da materiya mümkün deyildir. Çünki materiyada bir forma aradan qalxdıqda labüd surətdə onu başqası əvəz edir. Bəhmənyarm bu fikirləri pedaqoji elmimiz üçün də böyük dəyər qazandırır. Pedaqogikada istər təlim, istərsə də tərbiyə nəzəriyyəsində formasız məzmun, məzmunsuz da forma mümkün deyildir. Formanın özündə də bir məzmun olduğu bizə aydm olur. Bu cəhətdən də tərbiyəvi iş

formasmm dəyişməsi işin məzmununım da dəyişməsinə səbəb olur. Bu fəlsəfi qayda Bəhmənyar fəlsəfəsində çox aydın şərh edilmişdir ki, bu qaydanı əsas tutmaq pedaqoji işdə mühüm əhəmiyyət kəsb edir.

Bəhmənyarm idrak nəzəriyyəsində yenə deyilir ki, dərk etmə əqli də ola bilər, cismani də ola bilər. Bu fikirlər təlim prosesində biliyin mənimsənilməsində dəyərli əhəmiyyətə malikdir. Buradan başa düşmək olur ki, biliyin dərk edilməsi təkcə şüurla deyil, toxunmaqla da, hiss etməklə də həyata keçirilə bilir. Bu fikir təlimdə əyaniliyin əhəmiyyətini bir daha artırır.

«Ət-təhsil» kitabında deyilir: «Məntiqin mövzusuna gəldikdə, o birinci əqli anlayışlara istinad edən, ikinci əqli məlumatlardır». Bunun şərhi odur ki, bir şey haqqmda birinci əqli məlumatlar varsa, ikinci əqli məlumatlar bunlara əsaslanır. Pedaqoji işdə bu o deməkdir ki, təlim prosesi sadədən mürəkkəbə, məlumdan məchula, prinsipi əsasında qurulmalıdır. Məktəblilərə bildikləri məlum biliklərin əsasmda yeni biliklər öyrədilməli və bu yeni məlum biliklərin əsasmda məchul biliklər verilməlidir.

Hər bir şeydə ümumi və fərdi xüsusiyyətlərin mövcudluğu da təlim tərbiyə işlərində özünü göstərə bilir. Məsələn, məktəbdə fəaliyyət göstərən uşaq və gənclər təşkilatı əsas etibarilə tərbiyə işi aparır. Müəllimlər, sinif rəhbərləri də, tərbiyə işləri üzrə təşkilatçı da məktəbdə tərbiyə işi aparır. Amma sinifdənxaric tərbiyə işləri ilə uşaq və gənclər təşkilatınm apardığı tərbiyə işlərində ümumi və fərqli cəhətlər vardır ki, bunu tərbiyəçi və müəllimlər nəzərə almalıdırlar. Necə ki, Bəhmənyann fəlsəfəsi də bunu belə nəzərdə tutur.

«İnsan yalnız duyğıdan gələn, yaxud da duyğunun təsdiqlədiyi şeyə inamr»- deyən Bəhmənyarm fikrincə hissi qavrayışm verdiyi bilik məlumdur, nəzəri elmlərin hələ dərk edilməmiş müddəaları isə məchuldur. Bəhmənyar məntiqin faydasını məlumdan məchula keçməkdə görürdü. Bu fikir təlim prosesinin əsasını təşkil edən prinsiplərdən biridir ki, təlim sadədən mürəkkəbə, məlumdan məchüla, asandan çətinə prinsipi əsasmda qurulmalıdır.

Bəhmənyarın «Məntiq haqqında» əsəri orta əsrlərdəki, məntiq elminin tarixini öyrənmək üçün əvəzsiz bir mənbədir. Bu kitab

habelə orta əsr Şərq düşüncəsini Ibn Sinadan sonra zənginləşdirən ən mühüm mənbədir. Bəhmənyarm özünün yazdıgı kimi, o bu kitabı müəllimi İbn Sinamn adı ilə bağlı olan «Əla Əd-Dövlə» fəlsəfəsinin şərhinə, izahına və daha da inikşaf etdirilməsinə həsr etmişdir.

Bəhmənyar özünün «Ət-təhsil» kitabmda məntiqə elmin bir aləti, bilik qazanmağm mühüm bir aləti kimi baxmışdır. Onun fikrincə alətsiz bir şey hasil etmək mümkün deyildir.Məntiqsiz də elm, bilik qazanmaq olmaz. Məntiq biliyə digər münasibətlə də kömək edir onun meyarı kimi çıxış edir (131,21).

Təlimin şüurluluq prinsipi heç şübhəsiz məntiq anlayışına söykənir. Biliyi şüurlu şəkildə mənimsəmək məntiqdən irəli gəlir. Elə ona görə də Bəhmənyar öz sələfləri Aristotel, İbn Sina kimi o da ğöstərir ki, məntiq düzgün mühakimə yürütmək bacarığı, həqiqəti sübut etmək yolları haqqmda elmdir. Bəhmənyara görə məntiqin vəzifəsi təfəkkürü səhvlərdən və yanlışlıqlardan qoruyub saxlamaqdan ibarətdir. Çünki xarici aləm təfəkkür vasitəsilə dərk olunur. Bu isə səhv və ya düz ola bilər. Səhvləri düzgün ayırd etmək isə məntiqin işidir. Bəhmənyar məntiqin roluna bir də ona görə yüksək qiymət verirdi ki, elmi təriflər səhv və ya düz ola bilər, bu da insana yenə də düşünmək imkanı verir. Həqiqətin düzgün dərk edilməsi üçün tərif həm formaca, həm də məzmunca aydm və sadə olmalıdır. Həqiqətin dərk olunması da fikrin həm formaca, həm də məzmunca düzgünlüyü və uyğunluğudur. Bəhmənyar öz fikirlərini çatdırmaq üçün sadə bir misal da göstərir: «Hər hansı bir materialdan ev və ya kürsü tikmək mümkün olmadığı kimi hər hansı bir materialdan da müəyyən bir fikir quraşdırmaq mümkün deyildir» .

Bəhmənyar sanki təhsilimizin bu günkü problemlərini görərək «Ət- təhsil» əsərində deyirdi: «Fikir əqlin faydalandığı bir qüvvədir. Fikir zehnin elə hərəkətidir ki, onlardan mətləblərə gedib çıxılır».Bu gün məktəblilərimizin fikirləşmək, düşünmək qabiliyyətini inkişaf etdirmək pedaqoji elmimizin qarşısmda duran ən vacib məsələlərdən birisidir.Bəhmənyardan səkkiz yüz il sonra alman alimi A.Disterveq deyirdi ki, uşaqlara fikirləri deyil, fikirləşməyi öyrərtmək lazımdır. Bəhmənyar bunu da qeyd edir ki, fikir, düşüncə əqlin inkişafına qüvvətli təsir göstərir. Bütün bu fikirlər təlim

nəzəiyyəsində biliyin şagirdlərə sadə, anlaşıqlı bir dillə çatdırılmasım, öyrənmə prosesində təfəkkür fəaliyyətinin inkişafma diqqət yetirilməsini tələb edən müddəalardır. Aristotel deyirdi ki, məntiqin əsas vəzifəsi həqiqətə çatmaqdır. İnsan həqiqi biliyə çatması üçün öz fikirlərini istədiyi kimi yox, onlarda əks olunan cisim və hadisələrə uyğyn tərzdə qurmalıdır. Bəhmənyar da belə mövqedən çıxış edərək deyir ki, məntiqin mövzu- sunu hissi qavrayışın verdiyi məlumatlardan sonra qazanılan anlayış və məlumatlar, özünün təbirincə desək, «İkinci əqli məlumatlar («Ə1-məqulat əs-saniyən») təşkil edir. Məntiq birinci anlayışlara istinad edən ikinci əqli anlayışdır». Bəhmənyar ümumiyyətlə biliyi iki qismə bölür: məlum və məchul biliklər. O qeyd edir ki, insan yalnız «duyğudan gələn, yaxud duyğunun təsdiqlədiyi şeyə inanır». Çünki hissi qavrayışın verdiyi bilik məlumdur, gerçəkliik bilavasitə hissi-əyani obrazlarla qəbul olunur. Bilik hisslərlə qavramlmalıdır. Nəzəri elmlərin hələ dərk edilməmiş müddəaları isə məchuldur. Məntiqin faydası məhz fikrin məlumdan məchula keçmək yollarım göstərmək- dir. Bu mənada təlim prosesində şagirdlərin duyğularma, hisslərinə təsir göstərmək üçün, biliyin yaxşı mənimsənilməsi üçün «Əyanilik» prinsipi mövcuddur. Təlimdə əyanilikdən istifadə etmək hiss duyğularma təsir göstərməkdir ki, bunun sayəsində bilik möhkəm mənimsənilir və uzun müddət yadda qalır. Elə bu məntiqə yüksək qiymət verən təlim nəzəriyyəsinin banisi, «Böyük didaktika»nm müəllifi çex pedaqoqu Y. A. Komenski yazırdı ki, mümkün olan hər şeyi duyğularla qavramağa təqdim etmək, qoy müəllimlər üçün qızıl qayda olsun, yəni görünəni görmə duyğusuna, səsi-eşitmə duyğusu- na, iyi-iybilmə duyğüsüna, dadı olanı dad duyğusuna, toxunula biləni-lamisə duyğusuna təqdim etmək lazımdır. Bəhmənyar kəmiyyət və keyfiyyət dəyişmələrinə hərəkətin xüsusi forması kimi baxmış, hətta «insan zehninin hərəkəti» adlandırdığı fikri də insan mövcudluğunun əsas şərti hesab etmişdir. Bəhmənyar insanın ağıl və zəkasına əxlaqi dəyər vermişdir. O ağıl və zəkanı insanm var dövlətindən daha üstün olduğunu göstərmişdir. Bəhmənyar göstərirdi ki, insanın əsas zənginliyi onun elm və təhsil sahibi

olmasındadır. İnsan var-dövlət toplamaqla deyil, elmə, təhsilə yiyələnməklə zənginləşə bilər. Əsil yoxsulluq insanın mənəvi cəhətdən yoxsul- luğudur. Bəhmənyar deyirdi: «Var dövləti dəfn etmək olar, amma ağılı yox, ağıl insanm qəriblikdə ən yaxşı dostu və müdafiəçisidir». Bəhmənyar kamil insanın yetişməsində tərbiyəyə üstünlük verir və deyirdi: «İnsan ən yaxşı əxlaqi keyfiyyətləri bu dünyada tərbiyə ilə qazana bilər».Bəhmənyar tərbiyəyə üstünlük verdiyi kimi, əxlaqi keyfiyyətlərin bir çoxunun anadangəlmə olduğunu da bildirirdi. O buraya əxlaqi saflığı, xeyirxahlığı, mərdliyi, əliaçıqlığı, əməksevərliyi, ağıllığı, insansevərliyi və s. aid edirdi.

Bəhmənyar yetişən gənc nəslin fiziki sağlamlığına fikir verilməsini, onlarm fiziki tərbiyəsi ilə məşğul olmağı vacib sayır və bildirirdi ki, ən böyük gözəllik insanm sağlamlığıdır. O, gözəlliyi fəlsəfi aspektdən təhlil etsə də, fikirləri pedaqoji üçün də dəyərlidir. Bəhmənyar bildirir ki, sağlamlığından istifadə etmə-yən insamn ruhu xəstədir, o xoşbəxt ola bilməz. O deyirdi: «Gözəllik xeyirxahlxqdır» . Bu fikirlərdən görmək olur ki, Bəhmənyar biliyin də, əxlaqın da, gözəlliyin də xeyirxahlığa xidmətdə görmüşdür. Vaxtilə Aristotel, Ibn Sina,Tusi, M. T. Sidqi də tərbiyənin məqsədinin xeyirxahlıq olduğunu göstərmişlər.

Fikirlərimizi yekunlaşdırarkən qeyd edək ki, fikirləri, nəzəriyyələri bir birinin davamı olan Farabinin, İbn Sinarun və Bəhmənyarm əsərləri uzun illər boyu mədrəsələrdə tədris olunmuş və geniş yayılmışdır. Azərbaycanda, müsəlman şərqində əxlaqi, etik fikrin inkişafında Bəhmənyarın davamçılarının böyük xidmətləri olmuşdur. Onlarm arasmda Əbül Abbas Ləvkəri, Əbdürrəzzaq Türki (vəf. 1142) (Əqli elmlər üzrə alim olmuş, Ibn Sinanın kitablarmı əzbər bilirmiş), Şəmsəddin Əbdülhəmid Ibn Müin Xasrovşahi Təbrizi (1184-1252. Məşhur filosof və təbib kimi tanınmışdır), Əfzələddin Məhəmməd Ibn Namavar Xunəçi (1193-1248. O bütün elm sahələrini yaxşı bilirmiş, filosof, əxlaqşünas alim olmuşdur), Siracəddin Urməvi (1198-1283 fəlsəfəyə, məntiqə, əxlaq və mənəviyyata dair dəyərli əsərlərin müəllifi olmuşdur) və başqaları olmuşdur.

Beləliklə deyə bilərik ki, Azərbaycanm böyük filosofu, idrak nəzəriyyəsinin ustadlarından biri Əbülhəsən Bəhmənyar əl-Azərbaycam bu gün də öz aktuallığını iürməyən dəyərli pedaqoji fikir və düşüncələri ilə pedaqoji fikir tariximizi və eləcə də təlim-tərbiyə nəzəriyyəsinin təkmilləşməsinə böyük töhfələr vermiş və pedaqoji elmimizin inkişahnda təqdiərəlayiq xidmətlər göstərmişdir.

## V. ERKƏN ORTA ƏSRLƏRİN ÜMUMTÜRK PEDAQOJİ FİKRİ

Azərbaycan xalqı hələ qədim zamanlardan özünəməxsus mədəniyyəti, pedaqoji fikri ilə ümumtürk ailəsində birləşərək, bu ailənin fikir xəzinəsini, elm, bilik aləmini zənginləşdirmişdir. Bu ailə birliyi haqqında türk dünyasının böyük alimi Köprülüzadə Məhəmməd Fuad çox dəyərli fikirlər söyləmişdir: «Oğuzcanm hənuz Şərqi və Qərbi olaraq iki ədəbi ləhcəyə ayrdmadığı ilk zamanlarda azəri sahəsində nə kimi türkcə əsərlər vücuda gəldiyini layiqilə bilmirik. Lakin, gərək bu zamanlarda, gərək moğol istilasından sonrakı ilk dövrlərdə meydana çıxan əsərlərin ümumiyyətlə Səlcuqi-Anadolu əsərlərindən həmən-həmən fərqsiz olduğunu söyləyə biliriz. Hələ Səlcuqilərin əlindəki Şərqi Anadolu şəhərlərində yazdan əsərlər Iraq, Iran və Azərbaycandakı ümumi azəri ləhcəsindən heç xaric saydmaz. Iştə bundan dolayı, bilxassə hicri VIII əsrə qədər (XIV əsr) «Azəri» və «Səlcuqi-Osmanlı» ədəbiyyatınm inkişafı adətən müştərəkbir surətdə vaqe olmuşdur»(37,15)

Azərbaycan və türk xalqları arasında birlik, bərabərlik, ortaq mədəniyyət, eyni kökdən olması barəsində ulu öndərimimiz Heydər Əliyevin qiymətli fikriləri bu həqiqəti bir daha təsdiqləyir. O deyirdi: «Bizim tariximiz bir, dilimiz bir, dinimiz birdir». «...Xalqlarmız bir kökdəndir.Hətta son dövrlərdə ayrı düşməyimiz də bu birliyi əlimizdən almamışdır. Indi biz bu birliyi davam etdirməuk üçün bütün imkanlara malikik». Bəli, ulu öndərimiz bu birliyi yaşatmağı, davam etdirməyi, inkişaf etdirməyi tövsiyə edirdi.

Türk xalqlarınm vahid dili və mədəniyyəti haqqmda professor Bəkir Çobanzadə isə bunları yazır: «Türk lisanı iki qrupa ayrılır. Bunlardan birinə cığatay, digərinə Oğuz demək lazımdır. Lisan noqteyi nəzərdən XIII əsrə qədər bu iki qrupun şivələləri xüsusiy- yətləri tamamilə bir birinə qarışmış idi. Orxon kitabələri, Qutadqu- Bilik, Hibətül-Həqayiqbuna açıq dəlillərdir. Sonra türklərin bir qismi Irana, Kiçik Asiyaya, Qafqaz tərəflərinə yerləşmiş, digər bir qismi də əski yurdda qalmışlar. Buna görə artıq yavaş-yavaş Oğuz türkcəsi birinci və cığatay türkcəsi türklərin ikinci lisanı olmuşudr. Bu qrupları belə təqsim etmək mümkün olur. Fikrimizcə cığatay qrupuna bu şivələr girir: Özbək, saq, tarançı, altay, barabin, Volqa boyu tatarları, Şimali Krxm, Qaraçay, Kumuk. Oğuz qrupuna isə türkmən, Azər- baycan, Osmanlx, Cənubi Krxm daxildirlər»(133,83).

Görkəmli Azərbaycan alimi doktor Cavad Heyət də bu məsələyə toxunaraq yazxr: «Islamdan əvvəl türkcə danxşan xalqlarm hamxsma türk deyilməzdi. Bu qəbiləlølrin başqa-başqa (oğuz, ağxz, peçenek, qxpçaq, türk) adlarx vardx. Bu qəbilələr islamx qəbul etdikdən sonra hamxsma «türk» deyilməyə başlandx. Azəri türkcəsinə gəlincə, Azərbaycanda və İramn bir çox yerlərində və hətta Türkiyənin Şərq vilayətlərində (Qars, İqdxr,Ərdəhan) yaşayan xalqlarm ana dili olan azəri türkcəsi bu xalqlarxn əsas dilini təşkil etməkdədir... Azərbaycan dili türkcənin oğuz ləhcəsidir və yalnxz XIII əsrdən sonra osmanlx türkcəsi və azəri türkcəsinə ayrxlmxşdxr» .

Demək, Azərbaycan da daxil olmaqla türk xalqlarxmn ədəbiyyatı, dili, tarixi, mədəniyyəti, pedaqoji fikri XIII əsrə qədər müştərək olaraq birlikdə inkişaf etmiş, bir ədəbiyyatx, bir mədəniyyəti və bir mənəviyyatı təmsil etmişdir. Belə olan halda tariximimizi, ədəbiyyati- mızx, mədəniyyətimizi, pedaqoji fikrimizi də birlikdə, müştərək olaraq ümumilikdə öyərənib, tədqiq etməliyik. Əks təqdirdə yanlxşlxqlara, tarixi həqiqətlərdən sapınmalara yol veriləcəkdir. Məşhur türkoloq Lev Qumilyovun «Qədim türklər» kitabmda oxuyuruq: «Umumtürk tarixindən təcrid olunmuş şəkildə araşdırılan Azərbaycan tarixi öz kökündən uzaqlaşdırılır.Buna görə də qədim dövrdən başlayaraq əsrimizin iyirminci illərinə qədər Azərbaycan tarixində ağ səhifələr, təhriflər çoxdur.. .Buna görə də biz qəti bilməliyik: ümumi qədim türk tarixi öyrənilməyincə, Azərbaycan tarixi düzgün araşdırıla bilməz»

(40,4,5)- Ulu öndərimiz Heydər Əliyev təsadüfən demirdi ki, «Biz bir millət, iki dövlətik». Belə olan halda Azərbaycan pedaqoji fikri də ümumtürk pedaqoji fikri kontekstində araşdırılıb, öyrənilməlidir.

Türklər islamiyyəti qəbul etdikdən sonra qısa bir zaman içərisində həm siyasi cəhətdən, həm də elmin, maarifin inkişafı cəhətdən bütün Islam dünyasının bayraqdarına çevrildilər və geniş ərazilərdə yayılmağa başladılar. XI əsrə doğru Türklər yalnız əskəri müvəffəqiyyətləri ilə xəlifələr tərəfindən yüksəldilməklə qalmadılar, eyni zamanda öz xarakterlərinə uyğyn müstəqilliklərini genişləndirməyə, təşkilatlanmağa başladılar və ərazilərini genişləndirdilər.Səlcuq türkləri Xorasam və Deyləmi tutduqdan sonra 1045-ci ildə Həmədam, 1050-ci ildə Isfahanı, 1054-cü ildə Təbrizi, sonra Gəncəni, Aranı, Azərbaycanın digər əyalətlərini öz tabeliyinə keçirdilər. Şəddadi hökmdan Səlcuqların başçısı Toğrul bəyin vassalı olmağa razdıq verdi. Irana və Azərbaycana hakim olan Səlcuqlar 1055-ci ildə Toğrul bəyin başçdığı ilə Bağdada girərək İrakı Səlcuqlu dövlətinə bağladı və böyük Səlcuq dövləti yarandı ki, onun paytaxti əvvəlcə Mərv, sonra Rey və İsfahan oldu.

Xəlifəlik Səlcuqlu türklərinin nüfuzıma girdi və vəzirləri Nizam əl-Mülk tərəfindən Bağdadda Nizamiyyə mədrəsəsi quruldu ki, bura bir elm, təhsil mərkəzi kimi yüz illərlə fəaliyyət göstərdi, bəşər elm və mədəniyyətinin inkişafına qiymətli töhfələr verdilər. Bu dövrlərdə türklərin himayə etdiyi və onlarm inkişafma hər cür imkan və şərait yaradan Qəzzali (ö. 1111), Azərbaycanda yaşayan Əbul Bərəkət, (ö. 1106) kimi böyük mütəfəkkirlər var idi. Bundan əlavə Əl-Kindi (ö. 873), İbn Tufeyl (1106-1186), İbn Rüşd (1126-1198), İbn Miskəveyh (932-1030) kimi mütəfəkkirlər də türklərin qayğı və dəstəyi altinda inkişaf etdilər və dəyərli elmi-pedaqoji fikirlər irəli sürdülər. Sərəhsi şəhərindən olan soydaşımız Əhməd Sərəhsi hələ IX əsrdə (Ö.899) atomun sonsuza qədər parçalanmasını söyləmiş və bunu isbat etmişdir.XI əsrdə ilk dəfə teleskop yaratmış Biruni (973-1051) həm də bir filosof olaraq qiymətii fikirlər söyləmişdir. Əbu Həfs Şihabəddin Sührəverdi bir azərbaycanlı olaraq həmişə ana dilində danışmış, insanların əxlaqı və mənəviyyatı ilə bağlı dəyərli fikirlər irəli sür- müşdür. Belə faktları çox gətirmək olar.Buradan da məlum olur ki, istər Azərbaycan ərazisində yaşamış alimlər, istərsə də digər Şərq ölkələrində yaşamış mütəfəkkirlərimizin

əsərləri, pedaqoji fikirləri XIII-XIV əsrlərə qədər birlikdə yaranmış, bir ittifaqda inkişaf etmiş və ümumtürk mədəniyyətini, mənəviyyatını birlikdə yaratmışdır.

Ortaq türk dünyasmm görkəmli nümayəndələri- Əbu Nəsr Farabi, Əbu Əli Ibn Sina, Mahmud Kaşqarlı, Ədib Əhməd Yüknəki kimi ensiklopedik alim-mütəfəkkirləri ümumtürk mədənyiyyətini, mənəviyyatını, pedaqoji fikrini zənginləşdirməklə dünya elm və mədəniyyətinin inkişafına öz dəyərli töhfələrini vermişlər.

## 1. Farabinin pedaqoji düşüncələri.

Dünya elm və mədəniyyətinə xeyli töhfələr vermiş, türk dünyasının böyük alimlərindən biri Əbu Nəsr Farabidir. Onun tam adı belədir: - Əbu Nəsr Məhəmməd Ibn Məhəmməd Ibn Tərxan Ibn Uzluq əl-Farabi əl Türki, əl muəllimi əl-Sani. Farabi ərəblərə öz dillərində ilk böyük ensiklopediyanı qazandıran, Şərqə Aristoteli yaxından tamdan, Qərbə musiqi alətləri haqqında ilk həqiqi məlumatı verən, fəlsəfə musiqi, riyaziyyat, tibb və botanika sahəsində böyük alim kimi tanınmışdır.

Farabinin elmi-pedaqoji irsində başlıca yeri fəlsəfi-pedaqoji xarakterli əsərlər tutur. Farabi hələ həyatda ikən müasirləri onu «Ulu müəllim» adlandırmışlar. Keçən əsrdə yaşamış görkəmli alman pedaqogika tarixçisi K.Şmidt özünün «Pedaqogika tarixi» adlı əsərində Şərqin böyük alimi Farabi haqqmda belə yazır: «Suriyada elm gözəl gül kimi açıldı. Dəməşq, Emes, Aleppo və s. təhsilin, elmin sığmacağına çevrildi. Orada islam, xristiyan, iudeyi alimləri öz kafedralarmı açdxlar. Buraya başqa ölkələrdən elm həvəskarları axxn-axm gəlməyə başladxlar. Əbu Nəsr Məhəmməd Ibn Tərxan belələrindən idi. O türk soyundan idi. Müəllimi Əbülfədədən tərbiyə almxş, Bağdadda oxumuşdur. Burada ərəb dilini, tibbi, riyaziyyati, məntiqi öyrənmiş fəlsəfə ilə məşğul olmuş, sonra isə Herrana getmiş orada xristiyan alimlərinin fəlsəfi mühazirələrini eşitmiş, daha sonra Bağdada qayıtmış, Qahirəyə getmiş, nəhayət Dəməşqə təhsil ocaqlarından birinə dəvət olunmuşdur».

Böyük alim, mütəfəkkir və ensiklopedist Əbu Nəsr Məhəmməd bin Uzluq əl-Farabi təxminən 870-ci ildə cənubi Qazaxstarun Otrar (Farab) şəhərində doğulmuş və 957-ci üdə vəfat etmişdir. Böyük Azərbaycan alimi, səyyah Əbdürrəşid əl-Bakuvi Farabinin ölümü haqqmda belə yazmışdır: «Bir dəfə Əbu Nəsr Şama gedən karvanda idi. Yolda onlara quldurlar basqm etdilər. O yayla ox atmaqda mahir olduğu üçün quldurlarla ölənə qədər vuruşdu. Bu əhvalat 345 (957)-ci üdə olmuşdur» (104,34).

Farabi ilk təhsilini evdə almış, sonra Bağdadda təhsilini davam etdirmişdir. Bağdada gələnə qədər Farabi ərəb dilini pis bilirmiş. Farabi Bağdada gedərkən yolüstü İsfahanda, Həmədanda, Reydə

(Tehran) və başqa yerlərdə olmuş mütərəqqi insanlarla görüşmüşdür. Bağdadda o səylə təbiyyat elmlərini, fəlsəfəni, məntiqi, ərəb, fars, yəhudi, yunan dillərini öyrənmiş, həkimlik sənətinə yiyələnmiş və bəzi mənbələr görə «hakimlik də etmişdir»(87,273). Omrünü yalnız elm qazanmağa sərf etmiş vaxtını səmərəsiz işlərlə,boş söhbətlərlə keçirməmişdir. Özü bu barədə belə yazır: «Zamanın tərs, tanışlarımm faydasız, hər rəisin mənasız və hər başın xəstə olduğunu görüncə, evimə qapanıb şərəf və heysiyyətimi qorudum. Yanımda olan və avcumda işxldayan hikmət şərabxndan içərəm. Süfrə yoldaşlarxm mürəkkəb şüşələridir, sazxm onlarm şaqqxltxsxdxr. Bu arada dünyadan izləri silinən hikmət əhlirün söhbətləri ilə zənginləşirəm...» .

Farabi Bağdad təhsilindən sonra vətəni Türküstana gəlmiş və burada Əmir Mənsur Ibn Nuxarun xahişi üə «Ət-Təlim əs-Sani» (ikinci təlim) əsərini yazmxşdxr ki, bu əsərdən dövrünün alimləri istifadə etmişlər. Alimlər göstərmişlər ki, bu əsər Aristotel fəlsəfəsinin sadələşdirilmiş və yenidən işlənmiş formasıdxr. Bu əsərinə görə Aristotelin «İlk müəllim» adma qarşxlxq olaraq Farabiyə «İkinci müəllim» («Müəllim-i-Sani») ünvanx verilmişdir. Deyilənə görə Farabinin bu kitabx olmasaydx İbn Sina özünün «Şəfa kitabı»nx da yaza bilməzmiş. Ibn Sina deyilənə görə Aristotelin «Metafizikası»nı 40 dəfə oxuduğuna baxmayaraq heç nə anlamamışdır. Amma Farabinin kitabım bir dəfə oxumaqla onu yaxşx anlamışdır(87,24). Əbu Əli Ibn Sina həm təbiyyat elmlərində, həm də fəlsəfədə Farabinin davamçısı olmuşdur. Bir çox tədqiqatçılar Farabinin və Əbu Əli İbn Sinanın yaradıcılığını birgə tədqiq etmişlər. Hətta ərəb alimi Ömər Fərrux özünün «İki Farabi» adlı monoqrafiyasmda İbn Sinanı «İkinci Farabi» adlandırmışdır. Biz deyə bilərik ki, Aristotelin davamçısı Farabidirsə, Farabinin davamçısı İbn Sinadır. İbn Sinamn davamçısı Bəhmənyardır.Belə ardıcıl davam etmə Tusiyə qədər davam etmiş, sonra onun da davamçılan olmuşdur.

Farabi fəlsəfə, məntiq, etika, tibb, musiqi, riyaziyyat və təbiyyat elmlərinə dair 100-dən artıq əsər yazmışdır. O bu əsərlərində öz pedaqoji ideyalarını yaymışdır. Farabi pedaqogikanı fəlsəfənin bir tərkib hissəsi kimi qəbul etmişdir. Əsərlərində bir sıra pedaqoji terminlərin (Təlim, tərbiyə, təhsil, əxlaq, ədəb, bilik, bacarıq, vərdiş və s.) mahiyyətini açıqlamış onların məzmununu müəyyənləşdirmişdir.

Farabi pedaqogikanı tərbiyə olunan insanm iradə və arzularını müəyyən isüqamətdə, uyğun vasitə və metodlarla idarə etmək sənəti adlandırmışdır. Müəllim və tərbiyəçiləri isə idarə edənlər adlandırmışdır. Farabi tərbiyə metodlarını iki yerə bölürdü: Yumşaq və sərt metodlar. Əgər tərbiyə olunan oxumaq, çalışmaq və xeyirxah işlər görmək istəyirsə belələrinə yumşaq metod, əksinə tənbəl, inadkar uşaqlara qarşı sərt metodlar tətbiq edilməlidir. Farabiyə görə özündə pedaqogikanı cəmləşdirən fəlsəfə gözəlliyi dərk etməyə, xoşbəxtliyə çatmağa xidmət etməlidir. Farabi göstərir ki, biz xoşbəxtliyə o zaman çata bilərik ki, bizdə gözəllik əsas şərt olsun .

Farabi qeyd edir ki, insan tərif və məzəmmətlə qarşılaşmasa xoşbəxtliyə yetişə bilməz. Insan əsil xoşbəxtliyə tərif və məzəmmətin birgə vəhdətində çata bilər.Farabi xoşbəxtliyi ən yüksək nemət adlandırmış və bu nemətə yalnız bilik,bacarıq və çalışmaqla mümkün olduğunu söyləmişdir. O yazırdı: «Mənalı xoşbəxtiiyə biliklə fəaliyyəün vəhdəti qovuşdura büər. Xoşbəxt ömür mənəvi gözəlliklə bilavasitə bağlıdır. Ona görə də insan elmləri, sənətləri, fəlsəfəni öyrənməklə öz zehnini qəlbini zənginləşdirməlidir»(87,79). Bu isə insanın ən yaxşı fiziki, mənəvi, zehni qabiliyyətlərini kamilləşdirməyi tələb edir. O əbədi xoşbəxtliyə çatmağı tərbiyənin ən ali məqsədi hesab etmişdir.

Farabinin fikrincə səadətə çatmaq üçün ancaq müsbət subyektiv stimullar kifayət deyildir. Insan təbiəti və rəftan çətin və mürəkkəbdir. Farabiyə görə onlar aşağıdakı kimi olmalıdır:

1) İnsana lazım olan hərəkət və davranışlar. Yəni öz bədən orqanlarından səmərəli və düzgün istifadə etmək, məs., durmaq, oturmaq, yemək, dinləmək və s.

2) Qəlb affekti, məs., həzz, həvəs, sevinc, qəzəb, qorxu, qüssə, təəssüf hissi və s.;

3) Sağlam fikir. Farabi yazır: «Mən deyirəm ki, insan öz mövcudiyyətinin başlanğıcından təbiət tərəfindən müəyyən qabiliyyətlərlə doğulur. Məhz bu qabiliyyətiərinin sayəsində insan həm yaxşı, həm də pis işlər görür. Bu qabiliyyətiər qəlbin affektinə təsir edir»(87,79).

Göründüyü kimi Farabi şəxsiyyətin inkişafı və formalaşmasında həm irsiyyətə, həm də tərbiyəyə üstünlük verir və Qurani-Kərimdən irəli gələn qəlb tərbiyəsi Farabinin tərbiyə nəzəriyyəsində əsas yer tutur. Farabinin pedaqoji ideyalarmın əsasında insanın özünü dərk

etməsi mühüm yer tutur. Farabiyə görə insan özünütərbiyə və özünütəhsil yolu ilə həqiqəti dərk edə bilər. O qeyd edir ki, həqiqət axtarışı insanın təbiətində vardır. Buna görə də insan ilk növbədə, özünü axtarışa çıxaraq öz mövcudluğunun mənasmı bilməlidir.

Farabi insanm mənəvi tərbiyəsinə yüksək qiymət verərək göstərir ki, mənəviyyat qəlbin yaxşı işlər görmək üçün ehtirasından irəli gəlir. Mənəviyyat və ağlın gücü insanın ləyaqətini meydana gətirir. Farabi göstərir ki, bədənin fəaliyyətinə ruh istiqamət verir. Ruhun varlığı isə ağıla bağlıdır. Ağıl isə bilik və idrak sayəsində inkişaf edir. O belə nəticəyə gəlir ki, əxlaqilik, pisi və yaxşmı seçə bilmək bacarığı ağılla mümkündür.

Farabi psixoloji-pedaqoji məfhumlara əsaslanaraq insanm bir haldan başqa hala keçməsini və ağlımn gücü ilə şəxsiyyətinin formalaşması prosesi getdiyini göstərir. O yazır ki, haldan-hala keçmək yaxşı və pis ola bilir. Bxmlardan biri sağlam fikirlilikdir ki, bu ağıl gücü ilə meydana gəlir; digəri pis fikirlilikdir ki, buna cahillik və ya nadanlıq deyilir.

Farabi şəxsiyyətin formalaşmasında insani ünsiyyət və münasibətlərə yuksək qiymət vermişdir. O göstərir ki, bu münasibətlərdə ilk öncə insanlıq durur. Onlar insan nəslinə aid olduqları üçün öz aralarında ünsiyyət və münasibətdə olmalıdırlar. Sülhün, barışm əsasında ünsiyyət və münasibət durur. Alimin bu böyük humanist fikirləri öz dövrürıdə maraq yaratdığı kimi, bu gün də dövrümüzün ən aktual problemidir.

Farabi göstərir ki, mənəvi tərbiyə, etik təhsil insan tərbiyəsinin əsasını təşkil edir. O doğruçuluğu və xeyirxahlığı şəxsiyyətin ən mühüm mənəvi keyfiyyəti hesab edir. Farabi kamil insanı özünü və Allahı dərk etməkdə görürdü. O deyirdi: «Allah bütün şeylərin yaradıcısı, dünyanı, insanları yaradan və insanlara yaxşdıq və doğruluq haqqmda xəbər verəndir» .

Aristotel göstərir ki, insan dərk edən, hiss edən məxluqdur. Ağd isə rəhbərlik edən şəxsiyyətin iradəsidir və bu onu xeyirxahlığa yönəldir. Farabiyə görə xeyirxahlıq özü də iki yerə bölünür:

1) Əqli xeyirxahlıq - elm, incəsənət və s.;

2) Mənəvi xeyirxahlıq-doğruçuluq, hünər, əliaçıqlıq.

Əqli xeyirxahlıq mənəvi xeyirxahlıqla tamamlanır və öz inkişafını Ö5Öid nəsihətdən alır. Əqli xeyirxahlıq vaxt və təcrübə tələb edir. Mənəvi xeyirxahlıq isə vərdişlər əsasında yaranır. Farabiyə görə ağlm əsasmda da xeyirxahlıq durur. Farabi göstərir ki, insan təhsil və yaxşı vərdişlər əsasında kamilliyə yetişir, xoşbəxt olur və bu da tərbiyənin əsasını təşkil edir. O insan tərbiyəsinin əsasında, xüsusilə də gənclərin tərbiyəsində birinci yerə mənəvi tərbiyəni qoyur, hansı ki, insanın ən yüksək kamilliyə və xoşbəxtliyə nail olmağı təmin edir. Farabi göstərir ki, yaxşı keyfiyyətlər hər bir insanın təbiətində vardır. Amma onlar ancaq şüurlu, sistematik tərbiyədən keçərək insanda formalaşır.

Beləliklə Farabi özünün pedaqoji fikirlərində insanm etik keyfiyyətlərinin doğuşdan gəldiyini və tərbiyə ilə inkişaf etdiyini söyləyir. O yazır ki, insan əxlaqı mütləq deyildir. O zamanla dəyişir, təkmilləşir yeni əxlaqi keyfiyyətlər qazanır. Və yaxud əxlaqi keyfiyyətlər qazandığı kimi pozulmalar da baş verə bilir. Uşaq yaxşmı öyrəndyi kimi pisi də öyrənə bilir. Bu dəyişmə və təkmilləşmə müəyyən şərait və mühitlə bağlıdır. Farabi «Əl Mədinət-ül-Fəzilə» («Ləyaqətli şəhər») əsərində insan əxlaqını, onun ədəbini həyatının xoşbəxtliyi, əminamanlığı hesab edir və belə deyir:

*«Ədəb bir tac imiş nuri xudadan Gey ol tacı,*
*əmin ol hər baladan» (87,16).*

Farabi fiziki və mənəvi tərbiyə arasındakı uyğunluqları təhlil edir. O pedaqoji işdə «Orta hədd»i «Qızıl orta» adlandınr.

Farabi yaxşı davranışın yaxşı hərəkətdən əmələ gəldiyini və bu hərəkətlərin vərdişə çevrilməsindən danışır. O göstərir ki, insan bədəninin kamilliyi sağlamlıqdır; sağlamlıq varsa, onu qorumaq lazımdır. Əgər yoxdursa, onu əldə etmək lazımdır. Sağlamlıq insanın gözəlləşməsinə səbəb olur.Normal qidalanma sağlamlıq yaradır.

Farabi insanm mənəvi keyfiyyətlərini təsvir edir, onun tərbiyə yollarını və davranış normalarmı göstərir.O mənəvi keyfiyyətlərə cəsarətlilik, xeyirxahlıq, əliaçıqlıq, doğruçuluq, dostluq, ədalətlilik, sadəlik kimi keyfiyyətləri daxil edir. Farabi bütün bu keyfiyyətlərin tərbiyə olunmasında şüurluluğu əsas götürür. Əks halda yaxşılıq pisliyə, cəsarətiilik qorxaqlığa gətirib çıxara bilər.Farabinin bu fikri bir neçə yüz ildən sonra XVII əsrdə ingilis filosofu Con Lokk tərəfindən

cüzi dəyişikliklə təxminən belə söylənmişdi: Pis tərbiyə almış adamda hörmətdllik yaltaqüğa, cəsurluq kobudluğa, büiklilik əllaməHyə çevrüir.

Farabi tərbiyə etmək üçün özünəməxsus metod icad etmişdir. Başqa sözlə özünün dediyi kimi «qeyri-adi» tərbiyə metodu yarat- mışdır. O göstərir ki, ilk növbədə insanda mənəvi çatışmamazlığın səbəbini öyrənmək lazımdır. Bu isə öz növbəsində insan şəxsiyyətində mənəvi keyfiyyətlərin aşılanması üçün çox zəruridir. Əvvəlcə insanm həyat tərzi, zövqü və davranışına əsasən onun mənəvi fəaliyyətini müəyyənləşdirmək lazımdır: «Mən deyirəm əvvəlcə gərək insanın zövqlərini və hərəkətlərini ayırd etməliyik. Yalnız ondan sonra hansı hərəkətin məqbul, hansının isə qeyri-məqbul olduğunu söyləyə bilərik. Hansı bizə xoşbəxtlik hansı bizə iztirab gətirir. Əgər hərəkət yaxşı davranışdan əsas götürürsə o yaxşı hesab oltınur. Və ya əksinə pisdən çıxanhərəkətə pis davranış deyirik...».

Farabi bədəndə olduğu kimi mənəvi çatışmazlıqlan «Sağaltmaq» üçün vəziyyəti ortaya, yəni normala uyğunlaşdırmağı təqdim edən priyomu göstərir. Farabi deyir: «Biz tərbiyə işində fəaliyyətimizi ruh xəstəliyinin qarşısmı almaq istəyən həkimin fəaliyyətinə bənzətmə- liyik. Bədəndə yüksək və ya alçaq hərarət olanda həkim onu orta vəziyyətə saldığı kimi, biz də öz davranmışımızda arüq və əskik hərəkətləri orta vəziyyətə salmalıyıq». Daha sonra Farabi mənəvi keyfiyyətləri nizamlamaq üçün «qeyri adi» metodun izahma keçir: «Yaxşı davranış» hərəkətin həddi ilə müəyyən olunur. Və ona görə ki, insanın prakük olaraq «Qızıl orta»ya çatması çəündir. Onda müəyyən etdiyim metod heç olmasa onu normaya uyğunlaşdırmağa çalışmalıdır. Belə ki, bədəni orta hərarətə çatdırmaq çətindir. Bunun üçün «qeyri-adi» metoddan istifadə edərək müəyyən qədər davam edirik. Sonra nəticəni ölçərək gələcək fəaliyyəti müəyy ənləşdiririk...».

Farabi göstərirdi ki, metod pedaqoji praktikada o zaman müsbət nəticə verir ki, pedaqoji fəaliyyətin güçünə inanasan və insanm tərbiyəsindəki müsbət keyfiyyətləri görə biləsən. Farabi pedaqoji fikir tariximizdə ilk dəfə olaraq pedaqoji biliklərə dair dəyərli fikirlər söyləyən alim olmuşdur. O təlim prosesini sadədən mürəkkəbə, asandan çətinə prinsipi üzərində qurmağı irəli sürmüşdür. Başqa sözlə-əvvəlcə hesab sonra isə həndəsə öyrədilməlidir-deyir.

Farabi «Təhsil-üs-Saade» (Xoşbəxtiik təhsili) adlı kitabmda öyrətmə (təlim) və öyrənməni (təhsil və tərbiyə) fərqləndirərək deyirdi ki, təlim millətləri kamilləşdirmək deməkdir. Tərbiyə isə millətlərdə əxlaqi keyfiyyətləri və peşə hazırlıqlarını var etmək deməkdir. Təlim ünsiyyətlə, sual-cavabla başlar. Tərbiyə isə millətləri yaxşı işlər görməyə sövq edər. Yaxşı işlərin görülməsi yaxşıya alışqanlıqla başlar: Bu zaman insanda meydana gələn mənəvi keyfiyyətlər (mələklər) onlarm ruhlarına hakim olmalıdır. Farabinin fərqləndirdiyi bu pedaqoji anlayışlardan təlimin daha çox öyrədici, tərbiyənin isə davranış nizamlayıcısı olduğımu anlamaq olur.

Farabi üç cür tərbiyəçidən söhbət açır:

1) Ailə başçısı;

2) Müəllim;

3) Dövlət rəhbəri.

Ailə başçısı ailə üzvlərini, müəllim yetişən nəsli və gəncləri tərbiyə edir, dövlət rəhbəri isə milləti tərbiyə edir.

Ailə başçısı və müəllim yumşaqlıqla, inandırmaqla və bəzən də tələbkarhqla tərbiyə edir. Hökmdar da belə davramr. Amma onun milləti tərbiyə etməsi daha çətin və mürəkkəb bir iş olduğundan o böyük məharət və bacarıq tələb edir.

Farabinin dövlət başçısında əsas ilkin keyfiyyətin «bilik olması»nı irəli sürməsi ontrn yünan filosofiarmm-xüsusilə Sokratm, Platonun-«hökmdarların filosof, ya da filosofların hökmdar olması gərəkir»-şəklindəki düşünçəsini də mənimsədiyini göstərir.

Farabinin əxlaq və siyasətlə bağlı görüşləri insanın icfimai bir varlıq olması ideyasına dayanmaqdadır. O ictimai bir varlıq olan insanlarm bir-birinə qarşılıqlı ehtiyacları olduğunu irəli sürərək onların birgə, toplum halmda yaşamaq məcburiyyəündə qaldıqlarını söyləyir. Insan topluluqlarında praktik sahədə düzgün iş bölgüsü, əxlaqi sahədə isə qarşılıqlı sevgi və yardımlaşma olduğu zaman çəmiyyətin inkişafirun mümkün olduğuna Farabi inanır.

Farabinin elmi-pedaqoji əsərlərində estetik tərbiyə, xüsusilə musiqi mühüm yer tutur. Belə ki, Farabi kamil insarun tərbiyəsində estetik tərbiyənin rolunu yüksək qiymətləndirir. Insarun hərtərəfli inkişafmda musiqidən tərbiyə vasitəsi kimi istifadə edilməsini irəli sürür. O

göstərir ki, incəsənətlə maraqlanmaq insanın təbii istəyidir. Musiqi insanın qəlbinə təsir edən böyük qüwədir. Qəlb insanın fəaliyyətinə yön verir, təxəyyülünü inkişaf etdirir. Qəlbin sayəsində insan bu və ya digər işə sövq edilir. Musiqi insanm qəlbində emosional tərzdə müxtəlif hallar yaradır, eşidəni haldan-hala sala bilir. Bütün bunlar isə qəlb tərbiyəsində mühüm əhəmiyyət kəsb edir. Farabi üç cür musiqini ayırmışdır: Sevimli musiqi- (Əl-Muzisel) insanda xoş duyğular yaradır; Hiddətli musiqi- (Əl-infialiyə) insanda ehtiras və hiddət yaradır; Xəyali musiqi (Əd-Muhayyil) insanm təsəwür və təxəyyülünü inkişaf etdirir. Farabi «Kitabül musiqi-əl Kəbir» əsərində havanın rəqslərindən meydana gələn səs hadisəsinin ilk məntiqi izahmı, səsin fiziki və fizioloji şərhini vermiş və ilk dəfə olaraq səs dalğalarını kağıza köçürərək musiqi notunxm əsasmı qoymuşdur. Farabi həm də bir bəstəkar və gözəl musiqi ifaçısı olmuşdur. Şərq musiqi alətləri haqqında qərb insanlarma məlumat vermişdir.Farabi özü də musiqi alətləri ixtira etmişdir.

Farabi tərbiyə işində musiqinin gücünə böyük qiymət verərək bildirir ki, musiqi insanın özünə gəlməsinə, özünü toplamasma və yorğunluğu unutmasına, əhval ruhiyyəsinin yüksəlməsinə kömək edir. O bizə tərbiyə işində, əmək fəaliyyətində səbrlilik, iradəlilik və işgüzarlıq aşılayır. Farabi bu məsələni bir qədər də açıqlayaraq göstərir ki, yorğunluq hərəkətdən meydana gəlir. Hərəkət isə vaxtla sıx bağlıdır. Ona görə də əgər biz vaxt anlayışmı xmutsaq, yorğımluq anlayışım da unudarıq bunda musiqi bizə köməyə gəlir. Digər tərəfdən musiqi heyvanların da fəaliyyətinə təsir göstərir. Biz bunu Ərəbistanda dəvələr üstündə mahnı oxuyan bələdçilərdən görmüşük.

Farabi hesabm, həndəsənin, astronomiyanm, musiqinin estetik təsir gücünü qiymətləndirərək onları tərbiyə elmi hesab edir və habelə estetik tərbiyədə kalliqrafiyaya gözəl xətlə yazmaq (hüsnxətt) vərdişinə böyük əhəmiyyət verərək yazır: «Yaxşı yazı təkmil yazının sayəsində meydana gəlir. Təkmil yazı isə insanın təkmilləşməsi və gözəl işləməyə alışması ilə mümkün olur» .

Farabi insanların intellektual səviyyəsinin yüksəlməsində elmi biliyin roluna yüksək qiymət verir. O göstərir ki, təhsili və təcrübəsi olmayan insanı ətrafdakı şeylər o qədər maraqlandırmır, təhsil və təcrübə qazanmış şəxsin ətrafdakı şeylərə münasibəti dəyişir. O göstərir

ki, xoşbəxtliyə çatmağm yollarmdan biri intellektual inkişafdır, hansı ki, bu bir nəzəri fəlsəfədir ki, özündə riyaziyyatı, fizikanı və metafizikanı birləşdirir.

Farabi Aristotelin davamçısı kimi dünyanm dərkini insan ağlmda görür. Ağıl isə məntiqi məşğələ və təmrinlərlə, bilik və incəsənətlə inkişaf edir, təkmilləşir. Insanı başqa məxluqlardan səciyyələndirən də elə ağıl olduğunu Farabi söyləyir.

Farabi insamn intellektual inkişafmı ardıcıl, sistemi təlimdə görür və yünan filosoflarının fikirlərinə uyğun olaraq o da uşaqların 7-8 yaşdan fəal təlimə cəlb olunmasını məsləhət görür. Farabi təhsilin əsas formasını inandırma hesab edir. O göstərir ki, təlimdə yaxşı yetirənlər mücərrəd təsəvvürün, orta səviyyəlilər isə əyaniliyin vasitəsilə təlimə cəlb olunmalıdırlar.

İnandırma metodu bu günkü ənənəvi evristik müsahibəyə, söhbət və mühazirəyə uyğun gəlir. Qədim Yunamstanda Sokraün, Platonun, Aristotelin fəlsəfi məktəblərində öyrətmə daha çox dialoqlar, Sokrat sual-cavabları mühazirələr, söhbətiər formasmda həyata keçirilmişdir.

Farabi pedaqoji ideyalarımn nəticələri bu gün təhsilin qarşısmdakı problemlərlə həmahəng səsləşir. Bu gün təhsilimizin differensiallaşdırılması və fərdiləşdirilməsindən danışılırsa Farabi bu pedaqoji ideyam özünəməxsus tərzdə söyləyərək bildirir ki, təlim prosesi təkcə yaşamüvafiqlik əsasmda deyil, həm də intellektual səvijryəyə müvafiqlik əsasmda təşkil edilməli və buna müvafiq də metod seçilməlidir. Farabinin irəli sürdüyü təlim metodlarından biri sistematik təmrinlərdir.

Farabi təklif edir ki, təlim prosesində ilkin bilik almaq və sübütları əsaslandırmaq üçün əyani metod kimi müşahidə və təcrübədən geniş istifadə edilməlidir. Təcrübə və müşahidə nəticəsində qazamlmış bilik insan qəlbinə rahatlıq gətirir, özünü isə daha da kamilləşdirir.

Farabi yazır: «Biz deyirik ki, uşaq potensial imkanlara və idraka malikdir. O hisslərə malikdir, başqa sözlə onxm lamisə üzvü vardır. Hisslərlə hər hansı bir əşya dərk olunur. Bu əşyalar universallaşır və gerçəklik üzərində təcrübələrə çevrilir .

Buradan belə anlamaq olur ki, Farabi əyaniliyi hələ XVII əsrdə yaşamış çex pedaqoqu Y.A.Komenskidən əvvəl və özü də yüksək səviyyədə söyləmişdir. Farabidən 600 il sonra Komenski əyaniliyi

«Qızıl qayda» adlandırmışdır. Didaktikanın əsas prinsipləri olan elmilik, əyanilik, sistemlilik, tərbiyəedici təlim, müvafiqlik prinsipləri Farabinin yaradıcılığında öz əksini tapmışdır. Farabi söyləyir ki, «İnsanın nəzəri biliklərə sahib olması üçün onun iti ağlı olmalıdır. Bundan başqa oxuduğundan həzz və zövq almağı bacarmalıdır. Həmişə doğru-dürüst olmalı, eqoistlikdən əl çəkməli, ədalətli və dürüst olmalı, hər cür insanı keyfiyyətlərə sahib olmalıdır» .

Bu cəhətdən Farabi mənəviyyatla intellektual səviyyənin bir-birilə qarşılıqlı əlaqəsini göstərir və yazır: «Kim ki, elm öyrənməyə başlayır, o gənc və ciddi, sağlam və dürüst, olmalı, yüksək mənəvi keyfiy- yətlərə, yaxşı tərbiyəyə sahib olmalı, prinsipial olmalı, fırıldaq və hiylədən uzaq durmalı, insanlara, elm adamlarına hörmətlə yanaş- malıdır».

Farabinin irəli sürdüyü bu mənəvi keyfiyyətlər hər bir müəllimin, pedaqoji işçinin peşə xüsusiyyətinin ayrılmaz tərkib hissəsi olmalıdır. Farabi müəllim etikası məsələlərinə toxunaraq yazmışdır: «Müəllimin davramş norması ondan ibarət olmalıdır ki, o nə çox sərt, nə də çox mülayim olmalıdır. Hədsiz ciddiyyət və sərtlik şagirdlərdə əks təsir yaradacaqdır. Müəllim öz yeüşdirmələrinə hörmətiə yanaşmalıdır...». Göründüyü kimi Farabinin müəllim peşəsinə etik tələbləri XX əsrdə A.S.Makarenkonun «Hörmətin tələbkarlıqla uzlaşdırılması» formu- luna çox yaxmdır. Farabinin müəllim-şagird münasibətləri haqqmda fikirləri müasir pedaqogikamızda «Əməkdaşlıq pedaqogikası» ilə, təhsilin humanizm, demokratiya prinsipləri ilə uzlaşır ki, böyük Farabi bunları hələ IX əsrdə dilə gətirmişdir.

Farabinin fikrincə müəlllim şagirdlərində düzlük, ədalət, nəzakət tərbiyə etmək istəyirsə, özü bu keyfiyyətlərə malik olmalıdır.O kəslər yaxşı tərbiyəçi və müəllim, rəhbər ola bilərlər ki, onlar özlərində 12 anadangəlmə və həyatda qazanılmış keyfiyyətlərə malik olsun və həmin keyfiyyətləri özündə uğurla birləşdirsin. Nəzərdə tutulan keyfiyyətlər aşağıdakılardır: «Hiss orqanlarının yüksək kamilliyi, dəmir məntiq, dərketməyə və öyrənməyə məhəbbət, öyrətmək qabiliyyəti, fenomen yaddaş, iti müşahidəçilik qabiliyyəti, aydın və səlis nitq, yeməkdə və içməkdə orta həddi gözləmək, həqiqətə məhəbbət, yalana nifrət, mərdlik, igidlik» .

Elmlərin təsnifati Farabi yaradıcılığında mühüm yer tutmuşdur. Farabi Aristotelin ardıcılı olmasına baxmayaraq elmlərin təsnifatını

«İhsa"ul-ulum» əsərində özünəməxsus tərzdə qruplaşdırmışdır(88). Əsər didaktik-pedaqoji cəhətdən çox qiymətlidir. Farabi bu əsərində elmlərin təsnifatmı asandan çətinə, məlumdan məchula, mücərrəddən konkretiiyə prinsipi əsasında qruplaşdırmışdır.

Farabi göstərir ki, gənclərin başını hədsiz dərəcədə biliklərlə doldurmaqdansa onlara daha əyani, daha aydm, daha sadə biliklər verməli, onları vaxtı düzgün bölüşdürməyə alışdırmaq lazımdır. Farabinin bu müdrik pedaqoji fikirləri sonralar XVII əsrdə alman pedaqoqu A.Disterveq tərəfindən söylənəcəkdi: «Bacardıqca az öyrətməli, çox düşündürməli... Sobanı da ağzınacan doldursan o yanmaz, tüstüləyər». Farabi bu fikirlərin işığmda elmlərin təsnifaündа onlarm daha çox tərbiyəvi təsir qüvvəsinə diqqət verir. O yazır: «.. .Biz məşhur elmləri bir-birinin ardınca məntiqi əsasmda beş bölmədə düzməyə çalışdıq. Biz onlarm həm bütovlükdə həm də hər elmin hissələrinin nəyi ifadə etdiyini, onların məzmununu aydınlaşdırmağa çalışdıq. Onlar belədir:

«1. Dil elmi

2. Məntiq elmi

3. Təlimi elmlər

4. İlahiyyat

5. Mədəni elmlər»(88,93).

Farabi daha sonra bu elməlrin içinə daxil olan ayrı-ayrı elməlri müəyyənləşdirmişdir.

Göründüyü kimi Farabi mücərrədlikdən başlayıb, konkretliyə doğru getmişdir. Farabi elmlərin təsnifinı isə iki əsas prinsip üzərində bölmüşdür:

Farabi həm Şərqin, həm də Qərbin böyük alimi müəllimi, pedaqoqu hesab edilir. Onun dünya elminə gətirdiyi yeniliklər bu günə qədər yeni olduğu kimi, bundan sonra da yeni olacaqdır.

## 2. Yusif Xas Hacib və onun «Qutadqu Bilik» əsərində pedaqoji ideyalar.

Türküstanın Balasaqun şəhərində zəngin bir ailədə doğulan və Qaraxanlılar dövründə yaşayan Balasaqunlu Yusif (1018-1069-dan sonra) yazdığı Qutadqu Bilik (1069-1970) əsərilə pedaqoji fikir tariximizdə önəmli yer tutmaqdadır.

İslamın yaranmasmdan sonra yazılan ilk əsərlər sırasında türk xalqlarmm dəyərli ədəbijryatı və pedaqoji fikri olan «Qutadqu-bilik» mənəvi əxlaqi, bədii və idraki dəyərlər baxımmdan əsrlər boyu nəsillərin tərbiyəçisi, doğru yol göstəricisi, maarifləndiricisi olmuşdur. İslam əxlaqmı qüvvətlə mənimsəyən, bununla bərabər yerli və milli dəyərlərini qoruyub saxlayan Yusif Xas Hacib islam dövründə türk ədəbiyyatmın ilk və önəmli bir əsəri olan «Qutadqu-bilik» ilə ümumtürk pedaqogikasında müstəsna bir yerə sahib olmuşdur. Azərbaycan ədəbiyyaündə ilk dəfə olaraq bu əsər barəsində doktor Xəlil Fikrət məlumat vermiş və o bu əsəri ilk ədəbi-mənzum və didaktik əsər hesab etmişdir(140). Əsər həqiqətən başdan-başa didaktik mahiyyətdədir.

Yusif Xas Hacib mükəmməl bir təhsil görmüş, ərəb, fars və türk ləhcələrini dərindən öyrənmişdir. Əsərindən məlum olur ki, Yusif Xas Hacib hind və islam fəlsəfə sistemini yaxşı bilsə də, öz adət və ənənələrinə həmişə bağlı olmuşdur. Əsərdə islamdan öncə qədim türk adət və ənənələri, onların dinamik həyat tərzi öz əksini tapmışıdır. Bu baxımdan Yusifin 6645 beytdən ibarət olan əsəri türk xalqları ədəbiyyatı, tarixi, pedaqoji fikri, dövlət düşüncəsi, əxlaq və mənəviyyatı baxımmdan əhəmiyyətlidir(79).

Yüsif Xas Hacib 50 yaşmda ikən Kaşqara gəlmiş elə «Qutadqu-büiy»i də burada yazmış və onu Qaraxanlı hökmdarı Tabqaç Buğra xana təqdim etmişdir . Əsəri bəyənən xaqan onu öz yaxm adamları sırasma çəkmiş və ona «Xas Hacib» (hökmdann vəziri) fəxri ünvanım vermişdir. Bımdan sonra həyatmı Qaraxanü saraymm yüksək dövlət xidməündə keçirən Yusif xalq arasında böyük hörmətlə amlmışdır. Yusif Xas Hacib islam mədərdyyətinin təsiriylə ortaya qoyduğu «Qutadqu-bilik»də xalq deyim və atalar sözlərinə geniş yer verərək əsərinə millilik gətirmişdir. Yusif əsərində daha çox əxlaqi,

mənəvi, etik, sosial problemləri dilə gətirmiş və onların həlli yollarım da göstərmişdir.

«Qutadqu bilik» əsərində müəllifin yazdığına görə: «Bu kitab hansı padşaha, ya hansı iqlimə çatdısa, nəhayətsiz gözəl olduğu üçün o ellərin hakimləri və alimləri tərəfindən qəbul olundu və hər biri ona dürlü ad və ləqəblər verdüər. Çinlilər «Ədəbül- mülk»(Ədəb səltənəti) adı verdilər. Məşriqlər «Zinətül- üməra» (Dövlətin bəzəyi) dedilər. İranlılar «Şahnameyi türki» (Türkcə Şahnamə.Firdovsinin Şahnaməsinə işarədir), bəziləri də «Pəndnameyi - mülk» (Səltənət nəsihətləri) adlandırdüar. Turanlılar isə «Qutadqu bilik» (Xoşbəxtliyə aparan bilik) dedilər(79,3). «Qutadqu bilik» dastanı mənzum şeir formasında tərbiyəvi öyüd və nəsihətlərdir.Bu kitab insanlara xoşbəxt olmanın, yüksəlmənin yollarım göstərir, dövrün hökmdarlanna nəsihətlər verir, dövlətin idarə edilməsinin doğru yollarım göstərir, gənc nəsildə ən nəcib əxlaqi keyfiyyətlərintərbiyə olunması üçün dəyərli məsləhətlər verir. XI əsrdə yazılmış «Qutadqu-bilik» əsəri artiq dünya ədəbiyyatma düşmüş fransız, alman, ingilis, italyan, macar, rus, Azərbaycan ədəbiyyatmda öyrənilməkdədir.

Yusif Xas Hacib bu əsərində - «Bütün yamanlıqların anası cəhalətdir» - deyərək cəmiyyətdə ən qiymətli şeyin təlim-tərbiyə olduğunu qeyd edir. Bunun üçün də hökmdar öz xalqını, ailə başçısı öz ailə üzvlərini, müəllim də öz yetişdirmələrini cəhalət və avamlıqdan uzaqlaşdırmalı, onları tərbiyələndirməli və təhsilləndirməlidir.

Yusif Xas Hacib Farabi kimi əsərində biliyə, elmə çox geniş yer vermiş və «Hökmdarlar bilikli, ağıllı və müdrik olmalıdırlar, onlar dərin bilik və ağıl sayəsində xalqa rəhbər olurlar»-demişdir.

*«Bəylər biliklə xalqa baş oldular*
*Ağılla elin-günün işini gördülər» (79,158).*

Yusifə görə bilik insan üçün hər cür fəziləün başmda gəlir. Sokrat da deyirdi ki: «Heç kim bilə-bilə pislik etməz, pislik biliyin əskikliyindən irəli gəlir». Eyni ilə Yusif də- «bilik insan üçün bir əyləcdir, əyləci olan pis işlər etməz» deyirdi.

Hacib insan zəkasına, ağıl və kamalına yüksək qiymət verərək yazırdı ki, ən hörmətli və yaxşı o adamdır ki, onlar elmlidir. Hər şeydən baş çıxaranlar qabiliyyət və zəkalı adamlardır. Nə vaxt olursa

olsun, bu günə qədər ən yüksək yer bilikliyə qismət olmuşdur: «Harada *idrak olsa, orada ululuq olar/ Kimdə bilik olsa, o böyük olar»(79,* 27)-demişdir.

«Qutadqu-bilik» dövlətin idarə edilməsində hökmdarlarm fəzilətli, ağıllı olmasını gərəkli hesab edən bu əsər bir siyasətnamə olmaqla bərabər, həm də xoşbəxtliyə çatmağın, iqtidara yetişməyin yollarını göstərən, ideal bir insan, ideal bir toplum düşüncəsini ortaya qoyan əxlaqi, didaktik pedaqoji əsərdir.

«Qutadqu-bilik» təməl olaraq dörd qavram üzərində qurulmuş və bu dörd qavram dörd şəxslə təmsil edilmişdir: 1) Gündoğdu (ədaləti təmsil edən padşah); 2) Aydoğdu (dövləti təmsil edən vəzir); 3) Öyüdülmüş (ağlı təmsil edən vəzirin oğlu); 4) Odqurmuş (qənaəti təmsil edən vəzirin qardaşı). Hacib bu şəxslərin dialoqunda və simasında yaşayış dövrünün ictimai-siyasi quruluşu, hökmdarların mənəvi, əxlaqi keyfiyyətləri, insanlann cəmiyyətdə davramş qaydaları haqqmda məlumatlar verir.Yusifin əxlaq və davranış sistemi 4 prinsipə əsaslanır:l) Bilik; 2) Fəaliyyət; 3) Ədalət; 4) Kut (müstəqillik).

I. Bilik. Əsərdə bilik mənəvi keyfiyyətiərin əsası sayılır və biliyin fəlsəfi bir mənası görünməkdədir. Yusif bilik ilə ağlı bir-birindən ayırmışdır. Yusifə görə biliyi ağıldan ayıran başlıca özəllik birincinin -yəni biliyin sonradan qazanılmış olmasıdır.«Ağıl» isə Tanrı tərəfindən verilmişdir. Bu barədə dahi Nizami Gəncəvi açıq-aydın şəkildə belə yazmışdır «Ağıl bağışlanmış can, Tanrının bizə bəxşi- şidir;/can ağılla əbədi diridir». Yusif qeyd edir ki, «Bilik» sahibinin ağlmı nəzərə almadan, yalnız onu bilikli saydığımız təqdirdə bilikli ilə cahil arasmda fərq qalmayacaqdır. Əsil məsələ bilənin biliyinə ağlm əlavə edilməsidir. Biliyə ağıl əlavə olunmazsa o biliyin heç bir önəmi və əhəmiyyəti olmayacaqdır. Bilik varsa ağıl yoxdursa o bilik zərərli və təhlükəlidir. Beləliklə Yusif bir pedaqoq kimi göstərir ki, yalnız bilik ağılla birləşəndə həqiqi bilik meydana çıxır və o zaman fərdlər və cəmiyyət istədiyi fəzilətlərə yetişə bilərlər.

Qutadqu biliyin bölmələrini oxuduqca bilik haqqında müəllifin öz dünyagürüşünü görürürk. Bu dünyagörüş üç ideyadan ibarətdir:

a) Bilik hər şeydən üstündür, ona dəyər biçilməz. Bilgi üstün bir varlıq, bir fəzilət və gücdür. Bilik ağıl ilə əldə olunur.

b) Dil Tanrımn insanoğluna bağışladığı ən dəyərli nemətdir. Dil yalnız xeyirxahlığa işlədilməlidir. Bilik adamımn «tərcüməçici» dildir. Adam ölür sözü qalır.

c) Yaxşılıq böyük bir fəzilətdir. Yaxşılıq etmək, günah bağışlamaq, verilən sözü tutmaq fəzilətə bağlıdır. Hacib biliyin insanı heyvandan ayıran bir meyar olduğunu söyləyir: «Ya bilgi al insan ol, özünü yüksəlt; ya da heyvan adını al insanlardan uzaqlaş» .

*Yusif əsərində dövləti idarə etmək üçün biliyin əhəmiyyətini göstərməklə bərabər, bilik qazanmağtn da yolunu göstərir və deyir:«Dünyanı tutmaq üçün idrak gərəkdir. Xalqa hakim olmaq üçün həm ağıl, həm də ürək lazımdır». «Dünyanı tutan idrak ilə tutdu; hökm edən buna ağılla nail oldu» .*

Bu fikirlərdə böyük pedaqoji ideyalar gizlənmişdir. Belə ki, Hacib biliyin ağü və ürəklə əldə oluna biləcəyini göstərir. Bilik təkcə gözlə və ya qulaqla qəbul edilmir. Əgər bu prosesdə ağıl, idrak, hisslər, ürək iştirak etmirsə o bilik həqiqi ola bilməz və yadda qalmaz.

Yusif xas Hacib bir pedaqoq, tərbiy əçi kimi öyüd və nəsihətlər verir. Nəyin pis, nəyin yaxşı olmasrnı başa salır, necə hərəkət etməyi, necə davranmağı insanlara öyrədir. O göstərir ki, bütün pisliklərin, cahilliyin əsasrnı biliksizlik tutur. Hər şey biliklə əldə olunur. Məsələn, o üç şeyin insana zərər gətirəcəyini söylərkən onun səbəbinin biliksizlik olduğımu qeyd edir:

*«Adama xeyir yox, həmişə çox zərər verər,*
*Bax, bu üç şey, ey qüdrətli dövlət adamı:*
*Biri inadcıllıqdır, çox pis xasiyyətdir,*
*O biri yalan danışmaqdır,*
*Biri də insanı alçaq edən xəsislikdir,*
*Bunun üçü də biliksizlikdən doğar» (79,137).*

Hacib bilik qazanmağın və bilikliyin əsas iki əlamətini də göstərir:

«Bunlardan biri dildir, digəri boğaz. Bu ikisinə hakim olan çox xeyir görər» (79, 89).

**II. Fəaliyyət.** Qutadqu-bilikdə «Bilmək» ünsürünün yanında fəaliyyət göstərmək, içra etmək ünsürü də düşünülmüşdür. İnsan «bilmək»lə qalmamalı, həm də bildiyini həyata keçirməlidir. Bunlarla bərabər kitabda bir sıra ünsürləri özündə birləşdirən «smamaq», «təcrübədən keçirmək» qavramları da vardır ki, burada da təcrübəli

adam yüksək qiymətləndirilir. Təcrübəli adam «Biliklə», «Ağlı» özündə birləşdirən kimsədir. Hacib təcrübəli adamın sözünü dinləməyi məsləhət görür və deyir: *«Təcrübəli insanın nə dediyini dinlə»; «Təcrübəli adamın işi mükəmməldir», «Sınanmış, təcrübəli adamdan möhkəm yapış;/Sən ondan min birfeyz alarsan»(79, 112).* Hacib göstərir ki, işi görsə-görsə ağıllı və bilikli adam görər. Bilik və ağılın göstəricisi və meyarı işdir, əməldir, fəaliyyətdir.

**III. Ədalət.** Əsərdə hökmdar üçün ən ali və müqəddəs keyfiyyət ədalət sayılır. İdarəetmənin ən önəmlı vasitəsi qanundur. Qanun isə ədalət simvoludur. Hökmdarlarm ədalətlə, qanunla xalqı idarəetməsi və xalqm qayğısma qalması və bəyliyin əsası ədalət olduğu göstərilir:«Bəyliyin təməli ədalətdir;/Ədələt yolu bəyliyinəsasıdır»(79, 76). Əsərdə «Gündoğdu» qanun və ədalət təmsilçisidir və o deyir:«Mən ədalət və qanunam. Mənim özüm, sözüm ədalətdir. Mən heç tərəddüd etmərəm. Haqsız ilə haqlı, əyri ilə doğru mənim hüzuruma gəlsələr, mən onlarm işlərini ədalətlə çözərəm. Hüzuruma gələn istər bəy olsun, istər qul olsun, mən onlara heç bir fərq qoymaram. Bir dövləti idarə etmək istəyən adil olmalıdır. Dövlətin təməli ədalətdir».

Yusif xas Hacibin *əxlaq tərbiyəsimn* sistemi haqqında düşün- cələrində bilik, fəaliyyət və ədalət əsas yer tutur.

**IV. Kut.** Dövlətçilik, idarəçilik, dövləti idarə etmə bacarığı bir əxlaqi keyfiyyət kimi əsərdə əsas yer tutur. Hacib dövləti idarəetmə məsələsinə böyük önəm vermişdir. Əsərdə «Odqurmuş»dan başqa, əsərin bütün qəhrəmanları dövlət idarəçiliyindən, dövləti yönəltmək üçün gərəkən keyfiyyətlərdən söz açırlar. Əsərdə «Kut», «Dövlət», «Iqtidar» kəlmələri əsasən eyni mənada işlədilmişdir. «Inanma bu kuta həm gələr, həm gedər; inanma ona həm dövlət verər, həm alar». Bu hikmətli fikrin azərbaycanca qarşılığı belə verilmişdir: «Dövlətə güvənmə, gəldi-gedərdir; dövlətə inanma, həm verər, həm alar» (79,66). Qutadqu-bilikdə «Qut» (iqtidar), «Aydoldu» tərəfindən təmsil edilməkdədir. Aydoldu hökmdarın hüzuruna çıxaraq xidmət etmək istər. Bununla da iqtidarla qanun bir araya gəlirlər. Çünki qanun yerinə yetirilməsi üçün iqtidara möhtacdır, iqtidar özü də qanunun əlindədir. Hacib deyir ki, həqiqi qüdrət qanundur.

*Yusifxas Hacib birpedaqoq kimi şəxsiyyətin inkişafına və formalaşmasına böyük önəm verir.* Qnun müdrik fikirlərindən belə nəticəyə gəlmək olur ki, şəxsiyyətin inkişafı və formalaşmasında o həm irsi amillərə, həm tərbiyəyə, həm də ictimai mühitin təsirinə böyük dəyər vermişdir. Bu münasibətlə o irsi amillərdən danışarkən qeyd edir ki, insarun mərd və ya namərd olması elə doğuşdan bəlli olur. Ululuq əlamətiəri hələ kiçik vaxtlardan uşaqda özünü göstərir: «Doğuşdan mərd olan oğlamn kiçikkən bütün ululuq nişanları bilinir»(79,136). Və ya başqa bir yerdə belə deyir:«Yerə nə əkərsən, o da bitər. Oğulun xasiyyəti ataya çəkər»(79,134).Yusif hətta ana südünün insanın xarakterinin formalaşmasma təsir etdiyini göstərir: «Əgər yaxşılıq ananm ağ südü ilə insan rıihuna girərsə;/ O ölənə qədər doğru yoldan çıxmaz».Yusif daha sonra göstərir ki, kim ki, bədxasiyyət və inadcıldırsa və bu onun genlərindən gəlmişdirsə o zaman onun düzəldilməsi qeyri mümkündür:«Kim bədxasiyyət və inadcıl olsa gün doğsa da ornrn işi tərsinə dönər» .Yusif insanm yaxşı və pis olmasrnı da onun əsli, koku ilə bağlayır: «Kökü yaxşı olsa, ər əsilli doğular;/Yaxşı olduğu uçun dör başa keçər» (79,158).

Yusif əsilli, soylu insanm vəfalı, kamil olmasmı, soysuz insanm isə cəfadan başqa bir şey vermədiyini açıq söyləyir:

> *«Soylu irısan vəfalı olar/Natəmiz adamsa cəfalı olar» «Soyluların hərəkəti zərif olar/Xalqa vəfalı əl uzadarlar» (79,174).*

*Yusif şəxsiyyətin formalaşmasında dediyimiz kimi irsiyyətə üstünlük verdiyi kimi, tərbiyənin də gücünə, qüvvəsinə böyük önəm vermiş* və yazmışdır: «Insan anadan alim doğulmaz, sonra öyrənər, insan doğulan kimi danışmaz, sonra danışar».Yusif tərbiyənin gücünə inanır, tərbiyə ilə insannm formalaşdığım bildirir. Elik dedi: «Başqa çarəm yoxdur, Onu tərbiyə etsəm, hökmən adam olar». Yusif daha çox insanm bilik, elm qazanmasını onxm irsiyyəü, kökü ilə deyil tərbiyə ilə, zəhmətlə əldə olunmasını bildirir: «İnsan biliksiz doğulur, yaşadıqca öyrənər,/Bilikli olduqdan sonra hər işi bacarar».Yusif bu gün pedaqoqlarımızm söyədyi «insan yetişdirmək» problemini insana düzgün tərbiyə verilməsində görürdü:«Mən onu yetişdirdim insan olsım. İnsan olan həmişə faydalıdır» .

Yusif xas Hacib şəxsiyyətin inkişafı və formalaşmasında *əlverişli mühitin* olmasını da əsas şərt hesab edir. O ətraf aləmin dostların, yoldaşların, cəmiyyətin ab-havasınm insanm bir insan kimi yetişməsinə qüvvətli təsir etdiyini göstərir:

«Pislərlə oturub-durma, ey gözəl insan / Yoxsa sənin təbiətin də pis olar; Yaxşı ad qazanmış çox adamlar gördüm / Pislərə qarışınca işləri pozuldu»; «Yaxşı adamlarla otur-dur, təmas qur / Insan ol və insanlar arasmda yaşa». Yusif insanm tərbiyəsində dost və yoldaşm düzgün seçilməsini məsləhət görür və deyir: «Yaxşının bir pis yoldaşı olsa; / Yaxşınm da təbiəti pis olar»; «Pis də yaxşı ilə oturub dursa; / Yaxşılığa çatmaq üçün çıraq tapar».

Yusif bir metodist kimi *öyrənmənim metodikasım* da göstərir. Bir pedaqoq kimi öyrənmədə əldə olunan mənəvi-əxlaqi keyfiyyətləri göstərir ki, bu da öyrənmə prosesini «avand» edir: «Bilik, ərdəm, mərifət və hərəkət;/ C)yrənmənin yolu avand olur». Başqa bir yerdə Yusif valideynlərə məsləhət verərək uşaqlara kiçik yaşdan bilik verilməsini öyüdləyir: «Uşağa biliyi kiçikkən öyrət, / Kiçiklikdən bilik öyrənən həyatda müvəffəq olar»

Hacib *alim əməyinə, alim keyfiyyətlərinə* böyük qiymət verir. Rütbələrin ən yüksəyinin alim rütbəsi olduğunu bildirir. Əlbəttə bu fikirlərin qaynağı Qurandır. Elmə, alimə yüksək qiymət verən Hacib yazır: «Alimlər sulu yerlərə bənzərlər/ Haraya ayaq bassalar, ordan su çıxar». Sonra Hacib alim haqqmda belə yazır: «Çox damşmaqla msan alim olmaz/ Çox eşidən alim başa keçər...» .

Yusif xas Hacib irısanm mənəvi keyfiyyətləri haqqında xeyli dəyərli misallar, öyüd və nəşihitlər verir. Onlardan bir neçəsinə nəzər yetirək:

***Təvazökarlıq haqqında.***

> *«Vəzir təvazökar, dili yumşaq olmalıdır, İrısarı özünü başqalarına bu cür sevdirər Təvazökar və sakit insan nə deyir, dinlə İnsan üçün təvazö çox gözəl şeydir» (79,176). «Nə qədər böyük olsan da sadə və təvazökar ol, böyüyə təvazökarlıq yaraşır» (79,336).*

***Doğruluq və düzlük haqqtnda.***

«Şərəf və etibarını qorumaq istəsən/ Ağzından yalan söz çıxarmamağa çalış»(79,319). Hacib uşaqlarda doğruluq, düzlük tərbiyə etməyi lazım bilərkən ikiüzlülük, kobudluq, qeyri səmimilik, yalan kimi sifətlərin insamn əxlaqilikdən uzaq olduğunu söyləiyr:«Yalançı adamdan etibar umma, bu illərlə sınanmış həqiqətdir»,«Yalançı insanların ən pisidir/Pislərin pisi isə sözündən qaçandır»(79, 4660- 467). Hacib gənclərə müstəqil fikir söyləməyi, rəvan danışmağı, natiqlik qabiliyyətinə yiyələnməyi tövsiyə edirdi. O yazırdı ki, insan öyrəndiyini nə qədər gözəl ifadə edərsə, demək bir o qədər bilikli və həyata hazırdır. Elm, bilik və bacarığa yiyələnməkdə, yazıya müstəsna əhəmiyyət verən Hacib deyirdi ki, yaxşı yazan, qələm sahibi olan adamlar həm də yaxşı peşə sahibi, sənətkar olurlar.

**Bütünbunlarla bərabər əməksevərlik, vətənpərvərlik, ədalətlilik, səbrlilik, xeyirxahxahlıq, humanistlik, gözütoxluq, mərhəmət, zəriflik, fiziki sağlamlıq kimi mənəvi-əxlaqi keyfiyyətlər əsərdə gözəl, ibrətamiz misallarla göstərilir.**

Vətənpərvərlik tərbiyəsinə yüksək qiymət verən Hacib gənc nəslin fiziki cəhətdən sağlam olmasını, cürətli, siyasətçi, düşmənə qarşı amansız olmağı arzulayıraraq yazırdı: İgiddə bir neçə nişan gərək: Yağıya qarşı üz tutanda, səfərə çıxanda, düşməni görəndə gərək aslan ürəkli olsun, gərək pələng biləkli olsun. Qaban kimi inadkar, qurd kimi qüvvətli, ayı kimi azğın, buğa kimi kinli, qırmızı tülkü kimi hiyləgər, erkək dəvə kimi qisasçı, sağsağan kimi ayıq, qaya quzğunu kimi sərrast gözlü, aslan kimi dönməz və amansız, bayquş kimi gecələr yatmaz olsun.

Hacib *qadın tərbiyəsi* haqqında maraqlı fikirlər söyləmişdir. Məlum olduğu kimi, qədim türklər qızları azad, cəsur, igid tərbiyə etmişlər. Hacib yazırdı ki, qadmm məziyyəti, yüksəkliyi onun adındadır. Ona görə onu ərə gedənə qədər evdən buraxmamaq və evdə tərbiyə etmək lazımdır. Hacib yazırdı ki, qızlarm tərbiyəsini cahil valideyinlərə deyil, namuslu, doğrucul, təmiz, mehriban dayələrə tapşırmaq lazımdır. Bu dayələr uşaqlara elə ədəb qaydaları və elm öyrətməlidir ki, valideynlərin həm bu dünyada, həm də o dünyada üzü ağ olsun.Hacibin uşaqlarm tərbiyəsini xüsusi təlim görmüş dayələrə tapşırmaq ideyasnu Fransiz pedaqoqu, maarifpərvəri J.J.Russo (1712-1778) ondan 900 il sonra belə demişdir ki, valideynlərin pis əməllərinin uşaqlanna

keçməməsi üçün onlara fərdi dayələr tutub, elm, tərbiyə vermək faydalıdır.

Hacib vətənpərvərliyi təbliğ etməklə bərabər, *düşmənə amansız olmağı,* ilk fürsətdə onun məhv edilməsini, düşmən nə qədər zəif olsa da onu güclü hesab etməyi, düşmənə arxa çevirməməyi öyüdləyir:

*«Tab et, düşmənə heç vaxt arxa çevirmə Ya öldür,*
*ya da vuruşaraq orada öl» (79,186).*

Hacib bir əsgəri komandir kimi *döyüşün taktika və strategiyasım* da göstərmişdir:

*«Əgər düşmənin əsgəri çox, səninki azsa, Tələsmə,*
*ona uyğun tədbir gör... Düşməni rahat qoyma, gecə*
*basqını təşkil et, Qaranlında əsgərinin azlığı*
*görünməz, Qələbə çalmağa imkan yoxsa Elçi göndər*
*sülh istə...» (79,185).*

Beləliklə, göründüyü kimi Hacibin pedaqoji fikir tariximizdə yeri çox böyükdür. Özündən sonra gələn böyük mütəfəkkirlər, Hacibin fikirlərindən faydalanmış, əsərlərində ondan istifadə etmişlər. Azərbaycan müstəqillik qazandıqdan sonra Hacibin həyat və fəaliyyəti, onun bu qiymətli əsəri «Qutadqu-bilik» tədris proqramlarına salınmış və gənc nəsillərə öyrədilməkdədir.

## 3. Əbu Əli İbn Sinanın pedaqoji fikirləri.

İbn Sina təkcə türk dünyasında deyil, həm də bütün dünya elm və mədəniyyət aləmində yüksək mövqe qazanmış böyük loğman, filosof və pedaqoq olmuşdur. Təsadüfi deyil ki, dünya pedaqoji fikir tarixində birinci müəllim Aristoteldən sonra «İkinci müəllim» («Müəllimi Sani») adına layiq görülmüş Farabiyə qarşılıq olaraq İbn Sina da «Üçüncü müəllim» («Müəllimi-Salis») adı ilə şöhrət tapmışdır.

İbn Sina tibb sahəsində məşhur olan Hippokrat (460-357) və Qalendən sonra dünya təbabətində də üçüncü olaraq tanmmışdır. O fəlsəfəyə, tibbə, ədəbiyyata, əxlaqa dair 450-yə yaxın elmi əsərin müəllifdir ki, onun 150-yə yaxını dövrümüzədək gəlib çıxmışdır. Ibn Sinanın tibbin, fəlsəfənin və pedaqoji fikrin inkişafında mühüm əhəmiyyəti olan əsərləri bunlardır: «Danişnamə» (Bilik kitabı),«Kitab-ül-insaf» (Ədalət kitabı), «Kitab-ül işarət və tənbihat» (Göstərişlər və qeydlər kitabı) «Düsturi-tibb», «Həsbhal», «Kitab-ün-nicat», «Kitab-əş-şəfa», «Risaleyi-hifz», «Risaleyi-əxlaq» və s. Onun «Əl-Qanuni-Fit Tibb» («Tibb qanunları») əsəri daha məşhurdur. Təbabətin tacı sayılan «Qanun...» kitabı XVII əsrə qədər Avropa və Şərq ölkələrində dəyərli dərs vəsaiti kimi istifadə edilmişdir. Bu vəsait bir milyona yaxm tibb kəlmələrinin ensiklopediyasıdır. Bu əsər ilk dəfə XII əsrdə Qerhard tərəfindən laüncaya tərcümə edilmiş, sonra müxtəlif dillərə çevrilmişdir. Türk-İslam dünyasmda mövlana deyilincə Rumi, Məsnəvi deyilincə onun əsəri ağla gəlirsə, Şeyx Ər-Rəis deyilincə İbn Sina, «Qanun» deyilincə də onun əsəri ağla gəlir. Əbu Əli İbn Sina haqqında ən yaxşı məlumatları o özü vermişdir.Tarixdə Avissena adı ilə şöhrət tapmış Hüseyn Əbdulla Əbu Əli İbn Sina Buxara şəhərinin yaxmlığmda Əfşan kəndində 370 hicri ilinin Səfərində, yəni miladinin 980- cı ilinin avqustunda doğulmuş, 428-hicri ilinin ramazan ayında, yəni miladinin 1037-ci ilinin 21 iyununda Həmədanda vəfat etmişdir.

Atası Samani hökmdarlarırun yarunda kaüb olmuşdur. İlk təhsilini öncə atasmdan, sonra məşhur alimlərdən dərs almışdır.İbn Sina necə təhsil almasını belə anladır:«Mən bir az böyüdükdən sonra atam yenidən Buxaraya döndü. Bizi də birlikdə götürdü. Buxara müəllimliyinə təyin edilən zatdan ilk təhsilə aid şeyləri öyrəndim. On yaşıma gəldiyim zaman Qurani-Kərimi əzbərlədim. Yağım bir az daha

artdıqca digər bir zatdan hesab, büisindən «Fikih» və «Kəlam» öyrəndim. Farabi fəlsəfəsinə vaqif olan Abdulla Natili adlı bir alimdən xüsusi olaraq məntiq və fəlsəfə oxudum. Sonra elə onun yarunda magistrliyi oxudum. Eyni zamanda tibb təhsüi də gördüm. Öyrəndiklərimi xəstələr üzərində müşahidələrimlə möhkəmlətdim. Təcrübə və müşahidələrimdən, kitab oxumaqdan çox istifadə edirdim. Artiq on səkkiz yaşıma gəlmişdim. Mütamadi çalışırdım. Gecələri ya mütaliə ilə, ya da bir şey yazmaqla keçirirdim. Yorulduğum və ya yuxu basdığı zaman yırxumu qaçıracaq bəzi şeylər içirdim. Yuxu qaçmca yenidən mütaliə edirdim. Yuxuda da bəzən zehnim oxuduğum şeylərlə məşğul olurdu. Çox dəfə həll edə bilmədiyim şeyləri yuxuda həll etmişəm. Sonralar metafizikaya başladım. Fəqət bıma aid kitabı bəlkə qırx dəfə oxuduğum halda bir şey anlamamışdım. Elə bu vaxtlar bir gün bir kitabçı dükaruna girmişdim. Orada bir kitab diqqətimi cəlb etdi. Dəüal bu kitabı almamı tövsiyə etdi. Kitabı tədqiq etdim. Bu kitab o zamana qədər anlaya bilmədiyim metafizikaya aid Farabinin bir əsəri idi. Alıb evə gətirən kimi dərhal tədqiqə bağlandım. Bitirənə qədər diqqətlə oxudum. Bitirdiyim zaman o vaxta qədər anlamadığım metafizikanı tamamilə qavradım. Sevincimin həddi yox idi. Şükr etdim. Kasıblara sədəqə verdim».

Ibn Sina 18 yaşında ikən hərtərəfli biliyə malik alim kimi şöhrət qazanmışdı. Təsadüfi deyil ki, Samani padşahlarından Nuh bn-Mənsur ağır xəstələndiyi zaman gənc Əbu Əli İbn Sinanı saraya dəvət etmiş və gənc həkim onu ölümün ağzından qurtarmışdır. Bu bacarığına görə hökmdar özünün zəngin kitabxanasında çalışmaq üçün İbn Sinaya icazə vermişdir. İbn Sina Həmədanda Şəmsüd-Dövlə Deyləminin ağrıyan mədəsini sağaltmış və bu xidmətinə görə hökmdarın yanmda böyük hörmət qazanaraq onun vəziri olmuşdur. Lakin, burada haqsızlıq və ədalətsizliklə rastiaşmış, özünün açıq və tənqidi fikirlərinə görə zindana salırtmışdı. Zindanda olarkən özünün «Şəfa» əsərini, «Həyy Ibn-Həqzan» adlı fəlsəfi romanmı, «Qulunc haqqmda müalicə üsulları» əsərini yazıb qurtarmışdı.

Əbu Əli İbn Sina hansı sahədə yazırsa yazsm orada şəxsiyyət məsələsi, onun mənəvi keyfiyyətləri, tərbiyə məsələləri ön planda olmuşdur. İbn Sina insanın bir şəxsiyyət kimi formalaşmasında ruhun zənginliyinə büyük önəm vermişdir. O insarun iki hissədən-ruhdan və

bədəndən ibarət olduğunu söyləyir və ruha daha böyük qiymət verərək yazırdı ki, ruh cisim deyildir, çünki bədəni meydana gətirən bütün parçalar, daima böyüməkdə və çürüməkdədir. Halbuki, ruh cövhəri, bu halların hamısında əbədidir. Ruh maddədən ayrıdır, amma insana insanlığı qazandıran, bədənə məna və dəyər verən odur. Bədən ruhun əlində bir alətdir. Bədənin ölümü ruhu sarsıda, onun mahiyyətinə toxuna bilməz. Ruhda dəyişiklik yoxdur. Əbədi olan olmayana bənzəməz. O zaman deyə bilərik ki, cisim və cəsəddən ayrı bir nəfsi-natiqə, bir ruh vardır. Bütün hallarda insan, öz zatına, varlığmı idrak etməkdədir. Bu idrak vasitəsiz olaraq meydana gəlir. Heç bir hal yoxdur ki, mənlik öz varlığından şübhəyə düşsün, özündən qafil olsun. Hətta yuxuda və özündən getmə zamanı belə olur. Demək ki, müxtəlif illərdə etdiyi yaxşılıq və pisliyi özünün etdiyini bilən insanda «mən» deyən qüwət dəyişib duran, yenilənib təzələnən bədəndən və bədənin parçalarmdan başqa bir varlıqdır.

İbn Sina kamil insanm yetişməsində ilk növbədə onun biliklərə yiyələnməsini vacib sayır və əqli tərbiyəyə böyük əhəmiyyət verirdi. O yazırdı ki, elm genişdir, omm hüdudları sonsuzluq zülmətində itib-batır. Ona görə də elmi bilikləri dərindən öyrənmək və ümumiləşdirmək lazımdır. O, orta əsrlərdə elmi idrakı yüksək dərəcədə işləmiş, elmlərin təsnifatmı vermiş, onları əməli və nəzəri elmlərə ayırmışdır.O əməli elmlərə dövləti, şəhərləri, öz evini, ailəsini, əmlakım idarə etmək və insanın özü ilə bağlı elmləri aid edirdi. Nəzəri elmlərə isə abstrakt varlıq haqqmda təlim (Ali elm), riyaziyyat, astronomiya, musiqi, (Orta elmlər) və dövrünün bütün təbii elmi biliklərmi (Fizika) daxil edirdi. O, fəlsəfə ilə dinin müstəqil mövcud olduğunu göstərmiş, fəlsəfəni insan zəkasımn əsası adlandırmışdır.

Ibn Sina 14 yaşma qədər uşaqların təhsilinin məzmununa xüsusi əhəmiyyət verir və təlim proqramına Quramn öyrənilməsi, ərəb dili, qrammatika, şeir üslubu, məzmunlu əxlaqi təlimlər, fiziki tərbiyə, sənətin öyrənilməsini daxil edirdi.

İbn Sina təlimin təşkili prinsiplərinə toxunmuş onun təşkilində aşağıdakılarm əsas götürülməsini vacib saymışdır:

1) Uşağı ilk gündən kitaba bağlamaq lazxm deyil, ilk öncə onun oyun fəaliyyətini təşkil etmək lazxmdxr

2) Uşaqlarla aparxlan məşğələlər müəyyən vaxt ərzində və onlarrn gücü daxilində olmalxdxr

3) Təlim kollektiv şəkildə aparxlmalxdxr

4) Əqli məşğələlər fiziki məşğələlərlə növbələşdirilməlidir

5) Uşaqlarm meyl və qabiliyyətləri nəzərə almmalxdxr

6) Təlimdə müvafiqlik, asandan-çətinə, məlumdan məchula, sadədən-mürəkkəbə gediş qaydasx gözlənilməlidir (117, 97).

İbn Sina təlim-tərbiyədə müəllim əməyinə xüsusi əhəmiyyət verirdi. O uşaqlar altı yaşma çatdxqda onu tərbiyəçiyə və müəllimə tapşxrmağx məsləhət bilirdi. Belə müəllimlər isə hər şeydən öncə mömin, ədalətli, nəzakətli, səliqəli, müdrik və doğruçul olmalxdxr.

Ibn Sina milləün taleyi tapşırılmxş müəllimlər qarşısmda bir sıra tələblər qoyurdu:

1) Müəllim uşaqlarla münasibətində təmkinli və səbrli olmalı və onlarxn aldxqları biliklərin necə tətbiq olunmasma fikir verməlidir

2) Müəllim təlim prosesində uşaqlarla işin müxtəlif metod və formalarım tətbiq etməlidir

3) Müəllim uşaqlarm fərdi xüsusiyyətiərini nəzərə almalı, onlarda təlimə maraq yaratmalxdır

4) Müəllimin fikri təlim alanlarm hamxsma aydın olmalıdır. O, öz sözləıini mimika və jestlərlə tamamlamalıdır ki, uşaqlarda emosional münasibət yarada bilsin.

Göründüyü kimi İbn Sinamn XI əsrdə dediyi sözlər XXI əsrdə də öz əhəmiyyəüni itirməmiş və bu gün də həmin fikirlər aktualdır. İbn Sinarun didakük görüşləri orta əsr Şərqində məktəb təhsilinin inkişafma əsaslı təsir göstərmiş, təlim nəzəriyyəsini xeyli zənginləşdirmişdir.

İbn Sina yetişən gənc nəslin əxlaq tərbiyəsinə böyük əhəmiyyət vermiş və dəyərli fikirlər irəli sürmüşdür. O deyirdi ki, əxlaq insanda tərbiyə ilə meydana gəlir, əxlaq tərbiyənin predmeti və tərbiyənin nəticəsidir. Əxlaq tərbiyəsinin məqsədi yalnız özü üçün deyil, başqaları üçiin yaşayan insanları formalaşdırmaqdır. Bu ideal o zaman həyata keçə bilər ki, tərbiyənin köməyi ilə insanlarda humanizm, dostluq, ciddilik, möhkəm xarakter, qənatəcillik, düzlük, ədalət, əməksevərlik kimi əxlaqi keyfiyyətlər formalaşdınlsm.

Ibn Sina daim insanm öz üzərində işləməsini, biliyini artırmasım tövsiyə edirdi. O yazırdı ki, ağd, təcrübə və müşahidə vəhdətdədir. Bunları inkişaf etdirmək lazımdır. Onun fikrincə Allah əwəlcə ağdı, sonra isə nəfsi yaratmışdır. Ona görə də o insanlan ağdla iş tutmağa, nəfsə uymamağa çağırırdı.

İbn Sinanm uşaqlarm əmək tərbiyəsi ilə bağlı fikirləri həyati əhəmiyyət kəsb edir. O, əmək tərbiyəsinə əqli, fiziki və əxlaqi tərbiyənin vacib elementi kimi baxır, həm varlı, həm də kasıb uşaqlarırun əməklə bağlı zəruri bacarıq və vərdişlərə yiyələnməsini, peşə, sənət sahibi olmasmı vacib bilirdi. O qeyd edirdi ki, əməklə məşğul olanlar əxlaqi və mənəvi cəhətdən saf olurlar, insanlığm qədrini bilirlər, başqalannm əməyinə hörmət etməyi bacarırlar. Ona görə də müəllim təlimə başlayarkən hökmən uşaqların xarakterini və biliyini yoxlamalıdır. Əvvəlcə o uşağın diqqətliliyini, sonra onım meyl və marağmı, daha sonra onım üçün incəsənətin və ya müəyyən sənətin növlərini müəyyənləşdirməlidir. İbn Sina gənc nəslin tərbiyəsində onların fiziki cəhətdən sağlam olmalarmı əsas şərt sayırdı.

İbn Sina uşaq şəxsiyyətinə toxunmamağı, ona həmişə hörmət və ehtiramla yanaşılmasım tələb edirdi. Bu fikirlər bu gün təhsilimizin humanistləşdirilməsi və demokratikləşdirilməsi ideyaları ilə sıx bağlıdır.

Ibn Sina tibb elminə böyük töhfələr verməklə bərabər tibbin öyrədilmə metodikasım, həkim-xəstə münasibətiərini pedaqoji elmin tələb etdiyi səviyyədə araşdırmışdır. İbn Sina «Qanun» və «Şəfa» adlı əsərlərini tələbələri asan və tez öyrənmələri üçün hər bəhsdən sonra nəticələr və qısa şərhlər yazmışdır. İbn Sina həm yazdığı kitabları ilə, həm də müəllimlik fəaliyyəti ilə insanlara tibbi, fəlsəfəni öyrətməklə bərabər, onları ilk növbədə kamil şəxsiyyət olmağa çağırmışdır. Ibn Sinamn əsərləri vaxtilə Azərbaycanda geniş oxudulmuşdur.

Böyük Azərbaycan mütəfəkkiri, filosofu Bəhmənyar Ibn Sinanm tələbəsi olmuş və o yazılarında müəllimini minnətdarlıqla xatırlamışdır. İbn Sinarun ideyaları onun tələbəsi Bəhmənyar, onun tələbəsi filosof Əbül Əbbas Ləvkəri, onun tələbəsi Əfzələddin Gilani, onun tələbəsi Sədrəddin Sərəhsi, onun tələbəsi Fəridəddin Damad, onun da tələbəsi Nəsirəddin Tusi tərəfindən davam etdirilmişdir. N.Tusi İbn Sinanın «İşarələr və şərhlər» kitabına şərh yazmış, özünün məşhur

«Əxlaqi-Nasiri» əsərində Ibn Sina fikirlərinə istinad etmiş və ondan istifadə etmişdir(30). Misir alimi Süleyman Dünya bu əsərləri birlikdə çap etdirmişdir. Türkiyəli alim Dos. Dr. Fahretün Olgüner özünün «Uç türk-islam mütəfəkkiri İbn Sina, Fahrettin Razi, Nasireddin Tusi düşüncəsində varoluş» kitabmda(89) İbn Sina düşüncələri ilə Tusi düşüncələrinin üst-üstə düşməsi, İbn Sinarunın ən sadiq davamçısı Tusi olduğunu göstərmiş və demişdir: «Tusi bir çox məsələləri ustadı İbn Sinaya uyğun olaraq düşünməkdədir»(89, 75).

İbn Sinaya görə başlıca fəzilət və əxlaq əsasları bunlardır: İffət, şücaət, hikmət, ədalət, comərdlik, qənaət, səbr, kərəm, yumşaq təbiətlilik, sədaqət, vəfa, utanma, sirr saxlama, sözündə durma, təvazökarlıq, sadəlik. Böyük mütəfəkkir, pedaqoq, alim M.N. Tusinin də fəzüətlər və rəzaləüər haqqmda söylədikləri pedaqoji fikirlər sələfi İbn Sina ilə üst-üstə düşür(30).

Tusi İbn Sinanm fikirlərini yüksək qiymətləndirir, hətta bir məsələdə-«nəfsin fəzilətləri haqqmda» hər iki alimin fikirləri eyni ilə üst-üstə düşdüyündən Tusi yazır»: Filosof Aristotel «Nəfsin fəzilətləri haqqmda» hissədə bir fəsli bu məsələyə həsr etmiş, Əbu Osman Dəməşqi onu yunan dilindən ərəb dilinə çevirmiş, ustad Əbu Əli ilə o fəsli eynən «Ət-Təharə» kitabmda nağıl etmişdir.

Tusinin Əbu Əli Ibn Sina ilə eyni fikrə gəlməsi insanlarm arzu və istəklərində Farabidə olduğu kimi ifrata varmayıb orta həddi tutmasıdır. Nəfs tərbiyəsində İbn Sina ilə Tusinin fikirləri üst-üstə düşür. İbn Sina göstərir ki, nəfsin tərifi və nəfsin güclərinin təsnifi nəzəri və əməli fəzilətlərin, əxlaqi keyfiyyətlərin əsasmı təşkil edir. Sina Tusidə olduğu kimi nəfsi üç qrupa- nəbati nəfs, heyvani nəfs, insani nəfslərə bölür. Nəbati nəfsə- qidalanma, böyümə, artma, fiziki inkişaf güclərini daxil edir. Heyvani nəfsə- hərəkət etmə, hiss və duyğularla hərəkət etmə, şəhvət güclərini daxil edir. Insani nəfsə -bilik qazanma, idraki fəaliyyət gücləri daxil edilmişdir.Ibn Sina göstərir ki, fəzilət səadətinə sahib olmuş adamlarm ağlı məğlub edilməz olar, həmişə xoşagələn faydalı işlər görərlər. Alim bununla bərabər, təəssüflə qeyd etmişdir ki, insanlar fəzilətə bir o qədər dəyər vermirlər, qaranlıqlar içində yuvarlanıb gedirlər. «Zavallı insanlar bəlkə də zənginlik və şöhrətə də qovuşmuşlar... Fəqət əxlaq və fəzilətə dayanmayan biliyin və həyaün nə qiyməti vardır.. .»(89,89).

Ibn Sina daim ağıla üstünlük verən bir fəlsəfəyə sahib olmuşdur. Onun bu sahədəki görüşlərinə əqli təsəvvüf də demək olar. Təsəvvüfdə isə mühüm olan eşqdir. Bilik də ağılda olan eşqin sayəsində əldə edilə bilər. Biliyin əsas qaynağı fəhmdir (intiusiya). Bilik əldə etmənin də əsas məqsədi insanın özünü və Allahını tammasıdır. O şəxsiyyəün əxlaqi davranışlara və fəzilətlərə yeüşməsi üçün aşağıdakı qaydalara əməl etməsini məsləhət görmüşdür:

- *Nəfsin istəklərinə qətiyyən uymamaq;*
- *Qəzəb, şəhvət, tamah, hirs, qorxu kimi hərəkətləri əngəlləmək;*
- *Yalandan və iftiradan uzaq olmaq;*
- *İnsanlara yaxşılıq etmək, yaxşıları sevmək, pisləri pisliklərdən uzaqlaşdırmaq;*

Əbu Əli İbn Sina düşünülmüş ailə qurmağın və ailənin düzgün idarə edilməsinin uşaqların düzgün tərbiyəsi üçün mühüm şərt saymış və onu sənətkarlıq hesab etmişdir. Tusi İbn Sinanın ailə qurmaq, ailə dolandırmaq haqqında fikirlərinə çox böyük üstünlük vermişdir.

Ibn Sina bir pedaqoq kimi ailənin idarə edilməsində ailə başçısma böyük önəm verir və başçının ailə üzvlərinin hər bir üzvünün xasiyyətinə, təbiətinə, qabiliyyətinə, fəaliyyətinə dərindən bələd olmağı məsləhət görür. Əslində sadə görünən bu fikirdə böyük pedaqoji məna gizlənmişdir. Adətən müasir ailələrimizdə ailə başçısının ailə üzvlərinə pedaqoji təsiri, uşaqlarm təlim-tərbiyəsinə diqqət və qayğısı eyni olur. Ailədə uşaqlar arasmda fərqliliklər nəzərə almmadıqda tərbiyəvi təsir eyni olsa da, onlarm tərbiyəlilik səviyyəsi eyni olmur. Bu baxımdan onlarm tərbiyəsinə müxtəlif yöndən yanaşılması məsləhət görülür. Ibn Sina demək istəmişdir ki, nə qədər uşaq var, bir o qədər tərbiyə var. Müasir pedaqoqlarımızm demək istədiyi fikri Ibn Sina 1000 il bundan əvvəl deyə bilmişdir.

İbn Sina bədən tərbiyəsinə, şəxsiyyətin fiziki inkişafına böyük önəm vermişdir. O Hifz-Səhhət məsələlərini geniş tədqiq etmiş və bu nəticəyə gəlmişdir ki, hər günki həyatda edilən hərəkət əgər planlı və ardıcıl edilərsə xeyiri çox olur və o zaman bədən tərbiyəsi, fiziki sağlamlıq həyata keçmiş olur. O həmçinin hərəkətə daha böyük qiymət verərək göstərir ki, hərəkət insan beyninin bilik alma qabiliyyətini, təfəkkürünü inkişaf etdirir. Bu fikirlərə bənzər yüz illər sonra görkəmli fizioloq

Pavlov deyirdi ki, bədənin (əzələlərin) hərəkəti, beynin inkişafma müsbət təsir göstərir.

İbn Sina uşağa qayğı və qulluq, onırn təlim və tərbiyəsi ilə bağlı bu günkü pedaqoqlarımız üçün dəyərli fikirlər irəli sürmüşdür. O yeni doğulmuş uşağa qulluq, onun xoşbəxtliyi, müalicəsi və tərbiyəsi haqqxnda fikirlərini anladır. O bu barədə deyir ki, uşağı hər gün, amma üşütmədən yuyundurmaq lazımdır. Uşağı mümkün qədər anası əmizdirməli, gündə iki-üç dəfə əmizdirmək yetərlidir. Anası əmizdirməsə, o zaman əxlaqlı, mənəviyyatlı süd anası tapılmalıdır. Ibn Sina bunu da göstərir ki, ana südü uşağın fiziki inkişafina qüwətli təsir etdiyi kimi, ağlmın və təfəkkürün də inkişafma müsbət təsir göstərir.

İbn Sina göstərir ki, uşağa atası yaxşı bir ad seçib qoymalı və süddən kəsildikdən sonra onun təlimi və təhsili ilə məşğul olmaq lazımdır.

Uşağın mənəvi tərbiyəsi xüsusi diqqət mərkəzində olmalı, onu pis və zərərli alışqanlıqlardan hər zaman uzaqlaşdırmalı, yaxşı vərdişlərə yönəltmək lazımdır. Dayə çox tərifləməli, rəğbətiəndirməli, nöqsanlarım uyğım biçimdə düzəltməli, lazım olarsa, danlamalı və yalnız son çarədə yüngül kötək mümkündür.

Uşaq 6 yaşma gəldikdə o məktəbə göndərilməli, 14 yaşma qədər oxumalıdır. Müəllim dindar, dürüst, bilikli, insaflı, təmiz və kübar olmalı, uşaqlara öyrətməyi bilməli, onlarm qabiliyyət və bacarığmı tammalı, onlarla məşğul olmalı, onları tək buraxmamalıdır. Müəllim uşaqlara nə çox sərt davranmalıdır ki, uşaqlar sual verməkdən qorxsunlar, nə də çox yumşaq davranmalıdır ki, uşaqlar ərköyün olsunlar. Bu dövrdə onları yaxşı uşaqlarla tanışdırmalı ki, onlardan yaxşı keyfiyyətləri əxz etsinlər. Bundan başqa aralarmda rəqabət olarsa, bu səbəbdən də daha yaxşı və bilikli olmağa səy göstərərlər.

Məhz buna görə də İbn Sina zəngin və yüksək təbəqənin uşaqlarırun fərdi şəkildə oxudulmasına qarşı çıxaraq bunu uğursuz hesab edirdi. Çünki uşaq tək başına müəllimlə baş-başa qalmaqdan sıxılacaq, cəmiyyətə alışmayacaqdır. Uşaqlar bir yerdə olunca bir-biri ilə ünsiyyət və münasibətlərdən çox şey öyrənir, cəmiyyətdə davranış normalarma yiyələnirlər. Buradan göründüyü kimi Ibn Sina bir qədər əwəl şəxsiyyətin inkişafi və tərbiyəsində irsə, kökə, ana südünə böyük qiymət vermişsə, indi mühitə və tərbiyəyə böyük qiymət verərək «yaxşı insanın yaxşılar arasında meydana gədiyi» tezisini söyləyir.

İbn Sina bu dəyərli fikirləri ilə pedaqoji elmin uzun illər boyu tədqiqat obyekü kimi öyrəndiyi irsiyyət, mühit, tərbiyə problemlərini hələ on birinci əsrdə həll edə bilmişdir. İbn Sinanm təklif etdiyi məktəbin proqramı şəxsiyyətin hərtərəfli inkişafına xidmət etməyi nəzərdə tutur. O göstərir ki, məktəbin proqramı belə olmalıdır: Quran, şəriət, dil, əxlaqi hekayə və şeirlər, bədən tərbiyəsi, sənət və məslək təlimi. Ibn Sina məsləhət görür ki, şəriət dərslərində İslamm təməl qaydaları, biliyin həyatda əhəmiyyəti və üstünlüyü göstərilməli, cahilliyin, nadanlığın isə pisliyi nümunələrlə uşaqlara başa sahnmalıdır. Dil dərsləri həm də ədəbiyyat anlammdadır. Ədəbiyyaün mühüm tərbiyə vasitəsi olduğunu İbn Sina göstərərək, bundan geniş istifadə olunmasım məsləhət görürdü.

Bədən tərbiyəsi dərslərində isə uşaqlara etdiriləcək hərəkətlər əsasən bunlar olmalıdır: qaçış, yeriş, hündürlüyə tullanma, top oynama, ip oynama, güləş, at çapma, qılmc oynatma. İbn Sinamn təklif etdiyi bədən tərbiyə dərsləri bu günkü bədən tərbiyə dərslərinə ən yaxşı örnək ola bilər. İbn Sina göstərir ki, müəllim uşağın maraq və qabiliyyətini, bacarıq və zövqünü də öyrənib buna müvafiq ona bir sənət də öyrətməlidir. Gənc öyrəndiyi peşədən həyatını qazanmca atası onu yaxşı əsilli bir qızla evləndirib, evindən ayırmalıdır. İbn Sina təlim və tərbityənin 6 növündən bəhs edərək aşağıdakıları söyləyir:

Zehni təlim - bu şagirdin əqli təhsilini, ağlını, təfəkkürünü, düşüncəsini inkişaf etdirməyə yönəlmişdir. Ibn Sina göstərir ki, müəllim mövzunu fakt və nümunələrlə, bugünkü pedaqoji dillə desək əyani vasitələrlə şagirdlərə çatdırmalıdır. Məsələn, müəllim nümunə göstərərək deyir: «Qışda su donub genişləndiyi üçün qabrnı partladır». Əyaniliyi çex pedaqoqu Y.A.Komenskinin adlandırığı «Qızıl qayda»m İbn Sina XI əsrdə zehni təlimin əsas prinsipi kimi göstərmişdir.

Təcrübi təlim - bu, şagirdlərin praktiki olaraq əmək işlərinə cəlb olunması, onlarm faydalı bacarıq və vərdişlərə yiyələnməsi dərsidir. Yəni şagirdlərin burğudan, beldən, rəndədən, əmək alətlərindən istifadə etmək bacanğım inkişaf etdirməkdir.Vaxtilə görkəmli Fransız pedaqoqu J.J.Russo və İsveçrə pedaqoqu Pestalossi uşaq və yeniyet-mələrin əmək əsasında tərbiyə olunmasırun qızğm tərəfdarları olmuşlar. Əməyi hər bir insarun labüd ictimai vəzifəsi hesab edən Russo deyirdi ki, uşaq əməkdə iştirak etməklə nəirıki faydalı əmək

vərdişləri qazanır, həm də onda əmək adamlarına hörmət hissi aşılanır, o müstəqil yaşamağa alışır, əxlaqa pozucu təsir göstərən tənbəllikdən azad olur.

Təlqini təlim - bu müəllimin şagirdlərə bəzi təlqin vasitəsi ilə, təkrar vasitəsi ilə əzbərlətməsidir. Deyə bilərik ki, əzbər bir çoxlarımn fikirləşdiyindən fərqli olaraq təfəkkür və hafizənin inkişafı üçün çox faydalı hesab olunur. Biz doğru, həqiqi, məfhumları əzbərləyərək fəaliyyət göstəririk.

Tədib-təlimi - bu ədəb öyrətmə təlimidir. («Tədib» ( s-y^ ) ərəbcə ədəb, əxlaq, tərbiyə mənalarını verir). Müəllim öz yetişdirmələrinə öyüd və nəsihətlər, müsbət örnəklər vasitəsi ilə ədəb öyrədir, gözəl əxlaq və davramşları aşılayır, o uşaqları sözlə, işlə, oyunla, nümunə ilə tərbiyələndirərək onları yaxşıya, gözələ, doğruya, təkmilə, istiqamətləndirir.

Təqlidi təlim - bu müəllimin öz yetişdirmələrinə hər cəhətdən nümunə olmasıdır. Müəllim öz nümunəsi ilə şagirdlərin həm tərbiyəsini, həm də təlimini təşkil edir. Şagirdlərin, xüsusi ilə kiçik yaşlı məktəblilərin müəllimi təqlid etməsi artıq çoxdan pedaqoji bir həqiqətdir. Bu baxımdan İbn Sina göstərir ki, müəllim mənəvi, əxlaqi cəhətdən etibarli olmalıdır. Nümunənin isə şagird şəxsiyyətinə qüvvətli təsirini görkəmli pedaqoqlar dəfələrlə göstərmişlər.

Tənbeh təlimi - tənbeh ərəbcə «intibah» ( ^liijl ) sözündən əmələ gəlib, əsasən «oyatmaq», «öyrətmək» mənalarmı verir. Vaxti ilə hətta mədrəsələrdə tədris olunan «Tənbehi-qafilin» (IhM^LI^ ) («Qəflət- dən oyanma») adlı dərs kitabı da olmuşdur.

İbn Sinanm «Tənbehi-təlim»-i müəllimin şagirdlərinə ətrafda qarşılaşdığı hadisələri, bunların səbəblərini və təsirini öyrətməsidir. Məsələn, yerin cazibə qüvvəsi sayəsində cismin yerə düşməsi, yağışm yağması, ulduzım axması və s. bu kimi məsələləri müəllim öyrədir, uşaqları maarifləndirir və oyadır.

Ibn Sina uşaqlara din dərslərinin öyrədilməsirıi vacib bilir və tədris proqramlarmda Quramn öyrədilməsini məsləhət bilirdi. Ibn Sinanm təlim və tərbiyəyə dair fikirlərini ümumiləşdirsək və onu bugünkü pedaqoji fikirlərlə müqayisə etsək görərik ki, onlar arasmda çox yaxmlıq və bənzərlik vardır. Belə ki:

1) İbn Sina hansı sinif və ya zümrə olursa olsun hər uşağm təlim görməsini istəyirdi ki, bu onun demokratik və humanist görüşlərindən irəli gəlirdi. Bu gün hər kəsin azad təhsil almaq hüququ bizim Əsas Qanunumuzda təsbit olunmuşdur.

2) Ibn Sina uşağın öz həmyaşıdları ilə müntəzəm ünsiyyət və münasibətdə olmasmı, həmişə insanlar arasmda olmasmı onlarm tərbiyə və təhsilinə qüwətli təsirini göstərməklə yoldaşlıq və dostluq tərbiyəsinin, kollektivçilik tərbiyəsinin öncüllərindən sayıla bilər. Görkəmli pedaqoq A.S. Makarenko kollektivçiliyi («kollektivdə, kollektiv vasitəsilə və kollektiv üçün») tərbiyənin mühüm və başlıca prinsipi hesab etmişdir.

3) Ibn Sina uşağm həmyaşıdlannı təbii tərbiyə mühiti hesab etmişdir ki, bunun şəxsiyyətin inkişafmda mühüm rol oynadığını göstərmişdir. Ibn Sinan bu tezisi 20-ci əsr pedaqoqlarmdan 900 il əvvəl irəli sürmüşdür.

4) İbn Sina müəllimin şagirdini yaxşı tanımasını, onun fərdi qabiliyyətlərini öyrənməsini vacib hesab etməsi XVIII əsr fransız pedaqoqu J.J.Russodan əsrlər öncə çox mühüm pedaqoji prinsip kimi ortaya qoymuşdur. İbn Sina uşaqlar arasmda fərdi fərqlilikləri görmüş və bunların təlim-tərbiyə işində əsas tutulmasım istəmişdir. Bu gün müasir pedaqogikamızda «uşaqlarm fərdi xüsusiyyətlərinin nəzərə almması» tərbiyənin mühüm prinsipi kimi qəbul edilmişdir.

5) İbn Sina uşağın zövqünü, marağını, əmək təlimi və peşə yönümü işində nəzərə almmasmı irəli sürməsi alimin humanist və demokratik fikirlərindən irəli gəlir ki, bu da bu gün təhsilin humanistləşdirilməsi və demokratikləşdirilməsi ideyaları ilə bağlıdır.

6) İbn Sina uşaq oyununa təsirli bir forma, vasitə kimi və ya qüvvətli bir tərbiyəvi üsul kimi baxmışdır. O, göstərmişdir ki, uşaq məhz oyunda normal bir şəxsiyyət kimi formalaşa bilər(117). İbn Sinanın fikirləri müasir pedaqoji fikrin ideyaları ilə səsləşir. Oyun haqqmda İbn Sina ilə bağlı belə bir hadisə də vardır: İbn Sina uşaq ikən oynamağı çox sevərmiş. Bir gün bir ixüyar onun üstün qabiliyyət- lərini sezərək Ibn Sinaya demişdir: «Sən çox ağıüı və zəkalı bir uşaqsan irəlidə böyük bir alim ola bilərsən. Sənə oyım yaraşmaz, get dərslərinlə çalış». Kiçik İbn Sina cavabında demiş: «Hər yaşın bir halı vardır. Uşaqlıq yaşma da oyun düşür». XX əsrin böyük pedaqoqu A.S.Maka-

renko da oyuna böyük qiymət verərək demişdir ki, uşaq oyunda necədirsə, həyatda da elədir. Digər böyük pedaqoqlar da oyuna qüwətii tərbiyəvi bir vasitə kimi baxaraq oyunu «səkkizinci möcüzə» adlandır- mışlar.

7) İbn Sina deyirdi: «Ağıl, təcrübə və müşahidə bir bütündür. Büik bunlarm sayəsində inkişaf edir. Bu dəyərÜ fikirlər öyrənmənin təməl ünsürü hesab edilmişdir. Bu fikir sonralar Avropa və rus pedaqoqlan tərəfindən yenidən kəşf edüərək bir pedaqoji ideya kimi meydana qoyulmuşdur.

8) İbn Sina uşağa edilən hər cür təzyiqlərin xoşagəlməz nəücəyə səbəb olduğunu müşahidə etmiş və bu sahədə dəyərH fikülər irəli sürmüşdür. Bu gün təhsil Qanunumuzda uşağa göstərilən hər cür psixi və fiziki zorakılığın pedaqojidən uzaq olduğu qeyd edilmişdü.

9) Ibn Sina ilk dəfə olaraq təlimdə texniki vasitələrdən, əyani vasitələrdən isüfadə olumasmı üəH sürmüşdür ki, bununla da Ibn Sinam təlim texnologiyasımn qurucusu hesab etmək olar. Avropada yalnız yüz ülər sonra buna bənzər görüşlər irəli sürülmüşdür. İbn Sina özünün bədii yaradıalığında da, elmi yazılarmda da bu günkü pedaqoji elmimizlə səsləşən fikirlər irəli sürmüşdür.

İbn Sina ərəb, fars, yıman, latrn dillərini mükəmməl bilmişdir. O, bu dillərin təmizliyi və sərf-nəhvi haqqında qiymətli elmi əsərlər yazmışdır. Bunların içərisində «Lisanül-ərəb» əsərində ərəb dilinin lüğət tərkibi və qrammatik xüsusiyyətləri şərh olunmuşdur.Alimin «Danişnameyi-əlayi» əsərində isə fars dilinin sadəliyi və təmizliyi məsələsindən bəhs edilir.

Beləliklə deyə bilərik ki, İbn Sina kimi böyük mütəfəkkirin fikirləri ümumtürk pedaqoji fikrinin mühüm qaynaqlarından olub, müasir pedaqoji fikrimizin də inkişafında müəyyən rol oynamışdır.İbn Sinanın didaktik fikirləri bu gün pedaqoji nəzəriyyəmizin zəngin- ləşməsində, təkmilləşməsində və inkişafmda dəyərli mənbədir.

## 4. Mahmud Kaşqarlınm «Divanü Luğat-it Türk» əsərində pedaqoji fikirlər.

Mahmud Kaşqarlının «Divanü Luğat-it-Türk» əsəri XI əsrin ən möhtəşəm abidəsidir. Divanm müəllifi Türk-Islam dünyasmm ən böyük alimlərindən biri Mahmud Kaşqarlı öz dövründə mükəmməl təhsil almış, Şərq ədəbiyyatı və tarixini, fəlsəfəni, ilahiyyatı, etnoqrafiyanı, pedaqoji, psixoloji bilikləri, hərb sənətini, siyasəti öyrənmiş, daha müxtəlif elm sahələrinə dərindən yiyələnmiş və türk dünyasmm ilk mükəmməl ensiklopedik lüğətini, hikmətli sözlüyünü, dəyərli bilik mənbəyini yaratmışdır. 1074-cü ildə tamamlamış bu qiymətli əsər lüğət olmaq etibarilə ərəblərə türkcəni öyrətmək məqsədi daşımış və metodiki, öyrədici, maarifləndirici, tərbiyəedici, insanın dünyagörüşünü inkişafetdirici baxımmdan pedaqoji fikir tariximizdə görkəmli yer tutmaqdadır.

M. Kaşqarlmm həyaü və fəaliyyəti haqqında əldə geniş məlumat olmasa da, omm məşhur «Divanü Luğat-it Türk» əsərindən(44) müəyyən məlumatlar almaq olur. Bu əsər Bağdadda Abbasi xəlifəsi Əbülqasım Abdullaha təqdim edilmişdir. Bu dəyərli əsərdə M. Kaşqarlı özü haqqında məlumat verərək atasmın adının Hüseyn, babasının isə Məhəmməd olduğunu söyləyir. Atası Türküstanm Balasaqun şəhərində doğulsa da Mahmud özü Kaşqar şəhərində doğulmuş bir bəy nəslindəndir. Kaşqar Orta Asiyanın və ümumən Asiyanın ən iri mədəniyyət mərkəzlərindən biri olmuşdur. Burada çoxlu məktəbvə mədrəsələrin mövcud olduğu haqda bilgilər vardır. «Kaşqardakı təhsil müəssisələri arasmda Yusif Qadir xanın (1024-32) inşa etdirdiyi «Mədrəseyi-Saciyə» xüsusilə məşhur olmuşdur. O dövrün universiteti sayıla biləcək bu elm -təhsil ocağında çoxlu tələbənin təhsil aldığı, həmin çağın bütün elmlərinin tədris edildiyi, bu mədrəsənin «Nizamiyyə»dən qədim olduğu bilinir»(44,20).

Kaşqarlırun Divanmdan anlamaq olur ki, o, türk xalqlarmm dilini, adət və ənənələrini, inanc və etiqadlarını, tarixini, təfəkkür və psixologiyasını, mənəviyyatını yaxşı bilmişdir. Aydın görünür ki, Kaşqarlı türk ellərini qarış-qarış gəzib dolaşmış, zəngin sözlük heybəsini maraqlı, ibrətamiz, nəsihətli kəlamlarla, zərbül məsəllərlə, şeirlərlə, müdrik fikirlərlə doldurmuşdur.

«Divanü Luğat-it Türk» əsəri elm, ədəbiyyat, tarix, fəlsəfə, dil və pedaqoji fikir tariximizdə ən önəmli yer tutmaqla onu bir tərbiyəedici, təhsilləndirici məktəb hesab etmək olar. Bu məktəbdən nəsillər faydalanmış və gələcək nəsillər də faydalanacaqlar.«Divan» Mahmud Kaşqarlının ikinci əsəridir.Özünün verdiyi məlumata görə «Kitabü cəvahir in-nəhvi fi luğat-it türki» («Türk dillərinin nəhvinə aid gövhərlər») adlı əsəri də olmuşdur ki, həmin kitab əlimizə gəlib çıxmamışdxr.

Ərəbcənin üstünlüyünə inanxldxğx bir dövrdə, onun bir elm dili kimi geniş işləndiyi bir zamanda dilimizin-türkcənin daha zəngin bir dil olduğunu və ərəblərin bu dili öyrənmələrinin vacibliyini irəli sürən Kaşqarlx Divanxnxn nə qədər əhəmiyyətli olmasından xəbər verir. Bu kitab təkcə zəngin bir sözlük deyildir. Burada 10 minə yaxm türkcə kəlmənin ərəbcə qarşılxğx verilmişdir. Bu həm də zəngin mənəviyyat xəzinəsidir. Burada türk xalqlarmm atalar sözləri və zərbül-məsəlləri, yer adlarx, tarixi hadisələr, öyüd və nəsihətlər, türk inanclarx yer almaqla, türklərin ilk dünya xəritəsi də bu kitabdadır.Bu xəritədə Azərbaycan «*Ərzi-Azərabadqan*» adı ilə öz əksini tapmışdır(44,l).

Bu dəyərli əsərdən türkcəni öyrənməklə yanaşı, türk adət və ənənələrinin, mədəni varlığmın inkişafmı, mənəviyyatını, əxlaqını, tarixini, ədəbiyyaünı, düşüncə tərzini ətraflı öyrənmək mümkündür. Belə ki, 1000 il bundan öncə türklərin ipək dəsmal gəzdirdiklərini, paltarlarının qırışlarını yatışdırmaq üçürı ütüdən istifadə etdiklərini görmək olur. Divandan habelə türklərin qadınlara, uşaqlara, yaşlılara, zəiflərə, kasıblara böyük hörmət və ehtiramla yanaşdıqlarmı görmək olur. Divan bir nüsxə yazılmış və Bağdadda xəlifəyə təqdim olunmuşdur. Divanm ilkin nüsxəsi 319 səhifə olub, Şərq ölkələrində hazırlanmış yaxşı qalın kağızda yazılmışdır. Kitabm bəzi yerləri islanmış, qaralmış, bəzi kəlmələr oxunmasa da kitab yaxşı qorunmuşdur. Bu gün həmin kitabm əlyazması Istanbul Milli Kitabxanasmda saxlanmaqdadır.

Kaşqarlının dövründə İrak İslam dünyasımn özəyi olmuşdur. O zaman bilik almaq istəyənlər bura-Misirə, Bağdada gəlirdilər. Bagdaddan başqa Buxara, Qahirə, Şam kimi yerlər də var idi. Amma Bağdad elm, bilik mərkəzi sayılırdı. «Nizamiyyə» mədrəsəsi də elə burada yerləşirdi. Bu dövrdə türk dili İslam dünyasında Şərq aləmində

ən hörmətli yerlərdən birini tutmuşdu. Bağdad o dövrdə bir türk şəhəri halına gəlmişdi. Bağdaddakı ərəb məqamları, xəlifə sarayı türklərin əlində idi. Vilayətlərə valilər türklər göndərilirdi. Türklərlə yaxşı ünsiyyət və təmasda olmaq üçün türk dilini öyrənməyə ehtiyac var idi.M. Kaşqarlmm «Divanü Luğat-it Türk» əsəri məhz belə bir ehtiyacdan irəli gəlmiş və müəllif bu əsərində türk qövmlərinin ictimai-siyasi, iqtisadi, tarixi, coğrafi mövqeyini, maarif və mədəniyyətini, dilini, adət və ənənəsini dünyaya tanıtdırmaq istəmişdir. Bu baxımdan əsər hər zaman üçün bütün elm sahəsində çalışan mütəxəssislər üçün dəyərli bir bir mənbə, bir müəllim və bir məktəb olmuşdur.Kaşqarlı bu əsəri ilə göstərmək istəmişdir ki, türk dili gözəl və zəngindir, ərəb dilindən heç də geri qalmır. Bu dildə elmin bütün sahələrində araşdırmalar aparmaq olar. Dünyada şöhrət tapan bu divan ümumtürk xalqlarının dili, mədəniyyəti, mənəviyyatı, ədəbiyyatı, incəsənəti, tarixi kökləri, adət və ənənələri geniş şəkildə öz əksini tapmışdır.

Kaşqarlı gənc nəslin mənəvi zənginliyi üçün ilk növbədə onlarm bilik qazanmasını məsləhət görürdü. Divanda verilən nəsihətamiz sözlərlə, müdrik kəlamlarla, atalar sözləri ilə bilik, öyrənmənin həyati *əhəmiyyəti anladılır: «Fəzilət istə öyrənərkən qürurlanma, biliksiz kimsə öyünsə imtahan zamanı çaşar». «Bilgi və hikmət üçün çalış, öyrənməkdən çəkinmə, lovğalanma». «Millət arasınäa böyük bilgin ol və biliyi yay»(91,251, 252).*

Divanda biliyin insan həyatında əhəmiyyəti, əxlaqi dəyəri, öyrənmənin faydası nəsihətamiz sözlərlə, qiymtəli kəlamlarla, atalar sözləri ilə müdrikcəsinə şərh edilir. Divanda verilmiş «Bilgə» sözünün izahı «Bilik», «Hikmət» kimi izah edilir və insanlara belə bir öyüd verilir:«Bilikli kişini yaxşı tut, onun kəlammı dinlə/ Fəzilətini öyrən və onu yerinə yetir»; «Bilgə adammın kəlamını öyüd olaraq al/ Çünki kəlam hikmət olaraq könlünə kök salar»(91,111,440). Başqa bir yerdə isə belə deyilir: «Fəzilət istə öyrənərkən qürurlanma, biliksiz kimsə öyünsə imtahan zamanı çaşar». «Bilgi və hikmət üçün çalış, öyrənməkdən çəkinmə, lovğalanma». «Millət arasmda böyük bilgin ol və biliyi yay»(91, III, 441). Başqa bir yerdə Kaşqarlı oğluna nəsihətlə deyir:

*«Oğlum, sənə buraxıram Fəzilət və ədəbi miras olaraq Ağıllı bir adamla qarşılaşdığında*
*Onun yanında qal (və onun hikmətindən səbəblən)» (91, III, 441).*

*M.Kaşqarlı öyüdü, nəsihəti bilgin adamın ovu hesab edir və çox anlamlı bir müqayisə aparır: «Kərkəs quşu leşi gördüyü zaman enər və yüksək havadan süzər. Bilgin adamın ovu da öyüddür. Bilgin adam öyüdü eşitdiyi zaman əzbərlər və anlar»(91, III, 46). M. Kaşqarlı bilik adamımn mal-mülklə işi olmadığmı, mal-mülkün insana düşmən olduğunu söyləyir və belə yazır: «İnsan oğlunun zənginliyi onun düşmənidir/ Bilikli bir adam niyə düşmənini sevsin ki»(91,111,364).*

M.Kaşqarlı «Belgü» sözünün izahmı «işarət» kimi zah edir və belə bir atalar sözü də söyləyir: «Kutun işarəti hikmətdir». «Kut» və ya «Qut» Divanda güc, iktidar, dövlət, uğur, bəxt, taleh mənaları kimi izah edilir. Necə ki, Divaıun bir yerində belə deyilir:

*«Bəyim düşmən əskərindən səssizcə qaçdı Pusquya yatıb doğru zamanı gözlədi Cənab-i Haqq onu zəfərlə şərəflǝndirdi Onun kutu və sərvəti beləcə yüksəlir» (91,11,134).*

Başqa bir yerdə - «Yaşlılara hörmətlə yanaşmaq insanı kut sahibi edər»- ifadəsi də verilir. Yaşlıya hörmət bir pedaqoji qayda kimi Divanda bir çox yerdə irəli sürülür: *«Yaşlı bir adam səni çağırdığında (çağrtya cavab ver) onun yanına tez get. Quraqlıq ilində xalqın haraya yerləşdiyinə bax və onların yanına yerləş»* (91, II, 122).

M. Kaşqarlı Divanında «Ərdəm» kəlməsi «Tərbiyə»,«Ədəb» mənasında işlədilir və bu sözə belə bir şərh verilir: *«Ədəbin başı sözdür/ Gözəl söz söyləməsini bilən şərəfə çatar»(9\,* II, 243). Hər bir işin öz vaxüna uyğımluğu və yaşa uyğun hərəkət etmək, əlbəttə bir əxlaqi keyfiyyət sayıla bilər. Bu münasibətiə Divanda bir maraqlı atalar sözü verilərkən müəllif öz izahında göstərir ki, bir uşaq özünü yaşlı kimi apararsa onun üçün belə bir ata sözü uyğun ola bilər: *«Şərab olmadan sirkə olma»(91, II, 247).*

Kaşqarlı bir əxlaqi keyfiyyət kimi insanlarm gülərüz, mehriban, xoşxasiyyət olmasmı öyüdləyir və bunları «Kül» sözünün izahında atalar sözü vasitəsilə belə anladır: *«Közə üfləmək, külə üfləməkdən yaxşıdır», «Sənə qarşı gülən bir adamın üzünə isti kül atma; ona üzü gülərək yaxşıltqla*

bax».Kaşqarlı insanların gülərüzlü, xoşxasiyyət olmasını, onların hər zaman, doğru, mənalı danışmasını, dilinə nəzarət etməsini tövsiyə edir: *«LİzünƏ bir adam gülsə, sən də onu dadlı sözlə, gülər üzlə qarşıla, dilini bərk tut, sözdə və mənada anlamlı ol, yaxşı danış».*Mənəvi keyfiyyətlər sırasında insanlara hörmət və qayğı- keşlik göstərmək, qonaqpərvər olmaq, nəvaziş göstərmək, peşə qazanmaq, yaxşılıq etmək kimi məsələlər Divanda özünə möhkəm yer tutmuşdur. Məsələn, orada «Içdirmək» sözünün izahında deyilir: *«Sənə su içdirməyənə, sən süd içdir-Sənə pislik edənə sən yaxşıhq et» (91,*1,108).

Divanda qonşuya hörmət və ehtiram göstərilməsi də nəsihətamiz, hikmətli sözlərlə anladılır ki, bunun da qaynağı Qurani-Kərimdir. *«Qonum-qonşuya və hamtya yaxştltq et, onlart ağtrla, ərməğan altb gözəl, uğurlu mallar haztrla»* . Kaşqarlmm əsərindən qonaqpərvərliyin türk xalqlarında nə qədər qədim bir adət olduğunu görürürk. Qonağı doyurmaq, müsafirpərvərlik xalqımızın ən müqəddəs ən mühüm mənəvi keyfiyyətləri sırasmdadır. Bunu Divanda «Oz» kəlməsinin izahında aydın görmək olur: *«Yaxşt paltarı özün gey, dadlt yeməyi başqasırıa ver. Qonağı ağırla ününü hər yana yaysın-xalq arasında şanın yüksəlsin». «Qonaqlarını bəsləyən/ Düşmənini dəf edəndir».*

*Divaıun başqa bir yerində müəllif yenə də qonaqpərvərliyi təbliğ edir və deyir. «Sənə bir qonaq gəlib bir şey istəsə, azuqə diləsə, ona ver, çünki qonaq çıxarılan yeməyi yaxşı görməzsə, sahibinə lənət edər».*

*Başqa bir yerdə də belə yazır: Paltar gözəldirsə,*
*özünçün götür Aşın ləzzətlisin qonağa ötür*
*Hörmət göstərdiyin hər bir müsafir Sənin*
*şöhrətini yayan səfirdir (91,1, 275).*

Lovğalıq, xudpəsəndlik, özünü öymək, həddini aşmaq şübhəsiz tərbiyədən, mənəviyyatdan uzaq bir keyfiyyətdir. Kaşqarlı bir tərbiyəçi, pedaqoq kimi insanlara pisliklərdən uzaq olmağı tövsiyə edir və «Gəvəzəlik», «Məğrurluq», «Oyünmək» kimi sözləri izah edərkən yazır: *«Ananın, atanın sözünü eşitdiyində rədd etmə. Mal və bəxt tapanda, tapdım dəlisi olma, səni məğrurluq almasın, həddini* fceçmə».Başqa bir izahda isə belə deyilir: *«Ata-ananın sözünü eşidərək öyüdlərini rədd etmə, mala və taleһə çatanda məğrurluq edib qudurma».* Lovğalığın, öyünməyin utandırıcı

bir keyfiyyət olduğunu müəllifin hikmətli sözündə tapırıq: «0 öyündü, öyünməkdə irəli getdi, işi böyütdü; yeri arşınlayaraq gəldi, afiyla hücum etdi, fəqət utanaraq təpəni aşdı və getdi» (91,1, 309).

Azərbaycan atalar sözündə işlənən «Məsləhətli don gen olar» ifadəsi Kaşqarlı Divanında mənaca eyni, lakin, deyim forması bir qədər fərqli olan atalar sözü şərhi və izahı ilə-«Bir işə başlarkən başqaları ilə məsləhətləş» tövsiyəsi verilir: «Bol gələn geyim qırışmaz, nəsihətlə qurulan zəka pisliyə getməz»- deyilir.

Yetişən gənc nəslin əxlaqi keyfiyyətlərini yüksək dəyərləndirən M.Kaşqarlı onlara mərdlik, yoldaşlıq, nəcib insani sifətlər, böyüklərə hörmət, ləyaqətli damşmaq, ədəbli olmaq kimi əxlaqi sifətləri aşdamığı lazım bilir və Divanında belə müdrik kəlamları oxuyuruq: Zülm qapıdan girərsə, mərhəmət bacadan çıxar. Buzdan su damar. Sənə pislik edən adama sən yaxşdıq et, çünki sənin yaxşılığm onu qul edər. Baharın gözəlliyinə inanma. Suda dayanma, şər işlərdən uzaq qaç. Dilindən yaxşı sözlər çıxart. Gizli sevgi aynlıq çağmda bilirıər. Kiçik igid olsa da ağsaqqala gücü çatmaz. Əsilsiz damşarı əsir olar. Yaxşılığı at suyun dibinə, yenə suyun üstündə görünəcək. Yayda insanm aü, çarığı və qüvvəti onun azığıdır.Atəş deməklə ağız yanmaz.Daşı dişləyə bilməyən onu öpməlidir.Quru qaşıq ağıza yaraşmaz, dəyərsiz söz qulağa çatmaz. Göyə doğru tüpürsən, tüpürcək üzünə düşər.Dəyirmanda doğulan siçan göy gurultusundan qorxmaz. Olkə tərk edilə bilər, amma törə tərk edilməz.

*Vətənpərvərlik, yurdsevərlik igidlərin bir-biriləyardtmlaşması, qüvvələrin birləşməsi, düşməndən qorxmamaq, düşməni mühasirəyə salıb məhv etmək və həmişə ona qarşı amansız olmaq Divanda mühüm yer tutur və ibrətamiz misallarla gənc nəsildə qoçaqlıq, igidlik, mərdlik kimi ali keyfiyyətlərin tərbiyə olunması öyüdlənir:*

*«Düşməndən qorxma, onunla üzləş, ətrafını çevir*
*Onun igidlərini dəfet, bir kağız parçası kimi qır onları» (91.1,310).*

Döyüş ustalığı, düşmənə qarşı vuruşlarda türk əskərlərinin müxtəlif fəndləri, döyüş taktikalan dünya döyüş tarixi səhifələrində həmişə yüksək qiymətləndirilmişdir.Türklərin döyüş zamanı özlərini qaçaraq

göstərmələri və sonra düşməni mühasirəyə salıb məhv etmələri bir döyüş taktikası kimi Kaşqarlı Divanında da görmək mümkündür:

*Atların quyruqlarını sıx bağladıq Cənab-i Haqqa çox şükrettik*
*(Kafirlərin səflərinə doğru Allahü Əkbər deyə bağıraraq yürüdük) Atları sürdük və onlara saldırdtq*
*Qaçarmış kimi yaptıq (beləcə arxamızdan gəldilər və biz onların ətrafını çevirib pozğuna uğrattıq) (91.11.301).*

Başqa bir dördlükdə yenə də düşməni mühasirəyə alıb, sonra ona hücum etmək taktikası göstərilir. Bu fənd uzun illər türkün düşmənlərlə savaşında uğurla istifadə olunmuşdur:

*Düşmənin dtrafını çevirək*
*Atlarımızla hücüm edək*
*Aslanlar kimi kükrəyək*
*Bunun təsiriylə gücü zəifləsin (91,11, 302)*

Divanda «Köçdü» sözünün izahında yenə düşməni mühasirəyə almaq - bu dəfə «ovucun içində əzmək» bir qəhrəmanlıq şeiri ilə belə şərh olunur:

*«Gecələyin köçəlim*
*Yamar suyunu (nəhrini)keçəlim*
*Sızan sudan (qaynaqdan) içəlim*
*Bizdən qorxan düşməni avcumuzun içində əzəlim»*
(91,11, 305).

Kaşqarlının gətirdiyi misallar hansısa qədim bir xalq dastanının və ya bir qəhrəmanlıq hekayələrinin parçaları olduğunu hiss edə bilərik. Kaşqarlı iranhların «Əfrasiyab» dedikləri «Alp-ər Tunqa»nm dünya hökmdarı (Ajun bəy) olduğımu bildirir. Alp-ər Tunqa üçün türklərin matəm törənlərinin olduğunu və mərsiyələr söyləndiyini yazır və bununla bağlı olaraq aşağıdakıları deyir:

*«Alp-ər Tunqa öldümü; İssız ajun qaldımı;*
*Özlük öcün aldımı; İmdi ürək yırtılır»*
*(Alp-ər Tunqa öldü;dünya ıssız qaldı;*
*Fələk öcünü aldı; İndi onun dövrü və dövləti düşünülərək*

*ürək yırtılmaqdadır) (91,1,44,164,403).*

Göründüyü kimi Divanda bir qəhrəmanm ölümü kədərlə xatirlanır və onun ölümü ilə dünyanın sonsuza qaldığmı və dövlətinin onun üçün təəssüfləndiyird bildirir.

*Kaşqarlı yardımlaşmanm qüvvə toplanması üçün vacibliyini dilə gətirir və yazır: «İgidlər bir-birini öldürərlər, yardım edərək qüwətlərini birləşdirərlər, yardımlaşaraq bir-birlərini öyürlər, savaşda ölümdən qorxmayaraq ox atırlar»(91,1,238).*

M.Kaşqarlı düşmən barışıq istərsə ona mərhəmət göstərilməsini qeyd etsə də, düşmənin həmişə hiyləgər olduğunu, onu heç vaxt zəif, kiçik hesab etməməyi məsləhət görür: *«Düşmdni kiçik bilib yerməməli, həqir görməməli, sakınmayaraq onu irəli buraxarsa o vilayətini çalar»* (91,11,29). M.Kaşqarlı düşmən barışıq istərsə ona mərhəmət göstərilməsini qeyd etsə də, düşmənin həmişə hiyləgər olduğunu, onu heç vaxt zəif, kiçik hesab etməməyi məsləhət görür:

*«Düşmənini kiçik görüb aşağılamamalısan*
*Onu nəzərə almayıb yalnız buraxarsan, ölkəni səndən çalar»*

(91,11, 29).

*Əməksevərlik tərbiyəsi* M.Kaşqarlınm nəzər diqqətindən yayınmamışdır. İnsanın yüksək mənəvi keyfiyyəti kimi Kaşqarlı özünəməxsus pedaqoji ifadələrlə, anlamlı, ibrətamiz sözlərlə əməyin həyatda nə qədər vacib olduğunu, çalışmaqla hər cür məqsədə nail olmağı öyüdləyir, tənbəlliyin isə geriliyə, danlağa, kötəyə səbəb olduğunu göstərir və deyir*:«Çalışqanın dodağı yağlı, tənbəlin başı qanlı»(91,l.70).* Yaxud da Divanda başqa bir ata sözü də verilir: *«Tənbəl adama bulud da yük* o/ur».Kaşqarlı zəhmət çəkməyən, çalışmayan adamı düşünülməz hesab edir və belə adamın həyatda xeyir görmədən, ömrünün tez keçdiyini, ölümə yaxınlaşdığını bildirir: «İnsanın zəhmətsiz olaraq qalması düşünülməz; o xeyir görmədən ömrü keçər və ölüm gələr» (91,1.420).

M.Kaşqarlı düşüncəsinə görə insanm həmişə bir başqa insana ehtiyacı vardır. Insan məqsədinə hansı yolla çatirsa çatsın- bu uğurlu hesab edilir. Bu mənada Divanda bir dəyərli atalar sözü işlədilir: *«Nə qədər əbləh olsa da bir yoldaş olaraq yaxştdır, nə qədər əyri olsa da bir yol olaraq*

*yaxşıdtr»*(91, II, 201). Şərhdə deyilir ki, yoldaş çaşqm olsa belə çöldə yalnız olmaqdan daha yaxşıdır; yol əyri olsa belə, bir yol ilə getmək çöldə başıboş gəzməkdən daha yaxşıdır, çünki bir yol insanı mütləqbir hədəfə çatdıracaq. M.Kaşqarlı «Oturmaq» sözünün izahım da bir anlamlı atalar sözü ilə izah edir. *«Donu sağlam olan, necə istərsə elə oturur».* Yəni öz namusundan əmin olan kimsə özünə arxaymdır və ona qarşı heç bir şübhəyə ehtiyac olmadığını bildirmək üçün işlədilən bir fikirdir.

Divanda işlənən «Oyüd» sözü ən qədim sözlərimizdən olub bımun da şərhi bir dəyərli nəsihətlə anladılır: *«Ey oğul, məndən öyüd al və ərdəm (fəzilət) dilə/ (Beləcə), xalqın hakimi olarsan və onlara bilik və fəzilət dağıdarsan». Başqa bir yerdə «Qavut» (arpa unundan bişirilən bir bulamac) kəlməsi izah edilərkən yenə oğula belə bir dördlüklə öyüd verilir:*

*Oğlum öyüdümü dinlə*
*(Və) cəhalətdən qurtul*
*(Çünki) qavutu olan kimsə*
*Ona bəkməz qatar (Yəni ağlı olan kimsə, nəsihətə dəyər verər)*

*M. Kaşqarlı öyüdü bilikli adamın ovu hesab edir və bir müqayisə apararaq deyir: «Kərkəs quşu leşi gördüyü zaman enər və yüksək havadan süzər. Bilikli adamın da ovu öyüddür. Bilikli adam öyüdü eşitdiyi zaman əzbərlər və anlar».*

Kaşqarlı öyüd alan kimsənin düşmənə qələbə çalacağma inanır və əsərində müdrikcəsinə belə bir şeir parçası verir:

*Məndən öyüd istədi*
*(Beləcə)ağlı mənimlə bir oldu*
*Mizraq quşanıb düşmənlə savaşdı*
*Düşmənin başlarını (top kimi) yuvarladır» (91,11,104).*

Kaşqarlı həmçinin insanlara nəzakətli davranmağı, ədəbli rəftarı, sözünə, danışığma diqqət yetirməyi öyüdləyir və belələrinin də məqsədinə tez çatacağını bildirir: *«Nəzakətli danışan (kimsə) qurulu süfrəyə yetişər».Bu* misaldan sonra verilmiş bir ərəb atalar sözü də yuxarıdakı fikirlə həmmənadır: *«Kişi dilinin altında gizlidir» (91,1,134)*

*Sözü bütövlük, əhdə vəfa, harama əl uzatmamaq, yalan söyləməmək* kimi keyfiyyətlər Divanda bir pedaqoq məharəti ilə, pedaqoji ustalıqla, qısa,

yığcam ifadələrlə anladılır. Orada işlədilən həmin müdrik kəlmələrin bir çoxu bu gün xalqımızın dilində işlənməkdədir. Divanda deyilir: «Qazan deyir, dibim qızddır; Çömçə deyir, bəs mən haradaydım» . Bu günə qədər gələn bu ata sözü yalançılığa qarşıdır, insanların doğru, dürüst olmasmı təyin edir, bu fikir habelə özünü dərk edib, tanımayan insanlar üçün də deyilə bilər.

Divan başdan-başa müdriklik xəzinəsidir. Nəsillərimiz bu dəyərli kitabdan əsrlər boyu faydalanmış və güman edirik ki, dünya durduqca da faydalarıacaqlar.Bu bilik və mənəviyyat xəzinəsi əsrlər boyu xalqımızm pedaqoji təfəkkürünün inkişafma təsir göstərmiş, övladlarmm təlim və tərbiyəsində, onlara öyüd və nəsihətlərin verilməsində bu əsərdən bir pedaqoji mənbə kimi, dəyərli, tərbiyəvi məxəz kimi istifadə etmişlər.

## 5. Balasaqunlu Ədib Əhməd Yüknəkinin pedaqoji fikirləri.

Pedaqoji fikir tariximizdə, eləcə də dil və ədəbiyyatımızm inkişafında böyük yeri olan Ədib Əhmədin «Atabət-ül həqayiq» adlı əxlaqi-didaktik əsərinin çox böyük dəyəri və əhəmiyyəti olmuşdur.

Təəssüf ki, bu əsər və omm müəllifi Ədib Əhməd haqqmda kifayət qədər məlumat əldə edilməmişdir. Doğulduğu yer Yüknək şəhəridir ki, bu yer Daşkəndin şərqində Benakənd yaxmlağmdadır. Bəzi məlumatlardan bəlli olmuşdur ki, Ə.Əhməd çox bilikli, ağdlı zəki və dindar bir adam olmuşdur. O ərəb və fars dillərini yaxşı bilmiş, geniş dünyagörüşə və dərin zəkaya malik olmuşdur. Elə buna görə də ona xalq arasında, «Ədiblər Ədibi, faizillər başı» demişlər. Ədib Əhməd Qaraxanlılar dövründə böyüyüb, yetişmiş, ümum türk ədəbiyyatmı, pedaqogikasını öz əsərləri ilə, müdrik kəlamları ilə zənginləşdirmişdir. Onun pedaqoji, əxlaqi fikirlərinin qaynağı İslamdır. O türk milli adət və ənənələrinə, türk milli təfəkkürünə, türk folkloruna söykənərək özünün pedaqoji, əxlaqi-didaktik fikirlərini mənzum şeirlərlə irəli sürmüşdür. Təəssüflə qeyd etməliyik ki, Ədibin yalnız bir əsəri «Atabət-ül həqayiq» bu gün əlimizə gəlib çıxmışdır. Bu əsəri ilk dəfə Nəcib Asim Ayasofiya kitabxanasında tapmış (1906) və elə özü də elm aləminə tamtmışdır. Ərəb hərfləri ilə köçürülmüş bu əsər geniş şəkildə 1918-ci ildə «Hitabə-tül-Həqayiq» (Həqiqətlərin hədiyyəsi) adıyla çap olunaraq yayılmışdır. Əsər uyğur əlifbası ilə Şərqi Türkcə yazılsa da bu gün dilimizdə xeyli işlənən «bilik», «yaxşı», «yaxınlıq», «bahalıq», «pul», «mən», «artıq» və s. kimi Azərbaycan kəlmələri işlədilmişdir. Əsər Məhəmməd Dad İspehsalar adlı bir türk bəyinə hədiyyə verilmişdir. Əsər türkcə yazılmışdır. Əsərin müəllifi Ədib Əhməd anadan kor doğulsa da və mükəmməl mədrəsə təhsili almışdır. Əsərdə bir məchul müəllif Ədib Əhməd haqqmda belə yazmışdır:

*«Ədibin, anadan doğma gözü görməzdi,*
*Sözü bu on dörd bab içində tamamlandı;*
*Üzərində altın yüklü birfil olsa, Bu söz,*
*bənzədilər bil ona» (41, 8).*

Ədib Əhməd haqqında türk dünyasınm böyük şairləri Əlişir Nəvai (1441-1501) və Əbdürrəhman Cami (1414-1492) ətraflı məlumat ver-

mişdir. Ə.Nəvainin Ədib Əhməd haqqmda əfsanələşmiş məlumatma görə-«əslən türk olan Ədib Əhməd anadangəlmə kor imiş. Bağdaddan dörd verst uzaqlıqda olan evindən, hər gün piyada olaraq dərsə gəlir və bir məsələ öyrənərək geri dönərmiş. Bir gün müəllimi Əmami-Əcəm Əbu Hənifədən-«Əmam-i Məhəmməd və Əmami Yusif kimi başlıca tələbələri də daxil olmaqla ən çox kimdən razı qaldığmı» soruşurlar. O cavabmda demişdir: «Hamısı yaxşıdır». Amma uzaqbir yoldan gələn və məclisin arxasmda oturan bir türk, bütün tələbələrə örnəkdir». Ədib Əhmədin əxlaqi didaktik əsəri aşağıdakı başlıqlar altmda verilmişdir: l.Tanrının mədhi haqqmda; 2.Peyğəmbərin mədhi haqqında; 3.Dörd Sahabənin mədhi haqqmda; 5.Kitabm yazılması haqqmda; ö.Bilginin faydası və biliksiziyin zərəri haqqında; 7.Dilin mühafizəsi haqqmda; 8.Dünyanm dönəkliyi haqqmda; 9.Comərdliyin mədhi və xəsisliyin zəmmi haqqında; lO.Təvazökarlıq və lovğalıq haqqında; ll.Hərislik haqqında; 12.Kərəm (böyüklük), həlimlik və digər yaxşılıqlar haqqında; 13.Zəmanənin pozulması haqqmda; 14.Kitab sahibinin üzrü haqqında.

Ədib Əhməd bilik qazanmağa son dərəcə böyük qiymət vermiş, biliyin həyatda mühüm faydasını, insanm mənəvi inkişafında biliyin əhəmiyyətini pedaqoji fikirlərlə ifadə etmişdir. Şairə görə bilikli insan qiymətli gövhərə bənzər. Bilikli ilə biliksiz adam əsla bir-birinə bənzəməz və hər cür tərəqqiyə əngəl olan biliksizliyin ortadan qaldırılması üçün deyildiyi kimi «Elm Çində də olsa, get dalmca öyrən» kəlamı Ə. Əhmədin əsərində öz əksini tapmışdır. O göstərmişdir ki, insan ancaq biliklə səadət yolunu tapar.Ədib Əhməd bir pedaqoq kimi insanlara öyüd və nəsihət verir:

*«Bilgilinin sözü, öyüd, nəsihdt və ədəbdir:*
*Bilgilini əcəm də, ərəb də öydü.*
*Bilgi malı olmayan üçün, tükənməz bir xəzinədir.*
*Bilgi nəsibsiz üçün yenilməz bir nəsibdir»(96, 56).*

Ədib boşboğazlığın ağılsızlıq və bilgisizlik əlaməti olduğunu söyləyir. Dil haqqında Ə. Əhmədin müdrik kəlamlarmda deyilir: « Ədəblərin başı dilini gözləməkdir;

*Dilini mühafizə altında tut, dilin qırılmasın;*
*Əgər dil mühafizə altından çıxarsa, dişini qırar» (96,98).*

Ədib Əhməd «Xəncər yarası sağalar, söz yarası sağalmaz» qədim ata sözündən çıxış edərək deyir: «İnsanı dil ilə hirsləndirmə; bil ki, ox yarası sağalar; Fəqət dilin açdığı yara sağalmaz»(96, 78).

Ədib Əhməd çox danışmağın sonradan peşimanlıq verəcəyini insanlara bildirir, həmişə düşünərək damşmağı məsləhət görür.Necə ki bir ata sözümüzdə deyildiyi kimi «Dilini uzun eləyən, başmı bəlaya salar»:

*«Səfeh adamın dili başına düşməndir;*
*Bir çox adamların qanı dilləri üzündən töküldü.*
*Çox danışanlar arasında peşiman olan çoxdur,*
*Dilini mühafizə altırıda saxlayanlardan peşiman olan kim var?» (96,97).*

Ə.Əhməd yalançılarm əxlaqilikdən uzaq olduğunu, insanlara yalançılardan həmişə uzaq durmağı tövsiyə edir, dilin ziynətinin doğru söz olduğunu bildirir və insanlarda düzlük və doğruçuluq tərbiyəsinə böyük önəm verir:

*«Yalan söyləyən adamdan uzaq dur, qaç: Sən ömrünü doğruluq*
*içində keçir. Ağzın və dilin ziynəti doğru sözdür: Sözü doğru*
*söylə, dilini süslə» (96,59).*

Müəllif qısa damşmağı, dilinə nəzarət etməyi, insanm mənəvi keyfiyyəti sayır. Xalqımızm gözəl bir atalar sözündə də az damşmağm ariflər işi olduğu söyəlnilir:

*«Dilin bəlasıdır uzunçu olmaq, ariflər işidir, çükuta dalmaq».*
*«Dilini sıxı tut, gəl sözünü qısa kəs*
*Dil qorunursa, özün qorunmuş olursan» (96,134).*

Ə.Əhməd yalan və doğru sözü gözəl bədii lövhələrlə, obrazlı şəkildə oxuculara çatdırır. Ədibin pedaqoji ustalığmm mühüm cəhətlərindən biri də elə mənəvi keyfiyyətləri emosional tərzdə, insanın hisslərinə, duyğularına, şüuruna təsir göstərməsidir. Bir əxlaqi

keyfiyyət kimi Quran və hədislərdən qaynaqlanan sirri saxlamaq və sirr verməmək haqqmda Ə.Əhməd geniş yazmışdır:

*«Sirrini yaxşı saxla, kimsə bilməsin, Sözündən özünə peşimanlıq gəlməsin; Bütün gizli işlərin aşkar olub, Görən və duyan sənə gülməsin» (96,134).*

Müəllif sirri dosta da söyləməməyi tövsiyə edir və dolayı yolla başa salır ki, dostunun da dostu vardır, o da söylər dostuna:

*«Ən yaxın və inanılmış dostuna belə, sakın Dostum deyib inanıb, sirrini söyləmə; Sirrini özündə səbr edib saxlamazsansa, Dostun da səbr edərmi? Bunu yaxşı anla» (96,123).*

Ədib insanın dünyaya çox bağlanmamasını, pul, mal, dövlət toplamamağı, dünya varma aldanmamağı, ehtiyaclarmı azla ödəməyi tövsiyə edir və deyir: «Mala bu qədər könül bağlamaq nədən;/Bu mal səhər gələrsə, axşam yenə gedər» . Ədib deyir ki, dünya malına aldanma, o sonunda sənin deyil, başqasmm qismətidir.

*«Dünya malı bu gün var, sabah yoxdur;*
*Mdnim dediyim mal başqalarının qismətidir.*
*Hər dolan azalar, hər tam olan əksilər» (96,148).*

Ə. Əhməd bunu da xatırladır ki, əgər şirin yedinsə, acıya da hazır ol, daha doğrusu «acını unutma» demək istəyir. Rahatlıq üçün zəhmət və əziyyət çəkmək gərəkdir: *«Əgər dadlı daddın isə, acıya hazır ol;/ Ra- hatlıq bir-bir gəlirsə, zəhmət on-on gəlir»(96,134).*

Ə. Əhməd mənəvi keyfiyyətlər kimi əliaçıqlığa, səxavətliliyə yüksək qiymət verir, xəsisliyi pisləyir. O, bu barədə belə yazır:

*«Bütün dillər comərd adamın mədhini söylər;*
*Comərd ol, sənə söz, söyüş gəlməsin;*
*Söyüş gələcək yolu comərdlik bağlar» (96,147).*

Ə.Əhməd əsərinin «Təvazökarlıq və lovğalıq haqqında» bölməsində insanların sadə, təvazökar olmalarmı yüksək əxlaqi keyfyiyyət sayır, onlara mənəmlikdən uzaq olmağı tövsiyə edir:

*«Lovğalıq bütün dillərdə bir xasiyyətdir:*
*Ululuq taslayan və «mənəm» deyən kimsəni*
*Nə Tanrı sevər, nə də qul sevər» (96,143).*

Ə. Əhməd öyüd və tövsiyə edərək təvazökarlığın üstünlüyünü söyləyir:

*«Lovğalıq libasını geydin isə, dərhal çıxar*
*Xalqa qarşı köks qabartdın isə, dilini dərhal düzəlt» (96,123).*

Ədib Əhməd «Hərislik haqqında» danışarkən hərisliyin ən pis xasiyyət olduğunu, onun sonunun peşimanlıq olduğımu bildirir:

*«Hərislik də irısan üçün ən pis xasiyyətdir,*
*Hərisliyin sonu qəm, peşimanlıq və həsrətdir;*
*Zənginlik vəfəqirlik Tanrının qismətidir;*
*Hərislik insan üçün sadəcə boş bir zəhmətdir» (96,167).*

Ədib bir pedaqoq, tərbiyəçi kimi insanlan öncə düşünnməyə, sonra əməyə, praktik iş görməyə çağırır. Insanın tərbiyəliliyinin əsas meyarının da elə iş, əməl olduğunu söyləyir.O bildirir ki, insanm yaxşı yaşaması, geyinməsi üçün ilk növbədə ağıllı baş lazımdır:

*«Demə çox mal, çox yeyəcək və içəcək lazımdır,*
*Çox mal, çox qul və cariyə lazımdır;*
*Əgər ömürlük mal yığdın isə*
*Unutma ki, öncə börkü geyəcək baş lazımdır» (96,189).*

Əsərin ən mühüm bir bölməsi də «Böyüklük, mülayimlik və digər yaxşılıqlar haqqında»dır. Ədib burada yaxşı və ya pis xasiyyəti əsilnəsəblə bağlayır və yazır ki, əsli, kökü gizli olamn xasiyyəti də gizli olar:

*«Əsli gizli olan adamın xasiyyəti gizli olur;*
*Gözəl xasiyyətli adama həmişə könül bağlanır (96,172).*

Ə. Əhməd bu fikri ilə insanların müxtəlif xarakterlərdə olmasım və tərbiyə işində bu müxtəlifliyin nəzərə alınmasım məsləhət görür.

Ədib insanın xeyirxah, böyük kərəm sahibi olmasmı, bağışlayan, mərhəmətli, mülayim olmasmı məsləhət görərək belə yazır:

*«Müsəlmana qarşı şəfqətli və mərhəmətli ol,*
*Özün üçün düşündüklərini müsəlman üçün də düşün:*
*Sənə cəfa edənə, vəfa ilə müqabilə et;*
*Nə qədər yuyulursa yuyulsun; qan, qan ilə yuyulmaz (96,158).*

Ədib «Əvvəl fikirləş sonra danış» ata sözünə uyğun olaraq öz tərbiyəvi kəlamını söyləyir, sonra insanın dost qazanmasına və dostu qorumağı məsləhət görür: «Sözü düşünərək söylə əcələ etmə; Sözünü saxla ki, sonra başını sallamayasan». Necə ki, bir müdrik kəlamda deyilir: «Sözü saxla, zamam gözlə ki, həm olasan, həm dolasan».

Ə.Əhməd zəmanəsindən şikayət edir. Duyulur ki, Ədib özü də zəmanəsində rahat yaşamamışdır. Ədib zəmanənin pozulmasmı insanlarm tərbiyəsində görürdü. Ə.Əhməd insanara müraciətlə deyir ki, sən özün pozulmusan, ona görə də zəmanə pozulmuşdur. O, əsərində «Zəmanənin pozulması haqqında» bölməsində belə deyir:

*«Dünya düşmənlik, cəfa və əziyyətlə doldu;*
*Hansı bir vəfalı; varsa, ara bir baxım.*
*Sən (özün) pozulmusan, onun üçün dünya pozuldu*
*Neyçün bu dunyadan şikayət edirsən».*
*Zəmanəni pisləmə, insanları pislə» (96,169).*

Nəhayət, əsərin son bölümü «Kitab sahibinin üzrü haqqında» dır. Müəllif kitabını tərif edir, onun bir öyüd, nəsihət kitabı olduğunu bildirir:

*«Adım Ədib Əhməd, sözüm ədəb və nəsihətdir;*
*Vücudum gedir, sözüm burada qalar,*
*Bahar keçir, güz gəlir, ömrüm gedir*
*Bu bahar və güz ömrü tükətir» (96,176).*

Ə.Əhməd qeyd edir ki, bu kitabı yazdım ki, «Özüm gedərsəm, sözüm qalsm...». Ə. Əhmədin pedaqoji fikirləri pedaqoji fikir tarixi-mizin inkişafmda heç şübhəsiz böyük rol oynamış və bu gün də onun fikirləri aktual səslənməkdədir.

## SON SÖZ

Ölkəmizdə gedən böyük ictimai-iqtisadi islahatlarm mühüm bir istiqaməti təhsilimizin, pedaqoji fikrimizin milli zəmin üzərində, tarixi köklərimiz əsasında qurulmasıdır. Bu monoqrafiyada əsas etibarilə təhsilimizin, pedaqoji elmimizin milli zəmin, tarixi köklərimiz üzərində qurulması, ədəbi, mədəni, pedaqoji irsimizin daha dərindən öyrənilməsi tələblərindən, xüsusilə ulu öndərimiz Heydər Əliyevin mədəni irsimizin, tariximizin, ədəbiyyatımızın, pedaqoji fikrimizin öyrənilməsində qarşımıza qoyduğu vəzifələrdən irəli gəlmişdir ki, nəticə olaraq aşağıdakıları deyə bilərik:

- Araşdırmalarımızdan, əldə etdiyimiz fakt və materiallardan ay- dm olur ki, erkən orta əsrlərdə Azərbaycan məktəbi, Azərbaycan təh- sili və pedaqoji fikri ümümşərq, ümumislam mədəniyyətinin ədəbi və pedaqoji fikrinin bir tərkib hissəsi olmuş, onlarla bir sırada addım-lamışdır. Dövrün məktəb və pedaqoji fikri islam ideyaları əsasmda inkişaf etmiş, islami hökmlərə əsaslanmışdır. Azərbaycan alimləri, mütəfəkkirləri, müəllim və ziyalıları istər Azərbaycan ərazisində yaşamış olsun, istərsə də başqa müsəlman ölkələrində yaşamış olsun ümummüsəlman mədəniyyətinə, pedaqoji fikrinə öz əsərləri ilə dəyərli töhfələr vermiş, ümumşərq mədəniyyətinini zənginləşdir- mişlər. Bütün bunlar da öz növbəsində dünya elm və mədəniyyətinin inkişafına da öz təsirini göstərmişdir.

- Erkən orta əsrlər dövründə Azərbaycanda tərbiyə və təhsil sistemi, pedaqoji fikir islamiyyətin təsiri alünda inkişaf etsə də milli zəmin və milli təfəkkürdən uzaq düşməmişdir. Milli düşüncə tərzi ədəbi-pedaqoji fikrimizdə hər zaman öz izlərini buraxrruşdır. Azərbaycarun yaradıa insanları, fikir adamları, müəllim və ziyahlan öz soyadlarmm əvvəlinə «Əbu», «İbn», «Ə1» və s. ərəb mənşəli sözcüklər əlavə etsələr də, ərəb və fars dillərində yazıb yaratsalar da milli kökə bağhlıq özünü həmişə göstərmişdir. Hələ VIII əsrdə Musa Şəhavət, İsmayıl İbn Yəsar, Əbül Abbas kimi müəllim, şair və ziyahlarımız ərəb ölkələrində yaşasalar belə əsərlərində öz müh köklərinə sadiq qalmış, başqa təsirlərə düşməmiş və - «Böyütdük qızlan biz elmlə, biliklə/Torpağa gömdüz qızlan siz cəhl üə» - deyərək öz soy kökləri ilə qürur duymuşlar.

- İslamiyyətdən öncə, hələ miladdan da öncə qədim dövrlərdə də Azərbaycanda təhsü, təlim - tərbiyə mədəniyyəti və pedaqoji fikir mövcud olmuşdur. Zəngin şifahi xalq ədəbiyyaümız - Kitabi Dədə Qorqud, Büqamıs, Alp Ər Tunqa, Ərkənəqun və s. dastanlarmız, «Oğuznamə»lər Azərbaycarun qədim tarixindən, onun ictimai mədəni həyaündan, təhsü səviyyəsindən xəbər verir. Qobustan, Gəmiqaya, Orxon kitabələri və bir çox qayaüstü yazılı abidələrimiz xalqımızın yazı yazmaq, oxumaq, hesablamaq, rəsm çəkmək və s. mədəni, təhsü vərdişlərinə sahib olmasını göstərir. Arxeoloji qazmülar zamarn əldə edilmiş maddi, mədəniyyət nümunələri, Naxçıvanda hələ daş dövriində istifadə edüən duz mədəni və buradan tapılmış daş baltalar, duz mədənindəki müalicəxanalar, habelə qədim tarixi abidələrimizin, dağlarumzm, qalalanmızın, qay- alanmızın üzərində həkk olunmuş yazüar, şəkülər, işarələr, piktoqramlar və buradakı müxtəhf ov, sənət, məişət səhnələri, Gəmiqayada son vaxtiar 60-a qədər tapıhruş yazı nümunələri və bunlann ana dilimizə uyğun olması, Gəmiqaya insanlanmn qayalara həkk etdikləri at və üstündə geyimli atıı, iki və dörd təkərli araba rəsmləri xalqnnızm hələ qədim zamanlardan yüksək mədəniyyətə, mənəviyyata, peşələrə sahib olma- smdan, nəqHyyat növü kimi atdan və arabadan istifadə etmələrindən, Şumer mədəniyyəti ilə əlaqələrindən, Gəmiyqaya əlifbasırun mövcudluğımdan, öyrətmə və öyrənmə prosesindən xəbər verir. Qobustan qayaüstü rəsmləri qədim insanlanmızm bədü, estetik zövqündən, həyat tərzindən, məişəündən, peşələrindən xəbər verir.

- VII əsrə qədər Azərbaycan ərazisində müxtəlif dövlətlər olmuş və onların da özlərinə məxsus yazıları, oxuları, maarif və mədəniy- yətləri olmuşdur.VII əsrdə Azərbaycanda müstəqil Alban dövlətinin yaranması məktəb, maaarf və mədəniyyət işlərinin qüvvətlənməsinə səbəb olmuşdur. Bu dövrdə VII əsr Azərbaycan hökmdarı olan Cavanşirin sarayındakı şairlərin şeirlərində elm, maarif və mədəniyyətin tərənnüm edilməsi o zamankı Azərbaycanda elmə, təhsilə böyük diqqət və qayğı göstərilməsi qənaətini yaradır.

- Azərbaycanda məktəb və pedaqoji fikrin inkişafında İslamiyyətdən öncə Azərbaycanda fəaliyyət göstərmiş Zərdüşt məktəblərinin, həmçinin Zərdüştlüyün müqəddəs kitabı «Avesta»da şəxsiyyətin inkişafı və tərbiyəsi ilə bağlı dəyərli pedaqoji fikirlərin böyük rolu

olmuşdur ki, dissertasiyada onlar araşdınlmış, təhlil və tədqiq edilmiş və göstərilmişdir ki, Zərdüşt məktəbləri Azərbaycan məktəb və pedaqoji fikrinin sonrakı inkişafına öz təsirini göstərmişdir.

- İslamiyyətin meydana gəlməsi və Azərbaycanda yayılması yeni ictimai-pedaqoji fikrin, yeni məktəb sisteminin, yeni əxlaqın yaranmasına səbəb olmuşdur. Belə fikirdəyik ki, ən çox oxumağı, öyrənməyi tövsiyə edən islam dini elmin, tərəqqinin inkişafına təkan olmuş, insanların mənəvi, əxlaqi cəhətdən inkişafma kömək etmiş, məktəblərimizin, təlim-tərbiyə sisteminin təkmilləşməsinə qüvvətli təsir göstərmişdir.

- Belə qənaətə gəlinmişdir ki, islamiyyətdə ilk təhsil ocağı elə peyğəmbərimizin adı ilə bağlı olmuşdur. Məhz onım təklifi ilə ilk dəfə olaraq «Dar-əl-Əqrəm» təsis edilmişdir ki, burada yarı açıq, yarı gizli şəkildə müsəlmanlara islamm əsasları öyrədilmişdir. İlk vaxtlar öyrədilən yer bilikli adamların evləri olmuşdur. Daha sonra 622 -ci ildə hicrət zamanı peyğəmbərimizin əmriylə özünün inşa etdirdiyi Məscidi Nəbinin arxasındakı qiblə divarı tərəfdə kölgəlik yaradıl- mışdır ki, bu yerə «Suffə» deyilirdi. Suffə əhli burada yazıb oxumaq öyrənir, islam qayda-qanunlarmı mənimsəyirdilər. Suffəni ilk sistemli, mütəşəkkil təhsil ocağı adlandırmaq olar. Belə qənaətdəyik ki, ilk «kollektiv təhsil»in təməli də elə burada - «Suffə»də qoyulmuşdur.

- İslamiyyətin ilk illərində Azərbaycanda hələ məktəb şəbəkəsi genişlənməmiş, mədərəsələr yaranmamışdan qabaq da insanlarımz təhsil almış, hərtərəfli biliyə, elmə yiyələnmişlər. Onlar böyük alimlərin yammda fərdi təhsil almaq yolu ilə, müstəqil çalışmaq yolu ilə və digər yollarla təhsilin yüksək pillələrinə qabca bilmişlər.

- Erkən orta əsrlərdə - VII-XI əsrlər dövründə Azərbaycanda məktəb təhsili, mədrəsələr haqqında ümumiyyətlə heç bir yazılı sənəd, hər hansı bir arxiv materialı, yaxud da elmi-pedaqoji ədəbiyyaümızda, digər mənbələrdə konkret məlumat demək olar ki, yoxdur. Yalnız bir neçə mənbədə rast gəlmək olur ki, bu dövrdə Azərbaycanda mövcud olan Xanegahlarda, Təkyələrdə, Zaviyələrdə dini mərasim və ibadətlərin yerinə yetirilməsi ilə barabər, həm də burada insanlara yüksək və hərtərəfli təhsil verilmişdir. Bir çox alim və mütəfəkkirlərin yanmda elmə həvəskar insanlarımız hərtərəfli, geniş təhsil almışlar.

- VIII əsrdən etibarən Azərbaycanda islam məktəb təhsili genişlənməyə başlamışdır. O dövrdə oxuyub öyrənmək istəyənlərin sayı getdikcə artırdı. «Məktəb» anlayışından öncə «Kuttab»lar meydana çıxdı. «Kuttab» (LjÜjS) ərəbcə «yazdırmaq», «Yazı öyrətmək» anlamına gələn «Ət-təktib» (ςjjjS0 _ cjl) kökündən törəmişdir ki, bu da «yazı öyrənilən yer» deməkdir. «Məktəb» ( LJSSL^) sözü də bu kökdən əmələ gəlmişdir. Daha sonra bu ad genişləndi «Kuttab» adı təkcə yazı yazdan yer mənasım daşımadı, həmçinin uşaqların təlim, tərbiyə aldığı yerə deyildi. Kuttablar islamiyyətin yayıldığı yerlərdə - o cümlədən Azərbaycanın müxtəlif yerlərində yaranmışdır. Kuttablar sonralar məktəb adı ilə işlənməyə başladı. Məktəblər bu günkü dillə desək ibtidai təhsil verirdi. Oxuma, yazma, hesablama, qiraət, Quran, hədislər, əbcəd, dini - əxlaqi hekayə və rəvayətlər, tarixi məlumatiar məktəb təhsilinin məzmununu təşkil edirdi.

- Azərbaycanda islamiyyət yayıldıqca ibadət yeri olan məscidlər, camelər də artır və tədricən məscid və camelərin təyinatı genişlənirdi. Belə ki, camelərdə insanlar öyrədən bilikli şəxsin ətrafına toplaşardılar ki, bu yerə «Həlqə», tədris üsuluna da «Tədris həlqəsi» deyilirdi. Tədris həlqələri öyrədən şəxsin adı ilə də adlanırdı.

- Məlum olur ki, hələ IX-XI əsrlərdə Farabi, Biruni, Musa əl-Xarəzmi, Ibn Sina, Bəhmənyar, sonralar Nizami, Əcəmi, Tusi kimi soydaşlarımız dünya elm və mədəniyyətinin inkişahna, kamil insan formalaşdırma pedaqoji nəzəriyyəsinə qiymətli töhfələr vermişlər.
Bütün bunları şərtləndirən dövrün təhsil ocaqları, elm mərkəzləri, kitab evləri və kitabxanalar olmuşdur. Belə qənaətə gəlirik ki, yaradıl- mış kitab evləri və kitabxanalar mədrəsələrin yaranmasımn ilkin nü- vəsi olmuşdur. Kitabxanaların bir çoxu hətta bir məktəb, mədrəsə kimi də fəaliyyət göstərmişdir. Hələ IX əsrdə Bağdadda 830-cu ildə «Beyt-ül-Hikmə» beləcə qurulmuşdu ki, («Hikmət xəzinəsi») bu bir kitab evi olsa da «Mədrəsə» təhsilinin əsası burada qoyulmuşdur. Şamaxıda, Bərdədə, Gəncədə, Naxçıvanda, Həmədanda, Ərdəbildə və s. yerlərdə yaradılan kitab evləri və kitabxanalar pedaqoji fikrin formalaşmasında, elmin inkişafı və yayılmasında, insanlann təhsilə cəlb edilməsində, yeni tədris müəssisələrinin açılmasında böyük rol oynamışdır. Tədqiqat nəticəsində məlum olmuşdur ki, hələ IX-X əsrlərdə Bərdə və Gəncə şəhərləri maarif və mədəniyyəti inkişaf etmiş şəhərlərdən olmuşdur.

Bərdədə 100 min cilddən artiq kitabı olan kitabxana olmuşdur. Gəncədə «Dar əl Kütüb» (saray kitabxanası) mənbələrdə göstərildiyi kimi XI-XII əsrlərdə deyil, məhz X əsrdə yaradılmış, bu şəhərin yazıçıları, alimləri, şairləri, xəttatları, mütərcimləri elm və mədəniyyət mərkəzləri olmuş və yalnız belə bir mühit dahi Nizami Gəncəvinin yetişdirmişdir.

- Azərbaycanda ilk mədrəsələr XII əsrlərə təsadüf edir. Bu dövrdə Təbrizdə, Ərdəbildə, Həmədanda, Bərdədə, Gəncədə, Beyləqanda, Naxçıvanda mədrəsələr, kitabxanalar, elm evləri yaranmağa başlamışdır. Hələ XII əsrdə Naxçıvanda iki yüksək təhsil verən, indiki mənada universitet statusuna malik mədrəsə fəaliyyət göstərmişdir.Bu mədrəsədə həm dini elmlər, həm də dünyəvi elmlər tədris edilmişdir. Bu dövrdə böyük memar Əcəmi Əbubəkr oğlu Naxçıvani xüsusi məktəb yaratmışdır ki, burada dünya memarlıq sənətinə böyük töhfələr bəxş edən dahi memarlar yetişib, ərsyə gəlmişdir.

- Şərqdə, o cümlədən Azərbaycanda təhsilin, pedaqoji fikrin inkişafında böyük türk sultanı Alparslanın vəziri Nizam-əl Mülkin yaratdığı «Nizamiyyə» mədrəsəsinin və onun XV əsrə- dək davam edən filiallarımm böyük rolu olmuşdur. Bu mədrəsələrin quruluşu, tədris üsulları, buradakı təhsilin məzmunu Şərqin və Qərbin təhsil sisteminə qüvvətli təsir göstərmişdir. Belə söyləmək olar ki, ilk «Sinif -dərs sistemi» də elə buradanbaşlamış, kolletkiv sinif-dərs sisteminin təməli elə burada qoyulmuş və sonralar bu bir model olaraq Avropada yayılmış və bunun da nəticəsində yalnız XVII əsrdə böyük çex pedaqoqu Y.A.Komenski «Sinif- dərs sistemi»nin nəzəri əsaslarını işləyib hazırlamışdır. «Nizamiyyə» mədrəsəsində böyük Azərbaycan alimi Xətib Təbrizi 40 il ədəbiyyatdan dərs demiş, buranın zəngin kitabxanasının müdiri olmuşdur. Nizamiyyə mədrəsəsində dərs demiş və təhsil almış azərbaycanlı müəllim və tələbələr yüksək mənəvi, əxlaqi keyfiyyətlərə, geniş və hərtərəfli bilik və dünyagörüşə malik olaraq ümumşərq mədəniyyətinin inkişafma xidmət etmişlər.

- Erkən orta əsrlərdə pedaqoji fikrimiz əsas etibarilə bədii söz, şeirlər, öyüd və nəsihətlər, folklor nümunələri-xalq pedaqogikası, müdrik fikirlər, habelə klassik şairlərimizin əsərləri, görkəmli mütəfəkkirlərimizin fikirləri ilə formalaşıb inkişaf etmişdir.Q.Təbrizi, X.Təbrizi, Ə.Bəhmənyar kimi XI əsr Azərbaycan mütəfəkkirlərinin

pedaqoji düşüncələrinin təhlili göstərmişdir ki, həmin fikirlər bu gün də pedaqoji problemlərin həllində böyük aktuallıq kəsb edir. Onlarm pedaqoji ideyaları sonrakı dövr Azərbaycan pedaqoji fikrinin inkişafma, kamil şəxsiyyət formalaşdırdması elmi- pedaqoji nəzəriyyəsinin inkişafına qüwətli təsir göstərmişdir.

- Erkən orta əsrlər dövrü Azərbaycan alimlərinin ədəbi-pedaqoji yaradıcdığı, didaktik fikirləri, xalqımızın müdrik kəlamları, öyüd və nəsihətləri, adət və ənənələri ümumtürk, ümummüsəlman mədəniyyətinin, tərbiyə və təhsilinin zəngirdəşməsinə öz töhfələrini vermişdir. Azərbaycan alimləri heç vaxt milli çərçivədə qapdıb qalmamış, müsəlman-Şərq aləminin mühüm mədəni mərkəzlərini gəzib-dolaşmış, bir tərəfdən elmləri öyrənmiş, digər tərəfdən isə öz biliklərini həvəslə başqalarma öyrətmiş, müxtəlif tədris müəssisələrində müəllimlik, müdərrislik etmiş, yaratdıqları əsərləri ilə insanlarm mənəvi inkişafma, əxlaq tərbiyəsinə qüvvətli təsir göstərmiş, əqli həyatın, mütərəqqi yaşayışın inkişafma kömək göstərmiş, Şərq-islam aləminin və ümumilikdə isə dünya mədəniyyətini zənginləşdirmişlər.

- Erkən orta əsrlər dövründə Azərbaycanda məktəb və pedaqoji fikrin inkişafı ümumtürk, ümumislam pedaqogikası və mədəniyyəti, ədəbiyyatı və fəlsəfəsi ilə sıx qarşdıqlı əlaqədə olmuş və bu əlaqələr Azərbaycan məktəb və pedaqoji fikrinin inkişafına qüvvətli təsir göstərmişdir. XI əsr ortaq türk alimlərinin, ensiklopedik zəka sahiblərinin - o c ümlədən Farabinin, İbn Sinanın, M.Kaşqarlımn, Yusif Xas Hacibin, Ədib Əhməd Yüknəkinin bədii-fəlsəfi, didaktik-pedaqoji əsərləri şəxsiyyətin formalaşmasmda, kamil insan yetişdirilməsində önəmli yer tutmuşdur. Azərbaycan məktəbi, təhsili və pedaqoji fikri ümumtürk, ümumislam mədəniyyətinin bir parçası kimi həm Şərq, həm də ümum bəşəri dəyərlərdən faydalanaraq öz milli inkişafını sürdürmüş, Şərq, Azərbaycan ruhunu saxlamış və dünya elm və mədəniyyətinə dəyərli töhfələr bəxş etmişdir.

- Yüksək mənəvi dəyərlərə, əxlaqi keyfiyyətlərə malik Azərbaycan xalqınm, onun yetişdirdiyi böyük alimlərinin gənc nəslin təlimi və tərbiyəsi haqqmda, kamil, hərtərəfli, ahəngdar inkişaf etmiş şəxsiyyətin yetişdirilməsi haqqmda çox əsrlik pedaqoji fikir və düşüncələri bu gün də aktual və əhəmiyyətlidir.

- Bu gün yeni məzmunlu, milli zəminə əsaslanan təhsil sistemimizin qurulmasmda, yeni pedaqoji təfəkkürün yaradılmasmda, təhsil islahatlarımn uğurla yerinə yetirilməsində, təhsilimizin dünya təhsil sistemi ilə bir sırada addımlamasında heç şübhəsiz klassik pedaqoji irsimizə, onun ən yaxşı ənənələrinə, erkən orta əsrlər Azərbaycan pedaqoji fikrinə, fəlsəfəsinə müraciət edilməlidir. Uzun illərin smaqlarmdan çıxmış Azərbaycan məktəbinin təcrübəsindən, mütəfəkkirlərimizin zəngin pedaqoji irsindən, dövrün mütərəqqi tərbiyə, təhsil nümunələrindən bəhrələnmədən, onlara əsaslanmadan bu günün pedaqoji problemlərini uğurla həll edə bilmərik.

- Yüksək mənəvi, əxlaqi dəyərlərə malik müdrik xalq pedaqogikamız bütün dövrlərdə nəsillərin tərbiyəsində ən yaxşı müəllim-tərbiyəçi olmuşdur.Bu müdriklik xəzinəsindən hər kəs öz payını götürmüşdür.

Milli ruhlu gənclərimizin tərbiyə və təhsilində, milli-mənəvi dəyərlərə malik, vətənpərvər, öz soykökünə bağlı övladlarımızın yetişdirilməsində tükənməz el xəzinəsindən, Dədə Qorqud pedaqogikasından, Oğuz dastanlarından, milli adət və ənənələrimizdən, müqəddəs dinimizin hökmlərindən, klassik ədəbiyyatımızdan, tarixi şəxsiyyətlərimizin nümunəsindən, dövlətçilik ənənələrimizdən geniş istifadə etməliyik.

# İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT

## Azərbaycan dilində ədəbiyyat

1. Abdulla Şaiq. Xatirələr// Azərbaycan jurnalı, 1954, Ne Il,s.l4-18
2. Abdullazadə G.A.Qədim və orta əsrlərin musiqi mədəniyyəti Bakı, Qartal, 1996.
3. Ağayev Ə.Ə.Azərbaycan ictimai-pedaqoji fikrində şəxsiyyətin formalaşması problemi. Bakı:Avrora, 2005, 288 s.
4. Anar.Dədə Qorqud dünyası//Azərbaycan jurn. 1985, Nell.
5. Azərbaycan tarixi. Yeddi cilddə. I, II c. Bakı, Elm, 1998.
6. Azərbaycan klassik ədəbiyyatı kitabxanası. 20 cilddə.II c.Bakı, Elm, 1989.
7. Bakıxanov A.A. Gülüstani - İrəm: Bakı, 1951.
8. Bünyadov Z.M. Azərbaycan VII-IX əsrlərdə. Bakı: Elm, 1989.
9. Bünyadov Z.M.Azərbaycan Atabəylər dövləü.Bakı, Elm, 1985
10. Əhmədov H. M. Azərbaycan məktəb və pedaqoji fikir tarixi. Bakı: Təhsil, Elm, 2001.

11. Əliyev H. Ə. «Kitabi Dədə Qorqud» dastanlarmm 1300 illiyinə həsr olunmuş təntənəli yubiley mərasimində nitq.«Respublika» qəz.Bakı, 11 aprel, 2000-ci il
12. Əliyev H.Ə. «Kitabi Dədə Qorqud» dastanlarınm 1300 illiyi haqqmda Azərbaycan Respublikası Prezidentinin Fərmam. «Respublika» qəz. Bakı, 1997, 21 aprel.
13. Əliyev H.Ə. Müstəqil Azərbaycan Respublikası Gənclərinin Birinci Forumunda nitq. «Azərbaycan» qəz. Bakı, 1996, 6 fevral.
14. Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir. Bakı, Azərnəşr, 2005.
15. Əliyev V.Q. Gəmiqaya abidələri. Bakı: Azərbaycan Dövlət nəşrijryatı. 1992.
16. Əlizadə S. M. Oğuznamə. Bakı: Yazıçı, 1987.
17. Əlibəyzadə E.M. Azərbaycan xalqırun mənəvi mədəniyyət tarixi (İslamaqədərki dövr). Bakı: Gənclik, 1998.

18. Əmin Abid.Türk el ədəbiyyatına baxış//Dan ulduzu jurn.1929, N°5.
19. Faruq Sümer. Oğuzlar. Bakı: Yazıçı, 1992.
20. Fəzlullah Rəşidəddin. Came ət-təvarix.Bakı, 1957,
21. Füzuli. Əsərləri. Beş cilddə. I c.Bakı, 1958.
22. Hacı Sabir Həsənli. İslam mədəniyyətində elm.Bakı: Elm və həyat, 1998. N»5
23. Hacıyev İ.M., Məmmədov Ş.A. Naxçıvan və naxçıvanlılar. Bakı: Elm, 2001.
24. Həbibbəyli İ.Ə. Şərqin qapısmda Naxçıvan. Y.Məmmədəliyev adma Naxçıvan Dövlət Universitetinin «Elmi əsərləri».1999, Ne 5.
25. Həşimov Ə.Ş. Azərbaycan xalq pedaqogikasmm bəzi məsələləri. Bakı: Maarif, 1976.
26. Hüseynzadə L.T.,Hüseynzadə R.L. Qaraqoyunlu Cahanşah Həqiqi. Bakı: Çənlibel, 1999.
27. Hüseynzadə R.L. Beyrək Quşçuoğlu «Pedaqoji tədqiqatlar» 1998, Nal

28. Hüseynzadə R.L.Erkən orta əsrlərdə Azərbaycanda məktəb və pedaqoji fikir. Bakı, Elm, 2005.
29. Hüseynzadə Ə.Tədris tarixinə dair nadir fərman.Bakı, Gənclik, 1968.
30. Xacə Nəsirəddin Tusi. Əxlaqi Nasiri. Bakı: Elm, 1989.
31. Xaqani Şirvani.Seçilmiş əsərləri.Bakı, 1956.
32. Imadəddin Nəsimi. Mən bu cahana sığmazam. Bakı, Gənclik, 1991.
33. Jan Şardən.Səyahətnamə. Bakı, Elm, 1994.
34. Kazımov N. M. Ali məktəb pedaqogikası.Bakı: Nicat, 1999.
35. Kərəmov N.M.Odlar yurdunun səyyah və coğrafiyaşünasları. Bakı: Azərbaycan Dovlət Nəşriyyatı, 1984.
36. Kitabi Dədə Qorqud.Bakı, Yazıçı, 1988.
37. Köprülüzadə Məhəmməd Fuad. Azəri ədəbiyyaüna aid tədqiqlər.Bakı: Sabah, 1996.
38. Qaralov Z.I. Nəsirəddin Tusinin elmi-pedaqoji irsinin öyrənilməsi haqqmda//Azərbaycan məktəbi jurnalı, 2001, Ne 1, s. 101-112
39. Qabusnamə. Bakı, Azərnəşr, 1963.
40. Qumilyov L.N. Qədim türklər. Bakı: Gənclik, 1993.
41. Qədim türk abidələrinə aid materiallar (Əhməd Yüknəki. Atabətül Həqayiq) Tərtib edənlər, giriş və izahlar: prof. N.Xudiyev, dos. Ə.Quliyev. Bakı: API-nin nəşri,1993.
42. Quran-i Kərim. Bakı: Azərnəşr, 1992.
43. Qacar Ç.Azərbaycanm görkəmli şəxsiyyətləri. Bakı, Nicat, 1997.
44. Mahmud Kaşqari. Divanü Lüğat-it - türk.4 cilddə (Tərcümə edən və nəşrə hazırlayan Ramiz Əskər) Bakı, Ozan, 2006.
45. Mahmudov M. R.Xətib Təbrizi. Həyat və yaradıcılığı. Bakı: Elm, 1972.
46. Mahmudov M.R.Ərəb dilli Azərbaycan ədib və şairləri.(VII-XII əsr) Bakı, 1983.
47 Mənzum Oğuznamə. Bakı: Ulu, 2005.

48. Məmmədəliyev V.M.Ön söz / Qurani-Kərim. Bakı:Azərnəşr, 1992, s.V- XXXII.

49. Məmmədəliyev V.M. Redaktordan/Hacı Əbdürrəhman Yusifpur. İslamda tərbiyə və uşaq psixologiyası. Bakı:Nafta-pres, 1998,s.3-5.

50. Məmmədəliyev V.M.,Məmmədəliyeva Q. «Məsnəvi» mənzum təsəvvüf ensiklopediyasıdır. Ədəbiyyat qəz.3 avqust, 2007-ci il.

51. Məmmədov Z. C. Bəhmənyarm fəlsəfəsi. Bakı: Elm, 2005.

52. Məmmədov Z.C. Orta əsr Azərbaycan filosofları və mütəfəkkirləri.Bakı, Azərbaycan Dövlət nəşriyyatı, 1986.

53. Məhəmmədəli Tərbiyət. Danişməndani-Azərbaycan. Bakı, Azərnəşr, 1987.

54. Mehdizadə M.M. Azərbaycan Sovet məktəbinin tarixinə dair xülasələr. Bakı,Azərnəşr, 1959.

55. Mehmet Rıhtım. Seyid Yəhya Bakuvi və xəlvətilik. Bakı, Qismət, 2005

56. Mollayev İ.A. Orta əsr Azərbaycan mütəfəkkirləri təlim -tərbiyə haqqmda.Bakı, Maarif,1996.

57. Nizami Gəncəvi. İskəndərnamə. Bakı, Yazıçı, 1982.

58. Nizam-ül-mülk. Siyasətnamə.(Farscadan tərcümə, əsər və müəllif haqqmda qeydlər R.Sultanovundur) Bakı: Elm, 1989.

59. Oğuznamə. Çapa hazırlayam, müqəddimə, lüğət və şərhlərin müəllifi Samət Əlizadə. Bakı: Yazıçı, 1987.

60. Oğuznamələr. Tərtibçsilər və ön sözün müəllifləri: K. Vəliyev və F.Uğurlu. Bakı: Bakı Universiteti, 1993.

61. Pənahi Makulu. Ədəbi məlumat cədvəli.Bakı: Azərbaycan SSR Elmlər Akademiyası, 1962.

62. Piriyev V.Z.Azərbaycanın tarixi coğrafiyası. Bakı, Araz, 2002.

63. Piriyev V.Z.Məhəmməd İbn Hinduşah Naxçıani.Bakı, Elm, 2001.

64. Rəcəbov Ə.Ə., Məmmədov Y. Q. Orxon- Yenisey abidələri. Bakı: Yazıçı,1993.

65. Rüstəmov F.A.Pedaqogika tarixi. Bakı: Nurlan, 2006.

66. Seyidov Ə.Y.Pedaqogika tarixi. Maarif, 1968.
67. Seyidov F.Ə. Soy kökümüzdən gələn pedaqoji fikir. Bakı: 2004.
68. Seyidov F.Ə. Türk xalqlarının tərbiyə və məktəb tarixinə dair. Bakı: Sevinc, 1997.
69. Süleymenov O. Az-Ya.Bakı, Azərbaycan Dövlət nəşriyyatı, 1993.
70. Səfərli Ə.N., Yusifov X. Q. Qədim və orta əsrlər Azərbaycan ədəbiyyaü. Bakı: Ozan,1998.
71. Şəfizadə B.C. Azərbaycan ədəbiyyat tarixi. Bakı: Adiloğlu, 2003.
72. Şərifli M.X. IX əsrin II yarısı, XI əsrlərdə Azərbaycan feodal dövlətləri. Bakı: «Elm», 1978.
73. Şükürlü Ə.Qədim türk yazılı abidələrinin dili.Bakı, Maarif,1993.
74. Şeyxülislam Allahşükür Paşazadə. Qafqazda Islam:Tarixilik və müasirlik. Bakı:Azərbyacan Dövlət Nəşriyyaü, 1991.
75. Talıbov Y.R., Sadıqov F.B, Quliyev S.M. Azərbaycanda məktəb və pedaqoji fikir tarixi. Bakı: Ünsiyyət, 2000.
76. Təbrizi Q. Divan. Fars dilindən çevirəni Qulamhüseyn Beqdeli.Bakı: Az.SSR EA. 1967.
77. Vəlixanlı N.M. X-XII əsr ərəb səyyahları və coğrafiyaçıları Azərbaycan haqqmda. Bakı: Elm, 1974.
78. Yəqubi Ə.R.Seçilmiş əsərləri.Azərbaycanda təlim-tərbiyə mədəniyyəti, təhsil və pedaqoji fikir tarixi.Bakı: Nurlan, 2005.
79. Yusif Balasaqunlu. Qutadqu bilik. Xoşbəxtliyə aparan elm. Bakı: Azərnəşr, 1994.
80. Zəkiyev İ.Ş.Azərbaycan kitabı IX-X əsrlərdə// BDU-nun «Dil və ədəbiyyat» jurnalı, 2006, Ns 5, s.183-188.

## Türk dilində ədəbiyyat

81. Abdurrahman Yıldız, Rifat Latifoğlu Hüseynzade.Oğretmen-öğrenci ilişkiləri.Türkiye, Adana: 1998.
82. Abdükadir Sezgin. Hacı Bektaş Veli ve Bektaşilik.İstanbul, 1991.
83. Ahmet Çelebi. İslamda eğitim-öğretim tarihi. İstanbul: «Damla yayın evi», 1983.

84. Devletşah. Tezkireyi Devletşah. Istanbul, 1990
85. Akyüz Yahya. Türk eğitim tarihi. Ankara: 1989.
86. Ebubekir Razi.Filozofca yaşama.İslam filozoflan felsefe metnleri içinde.(çev.MahmutKaya) İstanbu,1998.
87. Farabi. Mədinətül-Fazila (çev.Nafiz Danişman). İstanbul: Maarif, basınevi, 1956.
88. Farabi. İhsa'ul-ulum (Ilimlerin sayımı). Çev. prof. Ahmet Ateş. İstanbul: 1990.
89. Fahrettin Olgüner. Uç türk mütefekkiri. Ibn Sina, Fahreddin Razi, Nasireddin Tusi düşüncesinde varoluş.Ankara, 1985.
90. İslam türk ansiklopedisi. İstanbul, 1987.
91. Kaşgarlı Mahmut. Divanü luğat-it türk. 3 cilddə.p Çeviren Besim Atalay.Ankara: Türk Dil Kurumu yaymları, 1985.
92. Kitabi-site.Ankara Akçağ, 3 cilt. 1988.
93. Mövlana. «Divan-i Kəbir». 5 cilt, Eskişehir, 1992.
94. Mövlana. Mesnevi.6 cild.İstanbul, 1988.
95. Riyazü-s -Salihin. Istanbul: Hisar yayın evi, 3 cilt
96. Reşid Renmeti Arat. Atebetül-Hakayik. Ankara, 1992.
97. Orhun abideleri.(Tertibçi Muherrem Erkin)XIII baskı.İstanbul, 1995.
98. Orhan Şaik Gökyay. Dedem Korkudun kitabı.İstanbul, 1973.

99. Osmanlı devleti ilə Azerbaycan türk hanlıkları arasındakı münasibetere dair arşiv belgeleri. (Karabağ-Şuşa,Nahçıvan, Bakü, Gence, Şirvan, Şeki, Revan, Kuba, Hoy). Ankara,1993.

100. Osman Turan .Türk cihan mefkuresi tarihi. Istanbul, 1990.

101. Türk tarihi ansiklopedisi.Türkiye, 1991.

102. Uygurca Oğuz destanı.Türk dünyası dergisi, 1992, Ne 64.

103. Süleyman Uludağ.Tasavvuf terimləri sözlüğü. Istanbul, 1991.


## Rus dilində ədəbiyyat


104. Ajib-OapaÖH. HayqHoe TBopnecTBO. CöopHHK CTaTefi. MocKBa: 1975.

105. Ahaphhhob B., MnpajıaMOB T. Iefiqap AjıneB. 3Ch3hb 3aMeHaTejiHMx jnofleö. MoCKBa,MoJiofla« rBapflHH, 2005.

106. Anıypöefijffl Capa.OnepK HCTopnn cpeflpeBeKOBoro BaKy. Baıcy, 1964.

107. BaKHxaHOB A.A. COH. 3anHCKH, nncı>Ma. EaKy: 1967.

108. EapTOJib,a; B.B.TypeııKnfi эnoc «KaBKa3 KHHra Moero fle/ja KopKya;a». MocKBa: 1962.

109. BaxMaHap Anb-A3ep6afiA»caHH-AT-TaxcHJi (Ü03HaHHe). KHHra I-II nep.c apaöcKoro BBOflHaa CTara H KOMMeHTapHH A.B.Cara^aeBa. Baıcy: EJIM, 1983.

110. Beprejıtc E. 3. Cy<})H3M H cy<j)HficKaa JiHTepaıypa. MocKBa: 1965

111. EYHHHTOB 3.M. A3ep6afifl»caH B VII-IX BB. Eaıcy: 1965.

112. 34>eHflHeB H.K.HCTOPHH MeflHiiHHbi B A3ep6afizü»caHe.EaKy, 1961.

113. Haryr AJI XaMaBH. Myzıaca M Ajı-EyımaH. (CBeaeHHH 06 A3ep6afizıacaHe). üepeBOfl c apaöcKoro 3. M. ByHHHTOBa H n. K. 3Cyse. EaKy: 3JIM, 1983.

114. KpaMep C. H. HcTopna HaaHHaercH B IIIyMepe. MocKBa: Hayıca, 1965.

115. Kpa^KOBCKH H.IO.Häöp.COT. T.II. M:,JI:1956 332

**116. KyöecoB A. üeflaroniHecKoe Hacjıefljıe anb-Oapaön. AnMa-Ara, 1989**

**117. CaraaaeB A. B.H6H CHHa(ABHiı;eHa) II H3fl.MocKBa: MMCJIB, 1985.**

**118. CaflH. ryjiHCTaH. MocKBa,1959.**

**119. 0a3jıajuıax Parnn^ a^ -/JHH Ory3-HaMe. BaKy: EJIM, 1987 .**

**120. IIIepöaK A. M. «Ory3HaMe»,«Myxa66ar-HaMe» MocKBa: H3^-bo BOCTOHHOH JiHTepaTypw, 1959.**

## Ərəb, fars diliıdə və ərəb əlifbasında Azərbaycan dilində ədəbiyyat

**IjSuaıj-a'.bbıll ^Jİ jlj^ JÄJ ^jjll JaLaı ^jjui.l—lllaäJl jjjjll. 121**
**) y ? jä (Jjljj ^jLkı-jljS**

Luii I jjjfj^ . **dülj** e^juoS .L_**ulaäJl ^jjjjll** .122
**^ X t_ı _jüjjLlj^jjs jVLojUll jjjjjluüj**

**^jYSlli 1 lfl (JjjuLaJ ( Aijj jJİ SjuoLa ^jA ■' .123**

**ejlaajıll AjLlla-a 4 jf jaJlt(jiılall ç^L^a I '. 'J'fl'' (—IjjääJl ^jjjjjll .124**
) ^ V X ıjuu ^Jääla-a jl JŞJ

Uf XeJ&üllјiJİjjL^SJl cj^.ı-jjJaäJl u5jjjjll 125.

**ıjjS^j '^Loj ^joıLoaJl jljjj *''. J¹ ^ jjjjjl I 126**

**) A Y A jjll n_Sljjljä ^İaJj j J (Jİ^9LJ(11( Jı^axll (J^l ej_aC. j JuoSll ^J-oJ-**
**(jjüiaJl jJİ 4_sjjiljll .127**

nv.

r. JuAyJjjjjüüljV LajUjl jSb.Ljjj. ^Wç. 128 . 1 c . ^lil-^l^l Jl

cjä JJJI 129 ASejj **.nW**.jVLajjJI (**jSU.jjjj** -Çjl J«A£l30 11V1

«j^jg*.Jj''''-'* **.j^J'''^.'** .131

((İJİÜİI J (jiljll j ljşJl-^jjj*ll Ai]]l (_ıhl ^jjIj- jİAjj jrja. .132
**UÄVejAtfll (J^Jjjb**

^ Yf j£U , (JiAa ■ ''Jİ .jjjSj aJİjjUja. .133 U?f 'jjjjJİ'JjVI ^JI. jl^İJİI .(^jäJI cjjilı

.134 ^ - 1 3 5

(Lauo,jU j UjUüUjil) ^ ».jj-a.^Y.u-aVAn^

(j^-JL''-'+) u ^f ^j^J'.ts5 ts25 J-3-* ■ 136 % • (jlj^j .jllalK JIC.jljaaJj3 L-£jJJ JJJJj-a JjSI j
s—^ - . 137

. jU(_gLoJa£. j ^ «lr. 4jljjjj j ■ (^AjaıjAa ^LuıS iiljjj .138
(mr)UA? jij^j
\ ^VT j IJ^J. ^ljajki. iJö^ı-ujjj. jljp . csj^jfi.ü'J^ .139
I f ıjSU . .^^äjjU (jjyjJj J AJJJJ .tlıjSa (JıJi. .140

**RÜFƏT LƏTIF OĞLU HÜSEYNZADƏ**

**QƏDİM VƏ ERKƏN ORTA ƏSRLƏRDƏ AZƏRBAYCANDA TƏRBİYƏ, TƏHSİL VƏ PEDAQOJİ FİKİR**

**(Azərbaycan dilində)**

**Bakı - 2007**

Hazır diopozitivlərdən çapa imzalanmışdır: 28.08.2007.
Nəşrin ölçüsü: 60x90 1/16.
Fiziki çap vərəqi: 21,0. Sifariş: 96. Sayı: 500 ədəd.
Müqavilə qiymәti ilә.

NURL
AR
NƏŞRİYYAT-POL
İQRAFİYA
MƏRKƏZİ

Bakı, Az1122, Zərdabi pr. 78 / Tel: 4977021 Faks: 4971295 / E-poçtu: office@nurprint.com